*İSBN:978-9952-539-09-7*



# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Qlobal çağırışlar və perspektivlər" mövzusunda Respublika elmi-praktik konfransının materialları

**22 may 2024-*ci il***

**Bakı-2024**

**Qərbi Kaspi Universiteti**

**TƏŞKİLATI VƏ ELMİ KOMİTƏ**

**professor Hüseyn Bağırov** – Qərbi Kaspi Universiteti Qəyyumlar Şurasının sədri

R. Bağırov - Qərbi Kaspi Universitetinin İcraçı Prorektoru
b.ü.f.d., S. Ağayeva - Qərbi Kaspi Universitetinin Elmi işlər üzrə prorektoru
s.ü.f.d., dos. S. Sadıxbəyova- Qərbi Kaspi Universitetinin Auditoriyadan kənar işlər üzrə prorektor
i.ü.f.d G. Məmmədova - Qərbi Kaspi Universitetinin Elm və innovasiya şobəsinin müdiri
i.e.d. professor S. Pürhanı - Qərbi Kaspi Universitetinin "Turizm və sahələr Iqtisadiyyatı" kafedrasının müdiri
A. Əsədova -
M. Əlizadə
A.Abbasova
B. Isagova
T. Cabarova
Ü. İmamzadə
S. Mustafazadə
G. Qasımova
*B. Məmmədli* - Qərbi Kaspi Universitetinin Mətbəənin direktoru
*S. Məmmədli* - Qərbi Kaspi Universitetinin Dizayneri

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Qlobal çağırışlar və perspektivlər" mövzusunda Respublika elmi-praktik konfransının materialları. 22 may 2024-ci il. QKU, -2024. – c.365*

***İSBN:978-9952-539-09-7***

*Materiallardan istifadə zamanı jurnala istinad zəruridir.*

©*: Qərbi Kaspi Universiteti*

# MÜNDƏRİCAT

## TARİX, BEYNƏLXALQ MÜNASİBƏTLƏR, POLİTALOGİYA


**ADGÖZƏLOVA Aliyə Rzaqulu**
*Gəncəbasarın Alban dövrü xristian abidələri*.................................................... **15**

**AĞAYEV Emil Raul**
*"Düşüncə tərzi nəzəriyyəsi" və təsviri sənət fənninin tədrisində əhəmiyyəti*...... **17**

**AĞAYEV Vüsal Firdovsi**
*Xx əsrin 20-30-cu illərində Şimali Qafqaz xalqlarının ictimai-siyasi vəziyyəti.* **19**

**MAGOMEDOVA Aida Ali**
*Geosiyasətdə nəqliyyat dəhlizləri*.................................................................. **20**

**АЛЫШАНОВА Лариса Алексеевна**
*Из истории ликвидации отношений, созданных национализацией нефтяной промышленности азербайджана (1918-1919 гг*.......................... **23**

**ALIYEVA Səbinə Səbuhi**
*Nadir Şah Əfşarın ordu quruculuğu vətən tarixşünaslığında*............................ **24**

**MƏMMƏDOVA Aygün Musa**
*Azərbaycan numizmatikasının unikal faktları: Naxçıvan sikkələri*..................... **26**

**SÜLEYMANOV Mübariz, ƏLƏKBƏROVA Aygün**
*Azərbaycan tarixi tədrisində ikt-dən istifadənin zəruriliyi*................................. **28**

**BAGIROVA  Ulviyya Ibrahim**
*Review of the Georgian-south ossetian conflict of 1991-1992: Russian participation in its resolution*……………………………………………………. **29**

**MƏMMƏDLİ Balamirzə Aydın**
*2001-ci il 11 sentyabr teraktından sonra ABŞ-Azərbaycan münasibətləri vətən tarixşünaslığında*........................................................................................ **31**

**BAYRAMOVA Günay**
*Son tunc – erkən dəmir dövrü bəzək əşyalari (Naxçıvan MR arxeoloji materialları əsasında)*........................................................................... **34**

**BEYDULLAZADƏ Vüsalə Fazil**
*Azərbaycan arxeologiyasında orta əsr inşaat keramikası*................................. **36**

**MƏMMƏDOVA Bədircahan Əmrulah**
*Minbərək arxeoloji irsi*........................................................................................ **38**

**CƏFƏROV Samir Rüfət**
*XIX əsrin I yarisinda ermənilərin Şimali Azərbaycana köçürülməsi.................* **40**

**ALIVERDIYEVA Tarana Aliverdi**
*Inactivity of the OCSE Minsk group in resolving the Karabakh conflict………* **42**

**SÜLEYMANOVA Güntəkin Əli**
*Çeçenlərin və İnquşların deportasiyası və reabilitasiyası..................................* **45**

**ХАЯТОВА Фирузе**
*Язык как основа этнической культуры.........................................................* **47**

**KHUDAVERDIYEV Elvin Elshen**
*Multiculturalism in modern western europe against the backdrop of global challenges……………………………………………………………………………….* **48**

**İSAQOVA Bahar Usub**
*Ulu öndər heydər əliyevin təşəbbüsü ilə azərbaycan dilinin dövlət dili kimi taninmasi…………………………………………………………………………………* **51**

**MƏLİKOV Ələddin Mehman**
*Sokratın mühakiməsi və şəhadəti.......................................................................* **52**

**MUSTAFAYEVA Günəş Novruz**
*Türk dillərində Umay Ana…………………………………………………………..* **54**

**NƏCƏFOVA Gülzər İlqar**
*Bəhmən Mirzə Qacar Qovanli..........................................................................* **56**

**NOVRUZOVA Aysel Zabit**
*Çöllər İmperatorluğu.........................................................................................* **58**

**ƏLİYEVA Nuridə Rüstəm**
*Dağlıq Qarabağın sovetləşmədən sonrakı inzibati ərazi bölgüsü və demoqrafiyasına dair..........................................................................................* **59**

**QASIMOVA Sənubər Abbas-Ağa**
*Azərbaycanın görkəmli şəxsiyyətlərinə həsr edilmiş medallar (Hüseyn Cavid, Səttar Bəhlulzadə və İlyas Əfəndiyev)...............................................................* **62**

**ABDULLAYEVA Sevda**
*Böyük türkçü Əhməd Ağaoğlu və Türkçülük ideologiyası...............................* **63**

**SƏLİFOVA Hənifə Yusif**
*Elçinin "Qarabağ şikəstəsi" hekayəsində həyat gerçəklikləri...........* **66**

**ORUJOVA Sugra Askar**
*Historical geographical issues in the cities and regions of Karabakh which were implemented by Hayder Aliyev and İlham Aliyev (especially concerning the city of Shusa)*……………………………………………………………. **68**

**QURBANOVA Şəhla Elçin**
*Müasir dövrdə Azərbaycanın Türk dünyası ilə mədəni münasibətlərinin inkişaf perspektivləri*........................................................................................... **70**

**ƏSƏDİ Samirə Firudin**
*Aqrar sahənın inkişaf tarixinə dair*...................................................................... **72**

**HANAN** Yousuf Khalifa Al-Malki
*Omanın xarici siyasəti, coğrafiyası və prinsipi*………………………………… **76**

**HANAN** Yousuf Khalifa Al-Malki
*The bilateral relationship between the sultanate of Oman and the republic of Azerbaijan*……………………………………………………………………. **77**

## ƏDƏBİYYATŞÜNASLIQ„ FİLOLOGİYA, PEDAQOGİKA, DİZAYN

**ƏKBƏROVA Flora Səməndər**
*İngilis dilində iqtisadi mətnlərin praqmatik xüsusiyyətləri*............................... **81**

**HÜSEYNOVA Fəridə Məşi**
*İngilis dilində mədəniyyətlərarası ünsiyyət bacarıqlarının qiymətləndirilməsi*..................................................................................................... **83**

**HAMIDOVA Tovus**
*The ındefinıte pronoun ‘one” ın the englısh language*……………………….… **85**

**ABBASOVA Şəlalə Rəşid**
*Pərinuş Səniinin “mənim payım” və ayşə kulinin “handan” romanlarında Türkiyə və İran cəmiyyətindəki qadınların kimliyi*.......................................... **86**

**GÜNƏŞLİ Aynur Cavanşir**
*Atalar sözlərində sintaktik paralelizm*.............................................................. **88**

**HƏSƏNOVA Nərmin Tərlan**
*İsa Muğannanın “saz” povestinin ideya-estetik səciyyəsi*................................. **91**

**ИБАДОВА Тюркан Сурхай**
*Гендерные коннотации в паремиологии русского языка*............................... **93**

**ŞIXƏLİYEVA Könül Zaur**
*Uşaqların nitqinin inkişafında müəllim, tərbiyəçi və valideynlərin rolu*............ **95**

**VƏLİYEVA Kübra Sabir**
*"Şərhu radi aləl-kafiyə fi ilmin-nəhv val- irab" əsərində "hal zərfliyi" mövzusu*...................................................................................................... 98

**ORUCOVA Jalə Aydın**
*Bayram və rəsmi günlərdə xalçalardan istifadə*................................................ 100

**LƏTİFLİ Seyidnisə Bəxtiyar**
*Cəmşid Əmirovun "brilyant məsələsi" povesti detektiv nəsrin bədii nümunəsi kimi*...................................................................................................................... 102

**MUSTAFAYEVA Səidə Əhməd**
*Müasir Azərbaycan hekayəsində intertekstuallıq (Kamal Abdulla hekayələri əsasında)*.................................................................................................................. 105

**ƏLİYEV Şakir Rüstəm, ƏLİYEVA Gülnarə Nurəddin, ƏSGƏROVA Radə İsfəndiyar**
*Geyim modelinin layihələndirilməsində erqonomika anlayışı və onun funksiyası* 107

**İMANZADƏ Ülkər Seymur**
*Inclusıve educatıon polıcy at secondary schools ın azerbaıjan*.......................... 109

**ƏBİLOVA Zülfiyyə Məmməd**
*Отличительные особенности азербайджанской модели мультикультурализма*...................................................................................... 112

**ИСМАИЛОВА Сона Тариел**
*Роман о гувернантке (на материале романа энн бронте «агнес грей»)*...... 115

**HƏSƏNOVA Qəmər Məhəmməd**
*"Alman memarlarının Azərbaycan memarlığına vermiş olduğu tövhələr"*...................................................................................................... 116

**MƏMMƏDOVA Sevinc Rövşən**
*Şəki ipək tarixi*...................................................................................................... 119

**XƏLİLOVA Nəzrin Sadiq**
*Müasir texnologiyaların interyer dizayna təsiri*.................................................. 121

**MƏMMƏDOVA Sevinc Rövşən**
*Dizaynda modern üslub*....................................................................................... 123

**MUSTAFAZADƏ Səba Araz**
*Kommunikativ qrammatikanın tədrisində müstəqil işin rolu*............................. 124

**ПОЛАДОВА Сабина Эльхан гызы**
Взаимоотношение системы - нормы - речи: орфофония английского языка…………… 126

**CƏFƏROVA Aytən Rafail qızı**
*Dünyanın dil mənzərəsi anlayışı*………………………………………………. 130

## PSİXOLOGİYA


**ƏFƏNDİYEVA Gülsüm**
*Psixologiya tələbələrdə yaddaş və həyəcan göstəriciləri*.................................. **134**

**AĞAZADƏ Fidan**
*Şagirdlərin fərdi xüsusiyyətlərinin onların peşə hazırlığına təsiri*............................ **136**

**AĞAMALI Günay Fəzail**
*Təfəkkürün müstəqilliyinin inkişaf etdirilməsi yollarına dair*............................ **139**

**HÜSEYNLİ Cəmilə Vidadi**
*Kiçik yaşlı məktəblilərdə rast gəlinən hüquqa zidd davranışın təsnifatı*............ **142**

**İBADOV İbad Müşfiq**
*Yetkinlik yaşına çatmayan şəxslərin mülkiyyət əleyhinə cinayətlərinin motivləri*........................................................................................................ **144**

**ƏLİYEVA Şərqiyyə Xətai**
*Sosial fobiyanın yaranmasında cinsiyyətin rolu*................................................ **147**

**İSLAMZADƏ Zöhrə Fateh**
*Uşaqlıq təşvişi və irsi faktorlar*........................................................................ **149**

**QƏNBƏRLİ Ülkər Qaraş**
*Tələbələrdə ümumi həyəcan və depressiya göstəricilərinin tədqiqi*................... **152**

**İBAYEVA Lalə Elman**
*Uşaqlıq dövrü psixoloji travma təcrübəsi və diqqət səviyyələri arasındakı əlaqənin tədqiqi*..................................................................................... **154**

**MƏMMƏDOVA Leyla İlqar**
*Somatik xəstəliklərin yeniyetmələrin həyat keyfiyyətinə təsiri*........................... **156**

**MAGOMEDOVA Aynura Ali**
*18 yaşlı tələbələrin həyəcan göstəricilərinin tədqiqi*.......................................... **161**

**MEHTİZADƏ Şövkət Fayiq**
*Təşvişin məktəblilərin müvəffəqiyyət göstəricilərinə təsiri*................................ **162**

**MƏMMƏDOVA Zeynəb Sabir**
*Tələbələrdə görmə yaddaşinin tədqiqi*.............................................................. **168**

**MUSTAFAZADƏ Nazrin**

*The vital link between sleep and cognitive functioning*....................................... 169

**BAĞIROVA-KƏRİMLİ Nərgiz**
*Asılılığın insan davranışına təsiri*....................................................................... 172

**RƏHİMLİ Rəna Bəxtiyar**
*Uşaq və yeniyetmələrdə təşviş pozuntularının ümumi xarakteristikası*.............. 176

**RÜSTƏMLİ Ruslan Fərahim**
*Ailə-məişət münasibətləri zəmnində törədilən cinayətlərin kriminoloji və sosial-psixoloji aspektləri*........................................................................... 180

**NAĞIYEVA Səkinə İntiqam**
*Tələbələrdə depressiya səviyyəsinin təyini*...................................................... 182

**ALİYEVA Samira**
*The ınfluence of parent-chıld attachment on chıld development*......................... 185

**ƏSƏDBƏYLİ Şəlalə**
*İntihar hallarını yaradan səbəblər. İntihara aparan psixoloji amillər*................ 187

**ŞIXƏLİYEVA Könül Zaur**
*Uşaqların nitqinin inkişafında müəllim, tərbiyəçi və valideynlərin rolu*............ 190

**ƏZIMOVA Solmazxanım Mirqədir**
*Doğum sonrası depressiyanın klinik-psixoloji xarakteristikası*......................... 193

**MUSAYEVA Aytən**
*Qadınların və hamiləlik dövründə uşaqlara psixoloji münasıbətın öyrənılməsı*..................................................................................... 196

**NƏBİLİ Muxtar Tahir**
*İdentiklik probleminə sosioloji baxış*.................................................................. 200

**SƏMƏDOV Azər Aqil**
*Mülki prossesdə məhkəmə psixiatriya ekspertizasının tədqiqi*........................... 203

**NƏZƏRLİ Rövşən Abdulla**
*Tələbələrin uğur qazanmasını şərtləndirən amillərə dair* .................................. 206

**BAĞIROVA-BABAZADƏ Günay Kamran**
*Psixoloji stressin insanın immun sisteminə təsirinin dəyərləndirilməsi*............. 209

## TƏBİƏT ELMLƏRİ, İKT, MÜHƏNDİSLİK

**HACIYEVA Aybəniz Bəxtiyar , ƏLİHƏSƏNOVA Günay Firuz**
*Dendrologiya bağı ərazisinə introduksiya edilmiş dərman bitkilərindən efir yağının alınması və fitokimyəvi tədqiqi*................................................................ 211

**ABDDULLAYEVA Aysun Zahid , AĞAYEVA Səltənət**
*Üzvi maddələr və metobalizm*........................................................................ **214**

**AĞAZADƏ Ağgül Xankişi , KƏRƏMOVA Natavan**
*Elektromaqnit şüalanmanın mərkəzi sinir sisteminə təsiri*.................................. **216**

**VALİYEVA A.B., ABBASOV Mehrac**
*Study of dna extraction methods from dıary products: a revıew perspectıve*...... **218**

**HÜSEYNZADƏ Aişə Bahadır , ABASOVA Səbinə Aydın , FƏRZƏLİZADƏ Aysel Vüqar**
*Python's ınfluence: shapıng tomorrow's tech*........................................................ **220**

**QULUZADƏ Ayçilər Mübariz**
*Açıq mənbə kodlu proqramlar və e-təhsil sistemində istifadəsi*............................ **222**

**FƏRZƏLİZADƏ Günel Vüqar , RZAYEVA Aydan Elşad**
*Yağışdan elektrik enerjisinin alınması*................................................................ **224**

**HEYBATOVA Aynura Shamsaddin**
*Explorıng the ınfluence of ındustry 4.0 technology on supply chaın agılıty*......... **225**

**SÜLEYMANOV Mübariz, ƏLƏKBƏROVA Aygün**
*Tarix təlimində oyun texnologiyalarından istifadə olunmasına qısa nəzəri baxış* **229**

**ƏZİZOVA Şövkət Elxan**
*Bitkilərin məhsuldarlığında gübrələrin rolu*....................................................... **230**

**İSMAYILOVA GÜNEL. Q., ABBASOV MEHRAC**
*Soğan sortlarının molekulyar genetik tədqiqində ssr markerlərdən istifadə*....... **232**

**HƏBİYEVA Fəridə Firqət**
*Neyrodegenerativ xəstəliklərin yaranmasına təsir edən genetik amillərin tədqiqi* **233**

**FƏRZƏLİZADƏ Aysel Vüqar , HEYDAROV Rəşad Rüfət**
*Proqram vasitəsilə sos çağırışlar edilməsi*.......................................................... **235**

**BAĞIROVA Samirə Behbud, MEHRƏLİYEVA Hökümə İlham, MƏMMƏDOVA Şəlalə Abuzər, ALLAHVERDİYEVA Zəhra Namiq, AĞAMALIYEVA Aydan Qəhrəman**
*Abşeron şəraitində pinus longifolia roxb. növünün dendroxronoloji təhlili və inkişaf dinamikasının öyrənilməsi*.................................................................... **236**

**MEDETOV Kenan Eldeniz**
*Artificial ıntelligence (aı) in civil engineering and tekla structures*..................... **238**

**KƏRİMOVA Lalə Savalan**
*Abşeron yarımadasının palçıq vulkanları və onların ətraf mühitə təsiri*............. **240**

**ZEYNALOV RAMİN.M., IBRAGIMOVA MƏLAHƏT**
*Assessment of pressure loss in a gas pipeline under conditions of uncertainty information*……………………………………………………………………………… **243**

**RÜSTƏMOV Nicat Qulam**
*Kompüter şəbəkəsinin dizayn problemi*............................................................... **246**

**QƏLƏNDƏRLİ Fərid**
*Şəbəkə təhlükəsizliyi*.................................................................................... **250**

**GAFFAROVA Rahila Elchin**
*Development of the electronic government concept: the experience of the republic of Azerbaijan*......................................................................... **252**

**SƏFƏRƏLİYEVA Selcan Qalib, ƏLİYEVA Xədicə Həzi**
*Azərbaycanda pestisidlərin istifadəsi tarixi və hazırda istifadə olunan pestisidlər*.................................................................................................... **258**

**MƏMMƏDOVA Gülənay Akif**
*Xəzər qızılbalığının (Salmonidae) hazırkı vəziyyəti və akvakultura perspektivləri*................................................................................................. **260**

**XANİYEVA Səbinə Valeh**
*Bir sıra yerli yabanı bitkilərim biokimyəvi xüsusiyyətləri və onların istehsalının faydaları. Kəklikotu bitkisinin biokimyəvi xüsusiyyətləri*.................................... **262**

**Məmmədova Zeynəb.M., Rüstəmov İ.R., Rüstəmova N.M., İbrahimova G.Ə., Babayeva S.M.**
*Autizm spektr pozuntusu olan uşaqlarda neyropilin-2 RS849563 gen polimorfizminin tədqiqi*............................................................................... **264**

## İQTİSADİYYAT VƏ TURİZM

**BAĞIROV Mübariz Məmmədhüseyn, MUSAYEVA Nuridə Əhliyyət**
*Bank sistemində dayanıqlığın təmin edilməsinin dayanıqlı inkişaf çağırışları fonunda nəzəri-konseptual aspektləri*...................................................... **267**

**ALLAHVERDIYEVA Aytac İbrahim**
*Qarabağ regionunda əhalinin işlə təmin olunmasında aqrosənaye kompleksi siyasətinin həyata keçirilməsi*............................................................. **270**

**ƏLİYEV Anar Elçin**
*Bazar İqtisadiyyatı şəraitində maliyyə nəzarətinin təsirinin artırılması istiqaməti*.................................................................................................. **272**

**RÜSTƏMLİ Hüseyn Məmməd**
Current sıtuatıon of startups and startup ecosystem ın Azerbaıjan...................... **275**

**ƏLİYEVA Bənövşə Qurban**
*Azərbaycanda yaşıl iqtisadiyyatın inkişafının tarixi prespektivləri*.................... **277**

**CƏFƏROVA Gültəkin İkram**
*Davamlı turizmin inkişafı sistemində kənd turizmi*............................................ **280**

**ƏLİZADƏ Heybət Eldar , ƏLİYEV Ələsgər Mehti**
*Regionun davamlı inkişafı üçün idarəetmə vasitələrinin təkmilləşdirilməsi*........ **282**

**QULUZADƏ Fərid Rasim**
*İnnovativ inkişaf layihələrinin idarə edilməsi metodu*....................................... **284**

**CƏBRAYILOVA Fidan Valeriy**
*Qlobal maliyyə böhranından sonra azərbaycanda tətbiq olunan pul siyasəti*.... **287**

**MURADZADƏ Gülnar Salman, AĞAYEVA Xanım Yusif**
*Kiçik və orta sahibkarlığın inkişafı: real vəzıyyət və perspektıvlər*.................... **290**

**QASIMOVA Günay İmaməddin**
*Riyaziyyat təlimində axtarış metodlarından istifadənin pedaqoji-metodik əsasları*.......................................................................................................... **292**

**HACIMİRZƏYEV Fərid Vaqif**
*Azərbaycanda biznesin rəqabət mühitinin tənzimlənməsində dövlətin rolu*....... **294**

**HƏSƏNOV Həsən Elvir**
*The impact of artifical intellegence on management and economics*................... **295**

**HEYDƏROVA Fatimə Elçin**
*Müalicə-sağlamlıq turizm sənayesi*.................................................................. **297**

**HÜSEYNOV Cavid Dilqam**
*Dövlət maliyyə nəzarəti və onun büdcə vəsaitlərinin səmərəli istifadəsində rolu*.............................................................................................................. **298**

**MƏMMƏDOV Fərhan Rövnəq**
*Turızm destınasıyalarının ınfrasutrukturun formalaşmasına və ınkışafına təsırı* **300**

**ALCANSOY Elşən Gülməmməd**
*Qlobal çağırışlar fonunda beynəlxalq münasıbətlərın inkişafının insan resurslarının idarə olunmasına təsiri*.................................................................. **302**

**NƏSİBOV Röyal Mehman**
*Organization of museum management*.............................................................. **305**

**NİFTƏLİYEV Azad Nəriman , RAMAZANOV V.Z.**
*Regional istehsal kompleksləri üçün investisiya strategiyalarının formalaşdırılması*............................................................................................ 307

**ATAXANLI Nihad Nazim**
*Driving economic transformation: the impact of foreign direct investment on azerbaijan's diversification and development*...................................................... 309

**QASIMOV NƏCƏF. E.**
*Azərbaycanda turizm sahəsində sahibkarlıq fəaliyyəti və onun stimullaşdırılması*................................................................................................ 312

**ŞAHVERDİYEVA Səbinə Rasim**
*Virtual müəssisələr və qlobal rəqabətlilik strateji üstünlüklər və risklər*................. 314

**SƏFƏRLİ Nərmin Valeh**
*Azərbaycan teatrının maliyyələşməsi və bazar iqtisadiyyatında rolu*.................. 316

**CABBAROVA Şəhla Firuz**
*Rəqabətli uğuru təmin etmək üçün istifadə olunan strateji hr tətbiqləri*................ 317

**ŞÜKÜRLÜ Surə Təbriz**
*Towards a greener future: Azerbaijan's energy policy in focus*.............................. 319

**TAĞIYEV Elmir Zabit**
*Elektron biznesin inkişaf xüsusiyyətləri və əsas istiqamətləri*.............................. 322

**TAHİRLİ Cavid Firuddin**
*Azərbaycanda büdcə vəsaitlərinə maliyyə nəzarətinin prioritet istqamətləri*....... 325

**MƏMMƏDLİ Xəqani Əyyub**
*Təchizat zəncirinin idarəedilməsinin iş performansına təsiri*............................. 328

**CABAROVA Turan Mehyəddin**
*Turizmin inkişafında sosial şəbəkələrin rolu*...................................................... 330

**MURADZADƏ Gülnar Salman**
*Kiçik və orta sahibkarlığın inkişafı: real vəziyyət və perspektivlər*.................... 331

**GÖZƏLOV Sadiq Elçin**
*Müasir iqtisadi sistemdə kiçik sahibkarlığın rolu*................................................ 333

**ABDULLAYEV Sərdar**
*Sənaye sahələrində rəqəmsal texnalogiyalardan istifadə mühitinin xarakteristikası*.......................................................................................... 334

**ƏHMƏDOV Emil**
*Ağıllı şəhərlərin əsas prinsipləri*........................................................................ **337**

**ABDULLAYEVA Nərmin Anar**
*Dövlət özəl sektor əməkdaşlığının iqtisadi faydaları*........................................... **340**

**HÜSEYNOV Aqil Anar**
*Smart şəhərlər və rəqəmsal innovasiyalar*............................................................ **342**

**ABDULLAYEVA Nərmin Anar**
*Dövlət özəl sektor əməkdaşlığının iqtisadi faydaları*....................................... **345**

**İSMAYILOV Arif İsmayıl**
*Ən böyük elektron ticarət platformaları*............................................................... **347**

**İSMAYILOV Arif İsmayıl**
*E-ticarətdə marketinqin xüsusiyyətləri*................................................................. **350**

**SERTTAŞ Leyla Rövşən qızı**
*Türkdilli dövlətləri arasında aqrar məhsulların ticarəti: Zəngəzur dəhlizinin önəmi*.............................................................................................................. **353**

**GULUZADE Khalil**
*The impact of shock effects on labor market dynamics: an analysis of internal and external factors*…………………………………………………………………… **355**

# TARİX BÖLMƏSİ



**Aliyə Rzaqulu ADGÖZƏLOVA**
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun
" Albanşünaslıq " Elmi Mərkəzinin "Qafqaz Albaniyasının maddi-mədəni irsinin arxeoloji tədqiqi" sektorunun Elmi işçisi
E-mail: aliya.adigozalova@mail.ru

# GƏNCƏBASARIN ALBAN DÖVRÜ XRİSTİAN ABİDƏLƏRİ

**Summary**

One of the structures that appeared in Albania in the early Middle Ages were Christian temples and monasteries. The first Christian churches in Albania were built long before Christianity was accepted as the official state religion in the country. For this reason, the Albanian church is called the apostolic church. The area of Ganjabasar, which is an integral part of Caucasian Albania, is rich in architectural monuments from the Christian era of Albania. In general, the Albanian temples in these areas were built in the VI-VII centuries. In connection with the reconstruction of Albanian temples, these temples have been restored since the 12th century. This was related to the creation of the Khachin principality in Albania at that time.

**Key words:**Caucasian Albanian, temple, church, religion

## Giriş

Alban memarlıq sənəti özünəməxsus mürəkkəb koloriti, texnikası, təkrarolunmaz gözəlliyi və üslubu ilə həmişə maraq doğurmuş və seçilmişdir. Alban xristianlığının ilk dövrü üçün kilsə tikililəri xarakterik idi. Bu kilsələr uzunsov ibadət zalı olan birnefli məbədlərdən ibarət olmuşdur. Albaniyada xristian memarlığı üslubunda dairəvi məbədlər deyilən xüsusi tikili nümunəsi də yayılmışdır, bunun da öz səbəbi var. Belə ki, Albaniyada dairəvi məbədlərin tikilməsi erkən xristianlıq dövrünə aiddir və tədqiqatçıların fikrincə bu məbədlər günəşə ibadət edən albanlar tərəfindən, yəni hələ xristianlığın tam mənimsənilmədiyi və səma cisimlərinə ibadətlə qarışdırıldığı dövrlərdə tikilib [4, s.34]. Albaniyada xristian memarlığının ən kütləvi forması isə sovmələrdir. Sovmələr karvan yolları kənarında kiçik ibadətgah rolunu oynasalar da, onlardan əslində memorial xarakterli tikililər kimi istifadə olunurdu. Albanlarda həm mehrablı, həm də mehrabsız sovmələrə rast gəlinir. Sovmələrin divarı bir qayda olaraq zərif naxışlara malik nişan daşları ilə bəzədilirdi. Alban dövrünün ən mürəkkəb tikililəri isə bazillikalar və monastırlar hesab olunur. Qafqaz Albaniyasının xristianlıq dövrü memarlığı bütövlükdə tam şəkildə öyrənilməmişdir. Bunun səbəbi memarlıq abidələrinin çox pis qorunub saxlanılmasıdır. Bəzi qorunub saxlanılan abidələr o qədər dəyişikliklərə məruz qalıblar ki, öz əvvəlki görkəmlərinin böyük bir qismini itiriblər [3, s.81]

Arxeoloji qazıntılar zamanı Albaniyanın müxtəlif ərazilərində memarlıq tikililərinin qalıqları tapılıb. Bu tapıntılar bizə qədim xristian memarlıq tikililəri haqqında fikirləri deməyə imkan verir.

Bunu da qeyd etmək lazımdır ki, Albaniyanın coğrafi mövqeyi və təbiətin münbit şəraiti, müxtəlif tikinti materialları-daş, gil, ağac növləri ölkənin ustalarına imkan verib ki, sadə kilsənin tikintisindən tutmuş daha mürəkkəb kompozisiyaya malik tikililər yaratsınlar.

Qafqaz Albaniyasının ayrılmaz bir hissəsi olan Kiçik Qafqaz dağlarının ətəkləri, o cümlədən Gəncəbasar ərazisi Albaniyanın xristianlıq dövrünə aid memarlıq abidələri ilə olduqca zəngindir. Bu abidələr əsas etibarilə eramızın I əsrindən – XVII-XVIII əsrlərə qədərki dövrü əhatə etmişdir [1, s.3].

## Əsas mətn

**Çaykənd məbədi** – Abidə ilk dəfə tədqiqata A.M.Məmmədov tərəfindən cəlb edilmişdir. Çaykənd məbədi Göygöl rayonunda eyni adlı kəndin yaxınlığında, Çaykənd-Göygöl yolununsağında qeydə alınmışdır. Məbədin bünövrəsi sal qayanın üzərində qurulmuş düzbucaqlı məbədin uzunluğu 11 m, eni 7 m, hündürlüyü təqribən 6 m, divarlarının qalınlığı 0,80 m-dir. Məbədin tağ formalı qapı yeri qorunub qalmışdır. Bu girişin hündürlüyü 1,35 m, eni 0,40 m-dir. Məbədin tağbənd formalı qapı yerinin yaxınlığında kitabə qeydə alınmışdır. Kitabənin üzərində Alban yazısının və xaçların olduğunu qeyd edilmişdir. Həmçinin məbədin divarında ibadət zamanı şamları qoymaq üçün xüsusi taxçaların olduğunu qeyd olunmuşdur [1, s.26].

Məbədin şərq tərəfində düzbucaqlı çərçivədən kənara çıxmayan yarımdairə formalı mehrab apsidası yerləşmişdir. Məbədin şərq divarının ortasında apsidaya açılan pəncərə vardır. Digər pəncərə yeri məbədin cənub divarındadır. Şimal və cənub divarlarında qarşı-qarşıya iki cüt pilyastr ucaldılmışdır. Bunların bir cütü apsida ilə ibadət zalı arasında, digər cütü isə divarların orta hissəsində yerləşmişdir [2, s.99]Çaykənd məbədi VI-VIII əsrlərə aid edilmişdir [1, s. 27].

**Yeni Zod məbədi** – Abidə Göygöl rayonunun Yeni Zod (Azad) kəndi yaxınlığında yerləşmişdir və A.M.Məmmədov tərəfindən təqiq olunmuşdur. Məbədin uzunluğu 17 m, eni 11 m, divarlarının qalınlığı 0,80 m-dir. İki cüt düzbucaqlı sütun məbədin daxilini 3 nefə ayırmışdır [1, s. 30]. Sütunlara parallel olaraq şimal və cənub divarlarının hər birində iki düzbucaqlı pilyastr vardır. Yan neflərdən enli olan orta nef şərqdə ibadət zalının döşəməsindən hündür olan yarımoval formalı apsida ilə tamamlanır. Bu və digər apsidalar məbədin düzbucaqlı çərçivəsindən kənara çıxmır. Mehrab apsidasının hər iki yanında düzbucaqlı formalı olub, şərqdə yarımdairəvi apsida ilə tamamlanan pastofori yerləşmişdir. Pastoforilərə yalnız müvafiq yan nefdən daxil olmaq mümkündür. Hər üç apsidanın şərq divarında bir pəncərə yeri düzəldilmişdir [2, s.131]. Yuxarı hissəsi tağ formalı bu pəncərələrin hündürlüyü 2,2 m, eni 1 m-dir. Daha bir pəncərə qərb divarında yerləşmişdir. Xristian memarlığı ənənəsinə zidd olaraq məbədə giriş bu divarda yox, cənub tərəfdədir. Cənub nefində, girişdən sol tərəfdə, döşəmənin altında dərinliyi 1,20 m, uzunluğu 2 m, eni 1,5 m olan zirzəmi qeydə alınmışdır.

Məbədin bünövrəsi qaya üzərində çay daşından inşa edilmiş, divarlar qaya parçalarından hörüldükdən sonra yerli qırmızı daşla üzlənmişdir.

Məbəddən 50-60 m qərbdə sənduqə formalı daşlarla örtülmüş qəbirlər vardır. Bu qəbirlərin yanında qərar tutmuş, sahəsi 3 hektar olan yaşayı yerində aparılımış kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar nəticəsində əldə edilən materiallar əsasən saxsı qab parçalarından ibarətdir. Bu tapıntılar III-VII və XIII-XV əsrlərə aid edilmişdir [1, s. 30, 37]. M.Xəlilov isə Yeni Zod məbədinin təqribən VII əsrdə inşa edildiyini qeyd etmişdir [2, 132].

**Band məbədi** – Bu məbəd Göygöl rayonunun Yeni Zod (keçmiş Azad və ya Kamo kəndləri) kəndindən 15 km şimal-qərbdə, dəniz səviyyəsindən təqribən 2800-3000 m yüksəklikdə, dağın zirvəsində yerləşmişdir. Həmin yüksək dağ zirvəsində təqribən 0,25 hektarlıq düzən bir sahə var ki, məbəd də məhz orada inşa edilmişdir. Məbədin yerləşdiyi mövqedən ətrafa baxdığımız zaman Gəncə və Mingəçevir şəhərlərini və aydın hava olduğu zaman Kür çayını görmək mümkündür. Band məbədi elə bir yüksək mövqedə yerləşmişdir ki, sanki ətraf kəndlərin mərkəzində qərar tutub. A.M.Məmmədov məbədin yerli əhali tərəfindən ziyarətgah (ibadətgah) kimi istifadə edildiyini qeyd etmişdir [1, s.26-28].

Məbədin tikintisinin Albaniyada xristianlığın qadağan oldunduğu bir dövrdə inşa edildiyi ehtimal olunur. Buna görə də, məbəd müdafiə məqsədilə məhz belə bir əlçatmaz ərazidə tikilmişdir. Elə məhz bu səbəbdən məbədin arxa tərəfində, onun məbədə qalxan yol istiqamətinə baxan hissəsində, şərqdən gələn təhlükəni izləmək üçün iki ədəd mazğal formalı pəncərələr mövcud olmuşdur. Məbədin kiçik pəncərəsinin üzərində iki ədəd quş təsvirinin olduğu qeyd olunmuşdur.

Məbədin eni 4m, uzunluğu 8m, hündürlüyü kənarlarda 3,5 m, daxildə isə 5,5 m-dir. Divarların qalınlığı isə 80 sm-dir. Məbədin daxilində tağlı açırımlı iki pəncərə yeri mövcuddur. Məbədin daxilində iki yerdə şam qoymaq üçün taxçaların olması da qeydə alınmışdır. Məbədin divarlarının ağ mərmərlə örtülməsi abidə də sonradan bərpa işlərinin aparıldığını göstərir. Məbədin qapı yerinin üzərində hər iki istiqamətdə dairə daxilində xaç təsvirlərinə rast gəlinib. Xaçlar divara oyma üsulu ilə həkk edilmişdir. Bu cür xaçlara biz məbədin daxilindəki neflərin kəsişən yerinin alt və üst hissələrində rast gəlirik.

Tədqiqatlar zamanı məbədin şimal divarı istisna olmaqla digər divarlardakı xaç təsvirləri bərpa zamanı ermənilər tərəfindən dəyişikliyə məruz qalmışdır [1, s.28-30].

**Xarxaput məbədi** – Bu abidə Qara su çayının kənarında Goranboy rayonunun Meşəli (Xarxaput) kəndi adlı qədim kəndin ərazisində yerləşmişdir. Erməni müəllifləri bu adı "Xarxapot-Xrxapit" və s. kimi səsləndirdiklərini, onun ermənilərlə bağlı olduğunu əsaslandırmağa çalışdıqlarını A.M.Məmmədov öz tədqiqatlarında qeyd etmişdir.

Əslində isə "xaput" qədim alban tayfalarından birinin adıdır. Xarxaput sözünün ilk hissəsindəki "xar" sözü türk mənşəli olub, "bərbad", "köhnə", xaput tayfalarına məsus bir kənd olduğunu ehtiva edir [1, s.7].

Bəzi alimlər Xarxaput adını xarxa, qarqar sözü ilə əlaqələndirirlər. Q.Qeybullayev də xaput və ya haputların qədim alban tayfaları olmasını qeyd edirdi. M.Q.Vəliyevə görə Xaputlı kəndi Ağdaş və Göyçay qəzalarında qeydə alınmışdır. Onlar vaxtilə Quba qəzası əhalisinin əksəriyyətini təşkil etmişlər. Onların dili türk dilinə daha yaxın olmuş, danışıqlarında çoxlu türk sözlərindən istifadə etmişlər. Onlar bu ərazilərdə eramızdan əvvəl məskunlaşmış, eramızın IV əsrində xristianlığı qəbul etmiş və bununla əlaqədar xristian məbədlərinin tikintisinə başlamışlar. Arif müəllim qeyd edir ki, Gəncəbasar ərazisində yerləşən və XIX-XX əsrlərdə ermənilər tərəfindən bərpa edilən məbədlərin əsası da məhz həmin dövrdə qoyulmuşdur. Çünki əraziyə XIX əsrin ortalarında gəlmiş ermənilər məskunlaşdıqları yerlərdə birdən-birə bu qədər məbəd tikə bilməzdilər. Çünki Albaniyanın özündə xristianlıq IV əsrdə qəbul edilsə də Gəncəbasarda tikilən məbədlər VI-VIII əsrlərə aid edilmişdir [1, s.8].

Xarxaput məbədində ilk tədqiqat işləri hələ 1984-cü ildə Ermənistandan gəlmiş epiqrafçı S.Q.Karapetyan tərəfində aparılmış, abidə üzərində əlavə edilmiş erməni yazı və işarələrinə görə məbədin tarixi saxtalaşdırılmışdır.

Belə ki, C.Q.Karapetyan 1984-cü ildə Xarxaput məbədində tədqiqatlar aparan zaman abidənin üzərindəki alban əlifbası ilə yazılmış daş lövhə üzərindəki işarələri dəyişdirmiş, kitabədəki sözləri erməni dilinə uyğunlaşdırılmağa çalışmış və abidənin adını dəyişərək Koğeri kilsəsi adlandırmışdır [1, s.11].

Abidənin yaxınlığında aparılan arxeoloji kəşfiyyat işləri, tapılan artefaktların analogiyası və Xarxaput məbədinin digər qədim alban məbədləri ilə bənzərliyi bu abidənin də qədimliyinə dəlalət edir. Arxeoloji tədqiqatlar deməyə sas verir ki, bu məbəd hələ VII əsrə qədər tikilmiş, XII-XIII əsrlərdə yenidən bərpa olunmuşdur.

**Daşkəsən məbədi** – Bu məbəd Daşkəsən rayonu ərazisində qeydə alınmışdır. Məbəd quruluşuna görə Albaniyanın xristianlıq dövrünə aid mağara məbədlərindən biridir [1, s.37].

**Nəticə**

Ümumilikdə aparılan tədqiqatlar onu göstərir ki, Gəncəbasar ərazisindəki alban məbədləri VI-VII əsrlərdə inşa olunmuşdur. Alban ənənələrinin yenidən dirçəlməsi ilə bağlı olaraq XII əsrdə bu məbədlər bərpa olunmuşdur. Bu isə həmin dövrdə Albaniyada Xaçın knyazlığının birbaşa yaranması ilə bağlı olmuşdur. Alban-Xaçın knyazları həmin dövrdə məbəd tikintisinə böyük önəm vermiş, xüsusilə dağıdılmış qədim məbədlər bərpa olunmuş və yeni məbədlər inşa edilmişdir. Həmin dövrdə Gəncəbasar ərazisindəki qədim məbədlər Xarxaput, Yeni Zod, Band, Çaykənd və s. dağlıq ərazilərdə yaşayan xristian albanların əsas ibadətgahı və sığınaq yeri olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.** Məmmədov A.M., Gəncəbasarın Alban Dövrü Xristian abidələri. Bakı-2000-Ağrıdağ.

**2.** Xəlilov M.C.,Albaniyanın Xristian Abidələri(IV-X əsrlər).Bakı-2011.

**3.** Геюшев Р. Б., Христианство в Кавказской Албании (по данным археологии и письменных источников). Баку: Элм 1984, с 192.

**4.**. Мамедова Г.Г.,Зодчество Кавказской Албании. Баку: Чашыоглу 2004, с. 224

**Emil Raul AĞAYEV**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi
E-mil: aghayev93@mail.ru

## "DÜŞÜNCƏ TƏRZİ NƏZƏRİYYƏSİ" VƏ TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİNDƏ ƏHƏMİYYƏTİ

**Summary**

One of the main ideas of modern education is the development of students' thinking and analysis skills. During the teaching of fine arts, the teacher should form students' aesthetic taste and enjoyment of works of art. At this time, the teacher must keep in mind students with open and closed thinking.

**Keywords:** Fine art, education, student, art, thinking, analysis

**Giriş**

Orta məktəblərdə müasir təhsilin əsas prioritetlərindən biri şagirdlərin mövzular barəsində düşüncə tərzinin inkişaf etdirilməsidir. Bu istiqamətdə inkişafa diqqət yetirsək, məntiqi, yaradıcı və müqayisəlilik kimi prinsiplər ön plana çıxarılmalıdır. Təsviri sənət fənninin tədris metodikasında da əsərlər üzərində düşünmək və mühakimələr aparmaq şagirdlərdə müəllim tərəfindən diqqət yetirilməlidir.

**Əsas mətn**

Karol Dvek təxminən 30 ildən çox şagirdlər üzərində təcrübələr apararaq, onların uğursuzluqlara qarşı necə reaksiya verdiklərini təcrübə aparmışdır. Professor şagirdlərin öyrənmələrini iki istiqamət üzrə qruplaşdırmışdı:

1)İnkişafa açıq düşüncə tərzi

2)İnkişafa qapalı düşüncə tərzi

Təsviri sənət fənninin tədris metodikasında şagirdlər daha zəkalı, intelektual fikirlərə yer ayırmalıdırlar. İnsan beyni həqiqətən də, dəyişilə bilən bir orqandır, onun inkişafı üçün, qidalanma, yuxu rejimi və düzgün öyrənmə strategiyaları tətbiq edilməlidir.

Qapalı düşüncə tərzinə sahib şagirdlər təsviri sənət fənninin tədrisində çətinliklərə qarşılaşdıqda çox tez ruhdan düşürlər, çünki fikirləşirlər ki, qabiliyyətləri yüksək deyil və ya zəif olduqlarını tez bir zaman da qəbul edirlər. Ona görə də təsviri sənət müəllimləri şagirdlərdən tez-tez "Mən bu fənni qavraya bilmirəm", "Mən bu rəsmi çəkə bilmirəm" və ya "Mənə təsviri sənət fənni nəyə lazım?" kimi şərhlər eşidirlər. İki fərqli düşüncə tərzinə malik şagirdlər həmçinin informasiyanı qəbul etmələrində də fərqlidirlər.Təsviri sənət fənninin tədris metodikasında öyrənmə nəticələrinin öz nəzarətlərində olan şagirdlər daha çox səy göstərir, daha çox təkrar edir, müxtəlif öyrənmə strategiyaları tətbiq edir. İnkişafa açıq tipli düşüncə tərzinə malik şagirdlər təsviri sənət fənnini öyrənən zaman aşağıdakı qabiliyyətlərə malik olurlar:

-rəsm əsərləri işləyərkən çətinlikdən qorxmurlar

-nəzəri və rəsm işləri zamanı səhvlərdən öyrənir

-təsviri sənəti öyrənməyə marağı var

-rəylərə qulaq asır və nəticə çıxarır.

Qapalı düşüncə tərzinə malik şagirdlər təsviri sənət fənnini öyrənən zaman aşağıdakı qabiliyyətlərə malik olurlar:

-təsviri sənət fənnini öyrənən zaman çətinliklərdən yayınır.

-təsviri sənət fənnini öyrənən zaman çətinliklərdən qorxurlar

-rəsm əsərlərini işləyərəkən "bacarmaram" deyir.

Təsviri sənət fənninin tədrisində müəllim şagirdləri xarakter və intellektlərini dəyişdirə bilərək, onları qapalı düşüncə tərzindən açıq düşüncə tərzinə keçid edə bilərlər. İlk növbədə şagirdlərə intellektin, zəkanın dəyişə bilən olduğu, beynin elastik olduğunu öyrətmək lazımdır. Digər bir tərəfdən isə risk götürmək mədəniyyətini yaratmaqdır, yəni şagirdlər səhv etməkdən qorxmamalı, öyrənmə yolunun səhvlərdən keçdiyini başa düşməli və etdikləri səhvlərə hədəfə çatmaq üçün lazım olan bir vasitə kimi baxmalıdırlar.

**Nəticə**

Düşüncə tərzinin inkişaf etdirilməsi zamanı təsviri sənət müəllimi təriflәyərkən düzgün tərifləmə növündən istifadə etməkdir. Bu təcrübədə biz tərifləmə metodunun şagirdlərə risketmə bacarığının, etdiyi səhvlərə münasibətinin özünə inam zamanı necə təsir etdiyini müşahidə etməliyik.

-Təsviri sənət fənninin tədrisi zamanı inkişafa açıq düşüncə tərzinin olduğu sinfin digər bir xüsusiyyəti düşünmə və gözləmə vaxtlarına əməl olunaraq dərindən öyrənməni təmin etməkdir. Müəllim sualları verən zaman şagirdin cavab verməsini uzun müddət gözləməlidir. Cərəyanları keçən zaman təsviri sənət müəllimi müqayisə apararkən şagirdlərin fikirlərini uzun müddət gözləməlidir.

-Təsviri sənət fənninin tədrisi zamanı şagirdlər öyrənərkən estetik zövq və həzz almalıdır. Rəsm işləyərkən, əsərlər üzərində təhlil apararkən, estetik zövq və incəsənət nümunəsindən alınan həzz də əsas prioritet hesab edilməlidir.

-Uğura gedən yolda təsviri sənət müəllimi şagirdlərə rəy verərkən də diqqətli olmalıdır. Rəy verərkən nəzərə alınmalı olan ən vacib məqam rəyin destruktiv, yəni şagirdi emosional olaraq zədələyən, onu həvəsdən salan fikirlər deyil, əksinə konstruktiv, yəni şagirdi irəliyə apara biləcək dəstəkləyici olmalıdır.

-Təsviri sənət fənninin tədrisi zamanı şagirdlər əlavə məlumatlar öyrənən zaman müəllim tərəfindən qiymətləndirilərək, həvəsləndirilməlidir.

Göründüyü kimi, bütün bu sadalanan proseslərə diqqət yetirilsə, təsviri sənətin tədrisi zamanı öyrənmə prosesi düzgün şəkildə qurular.

## ƏDƏBİYYAT SİYAHISI

1.Kurikulum, metidika və pedaqogika. Bakı 2022. s 155-159

2.VIII sinif təsviri incəsənət dərsliyi. Bakı 2020. 96 s

**Vüsal Firdovsi AĞAYEV**

Qərbi Kaspi Universitetinin magistrantı

E-mail: vusalagali4@gmail.com

# XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ ŞİMALİ QAFQAZ XALQLARININ İCTİMAİ-SİYASİ VƏZİYYƏTİ

**Summary**

In our research, in the 20s and 30s of the 20th century, Soviet and Russian historiography in the North Caucasus talked about the invasion of the Caucasus by Soviet Russia and the harsh policy it implemented there, which was tried to be covered up and even covered up. Representatives of many North Caucasus peoples who are still exiled and displaced from their homelands today, and the fact that the North Caucasus still occupies an important position in the region as part of Russia, despite the fact that they fought so much for freedom, shows the importance of the topic's relevance.

**Keywords:** North Caucasus, occupation, Socialist regime.

## Giriş

Çar rejimini devirərək sosialist ideyalarla möhkəmlənib hakimiyyətə gələn bolşeviklər Rusiya imperiyasından ayrılıb müstəqillik qazanan əraziləri yeni yaranan dövlətə birləşdirməyə çalışırdılar. Bu ərazilərdən biri də Şimali Qafqaz idi. Strateji cəhətdən olduqca mühüm rola sahib olan Şimali Qafqazdan bolşeviklər asanlıqla imtina edə bilməzdilər. Beləliklə, XX əsrin 20-ci illərində yaranmış tarixi şətaitdən istifadə edərək yenicə öz konfederativ dövlətlətini yaratmış Dağlılar Respublikası nə qədər mübarizə aparsa da işğaldan qaçına bilmədi.

## Əsas mətn

Xarici yardım kanallarının bağlanması, daxili müxalifət çəkişmələri nəticəsində müxtəlif fraksiyalara ayrılması, Səid Şamilin müharibəyə başladığı illərdə Uzun Hacının vəfat etməsi, liderlərin bir araya gələ bilməməsi kimi səbəblərdən Dağlılar respublikasının işğalına gətirib çıxarmışdır. Şimali Qafqaz çox yaxın olduğ Bolşeviklər təbliğat fəaliyyətlərini artıraraq, indi bölgədə hökmranlıqlarını tamamilə yaydılar. Nəcməddin Qotınski 1924-cü ilə qədər dağlarda müqavimətini davam etdirsə də, heç bir iş qalmadığından Səid Şamil və digər bir neçə siyasətçi Türkiyəyə qayıdırlar. Polkovnik Qayıtmaz Əlixanov və üç oğlu da həbs edilərək öldürülür. Qafqazda yeni hökumət yarandı və bu hökumət Sovetlərlə sülh müqavilələri bağladı. Gürcüstan və Azərbaycanın Qızıl Rus Orduları tərəfindən işğalı ilə ərzaq, silah və nəqliyyat yolları bağlandı. İngiltərə və digər qərb ölkələrinin səssizliyi ilə dağlılar tək qaldılar və sovet işğalına məruz qaldılar. 1920-ci il aprelin 12-də Dağıstanda Sovet Xalq Komissarlıqları yaradıldı. Bu tarixdə çox mühüm hadisə baş verdi. bolşeviklər və Şimali Qafqaz milli qüvvələri tərəfindən yaradılmış Şimali Qafqaz Müdafiə Qüvvələri şuradakı millətçilər tamamilə təmizlənib Sovet Rusiyası Hökuməti, Qırmızı Ordu və şura daxilindəki yerli inqilabçılar bu şuranı tamamilə ələ keçirdilər.Onu ləğv etdilər və adını Dağıstan İnqilab Komitəsi adlandırdılar.

Prezidentliyə Cəlaləddin Qorxmazov gətirildi. Verilən məlumatlardan da anlaşıldığı kimi bolşeviklər Şimali Qafqaz milli qüvvələri ilə əməkdaşlıq edirdilər. Bolşeviklər təbliğat yolu, sürgün və təhdidlərlə yerli xalqda milli qüvvələri məhv etdilər. 1920-ci il avqustun 22-də Dağıstan İnqilab Komitəsi torpaqları xalqa verdi. Zənginlərin və Kulakların (varlı kəndlilərin) taxıl və məhsullarını paylanıldı. 1920-ci ilin sentyabrında sovet qoşunları Dağıstana daxil oldular. Burada hakimiyyəti ələ alan Sosialist rus qüvvələri öz bölgülərini həyata keçirməyə başladılar. Şimali Qafqazda 1922-ci ildə Qaraçay-Çərkəzvə Kabarda Balkar, 1924-cü ildə Çeçen-İnquş, Osetiya, 1921-24-cü illərdə Dağlılar SSRİ-nin tərkibinə daxil edildi. Şimali Qafqazın Sovet hakimiyyətinə keçməsi ilə Sovet hökuməti 1921-ci ilin yanvar ayında Şimali Qafqazda Dağlı Sovet Muxtar Respublikası və Dağıstan Sovet Muxtar Respublikası adları altında iki muxtar respublika yaratdı.

Sovett hakimiyyəti qurulduqdan sonra xalqların mədəniyyəti, dili, dini sıxışdırılmağa başladı. Türk tədqiqatçısı Oktay Bingöl Sovet dövründə Simal Qafqazın vəziyyətini belə şərh vermişdir: Sovet hökuməti bolşevik inqilabının ilk illərində dəstəyinə ehtiyac duyduğu millətin sonradan güclənməsinə qarşı çıxdı. 1926-cı ildə Rusiya imperiyası dövründə fəaliyyət göstərən şəriət məhkəmələri və müftilik sistemi ləğv edildi, ərəb əlifbası latın, sonra isə kiril əlifbası ilə əvəz olundu. [1 s.145]

**Nəticə**

Beləliklə, yuxarıda yazdıqlarımdan da məlum olduğu kimi, Bolşeviklərin işğalıyla Dağlılar respublikası süqutundan sonra Rusiya qüvvələri orada Cənubi Qafqazda eləcə də Azərbaycanda yeritdiyi sovetləmə siyasətiylə özlərinin idarəetmə sistelmlərini tədbiq etdilər. Yerli şərait nəzərə alınmadan bölülər aparılmışdır və həmin bölgülər separatçı qüvvələrin gələcəkdə ola biləcək müstəqilliklərinə mane olacaq şəkildə və ya müstəqil olduqdan sonra münaqişə ocaqları vasitəsilə həmin bölgələri idarə etməyə yönəlmişdir. Buna qarşı çıxan bir çox liberal yönümlü yerli xalq guya sosialist ideyalara qarşı çıxmaları bəhanəsiylə sürgün edimiş, təqiblərə məruz qalmış və ya öldürülmüşdür. Şimali Qafqazda Sovet hakimiyyəti qurulduqdan bu yana bir çox ictimai-siyasi xadim represiya qurbanlarına çevrilmişlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bingöl O. Tarihsel Süreçte Rusiyanın Kuzey Kafkasyayı kontrol stratejilerinde gelinen aşama: başarısızlıq ve terör, Karadeniz Araşdırmaları, Bahar 2013, nəşr 37. –s. 137-158.
2. Hirsch, F., Empire of Nations: Ethnographic Knowledge and the Making of the Soviet Union Cornell University Press: Ithaca, N.Y. 2005
3. Казанбиев, М. А. Национально-государственное строительство в Дагестанской АССР (1920-1940 гг.)./ М. А.Казанбиев, –Махачкала, –1960.
4. Кондрашин, В.В. Голод 1932–1933 годов: трагедия российской деревни/ В.В.Кондрашин, –М.: ROSSPEN, –2008. 519 с.

**Aida Ali MAGOMEDOVA**
Qərbi Kaspi Universiteti
E-mail: aidamagomedova010@gmail.com

## GEOSİYASƏTDƏ NƏQLİYYAT DƏHLİZLƏRİ

### Summary

The purpose of the thesis was to investigate the influence of geopolitical factors on the development of transport corridors and changes in their structure. Within the framework of this goal, Research was carried out in the following areas: the study of the essence of geopolitical factors, political motives for the creation, management and control of transport corridors.

As a result, in the thesis he substantiated a new level of complexity of the global geopolitical picture, which affects the development of transport corridors. The thesis examines the processes of the formation of two dialectically opposite currents: the "compression" of the gap as a result of an increase

in the intensity and speed of communication and the "expansion"of new territories as a result of their integration into the global transport system.

**Keywords:** transport, Silk Road, Development, economy, security.

**Giriş**

Müasir planetar məkanın landşaftındakı çox istiqamətli dəyişiklik meyllərinə baxmayaraq, onun formalaşan memarlığının yaranan tendensiyası qarşılıqlı əlaqədir. Yeni sivilizasiya görünüşü universallığın və ayrılmazlığın konturlarını alır.

Fiziki məkanı "sıxışdıran" geosiyasi tendensiya kommunikasiyaların fərqli keyfiyyətinə səbəb olur, onlardan biri multi - və intermodallığın yeni texnologiyalarını, nəqliyyat axınlarının, konteyner və kontreyler daşımalarının idarə olunması üçün kompleks nəqliyyat-ekspedisiya xidmətlərini birləşdirən ND-dir. Nəqliyyat sisteminin başqa heç bir komponenti kimi - sənayenin informasiya yenilənməsi zamanı fəal şəkildə təbliğ olunan bütün yenilikləri özündə cəmləşdirir.

Mütəxəssislərin fikrincə, ümumilikdə nəqliyyatın rəqəmsallaşdırılması və xüsusilə ND dəmir yollarının tutumunu 40% artıra bilər və nəqliyyat xərclərini 30% azalda bilər.

**Əsas mətn**

ND-nin vaxtı daraltmaq, məkanı aşmaq və "toplamaq" qabiliyyəti onlara instrumental geosiyasi məzmun verir. Fransız sosioloq Bruno Laturun uyğun ifadəsinə görə,"məsafəni qət etmək güc aktıdır". ND-nin formalaşması və işləməsi beynəlxalq münasibətlər subyektlərinin inteqrasiyasına və ya təcrid olunmasına yönəlmiş siyasi iradənin toplanmasında və təbliğində güclü bir amilə çevrilir.

Eyni zamanda, geosiyasət kontekstində hakimiyyət iddialarını J.Allenin artikulyasiyasında şərh etdiyi kimi, gücə və ya səlahiyyətə şübhəsiz tabe olmaq kimi deyil, "subyektlərin mənalarını mənimsədikləri səmərəliliklə əlaqələndirmək" mənasında qeyd etmişdir.[4]. Həqiqətən, böyük güclər və aparıcı regional dövlətlər koalisiyalar yaratmaq və öz təşəbbüslərini, o cümlədən nəqliyyat sahəsində, bir qayda olaraq, güc nümayişinə və ya birbaşa təzyiqə müraciət etmək məcburiyyətində deyillər. Onların siyasi iradəsi daha çox alıcı ölkələr tərəfindən dünya güc mərkəzlərinin liderlik mövqelərinin tanınması yolu ilə həyata keçirilir. [3]

J.Allenin daha bir vacib qeydi, məkanın aşılması ilə əlaqədar nəqliyyat dəhlizlərinin istehsal etdiyi güclə əlaqədardır. "Hakimiyyət, nəticədə, ölçüsündən və həcmindən asılı olmayaraq, resurs bazasından ifadə edilə bilməz və edilməməlidir", lakin "yaxınlıq və ya uzaqlıq, varlıq və ya yoxluq"təsiri ilə nəticələnir. Başqa sözlə, məkanın quruluşu "həm resurs, həm də gücün həyata keçirildiyi vasitə kimi xidmət edir".Əksinə, Çinin hər zaman milli maraqlara, ilk növbədə qonşulara uyğun olmayan qlobal liderlik iddiası, Cənub-Şərqi Asiya ölkələrinin Rusiya ilə nəqliyyat əməkdaşlığının geosiyasi vektorunu başlatdı. Siyasi fikir ayrılıqlarına baxmayaraq, nəqliyyat sahəsində Rusiya-Yaponiya əməkdaşlığı inkişaf edir. Trans-Sibir dəmir yolu ilə Yaponiyadan Avropaya nəqliyyat dəhlizlərinin icrasına başlanılıb. Yaponiya və Rusiya nəqliyyat nazirliklərinin əldə etdiyi razılaşmalara uyğun olaraq, Trans-Sibir dəmir yolu ilə marşrut konteyner qatarlarının və ya "blok-treynlərin" (yüklərin ayrılması və ya yolda saxlanması olmadan bir gediş nöqtəsindən bir təyinat yerinə gedən qatarlar) hərəkəti açıqdır. [2]. Yaponiyanın ən böyük şirkətləri ND-nə görə mallarının daşınmasında iştirak edirlər: neft-kimya korporasiyası "Nippon Shokubai", avtomobil sənayesinin liderlərindən biri "Honda motors", tibbi avadanlıq istehsalçısı "Nipro Corporation" və s. Layihədə Yaponiyanın "Nippon Express" Logistika korporasiyası iştirak edir. Yaponiyanın "Yahoo News Japan" xəbər portalının qeyd etdiyi kimi, Rusiya Federasiyası ərazisindən keçən Yaponiya - Avropa nəqliyyat dəhlizinin fəaliyyəti dəniz yolu ilə müqayisədə Süveyş kanalı vasitəsilə yüklərin çatdırılma müddətini 2 dəfə, yükgöndərənlərin xərclərini isə 1,5 dəfə azaltmağa imkan verir. Yer toplayan ND-lər əraziyə nəzarət vasitəsidir. Bu baxımdan, dövlət sərhədlərinin perimetri ətrafında milli suverenliyin və təhlükəsizlik rejiminin möhkəmləndirilməsi üçün onların xüsusi əhəmiyyətini qeyd etmək vacibdir.

Qeyd olunan aspektdə postsovet inteqrasiya layihələri çərçivəsində inkişaf edən nəqliyyat dəhlizləri Rusiya üçün kritik əhəmiyyət kəsb edir. Buna görə Rusiya Federasiyası Avrasiya İqtisadi Birliyi çərçivəsində inteqrasiya potensialının artırılmasına böyük diqqət yetirir. AİB 2014-cü ildə Ermənistan, Belarus, Qazaxıstan və Rusiya Federasiyası tərəfindən yaradılıb. [1]. Yarandığı gündən bəri birliyin

məqsədi işçi qüvvəsi, kapital və malların hərəkəti üçün vahid bir məkan yaratmağa yönəlmişdir. Əlbəttə ki, bu məqsədə çatmaqda nəqliyyat dominant rollardan birini oynayır. 2016-cı ilin dekabr ayında Ali Avrasiya İqtisadi Şurası 2025-ci ilə qədər vahid nəqliyyat məkanının və ümumi nəqliyyat xidmətləri bazarının yaradılmasında maneələri aradan qaldırmalı olan nəqliyyat rabitəsi sahəsində əlaqələndirilmiş siyasətin əsas prinsiplərini qəbul etdi. Qəbul edilmiş sənədin icrası yeni nəqliyyat dəhlizlərinin yaradılmasına və birlik ərazisinin tranzit potensialının artırılmasına başlayır. Hazırda AİB-nin hər bir ölkəsi üçün 40 və daha çox maneə (maneələr, geri çəkilmələr, məhdudiyyətlər) var: Ermənistan Respublikası - 41, Belarus Respublikası - 43, Qazaxıstan Respublikası - 44, Qırğızıstan Respublikası - 40, Rusiya Federasiyası - 48. Vahid nəqliyyat məkanının yaradılması yolunda bunların aradan qaldırılması - nəqliyyat dəhlizlərinin köməyi ilə - AİB-nin hər bir üzvünün ixrac potensialını ildə 15% artıracaq. [5]. Logistika infrastrukturunun rəqəmsallaşdırılması (rəqəmsal nəqliyyat dəhlizlərinin yaradılması) AİB-da nəqliyyat əlaqələrinin səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaqdır. Bu ekosistemin yaradılması layihəsi Avrasiya hökumətlərarası Şurası tərəfindən 31 yanvar 2020-ci il tarixində "Digital Almaty" Forumunda təsdiq edilmişdir. Layihənin həyata keçirilməsi planları marşrutların hesablanması üçün xidmətlərin yaradılması, elektron yol vərəqələrinin, elektron beynəlxalq nəqliyyat vərəqələrinin, daxili işlər orqanları tərəfindən elektron yoxlama protokollarının və s.Sənayedə innovativ yanaşmaları birləşdirən nəqliyyat dəhlizləri beynəlxalq siyasət subyektlərinin iqtisadiyyatın inkişaf səviyyəsi və innovativ yenidən qurulmada irəliləməsi ilə müəyyən edilən geosiyasi status qazanmasında mühüm amildir. Bu baxımdan, ND-nə nəzarət, qlobal rabitə sistemində müəyyən bir yer və rol tələb edən inkişaf etməkdə olan bir dövlətə də müəyyən bir ödəmə və siyasi əhəmiyyət verə bilər.

**Nəticə**

Beləliklə, milli, regional və beynəlxalq nəqliyyat dəhlizləri birbaşa məqsədləri ilə yanaşı - ərazilərin sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə yanaşı mühüm və ayrılmaz geosiyasi kontekstə malikdir. Qlobal geosiyasi landşaftın keyfiyyətcə yeni mürəkkəblik səviyyəsi ilə nəticələnən nəqliyyat dəhlizləri iki dialektik əks tendensiyaya başlayır: kommunikasiyaların intensivliyini və sürətini artıraraq və yeni ərazilərin qlobal nəqliyyat sisteminə inteqrasiyası səbəbindən genişlənməsi ilə" məkanın sıxılması". Belə xüsusiyyətlərə malik olan ND-lər sivilizasiya məkanının geosiyasi "dizaynının" "qurulması" üçün təsirli bir vasitəyə çevrilirlər. Geosiyasət baxımından nəqliyyat dəhlizləri onun istiqamətləndirici vektorlarını institusionalizasiya etmək üçün bir vasitədir və multimodal logistika mərkəzləri nəqliyyat kommunikasiyaları üzrə trafiki artıra və ya məhdudlaşdıra bilən "idarəetmə klapanları" funksiyasını yerinə yetirir və buna görə də onların tənzimlənməsi üçün rəqabət vasitəsi kimi mühüm rol oynayır. Yuxarıda göstərilənlərin işığında nəqliyyat dəhlizlərini vahid texniki, idarəetmə və hüquqi infrastruktur əsasında təşkil edilmiş, ərazilərin sosial-iqtisadi inkişafı, milli maraqların təşviqi və geosiyasi mənzərəni müəyyənləşdirən kütləvi nəqliyyat axınları məkanı kimi müəyyənləşdirmək mümkün görünür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Вардомский Л.Б., Тураева М.О. Развитие транспортных коридоров постсоветского пространства в условиях современных геополитических и экономических вызовов (научный доклад). М.: Институт экономики РАН. 2018. С. 4.
2. Жунусов А.О. Драйверы развития инфраструктуры: цифровая повестка // Инновации транспорта. 2018. № (31). С.6
3. Ханна П. Коннектография. Будущее глобальной цивилизации. М.: ООО «Манн, Иванов и Фербер», 2019. 432 с.
4. Middle-Corridor. Trans Caspian Transporte Poute // https://middlecorridor.com/ru (05.05.2021).
5. Status of the Pan-European Transport Corridors and Transport Areas. TINA Office Vienna-Corridor Status Report. 1998. P. 3.

**Лариса Алексеевна АЛЫШАНОВА**
Научный сотрудник Института истории и
этнологии им.А.А.Бакиханова Национальной
Академии Наук Азербайджана
E-mail: a.alishanova@yahoo.com

# ИЗ ИСТОРИИ ЛИКВИДАЦИИ ОТНОШЕНИЙ, СОЗДАННЫХ НАЦИОНАЛИЗАЦИЕЙ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА (1918-1919 гг.)

**Summary**

The Liquidation Commission was established by the government led by Fatali khan Khoyski. The Commission was primarily focused on the economic issues that arose as a result of the nationalization policy implemented in the oil industry. The Liquidation Commission made important economic decisions to restore relevant relations between all sectors of the oil industry, including production, sales, banking, and others.

**Key words:** nationalization, oil industry, production

## Введение

Работа по ликвидации Бакинского Совета Народного Хозяйства была начата Ликвидационной Комиссией 3 декабря 1918 года. Главной задачей Ликвидационной Комиссии было распутать сложные отношения, созданные осуществлённой большевистским правительством национализацией нефтяной промышленности и предприятий подрядного бурения. С объявлением денационализации восстанавливались начальные отношения, и все произведённые за период национализации операции предстояло трансформировать таким образом, будто они были совершены при существовании частной собственности.

## Основной текст

В период национализации казна была и de jure и de facto единственным собственником всех нефтяных предприятий и соответствующих им производств. Отдельные фирмы, являясь как бы уполномоченными Государственной казны, должны были отчитываться перед своим доверителем, т.е. перед Государственной казной. А так как Государственная казна в период действия Ликвидационной Комиссии представляется Азербайджанским правительством, то фирмы должны, в конечном счёте, рассчитываться именно с Азербайджанским правительством.

Учреждению, ликвидирующему данные национализацией промышленности отношения, предстояло решить следующие задачи:

1. Прежде всего, следовало выяснить отношения национализированных фирм к государственному казначейству, российскому и азербайджанскому, т.е. определить сумму долга казначейству каждой нефтепромышленной и подсобной фирмы

2. Затем как для расчётов фирм между собою, так и для распределения потерь и убытков, вызванных национализацией, являлось необходимым выяснить товарные счета всех национализированных фирм.

3. На четырёх нефтепроводах общего пользования (Арамазд, Бакинский нефтепровод, Балаханский и Бинагадинский) с объявлением национализации было взято на учёт и объявлено государственной собственностью значительное количество нефти. Часть этой нефти принадлежала нефтепромышленным фирмам и должна была показана в общей сумме остатка на 1 июля нефтепромышленными фирмами. Часть же нефти принадлежала торговцам нефтью и случайным приобретателям и хранилась по документам, имеющим обращение на рынке как товарный документ (ордерная нефть). Документы эти с объявлением нефтяных запасов

государственной собственностью были изъяты из рыночного обращения, в большинстве отобраны от владельцев и заменены квитанциями Совета Народного Хозяйства.

4. Кроме промышленной нефти, в распоряжение Совета Народного Хозяйства поступили все запасы и поступила текущая добыча с предприятий ручной добычи, которые не были национализированы. Нефть эта приобреталась по цене 92–96 коп. за пуд и расчёт за неё производился через частные нефтепроводы. Следовательно, необходимо было выяснить количество этой нефти, сумму денег, отпущенную для расплаты с собственниками с нефтепроводов, и произвести расчёт с теми и другими.

5. Особенное значение для расчётов имело выяснение количества вывоза из Баку морем и судьба вывезенного товара. Поэтому ликвидирующему учреждению предстояло выяснить, какое количество, каким судном и на какой адрес было вывезено нефти и продуктов по распоряжению Совета Народного Хозяйства, и какое по инициативе экспортирующих фирм.

6. Также предстояло выяснить долг Совета Народного Хозяйства нефтепромышленных фирм за отпущенные по ордерам товары, и должников Совета по товарному отпуску.

**Заключение**

Таковы главные вопросы, которые предстояло выяснить ликвидирующему учреждению для ликвидации отношений, созданных национализацией нефтяной промышленности. Кроме того, по хозяйственной деятельности Совета по реквизициям, производившимся Советом довольно широко и по разного рода претензиям к Совету, предстояло выяснить ряд менее сложных вопросов и определить задолженность Совету ненационализированных предприятий, пользовавшихся ссудами на уплату по табелям рабочим и служащим.

Таким образом, Ликвидационная Комиссия вынуждена была, как в интересах казны, так и нефтепромышленников заняться выяснением всех спорных вопросов по взаимным расчётам, как между казной и промышленниками, так и между промышленниками, чтобы путём выяснения основных принципов расчёта подготовить путь миролюбивого разрешения спорных вопросов и недоразумений.

**Литература**

1.Азербайджанская Демократическая Республика (1918–1920), Эльм, Баку, 1998, с. 50-65
2.Законодательные акты. Сборник документов. Баку, 1998, д.276, с.238.
3. Государственный архив Азербайджанской Республики, ф.24, оп.1, д.42, л.51–52.
4. Государственный архив Азербайджанской Республики, ф.24, оп.1, д.42, л.9.

**Səbinə Səbuhi ALIYEVA**
Bakı Dövlət Universiteti
E-mail: sabinalyeva@mail.ru

## NADİR ŞAH ƏFŞARIN ORDU QURUCULUĞU VƏTƏN TARİXŞÜNASLIĞINDA

**Summary**

In 1736, Nadir Shah Afshar deposed Shah Abbas III, the last minor ruler of the Safavid state of Azerbaijan, which had existed for many years, 1501-1736. Nadir Afshar founded the Afshar Empire. One of the main conditions for a strong state is a strong, intelligent ruler with strategic intelligence and a strong, regular army. The basis of Nadir Shah Afshar's successful policy was a strong, regular army.

**Keywords:** army, navy, military, troops, ship

**Giriş**

Nadir şah Əfşar haqqında sovet tarixşünaslığına nəzər saldıqda, onun yalnız qəddarlıqları, göz çıxarıb, baş kəsmələri, zülmləri haqqında danışılır. Əslində tarixçi bir tarixi hadisə haqqında yazarkən, öz subyektiv hisləri kənara qoymalı, obyektiv tarix haqqında yazmalıdır. Lakin reallıq odur ki, tədqiqatçı obyektiv tarix yazmaq istəsə belə, həmdə mövcud siyasi şəraiti nəzərə alır. Təbii ki, sovet dövründə yaşayıb, Nadir şahın uğurlarından, tarixdə ordu quruculuğu sahəsində etdikləri yazmaqları mümkünsüz idi. Çünki Nadir xan Azərbaycan Səfəvilər dövründə yadelli hücumların qarşısını almış, ən başda rusları ölkədən qovub çıxarmışdı. Sovet hakimiyyəti məhz bu səbəbdən Nadir şah Əfşarın uğurlarından deyil, hər daim uğursuzlarından, qəddarlıqlarından yazmışlar.

Mövzu ilə bağlı sovet tarixşünaslığında demək olar ki, məlumat yoxdur. Ölkəmiz yenidən müstəqillik əldə etdikdən sonra, Azərbaycan tarixi yenidən, tam obyektiv yazılmağa başlanılmışdır. Çağdaş vətən tarixşünaslığımızda isə Nadir şah haqqında əsər yazanlardan ilki Cahangir Hüseyn Əfşar olmuşdur. Əsər "Azərbaycan Nadir Əfşar dövləti" adlanır. Müəllif əsəri Nadir şah Əfşarın 325 və Əfşar imperiyasının isə 280 illliyinə həsr etmişdir. C.H.Əfşar əsərin dördüncü fəslini ümumilikdə Nadir şahın hərbi yürüşləri, ordu, donanma quruculuğuna həsr etmişdir. Digər bir əsər Mehman Süleymanovun "Nadir şah" əsəridir. M.Süleymanovda əsərin altıncı fəslində Nadir şahın qoşunları haqqında yazmışdır. Tarixçi professor Tahirə Həsənzadə "XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri" əsərində Əfşar imperiyasının yaranması fəslində Nadir şah Əfşar adlanan yarımbaşlıqda Nadir şahın ordu quruculuğu haqqında qısa məlumat vermişdir. Son dövrlərdə isə akademik Yaqub Mahmudov və Tofiq Mustafazadənin birlikdə yazdıqları "Nadir şah Əfşar (tarixin gedişini dəyişən sərkərdə)" adlı əsərlərində müəlliflər Nadir şahın daxili və xarici siyasəti adlanan ikinci fəslin yarımbaşlıqlarından birində Nadir şahın ordu quruculuğu sahəsindəki uğurları haqqında bizə məlumat vermişlər.

**Əsas mətn**

Dövlətin güclü olması üçün, hökmdarının güclü, ağıllı strategiya malik olması kifayət deyildir. Həmçinin güclü, yenilməz orduya malik olmalıdır. Nadir şah Əfşar imperiyasını qurduğu zaman heç bir bazaya sahib olmadan özünün nizami ordusunu yaratmağa başladı. Çünki, Azərbaycan Səfəvilər dövründə taxtda çıxan hər bir hökmdar özündən əvvəlki hökmdarın qoşunu yəni, dövlətin özünün qoşunu olduğu üçün sıfırdan qoşun yaratmırdı. Amma Əfşar imperiyası yeni yarandığı üçün, qoşun yaratmaq zəruri idi. Nadir gənclik illərində ətrafına toplamış olduğu azsaylı dəstəsini zamanla böyütmüş və o hakimiyyətə gəldiyi zaman dünyaya meydan oxuya biləcək bir ordu halına gətirmişdi. Nadir şah yaratdığı qoşunda özündən əvvəlki ordu quruculuğu motivlərini saxlamışdı. Məhz bu səbəbdən bəzən Əfşar ordusunun Azərbaycan Səfəvilər dövlətinin ordusundan fərqlənmədiyini bildirirdilər. Əslində isə bu fikir yanlışdı. Dövrün inkişafı hərbi texnikanında inkişafına şərait yaratmışdı. Həmçinin Nadir qarşıya qoyulan məqsədə çatmaq üçün olan vəzifələrdə də yeniliklər etdi. M.Süleymanov yuxarıda adı çəkilən əsərində qeyd edir ki, Nadir ordunu daimi və müvəqqəti olaraq ayırmışdı. Səfərbəylik həm könüllülük, həm də məcburi formada həyata keçirilirdi. Hərbi uğurların artması, qoşunlarında maaşlarının artması ilə nəticələndiyi üçün, ordu da könüllülük prosesi daha çox özün göstərirdi. Nadir də Səfəvilər kimi ordunu onluq, yüzlük, minliklərə bölmüşdü [4]. C.H.Əfşar və M.Süleymanov ordunun onluqlara bölünməsi haqqında yazırlar ki, ordunun onluq say sisteminə görə bölünməsi lap Səfəvilər dövründən mövcud olmuşdur. Nadir şah da bu ənənəyə sadiq qalmışdı. Ordunun onluqlara bölünməsi cüxə adlanırdı. Müəlliflər qeyd edir ki, cüxəyə daxil olanlardan doqquzu sıravi döyüşçü, bir nəfər isə vəkil və ya onbaşı adlanırdı. 10 cüxənin birləşməsi isə yüzlük qoşun növünü yəni dəhcuxəni yaradırdı. Bəzən dəhcuxələr dəstə də adlandırılırdı. 10 vahid dəhcuxənin birləşməsi isə minlik qoşun növünü yəni fövc yaradırdı. Fövc isə öz növbəsində alay adlanırdı. Onlara minbaşı rəhbərlik edirdi [1], [4].

Adı çəkilən hər iki müəllif M.Astrabadinin "Aləm Ara-ye Naderi" əsərinə istinadən yazırlar ki, Hindistan səfərindən geri qayıdan Nadir şah öz ordusuna baxış keçirdi. Baxış zamanı sərkərdələr, tayfa başçıları, ağsaqqallar, onbaşılar, əllibaşılar, yüzbaşılar, minbaşılar, yasovullar, rikalar, nəsəğçilər, çəndovullar, carçılar, çavuşlar və qədimilər cahan sahibini salamlamağa hazır oldular [1], [4]. Biz buradan Nadir şah Əfşarın qoşunun hansı tərkibə bölündüyünü öyrənmiş oluruq.

Dövrün bir sıra mənbələrindən aydın olur ki, Nadir şahın ordusunda "tip" və "ləşgər" terminlərindən istifadə olunmuşdur. Həm "tip", həm də "ləşgər" bir necə fövcün birləşməsindən yaranırdı. Səfəvilər dövləti ilə müqayisədə "tip" qoşun növü yeni idi.

Yaqub Mahmudov və Tofiq Mustafazadə yuxarıda adı çəkilən əsərlərində qeyd edirlər ki, Nadir şahın ordusunun özünəməxsus xüsusiyyətlərindən biri o idi ki, piyada qoşunun atları var idi. Piyadalar atlardan uzun səfərlər zamanı, sürətli hərəkət etmək üçün istifadə edirdilər [3].

Bütün tarixçilərin ortaq bir fikri kimi deyə bilərik ki, Nadir şah Ərəb işğallarından sonra hərbi-dəniz qüvvələrinin yaranmasına təşəbbüs göstərmiş ilk şah olmuşdu. Bununla bağlı T.Həsənzadənin yuxarıda adı çəkilən əsərində müəllif qeyd edir ki, onun Avropada dəniz donanmasının fəaliyyəti haqqında məlumatı var idi. Buna görə də Nadir şah Xəzər dənizində və Fars körfəzində donanma yaratmaq üçün İngiltədən bir neçə gəmi almışdır. Nadir 1740-cı ildə Buşehrdə hərbi gəmilərin hazırlaması planı həyata keçirməyə çalışırdı. Lakin gəmilərin hazırlanmasında bir sıra problemlər

özünü göstərirdi. Ilk problem Fars körfəzində gəmi hazırlamaq üçün ağacların olmaması idi. Nadir göstərişi ilə, ağac və taxtalar Mazandaran meşəsində hazırlanıb, 900 km məsafədən Buşehrə aparılmalı idi. Hətta ağacların aparılmasıüçün arabalar hazırlanmışdı. Amma yollar dərələrdən və təpələrdən keçdiyi üçün işçilər ağacları əlləri ilə daşımağa məcbur olmuşdular [3]. Əl əməyi ilə böyük, məsuliyyətli bir işin həyata keçirilməsi çox çətinidi. M.Süleymanov qeyd edir ki, Nadir şahın gəmiçiliklə bağlı xəyalları yarımçıq qalmışdı. O, öldürülən zaman Buşehrdə yalnız bir gəminin quraşdırılma işlərinin yarısı görülmüşdü. Nadir şahdan sonra o da yarımçıq qalıb, tamamlanmadı [4].

T.Həsənzadə isə qeyd edir ki, Nadir hətta Bəndər Abbas limanında da bir neçə gəminin düzəldilməsini buyurmuşdu. Gəminin hazırlanması işində əhali fəal iştirak etmiş, 300 fərsəxdən (S.A – 1 fərsəx təqribən 5-8 km) iri ağaclar gətirmişlər. Donanma hazırlanan zaman minlərlə insan tələf olmuşdur. Nadir şahın öldürülməsi donanmanın fəaliyyətini yarımçıq qoydu [2].

Nadir şah Əfşar hətta Xəzər dənizində də gəmiçiliyin inkişafı çalışmışdı. O, Dağıstan səfəri zamanı əvvəllər Rusiyada çalışmış Con Eltonla qarşılaşmışdı. Nadir şah istəyirdi ki, C.Eltonun rəhbərliyi ilə Xəzər dənizində gəmiçiliyin inkişafına nail olsun. Çünki Xəzərin şərq sahillərindəki quldur, qaçaqçıların kökünü təmziləmək və Xəzər dənizin cənu sahili ilə Həştərxan arasında ticarət gəmiçiliyini təsis etmək istəyirdi. Bununla ölkənin mərkəzi ilə Dağıstan arasında əlaqə yaratmaq xeyli asanlaşacaqdı. 1743-cü ildə Nadir şah C.Eltonu gəmiqayırma işlərinin rəhbəri təyin etmiş, ona Camal bəy adını vermişdir. Camal bəy yalnız gəmi hazırlanması ilə məşğul olmur, eyni zamanda Xəzərin cənub, şərq sahillərində öyrənirdi. Nadir şahın məqsədi Xəzər dənizinin münasib yerində qala tikdirməklə, həm Xəzər dənizinə olan niyyətini açıq göstərmək, həmdə dəniz quldurçuluğun qarşısını almaq idi. C.Eltonun əzmkarlığı və onunla çalışan rus və hind ustalarının təcrüəsi, qabiliyyəti nəticəsində Xəzərdə ilk gəmini üzdürə bildirlər [4]. T.Həsənzadə qeyd edir ki, Nadirin sağlığında Xəzərdə bir neçə gəmi üzür, üç gəminin isə hazırlamasına başlanılmışdı. Nadirin öldürülməsi bu işi yarımçıq qoymuşdu [2].

**Nəticə**

Ümumiyyətlə, Nadir şah Əfşarın 1747-ci ildə öldürülməsindən sonra imperiya həddindən artıq zəifləmişdi. Daxildəki hərc –mərclik imkan verməmişdi ki, gəmiçilik inkişaf etsin. Nadir şahın öldürülməsindən sonra da 1751-ci ilə qədər Con Elton gəmiçilik işini davam etdirməyə çalışmışdı. Lakin 1751-ci ildə onunda öldürülməsidən sonra gəmiçilik işi tamamilə yarımçıq qalmışdı.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əfşar C. H. Azərbaycan Nadir Əfşar dövləti. Bakı, 2014, 256
2. Həsənzadə T.D. XVIII – XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri, Elm və Təhsil, Bakı, 2013, 283 s.
3. Mahmudov Y., Mustafazadə T. Nadir şah Əfşar (tarixin gedişini dəyişən sərkərdə). Turxan NP, Bakı, 2019, 248 s.
4. Süleyman M. Nadir Şah, Neqare Endişe nəşriyyatı, Tehran, 2010, 741 s.

**Aygün Musa MƏMMƏDOVA**
Milli Azərbaycan Tarixi Muzeyinin "Fondların uçotu və elmi təsnifatı" şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
Qərbi Kaspi Universitetinin "Tarix" kafedrasının müəllimi
E-mail: aygun_kons@mail.ru

# AZƏRBAYCAN NUMİZMATİKASININ UNİKAL FAKTLARI: NAXÇIVAN SİKKƏLƏRİ

## Summary

The article provides information about the coins minted in Nakhchivan, the main trade and production center since ancient times, with reference to the materials in the Numismatic Fund of the National Museum of Azerbaijan History. Coin minting in the Nakhchivan mint, which has been operating since ancient times, continued during the khanate period. Such coins, made by the hands of local artisans, are distinguished by their artistic and epigraphic design at different historical stages.

Such coins with different coin denominations (dirham, drachma, abbasi, fels) found in single or hoard form were produced in Nakhchivan, Gilan, Ordubad, Sharur city-mints.

In Nakhchivan (city of Nakhchivan, Ruined Gilan, Ordubad, Sharur, Shahbuz, etc.), both archaeological excavations and numismatic finds discovered by chance are important in determining trade relations.

Such unique coins minted from various precious metals (gold, silver, copper) present the historical, religious, economic, and cultural relations of the Eastern peoples as well as their unique worldview as bright facts confirming the statehood of Azerbaijan. Coins minted and found in Nakhchivan allow us to follow the activity of this city-mint in chronological order.

Preservation of historical artifacts, transmission to future generations and training of educated specialists are among the important issues of our time.

**Keywords:** Nakhchivan, coin, treasure, museum, trade

**Giriş**

2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyi tamam olur. Naxçıvanda zərb edilən və aşkarlanan müxtəlif dövrlərdə bu regionun fəaliyyətini təsdiq edir.

**Əsas mətn**

**Naxçıvan zərbxanasının ilk sikkələri.** Naxçıvanda ilk zərbxana Sasani şahənşahı I Xosrovun (531-579) üçüncü hakimiyyət ilində təsis edilmişdir.

Numizmatik faktlara əsasən, Azərbaycanın ilk zərbxanalarından olan Naxçıvanda pəhləvi hərfləri ilə  (NXÇ) sözünün həkk edildiyi gümüş drahmaların zərbi digər Sasani şahənşahları – IV Hörmüzd (579-590), VI Bəhram Çubin (590-591), Vistahm (Bistam – 591-592), II Xosrov Pərviz (Şəhribaraz, 590 - 628), VI Bəhram (590-591), Bistam (591-592), I Hörmüzd (593), II Qubad (628), III Ərdəşir (628-630), II Pərviz (Şəhrbaraz - 629), III Xosrov (629-631), Buran (630-631), Azərmiduxt (631), V Hörmüzd (631-632), IV Xosrov (631 - 637), III Yəzdigərd (632 - 651) dövründə də davam etmişdir. Belə gümüş drahmalara pəhləvi yazıları (şahənşahın adı, zərb ili, zərb yeri) və müxtəlif təsvirlər (taclı şahənşah, ayparayla ulduz, atəşgah, iki mühafiızəçi və d.) həkk edilib.

Sasani şahənşahları dövründə bir əsrdən artıq müddətdə fəaliyyət göstərmiş Naxçıvan zərbxanasının dirhəmləri Böyük İpək Yolu vasitəsilə Şərqlə Qərb arasındakı ticarətdə iştirak edirdilər.

**Naxçıvan zərbxanası (XII – XIV əsrlər).** XI – XIII əsrlərdə Yaxın Şərqdə olduğu kimi, Azərbaycanda da sikkələrə yaranan tələbatla əlaqədar olaraq mis dirhəm və felslərin zərbi artmışdı. Azərbaycan hökmdarları - şirvanşahlar və atabəyləri sikkə zərbi hüququndan yararlanaraq dövrün hərbi strateji baxımdan qüdrətli şəhərlərində sikkə zərbi işini icra edirdilər.

Azərbaycan atabəyləri dövründə belə şəhərlərdən biri də Naxçıvan idi. Şəmsəddin Eldəniz (1136-1175), Muhəmməd Cahan Pəhləvan (1175-1186), Qızıl Arslan Osman (1186-1191), Əbubəkr Bişkin (1191-1210), Muzəffərəddin Uzbək (1210-1225) dövrünün müxtəlif çəkili mis sikkələri – dirhəm və felsləri bir sıra Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda zərb edilmişdir. Belə sikkələrə zərb yeri, hicri qəməri təqvimə müvafiq zərb ili, hökmdar adı, titulu həkk edilirdi.

Monqol istilasından sonra Azərbaycanın bir sıra əhəmiyyətli şəhərlərində - Gəncə, Təbriz və Naxçıvan, Gilanda gümüş dirhəmlər zərb edilmişdir. Belə dirhəmlərə atlı təsviri və yazılar (zərb yeri, hicri qəməri təqvimə müvafiq zərb ili) həkk edilirdi.

Elxanilər dövrünə aid numizmatik tapıntılara əsasən Hülakü (1256-1265), Abaqa (1266-1281), Əhməd Tekudar (1282-1284), Arqun (1284-1291), Keyxatu (1291-1295), Qazan Mahmud (1295-1304), Ulcaytu (1303-1316), Əbu Səid (1316-1335), Arpa (1335-1336), Musa (1336), Muhəmməd (1336-1338), Satibəy (1339-1340), Süleyman (1340-1344), Ənuşirvan (1344-1356) dövründə Naxçıvanda gümüş dirhəmlər və felslər zərb edilmişdir. Numizmatik tapıntılara əsasən Müzəffərilər, Cuçilər, Cəlairilər, Teymurilər dövründə də Naxçıvanda sikkə zərbi davam etmişdir.

**Səfəvilər dövrünün Naxçıvan və İrəvanda sikkələri.** Səfəvi hökmdarları - I İsmayıl (1501-1524), I Təhmasib (1524-1576), II İsmayıl (1576-1577), Muhəmməd Xudabəndə (1578-1587), I Abbas (1587-1628) və ardıcılları dövründə Naxçıvanda yüksək əyarlı və kalliqrafik baxımdan mükəmməl səviyyəli

gümüş sikkələr zərb edilmişdir.Azərbaycanın müxtəlif məkanlarında Səfəvilər dövrünün gümüş sikkələri (şahı, məhəmmədi, abbası, bisti) aşkarlanmışdır. XVI əsrdə Osmanlı-Səfəvi müharibələri Naxçıvan zərbxanasının fəaliyyətinə təsir göstərsə də, sonrakı dövrün numizmatik faktları bu nəticəni vermir. Səfəvi hökmdarları - I Süleyman (1668-1694) və I Hüseyn (1694-1722) dövrünün sikkələrinin sabit çəkisi və əyarı ilə diqqəti cəlb edir.

XVI əsrdə İrəvanda qızıl əşrəfilər və gümüş şahıların zərbinə başlanılmış və növbəti yüzillikdə bu zərbxana fəaliyyətini davam etdirmişdir. Belə sikkələrə İslam ifadələri, şeirlər, hökmdar adı, zərb yeri və hicri tarixlə zərb ili həkk edilib.

**Naxçıvan və İrəvan xanlıqlarının sikkələri.** Naxçıvan və İrəvan xanlıqlarının dövrümüzədək gəlib çatan gümüş və mis sikkələri bu şəhər-zərbxanaların fəaliyyətini təsdiq edən son yadigarlardır. Yüksək texniki və bədii tərtibatlı belə gümüş abbasılar və mis felslər unikal numizmatik faktlardır. Belə sikkələrə şeirlər, zərb tarixi və yeri həkk edilib. Xanlıqlar dövründə Naxçıvan və İrəvanda zərb edilən mis sikkələrə yazılarla birgə heyvan təsvirləri (pələng, quş, iki balıq, dəvə, meymun, fil) həkk edilib.Belə sikkələr bir sıra dünya muzeylərində, o cümlədən Milli Azərbaycan Tarixi Muzeyində qorunur.

**Nəticə.**

Naxçıvan sikkələri Azərbaycan dövlətçiliyini təsdiq edən unikal faktlardır. Onları qorumaq və təbliğ etmək hər bir vətəndaşın borcudur.

**Mübariz SÜLEYMANOV**
BDU-nun Qazax filialının baş müəllimi
E-mail:mubariz.suleymanov.74@bk.ru
**Aygün ƏLƏKBƏROVA**
BDU-nun Qazax filialının magistrantı,
E-mail: aygunelekberov50@gmail.com
ORCİD: 0009-0008-8808-3563

## AZƏRBAYCAN TARİXİ TƏDRİSİNDƏ İKT-DƏN İSTİFADƏNİN ZƏRURİLİYİ

**Summary**

History is one of the important subjects in the educational process,The main goal of this thesis is to highlight the important role of the use of from İCT in the students understanding of the lesson and their active participation in the lesson when teaching history. İn general, it should be noted that the use of from İCT during lesson is an objective and natural requirement today.Therefore the effect to the feeling and consciousness should be taken as the basis in the lesson, its way and from should be found by the teacher himself. At this time ,one of the most effective means is the use of İCT.

***Key words:*** history of Azerbaijan, İCT, computer, pupil, teacher,visibility.

**Giriş**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il sərəncamla "Azərbaycan Respublikasında ümumitəhsil məktəblilərinin informasiya və kommunikasiya, texnologiyaları ilə təminatının Proqramı"nı təsdiq etmişdir. Həmin sərəncamdan sonra ümumitəhsil məktəbləri İKT-ilə təminatı geniş yayıldı.

**Əsas mətn**

Məktəblərdə əyaniliyin tədris olunmasında yeni informasiya texnologiyalarının rolu əvəzsizdir. Araşdırmalardan görünür ki, təlimdə İKT-dən istifadə didaktik prinsipləri yeni məzmunla zənginləşdirir. İnformasiya və kommunikasiya texnologiyalarının vasitəsi kimi proqram, proqram-aparat, texniki vasitələr və qurğular götürülür. Nəticə olaraq deyə bilərik ki, beşdən on birinci sinifə qədər həm Azərbaycan tarixi, həmdə ümumi tarix kurslarının tədrisində İKT-dən istifadə şagirdlərin

nümunəvi vətəndaş kimi formalaşmasında mühüm rol oynayır. Azərbaycan tarixi tədrisində İKT-dən istifadənin zəruriliyinin təbliği ümumtəhsil və ali məktəb müəllimlərinin diqqətini həmin problemə yönəltməyə kömək edir. Şagirdlər yeniliyi xoşlayır. Onlar müəllimlə hər görüşlərində bizdən yeni nə isə gözləyirlər. Məhz buna görə müasir dərs müəllim yaradıcılığı olmaqla onun düşüncə və təxəyyülünün məhsulunu özündə birləşdirir. Bütün fənlərdə olduğu kimi tarixdə də interaktiv təlim metodlarını geniş tətbiq etmək mümkündür. İKT-dən istifadə bu üsulları daha maraqlı edir. Çünki internetdə dərsi maraqlı edə biləcəyimiz çoxlu sayda resurslar var. Tədris olunan tarix dərslərində bütün şagirdlərin, məsələn passiv, utancaq, bilik cəhətdən digər yoldaşlarından geri qalan şagirdlərin dərs prosesinə aktiv qoşulmasına şərait yaradır. İnteraktiv dərs zamanı ən pis oxuyan şagird belə dərsə etinasız qala bilmir. Amma nəzərə almaq lazımdır ki, texnologiyada müəyyən problemlər və nasazlıqlar yarana bilər, bu zaman müəllimin alternativ dərs planı,peşəkarlığı və ustalığı vacibdir.

**Nəticə**

Tarix fənni səhnələşdirmə, Venn diaqramı, klaster, müzakirə, debat kimi metodlardan geniş istifadəyə imkan verir. Nəzərə alsaq ki, şagird üçün müəllim hər şeyi biləndir, müəllimdə mütləq müxtəlif kompüter proqramlarında işləmək qabiliyyəti olmalıdır. Odur ki, müəllimlərin cəlb edildiyi İKT kursları, təlimləri ilə yanaşı,o özü də öyrənməyə çalışmalıdır.Əslində öyrətmək yenidən öyrənməkdir. İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, dahs maraqlı edir, onu dinamik və çevik edir. "Müəllim-şagird-dərslik" modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, uşağın dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Məktəb tarix kursunda, metodiki prosesdə hansı vasitələrdən, texnologiyalardan, resurslardan istifadə edilməsindən asılı olmayaraq, insan amili, müəllimin şəxsiyyəti həlledici rola malikdir. Heç bir texnologiya canlı müəllimi əvəz edə bilməz.

## ƏDƏBİYYAT SİYAHISI:

1. M.Əmirov. "Tam Orta Məktəbdə Tarixin Fəal/İnteraktiv Təlimi Metodikası ". Bakı (2011).
2. Azərbaycan Respublikasında ümumitəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı. Bakı (2005).

**Ulviyya Ibrahim BAGIROVA**
Baku State University
E-mail: bagirova-ulviya@mail.ru

# REVIEW OF THE GEORGIAN-SOUTH OSSETIAN CONFLICT OF 1991-1992: RUSSIAN PARTICIPATION IN ITS RESOLUTION

**Summary**

The collapse of the USSR contributed to the aggravation of interethnic relations, which in some cases led to armed ethnic conflicts. On January 5, 1991, the South Ossetian War began - the hot phase of the Georgian-Ossetian conflict that had lasted since the late 1980s. Both sides suffered significant losses. The fighting of varying degrees of intensity lasted until June 1992, when it was ended through Russian mediation. The Georgian-Ossetian conflict continues to be of special attention to leading politicians, analysts, the media and the general public.

**Key words:** Armed conflict, Georgia, South Ossetia, Russia, Dagomys agreement.

**Introduction**

Since the collapse of the USSR, Ossetian-Georgian relations have experienced periods of aggravation and easing of tension. The basis of the Georgian-South Ossetian` conflict was laid during the establishment of Soviet power. In 1923, South Ossetia received the status of an autonomous region

within the Georgian SSR.[1] The decision of the South Ossetian Autonomous Region to transform its own territory into a republic within the Georgian SSR caused dissatisfaction on the part of the Georgian government. South Ossetia's desire to gain independence deepened Georgian-South Ossetian contradictions, which subsequently led to war.

**Bady part**

The events of April 9, 1989 in Tbilisi led to a sharp increase in the national movement in Georgia (As it is known, on April 9, 1989, units of the armed forces of the Soviet Union dispersed a peaceful protest in the center of Tbilisi, near the parliament building, which led to the death of people). At that time, South Ossetia was part of the Georgian SSR as an autonomous region. When the question of self-determination arose in the Soviet republics, the inhabitants of the region once again raised the issue of independence and obtaining the status of an autonomous republic. On November 10, 1989, at the XII session of the Council of People's Deputies of the South Ossetian Autonomous Region, it was decided to transform the autonomous region into an autonomous republic within Georgia, and South Ossetia appealed to the Supreme Council of the Georgian SSR and the Supreme Soviet of the USSR with a request to consider this issue. [2]

In April 1990, the USSR adopted a law defining the procedure for the republics to secede from the Soviet Union. According to this document, the autonomous region, which was part of the republic, in this situation could independently decide whether to remain part of the USSR or withdraw from it along with the entire republic. This document gave South Ossetia the right to remain part of the USSR after Georgia seceded from it. After that, the confrontation between Georgia and South Ossetia escalated.

In the summer of 1990, Georgia announced that it did not recognize all legal acts adopted after 1921, when Soviet power was established in the republic. This included the decision to grant South Ossetia the status of an autonomous region. In September 1990, the South Ossetian Regional Council decided to transform South Ossetia into an independent republic; in November of the same year, this decision was again confirmed at the next session of the council. The Georgian side did not recognize the document. [3]

On the night of January 5-6, 1991, by order of the Chairman of the Supreme Council of Georgia Z. Georgian armed formations were sent to Tskhinval by Gamsakhurdia, who tried to establish control over the city. A regiment of internal troops of the USSR, despite warnings from the South Ossetian leadership about an impending attack, removed posts at the entrance to Tskhinvali and let the Georgians through.The lack of legitimate leadership in the Region and real sources of power led to the uncontrollability of the situation on the Ossetian side, which significantly worsened the overall picture of the confrontation and aggravated its negative consequences. As a result, the political life of South Ossetia at that time was instantly in a state of anarchy and chaos.[4] The tense situation escalated into open military confrontation, which led to numerous casualties on both sides. According to various estimates, from November 1990 to July 1992, from 2 to 4 thousand people died as a result of the conflict.

On January 7, USSR President Mikhail Gorbachev issued a decree condemning both the declaration of sovereignty of South Ossetia and the actions of the Supreme Council of Georgia, as well as demanding the withdrawal of all armed formations from the region, except for units of the USSR Ministry of Internal Affairs. This requirement was not met. The Supreme Council of Georgia decided that the decree constituted gross interference in the internal affairs of the republic.

The final outcome of the armed confrontation was influenced by political instability in Georgia itself, where at the end of 1991 - beginning of 1992 a civil war broke out and a coup d'etat took place, Zviad Gamsakhurdia was removed and fled, and power in Georgia passed to the Military Council. In March 1992, the Military Council transferred power to the State Council headed by Eduard Shevardnadze.

The new Georgian leadership provoked military action in South Ossetia in the spring of 1992. By mid-June, Georgian troops came close to Tskhinvali, which created a real threat of capturing the city. Under pressure from the Russian leadership, however, Eduard Shevardnadze was forced to make concessions and begin negotiations on a peaceful settlement. [5]

**Conclusion**

The result of the conflict was the signing of a peace agreement, mediated by Russia. On June 24, 1992, the famous Sochi Agreements were signed, marking the beginning of a short period of peace in the series of Georgian-Ossetian confrontations. In Sochi (Dagomys), Russian President Boris Yeltsin, Chairman of the State Council of the Republic of Georgia Eduard Shevardnadze and representatives of South and North Ossetia signed an Agreement on the principles of conflict resolution. In accordance with the document, mixed Russian-Georgian-North Ossetian peacekeeping forces were introduced into the conflict zone in July 1992, which led to the cessation of hostilities and the start of the negotiation process.

Main provisions of the Agreement:

The conflicting parties pledged to cease fire and withdraw their armed forces from the contact zone;

The Mixed Control Commission (JCC) was created, which was to monitor the ceasefire, the withdrawal of armed forces, the disbandment of self-defense forces and ensure the security regime in the contact zone;

The Mixed Control Commission was assigned groups of military observers and a Joint Peacekeeping Force;

The parties pledged to immediately begin negotiations on the economic restoration of the region and the creation of conditions for the return of refugees. The use of blockades and economic sanctions was declared unacceptable.

In fact, they became invalid after the war in Georgia in August 2008, during which they were grossly violated by Russia.

**REFERENCE LIST:**

1. Хасанов А. А. Международно-правовые аспекты признания Южной Осетии // Журнал зарубежного законодательства и сравнительного правоведения, 2018, №1 (68). с. 24.
2. Захаров В.А., Арешев А. Г. Правовые аспекты грузино-абхазского и грузино-осетинского конфликтов // РСМ. 2009. №1. с.17-18
3. Грузия: как избежать войны в Южной Осетии // Доклад МГПК-Европа No 159.Тбилиси/Брюссель, 26 ноября 2004 г. с. 78
4. Санакоев И.Б. Грузино-осетинский конфликт: курс лекций для студентов гуманитарных специальностей. Цхинвал, ЮОГУ, 2019, 132 с.

Соглашение «О принципах урегулирования грузино-осетинского конфликта» [Электронный ресурс] // Charta Caucasica: исслед. центр. – 2008. – URL: http://caucasica.org/docs/detail.php?ID=1329 (дата обращения: 01.05.20

**Balamirzə Aydın MƏMMƏDLİ**
Bakı Dövlət Universitetinin doktorantı
E-mail: balamirzamammadli@gmail.com

## 2001-Cİ İL 11 SENTYABR TERAKTINDAN SONRA ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA

**Summary**

Azerbaijan, which regained its state independence in 1991, has entered a new dynamic of development in the context of the foreign policy of the world's only superpower United States, after the terrorist attacks on September 11, 2001. At the beginning of the XXI century, the US-Azerbaijani relations were widely reflected in the works of numerous researchers (Elman Nasirov, Ali Hasanov, Musa Gasimli, Hafiz Pashayev, Birja Bayramova, Khatira Heydarova, Ramina Huseynli, etc.) in Azerbaijani historiography. A comparative analysis of these research works, drawing parallels between

them and foreign historiographical works, as well as obtaining new conclusions based on generalizations has scientific significance, since it allows us to examine in more detail the essence and nature of American-Azerbaijani relations after 2001. This is also of scientific and political importance in terms of determining the future prospects of the relations between the two countries.

**Keywords:** Republic of Azerbaijan, USA, foreign policy, September 11 terrorist attack, anti-terrorist campaign, domestic historiography.

**Giriş**

2001-ci ilin 11 sentyabrında ABŞ-da bütün dünyanı silkələyən dəhşətli hadisə baş verdi. Belə ki, "Əl-Qaidə" təşkilatı tərəfindən ABŞ-a qarşı dörd ardıcıl terror hücumu həyata keçirildi. Sözügedən təşkilatın 19 terrorçusu ABŞ-ın şimal-şərqində yerləşən Yeni İngiltərə (New England) və Orta Atlantika (Mid-Atlantic) bölgələrindən Kaliforniyaya getməyi planlaşdıran ikisi "Boinq-757" və ikisi "Boinq-767" olmaqla 4 sərnişin təyyarəsini qaçırdılar [9, s.474]. Terrorçular səhər saat 9 radələrində ilk iki təyyarəni o zamanlar dünyanın beş ən hündür binasından ikisi sayılan və Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin 110 mərtəbəli Əkiz Qüllələrinə (Twin Towers; 417 metr hündürlüklü Şimal qülləsi və 415 metr hündürlüklü Cənub qülləsi – B.M.) çırpdılar. Hər iki qüllə təqribən 1 saat 40 dəqiqə ərzində çökdü ki, bu da Dünya Ticarət Mərkəzi kompleksinin digər 5 strukturunun yerlə-yeksan olmasına, habelə yaxınlıqdakı binaların zədələnməsinə və ya dağılmasına səbəb oldu. Ümumilikdə 3100 nəfər insanın həyatını itirməsinə səbəb olan bu hücumlar terrora qarşı çoxillik qlobal müharibənin başlamasına gətirib çıxardı.

**Əsas mətn**

11 sentyabr hadisəsi ABŞ-ın bütün xarici siyasət kursu kimi Azərbaycan ilə münasibətlərinə də ciddi təsir göstərdi. Terrorun baş verdiyi gün ABŞ Prezidenti C.Buş dünya ölkələrinə müraciət edərək "ya bizimləsiniz, ya da bizim əleyhimizəsiniz" – deyə, onları terrora qarşı mübarizə məsələsində qəti mövqe nümayiş etdirməyə çağırdı. Vətən tarixşünaslığında birmənalı şəkildə göstərilir ki, Azərbaycan ABŞ-ın bu çağırışına ilk reaksiya verən və antiterror koalisiyasına qoşulan dünya ölkələrindən biridir. E.Nəsirov vurğulayır ki, 11 sentyabr hadisələrindən terrorizmlə mübarizə keyfiyyətcə yeni mərhələyə qalxmış və bu prosesə Azərbaycan Respublikası da fəal qoşulmuşdur [8, s.332]. Müəllif "ABŞ və beynəlxalq terrorizm problemi" adlı monoqrafiyasında bununla bağlı yazır: "Təsadüfi deyildir ki, terror aktlarından bir gün sonra – sentyabrın 12-də AR Prezidenti Heydər Əliyev məlum hadisələrlə bağlı bəyanat verərək Azərbaycan ictimaiyyətinin ABŞ-da baş vermiş dəhşətli terror hadisələrindən dərindən sarsıldığını və kədərləndiyini qeyd etmiş və qlobal bəla ilə birgə mübarizənin aparılmasının zəruriliyini qeyd etmişdi" [7, s.291]. Akademik R.Mehdiyev qeyd edir ki, Prezident H.Əliyevin 11 sentyabr hadisəsinə dərhal reaksiya verərək beynəlxalq antiterror koalisiyası çərçivəsində ABŞ-a kömək etməyə hazır olduğunu bəyan etməsi Qərbdə yüksək qiymətləndirildi ki, bu da Azərbaycanın beynəlxalq aləmdə imicinin yüksəlməsinə gətirib çıxardı [6, s.130]. Ümumilikdə, ABŞ-ın antiterror mübarizəsində Azərbaycanın qəti və birmənalı mövqeyi iki ölkə arasında münasibətlərə əhəmiyyətli dərəcədə müsbət təsir göstərdi. M.Qasımlı bunu Azərbaycan-ABŞ münasibətlərinin əməkdaşlıq və tərəfdaşlıqdan – strateji münasibətlərə doğru yeni bir mərhələsini başladan hadisə kimi xarakterizə edir [5, s.228]. B.Bayramova məhz bu hadisədən sonra ABŞ-ın xarici siyasətində Azərbaycana qarşı mühüm dönüşün başlaması qənaətinə gəlmişdir. Müəllif "ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər)" adlı monoqrafiyasında yazır ki, əgər 11 sentyabradək Avrasiyada ABŞ-ın əsas məqsədi SSRİ-nin bərpasına mane olmaq idisə, indi Qafqaz, xüsusilə Azərbaycan və Gürcüstan ABŞ-ın terrorçuluğa qarşı mübarizə strategiyasının başlıca məntəqəsi oldu. Bu da öz növbəsində ABŞ-Azərbaycan münasibətlərinin indiyədək görünməmiş səviyyəsini doğurmuş oldu: bölgədə formalaşmış yeni geosiyasi konfiqurasiyada Azərbaycan başlıca oyunçulardan birinə və ABŞ-ın strateji tərəfdaşına çevrildi [4, s.22]. Vətən tarixşünaslığında bir çox tədqiqatçılar göstərir ki, 11 sentyabr hadisələrindən sonra 907-ci maddənin hələ də qüvvədə qalması Amerikada nəinki ABŞ-Azərbaycan münasibətlərinə, eləcə də ABŞ-ın öz milli maraqlarına ziyan vuran məsələ kimi qiymətləndirilməyə başlanıldı. 2001-ci il oktyabr ayında ABŞ Prezidenti C.Buş və dövlət katibi K.Pauell Konqresə müraciət edərək "907-ci düzəliş"in aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladı" [1, s.155].

Azərbaycanın antiterror kampaniyasında iştirakı, terrorizm əleyhinə mübarizədə ikitərəfli hərbi əməkdaşlığın perspektivləri, habelə 907-ci maddənin ləğvinə dair məsələləri müzakirə etmək məqsədilə 2001-ci ilin 15 dekabrında ABŞ müdafiə naziri Donald Ramsfeld ölkəmizə səfər etdi ki, bununla da o, ABŞ-ın Azərbaycana rəsmi səfər edən ilk müdafiə naziri kimi tarixə düşdü [9, s.230]. X.Heydərova ABŞ müdafiə nazirinin ölkəmizə səfər etməsinin məqsədini təhlil edərkən belə qənaətə gəlir ki, burada başlıca məqsəd NATO qüvvələrinin hərtərəfli təchizatı üçün Azərbaycan ərazisindən tranzit ölkə kimi istifadə olunmasına razılıq əldə etmək idi [4, s.85]. Bu zaman Prezident H.Əliyev və müdafiə naziri S.Əbiyev ilə D.Ramsfeld arasında danışıqlar aparıldı. Azərbaycan tərəfi ilə əldə olunmuş razılığa əsasən, dövlətimiz ABŞ və onun müttəfiqlərinin ölkənin hava məkanından istifadəsinə şərait yaradacağını bəyan etdi [4, s.85]. ABŞ ilə Azərbaycan arasında hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirən bu görüşün ən mühüm nəticəsi isə o oldu ki, 907-ci maddənin aradan qaldırılması ətrafında müzakirələr nəhayət ki, öz bəhrəsini verdi. Belə ki, 2002-ci il yanvarın 25-də ABŞ Prezidenti C.Buş 907-ci maddənin bir il müddətinə dayandırılmasına dair sənədi imzaladı. Həmin vaxtdan etibarən bütün ABŞ prezidentləri ölkələrinin maraqlarından çıxış edərək hər il 907-ci maddənin dayandırılması barədə sənəd imzalayırlar. "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin dayandırılması Vətən tarixşünaslığında birmənalı şəkildə böyük dövlət xadimi H.Əliyevin rəhbərlik etdiyi Azərbaycan diplomatiyasının uğuru kimi xarakterizə edilir. R.Dadaşova yazır ki, ABŞ administrasiyası yalnız Prezident H.Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində 2002-ci ildə Azərbaycana yardımın 46% artırılması, Ermənistana isə yardımın 22% azaldılması barədə Konqresə müraciət etdi [3, s.138].

**Nəticə**

Beləliklə, dünyanın ən əsas güc mərkəzlərindən biri kimi beynəlxalq münasibətlərin tənzimlənməsində mühüm rola malik ABŞ ilə Azərbaycan Respublikası arasında 2001-ci il 11 sentyabr teraktından sonra ikitərəfli münasibətlər Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələrdə və s. mühüm tədqiqat obyekti kimi nəzərdən keçirilmişdir. Tarixşünaslıq materiallarının müqayisəli təhlili problemi daha dərindən və hərtərəfli tədqiq etməyə, ümumiləşdirmələr aparmağa və lazımi nəticələr çıxarmağa əlverişli şərait yaradır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Babanlı Y.M. Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011). Elm və təhsil, 2016, 328 s.
2. Bayramova B.Ə. ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər). "Sabah", 2019, 244 s.
3. Dadaşova R.B. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. "ADMİU-nun mətbəəsi", 2021, 344 s.
4. Heydərova X.F. ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2017, 171 s.
5. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. "Mütərcim", 2015, 640 s.
6. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. "XXI-YNE", 2003, 248 s.
7. Nəsirov E.X. ABŞ və beynəlxalq terrorizm problemi. 2001-2010-cu illər. "TEAS Press", 2018, 344 s.
8. Nəsirov E.X. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. "Elm və Təhsil", 2010, 392 s.
9. Муромов А.И. 100 великих авиакатастроф. «Вече», 2003, 528 с.

**Günay BAYRAMOVA**
AMEA Arxeologiya və Antropologiya İnstitutunun elmi işçisi, doktorant
E-mail: gunaybayramova296@gmail.com

**SON TUNC – ERKƏN DƏMİR DÖVRÜ BƏZƏK ƏŞYALARI**
**(Naxçıvan MR arxeoloji materialları əsasında)**

**Summary**

Adornments are one of the examples of Late Bronze and Early Iron Age material culture. Adornments include head adornments, neck adornments, arm adornments, and clothing adornments. Ancient people made various adornments from beads made of metals such as gold, silver, bronze, and natural stones. Adornments were an element that completed the dress. At the same time, decorations reflected people's religious beliefs. They were protected from evil spirits and evil deeds by wearing different symbols as adornments. At the same time, adornments were used as a medium of exchange. People used different kinds of beads and adornments instead of money.

**Keywords:** Last bronze age, İron age, archaeological findings, adornments, ornaments

**Giriş**

Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın qədim tayfalarının həyatında böyük dəyişikliklər olmuşdur. Yaşayış yerləri və nekropollarda aparılan arxeoloji tədqiqatlar vaxtaşırı hücumların və miqrasiyaların olduğunu söyləməyə əsas verir. I Plovdağ yaşayış yerində aparılan arxeoloji qazıntılar burada yanğınla müşayiət olunan güclü dağıntı olduğunu söyləməyə əsas verir. Mühüm strateji mövqeyinə görə Naxçıvan ərazisindəki qədim yaşayış yerləri dağıntıdan qısa müddət sonra bərpa olunur və inkişaf edirdi. Bütün bunlar Naxçıvanın qədim tayfalarının təsərrüfat və mədəni həyatında da öz əksini tapır ki, əldə edilən arxeoloji materiallarda bunu bir daha təsdiq edir.

Son Tunc-Erkən Dəmir dövrünə aid abidələrdə aparılan arxeoloji qazıntılar zamanı əldə olunan bəzək əşyaları dövrün maddi və mədəni inkişaf səviyyəsini, məişətini, insanların dünyagörüşünü və ümumiyyətlə qədim cəmiyyətdə baş verən dəyişiklikləri öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. Bəzək əşyaları üzərindəki ornamentlər qədim cəmiyyətin hakim inanc sistemi, mənəvi dünyası haqqında zəngin biliklər verir. Son Tunc-Erkən Dəmir dövrünün bəzək əşyaları həm kəmiyyətinə, həm də keyfiyyətinə görə əvvəlki dövrlərin analoji tapıntılarından fərqlənir. Diqqəti cəlb edən cəhət Erkən Dəmir dövrünə aid daş qutu qəbirlərdə tapılan bəzəklərin, xüsusən əqiq, şüşə və pastadan hazırlanmış muncuqların bolluğudur. Bu isə həmin dövrdə muncuq hazırlayan tanınmış istehsal mərkəzlərinin və onların məlum yayılma areallarının mövcud olduğunu söyləməyə əsas verir.

Ornamentlərin tədqiqi Naxçıvanın qədim tayfalarının təkcə iqtisadi və mədəni əlaqələrini deyil, həm də onların siyasi həyatında baş verən əsaslı dəyişiklikləri öyrənməyə imkan verir.

**Əsas mətn**

İnsanların ən qədim dövrlərdən bugünə günə məişətdə istifadə etdikləri əşyalar zaman keçdikcə müəyyən dəyişikliyə uğramışdır. Bəzək əşyaları bəşər tarixinin bütün dövrlərində olmuş, hər dövrə aid əşyaların özünəməxsus səciyyəvi xüsusiyyətləri olmuşdur. Bu xüsusiyyətlər cəmiyyətin iqtisadi-mədəni inkişaf səviyyəsindən, sivilizasiya mərkəzləri ilə əlaqələrindən, inanc sistemindən asılı olaraq müxtəlif olmuşdur Hər dövr bəzək əşyalarının özünəməxsus xammalı, istehsal texnikası, naxışlanma üsulları olmuşdur. Tunc dövrünün son mərhələsində hazırlanan bəzək əşyalarının bir qismi əvvəlki dövrlərlə eynilik təşkil etsə də, böyük bir qismi müxtəlif üslubda və fərqli növ materiallardan hazırlanır və fərqlənirdi. Bu dövrdə müxtəlif bölgələrdə tunc, qızıl və digər qiymətli materiallardan, müxtəlif növ təbii daşlardan istifadə edərək mürəkkəb bəzək əşyaları istehsal olunurdu. Son Tunc – Erkən Dəmir dövründə istifadə edilən bəzək əşyaları aşağıdakı kimi təsnif edilir.

1. **Baş bəzəkləri:** saç bəzəkləri, saç sancaqları, alınlıqlar, dingələr və sırğalar bu qrupa daxildir. Sırğalar, saç sancaqları və alınlıqlar adətən tunc məftil və lövhələrdən hazırlanır, bəzən əqiq və ya başqa daşlardan hazırlanmış muncularla bəzədilirdi.

2. **Boyun bəzəkləri**: buraya tuncdan və muncuqdan hazırlanmış boyunbağılar, asma bəzəklər daxildir. Tuncdan hazırlanmış, bəzən ucları çölə doğru qatlanmış boyunbağılar Son Tunc dövründə məşhur bəzək əşyaları idi. Metaldan (tunc) hazırlanan boyunbağılar müxtəlif dizayn və ölçülərdə olurdu. Bu tip boyun bəzəkləri ətraf bölgələrə Misirdən yayılmışdı. Zərif boyunbağılar, muncuqlar və amuletlər də bu dövrdə geniş yayılmışdı.

3. **Qol bəzəkləri:** Tunc və muncuqdan hazırlanmış bilərziklər, eləcə də qolun yuxarı hissəsinə taxılan qol bəzəkləri – bazubəndlər və üzüklər Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterik bəzək əşyaları idi. Tuncdan hazırlanmış qolbaqlar bəzən qravüra, zoomorf naxış və ya simvolik motivlərlə bəzədilirdi. Üzüklərin sadə lentlərdən tutmuş qiymətli və yarımqiymətli daşlarla bəzədilmiş və ya oyma naxışlarla daha mürəkkəb dizaynlara qədər müxtəlif üslublarda hazırlanmış nümunələri var idi. Üzüklər əl barmaqlarına, həmçinin ayaq barmaqlarına taxılırdı.

4. **Geyim bəzəkləri:** Tunc düymə, piləklər və fibulalar (broşlar) daha çox funksional xarakterli olsa da, eyni zamanda paltarları bəzəmək, geyimi daha şux göstərmək üçün istifadə olunurdu. Fibulalar həm funksional, həm də dekorativ məqsədlərə xidmət edirdi.

Naxçıvan ərazisində Son Tunc və Erkən Dəmir dövrü qəbir abidələri digər dövrlərə nisbətən daha yaxşı öyrənilmişdir. Ordubad rayonu ərazisində yerləşən Plovdağ nekropolları, Muncuqlutəpə, Xalı-Keşan, Sumbatan, Mərdangölü, Dəlmə, Dəmyələr və b. nekropollar tədqiq edilmişdir [4, 60]. Onu da qeyd edək ki, Plovdağ üç nekropol və iki yaşayış yeri ilə birlikdə böyük bir abidələr kompleksdir [5, 14]. Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrünə aid Qızılvəng, Şahtaxtı, Qarabağlar -Qalacıq, Külüs [6, 27], Kolanı, Sarıdərə və b. nekropollarında da zəngin bəzək əşyaları aşkar edilmişdir..

Son Tunc və İlk Dəmir dövrü abidələrinin arxeoloji tədqiqi göstərir ki, bu dövrdə sinifli cəmiyyət yaranmış, mədəni və iqtisadi əlaqələr xeyli genişlənmişdir. Tayfalararası əlaqələrin güclənməsi ticarətin, iqtisadiyyatın və mədəni həyatın canlanması demək idi. Son Tunc dövründən başlayaraq, Naxçıvan ərazisi təkcə ticarətin mərkəzi olmayıb, həm də qərbdən gələn işğalçı qüvvələrin də maraq dairəsində olmuşdur. Naxçıvan ərazisində siklopik tikililərin tədqiqi bunu söyləməyə əsas verir [1, 227]. Ticarət əlaqələrinin bu qədər genişləndiyi dövrdə mübadilə vasitəsi kimi mal-qara, metal, yun, sənətkarlıq məmulatları – gil qablar, o cümlədən bəzək əşyalarından geniş şəkildə istifadə edilirdi. Məlumdur ki, bəzək əşyaları təkcə aksesuar və yaxud da mədəni simvol olmaqla yanaşı, eyni zamanda mübadilə vasitəsi kimi işə yarayırdı. Qiymətli metallardan (qızıl, gümüş) və qiymətli daşlardan (sədəf, firuzə), fil sümüyündən və balıqqulağından hazırlanmış müxtəlif növ bəzək əşyaları həmçinin, silindrik möhürlər, əsas mübadilə vasitələrindən olmuşdur. Silindrik möhürlər, qızıl, şüşə, firuzə, pasta, sədəf, fil sümüyündən hazırlanmış bəzək əşyaları mübadilə və əlaqələr yolu ilə Azərbaycana gətirilmişdir [3, 160].

**Nəticə**

Son Tunc-Erkən Dəmir dövründə sinifli cəmiyyətin inkişafı, şəhərlərin, dövlət quruluşunun yaranması sənətkarlığın, xüsusilə də metalişləmə sənətinin təkamülünü şərtləndirmişdi. Metalişləmə sənətinin inkişafı silah istehsalı ilə yanaşı bəzək əşyalarının da geniş istehsalına və geşidinin çoxalmasına şərait yaratmışdı. Bəzək əşyaları funksional xarakteri ilə yanaşı insanların dini inancları, dünyagörüşləri və təsərrüfat həyatı ilə birbaşa bağlı olmuşdur. Bəzək əşyalarının qoruyucu funksiyası funksional təyinatından daha əhəmiyyətli olmuşdur.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti ilə tanış olduqda, onun Xocalı-Gədəbəy mədəniyyəti ilə oxşar elementlərini görürük. Xocalı-Gədəbəy mədəniyyətinin elementlərinin Naxçıvan maddi mədəniyyət abidələrində olması, bu mədəniyyətin daşıyıcılarının cənuba doğru hərəkəti ilə bağlı olmuşdur [2, 73]. Tədqiqatlar göstərir ki, Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinin öz lokal xüsusiyyətləri olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Baxşəliyev V. Azərbaycan arxeologiyası. Bakı, Elm, 2007, 239 s.
2. Baxşəliyev V. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, Elm, 2002, 128 s.
3. Cəfərov H. Azərbaycan e.ə. IV minilliyin axırı – I miniliiyin əvvəllərində. Bakı, Elm, 2000, 187 s.

4. Əliyev E. Ordubad rayonunun Tunc və İlk Dəmir dövrü arxeoloji abidələri. Bakı, Elm və Təhsil, 2018, 272 s.
5. İbrahimli B, Əliyev E. I Plovdağ yaşayış yeri və nekropolunda arxeoloji tədqiqatlar-2020. Bakı, Xan nəşriyyatı, 2021, 108 s.
6. Seyidov M. Naxçıvan ərazisində Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, Bakı Universiteti nəşriyyatı, 2012, 188 s.

**Vüsalə Fazil BEYDULLAZADƏ**
AMEA Arxeologiya və Antropoliya İnstitutunun kiçik elmi işçisi, doktorant
E-mail: vbeydullazade@gmail.com

## AZƏRBAYCAN ARXEOLOGİYASINDA ORTA ƏSR İNŞAAT KERAMİKASI

**Summary**

In the Middle Ages in Azerbaijan, building ceramics were widely used in the creation of monumental and public buildings. The main part of it consisted of baked bricks, which were of two types. The walls of the mausoleums were built with square-shaped baked bricks, and geometric patterns were applied to them with decorative baked bricks.

In archaeological excavations of medieval settlements, clay pipes were discovered, which testified to the improvement of the medieval cities of Azerbaijan.

**Keywords:** Azerbaijan, Middle Ages, architecture, building ceramics, fired brick.

### Giriş

Orta əsrlər dövrü Azərbaycan tarixində həm siyasi, həm də iqdisadi-mədəni baxımdan xüsusi rol oynayır. IX əsrin sonu-X əsrin əvvəllərində yeni yaranan və getdikcə güclənən feodal dövlətləri müstəqil siyasət yeritməyə çalışır, ordunu və iqtisadiyyatı gücləndirirdilər. Məhz bu dövrdən Azərbaycanda ticarət, sənətkarlıq və memarlıq inkişaf etməyə başladı. Təməli feodal dövlətləri dövründə qoyulan inkişaf Böyük Səlcuqlu imperiyası dövründə iqtisadiyyatın və mədəniyyətin çiçəklənməsinə şərait yaratdı.

Bir neçə məktəblə təmsil olunmuş Azərbaycan memarlığının nailiyyətlərini xüsusilə qeyd etmək lazımdır. Hər məktəbin özünün üslubu, daha çox istifadə etdiyi tikinti materialı var idi. XII-XIII əsrlərdə Şirvan memarlıq məktəbində başlıca tikinti materialı əhəngdaşı, Aran memarlıq məktəbində daş və kərpic, Marağa-Naxçıvan, Qəzvin-Həmədan məktəblərində isə bişmiş kərpic əsas tikinti materialı olmuşdur. Naxçıvan memarlıq məktəbinin əsası Əcəmi Əbubəkr oğlu tərəfindən qoyulmuşdu. Arealına görə bu məktəb həm də Naxçıvan-Marağa memarlıq məktəbi adlanır. Naxçıvan memarlıq məktəbinin dünya memarlıq inciləri siyahısına daxil olan abidələri çoxüzlü qülləli türbələrdir ki, onların da başında Əcəmi Əbubəkr oğlunun şah əsəri olan Möminə Xatın türbəsi (1186) durur.

Naxçıvan-Marağa memarlıq məktəbinin əsrlərin sınağından çıxmış abidələrinin yaranmasında inşaat keramikasının, xüsusən dekorativ bişmiş kərpiclərin mühüm rolu olmuşdur. Özülü və kürsülüyü daşdan olan türbələrin və ictimai binaların yerüstü hissəsi əsasən bişmiş kərpiclə (əsasən 20x20x5 sm ölçülərində) və gəc məhlulu ilə işlənirdi. İctimai binaların fasadı, çoxüzlü tikililərin isə hər tərəfi həndəsi naxışlarla bəzədilmiş "memarlıq köynəyi" ilə örtülürdü. Bu üzlük blokların hazırlanmasında dekorativ bişmiş kərpiclərdən və kaşılardan istifadə olunurdu.

### Əsas mətn

Orta əsr memarlığında, daşdan daha əlverişli olduğu üçün bişmiş kərpicə üstünlük verilirdi. Hündür binaların daşla işlənməsi onları zəlzələyə davamsız edirdi. Naxçıvan-marağa memarlıq məktəbinin yayıldığı ərazi isə yüksək seysmik bölgə idi. Bişmiş kərpic ağacdan daha uzunömürlü, daşdan daha ucuz və yüngül idi. Tikinti üçün yararlı daşları uzaqdan şəhərə daşıyıb gətirmək çətin idi, lakin bişmiş kərpic abidəyə yaxın qurulmuş kürələrdə bişirilirdi. Nisbətən az vəsait və işçi qüvvəsi ilə böyük binalar tikmək mümkün idi. Müxtəlif formalarda hazırlanmış bişmiş dekorativ kərpiclərlə zəngin həndəsi ornamentli bloklar yaratmaq mümkün idi. Heykəltəraşlığın və ikonoqrafiyanın qadağan olunduğu

müsəlman ölkələrində isə bunun mühüm əhəmiyyəti var idi. Bu dövrdə kərpiclərin dekorativ formada kəsilməsi və bişirilməsi ilə peşəkar ustalar məşğul olurdular.

Müxtəlif təyinatlı binaların – məscidlərin, məqbərələrin, hamam və sarayların bədii tərtibatında XII əsrdən başlayaraq kaşıdan geniş istifadə olunmuşdur. Azərbaycan memarlıq abidələrində firuzəyi rəngli şirin geniş tətbiqi diqqəti cəlb edir. Ölkə ərazisində zəngin kobalt yataqlarının olması buna zəmin yaratmışdı.[2]

Naxçıvan memarlıq məktəbinin əsas inkişaf dövrü XII əsr olmuşdur. Bu məktəbin abidələri üçün kərpic hörgüsü, kərpicdən quraşdırılmış inşaat quruluşları, müxtəlif biçimli kərpicin məharətlə tətbiqi və kərpicin birrəngli yeksənəqliyindən uzaqlaşmaq üçün rəngli kaşı və gəc ünsürlərinin memarlıq bəzəyinə daxil edilməsi səciyyəvidir.[4]

Naxçıvan memarlıq məktəbi abidələrində binaların fasad və üzlüklərin bəzədilmsəində sadə bişmiş kərpiclərdən də məharətlə istifadə etmişlər. Daha çox nəzərə çarpan hörgüdə işıq və kölgə effektindən məharətlə istifadə olunmasıdır. Bu hörgüdə bişmiş kərpiclər bərkidici maddədən azca öndə olduğu üçün kölgədə qalır və kölgə fonunda çəhrayı bişmiş kərpiclər xüsusi bir gözəllik yaradır. Orta əsr abidələrində, xüsusən interyerdə bişmiş kərpiclərin "yolka" üslubu ilə hörgüsünə tez-tez rast gəlinir.

Orta əsrlər boyu inşaat keramikasının hörgüsündə qatqılı gəcdən istifadə olunmuşdur. XIV-XVI əsrlərdə Aza şəhətində istifadə olunan gəc, şəhərdən bir neçə kilometr şimalda – Bal dərəsində yerləşən kürələrdə istehsal olunmuşdur. Burada iki böyük gəc kürəsi Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilib öyrənilmişdir.

Haqqında bəhs olunan qüllədən başqa Gilan çayın sağ sahilində Aza şəhər qəbristanlığında XIV-XVI əsrlərə aid üç türbə olmuşdur. Onlarda ikisinin yerüstü hissəsi uçmuş, yalnız sərdabə hissələri dağıdılmış vəziyyətdə saxlanmışdır. Birinin isə türbə hissəsi dağıdılmış vəziyyətdə qalır. Bu abidələrin hamısı bişmiş kərpiclə işlənmiş, kaşılarla bəzədilmişdir.

Adi və dekorativ bişmiş kərpiclərdən otaqların, qapı və pəncərələrin üstünün örtülməsində geniş istifadə olunmuşdur. Otaqların üstü günbəzlə-yarımsferik tavanla, qapı və pəncərələrin üstü isə müxtəlif tağ formaları ilə - çatma, qövsvari və d tağlarla örtülürdü.

Orta əsr şəhərlərində istifadə olunan digər inşaat keramikası saxsı borular - tünglərdir. Saxsı tünglərdən su kəməri çəkilməsi ənənəsi Azərbaycanda hələ eramızdan əvvəl məlumdur. Tədqiqatçılar onlardan istifadəni ellin mədəniyyətinin təsiri ilə bağlayırlar. Su tünglərinin kütləvi istehsalı və tətbiqi orta əsrlərdə baş verir. Tədqiq olunan dövrdə yaşayış məskənlərinin istər su təchizatı sistemində, istərsə də kanalizasiya xətlərinin salınmasında saxsı tünglərdən istifadəyə üstünlük verilirdi.

Beyləqan şəhər yeri qazıntıları XII-XIII əsrlərdə şəhərin yüksək inkişaf mərhələsində olduğunu göstərir. XI-XII əsrlərdə inşaat sənətinin yüksəlişi ilə bişmiş kərpic istehsalı, inşaat texnikasının təkmilləşməsi, memarlıq bəzəyinin tətbiqi artmışdır. Beyləqan şəhərinin rabad hissəsində arxlarla gətirilən suyun paylanması üçün saxsı tünglərdən düzəldilmiş su kəmərinin qalıqları, kəmərdəki tünglərin bəzilərinin ağızlarında bişmiş kərpiclərdən olan tıxaclar aşkar olunmuşdu. Su tünglərinin birləşən yerləri, adətən bişmiş kərpic və qatqılı gəclə işlənirdi. Bu həm su itkisinə yol vermir, həm də su kəmərinin uzun müddət saz işləməsinə şərait yaradırdı.

Gülüstan qalasında da inşaat materialları içərisində saxsı tünglərə çox rast gəlinmişdir. Burada da tünglər su kəməri çəkilişində və kanalizasiya sistemində istifadə edilmişdir. Saxsı tünglər öz dövrünə görə yüksək keyfiyyətlə hazırlanmışdır. Onların içərisi dalğavari formada relyefik hazırlanmışdır. Bu üsul suyun təzyiqinə qarşı tünglərin müqavimətini artırmağa, suyun dalğavari axmasına şərait yaradır və bu yolla gilin tünglər içərisində çöküntü yaratmasına mane olurdu.

XII əsrin birinci yarısında şirli kərpic istehsalı geniş yayılmağa başladı. Bişmiş kərpiclərin üstünə çəkilmiş şir ona estetik gözəllik verməkdən baçqa, onun rütubətə davamlılığını qat-qat artırırdı. Atmosfer təsirlərinə qarşı binaların günbəzlərinin dayanıqlığını artırmaq məqsədilə kərpiclərin üzərinə şir çəkilirdi. Şirli kərpiclərin meydana çıxması sonradan kaşıların yaranmasına və geniş istehsalına təkan verdi. Qeyd edək ki, Azərbaycan şəhərlərinin memarlığında kaşı bəzəklərinin tətbiqi XII əsrin birinci yarısında meydana gəlmişdir. Kaşılı kərpiclərdən ilk dəfə Marağadakı Qırmızı Günbəz türbəsində (1148) istifadə edilmişdir. Kaşı əvvəllər tikilinin əsas yerlərində, qurşaq bəzəklərində tətbiq edilsə də, artıq XII əsrin ikinci yarısından davamlı memarlıq elementinə çevrildi.[5]

Şəmkirdə arxeoloji qazıntılar zamanı çox sayda inşaat keramikası, eləcə də yerli istehsalı təsdiqləyən zay olmuş inşaat keramikası mümunələri aşkar edilmişdir. Həmin inşaat keramikası hörgü materialları, memarlıq bəzəyi, dam örtüyü materialları və tünglərlə təmsil olunmuşdur.

Qəbələdə tikinti – abadlıq işlərinin miqyası həmişə böyük olub. Təbiidir ki, bu məqsədlə istifadə olunan kərpic, əhəng, kirəmit, üzlük material məmulatı şəhərin özündə, yaxud da ətrafında istehsal və emal olunurdu. Gəncə şəhərinin qala divarları möhrə, çiy kərpic və çaydaşı ilə bişmiş kərpicin dəyişən cərgələrindən ibarətdir.[1]

Gəctəraşlıq Azərbaycan memarlığında geniş yayılmış dekorativ sənət növlərindəndir. Gəc, tərkibində gips və gil olan süxurun yandırılmasından alınan materialdır. Ondan hazırlanan məhlul mexaniki möhkəmliyinə, bərkimə prosesinin asan tənzim olunmasına, eləcə də yüksək bədii plastikliyinə görə tikintidə həm yapışdırıcı, həm də üzlük materialı kimi geniş işlədilmişdir. Memarlıq bəzəyi işlərində narın üyüdülən və ağ rəngi ilə seçilən əla növ gəcdən istifadə edilirdi.[5]

**Nəticə**

Azərbaycanda orta əsrlər dövründə tikililərinin hörgüsünün əsasını təşkil edən kvadrat formalı kərpiclərdən başqa, üzlüyün ornament bəzəyi kimi müxtəlif formalı, biçimli və ölçülü dekorativ kərpiclərdən də istifadə edilmişdir. Bu inşaat materiallarından mürəkkəb ornamentli üzlüklərin yığılmasında, abidələrin fasadında və interyerində ərəb əlifbasının müxtəlif xətlərində yazılmış epiqrafik mətnlərin salınmasında istifadə olunmuşdur.

Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji tədqiqi zamanı əldə olunmuş saxsı su boruları bu şəhərlərin öz dövrünün yüksək səviyyəli abad yaşayış yerləri olduğunu söyləməyə əsas verir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Cəbiyev Q. Azərbaycan Arxeologiyasının əsasları. Bakı, "Elm və təhsil", 2018, 593 s.
2. Dostiyev T., Bəşirov R., Mirzəyev R., Hüseynli N. Orta Əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı: "Çaşıoğlu" nəşr., 2013, 513 s.
3. Əhmodov Q.M. Orta əsr Beybqan şəhəri (tarixi-arxeoloji tədqiqat). Bakı, 1979.
4. İbrahimli B. Naxçıvanın orta əsr şəhərləri: AZA. (tarixi-arxeoloji tədqiqat). Bakı, "Avropa" nəşriyyatı, 2020, 348 s.
5. Həbibov X.. Orta əsr Şəmkir şəhərinin memarlıq bəzəkləri. // Azərbaycan arxeologiyası jurnalı, 2018, № 2, s. 72-83

**Bədircahan Əmrulah MƏMMƏDOVA**
AMEA Arxeologiya və Antropologiya İnstitutunun
"Dəmir dövrü arxeologiyası" şöbəsinin böyük elmi işçisi, Bakı, Azərbaycan
E-mail: bcahan1957@gmail.com

## MİNBƏRƏK ARXEOLOJİ İRSİ

**Summary**

The article for the first time provides information about a clay product - a piece of a household vessel discovered in the village of Minbarak, Gakh region. This find, made from local raw materials, stored in the Gakh Museum of History and Local Lore, is an important artifact that reveals the lifestyle and skill of ancient Azerbaijanis.

According to the features and archaeological research, such a find can be attributed to the Late Bronze Age - Early Iron Age (end of the 2nd - beginning of the 1st millennium BC). These cultural monuments confirm the continuous development of culture from the Bronze Age to the Middle Ages. It was during this period that the more intensive production of clay products, used to meet the demand for long-term preservation of food products in everyday life, intensified.

Currently, similar archaeological finds, which are also used in the educational process, are available in other local museums in Azerbaijan. It is advisable to study such folk objects, which represent important materials of our national history, under the name "Alazan archaeological culture." This conclusion can be attributed to materials found in the northwestern regions of Azerbaijan.

The convenient geographical location of one of the ancient settlements of the Gakh region - Minbarak, as well as material and cultural finds discovered on this territory give grounds to assert that local pottery, like other areas of art, constituted a special area of production at the end of the 2nd millennium - beginning of the 1st millennium BC.

**Key words:** archeology, Gakh, bronze, Iron Age, museum, ceramics.

**Giriş**

Müxtəlif tarixi mərhələlərə aid maddi mədəniyyət tapıntılarının tədqiqi Azərbaycan arxeologiyasının müxtəlif problemlərinin həllində önəmlidir. Müasir dövrümüzdə istər elmi, istərsə də pedaqoji baxımdan məhz belə materiallara istinadən bir sıra vacib qənaətlər əldə edilmişdir.

Məqalədə ilk dəfə olaraq Qax rayonunun Minbərək düzəngahında aşkarlanmış saxsı qab hissəciyi haqqında məlumat verilmişdir. Hazırda Qax rayonunun Tarix-Diyarşünaslıq Muzeyində qorunan bu tapıntını (inventar nömrəsi 7753) arxeoloji təyinata əsasən son tunc - ilk dəmir dövrünə (e.ə. II minilliyin sonu – I minilliyyin əvvəli) aid etmək mümkündür.

**Əsas mətn**

**Son tunc - ilk dəmir dövründə saxsı istehsalı.** Azərbaycanın müxtəlif məkanlarında istər təsadüfən, istərsə də arxeoloji qazıntılar nəticəsində aşkarlanan son tunc - ilk dəmir dövrünün saxsı qabları rəngarəngliyi, çoxçeşidliliyi və müxtəlif funksiyalılığı ilə seçilir. Belə qabların sırasında torpaq qəbirlərdə aşkar olunanlar xüsusilə maraqlıdır.

Mərasim və ayinlərdə istifadə edilən belə qabları tədqiq edənlərin qənaətinə əsasən, dəfn ayinlərində ölünü o biri dünyaya yola salarkən ona yaxşı yol arzulamaq üçün məhz bu qablar qəbirə yerləşdirilirdi. Müxtəlif heyvanları (əsasən quşları) ifadə edən belə qablar geniş yayılmışdı. Belə qabların hazırlanmasında keyfiyyətli gildən istifadə edilirdi.

Azərbaycanın faydalı xammal mənbələri – gil yataqları yerli dulusçuluq sənətinin inkişafına təkan verən başlıca amil olmuş və müxtəlif formalı, ölçülü dulusçuluq əşyalarının formalaşmasına əkinçilik və heyvandarlıq, o cümlədən yerli tələbat da təsirini göstərmişdir [2, s. 5]. Hələ ilk tunc dövründən etibarən gilin tərkibinə qum, xırdalanmış daşlar və azca saman qatılırdı. Arxeoloqlar qeyd edirlər ki, qabların hazırlandığı gilin rəngi nəinki ona sərf edilən xammaldan, həm də bişirilmə temperaturu və hazırlanma üsullarından da asılı olaraq dəyişilirdi [1, s. 215]. Bir sıra arxeoloji tədqiqatlara əsasən "dulus kürələrinin icad edilməsindən əvvəlki mərhələdə belə qablar ocaqlarda və ya kiçik həcmli sobalarda bişirilirdi" [2, s. 6].

**Nəticə**

Qax rayonunun Minbərək düzəngahında aşkarlanmış saxsı qabı fikrimizcə "Qanıq-Alazan mədəniyyəti" adı ilə təsnifatlandırmaq daha məqsədəuyğundur. Bu qənaəti xüsusən Azərbaycanın şimal-qərb rayonlarında aşkarlanan materiallara aid etmək mümkündür. Dulusçuluq sənəti bu mədəniyyətin xüsusi istehsalat sahəsini təşkil etmişdir.

Son tunc – ilk dəmir dövründə yerli ustaların əl əməyi hazırlanan müxtəlif təyinatlı saxsı qablar Mingəçevir, Daşkəsən, Xocalı, Cəlilabad, Naxçıvan, Xocavənd və d. rayonların ərazisindəki həmdövr abidələrdə də aşkar edilmişdir. Bu qabların analoqlarının Cənubi Qafqaz və Şərqi Anadoluda aşkarlanması ortaq məişət mədəniyyəti barədə qənaətlər əldə etməyə imkan yaradır. Saxsı, metalişləmə sənətinin yüksəldiyi və dəmirin kəşfi ilə ictimai-iqtisadi inkişafın sürətləndiyi bu dövrdə Mesopotamiya və Misirlə intensiv əlaqələrin olduğu tədqiqatlarla müəyyən edilmişdir. Bu dövrdə gündəlik məişətdə qida məhsullarının uzun müddətlik qorunmasını təmin etmək tələbatı gil qabların daha sürətli istehsalına rəvac vermişdi.

Tədqiqata cəlb etdiyimiz saxsı qab qırıntısı son tunc – ilk dəmir dövrünün milli dulusçuluq mədəniyyətinin və dövrün dəfn adətinin bariz nümunəsidir. Belə mədəniyyət qalıqları tunc dövründən başlayaraq orta əsrlərə qədər ardıcıl surətdə davam edən mədəniyyətin inkişafını təmsil edir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 315 с.
2. Азизов К.Ш. Классификация археологических материалов периода ранней бронзы // Вестник ЧГУ. 2013, N 2, с. 3 – 7.

**Samir Rüfət CƏFƏROV**
Qərbi Kaspi Universiteti
E-mail: cefsamir1996@gmail.com

# XIX ƏSRİN I YARISINDA ERMƏNİLƏRİN ŞİMALİ AZƏRBAYCANA KÖÇÜRÜLMƏSİ

**Summary**

This dissertation is devoted to the Russo-Qajar and Russo-Iranian wars. In 1804, the First Russo-Qajar War began. The first Russo-Cajar war ended with the victory of the Russians. In 1813, the Gulistan peace treaty was concluded between Russia and the Khajar state. The II Russo-Qajar war covers the years 1826-1828. The war ended with the victory of the Russians. In 1828, the Turkmenchay peace treaty was concluded. The agreement also provided for the transfer of Armenians to North Azerbaijan. In 1829, according to the Treaty of Edirne, Armenians were placed in the North Caucasus, in the territory of the Ottoman Empire

**Keyword**: Armenian resettlement, Russo-Qajar war, Gulistan Treaty, Turmanchay Treaty, Edirne Treaty

**Giriş**

XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalının başlanğıcında Rusiya imperiyası ermənilərə çox böyük ümidlər bəsləyirdi. Belə başa düşürdülər ki, vahid din adı ilə, Rusiyanın himayəsi altında və məqsədlərinə nail olmaq naminə ermənilər hakim Rusiyaya sadiq olacaqlar . Ermənilərin Şimali Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalından xeyli əvvəl Qafqaz torpaqlarına köçürülməsinə baxmayaraq , məskunlaşma prosesi Rusiya tərəfindən uğurla başa çatdırılmış və Rusiya -İran və Rus-Türk müharibəsindən sonra geniş yayılmışdır. Veliçko yazırdı ki, bu proses o vaxtdan bəri dayanamamış , ermənilərin Qafqaza köçürülməsi yavaş və sürətli templə davam etmişdi.**[6,s.81]**

**Əsas mətn**

İran Rusiyanın işğalçılıq siyasətinə qarşı çıxırdı. Tutduğu ərazilərin boşaldılmasını tələb etdi . Rusiya bu tələbi qəbul eləmədi. Buna görə də, 1804-ci ilin iyun ayının 10-da Rusiya İran arasında müharibə başladı. Bu müharibə birinci İran-Rusiya müharibəsi adlanırdı. Hər iki tərəfdən bu müharibə ədalətsiz müharibə idi. Bu müharibə 1813-cü ilin oktyabr ayının 12-də Gülüstan sülh müqaviləsi ilə başa çatdı. Şimalı Azərbaycanda mövcud olan Naxçıvan və İrəvan xanlıqları istisna bütün xanlıqlar Rusiyaya birləşdirilidi . **[ 3, s. 611].**

İran Rusiya ilə bağlanmış Gülüstan sülh müqaviləsindən razı qalmadı. İran Rusiya ilə müharibə üçün hazırlıqlar görməyə başladı . Müharibənin başa çatmasından 1 il sonra, 1814-cü ilin noyabr ayının 25-də Rusiyaya qarşı İran İngiltərə arasında müqavilə bağlandı . Bu müqavilədə İngiltərə İrana Gülüstan sülh müqaviləsinə yenidən baxılmasına nail olacağına söz verdi. 1815-ci ildə Gülüstan müqaviləsinə yenidən baxmağa Rusiyanın razılığını almaq üçün Mirzə Əbdül Həsən xanın başlığı ilə Peterburqa nümayəndə heyəti göndərdi . Çar hökuməti İngiltərə və İranla münasibətlərini pozmamaq üçün xırda güzəştlər getməyi qərara aldı və bu məqsədlə 1817-ci ildə A.P.Yermolovun başçılığı ilə İrana nümayəndə heyəti göndərdi . Yermolova Rusiya və İran arasında dostluq və qardaşlıq əlaqələri üçün xüsusi müqavilə bağlamaq səlahiyyəti verilmişdi.**[2,s.40]** Yermolov Şah sarayının mübahisəli məsələnin danışıqlar yolu ilə həll etməmək fikiri olmadığını gördü. Bundan sonra Yermolov İranı tərk etdi. Yermolov Rusiyaya qayıdandan sonra Peterburqa yazırdı:"İngilislər ehtiyat edirlər ki, İran bizim hakim təsirimiz altına düşə bilərlər". O daha sonra qeyd edirdi ki, "vəliəhdin sarayında ingilislərsiz heç bir iş görülmür".Şah sarayı ingilislərin köməyi ilə Türkiyə ilə 1823-cü ilidə müqavilə bağladı. Cənubi

Qafqazda İngilislərin köməyi ilə geniş casusluq və təxribat tədbirləri təşkil edildi. Bunun əsas məqsədi Rusiyaya qarşı üsyan təşkil etmək və müharibə başlanması ilə İran tərəfdarlarını gücləndirmək idi.**[2,s .41]** Rusiya ilə İran arasında razılıq əldə oluna bilmşdi. İkinci Rusiya- İran müharibəsi 1826-cı ildə başladı. İkinci Rusiya-İran müharibəsi 2 il davam elədi. İran Şimali Azərbaycanın Rusiyanının təsiri altına düşməsinin qarşısı ala bilmədi. 1828-ci ilin fevralın 9dan 10-na keçən gecə Türkmənçay kəndində müqavilə imzalandı. Türkmənçay müqaviləsinin imzalanılması Azərbaycan üçün tarixi faciə idi.Bu müqavilə Gülüstan müqavilədən bəzi maddələri fərqlənirdi. İkinci Rusiya-İran müharibəsində də ermənilər öz satqınçılığınl etmişdi. Türkmənçay müqaviləsinin XV maddəsi ermənilərin Azərbaycan ərazisinə sərbəst keçməsinə şərait yaradırdı. **[7,S.93]**. XV maddədə deyilir: "Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir"**[5].**Çar Rusiyası İranın da iştiraki ilə Şimali Azərbaycandakı əhalinin tərkibini öz mənafeyinə uyğun dəyişdirməyə imkan əldə etdi. Ermənilər bölgədəki yerli xalqların , xüsusilə Azərbaycan türklərinin ata-baba yurdu hesabına özlərinə vətən əldə etmək xülyasına fürsət əldə etdilər. Gələcəkdə bölgənin başına böyük bəlalar və müsibətlər açılacaqdı. Bu xəbis niyyətin həyata keçirilməsində Eçmiədzindəki erməni ruhaniləri ilə yanaşı, çar ordusunda xidmət edən erməni mənşəli zabitlər də rol oynadılar. Erməni mənşəli polkovnik Lazerev İrandakı ermənilərin Şimali Azərbaycana köçürülməsinə rəhbərlik edirdi. Türkmənçay müqaviləsi üzrə ilk köçürmə kampaniyası 26 feval -11 iyul 1828-ci illər tarixi arasında həyata keçirilmişdi . Bu kampaniya 1830-cu ilə qədər davam elədi və 40 mindən çox ermənini əhatə etdi. Ermənilər xüsusi ilə İrəvan, Qarabağ və Naxçıvan ərazilərində yerləşdirildilər . Ermənilər üçün 200 min desyatindən çox xəzinə torpağı ayrıldı. Onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox sahibkar torpağı satın alındı. İran Rusiya ilə müharibədə uduzduqdan sonra İngiltərə və Fransa Osmanlı dövlətini Rusiyaya qarşı müharibəyə təhrik etdilər . Bu müharibədə Osmanlılar məğlub oldu. Rusiya ilə Osmanlı dövləti arasında 1829-ci ildə Ədirnə sülh müqaviləsi bağlandı. Bu müqaviləyə əsasən Türkiyə ərazisindən 84 min erməni və qeyri rəsmin köçənlərlə birlikdə 200 min erməni Şimali Azərbaycanda məskunlaşdı. **[7,s.299].**

**Nəticə**

İran və Osmanlın ərazisindəki ermənilərin köçürülməsi əsasında əhalinin 73,4 faizi türklər olan İrəvan xanlığının ərazisində "Erməni vilayəti" yaradıldı. Naxçıvanda və İrəvanda yaşayan yerli bəylərin torpaqları alınaraq İrandan köçmüş ermənilər yerləşdirildi. **[1.s634].** İmperiya yerli xalqın mənafeyin tapdalayaraq erməniləri Qarabağda yerləşdirdi. Bununla da özünün mənfur niyyətlərini gərçəkləşdirməyə nail oldu. 1823-1827-ci illərdə Qarabağ ərazisində məskunlaşan əhalinin 8 faizi erməni idi. 1828-1830 -cu illərdə 35 faizə çatdı. Naxçıvan əyalətində müvafiq olaraq isə 13 faizdən 49 faizə qalxdı. " Erməni vilayəti"ində isə ermənilərin sayı 24 faizdən 54 faizə çatdırıldı.**[4,s. 674]** .Rus müəllifi Şavrovda etiraf edir ki, XX yüzilliyin başlanğıcında Zaqafqazıyada yaşayan 1, 3 milyon erməninin bir milyondan çoxu diyarın köklü sakinləri olmayıb, sonradan çar Rusiyası tərəfindən köçürülüb. Bu köçürmələr gələcəkdə Cənubi Qafqazda münaqişə ocağının da yaranmasına səbəb olacaq.

## ƏDƏBIYYAT SİYAHISI:

1. Azərbaycan tarixi. (2007-2008). (Yeddi cilddə, cild III). Bakı. [s.402].

2. Azərbaycan tarixi. (2007-2008). (Yeddi cilddə, cild IV). Bakı.[s.16]
3. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996 [s. 611].
4. S.Əliyarlı. Azərbaycan tarixi. I c. Bakı: Çıraq, 2009,[ 872 s].
5. Türkmənçay müqaviləsi. https://azerbaijan.az/portal/History/
6. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. – Баку, 1990.[s.81]
7. Мильман А. Ш. Политический строй Азербайджана в X1X-начале XX веков (административный аппарат и суд, формы и методы колониального управления). Баку: Азернешр, 1966.[ s.229]

**Tarana Aliverdi ALIVERDIYEVA**
Baku State University
E-Mail: taranaaliverdiyeva@mail.ru

# INACTIVITY OF THE OSCE MINSK GROUP IN RESOLVING THE KARABAKH CONFLICT

**Summary**

Since 1992,the Nagorno-Karabakh conflict has become predominantly a problem of international importance. After Azerbaijan became a member of the CSCE, in accordance with the principles of this organization, the solution of the Nagorno-Karabakh conflict was in the focus of public participants. Soon it was established the OSCE Minsk Group for settlement of the conflict. Due to unsuccessful attempts to settle the conflict today, the position of the Minsk Group in the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict pushed aside. Azerbaijan resolved the Karabakh conflict thanks to its military strength and policy of support.

**Key words:** Nagorno-Karabakh, Minsk group, OSCE, Lissabon summit, co-chair.

## Introduction

Among the conflicts that have raged in the Caucasus since 1988, the conflict over Nagorno-Karabakh ranks second (albeit by a significant margin) after the Chechen conflict in terms of human suffering and material destruction. But in terms of its geopolitical significance and the risk of escalating into a war covering an entire region, it obviously ranks first among all conflicts in post-Soviet Eurasia.

This is the only conflict that has been talked about with some justification, as a conflict that carries the threat of a "third world war." The conflict is raging in close proximity to three states, each of which claims to be a "regional center of power": Russia, Turkiye and Iran. At various times, both Turkiye and Iran seriously considered the possibility of their direct involvement in the conflict, which each time caused sharp protests from Russia. Russia has consistently intervened in the conflict when it believed it would further its cherished goal of restoration.

## Main text

After Azerbaijan became a member of the CSCE, in accordance with the principles of this organization, the solution to the Nagorno-Karabakh conflict became the focus of attention of state participants [4].

Starting from this period, Azerbaijan raised the problem of Armenian aggression before the CSCE. The Council of Ministers of this organization decided to convene a conference in Minsk as soon as possible with the participation of representatives of the USA, Russia, Turkiye, Finland, Azerbaijan and Armenia. On May 7, the first chairman Minsk Conference Mario Raffaelli arrived in the region.[3]

Armenia responded to every positive international initiative with another act of aggression. On May 8, 1992, Armenia captured Shusha. Thus, the entire territory of Nagorno-Karabakh was captured by the Armenians, the entire Azerbaijani population of this region turned into forced migrants.[5]

The settlement of the Armenian-Azerbaijani Nagorno- Karabakh conflict by peaceful means, since 1993, has occupied a major place in the foreign policy activities of the President of the Republic of Azerbaijan Heydar Aliyev.[4]

At the beginning of 1997, facts of Russia's illegal transfer of modern weapons with a total value of more than $1 billion to Armenia became known. It was then that it became clear that Russia began supplying these weapons in 1993, from the time when military operations were carried out between Armenia and Azerbaijan.Thus, it created the conditions for the occupation of the territories of Azerbaijan by the armed forces of Armenia. Russia continued to arm Armenia even after the ceasefire was declared.

Thanks to the determination and hard work of the President Heydar Aliyev reached a ceasefire agreement on May 12, 1994, and after that regular negotiations began to be held within the OSCE Minsk Group.[8]

On December 5-6, 1994, at the Budapest meeting of heads of state took place, was decided to establish co-chairmanship in the process. After the Lisbon summit, along with Russia, representatives of the United States and France were also appointed co-chairs of the Minsk Group. Since the second half of 1997, the co-chairs of the Minsk Group began to put forward 3 proposals, consisting of 2 parts: the liberation of 7 occupied regions located outside Nagorno- Karabakh and determination of the status of Nagorno-Karabakh. [1]

The first proposal they put forward in June 1997 provided for a "package" solution to the conflict (this option involved achieving simultaneous agreement on all issues, including the status of Nagorno-Karabakh).

In September 1997, the OSCE put forward a new peace proposal for Karabakh, which provided for a gradual achievement of peace. In accordance with this proposal, the issues of the withdrawal of troops from the occupied territories and the return of refugees, as well as the lifting of the blockade and the deployment of peacekeeping forces, should have been considered at the first stage of negotiations: the problem of status Nagorno-Karabakh should have been resolved at the second stage.

On November 9, 1998, the co-chairs put forward a third proposal, which contradicts the norms of international law and is absolutely unacceptable for Azerbaijan. It was based on the idea of a "common state" that does not exist in world practice [6]. In response to the proposal of the co-chairs of the Minsk Group for the concept of a "common state", Heydar Aliyev said that this proposal can be considered "buried", since it is aimed at actually granting independence to Nagorno-Karabakh. [2]

Starting in 2003, after the death of Heydar Aliyev, the negotiation processes were continued by Ilham Aliyev, who became the President of the Republic of Azerbaijan. Azerbaijani President Ilham Aliyev, at a meeting with guests who arrived in Baku to participate in the international conference "Building Bridges," said that the biggest problem of Azerbaijan is the problem of Nagorno-Karabakh, because the conflict is not frozen, and the peace is quite fragile. "This is truly a very dangerous situation. The condition of "neither peace nor war" cannot last forever. However, the Armenians want to consolidate this status quo, do not want to change anything and liberate the occupied territories." [7].

But, as we know, the Minsk group was unable to resolve the Karabakh conflict peacefully, despite the fact that the truth was on the side of Azerbaijan. The hostilities that began between Azerbaijan and Armenia on September 27, 2020 once again reminded the world that for more than thirty years the Karabakh conflict has remained intractable[2]. Since 1992, the OSCE Minsk Group has been an international body officially authorized to carry out mediation. Throughout this time, she conducted serious negotiations, but was unable to persuade the leaders of Azerbaijan and Armenia to make mutual concessions necessary to achieve peace. Recent intense military activities have changed the situation on the ground, weakening the role of the Minsk Group and calling into question its future work. [3]

During the 44-day war, Azerbaijan restored territorial integrity and justice, which the Minsk group and its co-chairs were unable to resolve for 28 years.

On December 12, 2020 President of the Republic of Azerbaijan Ilham Aliyev received French co-chair of the OSCE Minsk Group Stephane Visconti, US co-chair Andrew Schofer, Russian Ambassador

Extraordinary and Plenipotentiary to Azerbaijan Mikhail Bocharnikov and personal representative of the current OSCE representative Andrzej Kasprzyk.

Speaking at the meeting, President Ilham Aliyev said:

" A lot of time has passed since our last meeting, it was last year. During this period many events happened. Firstly, the pandemic has completely changed the situation around the world. Along with this, the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict has changed the situation in the region. Currently, a completely new situation has developed in the region. - Azerbaijan resolved the conflict, which lasted about 30 years, achieved this by force and by political means. I agree with President Putin, one of the heads of the co- chairing states, that the Nagorno-Karabakh conflict has already become history. I think the same. Unfortunately, the Minsk Group did not play any role in resolving the conflict. Although for this purpose the Minsk Group had the corresponding mandate for 28 years. I have been involved in negotiations for the past 17 years. However, as I said during the war, although the Minsk Group had some activity in the direction of putting forward ideas and showing creativity, it did not produce any results. This is the reality.

Thus, Azerbaijan itself resolved this issue. Having won a victory over Armenia on the battlefield, we forced the occupier to admit defeat and sign a Statement, which we consider surrender. "The President of Azerbaijan noted the importance of the official abolition of a number of mechanisms within the OSCE that are relics of the past, in particular such absolutely inactive structures as the OSCE Minsk Group."

**Conclusion**

Summing up all of the above, it should be noted that the Minsk group, which has not justified itself in the matter, should be liquidated and its budget should be distributed to more important issues, since there is no longer such a problem as the Karabakh one, it has became history.

## REFERENCE LİST:


1. Алиев Дж., Будагов Б. «Турки, азербайджанцы, армяне: «геноцид» исторические правды». Москва, 2002, — 54 с.
2. Азербайджан и Россия: общества и государство. Ред.- составитель Фурман Д. вып. 4, М., 2001, — 492 с., «Мир, прогресс, права человека».
3. Бакинский рабочий суббота, 29 сентября 2012 г. N° 181 (26897) Ричард Морнингстар «Для выхода из тупика в урегулировании нагорно-карабахского конфликта важна воля сторон».
4. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана.Баку, "Sarq-Qarb", 2007, — 903 с.
5. Гасымлы М. Агрессии Армении против Азербайджана. Дипломатические усилия по решению Нагорно-Карабахского конфликта. Международный научный журнал "Кавказ и мир", Тбилиси, — N° 10, — 2011, — 165 с.
6. Гусейнова И. История народов Кавказа (новый и новейший периоды) Баку, 2006, — 603 с.
7. «Зеркало» N° 178, суббота, 29 сентября, 2012 «И Азербайджан готов продолжить бессмысленные переговоры».
8. Шукуров И. Дипломатия мира (об итогах визитов Президента Азербайджанской Республики Алиева в зарубежные страны (1993—1997 гг.) Баку, "Азербайджан", 1997, — 392 с.

**Güntəkin Əli SÜLEYMANOVA**
Qərbi Kaspi Universiteti, Magistrant
E-mail: guntkinsuleymanova@gmail.com

## ÇEÇENLƏRiN VƏ İNQUŞLARIN DEPORTASİYASI VƏ REABiLiTASiYASI

**Summary**

During the Second World War, about 500,000 Chechens and Ingush peoples of the North Caucasus were exiled to the Autonomous Soviet Socialist Republic of Kazakhstan and Central Asia. According to various estimates, 10,000 people died on this road, and 100,000 people died in the years after the expulsion. The main reason for their deportation was mass collaboration with the German fascists and accusations of treason.

**Key words:** deportation, Chechens, Ingush,exile

**Giriş.**

Bu tezis çeçen və inquşların Çeçenistan Respublikasında yaşadıqları ərazilərdən Orta Asiya və Qazaxıstana deportasiyası ilə bağlı naməlum faktların aşkarlanmasına həsr edilmişdir. Deportasiya edilmiş xalqlar mövzusunun aktuallığı bütövlükdə dünya ictimaiyyəti üçün vacibdir, çünki həmin illərdə buraxılmış səhvlərin dərindən öyrənilməsi gələcəkdə onlara yol verilməməsinə imkan verəcək. Hal-hazırda Qafqaz xalqlarının deportasiyası mövzusu hələ hərtərəfli öyrənilməmiş, deportasiya edilmiş xalqların üzləşdiyi bütün problemlər hələ də tam aydınlaşdırılmamışdır. Son vaxtlara qədər mənbə bazasının həddindən artıq darlığı bu məsələnin öyrənilməsinə ciddi maneələr yaradırdı. Bir faktı qeyd etmək lazımdır ki, deportasiya mövzusunun öyrənilməsinə kifayət qədər fərqli yanaşmalar mövcuddur və bu problemə həsr olunmuş əsərlər öz metodoloji mahiyyətinə görə kifayət qədər müxtəlifdir. Hazırda ölkədə deportasiya prosesləri problemi Sovet İttifaqnını ən populyar tədqiqat mövzularından biridir. Deportasiyalar SSRİ-də u milyondan çox insanı əhatə edirdi. Etnik əsaslı deportasiyalar İkinci Dünya Müharibəsi zamanı (xüsusilə 1943-1944-cü illər arasında) Sovet İttifaqının Krım tatarları, çeçenlər, inquşlar, balkarlar, qaraçaylar, o cümlədən bir neçə etnik qrupdan ümumilikdə 2 milyona yaxın insanı deportasiya etmək üçün alman əməkdaşlarından narahat olduğu zaman baş verdi. Çeçenlərin və inquşların deportasiyası, əslində əsl repressiya, bir növ etnik təmizləmə idi, xalqların mədəniyyətinə və inkişafına düzəlməz zərər vurdu. Fikrimcə, deportasiya prosesinin obyektiv və dürüst əks etdirilməsi və dərk edilməsi, deportasiyaların səbəblərinin müəyyən edilməsi təkcə bütövlükdə tarix elminin inkişafına deyil, həm də gələcəkdə xalqlara qarşı bu cür repressiyaların qarşısının alınmasına kömək edəcəkdir.

**Əsas mətn**

23 fevral 1944-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə çeçenlər və inquşlar Qazaxıstan və Qırğızıstana sürgün edildi (deportasiya edildi). Belə ki, Stalin-Beriya rejiminin iradəsi ilə bu xalqlar on üç il uzun müddətə öz etnik vətənlərindən məhrum edilmiş və xüsusi komendantlıqların ciddi nəzarəti altında olmuşlar. Çeçenlərin və inquşların qovulması üçün tədbirlər əvvəlcədən, o cümlədən "hüquqi" nöqteyi-nəzərdən planlaşdırılıb və hazırlanıb. "1943-cü il oktyabrın 17-də SSRİ Xalq Komissarları Sovetinin çeçenlərin, inquşların, kalmıkların və qaraçayların deportasiyası haqqında məxfi qərarı qəbul edildi". Bu sənəd hələ də tədqiqatçılar tərəfindən öyrənilməyib və elmi dövriyyəyə daxil edilməyib. Bizə elə gəlir ki, yüz nəşr və hərtərəfli təhlil Vaynax (çeçen və inquşların öz adı) xalqlarının deportasiyası, onun məqsəd və vəzifələri haqqında tam təsəvvür yaratmağa əhəmiyyətli dərəcədə kömək edəcəkdir.

SSRİ Ali Soveti Rəyasət Heyətinin "Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikasının ləğvi və onun ərazisinin inzibati quruluşu haqqında" Fərmanı 1944-cü il martın 7-də, yəni Mərci əməliyyatının başa çatması, çeçenlərin və inquşların qovulması iki ildən sonra qanuni qüvvəyə minib. 1946-cı il iyunun 25-də RSFSR Ali Soveti "Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikasının ləğvi və Krım

Muxtar Sovet Sosialist Respublikasının Krım vilayətinə çevrilməsi haqqında" Qanun qəbul etdi. Əvvəlcə xalqlara qarşı zorakılıq törədilib, sonra isə faktdan sonra onun hüquqi əsası formalaşıb. SSRİ NKVD-nin Banditizmlə Mübarizə İdarəsinin 1 iyul 1941-ci ildən 1 iyul 1944-cü il tarixədək, yəni üç il ərzində banditizm və fərariliyə qarşı mübarizə haqqında hesabatında təqdim etdiyi məlumatlara uyğun olaraq, Böyük Vətən Müharibəsi, Sovet İttifaqı ərazisindəki NKVD orqanları ləğv edildi. Sürgün şəraitinə uyğunlaşmaq üçün ağlasığmaz əzab və stress keçirən çeçen xalqı 13 ilini Qazaxıstanda, Qırğızıstanda keçirdi. Eyni zamanda, bütün xüsusi köçkünlər hüquqi və sosial hüquqlarından məhrum edildi. Hakimiyyət və yerli əhalinin onlara münasibəti heç də həmişə mehriban olmayıb. Ensevedeuşniklərin "ajitasiyası" olmadan çeçenlərin "adayəyən" olması haqqında mif hətta yerli əhali arasında da yayıldı. Yalnız 5 mart 1953-cü ildə Stalinin ölümü ilə xüsusi məskunlaşma rejimində nəzərəçarpacaq yumşalma başlandı. Xruşşovun şəxsiyyətə pərəstiş və deportasiya edilmiş xalqların repatriasiyasını tənqid etməsi Sov.İKP-nin 20-ci Qurultayında xalqların deportasiyası ilə bağlı rəsmi tənqidlər səsləndirildi. N.S. Xruşşov Stalinin şəxsiyyətinə pərəstişin ləğvinə həsr olunmuş məruzəsində deyirdi: "Sovet İttifaqı haqlı olaraq çoxmillətli dövlət modeli hesab olunur, çünki biz əslində böyük Vətənimizdə yaşayan bütün xalqların bərabərliyini və dostluğunu təmin etmişik. Stalinin başlatdığı və Sovet dövlətinin milli siyasətinin əsas Leninist prinsiplərinin kobud şəkildə pozulmasını ifadə edən hərəkətlər daha dəhşətlidir. Söhbət günahsız insanların, o cümlədən bütün kommunistlərin və komsomolçuların heç bir istisnasız olaraq öz doğma yurdlarından kütləvi surətdə çıxarılmasından gedir. Nizamlanma heç bir halda hərbi mülahizələrlə diktə olunmurdu. Siyasi və hüquqi reabilitasiyanın başlanğıcı. Sov.İKP-nin 20-ci Qurultayından sonra dövlətin repressiyaya məruz qalmış xalqlarla bağlı siyasətində dönüş yarandı. Onların demək olar ki, hamısı əvvəlki ərazilərinə qaytarıldı. Onların məskəni, milli-dövlət quruluşları bərpa edildi, sosial-iqtisadi və mədəni inkişafı üçün şərait yaradıldı. Şübhəsiz ki, kadr siyasətində çətinliklər, mənzil və məşğulluq problemləri, yanlış hesablamalar və səhvlərə yol verilib. Bu xalqların reabilitasiyası üçün növbəti tarixi əhəmiyyətli addım atıldı. Eyni zamanda, bizə elə gəlir ki, "Doğum yerində repressiyaya məruz qalanların, xüsusən də çeçen xalqının reabilitasiyası haqqında" RSFSR Qanununun icrasının nəticələrini dövlət səviyyəsində təhlil etmək lazımdır. Sürgün, zorakılıq, qanunsuzluq hər bir etnik qrupun tarixi yaddaşında həmişə silinməz iz qoyur. Onlar millətlərarası münasibətlər və dövlətin milli siyasəti haqqında mənfi anlayış formalaşdırmaqla uzun müddət davam edən narazılıqlara səbəb olur. Repressiyaya məruz qalan xalqların dərdinə humanist, mərhəmətlə yanaşan isə ağıllı davranır.

**Nəticə**

Xalqların deportasiyası, eləcə də onların reabilitasiyası problemlərinin tədqiqi hələ tam deyil. Alimlərin fəaliyyətini gücləndirmək, yeni yanaşmalar tətbiq etmək, xalqların gələcəkdə belə faciələrdən qorunmasına yönəlmiş konkret praktiki problemləri həll etmək lazımdır. Biz xalqların deportasiyası ilə bağlı bütün həqiqəti bilməliyik və bunun nəticələrini dərk etməliyik. Alimlər Rusiya xalqları, dinləri və mədəniyyətləri arasında davamlı razılığa nail olmaq, birliyi möhkəmləndirmək və tolerant münasibətləri inkişaf etdirmək üçün güclərini birləşdirdilər. Milli birlik üçün çox zəruri olan millətlərarası münasibətlərin sivil və demokratik əsaslarını dərinləşdirmək lazımdır. Etiraf edilməlidir ki, bu gün Çeçenistan Respublikasında, Şimali Qafqazda, bütövlükdə ölkədə müsbət sosial-iqtisadi, mənəvi və mədəni proseslər gedir, uğurlu millətlərarası münasibətlərin əsaslarını möhkəmləndirir.

## ƏDƏBIYYAT SİYAHISI:


1. Ингуши: депортация, возвращение, реабилита-Ция.1944 – 2004 : документы, материалы, комментарии /Сост. Я.С. Патиев. Магас, 2004. С. 474 – 476.
2. Бугай Н.Ф. Правда о депортации чеченского и ингуш-Ского народов // Вопросы истории. 1990. № 7. С. 38 – 39.
3. Депортация народов СССР (1930 – 1950 гг.): в 2 ч. М., 1992. Ч. 1
4. Иосиф Сталин – Лаврентию Берии: «Их надо депор-Тировать». М., 1992.
5. «Репрессированные народы России: чеченцы и ин-Гуши» / сост. Н.Ф. Бугай. М., 1994.

**Фирузе ХАЯТОВА**
Азербайджанский Университет Языков

## ЯЗЫК КАК ОСНОВА ЭТНИЧЕСКОЙ КУЛЬТУРЫ

**Summary**

Ethnic culture expresses the linguistic and cultural identity of an ethnic group, including specific features of material and spiritual culture, everyday life, group psychological characteristics, general self-consciousness based on the idea of a community of origin. The culture of the ethnic group, in addition, includes the language of world communication, which represents the communication of various ethnic groups. In the culture of the ethnos, specific ethnic and common world languages coexist, as they represent different cultural layers

**Keywords:** language, ethnoculture, identification

**Введени**

В современном мире достаточно сложная этнокультура и языковая ситуация. Язык является основным показателем, отражающим национальную самобытность каждой нации, и как не существует нации без языка, так и государственность и государственность нации находятся под вопросом. По мере того как меняется сам мир, меняется и влияние мировых языков. В этой связи особое значение приобретает Международный день родного языка, который ежегодно отмечают все страны мира, как фактор, стимулирующий развитие как ведущих языков мира, так и языков, принадлежащих к малым этническим группам . Сегодняшний день также напоминает нам о том, что каким бы глобализированным ни был современный мир, насколько бы ни возрастало влияние международных языков, языки этнических групп с небольшой социальной базой необходимо защищать и развивать.

**Основной текст**

Как известно, в современное время в большинстве стран мира существует этническое, расовое, религиозное и культурное разнообразие. Формирование этнокультурного разнообразия в обществе является объективным результатом развития исторического процесса. Кроме того, это разнообразие характеризует этнокультурные ценности и культуры народов и составляет основу их мировоззрения и деятельности. Короче говоря, этническое и культурное разнообразие играет положительную роль в жизни людей. Поэтому защита этнокультурного разнообразия является неотъемлемой частью регуляторной политики, реализуемой государством. Регулирование этнокультурного разнообразия должно учитывать интересы всех сторон, то есть как государства, так и этнических и религиозных меньшинств. Если этнокультурное многообразие не регулируется или если эта работа не ведется должным образом, возникают серьезные проблемы и даже конфликты в различных сферах развития общества. По этой причине правильное регулирование этнокультурного разнообразия имеет большое практическое значение для каждого поликультурного государства.

Главные черты формирование народа находит свое отражение в этнической культуре. В каждой этнической культуре есть те принципы которые помогают сохранить все генетические особенности, основы языковой политике, при которой язык воспринимается как главная частица этнокультурной идентичности. Все это невозможно без учета всего антисоциального контекста эволюции и функционирования языка.

Этнолингвистика трактует язык как историческое наследие коллектива, которое предшествовало становлению материальной культуры. Эта наука сосредоточена на изучении языка в его отношении к культуре, взаимодействии языковых, этнокультурных и этнопсихологических факторов в функционировании и эволюции языка.

Хотелось бы подчеркнуть, что ещё в эпоху античности (Пратогор, Демокрит) складывалось представление о языке как о культурном феномене. Философы думали: « *что язык был создан*

*ономатотетами – богами или мудрейшими из людей, которые проникали в сущность вещей и давали имена в соответствие с их природой. В своей концепции Платон обосновал процедуру поиска 6 этимологии – «истинных слов», т.е. обосновал процедуру исследования языка»* [1.].

Всегда в лингвистических науках язык был главным объектом исследования. Во всех периодах развитие этой науки лингво-культурные исследование были актуальны. Так как язык для самоидентификации является главным элементом.

**Заключение**

Известный языковед Вильгельм фон Гумбольдт считал что: «*язык созидающая сила*» [2]. В работах языковеда Эдварда Сепира исследовался: «*вопрос влияния культуры на речевой онтогенез личности путём сопоставления этнических культур и языков*» [3]

Этническая идентичность представляет собой многогранное и сложное явление, формирующееся, существующее и развивающееся в процессе усвоения и накопления культурного опыта, в данном контексте языку отводится особенно важная роль.

## СПИСОК ЛИТЕРАТУРА:

1. Платон Кратил // Собрание сочинений в четырёх томах / Общая редакция А. Ф. Лосева, В. Ф. Асмуса, А. А. Тахо-Годи. Автор вступительной статьи и статей в примечаниях А. Ф. Лосев. — М.: Мысль, 1990. — Т. 1. — с. 613—681.
2. Гумбольдт фон В. Избранные труды по языкознанию / Новгород: Прогресс,- 1984- 399 с.
3. E.Sapir Culture, Language, and Personality: Selected Essays / University of California Press, - 1949- 208 p.

**Elvin Elshen KHUDAVERDIYEV**
*doctoral student* of the *Institute of History and Ethnology*
named after A.A.*Bakikhanov* of *ANAS*
*E-Mail:elvinxudaverdiyev87@gmail.com*

## MULTICULTURALISM IN MODERN WESTERN EUROPE AGAINST THE BACKDROP OF GLOBAL CHALLENGES

**Summary**

Multiculturalism, as a political and social concept, is of particular relevance in the modern world, especially in the context of Western Europe. Increasing flows of migrants, processes of globalization and internationalization necessitate a rethinking of identity, cultural interaction and social structure in the countries of the region. This paper will examine models of multiculturalism implemented in Western European countries, analyze the global challenges they face, and also outline possible development prospects.

**Keywords:** multiculturalism, cultural diversity, history, Europe, globalization

### Introduction

Multiculturalism proposes the peaceful coexistence of different cultures in one country. Multiculturalism is a concept that recognizes the equality of all cultures. The first country to officially proclaim multiculturalism became government policy in Canada. The first country to officially proclaim multiculturalism as a state policy was Canada. This happened in 1950. The essence of the Canadian model of multiculturalism was to provide support through special programs and services to ethnocultural associations and to help minorities overcome the obstacles that prevent them from full participation in Canadian society. In 1952, multiculturalism became a constitutional norm through the adoption of the Canadian Charter of Rights and Freedoms and then a whole package of special laws that were aimed at maintaining respect for different cultures and their full functioning. Later, this

political course began to spread in Western European countries. With the collapse of the colonial system, the flow of migration to the metropolitan countries gave impetus to the rapid development of the policy of multiculturalism. With that, a number of modern global challenges emerged. According to a number of experts, multiculturalism means at least two things. The first is the fact of cultural diversity. The second is a way of dealing with this fact, with this reality. The world of universal tolerance and multicultural fraternization exists only in fantasies, but in reality, before our eyes, a fierce struggle for a comfortable and inhabited European space is unfolding. The contradictions between immigrants and local residents are far from being "ethnic" or "cultural" in content [3, p.217].

**Body part**

Multicultural societies are primarily multiethnic societies. This means that the reality of their existence is determined not only by the ethnocultural self-awareness of individuals, but also by the social structures that arise on an ethnocultural basis. A multicultural society is therefore not a simple coexistence of individuals of different ethnic origins, but a social system in which ethnic social structures are part of the social structures of society [2, p.89].

The relationship between multiculturalism and globalization is manifested in:

Increased migration: People migrate from their countries in search of a better life, work, education. This leads to increased ethnic and cultural diversity in host countries.

Dissemination of Information: The Internet and other media allow people from different countries to learn about each other's cultures. This promotes intercultural dialogue and understanding.

Development of international trade: Businessmen from different countries cooperate with each other, which leads to the exchange of cultural goods and services.

Impact on culture: Globalization and multiculturalism can lead to the emergence of new cultural forms that combine elements from different cultures.

In Western European countries there is no single model of multiculturalism. Approaches to its implementation may vary depending on historical, social, cultural and political factors.

The most common models of global multiculturalism are:

• Assimilation model: focuses on ensuring that migrants adopt the language, culture and values of the host country.

• Integration model: involves preserving the cultural identity of migrants while simultaneously integrating them into the society of the host country.

• The "multiculturalism" model: recognizes the right of different cultural groups to coexist within one society without seeking their integration.

Multiculturalism in Western Europe faces a number of global challenges:

• Rising xenophobia and Islamophobia: Economic difficulties, social tensions and information campaigns can fuel hostility towards migrants and Muslims.

• Radicalization of Islamic minorities: Some members of immigrant communities may be influenced by extremist ideas, which pose a security threat.

• Maintaining cultural identity: Migrants may have difficulty maintaining their culture and language within the dominant culture of the host country.

• Social integration: unequal access to education, work and housing can hinder migrants' integration into society.

• Demographic changes: An influx of migrants can change the ethnic and religious composition of the population, which can lead to social and political divisions.

Despite the difficulties, multiculturalism remains an important tool for ensuring the peaceful and fair coexistence of people of different cultures in Europe. For its successful development it is necessary:

• Implementation of effective integration programs: migrants should be provided with assistance in language learning, education and employment.

• Combating discrimination and xenophobia: it is necessary to promote the ideas of tolerance and mutual respect between different groups of the population.

• Supporting intercultural dialogue: It is important to create opportunities for constructive interaction between people of different cultures.

• Strengthening social cohesion: problems of poverty, unemployment and social inequality that can fuel social tensions must be addressed.

• Development of transnational cooperation: European countries should cooperate in solving problems related to migration and multiculturalism.

The possibility of intercultural dialogue is ensured by the universalism of cultures, which means that all people - regardless of race, gender, ethnicity, culture, language and religion - must be considered morally equal and therefore treated as equally entitled to moral respect [1, p.32]. There are values, such as human rights, that are essential to human dignity and well-being. These values must be recognized and protected by all cultures. Intercultural dialogue must be based on the recognition of common values, such as respect for human dignity, justice and freedom. This allows people from different cultures to find common ground and engage in constructive dialogue. Universal values can help overcome cultural barriers and promote mutual understanding between people from different cultures. In the modern world, countries and regions can share with each other their experiences in implementing multiculturalism policies, which allows them to learn from each other and improve their approaches. Some problems associated with multiculturalism, such as migration, terrorism, the spread of extremism, cannot be solved alone. Transnational cooperation makes it possible to unite the efforts of countries to solve problems. In the context of globalization and internationalization, transnational cooperation is becoming an increasingly important factor in ensuring peace and security. Multiculturalism, in turn, creates the basis for the peaceful coexistence of people of different cultures within one society.

**Conclusion**

Multiculturalism in Western Europe is a complex and multifaceted process that presents both opportunities and challenges. For its successful development, a comprehensive and long-term solution to the problems it faces is necessary. It is important to note that multiculturalism is not a static concept, but must evolve and adapt to changing conditions. Only through the joint efforts of the state, society and migrants themselves can we build an inclusive and fair society in which people of different cultures can coexist peacefully and fruitfully. Preserving the cultural identity of migrants: challenges and opportunities. Preserving the cultural identity of migrants while simultaneously integrating them into the society of the host country is a complex task that requires an integrated approach. On the one hand, migrants must be able to preserve their culture, language, traditions and values. This is important for their psychological well-being, sense of community and connection to their roots. On the other hand, migrants must integrate into the society of the host country, learn the language, master new skills, and get acquainted with local customs and traditions. This is necessary for their successful adaptation to a new life, finding work, education and participation in public life.

## REFERENCE LIST:

1. Benhabib, S. The Claims of Culture: Equality and Diversity in the Global Era. Princeton University Press, 2002. 280 p.

2. Kontos M. Etnische Kolonien und multikulturell e Gesellschaft // Migratio n und Auslanderfeindlichkeit / Hrsg. G. Böhme, R. Ghakraborty, F. Weiler. Darmstadt, 1994, 221p.

3. Малахов В. Национализм как политическая идеология: Учебное пособие. — М.: КДУ, 2005. — 320 с

**Bahar Usub İSAQOVA**
Qərbi Kaspi Universiteti
E-mail: bahar.isagova@wcu.edu.az

# ULU ÖNDƏR HEYDƏR ƏLIYEVIN TƏŞƏBBÜSÜ ILƏ AZƏRBAYCAN DILININ DÖVLƏT DILI KIMI TANINMASI.

**Summary**

The article examines the role and services of the great personality Heydar Aliyev in the establishment of the Azerbaijani language as the state language. The author refers to historical events and political initiatives carried out by Heydar Aliyev in the late 1970s and later years, especially his resolute advocacy for the inclusion of the Azerbaijani language in the Constitution of the USSR. The article also mentions the next steps in the direction of protecting and promoting the language implemented under his administration, and it is emphasized that this policy was continued under the leadership of his successor Mr. Ilham Aliyev.

**Key words** Heydar Aliyev, Azerbaijani language, state language, politics, protection of cultural heritage.

**Giriş;**

Dahi Şəxsiyyət Heydər Əlirza oğlu Əiyevin təşəbbüsü və səyi nəticəsində Azərbaycan dili 1970-ci illərin yay aylarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların içtimai-siyasi həyatındakı dil məsələlərini gündəmə gətirilmişdir. Konstitusiyanın qəbulundan sonra milli dillin sıxışdırıb ortadan çıxarılması prosesi daha da gücləndirildi. Əlbətdəki belə bir halda ana dilinin təbliği, gündəmə gətirilməsi ilə məşğul olmaq böyük cəsarət tələb edirdi. Hətda respublikanın rəhbərləridə dil məsələsinin gündəmə gəlməsindən ehtiyyat edirdilər. Bütün bu cür nüanslara və qadağalara rağmən, o vaxt Heydər Əliyev milli dil məsələsində öz mövqeyini cəsarət və qətiyyətlə bildirilmişdir.

**Əsas mətn**

Bu tarixi təşəbbüs 1978-ci il aprel ayının 2-də IX çağırış SSRİ Konstitusiyasına həsr olunmuş VII sessiyasında ətraflı və dolğun şəkildə məruzə ilə çıxış edən Heydər Əliyev öz təkliflərini vermişdir. "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili azərbaycan dilidir"1978-ci il aprel ayının 21 tarixində qəbul olunmuş konstitusiyada Heydər Əliyevin təşəbbüsü öz əksini tapir. Dahi şəxsiyyət Heydər Əliyevin xalqın qarşısında ən böyük xidmətlərindən biridə Azərbaycan dilinə dövlət statusunun verilməsi idi. Müstəqil dövlətçiliyin qorunması və gələcək nəsillərə ötürülməsini birbaşa öz üzərinə götürən Heydər Əliyev bu missiyanıda məharətlə yerinə yetirmişdir. Hər bir xalqın ana dili onu parlaq gələcəyə aparan inkişaf etdirən, mənəvi dəyərləridi. Xalqın ən əsas təminadçısı onun milli dilidir. Azərbaycan xalqının milli dili, onun milli varlığını özündə əks etdirən başlıca amillərdəndir. Xalqın dövlət rəmzi olan bayraq, gerb, himn kimi ana dilidə müqəddəs və toxunulmazdır. Ana dilinin dövlət dili kimi tanınmasında və qəbul olunmasında Heydər Əliyevin mübarizəsi danılmazdır. Dövlət dili uğrunda davamlı mübarizə aparan Ümumilli Lider ana dilinin dövlət dili kimi yaşamaq uğrunda mübarizəyə xalqı, vətənin ziyalılarını, şövq edərək bütün qüvvələrini bu iş uğrunda səfərbər etmişdir. Heydər Əliyev-" Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı verir və bu əslində ana dilinin dövlət dili kimi statusunu qorumaq məqsədi güdür" deyə SSRİ Konstitusiyası haqqında çıxış edərkən öz nitqində qeyd etmişdir. Ümumilli Lider, böyük şəxsiyyət müxtəlif vasitələrdən var gücü ilə istifadə edirdi ki, gələcək nəsillərə yararlı olsun. Azərbaycanda dilçi alimlərimizə yüksək səviyyədə diqqət və qayğı göstərmək, milli dildə nəşr edilən kitab tirajlarının sürətlə artırılması və bu kimi digər tədbirlər ana dilinin dahada inkişaf etdirilməsi məqsədini güdür.

Azərbaycan dilinin zənginləşməsi, işlənməsi, inkişaf etdirilməsi məsələlərinə xüsusi önəm verən Heydər Əliyevin səyləri nəticəsində bunlar öz əksini taparaq azərbaycan dilinin adını özümüzə qaytarmışdı. Azərbaycan respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı bir çox təkliflər irəli sürülmüşdür. Ana dilinin Azərbayacan dili kimi adlandırılması təklifini əksəriyyəti dəstəkləyirdi. Və beləliklə təkliflər dəyərləndirilərək və baxılıb müzakirə olunduqdan sonra ümumxalq səsvermə ilə 1995-ci ildə qəbul olunmuş konstitusiyanın 21-ci maddəsində Respublikanın dövlət dili Azərbaycan dili kimi adlanması qəbul olunmuşdur.

**Nəticə**

Ana dilimizin inkişafı və qorunması üzrə olan işlər bundan sonra dahada gücləndirilmişdir. Tarixi keçmişi ilə yanaşı, mövcud problemlərin həllini daim diqqət mərkəzində saxlamaq üçün Heydər Əliyev bir sıra vacib imzalar atmışdır. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman 2001-ci il iyun ayının 18-də imzalanmışdır. Dövlətin dil siyasətinin formalaşması, müəyyənləşməsi və möhkəmlənməsi baxımından müstəsna əhəmiyyətli Fərman dövlət dili ilə bağlı geniş məlumatları özündə əks etdirir. Azərbaycan Prezidenti yanında sözü gedən Fərmanla bağlı Dövlət Dil Komissiyası yaradılmışdır. 9 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmana əsasən hər ilin 1 avqust tarixi "Azərbaycan əlifbası və azərbaycan dili günü" kimi qeyd edilir. Heydər Əliyev-"Dilimiz ahəngdar, çox zəngin və dərin tarixi köklərə malikdir. Mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" Heydər Əliyevin Azərbaycan dilinin inkişafı, onun genişləndirilməsi, xarici təsirlərdən qorunması siyasətini uğurla davam etdirən Prezident Cənab İlham Əliyevin vurğuladığı kimi: "Bizim bir Vətənimiz var-Azərbaycan! Bizim bir dilimiz var-Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi"

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərtac
2. İradə Sərdərova ADU-nun dosenti
3. ULUSAL- Osman Əhmədzadə Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
4. Azərbaycan Mullu Kitabxanası 2013
5. https://sesqazeti.az/news/politics/1149557.html

**Ələddin Mehman MƏLİKOV**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AcademyGate-in elmi işçisi, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi,
E-mail: aladdin.malikov@gmail.com

# SOKRATIN MÜHAKİMƏSİ VƏ ŞƏHADƏTİ

**Summary**

The ancient Greek philosopher Socrates (470-399 BC) was born in Athens. His father, Safronix, was a nurse, and his mother, Fenareta, was a midwife. He had two sons named Sophronix and Mexen. This genius, one of the giants of philosophy, is one of the most enigmatic figures in history. He left no publications or writings. For this reason, we have information about him written by his students and contemporaries. The most famous are the dialogues of his student Plato. The life and ideas of Socrates, who had no written works, were transmitted to future generations by the scholars of his time, as well as by his students. The life and ideas of Socrates, who had no written works, were transmitted to future generations by the scholars of his time, as well as by his students. "The Defense of Socrates" written by Plato is one of them. In this work, Plato shows how Socrates defends his ideas during the trial. In my opinion, first philosophers, and then everyone, should read "The Defense of Socrates" at least once in their life. In fact, until I started writing the article "Socrates in the presentation of three philosophers",

this question always made me think about how it was possible for Socrates as an individual to be convicted and martyred on absurd charges. Then I began to hear and almost see all the injustice against Socrates, and the silence of Socrates out of desperation.

Socrates, known as an extremely simple person who did nothing but philosophy, had a great influence on Greek youth during his lifetime. Worried about this, the hegemons of that time accused Socrates of not believing in the gods and corrupting the morals of the youth. B.C. In 399, at the age of seventy, Socrates, who was tried on the basis of these claims, was sentenced to death. Socrates made an unusual choice in Athens. Not after brilliant intellect, money, power or fame, but as a "disturbing" philosopher, he chose truth, for which he paid the price with his life.

**Key words**: Socrates, Plato, philosophy, trial, death

**Giriş**

Müasir dövrümüzdə "Dünya fəlsəfəsi" fənninin tədrisində dahi filosof Sokratın həyatı və fikirləri, öz dövründəki alimlər, həmçinin şagirdləri tərəfindən gələcək nəsillərə ötürülən əsərləri haqqında məlumat vermək aktuallıq kəsb edir.

**Əsas mətn**

**Sokratın son günləri.** Platon tərəfindən qələmə alınan *"Sokratın müdafiəsi"* də bunlardan biridir. Platon *"Sokratın müdafiəsi"*ndə məhkəmə zamanı Sokratın öz fikirlərini necə müdafiə etdiyini göstərmişdir. Fikrimcə ilk öncə fəlsəfə tələbələri, sonra isə hər bir kəs həyatında ən azı bir dəfə *"Sokratın müdafiəsi"* adlı əsəri oxumalıdır. Doğrusu *"Sokrat üç filosofun təqdimatında"* məqaləsini yazmağa başlayanadək, həmişə bu sual məni düşündürürdü ki, Sokratın bir fərd olaraq absurd ittihamlarla məhkum olunması və şəhid edilməsi necə mümkün olub. Sonra Sokrata qarşı bu qədər haqsızlığı və Sokratın çarəsizlikdən susmasını oxumağa və sanki görməyə başladım. Sokratın dövründə nisbətən daha ağıllı və daha mənən zəngin az adam tapılardı ki, ona dəruni hörmət bəsləmiş və təzim etmiş olsun. Böyük əksəriyyət olan kütləyə gəlincə isə qeyd edə bilərik ki, onları Sokratın fikirlər və əməllərini qətiyyən anlamamış və ona düşməncəsinə, yad nəzərlərlə baxmışlar. Platon "Sokratın müdafiəsi" adlı əsərində məhkəmə zamanı Sokratın bu sözləri dediyini qeyd edir:

"Sizə Tanrı tərəfindən göndərdiyimin dəlilinimi istəyirsiniz? Mən başqaları kimi olsaydım, illərlə sizi fəzilətə yönəltməklə, bir ata, bir böyük qardaş kimi tək-tək sizin problemlərinizlə məşğul olmaqla öz işlərimi başlamaz, onlara səbrlə tamaşaçı qalmazdım. Belə bir vəziyyət, düşünürəm ki, insan təbiətinə uyğun bir şey deyil. Bundan bir şey qazansaydım ya da yol göstərməyimin qarşılığında pul götürsəydim, bu davranışımın bəlkə bir mənası olardı, lakin indi özünüz də görürsünüz ki, məni günahlandıranların həyasızlığı belə, bir kimsədən pul götürdüyümü ya da götürmək istədiyimi söyləməyə yetmir. Çünki belə bir şeyi heç vaxt görməyiblər. Bu sözümün doğruluğuna, kifayət qədər şahidlik edəcək bir şeyim var: yoxsulluğum" [1, s. 2].

Ümumiyyətlə, Sokrat bütün yunan fəlsəfəsinin gedişatını dəyişdi. Antik fəlsəfə tədqiqatçıları nəinki yunan fəlsəfəsini hətta Sokratın bütövlükdə fəlsəfəni əbədi olaraq dəyişdirdiyini qəbul edərkən, eyni zamanda onun kim olduğu və əslində nəyə inandığı barədə də hiddətlə mübahisə edirlər. Ona görə də yunan fəlsəfəsi *"Sokratdan öncə və sonra"* olaraq iki yerə bölünüb. Onun gəlişi fəlsəfəni naturalizmdən çıxarıb insan mənəviyyatına köklədi. Tanrı haqqında da yunanlara irad tutduğu olduqca çox məqam vardır ki, bu iradların çoxu səmavi dinlərin Tanrısına bənzər bir Tanrıya üstünlük verdiyini ortaya çıxarır.

**Nəticə**

Sokrat afinalıların gözündə qeyri-adiliyi və qəribəlikləri ilə seçilən bir şəxs idi. Onun xarici görünüşü də mənbələrə əsasən xoş deyildi. Tələbəsi Platon və dramaturq-komedioqraf Aristofan tərəfindən zahiri görünüşü ilə bağlı açıqlamalara inansaq, Sokrat xüsusi görkəmi ilə xoşa gəlməyən bir təsir bağışlayrdı. Daha doğrusu hamının diqqətini cəlb edirdi. O, tamam başqa cür həyat sürə biləcəyi halda dilənçi kökündə gəzir. Belə demək doğru olarsa, kütləyə dəlisayağı görünürdü. İlk baxışdan heç kəsə bənzəməyən söhbətləri, zəvzək bir adamın təsirini bağışlayırdı. Sokratın qərəzkarları ona qulaq asdıqda filosofun sözləri onları qılınc kimi kəsib, iliklərinə qədər işləyərək mənliklərinə toxunurdu. Sokrat deyirdi ki, insan hər şeydən əvvəl müdrikliyə səy göstərməlidir. Hakimiyyət, var-dövlət, şan-şöhrət və

bu kimi şeylər ki, insanların çoxu ona can atırlar, heç də elə bir qiymətə malik deyil. Sokratın cahilliyi qamçılayan söhbət və çıxışları şübhəsiz ki, ona qarşı çoxlu böhtanların meydana gəlib yayılmasına səbəb olurdu.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Məlikov, Əlǝddin. Sokrat üç filosofun təqdimatinda // AMEA Sosial Elmlər jurnalı (ISSN:2710-0820), Vol.V. 15.06.2023, №1, s. 208 - 214 (https://doi.org/10.59849/2710-0820.2023.1.208)

**Günəş Novruz MUSTAFAYEVA**
AMEA Dilçilik İnstitutu
E-mail: iltifatly@ HYPERLINK "mailto:iltifatly@gmail.com"gmail.com

# TÜRK DILLƏRINDƏ UMAY ANA

**Summary**

Cognitive linguistics studies the mental processes involved in perceiving, thinking, and consciously understanding reality. The term «concept», which is relevant for modern linguistics, is one of the main research objects of cognitive linguistics. Among the concepts, the concept of god is interesting due to its multifaceted richness. The concept of God is directly related to the religious belief systems of the Turks. The religion of the Turks is the religion of the Sky God (Gok Tenri), which is the oldest, the most extensive and the longest known to us. According to Turkish mythology, 17 goddesses ruled the world. The sky god, Earth-Sub and Umay are among those goddesses. The Sky God (Gok Tenri) is the chief deity and he is the creator of the other 17 goddesses.

**Key words:** Umay, woman, goddess, blessing, legend

## Giriş

Dinsiz və inancsız xalq yoxdur. Bəşəriyyəti təşkil edən cəmiyyətlərin müxtəlif inanc səviyyələri vardır. Təbiət hadisələrinə olan inam- totemizm, animizm, naturizm, dinamizm və başqaları bütün cəmiyyətlərdə olmuşdur. Bildiyiniz kimi, türklər çox zəngin tarixi və mədəni mirasa sahib bir xalqdır. Onlar tarix boyunca geniş coğrafi sahələrdə məskunlaşmışlar və yaşadıqları yerlərdə müxtəlif mədəniyyətlərlə tanış olmuş və onları mənimsəmişlər. Müxtəlif mədəniyyətlərlə tanış olmalarına baxmayaraq, onlar orijinal din sistemlərini qorumağı bacarıblar. Türklərin bizə məlum olan ən qədim, ən geniş və ən uzun müddətdə mənimsədikləri din Göy Tanrı dinidir.

## Əsas mətn

Türklərin həyatında min illər boyu əhəmiyyətli dərəcədə təsir göstərmiş tanrılardan biri Umaydır. Bu söz monqol dilində hərfi mənada «uşaqlıq», tunqus dilində «yumurta qoymaq» deməkdir. O, doğuşun, çoxalmanın simvoludur. Onun təkcə insanlar üçün deyil, heyvanlar üçün də simvolik dəyəri var. Körpəyə, uşağa münasibətdə o, həm də müharibədən əvvəl qələbə gətirmək üçün qurban kəsilən bir qoruyucudur. O, göylə yer arasındakı əlaqəni təmin edəndir. O, qadınların, uşaqların və zəiflərin himayədarıdır. O, türk mifologiyasında səmadan enərək işığı ifadə edən motivdir. Farsca adı «Hüma» və ya «Hümay»dır. İnsanların belə bir inancı var ki, o, kimin üzərindən keçsə, həmin insanlara zənginlik və xoşbəxtlik gələcəkdir.

Umay Ana həm Xeyir, həm də Şər ilahəsi olaraq təsəvvür edilir. Umay (yaşayış-yaxşılıq) və Qara Umay (Ölüm-Şər) kimi varlığını göstərir. Qara Umay ölümü və şəri təmsil edir. Xeyri təmsil edən Umay Ana üç buynuzludur və ağ paltar geyinir. Onun ağ, gümüşü saçları yerə qədər uzanır. O, orta yaşlıdır və quş qiyafəsindədir. O, həyat ağacının sahibidir. O, uşaqları qoruyur, torpağa bolluq paylayır və ətrafına işıq saçır. O, həm də qu quşu və ya atla təsvir edilmişdir. Umay qadındır. O, xeyir-dua verən ilahədir. O, həmçinin göyərçin quşu ilə də təsvir edilmişdir. Qara Umayın hündürboydur, onun uzun barmaqları və uzun dırnaqları vardır. Onun üzü çox çirkin və iri, saçları qara, uzun və dağınıq, dişləri

iri və at dişləri kimi seyrəkdir. Hal anası adlandırılan Qara Umay yeni doğum etmiş qadın və uşaqların düşmənidir. Qara Umayın zərərverici tərəfi türk xalqları arasında Mayneke, Üzüt Körmös, Aza, Ayza, Al qızı, Almış, Albası, Albastı, Umacı kimi adlarla tanınmışdır.

Müxtəlif türk xalqlarının Umay Anaya münasibəti fərqli olmuşdur. Monqollar müharibəyə hazırlaşarkən Umay Anaya qurban kəsərdilər. Yakutlar arasında Umay qoruyucu silah deməkdir. Cənubi Sibir və Altay türklərinin inancına görə, Umay Ana həmişə uşaqların yanındadır. O, uşağı yatarkən tərk edir. Əgər körpələr yatarkən gülürlərsə, mələklərlə danışdıqlarına inanılır. Altay mədəniyyətində ölüm mələyi və od ruhu Qara Umay da adlanır. Manas dastanında Umay qadınların doğuş zamanı köməkçisidir. Övladlarını döyüşə göndərən qırğız anaları «Səni Umay anaya tapşırdım» deyir. Kumanlar arasında ana bətnində düşən körpənin doğulana qədər Umay ana tərəfindən qorunduğuna inanılır. Onlar doğuş sancıları zamanı onu köməyə çağırırlar. Xakaslar sonsuz qadınlara uşaq verməsi üçün Umaya dua edir, onu ziyarət edirlər.

Umay Anaya inamın tarixi qədimdir və bu özünü qədim türk yazılı abidələrinin dilində göstərir. Hüseyn Namiq bəy qeyd edir ki, *umay* sözünün etimologiyasını bilmək üçün sanskrit dilinə müraciət etmək lazımdır. Sanskrit dilində *umay* bir ilahə olaraq işlənib. *Umay* sözünün etimologiyasını uyğur dilində «ana» mənasını ifadə edən *um/uma*, qədim türk dilində işlənən «ruh», «quş» mənalarını ifadə edən *umi/umo/u*, protürkcədə «ilah» mənasını ifadə edən *ay* sözlərinin birləşməsi ilə əlaqələndirirlər. Çinli türkoloqlar qeyd edirlər ki, umay sözü *um* və *ay* sözlərinin birləşməsindən yaranmışdır.

Mirəli Seyidov mifdə insanpərvərlik va onun əksinə görüş məsələlərindən bəhs edərkən Umay ilahəsi ilə bağlı yazır: «İnsanların insansevərliyindən yaranmış, zoomorfik onqonlardan, ilahələrdan biri də Umay ilahəsidir. Əski çağla ilişgili Umay va bu kimi başqa mif personajlarının, belə demək olarsa, bir əli, bir yönü real varlıqda, gerçəklikdə, o biri əli isə insanın yaradıcı təxəyyülündə, yaradıcı dünyasında idi, Umay türk xalqlarında eyni görüşlə bağlı idi. Umay ilahəsi ümumbəşəri, ümuminsani, başqa sözlə deyilsə, uşaqla, insanla, onun taleyi ilə sıx bağlı olduğundan, deyəsən, bütün türk xalqlarının mif dünyasında varmış. Umayın türk xalqlarının mif dünyasında geniş yayılmasının bir səbəbi də onların köklərinin-genlərinin yaxınlığıdır».

Cerard Klauson *umay* sözü ilə bağlı qeyd edir ki, bu söz *plasenta, doğum sonrası* mənalarında işlənmişdir. Umay funksiyası qadınları və uşaqları qoruyan bir tanrıdır.

«Umay» sözünə ilk dəfə Kültigin abidəsində rast gəlinir: *Umay təq öq im katun kutınqa inim Kültiqin ərat boltı/ On yaşda olanda Humay tək anam Xatunun şərəfinə kiçik qardaşım Kültigin igid adı qazandı. [8; 294]*

Tonyukuk abidəsində də işlənmiş cümləyə nəzər yetirək: *keçə kəltimiz. Kəlmisi alp, tidi. Tuymadı. Tenri, Umay, ıduk yer, sub basa birti erinç/ Tanrı, müqəddəs yer, su (bizə) qələbə verdi. [8; 375]*Monqolustan ərazisindən tapılan və tapıldığı yerə görə adı verilən, 4 sətirdən ibarət olan Ulan-Bator kirəmid abidəsində Umay sözünə IV yarımçıq sətirdə rast gəlirik: *Umay qatun.../ Umay xatun... [8; 448]*Qədim uyğur abidələrinin dilinə nəzər yetirdikdə məlum olur ki, bu sözlə bağlı *uma (ana), umak (qadir olmaq, bilmək, bacarmaq) və uman (qadın üzvü, uşaqlıq (qadında))* sözləri işlənmişdir. «Umay» sözü Birinci Altın Köl abidəsində belə işlənmişdir: *Bu atımız Umay bəg biz/Bu, adımız - biz Umay bəyik. [9; 85]* Burada Umay sözü ad olaraq işlənmişdir və ehtimal olunur ki, bu daş da həmin bəyin qəbir daşıdır.

«Umay» sözü Mahmud Kaşğarinin «Divani lüğat-it-türk» əsərində də işlənmişdir. Lakin mənası «doğuşdan sonra qalan nəsnə» kimi verilmişdir: *Umayga tapınsa ogul bolır/ Umaya biri xidmət etsə oğlu olar. Qadınlar umayı uğurlu sayırlar. [3; 182]* Onun Umay sözü haqqında verdiyi bu şərh qədim türk dininin bu bu tanrıçası haqqında bəzi izlərinin islam dövründə də davam etdiyi anlaşılmaqdadır.

Şor və qırğız dillərində *umay*, Xakas dilində *ımay* şəklində bu söz hələ də işlənir. Qırğız dilində *Umay* sözü iki mənada işlənir: 1.Yuvasını havada quran bir sehrli quş 2. Uşaqları himayə edən əfsanəvi bir qadın. Bununla bağlı belə bir cümlə var: *Menim kolum emes. Umay enemdin kolu/ Mənim əlim deyil, Umay ananın əli.*

**Nəticə**

Umay heç şübhəsiz dişi və əfsanəvi varlıqdır. Bu varlıq ümumbəşəri, ümuminsani olduğuna görə, türklərin həyatında əhəmiyyətli rol oynamışdır. Hələ də bəzi türk xalqlarının inancında Umay Ana

qalmışdır. Doğrudur, Umay bəzi türk xalqlarının inancında Şər qüvvəni təmsil etsə də, onun Xeyri təmsil etdiyi ilə bağlı fikirlər daha geniş yayılmışdır.

**ƏDƏBIYYAT SİYAHISI:**

2. Əhmədova A. Orxon abidələrinin dilində söz yaradıcılığı, Liqvistika problemləri, Cild 2, №1, 2021, səh. 142-152
3. Ərdəm F. Etimoloji araştırmalardan seçmələr Bakı, "Qanun" nəşriyyatı, 2021, 144 səh.
4. Kaşğari M. "Divan lüğat-it-türk", I cild, Bakı, "Ozan", 2006, 512 səh.
5. Kaşğari M. "Divan lüğat-it-türk", II cild, Bakı, "Ozan", 2006, 400 səh.
6. Kaşğari M. "Divan lüğat-it-türk", III cild, Bakı, "Ozan", 2006, 400 səh.
7. Kaşğari M. "Divan lüğat-it-türk", IV cild, Bakı, "Ozan", 2006, 752 səh.
8. Məhərrəmli B. Türk dillərinin qədim leksikası, Bakı. "Xəzər Universitəsi" nəşriyyatı, 2017, 272 səh.
9. Rəcəbli Ə. Qədim türk yazısı abidələri, I cild, Bakı, Nurlan, 2006, 648 səh.
10. Rəcəbli Ə. Qədim türk yazısı abidələri, II cild, Bakı, Nurlan, 2006, 463 səh.
11. Şükürlü E. Qədim türk yazılı abidələrinin dilində onomastik vahidlər Bakı, Mütərcim, 2011, 124 səh.
12. Şükürlü S. "Konsept" məfhumu və müxtəlif yanaşmalar, İpək yolu, No.4, 2019, səh.126-131
13. https://zorbatv.com/kultur/kulturel-miras/umay-ana-kimdir

**Gülzər İlqar NƏCƏFOVA**
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: necefovagulzer@gmail.com

## BƏHMƏN MİRZƏ QACAR QOVANLI

**Summary**

Bahman Mirza Govanli, a renowned representative of the Qajar dynasty of Turkish origin, was a skilled commander and a prominent historical figure who placed significant importance on history and art. Bahman Mirza, who lived from 1810 to 1883, spent most of his life in the city of Barda in Northern Azerbaijan, where he left a lasting legacy through his creative endeavors. Today, the Bahman Mirza Qajar tomb, which is his relic, bears witness to his historical significance. In our research, we examined the life and activities of Bahman Mirza Qajar Govanli, one of the prominent figures of 19th-century Azerbaijan.

**Key words:** Bahram Mirza Qajar, Barda tomb, architectural examples

**Giriş:**

Türk tarixində, eləcə də Azərbaycan tarixində xüsusi yeri olan Qacar dövləti öz adını tarixin qızıl səhifələrində yazdırmışdır. Qacarlar XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycanda, indiki İran torpaqlarında hökmranlıq etmişdir. Qacar şahzadələri tarix boyu türk qanından gələn döyüş bacarıqları ilə seçilmiş, general komandir və s. vəzifələrdə xüsusilə seçilmişdirlər. Onlar arasında Abbas Mirzənin oğlu Bəhmən Mirzə Qacar Qovanlını ayrıca qeyd edə bilərik. Hansı ki, bu tarixi şəxsiyyət həm Şimali, həm də Cənubi Azərbaycan torpaqlarında yaşamış, öz yaradıcılığı, elmə, təhsilə verdiyi önəmlə yadda qalmışdır. Xalqımız üçün böyük işlər görmüş şəxslərdən olsa da Bəhmən Mirzənin həyatı və fəaliyyəti haqqında araşdırma əsərləri çox azdır. Bəhmən Mirzənin unudulmağa doğru gedən, tarixin tozlu səhifələri arasında qalan əsərlərini yada salmaqla keçmiş tariximizə işıq tutmaq bu gün vacib və əhəmiyyətli məsələlərdən biridir.

**Əsas mətn:**

**Bəhmən Mirzə Qacar Qovanlının həyatı.**

İstedadlı yazıçı, ziyalı, feldmarşal, tarixçi alim Bəhmən Mirzə, bütün ömrü boyu Azərbaycanın birləşməsi üçün calışmış Qacar şahzadəsi Abbas Mirzənin oğlu idi. O, 1811-ci il oktyabrın 11-də Tehranda dünyaya göz açmışdı. Bəhmən Mirzənin anası Asiya xanım da Qacar nəslinin nümayəndəsi

idi. Bəhmən Mirzənin 20 yaşı olanda babası olan Fətəli şah Qacar onu Ərdəbilin hakimi təyin etmiş və idarəçilik öhdəliyini nəvəsinə vermişdi. Lakin 1834-cü ildə Fətəli şahın ölümü ilə hadisələrin gedişatı dəyişdi. Hakimiyyətə Bəhmən Mirzənin qardaşı Məhəmməd gəlir. O, Bəhmən Mirzəni özünə qarşı sui-qəsd hazırlamaqda günahlandırır. Belə olduğu halda Bəhmən Mirzə əvvəllərdə yaxşı əlaqələri olan rus çar hökümətinə sığınır. İlk vaxtlar onun Rusiyaya getməsinə icazə verilməsə də, bunlara baxmayaraq o, 7 həyat yoldaşı, 19 övladı, 95 dəvəsi, 400 kitabdan ibarət kitabxanasını da özü ilə götürərək ilk öncə Tiflisə gəlməyə nail olur [1, s. 15]. Çar Rusiyasının təsir dairəsində olan Tiflis şəhərində fəaliyyətini davam etdirən Bəhmən Mirzəyə rus hökuməti tərəfindən xüsusi təqaüd təyin edilir (9600 rubl məbləğində) və eyni zamanda ona çar Rusiyasının istənilən yerində yaşamaq hüququ verilir. Bəhmən Mirzə isə yaşamaq üçün Şuşanı seçir [3, s.179]. Şuşaya gəldikdən sonra o, öz yaradıcılığına daha çox vaxt ayırır. Bu gün də öz aktuallığını qoruyan"Şükürnameyi-şahənşahi"əsərini də burada olarkən yazır. Həmin əsər Bəhmən Mirzə Qovanlının ən məşhur əsərləri sırasına daxildir. "Şükürnameyi-şahənşahi" əsərinin əsas mövzusu Rusiyanın işğalından sonra Azərbaycanda olan iqtisadi, o cümlədən mədəni dəyişikliklər məsələsi haqındadır .Bəhmən Mirzə Qacar Şuşada olduğu müddətdə həyata keçirdiyi xeyriyyə işləri ilə də yadda qalmışdır. O, burada tez-tez xeyriyyə məclisləri təşkil etmiş, xalqın problemlərini bu üsulla həll edə bilmişdir. O, elmə, təhsilə xüsusi diqqət ayıran şəxsiyyətlərdən olmuşdur. Bəhmən Mirzə Qacar altmış üç övladının hər birinə xüsusi təhsil vermişdir [2, s.6]. Övladlarına Avropa təhsili verən Mirzə özü yavaş-yavaş siyasətdən ayrılmışdır. Otuz bir oğlunun bir çoxu general, komandir olmuşdur. General şahzadələrə Əmir Kazım Mirzə, Məhəmmədəli Mirzə, Səməd Mirzə, Mahmud Mirzə, Əmənullah Mirzə, Sədrəddin Mirzə, Polkovnik şahzadələrə-Şahrux Mirzə, Nəsrullah Mirzə, Əbdülsəməd Mirzə aiddir. Onun nəslindən on beş nəfər Azərbaycan Xalq Cümhuriyyəti ordusunda xidmət etmişdir.Onu da qeyd etmək lazımdır ki, Bəhmən Mirzəyə məxsus əsərlərin bir qismi hazırda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Onun bir sıra əlyazmaları isə Gürcüstan, Ukrayna, Rusiya kimi ölkələrdə sərgilənir.

Bəhmən Mirzə Qovanlının bizə qalan yadigarlarında biri də Bərdədəki Bəhmən Mirzə türbəsidir.



**Şekil 1. Şəkil 1. Bəhmən Mirzə Qacar Türbəsi (Bərdə)**

**Bəhmən Mirzə türbəsi**

Bəhmən Mirzə Qacar türbəsi Bərdə şəhərində İmamzadənin həyətində yerləşir (Şəkil 1). Arran memarlıq üslubunda inşa edilən abidə bütünlüklə bişmiş kərpicdən inşa olunmuşdur. Türbənin müəyyən hissələrində xüsusi memarlıq nümunələri diqqəti cəlb edir. Ümumilikdə, türbənin divarlarının qalınlığı bir metrdir. Uzunluğu isə döşəmədən türbənin günbəzinədək bir metr təşkil edir. Gümbəzləri istər xaricdən, istərsə də daxildən bir-birinə ustalıqla bənd edilən türbənin üçüncü və axırıncı otağında qəbir yerləşir. Bir növ sərdabə üslubunda olan qəbrin üstü tağvari formada tamamlanmışdır Gümbəzin daxili divarlarının til üstü hissəsində qara mərmər üzərində altı kitabə var. Kitabələrdə nəstəliq xəttilə

yazılmış mətnlər əsasən Quran ayələrindəndir. Bu kitabələrdən məlum olur ki, türbədə dəfn edilən şəxs tarixi şəxsiyyət, öz dövrünün savadlı, intellektual şəxsiyyəti olan Bəhmən Mirzə Qacardır.

Bəhmən Mirzə Bərdə türbəsini 1880-ci ildə tikdirmişdir. O öz oğlanlarına vəsiyyət etmişdir ki, ölən zaman onu məhz bu türbədə dəfn etsinlər. Bəhmən Mirzə Qacar Qovanlı 1884-cü il 11 fevral tarixində vəfat etmiş. Onun oğlanları atalarının vəsiyyətini yerinə yetirərək Bəhmən Mirzəni İmamzadədən 25 metr şərqdə olan bu türbədə dəfn etmişlər.

Bərdədəki bu türbədə bərpa işləri 1950-ci illərdə başlandı. Lakin bəzi tikinti səhvləri ilə əlaqədar olaraq türbənin içərisində olan kitabələrin bir hissəsi silindi. Restovrasiya işləri müstəqillik illərində - 2012-ci ildə yenidən başladı və 2018-ci ildə başa çatdı [4, s. 4].

**Nəticə**

Ümumiyyətlə, Qacar dövləti Azərbaycan xalqının tarixində xüsusi rol oynayıb, istedadlı alimlər, tarixi şəxsiyyətlər bəxş ediblər ki, onlardan biri də məhz Bəhmən Mirzə Qacar olmuşdur. Hətta o, bacarıqlarına görə Azərbaycan sərhədlərindən kənarda da ad-san, hörmət qazanmışdır. Ömrünün sonunu Şuşa şəhərində başa vuran Bəhmən Mirzə 1884-cü ildə vəfat etmiş və Bərdə şəhərində tikdirdiyi türbədə dəfn edilmişdir. Hazırda da Bərdə rayonunda onun nəslinin törəmələri yaşamaqdadır.

Bütün ömrünü xalqının, millətinin inkişafı üçün fəda edən Bəhmən Mirzə Qacar Qovanlı kimi şəxsiyyətləri araşdıraraq gələcək nəsillərə tanıtmalı və daim təbliğ etməliyik.

## ƏDƏBIYYAT SİYAHISI:

1. Dünyaminqızı Q. Bir ailənin altı general oğlu. Kaspi qəzeti. 20 aprel 2017, səh.15
2. Fərəcov S. Taxt-tacı ataram, vətəndən ayrılmaram. Mədəniyyət qazeti. 30 aprel 2024, səh.6
3. Musalı V. Təzkirəçilər xanədanı. TÜRÜK, Dil, Edebiyyat ve Halkbilim Alaştırmaları Dergisi. Sayı 3, 2014, səh. 179-192
4. Rüstəmova S. Bəhmən Mirzə, hanı sənin övladların?!.525-ci qazeti. 23 yanvar 2019, səh.4.

**Aysel Zabit NOVRUZOVA**
Gəncə Dövlət Universiteti - dissertant
E-mail: aysel.novruzova1505@gmail.com

## ÇÖLLƏR İMPERATORLUĞU

**Summary**

History of nomadic peoples who changed the course of civilization mixed and biased. They have not been studied enough. There are different attitudes in the West to rulers such as Attila, Genghis Khan, and Timur, who left a great mark in history. These historical figures laid the foundations of great empires that shook territories from the borders of China to Western Europe.

**Key words:** step, empire, nation, nomadic.

**Giriş**

Atilla, Çingiz xan, Teymur... Bu adlar bir çoxlarına tanışdır. İstər qərb, istər Çin, istərsə də İran mənbələri olsun bu tarixi şəxsiyyətlər haqqında olduqca geniş məlumatlar vermişlər. Bu qoca "barbar" lar mədəni tarixdə heç də birdən-birə peyda olaraq bir neçə il ərzində Romanı, İran və ya Çini xaraba yığını halına salmayıblar. Gəlişləri, döyüşməyə vadar edən səbəbləri, eyni zamanda tarix səhəsindən bir anda itmələri də o qədər müəmmalı görsənir ki, hərdən izahını vermək belə çətin olur. Bəlkə də tarixi qədimləri araşdıran tarixçilərin təbirincə desək, bəzi xalqlara Allah tərəfindən cəza olaraq göndəriliblər.?

**Əsas mətn**

Şimaldan Avrasyanın uzun çölləri, Monqolustan və Mancuriyanın şimalı, Mərkəzi Rusiya və Sibiri əhatələyən sərt iqlimli şimal meşələri , mərkəzdən Qızılqum, Qaraqum və Təklə-Məkan çölü,

Lobnordan Xingana doğru geniş bir sahədə uzanan Qobi yaylası ilə əhatələnmiş, möhətəşəm tarixə şahidlik etmiş ucsuz-ucaqsız torpaqlar.

Xülasə, bizə təxmin etməyə imkan verir ki, türklərin yaşadıqları torpaqlar sadaladığımız yerlərlə yanaşı indiki Qaşqar eliylə yanaşı, eyni zamanda Altay-Sayan dağları (Pazırık kurqanında tapılmış e.ə. 3-6-cı əsrlərə aid Skif dövrünün abidələri), daha da şərqə doğru irəliləsək, yakutların, tunqusların yaşadıqları Uzaq Sibir çölləri Berinq boğazı istiqamətində çox geniş ərazilərdə səpələnmişlər.

Çöllərin tarixi Türk-Moğol xalqlarının özünəməxsus tarixidir. Zaman zaman bu qəbilələr ən yaxşı otlaqlara sahib olmaq üçün bir-biriləriylə savaşar, əsrlərlə köçləri davam edər, həyat tərzinin və təbiətin yalnız bu insanlara bəxş etdiyi fiziki quruluşları, bütünlükdə özünəməxusluğu ilə fərqlənmişlər. Sarı dənizdən Budapeştə qədər davam edən ardı arası kəsilmədən yürüyüş etmiş bu xalqların haqqında, tarix səhnəsində qarşılaşmış insanlar özlərinə xas şəkildə məlumatlar vermişlər. Mənşəyini gah monqol, gah fars, gah da mənşəyi bəli olmayan hansısa tayfa birlikləri ilə eyniləşdirmişlər. Halbuki tarixi kökləri miladdan əvvələ dayanan bu möhtəşəm xalqlar, ilk insan qövmləri yarandığı dövrlərdən var olmuşlar.

Əgər Türk-Monqol xalqlarının tarixi at belində gəzməklərindən, köçəri həyat sürmələrindən, köç etdikləri zaman təsadüfi və qaranlıq mübarizələrindən ibarət olasydı çox az bilgiylə kifayətlənməli olardıq. Türk deyəndə ağlımıza eyni zamanda var olduqları gündən başlayaraq, həyatları boyunca ölüm-qalım mücadiləsi vermiş, eyni zamanda bir çox xalqların da tarixində silinməyəcək izlər buraxmış, öz varlıqlarıyla dünyanı lərzəyə gətirmiş ulu tarixə sahib uca yaradılış olmuşlar.

**Nəticə**

Çöllər həm də atların vətənidir. Çöl adamı dünyaya gəldiyi gündən süvaridir. Süvari geyimini də kəşf edən bir çöl adamıdır. Bunu biz qərbdə ya şərqdə, şimalda ya cənubda yaşamasından asılı olmayaraq, çöllərin adamları adlandırdığımız xalqların hərb tarixlərində də görə bilərik. Davamlı köç axınları edən bu süvari xalq həm də atlı bir oxçu, düşməni uzaqdan vuran, qalibiyyəti iti iradəsi, oxu və kamanıyla qazanandır. Beləcə at üstündə, həmsərhəd imperatorluqların sərhədləri boyunca gəzər, onlardan xərac alar, əgər yerli əhali vergi ödəməkdən boyun qaçıracaq qədər düşüncəsiz olarsa da rəhm göstərmədən ya həyatlarını sonlandırar ya da yaralayaraq əsir alar. Eyniylə yaradılışdan qurda bənzədilən ya da qurddan yaranan bir xalqa məxsus hücumçu ruhuyla davranar. Bütün bunlar həm də bu yerlərin sakinlərinin var olmaq üçün verdikləri mübarizənin bir nümunəsidir. Təbiəti kimi sərt xarakterə malik olan çöl adamları eyni zamanda ailəyə, dostluğa, birliyə, adət-ənənəyə sadiqliyi ilə ocağın, yurdun, ata babalarının uyuduğu torpaqların nə qədər müqəddəs olduğunu dərk etməklə kifayətlənmir, bunlara qarşı çıxanlara da amansız bir davranış sərgiləməyə qadir insanlardır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Grousset R., The Empire of the Steppes: A History of Central Asia. Rutgers University Press, 1970;
2. Ögəl B., Böyük Hun imperatorluğu tarixi, I-II cild. Türk Tarih Kurumu, 2015.

**Nuridə Rüstəm ƏLİYEVA**
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: murideeliyeva@gmail.com

## DAĞLIQ QARABAĞIN SOVETLƏŞMƏDƏN SONRAKI İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ VƏ DEMOQRAFİYASINA DAİR

**Summary**

The Nagorno-Karabakh region is one of the oldest cultural centers in the world. Favorable natural-geographical conditions, fresh water sources, rich flora and fauna, natural caves have created conditions for primitive people to settle here since ancient times. Investigation of history, geography, demography, etc. of Nagorno-Karabakh, which has ancient settlements such as Shusha, Khojaly, Khankendi, Khojavand is of great scientific and political importance. One of the most important factors determining

the relevance of the topic is related to the changes in the administrative territory division and demographic situation of Nagorno-Karabakh during the Soviet period. As in different periods of history, in the 20s of the last century, the Armenian ideologues, who did not give up their dirty intentions, tried to purposefully change its administrative-territorial division and demographic landscape after achieving autonomy to Nagorno-Karabakh with the help of their patrons.

**Keywords:** Nagorno-Karabakh, NKAO, administrative-territorial division, demography.

**Giriş**

Hazırda "Dağlıq Qarabağ" adlanan ərazi 1805-ci ilin mayın 14-də imzalanmış Kürəkçay müqaviləsi ilə Rusiya imperiyasının himayəsinə keçmiş Qarabağ xanlığının tərkib hissəsi olmuşdur. Dağlıq Qarabağ ərazisinə coğrafi baxımdan Qarabağın müxtəlif dağ silsilələri arasında yerləşən hissəsi (yəni dağlıq hissə) daxil idi. 1923-cü ildə Qarabağın məhz ermənilər sıx məskunlaşan dağətəyi ərazilərində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılana qədər bu ərazinin inzibati ərazi bölgüsü tamamilə fərqli idi. Çarizm dövründə bu ərazilər Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzaları kimi müəyyənləşdirilmişdi.Qarabağ xanlığının 1822-ci ildə rəsmi olaraq ləğv edilməsindən sonra onun ərazisi çar Rusiyası çinovniklərinin (komendant) başçılıq etdiyi əyalətə çevrildi. 1917-ci il fevral inqilabına – çarizmin süqutuna qədər keçmiş Qarabağ xanlığının ərazisində 4 qəza mövcud idi. 1918-ci ilin mayın 28-də AXC-nin elan olunmasından sonra Qarabağın inzibati-ərazi strukturunda bir müddət dəyişiklik edilməmiş və bu ərazi 4 qəzadan ibarət olaraq qalmışdı. 1919-cu il 15 yanvarda Cümhuriyyətin yurisdiksiyası altında Qarabağ general-qubernatorluğu yaradılmış və hər 4 qəza onun tərkibinə daxil edilməklə vahid bir ərazi kimi birləşdirilmişdi. Beləliklə, Qarabağ xanlığının ləğvindən (1822-ci il) etibarən "Qarabağ" adı ilk dəfə olaraq yenidən inzibati-siyasi əhəmiyyət kəsb etmişdi.

**Əsas mətn**

1920-ci ildə aprel işğalından dərhal sonra, mayın 18-də keçmiş general-qubernatorluğun ərazisində Azərbaycan SSR İnqilab Komitəsi tərəfindən verilmiş dekretə əsasən mərkəzi Şuşa şəhəri olan Qarabağ İnqilab Komitəsi yaradıldı [3, s.61]. Dağlıq Qarabağ ərazisi də həmin inqilab komitəsinin yurisdiksiyasına keçdi. İnqilab Komitəsində milliyətcə erməni olan A.Karakozov sədr müavin vəzifəsi tutmuşdu.7 iyul 1923-cü ildə Azərbaycan SSR MİK-in Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması haqqında dekret qəbul etməsindən sonra, Qarabağın sərhədlərinin genişləndirilməsi yolu ilə onun rekonstruksiyası baş verdi. Amma Dağlıq Qarabağda erməni əhalisinin kompakt halda yaşamaması səbəbindən muxtar vilayətin sərhədlərinin tam şəkildə müəyyən edilməsi prosesi il yarım çəkdi. Qarabağın düzənlik hissələrində Cəbrayıl, Ağdam və Kürdüstan qəzaları təşkil edildi [1, s.156]. Həmin vaxt DQMV ilə bağlı əsasnamə tərtib edilməsi və Qarabağın dağlıq və düzənlik hissələri, o cümlədən DQMV və Kürdüstan arasında sərhədlərin müəyyənləşdirilməsi üzrə Komissiyanın iclası keçirildi. Bu Komissiyada "Dağlıq Qarabağ Erməni Muxtar Vilayəti" haqqında əsasnamə hazırlandı ki, onun əsasını Quberniya İcraiyyə komitələri haqqında 1923-cü il tarixli əsasnamələr təşkil edirdi. DQMV-nin tərkibinə Qubadlı, Cavanşir, Şuşa qəzalarının ümumilikdə 169 kəndi verilmişdi ki, bunların içərisində təkcə erməni deyil, azərbaycanlı kəndləri də var idi [1, s.164-165]. Bu fakt əslində Azərbaycan SSR MİK-in 1923-cü ilin 7 iyulunda qəbul etdiyi dekretə tamamən zidd idi. Çünki, həmin dekretə görə muxtariyyət yalnız Qarabağın dağlıq ərazisindəki ermənilər yaşayan hissəyə verilirdi.

Dağlıq Qarabağın inzibati ərazi bölgüsünün və demoqrafiyasının təhlili göstərir ki, DQMV ərazisi real elmi-coğrafi prinsiplər deyil, xüsusi məkrli niyyətlər daşıyan voluntarist prinsiplər əsasında formalaşdırılmışdır. Çünki, DQMV məhz erməni əhalinin üstünlük təşkil etdiyi yaşayış məntəqələrinin çox olduğu lokal ərazilərin muxtar qurum adı altında birləşdirilməsi yolu ilə təşkil edilmişdir. Bu elə bir qeyri-obyektiv "prinsip"dir ki, onun əsasında ermənilər kompakt yaşadıqları istənilən ölkələrin ərazisində özlərinə "muxtariyyət" tələb edə bilərlər. Hətta məsələ o yerə çatmışdı ki, azərbaycanlıların yaşadığı bəzi kəndlər (Kəlbəcərin Ağdaban kəndi, Füzulinin Yuxarı Veysəlli kəndi kimi) DQMV-nin sərhədləri içərisində qalmış, inzibati tabeçilikləri dəyişilmişdi. Dağlıq Qarabağın muxtariyyəti üzrə Əsasnamə hazırlayan komissiyanın qərarı ilə 170-dən çox yaşayış məntəqəsi DQMV-nin tərkibinə verilmişdi [1, s.164-166]. Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin 1924-cü il üzrə məlumatında

artıq həmin yaşayış məntəqələrinin sayının 200-i keçdiyi nəzərə çarpır. Q.A.Köçəryan adlı erməni müəllif 1925-ci ildə Bakıda nəşr olunmuş kitabında bu məskənlərin sayının 215 olduğunu qeyd edir [2]. Bu faktlar DQMV ərazisinin rəsmi sənədlərin əksinə olaraq genişləndirilməsi və yeni yaşayış məntəqələrinin hesabına onun əhalisinin sayının və etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirilməsini təsdiqləyr. DQMV-nin yaradılmasından sonra onun tərkibinə keçirilmiş yaşayış məntəqələri rayon – volost – kənd ardıcıllığı əsasında inzibati cəhətdən aşağıdakı kimi təşkil edilmişdi:

1. Dizaq rayonu: tərkibinə 5 volost (Hadrut, Tuğ, Arakül, Xozabyurd, Edilli) və 48 kənd daxil idi;
2. Vərəndə rayonu: tərkibinə 5 volost (Tağavert, Noraşen, Sus, Çartaz) və 46 kənd daxil idi;
3. Şuşa rayonu: tərkibinə Şuşa şəhəri və 1 volost (12 kənddən ibarət Malıbəyli volostu) daxil idi;
4. Xaçın rayonu: tərkibinə 4 volost (Əsgəran, Daşbulaq, Krasnoselsk, Qaladərəsi) və 53 kənd daxil idi;
5. Ceraberd rayonu: tərkibinə 4 volost (Marquşavan, Dovşanlı, Orataq, Aterk) və 53 kənd daxil idi [2, s.48-51].

1930-cu ilin avqust ayında yeni inzibati-ərazi bölgüsü həyata keçirilərkən DQMV-nin inzibati quruluşunda dəyişikliklər olur. DQMV yenidən 5 rayon üzrə bölünsə də bu dəfə onlar fərqli idi: 1) Stepanakert; 2) Şuşa; 3) Dizaq; 4) Ceraberd və 5) Martuni. Məsələ burasındadır ki, Vərəndənin adı dəyişdirilək Martuni adlandırılmış, Xaçın rayonunun ərazisi isə Stepanakert ilə əvəz edilmişir. 1939-cu ilin 17 avqustunda Ceraberd rayonu – Mardakert, Dizaq rayonu isə Hadrut adlandırılmışdır. Burada məqsəd hələ Qafqaz Albaniyası dövrünə mənsub olan Xaçın, Vərəndə, Dizaq, Ceraberd kimi tarixi-coğrafi adları unutdurmaq və onları çar Rusiyası dövründə bu ərazilərə kütləvi şəkildə köçürülmüş ermənilərə məxsus adlar ilə əvəz etmək idi. 1960-cı illərin başlanğıcında Azərbaycan SSR rayonlarının ərazicə böyüdülməsi siyasəti həyata keçirilərkən Dağlıq Qarabağ Muxtar Vilayətinin rayonlarına böyük zərbə vurulur. 1963-cü ilin yanvarında Şuşa rayonu ləğv olunur və ərazisi Stepanakert rayonuna verilir. Amma 1964-cü ildə Sov.İKP MK birinci katibi N.Xruşşovun SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra inzibati ərazi bölgüsündə yeni dəyişikliklər olur. 6 yanvar 1965-ci ildə Şuşa rayonu yenidən bərpa edilir. 1978-ci ildə isə Azərbaycan SSR KP MK birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə Stepanakert rayonunun əsasında Əsgəran rayonu təşkil olunur. Sovet İttifaqının dağılmasına qədər DQMV-nin inzibati ərazi bölgüsü bu cür qalır.

**Nəticə**

Beləliklə, yuxarıdakı faktlardan bəlli olur ki, azərbaycanlıların tarixi-etnik torpaqları olan Qarabağa sonradan köçürülərək gətirilmiş ermənilər özgə torpaqlarını mənimsəyərək özlərinə dövlət yaratmaq kimi məkrli niyyətlərini həyata keçirmək istəyirdilər. Vaxtilə Qərbi Azərbaycanda – sonradan kütləvi şəkildə məskunlaşdıqları İrəvan xanlığının ərazisində qarşı belə siyasətə əl atmış ermənilər indi həmin ssenarini Qarabağ üçün tətbiq etmək istəyirdilər.

## ƏDƏBİYYAT SİYAHISI:

5. К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918 - 1925: Документы и материалы. «Азернешр», 1989, 334 с.
6. Кочарян Г.А. Нагорный Карабах. «Общество Обследования и Изучения Азербайджана», 1925, 68 с.
7. Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). «Təhsil», 2010, 292 с.

**Sənubər Abbas-Ağa QASIMOVA**
Milli Azərbaycan Tarixi Muzeyinin Köməkçi Tarixi Fənn Materialları Fondunun müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent
E-mail: qasimova.ktfm@mail.ru

# AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİNƏ HƏSR EDİLMİŞ MEDALLAR (Hüseyn Cavid, Səttar Bəhlulzadə Və İlyas Əfəndiyev)

**Summary**

The year 2024 is marked by the anniversaries of a number of prominent figures of Azerbaijan.

The article provides for the first time information about three medals (No. 2185, No. 2191, No. 2193) of the twentieth century, stored in the Fund of Auxiliary Historical Materials of the National Museum of History of Azerbaijan. Such faleristic materials dedicated to outstanding figures of Azerbaijan are valuable examples of national fine art, reflecting historical events in the "metal chronicle".

This year marks the 140th anniversary of the birth of the Azerbaijani poet, playwright, teacher of the twentieth century Huseyn Rasizade (Javid, 1884 - 1941). A commemorative medal (99.55 g, diameter 60 mm), dedicated to the greatest representative of Azerbaijani romanticism, H. Javid, was issued in 1982 at the Leningrad (now St. Petersburg) Mint with a circulation of 500 pieces.

It is 50 years since the death of Sattar Bahlulzade (1909 - 1974), Honored Artist of the Azerbaijan SSR, People's Painter of the Azerbaijan SSR, laureate of the State Prize of the Azerbaijan SSR. A commemorative medal (129.99 g, diameter 60 mm), dedicated to S. Bahlulzade, the author of large-scale works of art glorifying the nature of Azerbaijan, was issued in 1991 at the Moscow Mint in an edition of 500 pieces.

This year marks the 110th anniversary of the birth of Ilyas Efendiyev (1914 - 1996), Azerbaijani prose writer of the 20th century, playwright, member of the Azerbaijan Writers Union, People's Writer of the Azerbaijan SSR, laureate of the State Prize of the Azerbaijan SSR Ilyas Efendiyev (1914-1996). A commemorative medal (135.33 g, diameter 60 mm), dedicated to I. Efendiyev, one of the brightest representatives of Azerbaijani literature, was issued in 2014 at the Kiev Mint with a circulation of 250 pieces.

On the above-mentioned phaleristic materials, made by Azerbaijani medalists, priority was given to aspects that reflect the character and professional sphere of the person. At the present stage, the use of these materials in the educational process is of great importance.

**Key words**: museum, fund, table medal, Azerbaijan, personality, memory.

**Giriş**

Təsviri sənət istiqamətlərindən biri olan xatirə medalları dövlətçilik tarixinin özünəməxsus faktiki materiallarıdır. Tarix və müasir dövrümüzdə olan mühüm hadisələr və görkəmli şəxsiyyətlərə həsr edilən xatirə medallarının əksəriyyəti yubiley tarixləri ilə bərabər həm də ümumi keyfiyyət məlumatı və təqdim olunan mövzunun mənbəyini əks etdirir. Məqalədə Azərbaycanın görkəmli şəxsiyyətlərinin (Hüseyn Cavid, Səttar Bəhlulzadə, İlyas Əfəndiyev) xatirəsinə həsr edilmiş XX əsrə aid medallar haqqında məlumat verilmişdir.

**Əsas mətn**

**Xatirə və yubiley medalları.** Yubiley medalları - tarixi yaddaşın geniş yayılmış formasıdır. Bu özünəməxsus "metal əlyazma"da xüsusi baxışla bir sıra tarixi hadisələr əksini tapıb. Medal sənətkarlarının yaradıcılığı sayəsində Vətəninə öz zəkası və istedadı ilə töhfələr vermiş məşhur şairlər, yazıçılar, alimlər, siyasətçilər, bəstəkarlar, rəssamlar və d. yubileylərinə həsr olunmuş çoxsaylı sənət abidələri meydana çıxmışdır. AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Köməkçi Tarixi Fənn Materialları Fondunun kolleksiyasında qorunan Azərbaycanın görkəmli şəxsiyyətləri - Hüseyn Cavid, Səttar Bəhlulzadə, İlyas Əfəndiyevin xatirəsinə həsr edilmiş stolüstü xatirə medallarında müxtəlif janrlara üstünlük verilmişdir [1, s. 5 - 6]. Medallardakı portretlər üzərində işləyərkən ilkin mərhələdə ənənəvi akademik tərzə, yəni yapma üsuluna riayət edilirdi. Daha sonralar isə təsviri vasitələrin təkmilləşməsi sayəsində medalların formalaşması dəyişikliyə məruz qaldı. Bununla da portret təsvirli

medalların arxa tərəfi fərqli və daha ifadəli oldu. Yığcam yazılar və tarixlər əvəzinə şəxsiyyətin xasiyyətini və ya ixtisas sahəsini açıqlayan və tamamlayan təsvirlər yarandı. Azərbaycan medal sənətinə mühüm töhfələr verən sənətkarların hazırladığı monumental, dekorativ-monumental, çoxsaylı portret janrında olan xatirə medallarında özünəməxsus üslub və milli adət-ənənə nəzərə çarpır.

**Nəticə**

Moskva, Leninqrad (hazırda Sankt-Peterburq) və Kiyev zərbxanasında istehsal edilən, Azərbaycanın görkəmli şəxsiyyətləri - Hüseyn Cavid, Səttar Bəhlulzadə, İlyas Əfəndiyevin xatirəsinə aid medallar milli üslubu, yüksək ustalıq və zərgərlik dəqiqliyi ilə nəzəri cəlb edir. Azərbaycanlı ustaların yaratdıqları yubiley medallarında obyektin başlıca xarici cizgilərini təqdim etmə bacarığı aydın təzahür edir. Görkəmli şəxsiyyətlərə həsr edilmiş portret medallarında batini düşüncələrin əks edildiyi dolğun üz cizgiləri ustalıqla əksini tapıb. Surətlərin mənəvi tərəfinin dərinliyi təkrarsız parlaq hüdudlarla açıqlanır. Bununla yanaşı medal üzərindəki portret öz dövrünün səciyyəvi xüsusiyyətlərini açıqlayan salnamədir. Medalyerin əsas məqsədi yaratdığı surəti tamaşaçıya müvafiq və əlverişli tərzdə təqdim etməkdir. Təsviri sənətin ümumi axınında inkişaf edən medal sənəti yalnız Azərbaycan tarixinin özünəməxsus və spesifik mənbəsi deyil, həm də sənətkarın tamaşaçı ilə əbədi dialoqunun bütün çalarlarını əks etdirən dolğun bir əsərdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycanın görkəmli şəxsiyyətləri xatirə medallarında (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında). Kataloq. Tərtib edən: Qasımova S.A. Azərb. və rus dil-də. Bakı: Təhsil NPM, 2022, 30 s.

**Sevda ABDULLAYEVA**
Tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti
**MüəllimL.F.Abdullazadə**
E-mail: sevda.abdullayeva.1986@mail.ru

## BÖYÜK TÜRKÇÜ ƏHMƏD AĞAOĞLU VƏ TÜRKÇÜLÜK İDEOLOGİYASI

**Summary**

While explaining the relationship between Religion and Nation, Turkishness and Islam, Turkists define the relationship between nationalism and Islam in a positive sense, they define religion as the founding elements of the nation, and Islam as the founding elements of the Turks. In this case, Islam, which is related to Turkish, is the main element of Turk. Gökalp's words are true: "A Muslim who speaks Turkish is called a Turk." Agaoglu also said, "Since religion is one of the most important foundations and pillars of the team, it is impossible for those who understand its actions and act accordingly to move away from religion." He says that it is necessary to pay attention to sociology and civilized religion for the irreligious nationalist, and he gives an example that Christianity defines the civil codes of even the irreligious Frenchman and affects his whole life. This makes you happy. According to this sociological and civil reality, even a nationalist who does not attach importance to religion should take into account the religion of the nation to which he belongs.

**Key words**: Turkism, nationalism, Islam, national civilization.

**Giriş**

Din və Millət, Türklük və İslam, Türkçülər, millətçilik və İslam arasındakı əlaqəni müsbət mənada izah edərkən, dini millətin, İslamı isə türklərin qurucu elementləri kimi təyin edirlər. Bu halda türkcəyə bağlı olan İslam türkün əsas ünsürüdür.Gökalpın sözləri yerinə düşür: "Türkcə danışan müsəlmana türk deyirlər". Ağaoğlu həmçinin, "Din komandanın ən mühüm təməl və sütunlarından biri olduğu üçün onun hərəkətlərini anlayıb ona uyğun hərəkət edənlərin dindən uzaqlaşması mümkün deyil" dedi. O, dinsiz millətçi üçün də sosiologiyaya, sivil dinə önəm vermək lazım olduğunu deyir, xristianlığın, hətta

dinsiz fransızın da vətəndaş məcəllələrini müəyyən etdiyini və bütün həyatına təsir etdiyini misal gətirir.Bu sizi xoşbəxt edir. Dinsiz, dinə fərdi önəm verməyən millətçi belə, bu sosioloji və sivil reallığa görə mənsub olduğu millətin dinini nəzərə almalıdır

**Əsas mətn**

Din və Millət, Türklük və İslam, Türkçülər, millətçilik və İslam arasındakı əlaqəni müsbət mənada izah edərkən, dini millətin, İslamı isə türklərin qurucu elementləri kimi təyin edirlər. Bu halda türkcəyə bağlı olan İslam türkün əsas ünsürüdür.Gökalpın sözləri yerinə düşür: "Türkcə danışan müsəlmana türk deyirlər". Ağaoğlu həmçinin, "Din komandanın ən mühüm təməl və sütunlarından biri olduğu üçün onun hərəkətlərini anlayıb ona uyğun hərəkət edənlərin dindən uzaqlaşması mümkün deyil" dedi. O, dinsiz millətçi üçün də sosiologiyaya, sivil dinə önəm vermək lazım olduğunu deyir, xristianlığın, hətta dinsiz fransızın da vətəndaş məcəllələrini müəyyən etdiyini və bütün həyatına təsir etdiyini misal gətirir.Bu sizi xoşbəxt edir. Dinsiz, dinə fərdi önəm verməyən millətçi belə, bu sosioloji və sivil reallığa görə mənsub olduğu millətin dinini nəzərə almalıdır. "Millət" ictimai həyatın qısa və tam tərifinə görə eyni hissləri daşıyan insanlar qrupu kimi müəyyən edilir. Ümumi hisslərin yaranması, yayılması və uyğunlaşması iki amilin təsiri ilə başlayır: Dil və din! Bunlardan sonra irq, tarix, adət, adət, ədəbiyyat və s. Ancaq bir az nəzərə alınarsa, məlum olur ki, bu amillərin əksəriyyəti iki amilin nəticəsidir. Dünyada elə bir qrup, elə bir xalq yoxdur ki, onun adət-ənənəsi, ədəbiyyatı, tarixi, dini onun təsiri altında olmasın! Bütün bunların məcmusu və prinsipi dildir! "İslam dini türk millətinin əsas qurucu elementi olanda türklərin milli dini oldu. Qarşılıqlı təsir nəticəsində bir tərəfdən islam türk sivilizasiyası daxilində həyata keçirilərək çoxaldı, digər tərəfdən islam bütün türk sivilizasiyasını dəyişdirdi.Türklük və milli sivilizasiya İslamdan aşağı sayıla bilməz. İslam tarixi. Bu kontekstdə müsəlman olmaq türk olma şərtinə çevrilir: "İslam türklər üçün tək din deyil, həm tayfanın dinidir". O, dinsiz millətçi üçün də sosiologiyaya, sivil dinə önəm vermək lazım olduğunu deyir, xristianlığın, hətta dinsiz fransızın da vətəndaş məcəllələrini müəyyən etdiyini və bütün həyatına təsir etdiyini misal gətirir. Bu sizi xoşbəxt edir. Dinsiz, dinə fərdi önəm verməyən millətçi belə, bu sosioloji və sivil reallığa görə mənsub olduğu millətin dinini nəzərə almalıdır. "Millət" ictimai həyatın qısa və tam tərifinə görə eyni hissləri daşıyan insanlar qrupu kimi müəyyən edilir. Ümumi hisslərin yaranması, yayılması və uyğunlaşması iki amilin təsiri ilə başlayır: Dil və din! Bunlardan sonra irq, tarix, adət, adət, ədəbiyyat və s. Ancaq bir az nəzərə alınarsa, məlum olur ki, bu amillərin əksəriyyəti iki amilin nəticəsidir. Dünyada elə bir qrup, elə bir xalq yoxdur ki, onun adət-ənənəsi, ədəbiyyatı, adət-ənənəsi, tarixi, dini onun təsiri altında olmasın! Bütün bunların məcmusu və prinsipi dildir! "İslam dini türk millətinin əsas qurucu elementi olanda türklərin milli dini oldu. Qarşılıqlı təsir nəticəsində bir tərəfdən islam türk sivilizasiyası daxilində həyata keçirilərək çoxaldı, digər tərəfdən islam bütün türk sivilizasiyasını dəyişdirdi.Türklük və milli sivilizasiya İslamdan aşağı sayıla bilməz. İslam tarixi. Bu kontekstdə müsəlman olmaq türk olma şərtinə çevrilir: "İslam türklər üçün tək din deyil, həm tayfanın, həm də tayfanın dinidir". Əslində Ağaoğlu türk dünyasında iki cərəyan olduğunu, bunlardan birincisinin türklük, ikincisinin İslam olduğunu və bu iki cərəyanın eyni dərəcədə əhəmiyyətli və eyni dərəcədə əhəmiyyətli olduğunu bildirir. Faydalıdır, "bəzən birləşdirən, bəzən ayıran, bəzən dağılan, bəzən ziddiyyətli" birlikdə nail olmaq olar. Ağaoğlu bu iki cərəyan arasında harmoniya yaratmağın mümkün olub-olmadığını bildirir. Ağaoğlu bu fikirdədir ki, milliyyət məsələsi istisna olmaqla, islamçılıqla türkçülük bir çox mövzuda uzlaşır. Əgər islamçılar "millət"ə qarşı mənfi münasibətlərindən əl çəkib türklər kimi müsbət mövqe tutsalar, iki əməliyyat arasındakı qarşıdurma böyük ölçüdə aradan qalxardı.Onların fikrincə, türklərin din-klanı, türk İslam arasında qurduqları münasibət. İslam bu problemi həll etmək üçün kifayət idi. Digər tərəfdən o, bəyan etdi ki, indi İslamçılarla dini təbliğatdan təmizləmək və ilk növbədə onu həyata keçirmək məsələsində razılığa gəliblər. Əslində bu əməliyyatın ən önəmli adlarından biri islamçıların dəstək çevrəsində olan Cəmaləddin Əfqani idi. Xüsusilə islamçılar üçün türkçülükdən, ümumiyyətlə millətçilikdən qorxmağa ehtiyac yox idi.Onlar millətçilikdən qorxmalı idilər, çünki müsəlman xalqları Qərbin istismarından ancaq millətçiliklə xilas ola bilərdilər. Onların türkçülükdən qorxmaları da absurd idi, çünki İslam türklərin milli dini olduğu üçün türkçülüyün ən böyük məqsədi İslamın xilası idi: "Türkçülər millilik prinsipini qəbul etdikləri üçün onu dəstəkləməyə və təsdiq etməyə borcludurlar. Milləti təşkil edən sadə insanlar. Türk millətinin əsas amili İslamdır. ( Ağayev, "İslamda millətçiliyin səbəbi (2)", səh. 342. 35

Əhməd Ağayef, "Türk Ələmi-4", Türk Yurdu, Y. 1, S. 5, 12 Kânûn-i Sâni 1327, s. 139. 36 Əhməd Ağayef, "Türk Dünyası-3", Türk Yurdu, Y. 1, S. 3, 15 Kânûn-i Evvel 1327, s. 70-74; Əhməd Ağayev, "Türk Dünyası-4", səh. , s. 135-139; Əhməd Ağayev, "Türk Dünyası-5", səh. 195-200. )Odur ki, türkçülər İslamın tərəfdarıdır və İslamın yox olmaması üçün çalışmaq məcburiyyətindədirlər. Çünki onlar İslamdan başqa türklüyü təsəvvür belə edə bilməzlər!" "Milli vicdanın və millətin əsaslarının ən möhkəm təməlini təşkil edən İslamın həqiqi və özünüdərk edən bir millət olduğunu həqiqətən dərk edən türkçü üçün ən ali məqsəd "Türklük və İslam, din və millətçilik arasındakı bu müsbət münasibət, türk millətçiliyinin bu gün də yaşamağa davam etdiyi dərin ziddiyyətlə zədələnir.

**Nəticə**

Ağaoğlu, tək İslamın müxtəlif milli mədəniyyətlərdə yenidən təfsir edilməsi və İslamın müxtəlif üslublarının yaranması ilə türklük-islam münasibətini tarixi əsaslarla qanuniləşdirir, beləliklə də İslam türkcəsi ilə türklərin milli dini halına gəlir. Lakin onun islahatçı fikirləri əslində dinin bu milli din olmasına əsaslanır.Şərqşünaslıq formalaşması tərəqqi anlayışı ilə birləşərək İslam dövrünün türk tarixini, xüsusən də Səlcuqlu və Osmanlı təcrübələrini farslaşma, ərəbləşmə və bizanslaşma kimi şərh edir və türklərin İslam həqiqətindən uzaqlaşdığını iddia edir. Belə olan halda "milliləşdirilməmiş milli din" kimi bir ziddiyyət yaranır. Bir rəvayətə görə türklər milliyyətlərini İslamla ən yetkin mərhələyə çıxarmışlar, başqa bir rəvayətə görə isə İslam sivilizasiyası daxilində milli kimliklərini itirmişlər. Türklər İslamla şərəflənir, İslam dinini milli din edir, İslam türk millətinin və mədəniyyətinin əsas tikinti materialı və bünövrəsinə çevrilir, İslam türkün milli kimliyini qoruyur, amma hər şeyə rəğmən İslam dövründə türk kimliyi yox olur, türklər isə bu dövrdə fars və ərəb olurlar. Milli mədəniyyət vasitəsilə qurulan müsbət din-millət münasibəti, türklük-islam münasibəti, dində edilən inanc-mədəniyyət ayrı-seçkiliyi, dini mədəniyyətin ərəb və fars ənənələrinə tamamilə endirilməsi. Ağaoğlu dinin sosioloji təkrar istehsalına diqqət çəkir, türk islamının ola biləcəyini, İslamın türklərə xas bir şərhini nəzərdə tutur, dinin sosioloji təkrar istehsalı prosesi çərçivəsində təriqətlərin meydana gəlməsini izah edir. Halbuki İslamın yüksək həqiqətləri Türklər bunu özününküləşdirə bilmədi, İslam türkün milli vicdanında yer tapa bilmədi, əslində dində olmayan, daha çox farslar və ərəblər tərəfindən dinə daxil edilən xurafatlar İslam hökmlərinin qarşısını aldı və türklərin vicdan və zehnində yerləşmək əmrləri və türklər o qədər cahil idilər ki, etdikləri duaların mənasını belə bilə bilməzdilər.( Beyefendiye", Türk Yurdu, Y. 2, Cild 4, S. 21, 25 iyul 1329, səh. 713-714. 38 Əhməd Ağayev, "İslamda millətçiliyin səbəbi (2)", səh. 343. 39 Əhməd Ağayev, "Türk Dünyası-7", Türk Yurdu, Y. 1, No 14, 17 may 1328, s. 424-428; Əhməd Ağayev, "Türk Dünyası-8", Türk Yurdu, Y. 1, No 18, 12 iyul 1328, s. 545-551.)Əslində İslam arasında qurduğu bütün əlaqələri ləğv edərək türklərin min illik İslam dövrünü boşa çıxmış bir tarixə, Türk-İslam sivilizasiyasını isə faydasız və hətta zərərli bir mirasa salır. Tərəqqiyə əngəl törədir. Ona görə də din daxilində prinsiplərə söykənən milli mədəniyyət istehsalını və türklərə xas İslam təfsirini tarixi dəstək olmadan tərk edən Ağaoğlu qurduğu quruluşu öz əlləri ilə dağıtmış və əslində türk tarixində böyük bir qırılma yaratmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.AĞAOĞLU AHMED, "Tarixi Dönemler Arasında Millət", Türk Yurdu, Cilt 3, No. 17, 2 mart 1926-cı il. ƏHMƏD AĞAYEF, "Türk Dünyası-3", Türk Yurdu, Y. 1, No 3, 15 Kânûn-i Evvel 1327, s. 70-74. ƏHMƏD AĞAYEF, "Türk Dünyası-4", Türk Yurdu, Y. 1, No 5, 12 Kânûn-i Sâni 1327, s. 135-139. ƏHMƏD AĞAYEF, "Türk Dünyası-5", Türk Yurdu, Y. 1, No 7, 9 fevral 1327, s. 195-200. 4.ƏHMƏD AĞAYEF, "Türk Dünyası-6", Türk Yurdu, Y. 1, No 10, 22 mart 1328, s. 292-297. 5.ƏHMƏD AĞAYEF, "Türk Dünyası-7", Türk Yurdu, Y. 1, No 14, 17 may 1328, s. 424-428. 6.ƏHMƏD AĞAYEF, "Türk Dünyası-8", Türk Yurdu, Y. 1, No 18, 12 iyul 1328, s. 545-551. 7.ƏHMƏD AĞAYEF, "Keçmiş Trabzon Valisi Süleyman Nazîf Beyefendiye", Türk Yurdu, Y. 2, Cilt 4, S. 21, 25 iyul 1329, səh. 702-714.

8.ƏHMƏD AĞAYEF, "Cavabın cavabı", Türk Yurdu, 4-cü cild, No 24, 5 sentyabr 1329, səh. 825-844.

9.ƏHMƏD AĞAYEF, "İslamda Dəva-yı Milliyet", Türk Yurdu, İl: 3, Cild: 6, Sayı: 10 (70), 10 iyul 1330, səh. 2320-2329 (304-313)

10. ƏHMƏD AĞAYEF, "İslamda Dava-yı Milliyet", Türk Yurdu, Y. 3, Cilt 6, S. 71 (11), 24 iyul 1330, səh. 2381-2390 (335-344).
11.ƏHMƏD NƏİM, "İslamda millətin davası", Sebilü'r-Reşad, Cild: 12, Say: 293, 10 aprel 1330, səh. 114-128. 40 Çalen, Türkçülük Osmanlıya və İslamçılığa qarşı, səh.

**Hənifə Yusif SƏLİFOVA**
Kiçik elmi işçi, doktorant
E-mail: henife.selifova87@mail.ru
Azerbaycan Milli Elmlər Akademiyası, Nizami Gencevi adına Edebiyyat İnstitutu

## ELÇİNİN "QARABAĞ ŞİKƏSTƏSİ" HEKAYƏSİNDƏ HƏYAT GERÇƏKLİKLƏRİ

**Summary**

The story has a special place in the work of the folk writer Elchin. Elchin's professional signature determines all his prose, we witness the magnificence of this signature not only in his novels but also in his stories. The difficult and difficult refugee life of our compatriots living far away from their homeland did not escape Elchin's creativity. The stories "Yellow Bride", "Carriage", "Karabagh Shame" are dedicated to the topic of refugees. The author's work entitled "The Shame of Karabakh" or "About the search for a husband of the Red Rooster of Balajakhanimgil with French perfume and Agadadash" is an example of a large-scale story written on the subject of refugees. This story can be considered the passport of the author's works written on the subject of Karabakh.

**Key words**: Elchin, story, Shusha, Karabakh cripple, refugee

### Giriş

Hekayədə Şuşanın xəyalıyla yaşayan Cümü ilə Sona, avtobus sürücüsü Ağadadaş və arvadı Balacaxanım, Ziba nostalgiyasını ürəyində gəzdirən İzabel və digər sujet xətlərinin birləşməsi ümumi ideyanın ifadəsinə xidmət edir. Hekayədə əhvalatın baş verdiyi zaman və məkan konkretliyi tədqiqatçını çətin situasiyadan çıxarıb yeni axtarışlara sövq edir. Əhvalat Abşeronda, Buzovnada qaçqın yataqxanasında yerləşmiş Şuşa qaçqınlarının gündəlik həyat tərzi, başlarına gələn hadisələr haqqındadır. "Şuşadan qaçqın düşüb salamat qalanlar gəlib Ağdama yığışdı, sonra hərə gümanı gəldiyi bir yerə, bir qismi də Bakıya üz tutdu və Cümügil on ildən çox idi ki, burada – Buzovnadakı bu fəhlə yataqxanasında qalırdılar. Fəhlə yataqxanası bütünlüklə qaçqınlara verilmişdi və Cümügil altı nəfər – Cümü idi, anası Güllü arvad idi, Sona idi, Cəmilə idi, Qalib idi, bir də Sonanın böyük bacısı Solmaz idi - yataqxananın beşinci mərtəbəsində on altı kvadratmetrlik otaqda qalırdılar."[1]

### Əsas mətn.

Müəllif hekayədə Cümü ilə Ağadadaş obrazını qarşılaşdırır. Cümünün keşməkeşli həyatı ilə Ağadadaşın yeknəsək yaşam tərzi arasında bir uçurum var. Cümü altı nəfər ailə üzvü ilə dar yataqxana otağında yaşamağa məhkum olmuş, arvadı Sona ilə qayalıqda görüşür, doğma Şuşasının həsrətini çəkirsə ("Cümü təkcə Şuşanın məhəllələrini, evlərini, bağlarını, düzlərini, sıldırım qayalarını yox, Topxana meşəsini, Cıdır düzünü, Ərimgəldini, İsa bulağını, Turşsuyu, Səkili bulağı, hətta özünün doğulduğu və ömrü boyu yaşadığı Ağadədəli məhəlləsini yox, Şuşanın az qala, bütün ağaclarını, daşlarını da bir – bir gözünün qabağına gətirirdi, hətta Şuşanın kənarlarındakı böyürtkən kolları da köhnə (və doğma!) tanışlar kimi yadına düşürdü və bəzən Cümü özü də heyrətə gəlirdi ki, bu daşlar, bu ağaclar, kollar onun beyninə bu dəqiqliklə nə vaxt və necə həkk olub?"), Ağadadaş isə ("Qırx – qırx beş il idi Bakı – Binə aeroportu – Buzovna – Zuğulba – Bilgəh – Maştağa – Zabrat – Bakı marşrutu ilə avtobus sürürdü (buna görə də kənddə hamı onu avtobus Ağadadaş kimi tanıyırdı), iki gün səhərin gözü açılmamışdan gecəyə qədər işdə olurdu, evə gecənin yarısı gəlib çıxırdı, üçüncü gün isə istirahət edirdi.") qırx illik arvadı Balacaxanımla kürsülü evinin artırmasında rahat yatarkən Qırmızı xoruzun vaxtsız banlamasından narahatlıq keçirir.

"Harda vətən torpağı yoxdursa, orda dərd var, ağrı var. Cümü üçün, ümumiyyətlə Buzovnanın Fəhlə yataqxanasında məskunlaşan qaçqınlar üçün bu dərdin adı Qarabağdır, Şuşadır." [2. s 125]

İki obraz arasındakı təzadla müəllif insanlar arasındakı maddi və mənəvi ehtiyaclara güzgü tutur, müharibənin gətirdiyi acı reallıqlarla barışmazlığın etiraz motivlərini qabardır.

İzabellə Sonanın müqayisəsində uçurum daha da kəskinləşir. İzabel tamam başqa mühitdə, başqa ruhda böyümüşdü. "Düzdü, dünyada qaçqınlar çox idi, İzabelin də işi qaçqınlarla bağlı idi və qaçqınların həyatı, onlarla hər bir görüş yalnız mənfi emosiyalar verirdi, düzdü, bu cavan qızın ürəyində daimi bir ana nostalgiyası var idi, amma, həyat ki, təkcə qaçqınlardan və təkcə o nostalgiyadan ibarət deyildi..." [1] İzabel İsraildə doğulub – böyüyüb Azərbaycanı görməsə də, Azərbaycana gedəcəyini biləndə on dörd ildi içində gəzdirdiyi Ziba nostalgiyası yenidən oyanır. Qırmızı Qəsəbəni görmək (anası Ziba ailəsi ilə birgə Qubanın Qırmızı Qəsəbəsindən İsrailə köçmüşdü), o yerlərə bircə saatlıq da olsa anasının gözləri ilə baxmaq istəyilə Azərbaycana gəlir. Cenevrədən aldığı bahalı fransız ətrini anasına bənzətdiyi, iri ala gözlərindən kədər yağan Sonaya bağışlayır. Vaxtilə gözəlliyi ilə Ağadədəli cavanlarının ağlını başından alan Sona düşdüyü vəziyyətlə heç cür barışa bilmir, doğma Şuşasına qayıtmaq xəyalıyla yaşayır, İzabelin hədiyyəsinə sadəcə acı – acı gülümsünür. Bu gülümsünmə həyatdan, insanlıqdan küsmüş, müharibələrə nifrətlə dolu bir qadının etirazlarıdır. "Sonanın insanlıq ləyaqətini təhqir edən, onu mənən alçaldan, gənc ikən soluxdurub qocaldan erməni məkri, xəyanəti, qəddarlığıdır. Və yazıçı bu obraza qəsdən Sona adı verməklə bir vaxtlar Cəfər Cabbarlının "1905 – ci ildə" pyesində iki qonşu xalqın gələcək münasibətlərinə böyük ümidlərlə yaratdığı gənc Sona obrazının sonrakı taleyinə işarə edir, faciəvi aqibətdən ibrət dərsi götürməyə çağırır." [3. s 267]

AMEA – nın müxbir üzvü, tənqidçi Tehran Əlişanoğlu adı çəkilən hekayəni şərh edərkən əsərin ibrətamiz xarakterini önə çəkir: "Bir yandan İzabel Xanukoffun tam ixtiyarında "bütöv, azad və sərbəst bir gecə" nin realiyası, digər tərəfdən Ağadadaşın vaxtsız xoruz banı ilə pozulmuş rahat gecəsinin mistik simvolikası və üçüncüsü də Cümünün fransız ətri və mal təzəyi qoxusu qarışmış, günlərin bir günü bəxtinə bəy axtarışı sorağında olan qırmızı xoruz çıxmış həyatının çılpaq ironiyası... Hekayənin bədii publisistik enerjisi aşkardır, o oxucunu bir daha gerçək mənzərələrə dəvət edir, daha yaxından baxmağa çağırır, eyməndirir. Və düşündürür: belə olmamalıdır, amma belədir; acı da olsa, gülünc də olsa belədir." [4. s 276]

Şuşalı qaçqınların harayı Məmməd kişinin arvadı Sürəyya xalanın etirazlarında (Bizə heç nə lazım deyil! Bizə humanitar yardım da lazım deyil! Onu da aparın ermənilərə verin! Bizə heç nə lazım deyil! A tövbə! Bizə Şuşanı qaytarın), Sonanın hayqırtılarında ( - Biz insan deyilik, biz qaçqınıq!.. Qaçqınıq!.. Qaçqınıq!..), Cümünün suallarında (Bəyəm o günə gün demək olar?, Şuşalıların Allahın qarşısındakı günahı nə idi ki, Şeytan onlara belə bir gün hədiyyə edirdi?) öz bədii-məntiqi həllini tapır. Cümünün qulaqlarında səslənən Malıbəyli Köhnə Qaval İsgəndərin oxuduğu "Qarabağ şikəstəsi"nin səsi simvolik bir obraz kimi əsərin leytmotivinə çevrilir.

Qaçqın və məcburi köçkünlər haqqında çoxlu sayda əsərlər yazılmışdır. Ancaq "Qarabağ şikəstəsi" hekayəsi istər dil və üslubu, istərsə də ideya və sənətkarlıq xüsusiyyəti baxımından əvəzsiz sənət nümunəsidir. Filologiya elmləri doktoru, professor Şirindil Alışanlı "Qarabağ şikəstəsi"ndə faciənin "milli faciə hüdudundan çıxıb" beynəlmiləl səciyyədə təqdimini mühüm bir predmet kimi qabardır: "Elçin müəllimin "Qarabağ şikəstəsi" hekayəsini oxuyarkən bizim bu böyük faciəmizin dəhşətlərini bir də yaşadım. Burada nə döyüş səhnələri var, nə süni patetika, nə də mənfi planda işlənmiş kobud aksentlə danışan düşmən obrazı. Qaçqın düşmüş insanların həyat tərzi elə ustalıqla təsvir edilir ki, özünü bu əzabın daşıyıcısı, iştirakçısı kimi hiss edir, bir milyon qaçqının birinə çevrilirsən. Bu artıq milli faciə hüdudundan çıxır, bəşər övladının düçar olduğu real vəziyyət fonu yaradır." [5]

**Nəticə.**

Beləliklə, yazıçı mövzu ətrafında gəzişərkən bir neçə süjet xətti qurmuş, onları əlaqələndirmiş, fakt və detallardan yerli-yerində bəhrələnərək zəngin bir əsər ortaya qoymuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Https://aydinyol.aztc.gov.az/index.php
2. Akimova Elnarə. "Nəsrdə Qarabağ diskursu." Yeni təfəkkür və ədəbi tənqid, Bakı-2012, səh 125

3. Mehrəliyev Elçin. Dissertasiya. Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ mövzusu. Hekayə janrında tipik həyat həqiqətlərinin obrazlı ifadəsi, səh 267

4. Əlişanoğlu Tehran. Müstəqillik dövrü hekayəsinin inkişaf dinamikası. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, II cild, elm və təhsil, Bakı-2016, səh 276

5. Https://525.az/news/9364-geriye-baxmaga-deyer

**Sugra Askar ORUJOVA**
A PhD candidate in History, Baku State University
E-mail: sugrau@mail.ru

## HISTORICAL GEOGRAPHICAL ISSUES IN THE CITIES AND REGIONS OF KARABAKH WHICH WERE IMPLEMENTED BY HAYDER ALIYEV AND ILHAM ALIYEV (especially CONCERNING THE CITY OF SHUSA)

**Summary**

The history of the Azerbaijan SSR is of great importance and is of great interest for research. The history of the cities and regions of Karabakh is one of the least studied actual problems in the history of Azerbaijan. Certain works have been done in our Republic in the field of studying the history of culture of Azerbaijan, including Karabakh. Thus, in the third volume of the three-volume "History of Azerbaijan", most aspects of the study of the history of culture were covered and a lot of factual material was collected, but the necessary generalizations were not made. T.B.Gaffarov's work is also interesting in terms of a different approach. The author summarized and commented on the events of 1920-1991.

Karabakh region of Azerbaijan is one of the oldest cultural centers in the world. It should be noted that at all stages of the history of Azerbaijan, the Karabakh region occupied a special geographical position, which distinguishes Karabakh from the rest of the territories of Azerbaijan.A comprehensive study of the origin and development of the regions of Karabakh is of great scientific interest and political importance.

**Keywords:** Azerbaijan, Karabakh, Shusha, Heydar Aliyev, Ilham Aliyev

### Introduction

Since historical geography is a new science, various sources were used to write a thesis. The sources proved that the main factor in the socio-economic and cultural development of Karabakh was the direct attention of the Azerbaijani government to the region. The historical geography of each country is important for its development. First of all, it would be appropriate to give information about the science of historical geography. The science of historical geography studies the historical and geographical position of this or that area, country in a certain historical period. Historical geography concretizes our historical concepts from a chronological point of view and connects them with certain territories. Therefore, historical geography reveals the characteristic of the physical, economic, political geography of this or that country in different periods of its history development [1]. For the first time in Azerbaijani historiography, the scientific analysis of the historical geography of Azerbaijan was carried out in the work "Istoriceskaya Geographia Azerbaydjana", written in Russian under the editor-in-chief of Ziya Bunyadov. The initial data for the development of geographical ideas about the peoples of the Caucasus appeared in ancient times in the works of Strabo, as well as the greatest representative of ancient science, Claudius Ptolemy [2]. Information about the historical geography of Azerbaijan has been preserved in the works of early medieval and medieval Arab and Persian authors [3].

At present, the history of the cities and districts of Nagorno-Karabakh is one of the least studied topical problems of the history of Azerbaijan. (On November 10, 2020, President of the Republic of Azerbaijan Ilham Aliyev, in an address to the people, announced the abolition of the status of Nagorno-Karabakh. And thus, at present, the term "Nagorno-Karabakh" as a political-geographical term is not

used). In recent years, the study of the history of cities and regions of Azerbaijan has become very serious. First of all, this is due to the recommendations, instructions and decisions of our national leader Heydar Aliyev. His idea of "The history of the ancient cities of Azerbaijan should be studied" put a great responsibility before historians and increased their attention to the study of such topics.

**Main text**

In 1969, on July 14, Heydar Aliyev was elected the first secretary of the central committee of the Communist Party of Azerbaijan If we connect Heydar Aliyev's activity with historical geography, we can see that his activity in protecting the historical geography of Karabakh is invaluable. I would like to note that in this thesis the method of comparative analysis will be used. The main goal was to ensure the path started by the national leader Heydar Aliyev, that is, the reconstruction works carried out on the territory of Karabakh and the protection of our historical monuments ( Molla Panah Vagif's mausoleum in Shusha, etc.), to show in a comparative way that the proof of the belonging of these territories to Azerbaijan is fulfilled by its successor, President of the Republic of Azerbaijan Ilham Aliyev.

It was reaffirmed how our patriotic people support their President and unite closely around him. "We are waiting for a single order from the Supreme Commander-in-Chief," said the Azerbaijani soldiers and officers, proving in battle that they have their word.

"Dear Shusha, you are free!
Dear Shusha, we are back!
Dear Shusha, we will revive you!
Shusha is ours! Karabakh is ours! Karabakh is Azerbaijan!"

"Shusha is one of the unique cultural centers of Azerbaijan. Natural it is a city that is distinguished by its beauty and the beauty of our national architecture. It is a precious monument of his art. Having always kept our national and spiritual values and musical traditions alive, Shusha, being the center of the Garabakh Khanate, passed a rich way until it was established as a city of important economic, political and cultural importance, played a special role in the life of our people. It is known as the cradle of Azerbaijani mugham" these words were said by Ilham Aliyev,President of The Azerbaijan Republic [5].

On June 2021, 15 in Shusha, after a one-on-one meeting of President of the Republic of Azerbaijan Ilham Aliyev and President of the Republic of Turkey Recep Tayyip Erdogan, signed the "Shusha Declaration" on allied relations between the Republic of Azerbaijan and the Republic of Turkey. President of the Republic of Azerbaijan Ilham Aliyev declared 2022 the "Year of Shusha". This important event opened a new way for the extensive investigation of the events that took place from the creation of the city of Shusha to the modern period and the reconstruction of the city [4].

**Conclusion**

Finally, I would like to note that the main purpose of the thesis is the policy initiated by national leader Heydar Aliyev, implemented by the president of the Republic of Azerbaijan Ilham Aliyev. As a result of the successful policy initiated by Heydar Aliyev, which proved once again, this path was continued and fulfilled by Ilham Aliyev today. The complex restoration work carried out in our liberated territories is the embodiment of the determination and will of President Ilham Aliyev.

**REFERENCE:**

1. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Müəllim, 2006, 83 səh.
2. Историческая география Азербайджана, Элм, 1987, 146 стр.
3. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III и. до и. э.—VIII в. и. э.), Элм, 1986, 284 стр.
4. 2022 has been declared the "Year of Shusha" in the Republic of Azerbaijan. This year marks the 270th anniversary of the city of Shusha.URL:https://museu.ms/article/details/126524/2022-has-been-declared-the-year-of-shusha-in-the-republic-of-azerbaijan-this-year-marks-the-270th-an 25.04.2024

5. 8 noyabr Azərbaycan tarixinə həkk olundu – Şuşa işğaldan azad edildi!URL:https://medeniyyet.az/page/news/54683/8-noyabr-Azerbaycan-tarixine-hekk-olundu-%E2%80%93-Susa-isgaldan-azad-edildi.html 24.04.2024

**Şəhla Elçin QURBANOVA**
Qərbi Kaspi universitetının magistrı
E-mail: Mirzeyev1987@internet.ru

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN TÜRK DÜNYASI İLƏ MƏDƏNİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Summary**

There is model nation and fraternity: Azerbaycan – Turkey and our national leader Haydar Aliyev said about this phenomenon: "One nation and two state." But at prezent several turkic states were joined to this concord and their relations became so stronger. This unit includes different branches, for example, economiks, social and cultural relations. The name of this unit is "turkic world".

The cultural relations in this time is so stronger, the cultural junction turkic world proved the presence historical, ethnic, cultural and ideological foundation.

**Key words:** turkic world, the cultural legacy, "Kitabi Dede Korkud", the internationa, orqanization "TURKSOY", the cultural capital of turkic world

**Giriş**

Qədim zamanlardan müasir dövrədək tarixi yol keçmiş bir millət və bir qardaşlıq nümunəsi var: Azərbaycan-Türkiyə. Dövrümüzün Ümummilli lideri kimi qəlbimizdə xüsusi yeri olan Heydər Əliyev bu qardaşlığa, bu birliyə xitabən söyləmişdir: "Bir millət, iki dövlət." Lakin müasir zamanda birliyə başqa türk millətləri və xalqları qoşularaq, yaxın və sarsılmaz əlaqələri daha da genişləndirmişlər. Və bu birlik zaman-zaman özünün möhkəmliyini, heç bir xarici qüvvə qarşısında sarsılmadığını dəfələrlə sübut etmiş və sübut etməkdədir. Bu birlik bütün sahələri, o cümlədən iqtisadi, mədəni, sosial və digər sahələri əhatə etməklə, daha da möhkəmlənmişdir. Bu birliyin adı – türk dünyasıdır, azərbaycanlıların, qazaxların, qırğızların, uyğurların, türklərin, tatarların və digər millətlərin, xalqların birliyidir.

Azərbaycanın müasir dövrdə türk dünyası ilə əlaqələri və münasibətləri inkişaf etməkdədir. Xüsusilə də bu əlaqələr mədəniyyət sahəsində möhkəmlənmişdir. Belə ki, türk dünyasını birləşdirən mədəni bağlar onun qədim etnik, mədəni, ideoloji və tarixi köklərə malik olmasından irəli gəlir. Bu qardaşlıq qədim mədəni irslərimiz olan "Dədə Qorqud", "Manas" və digər dastanlarımızda təcəssüm olunmuşdur.

Mədəni dəyərlərimiz xalqlarımızın həyat tərzində, mətbəxində, baxışlarında, davranışlarında təcəssüm olunaraq vəhdət təşkil etmişdir. Türk dünyası mənəviyyatımıza, əxlaqımıza yansıyaraq, əlaqələrimizi daha möhtəşəm, daha mənalı etmişdir. Heç də təsadüfi deyildir ki, bu millətlər yaxın qohumluq əlaqələrinə qədər bir-birinə yaxınlaşmışdır.

**Əsas Mətn**

İlk öncə onu qeyd etmək lazımdır ki, türk dünyasının hərtərəfli möhkəmləşməsində əsas rolu Türkiyə və Azərbaycan oynamışlar. Həm iqtisadi, həm siyasi, həm də mədəni sahədə olan birliyimiz digər türk xalqları üçün nümunədir desək yanılmarıq.

İllər öncə, Azərbaycanın və Türkiyənin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası ilə bağlı layihəsində, Türkiyə Respublikasında "Star" neft emalı kompleksinin tikintisi layihəsində iştirakları və göstərdikləri dəstək iqtisadi maraqlarımızın təmin olunmasında vahid mövqedən çıxış etməyimizin göstəricisidir. Bu yanaşma başqa sahələrdə, xüsusilə də mədəni sahədə də gerçəkləşmişdir.

Tarix üzrə elmlər doktoru, professor M.Əmrahov türk dünyasına münasibətdə belə fikir söyləyir ki, "türk dünyası, sadəcə bir coğrafyadan və müstəqil dövlətlərdən ibarət deyil, fəlsəfəsi, həyata baxışları, estetik anlayışı, dəyərlər sistemi etibarı ilə müstəqil bir Mədəni dünyadır." [1]

Reallıq və gercəklik ondadır ki, türk mədəniyyəti birliyi daha öndədir və vacibdir, çünki onun əsasında türk dövlətləri arasında iqtisadi-siyasi münasibətlər formalaşmağa başlayır. Azərbaycanın türk dünyası ilə mədəni əlaqələri möhkəm təməllər üzərində qurulmuşdur. Siyasi birlik fonunda türk mədəni birliyi daha da möhkəmlənmiş və inkişaf etmişdir. Bununla belə, Azərbaycan müstəqillik əldə etdikdən sonra türk xalqları ilə hər sahədə əməkdaşlığa və inteqrasiyaya hər zaman birinci olaraq təşəbbüs göstərmiş və uğurlu nəticələr əldə etmişdir. Dediyimizə sübut olaraq, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr edilmiş tədbirlərin həyata keçirilməsi oldu.

Belə ki, Azərbaycanın, şəxsən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə TÜRKSOY çərçivəsində Azərbaycanın paytaxtı Bakıda "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi keçirilmişdir. 7 fevral 2000-ci il tarixində Azərbaycan Respublikası Prezidenti "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda "Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il tarixli, 98 saylı Sərəncamı ilə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli gecənin Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının iştirakı ilə Bakı şəhərində 2000-ci il aprelin 9-da keçirilməsi qərarı verilmişdir." [2]

Bu tədbirin keçirilməsi ictimai-siyasi baxımdan çox vacib və əhəmiyyətli idi. Dəvət olunan qonaqlara biz təkcə Azərbaycanın mədəni irsini nümayiş etdirmədik, habelə o zamanki problemi bir qədər həll etmiş olduq. Bu da Azərbaycan haqqında dürüst informasiyanın təbliğ edilməsi, informasiya blokadasından çıxmaq problemi idi. Buraya nəinki türkdilli ölkələrin, habelə Avropa, Asiya və digər bölgələrdən də nümayəndələr təşrif buyurmuşdular. Bu yubileydən istifadə edərək, vaxtilə bizə qarşı mənfi rəy formalaşdıran düşmən qüvvələrin arzularını puç etmiş olduq. Bir daha Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin şahidi olduq.

Türk dünyası ilə mədəni əlaqələrin genişlənməsində TÜRKSOY təşkilatının yaradılmasının çox böyük əhəmiyyəti olmuşdur. Elmi mənbələrdən bəlli olur ki, "TÜRKSOY beynəlxalq təşkilatı Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır." [3]

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatdır. [3] Türk xalqları bir-birinə yaxın olmaqla, özlərinin qədim, çoxəsrlik tarixi boyu Avrasiya məkanının böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirə bilmişlər.

TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə çıxış edən cənab prezidentimiz İlham Əliyev xüsusi olaraq qeyd etmişdir ki, "ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycan TÜRKSOY-a hər zaman dəstəyini ifadə etmiş, türkdilli ölkələrin mədəni inteqrasiyasının geniş vüsət almasına çalışmışdır. Təşkilatla respublikamız arasında əməkdaşlıq münasibətləri hazırda ən yüksək səviyyədədir. Şuşa şəhərinin 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun və "TÜRKSOY Mədəniyyət Günləri"nin keçirilməsi bu istiqamətdə birgə səylərimizin bariz göstəriciləridir." [4]

**Nəticə**

Keçən 30 il ərzində türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat xətti ilə bir sıra mədəni əhəmiyyət kəsb edən tədbirlər həyata keçirilmişdir. O cümlədən, məsələn, 2012-ci il "Mirzə Fətəli Axundzadə ili", 2017-ci il "Molla Pənah Vaqif ili" elan olunmuş, bundan əlavə, 2016-ci ildə Şəki şəhəri, habelə 2019-cu ildə Türkiyənin Kastamonu şəhəri türk dünyasının mədəniyyət paytaxtları elan

olunmuşlar. Azərbaycan, Qazaxıstan və Qırğızıstanın təklifi ilə 2018-ci il azərbaycanlı bəstəkar, Xalq artisti Qara Qarayev, qazax Xalq şairi Mağjan Jumabayev və qırğız yazıçısı Çingiz Aytmatovun xatirəsinə "Anım ili" elan edilmişdir. 2013-cü ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illiyi ilə əlaqədar TÜRKSOY və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlığı nəticəsində operettanın konsert versiyası UNESCO səhnəsində göstərilib. [4]

Sadaladığımız bu faktlar türk dünyasının mədəni əlaqələrinin bariz nümunələridir. Lakin Azərbaycan və Türkiyə arasında əlaqələrin zirvəsində dayanan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi xüsusilə əhəmiyyətlidir. Bir-birimizin çətin anlarımızda hər iki dövlət çiyin-çiyinə mürəkkəb sınaqlardan keçmişlər. Azərbaycan Türkiyəyə və ümumilikdə türk dünyasına, onlarda Azərbaycana həmişə dəstək olmuşlar. Məhz elə Şuşa Bəyannaməsi aramızdakı həmrəyliyə və qardaşlığa sübutdur.

Bəyannamədə xüsusilə qeyd edilir ki, "Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi. Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər." [5]

Əməkdaşlığımız və qardaşlığımız davam edir. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına təşəbbüs göstərilmişdir. Artıq bu məsələ ilə bağlı "Anlaşma Memorandumu" da imzalanmışdır. Fikrimcə, bu addım təhsil sahəsində türk dünyasının uğuru kimi yüksək qiymətləndirilməlidir. Zamanla bu cür səylərin hələ davam edəcəyinin və türk dünyasının möhkəmlənməsinin şahidi olacayıq.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Mais Əmrahov, tarix üzrə elmlər doktoru, professor. Azərbaycan-Türkiyə Mədəni əlaqələrində TÜRKSOY-un rolu. https://www.elibrary.az/docs/jurnal/jrn2018_561.pdf
2. Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2000-ci il tarixli "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında Sərəncamı. https://e-qanun.az/framework/151
3. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı haqqında. https://anl.az/el/emb/TURKSOY/haqqinda.htm
4. Azərbaycan Respublikası Prezidentinin TÜRKSOY-un 30 illiyinə həsr olunmuş təntənəli tədbirin iştirakçılarına Müraciəti. 15 oktyabr 2023. https://president.az/az/articles/view/61594
5. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi https://president.az/az/articles/view/52122/print

**Müəllim Samirə Firudin ƏSƏDİ**
Azərbaycan Dövlət Aqrar Universiteti
samirasadi52@gmail.com

## AQRAR SAHƏNIN INKIŞAF TARIXINƏ DAİR

**Summary**

Meeting the needs of the population of the republic for grain and grain products is one of the strategic directions of the state policy. Increasing the grain-growing areas and the production of grain products in our country is an important task facing agriculture. In the decisions taken in our country, the production of the demand for grain and grain products within our republic is one of the responsibilities ahead.

The foundation of plant growing in our country has been laid since ancient times. In the early stages of their development, our ancient ancestors began to cultivate the wild plants that surrounded them and domesticate the wild animals. They tried to keep the most productive ones from among the animals they raised and the plants they cultivated and to take offspring from them

**Key words:** analysis by date, product, area, plan, years

**Giriş**

Respublika əhalisinin taxıl və taxıl məhsullarına olan tələbatının ödənilməsi dövlət siyasətinin strateji istiqamətlərindən biridir. Ölkəmizdə taxıl əkilən sahələrin və taxıl məhsullarının istehsalının artırılması kənd təsərrüfatı qarşısında duran vacib vəzifədir. Ölkəmizdə qəbul olunan qərarlarda taxıla və taxıl məhsullarına olan tələbatın respublikamız daxilində istehsal edilməsi qarşıda duran öhdəliklərdəndir.(1) Bu sahədə yüksək nəticə əldə etmək üçün beərilən bitkinin, həmin zonanın torpaq,iqlim şəraitinin tarixini bilmək çox vacibdir.

Ölkəmizdə bitkiçiliyin bünövrəsi çox qədim vaxtlardan qoyulmuşdur. Qədim əcdadlarımız öz inkişaflarının ilk dövrlərində onları əhatə edən yabanı bitkiləri becərməyə və vəhşi heyvanları əhlilləşdirməyə başlamışdılar. Onlar bəslədikləri heyvanların və becərdikləri bitkilərin içərisindən daha məhsuldar olanları saxlamağa və onlardan nəsil almağa çalışmışlar.

Azərbaycanda mədəni bitkilərin becərilməsi hələ qədim zamanlardan başlanmışdır. Qədim Yunanıstanın görkəmli alimləri Herodot, Feofrast, Polibi, Strabon və başqaları öz əsərlərində Azərbaycan torpağının məhsuldarlığı haqqında qeyd etmişlər.

Azərbaycanda dənli bitkilər hələ 4-5 min il bundan əvvəl becərilirdi. Tarixi mənbələrdən məlum olur ki, orta əsrlərdə Azərbaycanda dənli bitkilər, pambıq, meyvə və subtropik bitkilər geniş yayılmışdır. Azərbaycanda kənd təsərrüfatının çox əsrlik fəaliyyəti və xalq tərəfindən aparılan kortəbii, şüursuz seçmə nəticəsində çoxlu dənli bitkilərin, meyvə və tərəvəz bitkilərinin sortları yaradılmışdır. Bir çox sortlar hətta bu günə qədər kənd təsərrüfatında öz əhəmiyyətini itirməmişdir.(2)

Respublikamızın müxtəlif rayonlarında: Mingəçevir, Naxçıvan (Gültəpə), Göygöl, Abşeron (Binəqədi), Dağlıq Qarabağ (Xocalı) və digər yerlərdə paleontoloji və arxeoloji qazıntılar nəticəsində külli miqdarda müxtəlif bitki və heyvanların qalıqları tapılmışdır. Bu qalıqları tədqiq edərək Azərbaycan alimləri sübut etmişlər ki, dənli bitkilər Azərbaycanda hələ qədim zamanlardan becərilirdi. Analoji məlumatlar üzüm və meyvə bitkiləri haqqında da əldə olunmuşdur.

Tarixi mənbələrdən məlum olmuşdur ki, Azərbaycanda orta əsrlərdə dənli bitkilər, pambıq, meyvə və subtropik bitkilər, habelə tut ağacı geniş becərilmiş, bu da barama qurdunun bəslənməsinə və təbii ipək istehsal olunmasına imkan vermişdir.

**Əsas mətn**

Qədim insanlar təbiətdə rast gəldikləri yaxşı bitkilərin saxlanılmasına və onların artırılmasına fikir verməyib onlardan bir qida kimi istifadə edirdilər. Lakin sonralar, bitkilərin becərilməsinə başladıqda insanlar bitkilərin yaxşılarını seçib, saxlayıb artırılmasına fikir verdilər. Müəyyən olunub ki, insan hələ neolit dövründə (yəni, yeni daş dövründə) hazırki mədəni bitkilərin sortlarının və ev heyvanların cinslərinin əsasını o dövrdən seçmə ilə başlamışdır. Beləliklə əkinçiliyin yaranmasının ən əvvəllərindən ibtidai seleksiya işi başlanır. Onun tarixi min illərlə hesab olunur.Seçmə tədricən təkmilləşərək yeni mədəni bitkilərin yaranmasına gətirib çıxarır. Arxeoloji qazıntı işləri apararkən alimlər müəyyən ediblər ki, mədəni bitkilərin bir çoxu 10 min il bizim eradan əvvəl insan tərəfindən becərilirdi. Bir neçə min il bundan qabaq qədim əkinçilər çox gözəl meyvə-üzüm, bostan bitkilərinin sortlarını yaratmışlar. Bu günə çatan məlumatlara görə qədim zamanlarda insanlara bəzi seleksiya üsulları məlum idi. Məsələn, bizim eradan bir neçə əsr qabaq Misirdə və Mesopotomiyada xurma ağacının süni tozlanması haqqında məlumat var idi. Bundan əlavə Hindistanda, Misirdə, Çində bir neçə min illər əvvəl sadə seleksiya üsullarından istifadə edirdilər. Qədim Roma imperiyasının alimlərinin əsərlərində (Kolumepa, Varron, Virqili, Teofrast) bizim eradan iki min il əvvəl seleksiya işinin necə getməsi haqqında bəzi məlumatlar verilir.(3)

Keçən əsrə qədər Azərbaycan ərazisində kənd təsərrüfatı bitkiləri üzrə tədqiqat işlərinin inkişafının tarixinə dair cüzi məlumatlar vardır. Kənd təsərrüfatı bitkilərinin öyrənilməsində ilkin işlərdən aşağıdakıları qeyd etmək olar: Lənkəran qəzasında 19-cu əsrin 40-cı illərində A.A Dudınski tərəfindən aparılan işlərin, o cümlədən bəzi meyvə və zeytun ağaclarının öyrənilməsi, habelə həmin əsrin 70-ci illərində Kazınskiy tərəfindən bir çox sitrus bitkilərinin həmin iqlimə uyğunlaşma məsələlərinin öyrənilməsini qeyd etmək olar. Quba qəzası üzrə De-Bur qardaşları, Fenkendorf və başqaları tərəfindən bir çox Avropadan gətirilmiş meyvə ağaclarının, üzüm tənəklərinin becərilməsinin öyrənilməsi; Göyçay qəzası üzrə A.B. Şelkovnikin portağal bitkisinin iqlimə uyğunlaşma məsələsinin öyrənilməsi; Gəncə qəzasında Qolitsin və Qorçakov tərəfindən şərabçılığın, üzümçülüyün inkişafına dair işləri; Səlyan qəzasında Karamzinin pambıq təsərrüfatında aqronom A.M.Stepanov tərəfindən pambıq bitkisinin sortlarının yaxşılaşdırılmasına dair işləri diqqətə layiqdir. Qeyd etmək lazımdır ki, pambıq bitkisi ilə işlər 1904-cü ildə A.M.Stepanov tərəfindən başlanmışdır. Azərbaycanda kənd təsərrüfatı elminin inkişafının ilk addımları 1895–ci ildə Ağdaş rayonunda ilkin nümunəvi pambıq sahəsinin təşkili ilə bağlıdır. Sonralar Azərbaycanın digər rayonlarında belə sahələrin təşkil olunması əsasən tədqiqat məqsədi güdürdü. Belə təcrübə sahələrində pambıq bitkisindən əlavə araxis, soya, yonca və başqa bitkilər də əkilib öyrənilirdi. Azərbaycanda kənd təsərrüfatında təcrübi işlər haqqında danışdıqda Qarayaz Təcrübə sahəsi haqqında danışmamaq olmaz. Ərazi etibarilə Gürcüstanda yerləşən bu sahə 1894-cü ildə pambıq plantasiyası kimi təşkil olunmuşdur. Gürcüstanda yerləşməyinə baxmayaraq bu elmi idarə Azərbaycanda pambıqçılığın inkişafına böyük təsir göstərmişdir. Burada 1903-cü ildə aqronom N.P Taratınov tərəfindən gətirilmiş "Kinq"adlı pambıq sortu üzərində fərdi və kütləvi seçmə apararaq yeni yaxşılaşdırılmış "Kinq-Qarayazskiy" pambıq sortu yaradılmışdır. 1907-ci ildə Zəyəm stansiyasının yaxınlığında Sarıtəpə tədqiqat stansiyası təşkil olunmuşdur. Burada pambıq, taxıl, paxla, tütün, yonca və başqa bitkilər üzrə aparılan işlər əsasən tədqiqat məqsədi daşıyırdı. Bu sahə 1914-cü ilə qədər fəaliyyət göstərdi.

Azərbaycanda 1909-cu ildə Muğan təcrübə stansiyasının təşkili kənd təsərrüfatı elminin inkişafında ən böyük nailiyyətlərdən biri olmalı idi. Lakin həmin dövrdə müvafiq maddi texniki dəstəyin olmaması stansiyanın tikilməsi prosesinin təxirə salınması ilə nəticələndi. Yalnız 1913-cü ildə Mərkəzi Muğanda stansiya əvəzinə təcrübə sahəsinin təşkil olunması məsələsi qarşıya qoyuldu. Lakin bu plan da yerinə yetirilmədi. 1914-cü ildə birinci dünya müharibəsi başladı və bütün işlər təxirə salındı. Bununla yanaşı Cəfərxan seleksiya plantasiyası təşkil olunması barədə qərar qəbul edilmişdir.

Cəfərxan stansiyasında işlərin normallığı bərpa olunur, pambıq üzrə seleksiya işləri qaydaya salınır və genişlənirdi. Məsələn, seleksiya şitilliyi təşkil olunur, stansiyada alınan təmiz xətlər becərilir, ayrıca hibrid pitomniki sahəsi yaranır, pambıq bitkisinin toxumçuluğu genişlənir və yeni formaların yaradılması məsələsilə məşğul olunurdu. Pambıqçılıqda elmi işlərin təşkilinə xüsusi fikir verilirdi. 1925-ci ildə Bünyatzadə bu planın təcili həllinə ciddi təşəbbüs göstərmişdir və həmin ildə Gəncə şəhərinin yaxınlığında Gəncə Təcrübə Seleksiya stansiyasının bünövrəsi qoyulmuşdur. Bina tikilməmiş burada pambığın sort sınağı və gübrələrin pambıq bitkisinə verilməsi məsələləri barədə geniş elmi işlər başlanılmışdır. Gəncə Təcrübə Seleksiya stansiyasının elmi işinin təşkilinə yaxından köməklik edilir.

1924-cü ildən 1929-cu ilə qədər Azərbaycanda təcrübə idarələrinin sayı 4-dən 21-ə çatmışdır. Bunlardan ikisi Gəncədə - Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu, Göygöl rayonunda Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutu idi. Bu müddət ərzində Azərbaycanda torpaq zonalarının öyrənilməsində bir sıra əsaslı işlər aparılmışdır. Bu işlər gələcəkdə nəzərdə tutulan elmi idarələrin təşkilində böyük rol oynamışdır.

N.İ.Vavilovun təşəbbüsü ilə Mirbəşir (Tərtər) rayonunda Azərbaycan Dövlət Seleksiya stansiyası yaradılmışdır. İlk ekspedisiya 1914-cü ildə L.L.Dekaprileviçin rəhbərliyi ilə təşkil edilmiş və onlar taxıl bitkilərini yığaraq, 5 buğda növünü təyin etmişlər. Hətta dəniz səviyyəsindən 1900 metr yüksəklikdə də tədqiqat zamanı yetişdirilən yeni bərk buğda formaları tamamilə normal boy atıb inkişaf edir və məhsuldarlığına görə, dağlıq şəraitdə yetişdirilən yerli yumşaq buğdadan geri qalmır. Belə bir fakt da maraqlıdır ki, eyni şəraitdə müxtəlif buğda növlərində dəyişkənlik eyni istiqamətdə özünü büruzə verir.

Fransada yaradılan bir çox sortlarda Azərbaycandan gətirilmiş Qırmızı buğda valideyn kimi istifadə edilmişdir.

Alimlər dünyanın müxtəlif yerlərində müxtəlif bitkilər üzərində, elmi seleksiyanın əsasında böyük işlər aparmağa başlamışlar. Məsələn, Fransada–Vilmoren, İngiltərədə-Sutton, Almaniyada–Rimpau və Loxov, Amerikada L.Berbank, Azərbaycanda İ.Mustafayev və digər məhşur alimlər şəkər çuğunduru, taxıl və digər bitkilər üzərində ciddi seleksiya işi aparmağa başlamışlar.(4)

Hələ keçən əsrin əvvəllərində Azərbaycan alimləri mədəni bitkilər üzərində geniş seleksiya işləri apararaq külli miqdarda yeni yüksək məhsuldar, davamlı və keyfiyyətli sortlar yaratmış və təsərrüfatlara vermişlər. Bu işdə görkəmli alimlərdən Həsənbəy Zərdabini, Ə.D.Rəcəblini, İ.K.Abdullayevi, İ.M.Axundzadəni, İ.D.Mustafavevi, Ə.M.Quliyevi, C.Ə.Əliyevi, A.V.Əlizadəni və başqalarını qeyd etmək olar.

Aqrar sahənin inkişaf tarixində akademik İ.D.Mustafayevin böyük rolu olmuşdur.

.Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (indiki ADAU) ilk dəfə Seleksiya və toxumçuluq kafedrasını İ. D. Mustafayev yaratmış və ona rəhbərlik etmişdir.

1910-cu ilin fevral ayının 25-də Zaqatala qəzasının Qax kəndində anadan olmuşdur. 1922-1928-ci illərdə Zaqatala kənd təsərrüfatı texnikumunda tələbə olmuşdur. 1932-ci ildə Azərbaycan Kənd Təsər-rüfatı İnstitutunu bitirmişdir. 1934-1940-cı illərdə AKTİ-də dekan, kafedra müdiri, elmi və tədris işləri üzrə direktor müavini işləmişdir.

Biologiya elmləri doktoru, professor İ.D.Mustafayev elmi fəaliyyətinin səmərəsinə və bu sahədəki nailiyyətlərinə görə 1950-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir. Akademik İ.Mustafayev 1954-1959-cu illərdə Azərbaycan KP MK-nın 1-ci katibi olmuşdur.

**Nəticə**

Akademik H.Ə.Əliyev qeyd etmişdir ki, İmam Daşdəmir oğlu Mustafayev kənd təsərrüfatı bitkilərinin genetikası, seleksiyası, toxumçuluğu sahəsində böyük alim, mədəni bitkilər və onların yabanı əcdadlarının mənşəyini öyrənən yüksək qabiliyyətli, zəngin təcrübəli tədqiqatçı, biologiya elminin və bitkiçiliyin ən fəal təbliğatçısı olmuşdur. Zaqafqaziyada, Şimali Qafqaz rayonlarında aparılmış ekspedisiya axtarışları nəticəsində respublikanın mədəni florasının öyrənilməsi sayəsində bir çox qiymətli tapıntılar üzə çıxarmışdır. İ.D.Mustafayev Azərbaycanın və eləcədə digər Zaqafqaziya respublikalarının ərazisində 2 mindən çox arpa, çovdar, vələmir, egilops və 7 mindən çox buğda və başqa dənli bitkilərin nümunəsini toplamışdır. Bunlar təxminən dünyada bütün yabanı və mədəni dənli bitki növlərini təmsil edir. Həmin növlər arasında əvvəllər Azərbaycanda təsadüf olunmayan bitki növləri də vardır.

O, bir sıra bol məhsul verən yüksək keyfiyyətli buğda sortları – Sevinc, Cəfəri, Zoğal buğda, Turgidium-7, Turanikum-186, Qızıl buğda, Bol buğda, Arzu, Zərdabi, Qrekum 75/50, Lütessens 10, Gürgənə 1 və s. sortlar yaratmışdır. Bu sortların hamısı rayonlaşmış və keçən əsrin sonunadək respublikanın təsərrüfatlarında geniş sahələrdə səpilib becərilmişdir. Onun Gürgənə 1 yumşaq buğda sortu daha çox məhsuldar və keyfiyyətli olmaqla, respublikamızda becərilən əksər buğda sortlarından olduqca üstündür. Azərbaycanda rayonlaşdırılmış məhsuldar Pallidium 596 (Bol arpa) sortu İ.D.Mustafayevin rəhbərliyi ilə yaradılmışdır. O, forma əmələgəlmə prosesini həm təbiətdə, həm də təcrübə şəraitində öyrənmişdir.

İ.D.Mustafayev Azərbaycanda yabanı təkdənli və cütdənli buğdaların 25 növmüxtəlifliyini, mədəni təkdənli, pərinclərin, buğdasının (kartlikum) 40-dan artıq növmüxtəlifliyini aşkara çıxartmışdır. Azərbaycanın ən dəyərli buğda sərvəti olan bərk buğdanın və qırtış buğdasının 84 növmüxtəlifliyi, habelə Turan və Polşa buğdasının 13 müxtəlifliyi burada tapılmışdır. Azərbaycanda yumşaq, bərk və spelta buğdalarının 100-dən artıq növmüxtəlifliyi toplanmışdır. Eyni zamanda zəngin kolleksiyaya – 18 növ arpa, 10 növ çovdar və 12 növ egilops daxil edilmişdir. Hələ seleksiyaçı alimlərdən heç kim taxıl bitkilərinin İ.D.Mustafayev tərəfindən toplanmış yerli kolleksiyası kimi zəngin bir kolleksiya toplaya bilməmişdir. Bundan əlavə İ.D.Mustafayev ekspedisiyalar müddətində dənli-paxlalı bitkilərin, tərəvəz-bostan və başqa bitkilərin də zəngin yerli kolleksiyasını toplamışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. "2024-2030-cu illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafı üzrə Dövlət Proqramı". 2023-cü il

2. Qurbanov F.H.,Kənd təsərrüfatı bitkilərinin seleksiyası və toxumçulugu. Bakı,2011.
3. Qurbanov F.H. Sortşünaslıq, Bakı2020
4. Mustafayev İ.D. Seleksiya və forma əmələgəlmə prosesində Azərbaycan buğdalarının əhəmiyyəti.. Bakı, 1959.

**Hanan Yousuf Khalifa Al-Malki**
Qərbi Kaspi Universiteti,
magistrant
E-mail: hy.almalki@hotmail.com

## OMANiN XARiCi SiYASƏTi COĞRAFiYASI VƏ PRiNSiPI

**Summary**

In this article, we will mention some features of the nature and personality of Oman and its political principles. After His Majesty Sultan Qaboos bin Said, may God have mercy on him, assumed the burden of government in the country on July 23, 1970, the Sultanate joined the Arab, regional and international community. Some political theories say that the accumulation of products of a state's history often has a direct impact on the formation of its policy model. Foreign relations and it means that it is influenced by the inherited ideas, values and beliefs that emerged in a certain historical period and created some motivations for the states.

**Key words:** Sultan Qaboos bin Said, Oman, the country's history, geographical position, foreign policy.

**Giriş**

Omanın həqiqiliyi bütün siyasi və mədəni aspektləri və qədim tarixi boyunca, firavan sultanlar ölkəsi və davamlı sülh və möhkəm prinsiplər ölkəsi ilə uzun, heç vaxt bitməyən söhbət olaraq qalır.

**Əsas mətn**

Noyabr 2020-ci ildə andiçmə mərasimində çıxış edən Sultan Heysəm bin Tariq bin Taymur Əl Səid (Oman Sultanı) Oman Sultanlığının qonşu dövlətlərlə dinc yaşama, mehriban qonşuluq və dövlətlərin suverenliyinə hörmət prinsiplərinə əsaslandığını təsdiqlədi. O əlavə edib: "Biz bütün ölkələrlə dostluq münasibətlərini qoruyacağıq".

Bu, mərhum Sultan Qabus bin Səidin (Allah ona rəhmət etsin) siyasətinin davamı idi: "1970-ci il iyulun 23-də hakimiyyət sükanı arxasına keçdikdən sonra 50 il ərzində qurduğu şərəfli intibahdan sonra və Omanı bir ucdan digərinə daxil edən və ərəb, İslam və beynəlxalq dünyanı təsir edən müdrik və zəfər dolu yürüş".Oman siyasətinin əsasları tarix boyu qoyulmuşdur və bu gözəl ölkənin tarixi və mədəni xüsusiyyəti və görkəmli və fərqli xüsusiyyəti olan orijinallıqdan irəli gəlir. Hansı ki, seçilən siyasi keyfiyyətlərə malikdir

Xarici siyasətlərini formalaşdırarkən qəbul etdikləri əsas istiqamətlərdən və ərəb regionu kimi bir bölgədə tarix və tarixi irsi oxumaq dövlətlərin davranışını anlamaq üçün əsas şərt hesab olunur.

Omanın tarixi özəlliyi eramızdan əvvəl on iki əsrə aid bir şəhər sivilizasiyasının şahidi olması ilə xarakterizə olunur. Coğrafi mövqeyi də onu Fars və Əfqanıstana qədər uzanan və Mizo və Hindistan çaylarının sivilizasiyası ilə əlaqəli olan böyük bir sivilizasiyanın bir hissəsi edir. Bu, fərqli bir tarixi təcrübə təşkil edirdi. Şumerlərin hakimiyyəti dövründə "Macan" adlanırdı. Yəni, mis ölkə və ya "gəminin gövdəsi"

o deməkdir ki, Oman gəmiqayırma sənayesi ilə məşhur idi. Majan Krallığı bu gün Bəhreyndəki Dilmun Krallığı və Hindistandakı Molokha sivilizasiyası ilə müasir idi.

Oman Sultanlığının Ərəb körfəzinin və Hind okeanının girişindəki coğrafi mövqeyi və onun üçün son dərəcə vacib olan Hörmüz boğazının qərb tərəfinə nəzarəti ona beynəlxalq siyasi və təhlükəsizlik qərarını həvalə etdi .

Biz gördük ki, Omanın xarici siyasəti daimi coğrafiya daxilində qoyulan məsələlərin həllində sakitlik, düşünmə və obyektivlik ilə xarakterizə olunur. Çünki sultanlıq geostrateji yerləşməsinin ona

böyük bir məsuliyyət verdiyini, bunun da başlıca olaraq dünyanın ən mühüm körfəzlərindən biri olan Ərəbistan körfəzinin girişinin mühafizəsinin təmin edilməsinə töhfə verdiyini dərk etmişdir. Sahillərində Yaxın Şərqin neft dövlətləri var və güclü dövlətlər onunla rəqabət aparır ki, onlar da bu ölkələrin xarici siyasətlərinin bir çox aspektlərinin formalaşmasında mühüm rol oynayırlar.

1. Oman Sultanlığı özünü beynəlxalq regional sistemin fəal və nüfuzlu elementi hesab edir və bunun fonunda ,Körfəz ölkələrinin imkanlarına arxalanaraq Körfəz regional təhlükəsizliyinə nail olunmasının vacibliyini vurğulayır.

2. Oman Sultanlığı tərəfdardır və həqiqəti dəstəkləyir və digər ölkələrlə davamlı işləməyə çağırır ,Sülhü sevmək və beynəlxalq mübahisələri dialoq və danışıqlar yolu ilə həll etmək.

3. Oman siyasəti ilk növbədə sülh prinsipinə əsaslanır və onun fikrincə...

Beynəlxalq hüququn çərçivəsi, onun əsaslandığı prinsip və adətlərə hörmətlə yanaşılması və dövlətlər arasında tolerantlıq ruhunun həyata keçirilməsi

Müxtəlif qruplar və yarışlar

4. Dini və ərəb bağlılığı ilə müasirliyi mənimsəmək və tarixi irsə laqeyd yanaşmamaq.

5. Başqalarının işlərinə qarışmaqdan çəkinmək, mehriban qonşuluq və bloklara qoşulmamaq siyasətini qəbul etmək.

**Nəticə**

Yekun olaraq deyim ki, müdriklik və mehriban qonşuluq siyasətinin sübutu kimi mərhum Sultanın çıxışlarından irəli gəlir. "Biz Omanı və beynəlxalq ictimaiyyəti birləşdirən dostluqlarla fəxr etsək də, eyni zamanda təsdiq edirik". Biz hamı ilə səmimi dostluğa və əməkdaşlığa can atan siyasətimizin əsası kimi əvvəldən qəbul etdiyimiz prinsiplərə uyğun olaraq qlobal arenada öz rolumuzu tam şəkildə yerinə yetirməyə can atırdıq". Mərhum Sultan Qabus bin Səid, Allah ona rəhmət etsin, 11/18/1985-ci ildə etdiyi nitqdən

## ƏDƏBİYYAT SİYAHISI

1. Abbasova F. Xarici investisiyalar və Azərbaycan iqtisadiyyatı "iqtisadiyyat və Audit" № 1, Bakı, 27 dekabr 2003.

2. Ağakərimov M.M. "Otel", Bakı: "R.N. Novruz-94", 2008. 329 s.

3. AR DSK. Müstəqil Azərbaycan 2011. Bakı, 2011.640 s.

4. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi, Turizm sahəsində normativ-hüquqi sənədlər. Bakı, 2003. 55 s.

5. Bilalov B. Ə. Turizmin menecmenti, Bakı: - "Mütərcim", 2005. 372 s.

6. Bilalov B.Ə. Azərbaycanda işgüzar turizm, "Dirçəliş XXI əsr" jurnalı, № 86- 87, Bakı, 2005.

7. Bilalov B.Ə. Dünyada və Azərbaycanda gəlmə turizmin müasir durumu, "Dirçəliş XXI əsr" jurnalı, №67, Bakı, 2003

**Hanan Yousuf Khalifa Al-Malki**
Master of the Department of Paleontology and International Relations of the Western Caspian University
**E-mail:** hy.almalki@hotmail.com

## THE BILATERAL RELATIONSHIP BETWEEN THE SULTANATE OF OMAN AND THE REPUBLIC OF AZERBAIJAN

### Summary

The situation in bilateral cooperation begins with laying a solid foundation... and this was clearly demonstrated by the official meetings between representatives of the two countries to study ways of joint cooperation. Urging the presence of a diplomatic presence, represented by the embassy, so that the results of cooperation are extremely grateful, and drawing up future plans for successes that the world will witness and praise. What caught my attention and was a major obstacle to enriching the

study was that this diplomatic relationship did not receive the studies and research it deserved. But we believe that it will flourish in the near future.

**Key words :** Diplomacy. Foreign Policy.Sultanate of Oman.Republic of Azerbaijan. Bilateral relations.

**Introduction**

Relations between countries are an inevitable necessity, especially with the growth of overlapping networks and mutual interests between countries and nations, the development of means of communication, coinciding with the amazing developments in transportation and technology in general, and the presence of regional and international forums that have firmly imposed themselves as a reference for resolving problems and the increase in conflicts at the regional and global levels, all of that. Making relations between countries and achieving political and diplomatic presence is extremely important, in proving the state's existence and sovereignty on the world map

Writing on the subject of diplomatic relations between the Sultanate of Oman and the Republic of Azerbaijan was a lofty aspiration for me... because it combines the status of my country (the Sultanate of Oman and its exemplary political reputation in the world) and the beautiful country of the Republic of Azerbaijan with its originality, which draws attention to the knowledge of the history and identity of this country. This study came to find the answer to my questions about the existence of a present diplomatic relationship between the two countries about its beginning and whether it has an extension or tangible and visible successes.

Through this study, I was able to collect satisfactory answers to my questions and what I wanted to achieve and know.

The Omani-Azerbaijani diplomatic relationship is not new to the times. Rather, it has a history, a written agenda, and ideal planning that serves the interests of the two countries and paves the way for solid cooperation by laying solid foundations that guarantee the continuation and progress of this planning.

There was a lot of agenda over the years. We can specifically attribute the beginning to the year 2010, and so the high-level official meetings and meetings continued... to reach their clear climax in this year 2024, with the push for a permanent diplomatic presence in the host country for both countries, represented by the embassy.

In fact, I see this as the pinnacle of diplomatic prosperity... This planning is currently imposing itself... especially with the number of documented plans for cooperation between the two countries at the level of education, economics, trade and tourism...

I look forward to this study being the beginning of many studies and research that record this diplomatic prosperity and bilateral relations between the Sultanate of Oman and the Republic of Azerbaijan.

**Conclusion**

The Sultanate of Oman has adopted flexible diplomacy as its basis on the external level, where it has realized an effective means through which it can achieve the goals it seeks in its foreign policy. The strength of belief and the stability of the principle is who demonstrated it." Its long historical experience, which helped establish strong relations based on good neighborliness, non-interference in internal affairs, and achieving common interests between countries across the global map. Advocating the principles of justice in international relations, as the Sultanate works every effort to advocate for issues of truth, justice and fairness in international forums. Maintaining regional and international peace and security. The Sultanate of Oman has been and is still working seriously to achieve international peace and security that all humanity seeks. Realism in understanding events and international relations, as the Sultanate's policy is not to get emotional and exaggerate to estimate matters When I talk about the Sultanate of Oman in this regard, I see that the Republic of Azerbaijan does not only share political and diplomatic relations with the Sultanate of Oman. Rather, it is with the Sultanate on the same principles, which I see as truly clear to the contemplative and researcher of the history of the Republic of Azerbaijan and the state's persistent and strong endeavor... to write down its history and glories known

from Long-lasting...which reflects the authenticity of the people and their immortal sacrifices to win the homeland through freedom and peace.

## SOURCES AND REFERENCES:

1. Foreign Minister Elmar Mammadyarov's article in "Azerbaijan Focus" journal ..Walking a tightrope: Azerbaijan's foreign policy strategy in a changing environment

2. Heydar Aliyev, national leader who created history.. www.azernews

3. Azerbaijan Foreign Policy… Anar Valiyev..ADA University, Azerbaijan.. www.researchgate.net
3. Website of the Ministry of Foreign Affairs of Azerbaijan..

4. Azerbaijan's Foreign Policy: Between East and West ...Kamal MakiliAliyev.2013..B3-11

5. THE SUCCESSOR OF HEYDAR ALIYEV'S WAY,, azerbaijan.az

6. . "Azerbaijani diplomacy on its centenary" Adapted from a joint symposium with the Al-Hiwar Center for Political and Media Studies, where the book of Dr. Emil Rahimov, Cultural Advisor to the Embassy of Azerbaijan in Cairo 2019

7. Azerbaijan-Oman relations .riyadh

# DİL VƏ ƏDƏBIYYAT BÖLMƏSİ



**Flora Səməndər ƏKBƏROVA**
Azrbaycan Dövlət İqtisad Universiteti
Xarici Dillər Deaprtamentini baş müəllimi,
E-mail: akberova.flora@yandex.com

## İNGİLİS DİLİNDƏ IQTISADI MƏTNLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

**Summary**

The article highlights the fascinating facets of human knowledge and behavior. It is well known that pragmatics in the study of language and economic texts should combine to provide an appropriate competence and behavior model for teaching English. The goal of the article is to present the various ways that language is processed, including economic linguistics, economic-social values, economic communication on digital platforms, and economic discourse. The fact that English is used in so many different fields shows how competitive our state is in the global economy. As a result, the study of multicultural values in the economic sciences is becoming more and more important, particularly when analyzing economic texts and discourse models. For this reason, the article presents the topic as the most researched area of linguistics and looks at how linguistics has been incorporated into economic discourse in both languages. The study makes the case that a comparative analysis of English discourse is an essential field of study due to the nation's remarkable economic progress and the demands of the labor market.

**Keywords:** economic text, discourse, pragmatics, comparative translation

### Giriş

### İqtisadi mətnlərin nəzəri və praqmatik cəhətləri

İqtisadi mətnlər bir çox formal və semantik tələbləri bölüşsə də, hələ də iqtisadi mətnlərin tərcüməsi zamanı ingilis dilinin praqmatikasının Azərbaycan dilinə necə tərcümə olunduğunu araşdırmaq lazımdır. İqtisadi mətn praqmatikanın bir anlayışı kimi dildə linqvistik biliklər sayəsində iqtisadi mətnlərin öyrənilməsi başlandı və bu proses özlüyündə bir tarixi təkamül təşkil etməyə başladı. İlk dövrlərdən sonra dilçilikdə əsasən linqvistik paradiqm anlayışı tez-tez müzakirə olunmağa başladı. Həmin dövrdə müzakirə olunan məsələlər arasında ən çox adı çəkilən terminlərdən biri *mətn və praqmatik* diskurs anlayışı idi. Mətnlərin öyrənilməsinin təkamül dəyişikliyi ilk dövrlərdən iqtisadi münasibətlərin qurulması və diskurs vasitəsilə həyata keçirilmişdir [3; 5].Praqmatik perspektiv ümumi iqtisadi dəyərlərin müzakirəsini və onların gündəlik həyatda necə qurulduğunu və tətbiq edildiyini vurğulayır. Bu baxımdan paradiqma dəyişikliyi və tarixi inkişafın dinamikası ümumi iqtisadi dəyərlər yaradır. Tədqiqat işinin nəzəri əsasını iqtisadi praqmatikanın əsasını təşkil edən mətn və diskursun konseptual mənası və xüsusiyyətlərinin tədqiqi təşkil edir. Bu mənada mətnin və diskursun semantik mənasını açmaq üçün iqtisadi praqmatikada paradiqma dəyişikliyi tələb olunur [1; 3].

### İqtisadi mətnlərin mənası və məqsədi

K.Abdullanın araşdırmasına görə, mətn cümlənin məna baxımından nisbi natamamlığını, konkret semantik çatışmazlığını aradan qaldıran, mətnin özü isə tam məna tükənməsi nümayiş etdirən sintaktik kompleksdir. Buna əsaslanaraq deyə bilərik ki, iqtisadi informasiyanın strukturunda, onun mənası və sintaktik mürəkkəbliyində, informasiyanın semantik şərh olunmasında iqtisadi mətnlər böyük rol oynayır [2; 6].Mətnin mənası və məqsədi, eləcə də nəzəri ideya kimi iqtisadi praqmatizm iqtisadçıların nöqteyi-nəzərinin irəliləyişinə tam uyğun gəlir və iqtisadiyyatın zaman və məkanda bir elm kimi necə uğurla fəaliyyət göstərdiyini idarə edir. Bu, iqtisadi mətnlərin praktiki məqsədləri və rolları haqqında diskurs təhlilini tələb edir [4; 5]. XIX əsrin sonu və XX əsrin əvvəllərindən başlayaraq dilçilikdə paradiqm dəyişikliyi müşahidə edilməkdədir. Bu dəyişiklik əsasən fəlsəfi dilçilikdə

mətnlərin fonem nəzəriyyəsinin əlamətləri kimi müşahidə olunur. Paradiqm dəyişikliyi ilk qədim dövr ədəbiyyat nümunələrində yeni istiqamətin başlanması kimi tanınmışdır.

**İqtisadi mətn və praqmatika**

F. Boers, M.A.Demecheleer, R.P.Kruqman, J.House müasir cəmiyyətin mülkiyyət cəmiyyətinə çevrilməsində iqtisadi mətnlərin dilçilikdə rolunu vurğulayaq qeyd etmişlər ki, iqtisadi terminlərin, anlayışların, informasiyaların və eləcə də geniş mülahizələrin mətnlərdə anlaşıqlı olması real praqmatikanın daha əlverişli yaranmasına imkan yaradır [2; 4; 5].

Praqmatika və iqtisadi mətn terminləri 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində mətn dilçiliyinin yeni sahəsi kimi meydana çıxmışdır. Məlumdur ki, iqtisadi mətnlər iqtisadi yazışmalar üçün vasitə rolunu oynayır və iqtisadi diskurs iqtisadi əlaqələr qurmaq üçün istifadə olunur. *Diskurs* kommunikativ məkanı, iştirakçılar üçün uyğun olan ümumi diskursiv biliyi, sosial kontekst və ünsiyyət iştirakçılarının niyyətini xarakterizə edən praqmatik məqsədləri özündə birləşdirən mürəkkəb koqnitiv-kommunikativ hadisə kimi müəyyən edilir.

M.Stubbs diskursun üç əsas səciyyəvi cəhətini qeyd edir:

1) *formal münasibətdə diskurs həcminə görə cümlədən böyük dil vahididir;*
2) *məzmun planında diskurs dilin sosial kontekstdə istifadəsi ilə bağlıdır;*
3) *təşkilati baxımından diskurs interaktiv, yəni dialojidir* [5, s. 123].

Qlobal iqtisadiyyatın və xüsusən də xalqımızın təqdirəlayiq hazırkı vəziyyəti insanların iqtisadiyyatda və onunla əlaqəli bütün sahələrdə praktiki bacarıqlara yiyələnməsinin zəruriliyini vurğulayır. Buna görə də, iqtisadi mətn və diskurs terminlərinin müxtəlif şərhləri üzərində aparılan tədqiqatlar onların məhdudiyyətsiz istifadəsində müəyyən çətinliklərin olduğunu təsdiqləyir. Söhbətin iki əsas komponentindən biri olan danışan-dinləyici qarşılıqlı əlaqəsi burada müzakirə olunan əsas fikirlər tərəfindən qəbul edilir. Nəticə etibarilə, bu iki nöqteyi-nəzər ünsiyyət prosesinin özünü daha dəqiq nəzərdən keçirməyə imkan verir. Bu dərketmə prosesi, onun praqmatik diskursa çevrilməsini nəzərdə tutan diskursun yaradılması prosesinin modelləşdirilməsi və sintezindən fərqlidir [2; 5].

**Nəticə**

Beləliklə, iqtisadiyyatın inkişaf etməsi dilçilik elmində yeni bir paradiqm dəyişikiyi yaradır, bu məqsədlə, dilçilik elmi iqtisadi mətnlərin tərcüməsində diskursiv meyillərin nəzərə alınmasını vacib hesab edir və iqtisadiyyatın müxtəlif inkişaf mərhələsində öyrənənləri iqtisadi praqmatik mühitlə təmin edir. Dilçilikdə iqtisadi mətnlərin tərcüməsi dil və sosial strukturun bir vahidi kimi təqdim edilməli, qarşılıqlı təsirdə diskursa inteqrasiya edərək nitqin vahidi linqvokulturoloji konseptini yaratmalıdır. Yekun olaraq demək olar ki, xalqımızın indiki inkişaf vəziyyətini nəzərə alaraq, dilçilik iqtisadiyyatın təhlili və bununla bağlı bütün məsələlər üçün Azərbaycan və ingilis dillərini müqayisə etməli və hər iki cəmiyyət yeni inkişaf mərhələsinə qədəm qoymalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. / K.M.Abdullayev. – Bakı: Maarif, – 1998. – 284 s.
2. Boers. F., Demecheleer M. A Few Metaphorical Models in Economic Discourse. // ESP Journal, In: Liebert, W-A, G.Redeker & L.Waugh (eds.), Discourse and Perspective in Cognitive Linguistics. – Amsterdam: John Benjamins, – 1997. – p.115-129,
3. Halliday, M.A.K. An Introduction to functional Grammar. / M.A.K.Halliday. Edward Arnold. (Publishers) Ltd, – 1985. – 387 p.
4. House, J. Translation: A Multidisciplinary Approach. / J.House. – Oxford and New York: Oxford University Press, – 2009. – 276 p.
5. Krugman, R.P. International Economics: Theory and Policy. / R.P.Krugman, M.Obstfeld, M.J.Melitz. – Pearson Education, – 2012. – 736 p.
6. Stubbs, M. Discourse analysis: the sociolinguistic analysis of natural language. / M.Stubbs. – Chicago: University of Chicago Press; Oxford: B. Blackwell, – 1983. – 272 p.

**Fəridə Məşi HÜSEYNOVA**
ADPU Ümumi Pedaqogika kafedrasının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: feridehuseynova21@gmail.com
ORCID ID: https://orcid.org/0000-0002-0250-3467

# İNGİLİS DİLİNDƏ MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏT BACARIQLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Summary**

The assessment of intercultural communication abilities in English within the context of higher education is the focus of the thesis article. It is well known that the term "intercultural communication" in English has gained popularity recently and is now considered a necessary skill in a variety of settings. This article's goal is to examine the issues that come up when evaluating a person's capacity for interpersonal and communicative interaction with those who speak a different language and come from different cultural backgrounds. The ability of learners from diverse cultures to interact and communicate in a way that is consistent with their knowledge, abilities, and attitudes in particular contexts is known as intercultural communicative competence. The article looked at several recent scientific literature examples and analyzed fresh scientific data. It appears that there has always been a need to evaluate these abilities. Despite these challenges, research indicates that assessments of students' judgment of cultural situations are thought to be an effective way to gauge their intercultural attitudes, knowledge, and abilities. The assessment of intercultural English proficiency is thus presented in the thesis as the most valuable tool for students' future careers.

**Keywords:** intercultural communication, evaluation, observation, interview

## Giriş

Mədəniyyətlərarası ünsiyyət şəffaf, dil öyrənənlər tərəfindən qəbul edilmiş, başa düşülən və istifadə olunan, fərqli şəkildə anlaşılan bir anlayışdır. Müxtəlif mədəniyyətlərdən olan öyrənənlərin müəyyən kontekstlərdə bilik, bacarıq və münasibətlərinə uyğun şəkildə qarşılıqlı əlaqədə olmaq və ünsiyyət qurmaq bacarığı mədəniyyətlərarası kommunikativ səriştə kimi tanınır. Bunlardan ən əsası ingilis dilində mədəniyyətlərarası dilin öyrənilməsi və ünsiyyət bacarıqlarının formalaşmasıdır. Bu məqsədlə ingilis dilinin kontekstdə istifadəsi onun mədəni davranışlarla öyrənilməsi və qiymətləndirilməsini təşviq edir [1; 2].

## Əsas Mətn

Çoxsaylı alim və peşəkarlar tərəfindən mədəniyyətlərarası səriştəliliyin qiymətləndirilmə üsullarını öz təlimatlarına daxil etməyə çalışmışlar. Birincisi, idarə edilməsi və şərh edilməsi asan olan çoxseçimli suallardan ibarət ənənəvi mədəni testlər olmuşdur. Bununla belə, antropoloji mədəniyyətə gəldikdə, bu testlər yalnız zaman-zaman stereotipləşdirilə və ümumiləşdirilə bilən faktiki bilikləri qiymətləndirir, ona görə də dil öyrənənlərin mədəniyyətlərarası səriştəsi haqqında məlumatı aşkar edə bilmirdi. Bu bacarığı yoxlayan diaqnostik test və şkalaları qiymətləndirmə metodu kimi tətbiq olunsa da, ünsiyyət formalaşması baxımından daha çox tənqid edilir [ 3; 5].

Mədəniyyətlərarası kommunikativ səriştənin qiymətləndirilməsi bir sıra səbəblərə görə çətin ola bilər. Birincisi, mədəniyyətlərarası səriştənin subkomponentlərinin dəqiq tərifləri ilə bağlı konsensus azdır və bu, qiymətləndirmək üçün xüsusi meyarları müəyyən etmək dəqiqləşdirilməmişdir. İkincisi, mədəniyyətlərarası səriştə yerli səviyyədə *"mədəni davranış və ya kontekstdə bir səriştəli bacarıq kimi qəbul edilə bilər"*[2; 6].

Üçüncüsü, əlaqəli şəkildə mədəniyyətlərarası kommunikativ səriştənin bəzi aspektləri auditoriyada qiymətləndirmə üçün uyğun olmaya bilər və bu hal çox vaxt bir fəslin sonunda müzakirə olunur. Bu

çətinliklərə baxmayaraq, şəxsi və institusional məqsədlər üçün tələbələrin mədəniyyətlərarası kommunikativ səriştədə irəliləyişlərinin qiymətləndirilməsi mühüm məqsədlər daşıyır.

*öyrənmədə irəliləyişləri təsvir etmək*

*öyrənmədə güclü və zəif tərəfləri müəyyən etmək;*

*gələcək öyrənməni düzgün planlaşdırmaq üçün müəyyən bir təlim kursundan sonra öyrənmənin yekun səviyyəsini müəyyən etmək*

*tədrisin effektivliyinə dair mülahizələrə töhfə vermək.*

Beləliklə, məqalədə mədəniyyətlərarası ünsiyyətin formlarını öyrənmək və onları dəqiq qiymətləndirməyi araşdırmaq üçün bir sıra nəzəri konsepsiyaları nəzərdən keçirir.[4. s. 395].

**Mədəniyyətlərarası ünsiyyətin qiymətləndirilməsi**

Məlumdur ki, ali təhsil sistemində tələbələrin mədəni bacarıqları micro-bacarıqların əldə olunması kimi təklif olunur. Buna görə də mədəniyyətlərarası səriştənin qiymətləndirilməsi insanın sosial və ya mədəni kimliklərin qabarıq olduğu situasiyalarda *"nə edə biləcəyini"* təsvir etməyə və bəzən ölçmək məsələsidir və mədəniyyətlərarası səriştənin sosial mühitdəı bir çox nümunəvi *"modelləri"* mövcuddur. Buraya özünü təqdimetmə, ailə statusu haqqında məlumatlanma, dini inaclarını ifadə etmə, sosial-iqtisadi statusunu bilmə, hobbiləri, adətləri və xüsusiyyətləri nümayiş etdirmə və digər mədəniyyətlərarası situasiyalar haqqında təcrübələri, münasibətləri və davranışları barədə aparılan sorğulardır. Çox vaxt bu sorğular strukturlaşdırılmış müsahibələr və ya qiymətləndirmə şəklində həyata keçirilir. İnsanların mədəniyyətlərarası qarşılıqlı əlaqədə nə etdiklərinə dair müşahidə və müsahibələr bu bacarıqları daha da təkmilləşdirir [1; 5; 6].

Deardoff, Jackson ən effektiv mədəni ünsiyyət bacarıqlarının qiymətləndirilməsində *keys araşdırmaları, müsahibələr, gündəliklərinin təhlili, hesabatlar, müşahidə rəyləri özünün və başqalarının mühakiməsi"* kimi istifadə olunmasını təklif edirlər. Bundan başqa ingilis dilində mədəni davranışları qiymətləndirən *sorğular, sual-cavab, gündəlik qeydlər, tənqidi hesabatları, fərdi və qrup müsahibələri* ən səmərəli qiymətləndirmə vasitələri kimi dəyərləndirilmişdir [3; 4].

Maykl Bayram qiymətləndirmədə *"mədəniyyətlərarası təcrübələrin avtobioqrafiyası"* adlandırdığı portfoliodan istifadə etməyi təklif edir və bunu aşağıdakı şəkildə təsvir edir [2.s.97 ]. Bacarıqları müəyyən etmək üçün tədqiqatçı alim mədəniyyətlərarası inkişaf yolu ilə əldə edilmiş bilik, bacarıq və münasibətləri qiymətləndirmək üçün bir neçə üsul təklif etmişdir. Çox vaxt siniflərdə qiymətləndirmələrin tədris fəaliyyəti kimi istifadə olunması tövsiyə edilmişdir. Məsələn, metodlara müxtəlif açıq, qapalı və *Likert tipli* formatlı anketlər daxildir.

İngilis dilində qarşılıqlı anlaşılmazlıqların qarşısını almağın ən yaxşı yolu, söhbət zamanı diqqətlə qulaq asmaq və mütəmadi olaraq başa düşdüyünü yoxlamaqdır. Anladığınıza əmin olmaq üçün suallar verin və başqalarından sizi başa düşdüklərinə əmin olmaq üçün dediklərinizi təkrarlamağı xahiş edin [6; 7; 8].

**Nəticə**

Beləliklə, tezis məqalədə ingilis dilində mədəniyyətlərarası ünsiyyətin qiymətləndirilməsi üzrə müasir yanaşmalar müzakirə edilir. Məlum olur ki, mədəniyyətlərarası kommunikativ səriştənin qiymətləndirilməsi mədəni kimliyin daha geniş mənada öyrənilməsi yollarını göstərir. Bu vasitələrin istifadə olunması ingilis dili öyrənənlərin müxtəlif mədəni situasiyalarda bilik, bacarıq və münasibətləri nümayiş etdirməsi adekvat ünsiyyət qurmaq qabiliyyətlərini formalaşdırır. Bundan əlavə, bu qabiliyətin qiymətləndirilməsi müxtəlif effektiv nəticələrin təhlili və müzakirəsinə əsaslanır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Allen, T. Assessing Intercultural Competence Using Situational Judgement Tests: Reports from an EMI Course in Japan. Open Journal of Social Sciences, 10, 405-427. doi: 10.4236/jss.2022.1013029.
2. Byram Michael Teaching and Assessing Intercultural Communicative Competence. Clevedon: Multilingual Matters. 1997 – pp.97

3. Deardorff, D. K. Identification and Assessment of Intercultural Competence as a Student Outcome of Internationalization. Journal of Studies in International Education, 10, 2006 - 241-266.

**Tovus HAMIDOVA**
Azerbaijan state pedagogical university
E-mail: tovuzhemidova@gmail.com

## THE INDEFINITE PRONOUN 'ONE" IN THE ENGLISH LANGUAGE

**Summary**

It is well known that the grammar and linguistic family of the English and Azerbaijani languages differ significantly from one another. The Azerbaijani language has a synthetic structure, whereas the English language has an analytical structure. Like in other components of speech, this structural distinction is clearly seen in the typology of pronouns. This is because the languages of Azerbaijan and England are members of distinct linguistic families.This thesis discusses the Azerbaijani equivalent of the English word "one," which has a unique place in the language.
**Key words:** One, linguists, pronoun, indefinite, English

### Intradaction

We discuss the Azerbaijani equivalent of the English word "one," which has a specific place. One can be used as a number, a pronoun, an adverb, an indefinite article, and a substitute word, among other functions.

Divergent views have been made by linguists on the term "One". This word can be classified as a pronoun, an auxiliary word, or even a word-correcting form, according to different people. Recently, linguists have referred to the term "One" as a noun since they believe it possesses noun properties.

It is hard to list every quality that makes the word "One" unique. We shall discuss a few of the word's key functional characteristics in this section. In English, "one" can be a number, a pronoun, or a noun. The meaning of the word "One" and its syntactic role in the sentence must be taken into account in order to comprehend the sentence that uses it. This word becomes a number and means "one" when it is placed before a noun to indicate a quantity.

### Main part

In english, "one" is mostly used as a pronoun and a noun. It is challenging to understand the meaning of the word "One" in relation to the number when it is employed as a pronoun. There are two variations of the pronoun "one": indefinite pronoun and indefinite personal pronoun.

- When "one" is an indefinite pronoun, it is typically referred to as a zero-pronoun. "One" serves as a determiner in this sentence since it can refer to both an object and a person. "one, someone" and so forth are rendered as The indefinite pronoun "One" lacks a case and a quantity category when used.

- "One" only conveys the idea of person when it refers to an undefined person or a broad personal pronoun. One can use the noun-pronoun "One" in both possessive and nominative situations. In Azerbaijani, "One" denotes "man, everyone, everyone," and so forth. It serves as a messenger in the nominative case of the sentence. verbally translated. The sentence is determined by the possessive case form "one's". The phrase "nobody, no one" is used to translate the pronoun "one" into our language when it is used in a negative statement. Indefinite personal sentences are the linguistic counterpart of certain statements in our language that use the pronoun "one". Sentences expressing modal verbs, infinitives, and the pronoun "one" often contain such circumstances.

What part of speech the word "one" belongs to is one of the contentious aspects of the term in linguistics. Divergent viewpoints exist about this matter.

In English, pronouns are unable to take on all the characteristics of a noun. A few pronouns have a quantitative category, some are employed apically, and some accept the possessive case suffix. Given that it possesses every noun's characteristic, the word "one" is a noun and not a pronoun. But "one" only conveys materiality when it acknowledges the meaning of the noun it is replacing in the phrase; otherwise, it does not convey material content on its own. Its distinctive quality sets it apart from other nouns. It should be noted, however, that saying "one" rather than "noun substitute" or "substitute noun" would be more accurate.

**Conclusion**

In education, there are issues with the term "one" as well as the pronouns that are created with it. We'll discuss various indefinite, negative, and opposing pronouns that can be created by using the word "one" in this section.

The compound indefinite pronoun "someone" is created by combining the indefinite pronouns "some" and "one". Translated as "someone, an unknown person (person)" in Azerbaijani, the pronoun "someone" solely conveys the concept of a person and is mostly used in affirmative sentences.

**References:**

1. Modern Azerbaijani language, Volume II, Morphology. Baku, 1980.
2. Hasanov A. The category of certainty and uncertainty in the Azerbaijani language. Baku, 1970.
3. Kobrina N.A. An English Grammar Morphology, Moscow, 1985.
4. Fordon E. M., Krilova I.P. A grammar of present-day English. Moscow., 1980.
5. Akhundov A. General linguistics. History, theory and methods of linguistics, Baku, "Education", 1988, 263p.
6. Bauer, Laurie "English Word-formation"Cambridge University Press 1983, 243

**Şəlalə Rəşid ABBASOVA**
Odlar Yurdu Universiteti
E-mail: abbasovaslal55@gamil.com
Elmi rəhbər: Məmmədova Rəvanə
E-mail: www.mademoiselle_mr@mail.ru

## PƏRİNUŞ SƏNİİNİN "MƏNİM PAYIM" VƏ AYŞƏ KULİNİN "HANDAN" ROMANLARINDA TÜRKİYƏ VƏ İRAN CƏMİYYƏTİNDƏKİ QADINLARIN KİMLİYİ

**Summary**

Our research is about the life struggle, identity, and place of women in the novel "Handan" by the Turkish woman writer Ayşe Kuli and "My share" by the Iranian writer Parinush Sani. The novel Handan is a work written by Ayşe Kuli inspired by Khalida Adib Adıvar's novel of the same name. In this book, Kulin described the first free female hero of Khalida Adib Adivar in the modern Turkish society in the early days of the Republic of Turkey with the image of Handan. Similarly, the Iranian writer Parinush Sanii described the situation of women in the Republic established after the end of the Shah Revolution in Iran.

**Key words:** Ayşe Kuli's novel "Handan", Parinush Sanii's novel "My share", comparative method

**Giriş**

Araşdırmamız Ayşə Kulinin "Handan" romanı və Pərinuş Səniinin "Mənim payım" romanlarını əhatə edir. Müqayisə olunan hər iki əsərdə müəlliflər personajların daxili aləmini təsvir edərkən cəmiyyətin perspektivini, stereotiplərini, insan münasibətlərini tarixi hadisələr kontekstində müzakirə ediblər. Araşdırmamızın mərkəzində olan hər iki romanda qadın azadlığının məhdudlaşdırıldığı,qadının cəmiyyətdəki yeri və kimlik mübarizəsi əsaas mövzu olmuşdur.

Ayşə Kulin bir çox romanlarında olduğu kimi “Handan”-ında əsas mövzusu qadınlardır. Romanda Handan hər cəhətdən ayaqda durmağı bacaran, azad və güclü qadınların fonunda təsvir edilmişdir. Burada Ayşə Kulin İstanbulda baş verən Gəzi hadisələrinə toxunaraq o dövrdə Türkiyə cəmiyyətinin həyatını qısaca təqdim edir

İranda doğulub böyüyən Pərinuş Sanii Tehranda psixologiya üzrə təhsil alıb. O, təhsil aldığı və işlədiyi müddətdə İranda, xüsusilə də qadınların həyatını dərindən müşahidə etmiş və əsərlərində bunları dünyaya nümayiş etdirməyi qarşısına məqsəd qoymuşdur. Romanda diqqəti cəlb edən ən mühüm detallar qadına bir insan kimi etinasızlıq göstərilməsi və ən əsası onun öz şəxsiyyəti uğrunda mübarizəsidir.

**Əsas mətn**

Pərinuş Saniidə Məsumə romanda adı kimi məsum bir qadın olaraq verilir və İran cəmiyyətindəki bütün qızların prototipidir. Yeniyetmə ikən Sait adlı əczaçı oğlana aşiq olub. Təbii ki, İran kimi bir cəmiyyətdə həyatını qorumaq üçün bunu hamıdan gizlətməli idi. Vəziyyəti ancaq onun ən yaxın dostu Pərvanə bilirdi. Pərvanə isə Məsumənin qardaşlarının xoşuna gəlmirdi, hətta onu “əxlaqı pozan qadın” kimi görürdülər. Məsumənin bütün həyatı bir gün yerə yıxılması ilə dəyişir. Sait gənc qıza kömək etdikdə qardaşları bunu görür. Qardaşları Məsuməni evdə ayağına kişi əli dəydiyi üçün döyür, ailənin namusuna xələl gəldiyinə görə dərhal onu evləndirməyə çalışırlar. Məsumənin evləndiyi şəxs İran cəmiyyətindəki kişilərdən tamamilə fərqlidir. Həmid hüquq tələbəsidir və Məsumənin təhsil almasına kömək edir. Bir qadın olaraq özünü ifadə etməyə və hüquqlarını müdafiə dəstək olur. Aralarında sevgi olmasa da, dərin hörmət və dostluq bağı var. Bundan əlavə, Həmid 1979-cu ildə şah rejiminə qarşı çıxan Ayətullah Xomeyniyə qarşı sol qrupda idi. Onun Həmidlə evliliyindən üç övladı var. Əri həbs olunduqdan sonra Məsumə ailənin bütün yükünü öz üzərinə götürür. Bir tərəfdən ana olur, digər tərəfdən universiteti bitirib işə başlayır. Lakin o, həyat yoldaşına görə də işindən qovulur.

Ayşe Kulin Handan romanındakı personaj da Məsumə kimi ilk məhəbbətinin qurbanı olur. Nədimlə olan eşq macərası həyatının tamam başqa istiqamətə getməsinə səbəb olur. Nədim Amerikaya gedir, Handan isə doğulub boya-başa çatdığı İzmirdə qalır. Ailəsinin təzyiqi ilə müəllimi Haşım bəylə ailə qurur. Amma Handan Məsumədən fərqli olaraq evlənəcəyi insanı tapıb. Daha doğrusu, Haşım bəy başqası ilə evli olduğu müddətdə Handanla qeyri-qanuni münasibətdə olub və Handan hamilə qalıb. İllərdir övladı olmayan Haşım bəy dərhal Handanla evlənmək istəyib. Amma Handanın həyatı əslində bu evliliyə görə deyil, ana ola bilmədiyi üçün dəyişdi. Bu xəbəri alan Haşim Handandan uzaqlaşır və sonda boşanırlar, məhz burada “atamın evinə qayıtdım” sözləri Handanın həyatının gedişatını müəyyən edir. Evə qayıtdıqdan sonra ayaq üstə durmağa başlayır. İstanbula köçür. Bu illər ərzində bir çox işlərdə çalışdı və nəhayət öz biznesini qurdu. Ortaqlıq qurub nəşriyyat açır, baş redaktor işləyir.

Mənsumədən fərqli olan Handan öz cinsi rolunu tam dərk etmiş, münasibətləri olan bir qadındır. Ən azından həyatına daxil etdiyi insanları doğru və ya yanlış olsa da öz azad iradəsilə almış, yəni bir az da olsa seçim şansı yaranmışdı. Bütün bunlarla yanaşı, romanlardakı qadın personajların ən mühüm ortaq nöqtələri analıq instinkti ilə göstərilə bilər. Hər iki qadın analıq duyğusundan gender roluna əhəmiyyət vermədən uşaqları üçün hər şeyi qurban verir. Əsərin sonunda Məsumə ilk məhəbbəti Saitlə tanış olur. Lakin sosial təzyiqdən insanların nə deyəcəyi fikrinə qapılır və öz həyatının axarını dəyişmək əvəzinə onu axına buraxır, stereotipləri qırmır. O, Saitlə evlənmir və həyatına tək davam edir. O, dostu Pərvanə ilə söhbətində bunlardan danışır. Eynilə, Handan bütün həyatını Amerikada dünyasını dəyişən qardaşının qızına analıq etməklə keçirir və onu övladlığa götürür. O, bütün karyera həyatını analığı üçün qurban verir və Dəfnə üçün əlindən gələni edir.

**Nəticə**

Qadınların dünyaya göz açdıqları andan cəmiyyətdə sağlam mövqe qazanmaq mübarizəsi Şərqin mərkəzi problemilərindən olub. Bu səbəbdən bir çox qadın yazılıçılar bu məsələni öz əsərlərinin əsas mövzusu olaraq seçməkdən yan keçmirlər. Müəlliflər əsərlərində qadınların mübarizəsini tarixi

hadisələr kontekstində izah etməyə cəht göstərmiş, qadınların əslində öyrənilmiş çarəsizliyin qurbanı olduğunu oxucularına göstərməyə çalışmışdır. Pərinuş Sanii əsərinin adında bunu sözün əsl mənasında çatdırmaqla iranlı qadının çoxəsrlik adət-ənənələrdən payına düşəni almamasını göstərmişdir. Öz azadlığını əldə edə bilən qadın tipi olan Məsumə bununla da İrandakı digər qadınlar üçün ümidinə çevrilib. Handan analığın qadına necə yaraşdığını və onun şəxsiyyətini necə dəyişdirə biləcəyini göstərən qadınlardandır. Çətin şəraitdə böyüyən hər iki qadının mübarizəsi yaşadıqları cəmiyyətə görə fərqli şəkildə özünü göstərsə də, öz daxili savaşlarına baxmayaraq, təslim olmamaqla ən azı buna nail ola biliblər. İstər Türk cəmiyyətində, istərsə İran cəmiyyətində, istərsə də dünyanın hər yerində qadınların "olması lazım olan qadın tipi, şərq qadınının şəfqət və sevgisi ilə qərbli qadının özünə inamı bir araya gəlib sosial həyatda öz yerini itirmədən tutmalıdır."

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Pərinuş Sənii. Mənim payım. Bakı, Qanun nəşriyyatı, 2014. 420 səhifə.
2. Ayşe Kulin. Handan. İstanbul, Everest yayınları, 2014. 276 səhifə.



**Aynur Cavanşir GÜNƏŞLİ**
Azərbaycan Milli Elmlər Akademiyası
E-mail: aynur_gunashli@yahoo.com


## ATALAR SÖZLƏRİNDƏ SİNTAKTİK PARALELİZM


**Summary**

Proverbs are the history and past of the people, traditions, opinions expressed by our ancestors on the events taking place on the basis of their own experience, are one of the examples of folklore, which has a short, laconic structure, but full and extensive exhortative content. This article will focus on the linguistic, especially syntactically, analysis of proverbs, the syntactic parallelism of various sentence structures in proverbs.


**Keywords:** proverbs, syntactic parallelism, text.

**Giriş**

Atalar sözlərinin yaddaqalan, ahəngdar olması səbəblərindən ən əsası onların malik olduğu cümlə quruluşlarıdır. Atalar sözlərinin müşahidəsi zamanı eyni cümlə quruluşlarının bu və ya digər şəkildə təkrarı hadisəsinə tez-tez rast gəlirik ki, bu da atalar sözlərinin quruluş etibarilə formalaşmasında sintaktik paralelizmin mühüm rolunun olduğunun göstəricisidir. "...sintaktik paralelizm həm qədim türkdilli abidələrimizdə, həm folklor nümunələrində (dastanlar, mahnılar, meyxanalar, atalar sözləri və s.), həm də klassik və müasir bədii ədəbiyyatda geniş işləkliyə malik olan üslubi fiqurlardan biridir" [4, s.119].

Qeyd etmək lazımdır ki, atalar sözlərinin cümlə quruluşlarında sintaktik paralelizm həmişə eyni formada özünü göstərmir. Sintaktik paralelizm vasitəsilə əlaqələnən atalar sözlərinin müxtəlif növləri ilə qarşılaşa bilərik:

- İki sadə cümlənin sintaktik paralelliyi;
- Tərəfləri bir-birinin əksi olan cümlələr, yəni qarşılaşdırma əlaqəsi ilə yaranan cümlələrin sintaktik paralelliyi;
- Elliptik cümlələrin paralelliyi;
- Sual cümlələrinin sintaktik paralelliyi;

– Şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin sintaktik paralelliyi.

**Əsas mətn**

Məqalənin tədqiqat obyekti atalar sözləri olsa da, bütövlükdə folklor nümunələri üçün deyə bilərik ki, paralellik şifahi xalq poeziyasının dilinin ən parlaq obrazlı və ifadəli vasitələrindən biridir "Ümumtürk folklorik mətninin müxtəlif janrlarında istər sadə, istərsə də mürəkkəb cümlələr və komponentləri sözügedən poetik-folklorik mətnləşmə prosesində sintaktik paralellər olaraq işlənilir" [7, s.283-284]. Bəzi atalar sözlərində onu əmələ gətirən komponentlər tamamilə eynilik təşkil edir. Belə ki, cümlələrdə söz sırası, cümlə üzvü və hətta durğu işarəsi ardıcıllığı tamamilə eyni olur. Burada biz tam sintaktik paralelizmi müşahidə edə bilərik.

Dovşan kimi yat,
Kərpic kimi qat. [5, s.16]
Sözü deyər, dərdəjər, çörəyi yeyər, eybəjər. [3, s.72]
Dəmir nəmnən çürüyər, insan qəmnən çürüyər. [10, s.266]

Atalar sözlərinin bəzilərində komponentlərdə yenə də ardıcıllıq eyni olsa da, birinci cümlələrin predikatı qorunur, ikinci cümlələrdə isə predikat ixtisar olunur. Bunlar elliptik cümlələr kimi də başa düşülə bilər. "Sadə cümlənin elliptik forması dedikdə belə anlaşılır ki, başqa yarımçıq cümlə növlərindən fərqli olaraq, burada ellipsisə uğrayan üzvün və ya ümumiyyətlə, sözün bərpasına ehtiyac duyulmur, əksinə, həmin mövqedə bərpa nəzərdə tutulan fikrin ifadəsində daha böyük ağırlıq yaradardı. Ona görə həmin konstruksiyalarda yarımçıqlıq, hansı leksik və ya sintaktik vahidin işlədilməməsi hiss olunmur" [8, s.124].

Ağaj barı ilə öyünər, torpaq varı ilə. [3, s.72]
Atı əsli ilə tanıyarlar, insanı nəsli ilə. [3, s.72]

Göründüyü kimi, burada iki mühakimə bir predikata bağlanır, ona görə də birinci cümlədə işlənən predikat artıq ikinci cümlədə təkrarlanmır. Yuxarıdakı atalar sözləri nümunələri mürəkkəb cümlə quruluşuna malikdir. Hər iki nümunədə mürəkkəb cümlənin komponentləri sintaktik paralelizm vasitəsilə bir-biri ilə əlaqələnmişdir. Həmçinin burada sintaktik paralelizm vasitəsilə əlaqələnən cümlələr tez-tez rastlaşdığımız ellipsis hadisəsi ilə də qarşılaşırıq. Belə ki, birinci nümunədə "öyünər", ikinci nümunədə "tanıyarlar" sözləri olmaqla hər iki komponentin predikatı eynidir. Təkrarın qarşısını almaq üçün nümunələrin ikinci komponentində predikat ixtisar olunur, yəni ellipsisə uğrayır. Bu tipli cümlə quruluşlarına atalar sözlərində tez-tez rast gəlirik.

Həmçinin bu tipli atalar sözlərinin cümlə quruluşunu yalnız sintaktik baxımdan deyil, semantik baxımdan da qiymətləndirilməlidir. Belə ki, semantik baxımdan bu tipli atalar sözləri daha təsirli məna kəsb etməklə, diqqəti daha çox cəlb edir.

Digər bir quruluş formasına görə fərqlənən atalar sözləri semantik baxımdan qarşılaşdırma əlaqəli komponentlərin sintaktik paralelizmi ilə yarananlardır.

Aclıqdan quduranı saxlamaq olar, toxluqdan quduranı saxlamaq olmaz. [2, s.19] Adamı
qılınc öldürməz, tənəli söz öldürər. [2, s.21]
Çox yiyənin olsun, çox diyənin olmasın. [6, s.340]

Nümunələrdən də göründüyü kimi, bu tipli atalar sözləri sintaktik paralelizmlə yaranır, struktur baxımdan eynilik təşkil etsə də, semantik baxımdan komponentlər arasında bir ziddiyyət, qarşılaşdırma özünü göstərir. Bu da öz növbəsində komponentlərinin qarşılaşdırılması ilə müqayisəsini formalaşdırmaqla təsir gücünün artırılmasına xidmət edir.

Komponentləri sintaktik paralelizm vasitəsilə bir-birinə bağlanan atalar sözlərinin bir qismi sual cümlələri vasitəsilə formalaşır.

Ac nə yeməz? Tox nə deməz? [2, s.18]
At tapıldı, yəhər tapılmadı? [2, s.41]
Keçi ha yanda? Qaya ha yanda? [2, s.146]

Nümunələrdən də göründüyü kimi, burada verilən sualın məqsədi cavab almaq deyildir. Yəni nümunələrdə qrammatik sual əvəzinə bədii sualdan istifadə olunmuşdur. Bildiyimiz kimi, bədii ifadə vasitəsi olan bədii sual fikrin təsir qüvvətini artırır.

Sual cümləsi şəklində formalaşan atalar sözlərinin bir qismində sual ilə yanaşı, cavab da qeyd olunur.

Dəmli hara gedər? – Dəm ardınca.
Qəmli hara gedər? Qəm ardınca. [2, s.85]
Ev kimindir? Oturanın!
Söz kimindir? – Götürənin. [2, s.104]

Burada məqsəd söylənən iki fikri müqayisəli şəkildə göstərməkdir. Həmçinin sual cümləsi şəklində qeyd etdiyimiz nümunələrin hamısı tam sintaktik paralelizm şəklində qurulmuşdur. Lakin bəzi nümunələr də vardır ki, pilləli paralelizm şəklində qurulur.

Havar sənin evində, davar sənin evində,
Daş vurursan toz qopur, nə var sənin evində? [2, s.123]

Göstərilən nümunədə cümlələr tam paralelizm şəklində irəliləmir, araya daxil olan fərqli quruluşa malik cümlənin ardından yenidən ilkin quruluşa malik cümlə ilə atalar sözünün tamamlanması pilləli paralelizmin bariz nümunələrindəndir.

Atalar sözlərinə dair nümunələrdə qarşılaşdığımız daha bir maraqlı cümlə quruluşu –sa$^2$ şəkilçisi vasitəsilə yaranan şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Bu nümunələrə, əsasən, "Oğuznamə"də tez-tez rast gəlmək mümkündür.

Ayun ağıllansa, ağılun böyüt,
gün ağıllansa, quyun böyüt. [9, s.62]
Bay qaftan geysə, "qutlu olsun", deyərlər,
yoxsul qaftan geysə, "Qanda buldun?" – deyərlər. [9, s.70]
Çirkinə gözəl desən, quyruq bular,
Gözələ çirkin desən, dodaq yalar. [9, s.84]
Opa görsən, qaşan, yağı görsən qusan. [9, s.47]

Tam sintaktik paralelizm əsasında qurulan bu cümlələrdə yenə də semantik baxımdan müqayisə və qarşılaşdırma əlaqələrinin üstünlük təşkil etdiyini görürük. Belə ki, "bay" və "yoxsul", "gözəl" və "çirkin" qarşılaşdırılmaqla atalar sözünün daşıdığı mənanın oxuyucu və ya dinləyiciyə çatdırılması, inandırıcılığının artırılması məqsədi daşıyır.

Keçmə namərd körpüsündən, qoy aparsın su səni.
Yatma tülkü kölgəsində, qoy yesin aslan səni. [2, s.147]
Ağlayanda elə ağla əzizi ölmüş kimi,
Güləndə elə gül əzizi gəlmiş kimi. [2, s.27]

Qeyd olunan nümunələrdə tam sintaktik paralelizmlə yanaşı, inversiya hadisəsini müşahidə edirik. Bildiyimiz kimi, inversiya da mətnyaradıcı faktorlardan olub, mürəkkəb sintaktik bütövlərin yaranmasına xidmət edən vasitələrdən biridir. "Mətndə əlaqə vasitəsi rolunu oynayan inversiya söz sırasının elə dəyişməsini həyata keçirir ki, burada müəyyən ümumi üzv bütün mətnin əvvəlində deyil, mətn komponentlərinin arasında işlənir. Bunda əsas məqsəd də o olur ki, ümumi üzvün orta mövqedə işlənməsi ilə, yəni həm özündən əvvəlki, həm də özündən sonrakı komponentlərə aid olmaları ilə bu komponentlərin bir-birinə daha möhkəm bağlanması əldə edilsin" [1, s.239]. Yuxarıdakı nümunələrdə mikromətni əmələ gətirən komponentlər həm tam sintaktik paralelizm, həm də inversiya ilə bir-birinə bağlanaraq, mətnin, yəni atalar sözünün məzmunun təsir qüvvəsinin artmasına gətirib çıxarmışdır.

**Nəticə**

Bütövlükdə qeyd etmək lazımdır ki, atalar sözləri əks etdirdikləri məna ilə yanaşı, həmçinin cümlə quruluşu etibarilə də olduqca müxtəlif forma zənginliyi ilə seçilir. Azərbaycan folklor nümunələrində fərqli cümlə quruluşları ilə formalaşan atalar sözlərində ifadə etdiyi hikmətamiz fikrin daha yaddaqalan və məzmununun daha təsirli olması baxımından sintaktik paralelizm mühüm rol oynayır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif, 1999, 281 səh.
2. Atalar sözü. Bakı, "Öndər nəşriyyat", 2004, 264 səh.
3. Azərbaycan folkloru antologiyası, V kitab (Qarabağ folkloru), Bakı, "Səda" nəşriyyatı, 2000, 417 səh.
4. Bəylərova A.M. Bədii dildə üslubi fiqurlar. Bakı, «Nurlan», 2008. - 212 səh.
5. Dərbənd folklor örnəkləri, 1-ci kitab, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014, 368 səh.
6. Qərbi Azərbaycan folkloru, II cild. Bakı, "Elm və təhsil", 2023, 414 səh.
7. Musayev M. Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisi. Bakı, «Kitab aləmi», 2010. - 403s.
8. Müzəffəroğlu T. "Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası", Bakı, "Azərnəşr", 2002, 304 səh.
9. Oğuznamə, Bakı, "Şərq-Qərb", 2006, 216 səh.
10. Şərur folklor örnəkləri, II kitab (Havuş kənd sakinindən toplanmış nümunələr). Bakı, "Elm və təhsil", 2023, 304 səh.

**Nərmin Tərlan HƏSƏNOVA**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: Nrmn2294@gmail.com

## İSA MUĞANNANIN "SAZ" POVESTİNİN İDEYA-ESTETİK SƏCİYYƏSİ

**Summary**

One of the leading representatives of the 20th century is Isa Huseynov. Isa Huseynov, who is strongly connected to the national thought, preferred to bring the feelings of national identity to literature in his work. As a talented penman, Isa Huseynov was able to transfer the classical tradition to his works with great artistry. In this sense, the story "Saz" (1971) is of special importance. From beginning to end, the work is based on feelings of national identity and attachment to one's roots. Against the background of the events in the work, Isa Huseynov's familiarity with folklore and folk memory is clearly felt.
**Keywords:** ashig, saz, folklore**.**

**Giriş**

XX əsr Azərbaycan nəsrinə nəzər salsaq ilk növbədə yazılan əsərlərdəki hadisələri əks etdirmə fərqlilikləri ilə qarşılaşar, burada müxtəlif siyasi hakimiyyətlərin mövcud olduğunu və hər bir yaranan yeni rejimin ədəbiyyatımıza təsirsiz ötüşmədiyini aydın görmüş olarıq. "Stalin və Bağırov rejiminin aradan qalxmasıyla əllinci illərin sonları və altmışıncı illərin əvvəllərindən başlayan siyasi mülayimləşmə repressiya və zorakılıq havasını ədəbi-mədəni həyatın üzərindən müəyyən qədər qaldırdığı üçün bədii ədəbiyyatda folklorun yeni nəfəsi duyulmağa başladı. "Kitabi-Dədə Qorqud"un üzərindən siyasi yasağın qaldırılması və möhtəşəm xalq dastanına bəraət verilməsi bu tarixi mərhələdəki ən mühüm hadisələrdən biri idi"[2. s.71]. Əgər əsrin iyirminci-otuzuncu illərində nəsrdə folklor və etnoqrafiya mədəniyyətimizə müraciət sinfi səciyyə daşıyırdısa, artıq 1960-cı ildən, daha dəqiq desək İsmayıl Şıxlının "Dəli Kür" romanından sonra bu münasibət milli dəyər səviyyəsinə qaldırıldı. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev haqqlı olaraq qeyd edir ki, "sinfi və milli dəyərlər belə kəskinliklə ilk dəfə "Dəli Kür"də (İsmayıl Şıxlı) üz-üzə gəldi və milli kolorit, milli etik səciyyə həm formada, həm məzmunda nihilist, beynəlmiləl abstraksiyanı üstələdi" [4, s.499]."Sonrakı onilliklərdə Süleyman Rəhimov, İlyas Əfəndiyev, İsa Hüseynov (Muğanna), Əzizə Cəfərzadə, Fərman Kərimzadə, Yusif Səmədoğlu, Elçin, Mövlud Süleymanlı, Sabir Azəri, İsi Məlikzadə, Əhmədağa Muğanlı, Fərman Eyvazlı və başqa qələm sahibləri folklora yanaşmanı təkcə xəlqi kolorit elementi kimi deyil, soykökə bağlılıq, tarixi yaddaşın bərpası, milli özünüdərk, özünəqayıdış probleminin ifadə vasitəsi olaraq dərin mənəvi-psixoloji qatlara yönəltdilər"[2, s.72]. Artıq ədəbiyyatda "yeni nəsr" yaranmışdır. Sözü gedən

dövrün ən qabaqcıl nümayəndələrindən biri də İsa Hüseynov-Muğanna (1928-2014) idi. Muğanna Azərbaycan nəsrinin elə bir məqamını bəlləyir ki, bu nöqtədə yalnız çat yeri, ayrılma məqamı görünür [7. s.17]. Milli düşüncəyə möhkəm tellərlə bağlanan İsa Hüseynov yaradıcılığında milli mənlik duyğularının ədəbiyyata gətirilməsinə üstünlük vermişdir. İsa Hüseynov istedadlı qələm ustası kimi klassik ənənəni böyük sənətkarlıqla əsərlərinə daşıya bilmişdir. Bu mənada "Saz" povesti (1971) xüsusi əhəmiyyət daşıyır. Əsər başdan sona qədər milli mənlik duyğuları, soykökə bağlılıq üzərində qurulmuşdur. Əsərdəki hadisələr fonunda İsa Hüseynovun folklora, xalq yaddaşına bələdliyi açıq-aydın duyulur.

**Əsas mətn**

Əsərdəki hadisələr dəmirçi İsfəndiyar kişi və onun ailəsinin ətrafında cərəyan edir. Əsərə ilk oxuduğumuzda "Kitabi-Dədə Qorqud" izlərinə rast gəlirik. İlk növbədə "Saz" xalqımızın milli-mənəvi dəyərlərindən biridir və onun mətnə gətirilməsi milli şüur hadisəsi kimi verilmişdir. İkinci növbədə el ağsaqqalı-İsfəndiyar kişi obrazının yaradılması da milli şüurda, mənəvi dəyərlər sistemindəki qoruyuculuğun nümunəsidir. Belə ki, "Azərbaycan xalqının yaddaşında qəhrəmanın, pəhləvan olanın basılmazlığı vardır. "Milli düşüncənin hadisəsi olaraq basılmazlıq duyğusu burada yazıçı tərəfindən məqsədli olaraq mətnə gətirilir. Mövcud sistemin mənlik duyğularının sarsıdılmasına İsfəndiyar kişi etiraz səsini məhz məqsədli şəkildə qaldırır. Ayıb olsun, ayıb olsun mənim oğlanlarıma da, sizə də, ay camaat! Qoca dəmirçinin belə danışması əvvəlcə təəccüb doğursa da, sonra məlum oldu: pəhləvan basılmışdı. Özü də necə Pəhləvan. Bütün ölkədə ad-san qazanmış, bütün xalqın hörmət etdiyi, sevdiyi Rəşid pəhləvan!" [1. s.18]. Mənəvi dəyərlər sistemində, xalq yaddaşındakı mövcu qoruyuculuq sistemi burada İsfəndiyar kişi obrazı ilə oxucuya çatdırılır.

Əsərdə yazıçı qoca dəmirçi haqqında maraqlı məlumat verir: "Rəhmanla Bəhməndən iki şey qalmışdı: biri anbarla idarənin arasındakı meydançada bellərinə "kəmər kimi doladıqları" dəmir, biri də İsfəndiyar kişini nədənsə Rəhmandan fərqləndirib "sonbeşik-yurduma keşik" deyə-deyə əzizlədiyi Bəhmənin xəlvətdə "OdEvƏr, zahirdə Təvər saz adlanan, qucağa sığışmayan, şirmayılı sazı idi ki, əslində, İsfəndiyar kişinin özünündü; hələ əsrin əvvəlində qocalığa görə "Çürük" deyilən Çürük aşıqla, o vaxtkı balabançı, sonrakı aşıq Xıdır Abı, hər ikisinin istəkli şagirdi İsfəndiyar üçün bağlatmışdılar. Amma bədbəxtlikdən Çürüklə Abının bu gündə adını sirr kimi saxladıqları çox məşhur, varlı-hallı bir adam İsfəndiyara zəhər verib səsini batırmışdı, sonra da ölümlə hədələyib, qeyri-adi gur səsi "AlOsmana qalxan" (Türkiyədə dağ adıdır. İfadənin mənası səsi ƏlƏsmənə - Süleyman peyğəmbərə çatan deməkdir. – N.H) sazı əlindən almağa çalışmışdı. Elə o cavan vaxtlarından "ipək kimi yumuşaq" İsfəndiyar yalvarıb-yaxarıb, sazı xilas eyləyib, qalın bezə büküb mal damının harmasında gizlətmişdi ki, vaxtı çatanda Bəhmənə versin" [3. s.17]. Fikrimizcə, yazıçı aşığın səsinin batırılmağı hadisəsini yalnız şəxsi ədavət məsələsi kimi təsvir etmir. El aşığının səsinin batırılması əvvəlki rejimin "sovet ideologiyasının" milli düşüncənin, milli koloritin sındırılmasına xidmət etməsi məsələsinə işarə edir. Doğrudur, bu dövrdə mövcud olan ideoloji sistem şifahi xalq ədəbiyyatını aşağı təbəqənin sinfi mübarizə forması kimi gördüyündən "göstərilən istiqaməti əks etdirən folklor materiallarının toplanılıb nəşr olunmasına, həmin mövzub və motivlər əsasında bədii əsərlər yazılmasına rəğbətlə yanaşırdı. Buna görə də həmin dövrdə şair və yazıçıların kütləvi şəkildə folklor mövzu və obrazlarına müraciət etdiklərini, çeşidli janrlarda çoxsaylı əsərlər qələmə aldıqlarını görmək mümkündür" [6. s.15]. Lakin bu o demək deyil ki, həmin dövrdə şairlər, yazıçılar, ədəbiyyatşünaslar istənilən folklor örnəyi haqqda mövzuları, ideyaları öz əsərlərində əks etdirə bilərdilər. Ozan, aşıq panislamizm, pantürkizm, milliyətçilik kimi qəbul edilən folklor örnəklərindən biri hesab olunurdu. Şair və yazışılar bu obrazlara müraciət etdiyi zaman onları zahirən mövcud sovet ideologiyasına uyğunlaşdırırdılar. Bu mənada İsfəndiyar kişinin səsinin batırılması hadisəsi də həmin sitemin sadə xalq üzərindəki hegemonluğunun faciəvi nəticəsini yada salır.

Daha sonra oğulları əsgər gedən İsfəndiyar kişinin kiçik oğlu Bəhmənin səsini yuxuda - "Günlərin birində idarədən evə dönəndə qulağına təvər sazda "Divanı" gəlsə, bil ki, qayıtmışam baba", "Saz kökdən düşsə bil ki, mənim başımda qaranlıq var, baba" - eşitməsindən sonra otağın yuxarı divarından sazı asaraq "Tilsimləndi bu saz. Bəhmən gələnə qədər köynəkdən çıxmıyacaq" [3. s.19] deməsində də gizli hikmət vardır. İlk növbədə yazıçı sazı yalnız musiqi aləti kimi, İsfəndiyar kişini, Bəhməni, Çürük aşığı, Xızır Abını isə həvəskar aşıq və ya saz çalan obraz kimi təsvir etməmişdir. Saz milli mənəviyyatımızın əsas qaynağı olduğundan hər şeydən üstün tutan yazıçı onu evin yuxarı divarından asır. "Belə ki, qopuz və saza ruhlar dünyası ilə bağlı müqəddəs-sehirli alətlər kimi baxıldığından, islamiyyətin bütün zamanlarında həmin musiqi aləti evin-ocağın yuxarı başında yer almışdır" [5. s.10]. İstər əvvəlki, istərsə də sonrakı onilliklərdə də qələmə alınan bir çox əsərlərdə sazın, qopuzun qoruyucu gücə malik olması xüsusi vurğulanmışdır. Əsərin təkcə bu hissəsi İsa Hüseynovun milli əxlaq dəyərlərinə, tarixi yaddaşa nə qədər önəm verdiyini açıq-aydın göstərməyə kifayət edir.

**Nəticə**

Fikirlərimizin yekunu kimi yorulmaz qələm ustası İsa Hüseynovun – Muğannanın yaradıcılığında "Saz" povesti epos ənənəsindən gələn klassik sənət nümunəsi olaraq özündə milli kimlik, mənlik duyğularını ehtiva edir. Əsərin faciəvi sonluqla bitməsinə baxmayaraq yazıçı milli dəyər, xəlqi kolorit örnəklərini yüksək səviyyədə oxucuların təqdiminə vermişdir. Yaratdığı obrazlarla, folklordan gələn bədiilik faktlarının əsərdə işlədilməsiylə o, milli epik ənənə müstəvisində yeni sənətkarlıq nümayiş etdirdi.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Əhmədova İ. İsa Hüseynovun (Muğannanın) nəsrində milli koloritin inikası problemi. Dissertasiya. Bakı. 2016.
2. İsayev N. XX əsr Azərbaycan hekayəçiliyi və folklor. Bakı: Uğur. 2008, 160 s.
3. Muğanna İ. Seçilmiş əsərləri. 6 cilddə, I cild. Bakı: Avrasiya Pres. 2009, 421 s.
4. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, Sabah,1996, 712s.
5. Qasımlı M. "Ozan-aşıq sənəti və ədəbiyyatı. Bakı, 2023.
6. Vəliyev V. Azərbaycan sovet poemalarında əfsanəmövzusu. Bakı: ADPU nəşri, 1969, 157 s.
7. Yusifli C. Qeyri-müəyyənliyi ifadə edən yazıçı. Kaspi. 2017. 11-13 fevral. S.17



**Тюркан Сурхай ИБАДОВА**
Бакинский славянский университет
E-mail: turkangulamli27@gmail.com


## ГЕНДЕРНЫЕ КОННОТАЦИИ В ПАРЕМИОЛОГИИ РУССКОГО ЯЗЫКА


**Summary**

Proverbs and sayings are an excellent example of cultural stereotypes in which people's experience and self-awareness are recorded. When considering Russian paremiology in the gender aspect, it is impossible not to notice an important component: along with the existence of androcentricity, that is, such a picture of the world that implies the paramount importance of the masculine principle, there is also a feminine worldview in Russian proverbs and sayings.



**Key words:** paroemias, proverbs and sayings, phraseological units, culture


Введени

Как известно, пословицы и поговороки (паремии) изучает лингвистическая наука паремиология (от греч. *paroimia* –пословица) [2]. Г.Л.Пермяков называет паремию народным изречением, выраженным предложением (например, пословицы, поговорки, приметы) [6].

В узком значении паремиями считаются только пословицы и поговорки, которые выполняют функцию нравоучения и претендуют на статус представителей народной мудрости [1].

В паремиологии изучают также влияние гендера на лингвистику, на языковую систему языка через пословицы и поговорки, а также фразеологизмы.

Пословицы и поговорки, включающие гендерный аспект, охватывают нужный и важный пласт паремиологического фонда любого языка мира,может и в незначительной степени. Данный фонд считается актуальным предметом изучения в лингвистике и лингвокультуре. Пословицы и поговорки изучают человека как центр познания, что является значительным пластом в современной лингвистике. Лингвисты, изучая различные языковые явления, опираются на принцип антропоцентризма (человека как центра познания). Как отмечает А.Г.Фомин: «психолингвистическая категория представляет собой многокомпонентную структуру, модель социальных отношений, созданную основными институтами общества и построенную самими индивидами в соответствии с их гендерной идентификацией, которая находится в языке и речи» [7, с.84].

А.М. Червонный в своем исследовании определяет разные семантические отношения, на основе которых лежит внутренняя форма фразеологизмов, среди которых выделяется «половая принадлежность – уровень интеллекта» [9, с.197].

В анализах и исследованиях пословиц с гендерными стереотипами лингвистами прослеживается , что они содержат общие образы мужчин и женщин. Паремии с компонентом "мужчина", в основном, не содержат конкретного указания на пол личности и относятся к человеку в общем. Положительными мужскими чертами в паремиологии русского языка в основном является храбрость, честность, добропорядочность, надежность, а отрицательными свойствами называют, в основном, именно общечеловеческие негативные качества, а не только мужские.

Пословицы и поговорки являются хорошим примером культурных стереотипов, в которых фиксируется народный опыт и самосознание. В русской паремиологии в гендерном аспекте невозможно не заметить важную составляющую: наряду с существованием андроцентричности, то есть такой картины мира, которая предполагает значение мужского начала, в русских пословицах и поговорках присутствует и женское мировоззрение. Следовательно, можно отметить, что русская паремиология женщину, несмотря на огромное количество угнетающих и порабощающих факторов, рассматривает право голоса, свободу[13, с.2].

Исходя из различных лингвистических исследований, в количественном соотношении в русской паремиологии фиксируется мужское торжество. Эта картина очевидна в пословицах и поговорках, в которых заметна мужская власть. *Мужская картина мира* наполнена властью над женщиной*(«жена не стекло – можно побить»),есть* осознание важности своей личности, *(«муж пашет, а жена пляшет»)*, а также женщину представляют как получеловека *(«курица не птица, баба не человек»).*

Явными примерами, показывающими вмешательства мужчин в мир женщин являются «псевдоженские» поговорки, которые являются имитацией женской речи, а на самом деле отражают гендерные стереотипы: *«продай, муж, лошадь да корову, но купи жене обнову».*

Поговорки, содержащие отрицательные качества женщин, известны нам с детства:

*«волос длинный, а ум короткий», «бабий язык — помело», «злая жена сведет с ума»* и так далее.

Исследования выявляют, что положительные качества женщин связаны в русском лингвокультурологическом сознании только с культурным концептом *«женщина — мать»* [9, с.12].Пословицы и поговорки, ассоциирующие мать, в основном, содержат тематикутяжелого труда, теплой заботы:

*«нет лучшего друга, чем родная матушка», «от солнышка тепло, от матушки добро».*

Следовательно, несмотря на доминирование мужчины в общей картине паремиологии мира, в русской культуре прослеживается женское влияние, а гендерные роли, отведенные женщине, не всегда обладают негативными чертами.

## СПИСОК ЛИТЕРАТУРЫ:

1. Алефиренко Н.Ф. Фразеология в свете современных лингвистических парадигм: монография. М.: Изд-во «Элпис», 2008. 271 с.

2. Артемова А.В. Эмотивно-оценочная объективация концепта «женщина» в семантике фразеологических единиц (на материале английской и русской фразеологии): дисс. … канд. филол. наук. Пятигорск, 2000. 177 с.

3. Брандт Г.А. Природа женщин как проблема: Концепция феминизма // Общественные науки и современность. 1998. № 2. С. 167-189.

4. Даль В.И. Пословицы русского народа [Электронный ресурс]. URL: http://dic.academic.ru/contents.nsf/dahl_proverbs (дата обращения 8.04.2014).

5. Душенко К.В. Большая книга афоризмов. М: ЗАО Издательство ЭКСМО-Пресс. 2001. 1056с.

6. Кирилина А.В. Гендерные стереотипы по данным языка // Гендер: лингвистические аспекты. М.: Институт социологии РАН. 1999. 180 с. С. 105- 162.

**Könül Zaur ŞIXƏLİYEVA**
ADPU
E-mail: konul.eliyeva.17@mail.ru

# UŞAQLARIN NİTQİNİN İNKİŞAFINDA MÜƏLLİM, TƏRBİYƏÇİ VƏ VALİDEYNLƏRİN ROLU

**Summary**

The fact that a person has speech culture is the main proof of his cultural maturity. For this reason, starting speech development from an early age is one of the main goals set by both the education system and every family today. In modern times, the development of science and technology and the demands of the changing world make speech development necessary. The basis of this process is laid in the family, and preschools, schools, higher education institutions, every conference, event, meeting, competition - in other words, every field we participate in requires us to have a perfect speech.

**Key words:** Speech, thinking, child.

## Giriş

Nitqin insan həyatındakı rolu çox kiçik yaşlarından başlayır. 6-7 aylıq bir uşaq yaşlılarla emosional ünsiyyətdə olur və bu proses davam edərək sonrakı dövrlərdə də onun ətraf aləmlə münasibətində xüsusi rol oynayır. Müasir dövrün tələbi olan mükəmməl nitq üçün onun düzgünlüyü, dəqiqliyi, təmizliyi, aydınlığı, məntiqi ardıcıllığı, gözəlliyi, zənginliyi, sadəliyi, yığcamlığı, ifadəliliyi kimi normalara əməl olunmalıdır. Əlbəttə, burada ən mühüm məqam nitqin bu tələblərini erkən yaşlardan uşaqlara aşılamaqdır. Ümumiyyətlə, nitqin inkişafı dedikdə, anadan olandan uşağın müxtəlif səsləri tələffüz etməsi, nisbətən sonra yaşlıların nitqini qavraması, öz fikirlərini ifadə etməyə başlaması, qırıq-qırıq sözlərdən istifadə etməsi, hətta 2 yaşlı uşaqların artıq sadə cümlələr qurması, məktəbəqədər yaş dövründə ətraf aləmlə, yoldaşları ilə münasibəti nəzərdə tutulur.

Uşaq inkişaf etdikcə onun sinir sistemi də inkişaf edir, təfəkkürü formalaşır, nitqi daha aydın və səlis olur. Nisbətən böyük yaşlı uşaqlar ana dilinin zəngin lüğət tərkibindən istifadə etməklə yanaşı, eyni zamanda dilin qrammatik normalarına əsaslanan bir nitqə malik olurlar. Uşaqlarda yaradıcı təxəyyül inkişaf edir, onlar öyrənməyə, axtarışlar etməyə cəhd edirlər. Bu yaşda uşaqların çoxlu suallar verməsi

də bununla əlaqəlidir. Sözsüz ki, uşaq nitqinin kortəbii inkişafına ümid bəsləmək olmaz. Hər bir uşağın nitqinin ədəbi dilin normalarına uyğun inkişafını təmin etmək lazımdır ki, onların düzgün tələffüz qaydalarına əsaslanan ünsiyyət prosesi inkişaf etsin. Düzgün nitq inkişafı şəxsiyyətin formalaşmasının da əsas amilidir. Bu prosesdə müəllim və tərbiyəçilərin üzərinə olduqca böyük məsuliyyət düşür. Onlar uşaq şəxsiyyətinin, əsasən də, onların nitqinin inkişafına istiqamətlənən tədbirlər həyata keçirməlidirlər.

Şagird şəxsiyyətinin inkişafı üçün nitq bacarıqlarının, kommunikativ bacarıqların, sosial mühitdə ünsiyyətin rolu olduqca böyükdür. Nitq bacarıqlarına nail olmaq şagirdin sosial davranışını daha da yaxşılaşdırır. Nitqin inkişafı ilə yanaşı, şagirddə dinləmə və şagird sözləri düzgün tələffüz etməklə üzdənoxuma vərdişlərini inkişaf etdirir, söz ehtiyatı sinifdən-sinfə keçdikcə zənginləşir, öz fikirlərini dəqiq, ardıcıl, rabitəli, səlis şəkildə ifadə etməyi bacarır**.** Nitqimiz kiçik yaşlardan formalaşmağa başlayır və məktəb dövründə daha da inkişaf edir. Şagirdlər hələ məktəbə gəlməmişdən müəyyən nitq vərdişlərinə yiyələnmiş olurlar. Onlar bu vərdişlərə valideynlərinin və ətraf mühitdəkilərin nitqini yamsılamaq və təkrarlamaqla yiyələnirlər. Təhsil müəssisələrində nitqin inkişafı üçün xüsusi olaraq oxu dərsləri tədris olunur. Oxu dərsləri şagirdlərin nitqini inkişaf etdirir, onların söz ehtiyatlarını zənginləşdirir və fikrə münasibət bildirmək qabiliyyətini formalaşdırır. Bu dərs vasitəsilə şagirdlər ilk öncə hərflərdən hecalar, hecalardan sözlər tərtib edərək ilkin oxu vərdişlərini formalaşdırırlar. Ibtidai siniflərdə oxu dərsləri onların yaş xüsusiyyəti nəzərə alınaraq kiçik həcmli nağıllar, sadə süjetli bədii əsərlərdən ibarət olur. Ibtidai siniflərdə oxu dərslərinin təşkil olunması ilə təkcə şagirdlərin nitqi inkişaf etmir, həm də mətn əsasında təsvirlər və suallar verilərək onlarda məntiqi təfəkkürü və hadislərə münasibət bildirmək bacarığını inkişaf etdirirlər. Məktəbyaşlı uşaqların fəaliyyəti və nitqi üzərində aparılan müşahidələr göstərmişdir ki, öz başına buraxılmış uşağın inkişafı ilə məktəbəqədər müəssisələrdə tərbiyə alan uşağın inkişafında fərq var. Buna baxmayaraq, məktəbəqədər müəssisələrdə və sonrakı pillələrdə uşaqlar nitq bacarıqlarına yiyələnsələrdə, onların tam nitq mədəniyyətinə yiyələndiyini deyə bilmərik. Nitq mədəniyyəti nitqin düzgünlüyünü, təmizliyini, ədəbi dilin normalarına uyğun tələffüzünü, sözlərin dəqiq və yerində işlədilməsini tələb edir. Bu baxımdan ibtidai sinif müəllimləri şagirdlərin nitqi üzərində aparılan müşahidələrə əsasən onların düzgün nitq mədəniyyətinə yiyələnməsinə çalışmalıdırlar.

**Əsas mətn**

Məktəblilərin şifahi nitqinin inkişafı problemi getdikcə daha çox ictimai əhəmiyyət qazanır, çünki nitq insanın mənəvi mədəniyyətinin inandırıcı göstəricisidir. Ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması, mədəniyyət və təhsilin humanistləşdirilməsi proseslərinin dərinləşməsi, mənəviyyatın dirçəlişi, Azərbaycan mədəniyyətinin mənşəyinə və ənənələrinə qayıtmaq, doğmatik və birtərəfli qiymətləndirmələrdən qurtulma sənət fenomenləri insanlar arasındakı ünsiyyət tərzini dəyişdirir, mövzunu genişləndirmək, şifahi nitq zənginliyindən daha mükəmməl istifadə, həmsöhbət şəxsiyyətinə diqqət yönəldir. Məktəb həm də şagirdin şəxsiyyətinə, onun mənəvi inkişafına, mədəniyyətinə, düşüncə tərzi və danışıq tərzinə, yaratma qabiliyyətinə diqqəti artırır. Cəmiyyət bu sözü bilən, inanclarını, baxışlarını müdafiə edən, müzakirə etməyi bacaran, insanlararası ünsiyyət prosesində yaradıcılıqla məşğul olan insanlara ehtiyac duyur.

Ümumiyyətlə, məktəblilər üçün yazılı nitq şifahi nitqə nisbətən çətin və uzun sürən prosesdir. Şagirdlər Azərbaycan dili dərslərində orfoqrafiya, durğu işarələri və qrammatik qaydaları öyrənməklə sözü, ifadəni məqamında işlətmək, cümlə qurmaq və üslubiyyat üzrə bacarıqlara yiyələnirlər. Bunula belə, yazılı nitq mədəniyyəti məktəblilərdən həm də həyati müşahidə, dərin bilik, güclü mütaliə vərdişləri tələb edir. Məktəblilərin yazılı nitqinin inkişaf etdirilməsi üzrə işlər rəngarəngdir. Bu rəngarənglik aşağıda verilən amillərdən asılıdır:

1) Şagirdlərin yaş xüsusiyyətlərindən;

2) Onların ədəbi və nitq inkişaflarının səviyyəsindən;

3)Məktəblilərlə nitq sahəsində aparılan işin bazası əsasında bədii əsərlərin növü və janrından və s. müəllim tərəfindən qavrama və ünsiyyətlə bağlı məsələlərin qoyuluşundan.

Şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsinin ən əsas yollarından biri inşa yazılardır. "İnşa" sözü qurmaq, yaratmaq mənasında işlənir. Bu yazı növündə məktəblilərin təfəkkürü, nitq bacarıqları, ədəbi inkişaf səviyyəsi daha qabarıq şəkildə meydana çıxır. Şagird inşa yazı növündə ədəbi əsər, mövzu, problem barədə təəssüratından, düşüncələrindən, şəxsi həyat təcrübəsindən, müşahidələrindən söz açır. [1]

Müəllim yalnız 45 dəqiqəlik dərs müddətində deyil, dərsdənkənar məşğələlərdə də şagirdlərin nitqinin inkişafına çalışmalıdır. Bunun üçün ekskursiyalar təşkil edilməli, sinifdənxaric ədəbiyyat nümunələri oxudulmalıdır. Bu gün tədris ocağı adlandırdığımız məktəblərdə müəllim şagirdlərə elə sərbəstlik verməlidir ki, onlar gələcəkdə öz fikirlərini ifadə etməkdə çətinlik çəkməsinlər. Artıq neçə ildir ki, kurikulum sisteminə keçməklə yeni təlim texnologiyalarından istifadə olunur. Təlim texnologiyaları kurikulumun əsas istiqaməti olan şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında mühüm strateji bir xəttdir. Müəllim təlim texnologiyalarından istifadə edərkən onların dərsə uuğunluq dərəcəsini də yoxlamalıdır. Hazırda "Beyin həmləsi", "Söz assosiasiyaları", "Auksion" və s. kimi oyun növləri dərslərdə şagirdlərin nitqinin formalaşmasında kömək edir. Bildiyimiz kimi pedaqoji ünsiyyət məktəbdə müəllimlərin şagirdlərə keçib öyrətdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət şagirdlərdə hərtərəfli inkişaf etdirilməlidir. Pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərindən çox asılıdır. Motiv düzgün olarsa, o pedaqoji ünsiyyətin də gedişini şərtləndirə bilər. Hər bir konkret şəxsiyyət kimi müəllimin də ünsiyyətinin təşkili, priyom və metodları özünü cəmləşdirir. Müəllim də dərslərində bu üsul və priyomlardan yerində istifadə etməlidir.

**Nəticə**

Nitqin inkişafına nail olmaq üçün oxu təlimini müəllim yalnız Azərbaycan dili dərslərində deyil, digər fənlərin tədrisində, ev tapşırıqlarında da ona xüsusi əhəmiyyət verməlidir. Sinifdənxaric oxu üzrə verilən materiallar oxu təliminin əsasını təşkil edir. Şagirdlərin məktəbdə oxu dərsləri vasitəsi ilə əldə etdikləri məlumatlar sinifdənxaric oxunun köməyi ilə daha da dolğunlaşır, tamamlanır. Oxu dərsləri şagirdlərin nitqini inkişaf etdirməklə yanaşı, onlarda oxuya, mütaliəyə meyli gücləndirir. Oxu dərslərinin nəticəsi olaraq şagird öz fikrini sadə şəkildə ifadə edə bilmək, oxuduğu materialı mənimsəyərək nəql edə bilmək və mətni real hadisələrlə əlaqələndirə bilmək bacarığını formalaşdırır. Oxu təlimi yalnız şagirdin nitqini inkişaf etdirmir üçün deyil, həmçinin onların təfəkkürünün inkişafı üçün də zəruridir.

Azərbaycan dili və ədəbiyyat müəllimləri dərs zamanı şagirdləri müzakirədə fəal iştirak etməyə, problemlə bağlı mühakimə yürütməyə, nümunələr gətirməklə hökmlərini əsaslandırmağa, bu və ya digər fikri müdafiə etməyə, müxalif fikrə təmkinli münasibət bildirməyə sövq edən emosional, təbii, sərbəst nitq mühiti yaratmağa çalışmalıdırlar. Şifahi nitqlə bağlı əsas məsələlərdən biri də şagirdlərə düzgün tələffüz bacarıqlarının aşılanmasıdır. Bunun üçün məktəbdə vahid nitq rejiminə riayət edilməli, bütün dərslərdə nitqin düzgünlüyü, dəqiqliyi, ifadəliliyi tələbləri, fonetik, leksik, qrammatik normalar gözlənilməlidir. [2]

Nəticə olaraq, şifahi və yazılı nitqə yiyələnmiş hər bir məktəbli öz fikirlərini aydın, məntiqi ardıcıllıqla çatdıra bilir, nitqində yerinə düşən sözlərdən istifadə edir, bu sözləri əlaqələndirir,müxtəlif məlumatlara münasibət bildirir və nəticə çıxarır. Şagirdlər Azərbaycan dili dərslərində mətnlərin, ədəbiyyat dərslərində ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı əsaslandırılmış rəy söyləyir, nitqdə obrazlı ifadələrdən bəhrələnir, müxtəlif mövzulara aid müzakirələrdə təqdimatlarla çıxış edir, ədəbi nailiyyətlərə münasibət bildirə bilirlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əhmədov B.A. Dərsliklərimizin dili haqqında // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2003, №2, s.18-21
2. Kərimov Y. Azərbaycan dilinin tədrisi problemləri, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" məcmuəsi, 1999, №3

**Kübra Sabir VƏLİYEVA**
AMEA Naxçıvan Bölməsi
E-mail: kubra.valiyeva@yahoo.com

# "ŞƏRHU RADİ ALƏL-KAFİYƏ Fİ İLMİN-NƏHV VAL- İRAB" ƏSƏRİNDƏ "HAL ZƏRFLİYİ" MÖVZUSU

**Summary**
In the article, the views of Ibn al-Hajib and Radiyuddin al-Astarabadi in "Sharhu Radi alal-Kafiyah fi ilmin-nahv wal-irab" about "the adverb of manner" were studied in a comparative form. The work of the prominent linguist Radiyyuddin Al-Astarabadi "Sharhu Radi alal-Kafiyah fi ilmin-nahv wal-irab" is of particular importance in Arabic linguistics as a work dedicated to nahv science.An in-depth research of the work" Sharhu Radi alal-Kafiyah fi ilmin-nahv wal-irab " is one of the important issues for Azerbaijani Arabic Studies.
**Key words:** comment, Arabic, Razi Astarabadi, the adverb of manner.

**Giriş**

"Şərhul-kafiyə" əsərinin əlyazma və çap nüsxəsi İstanbul, Berlin, Qahirə, Tehran və s. dünya kitabxanaları ilə yanaşı Azərbaycan MEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda D-44/264 şifrəsi altında qorunub saxlanılan dəyərli əsərlərdən biridir. Əsərin müəllifi "Nəcmul-əimmə" ("imamların ulduzu") ləqəbi ilə tanınan Şeyx Radiyyuddin Məhəmməd bin əl-Həsən əl-Astarabadidir. O, ərəb dili qrammatikasının sərf, nəhv və bəlağət elmlərinə dair məşhur əsərlərin müəllifidir.

"Sözlər sonlarının dəyişməsinə, fleksiya əlamətləri qəbul etməsinə görə 4 qrupa bölünür: 1) mərfuat (adlıq halda olanlar); 2) mənsubat (təsirlik halda olanlar, idarə edilənlər); 3) məcruat (yiyəlik halda olanlar); 4) məczum (qısa şəkildə olan - muzare) " [3].

Bəsrə qrammatika məktəbinin nəzəri-metodoloji əsaslarını şərh edən professor Vasim Məmmədəliyev mənsubatın da öz növbəsində 8 söz qrupuna bölündüyünü qeyd edir: "məful (məfulun, məfulun bihi, məfulun məahu, məfulun fihi), hal, təmyiz, istisna, "innə" tipli sözlərin isimləri, "leysə" mənasında işlədilən "ma" və "la", "latə" və "in"in xəbəri, "lən", "ən" tipli sözlərdən sonra arzu şəklində işlədilən muzare"" [3].

Məhəmməd Mühyiddin Əbdülhəmid mənsubatı 15 başlıq altında izah edir:

المنصوبات خمسة عشر، هي: 1– المفعول به، و2– المصدرُ، و3 – ظرف الزمان و ظرف المكان، و4–الحال، و5– التمييز، و6– المستثنى، و7– اسم "لا"، و8– المنادَى، و9– المفعول من أجله، و10– المفعول معه، و11–خبر ("كان" وأخواتها)، و إسم ("إنَّ" و أخواتها)، والتابع للمنصوب، و هي أربعة أشياء: 12–النَّعْتُ، و13–العَطفُ، و14–التوكيدُ، و15–البَدلُ "Mənsubatın sayı on beşdir və onlar aşağıdakılardan ibarətdir: 1–vasitəsiz tamamlıq; 2–məsdər; 3–yer və zaman zərfi; 4–tərzi-hərəkət və hal-vəziyyət zərfliyi; 5–təmyiz; 6–istisna; 7–"la" ədatının ismi; 8–xitab; 9–kauzativ tamamlıq; 10–birgəlik tamamlığı; 11– ("kənə" və bənzərlərinin) xəbəri, ("innə" və bənzərlərinin) ismi; dörd predmeti əhatə edən təsirlik hal əlavələri; 12–atributiv əlavə; 13–birləşdirici əlavə; 14–təkid; 15–əvəzedici əlavə" [1].

Mənsubat (təsirlik halda olanlar, idarə edilənlər), həmçinin "hal zərfliyi" mövzusu İbn əl-Hacib və Radiyyuddin əl-Astarabadinin əsərlərində geniş anlamda şərh olunmaqdadır. Radiyyuddin əl-Astarabadi "Şərhul-Kafiyə" əsərində nəhv mövzularını təhlil edərkən ilk öncə İbn əl-Hacibin yazdığı qrammatik qaydaları xatırlatmış və sonra isə öz fikirlərini qeyd edərək mövzunu şərh etmişdir. Əsərdə yeni qrammatik mövzu izah edilməzdən əvvəl səhifənin əvvəlində onun adı verilmişdir.

**Əsas mətn**

"Şərhul-kafiyə" əsərində "hal zərfliyi" mövzusu (مبحث الحال):

قوله: الحال ما يبيّن هيئة الفاعل أو المفعول به لفظا أو معنًى، نحو، ضربت زيدًا قائما، و زيد في الدار قائما، و هذا زيدٌ قائما.

İbn əl-Hacibin sözü: "Hal, ləfzən (aşkar ifadə edilən) və ya mənən (nəzərdə tutulan məna) failin və ya məfulun bihinin vəziyyətini izah edən isimə deyilir" [2]. Məsələn, ضربت زيدًا قائما – Zeydi ayaq üstə

döydüm, زيد في الدار قائما – Zeyd ayaq üstü vəziyyətdə evdədir, هذا زيدٌ قائما – bu ayaq üstdə duran Zeyddir kimi.

"Ərəb dilində tamamlığın əsas əlaməti təsirlik hal olduğu üçün cümlənin təsirlik halda olan başqa ikinci dərəcəli üzvləri, o cümlədən hal, təmyiz və istisna da formal cəhətdən tamamlığa oxşar sözlər adlandırılır" [3].

Əl-Astarabadi bu tərifi öz fikirləri ilə zənginləşdirərək halın fail və məfulnan birgə işləndiyini fərqli misallarla vurğulayır: failnən işlənərkən كجاء زيد راكبا –"Zeyd minərək qayıdır", məfulnan işlənərkən isə ضربت زيدًا مجردًا عن ثيابه – "Zeydi sadəcə köynəyindən vurdum" kimi.

Zərf mənalı sözlərə ərəb qrammatikləri həmçinin "hal zərfliyini" də (ألْحَالُ) aid edirlər. Bu sözlər qeyri-müəyyənlik şəraitində olub təsirlik hal (adverbial) vasitəsilə idarə olunur. "Hal zərfliyi müəyyənlik şəraitində olan subyekt və ya hərəkətin obyektindən sonra gələrək onlarla cins və kəmiyyətə uzlaşır və onların halını (vəziyyətini) hadisənin baş verdiyi zamana uyğun xarakterizə edir" [4]. Hal zərfliyini ifadə etmək üçün ismi-fail, ismi-məful və yalançı feili sifətlərdən (öz leksik mənalarına görə ismi-faillərə yaxın olub feildən düzələn sifətlər) istifadə edilir. Məsələn, خَرَجَ من الغرفة غاضِبًا – otaqdan qəzəblə çıxdı.

"Nəhvçilərin əksəriyyəti halın muştaq (törənmiş) olması vacibliyini müdafiə etmişlər. Hətta camid (törənməmiş) bir ismin hal olması vəziyyətində belə bunu muştaq bir kəlməyə təfsir etmək üçün səy göstərmişlər" [5]. Səbəbləri isə halın məna etibarilə sifət olması, sifətin də ya muştaq və ya muştaq mənasında bir kəlmə olması vacibliyindən irəli gəlməkdədir. Buna görə bu qaydanı müdafiə edən alimlərə görə يَا قَوْمِ هَذِهِ نَاقَةُ اللهِ لكم آيَةً – "Ey qövmüm! Allahın bu dişi dəvəsi sizin üçün bir möcüzədir." ayəsində adı çəkilən آيَةً kəlməsi دَالَّةً şəklində təfsir olunmalıdır.

İbn əl-Hacib belə bir göstərişə gərək olmadığını göstərərək haldan məqsədin halın izah olunması olduğunu söyləmişdir. Buna görə də bu faydanı təmin edən hər kəlmənin hal olabiləcəyini müdafiə etmişdir.

"Əl-Astarabadi muştaq halın daha geniş yayılmış bir istifadəyə sahib olduğunu ifadə etməklə bərabər İbn əl-Hacibin görüşünün də doğru olduğunu söyləmişdir" [5].

Əl-Astarabadi ما ədatı ilə inkarlıq olaraq gələn mazi formasındakı hal cümləsinə قَدْ ədatının əlavə olunacağına zəif də olsa icazə vermişdir. جَائَنِي زَيْدٌ وَ مَا قَدْ خَرَجَ أَبُوهُ – "Atası hələ getməmiş Zeyd yanıma gəldi" cümləsində olduğu kimi.

Əl-Astarabadi bu yanaşmanı iki aspektdən tənqid etmişdir: 1) Bu mövzuda nə səmaidə (eşidilməklə bilinən, müəyyən bir qaydaya tabe olmayan, qaydasız), nə də qiyasidə (müəyyən bir qaydaya tabe olan, qaydalı) hər hansı bir nümunə mövcud deyil. 2) قد ədatı bir şeyin baş verdiyinə əmin olmaq üçün istifadə olunur. Halbuki ما inkar etmək üçündür.

"İbn Malik muştaq (törənmiş) olmayan qiyasi halları təhlil edərkən "kamillikləri nəzərdə tutulan isimdən sonra gələn məsdər"i də sadalamışdır" [5]. Bu mövzuya أنتَ الرَّجُلُ عِلْمًا cümləsini nümunə verən İbn Malik bunu أنتَ الكاملُ فِي الرُّجُولِيَّةِ عَالِمًا şəklində təfsir etmişdir. Buna qarşı əl-Astarabadi, sözügedən məsdərin məna baxımından fail olduğuna işarə edərək onun hal deyil, təmyiz olduğunu iddia etmişdir. Qeyd olunan أنتَ الكاملُ عَالِمًا cümləsinin əl-Astarabadiyə görə mənası أنتَ الكاملُ عِلْمُهُ şəklindədir. Əl-Astarabadi fikirini gücləndirmək məqsədi ilə əlavə olaraq هو سِيبَوَيْهِ نَحْوَا، هو قَارُونُ كَنْزًا kimi misallar da vermişdir.

**Nəticə**

Məşhur qrammatik alim Radiyyuddin əl-Astarabadi "Şərhu Radi aləl-Kafiyə fi ilmin-nəhv val-irab" ("Razinin "kafiyə"yə sintaktik baxımdan şərhi") adlı əsərində yuxarıda qeyd olunan "hal zərfliyi" ilə bağlı nəhv mövzusunu geniş və əhatəli formada izah etmişdir. Əl-Astarabadi bu mövzunu şərh etməzdən əvvəl "əl-Kafiyə"də deyilən qaydaları əvvəlcə zikr etmiş, sonra isə İbn əl-Hacibin söylədiyi cümlələrin hər kəlməsinin izahını vermişdir. O, şərh əsasında İbn əl-Hacibin söylədiyi qrammatik qaydaların bəzisini qəbul etmiş, bəzilərini isə rədd etmişdir.

Əl-Astarabadi "Şərhul-kafiyə"nin mənsubat bəhsində də İbn əl-Haciblə yanaşı bir neçə qrammatikin adını çəkərək onların da fikirlərini zikr etmişdir. Onların adını qeyd edərkən çox az miqdarda qaynaq

göstərmişdir. O, İbn əl-Hacibin və həmçinin özünün də söylədiyi tərifləri zikr etdikdən sonra, səbəblərini də aşkar formada izah etmişdir. Eyni zamanda hər hansı bir mövzuda kifayət qədər biliyə malik deyilsə, onu da açıq şəkildə bildirmişdir.

Dövrünün tanınmış dilçisi Radiyyuddin əl-Astarabadinin "Şərhu Radi aləl-Kafiyə fi ilmin-nəhv val-irab" əsəri ərəb dilçiliyində sintaksis bəhsinə dair yeni və orjinal mülahizələrdir. Bu mülahizələr sonrakı tədqiqatlar üçün möhkəm elmi zəmindir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov. İ.Ə. Ərəb dilində sintaktik kateqoriyalar və bəlağət, Bakı, Bakı Çap Evi, 2011, 440 səh.
2. Əl-Astarabadi R. Şərhu Radi aləl-Kafiyə fi ilmin-nəhv val-irab, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu (Şifr: D-44/264), 1268 h.q, 94 səh.
3. Məmmədəliyev. V.M. Ərəb dilçiliyi, ali məktəb dərsliyi, Bakı, Maarif, 1985, 288 səh.
4. Məmmədova K.Ə., Əkbərova T.Ə. Ərəb dili, Bakı, Nurlar, 2018, 392 səh.
5. Yazquliyev A. Esterabadi ve Şerhul-kafiyesi işığında nahiv ilmindeki yeri, Bursa, 2005, 160s.

**Jalə Aydın ORUCOVA**
Qərb Kaspi Universiteti, magistrant, Bakı, Azərbaycan
E-mail: jorucova35@gmail.com

# BAYRAM VƏ RƏSMİ GÜNLƏRDƏ XALÇALARDAN İSTİFADƏ

**Summary**

Studying our colorful, diverse and high-quality carpets, distinguished by their material and spiritual values in the world culture, which are woven by Azerbaijani women from ancient times to this day due to their knowledge, experience and practical habits, is one of the important issues facing the science of Azerbaijani Ethnography today. Multi-purpose carpets are also examples that are needed as decorations and gifts on festive and formal occasions.

**Key words;** Carpet, holiday, gift and hospitality etc

## Giriş

Ulu öndərimiz, ümummilli lider Heydər Əliyev cənabları öz çıxış və nitqlərində daim milli-mənəvi dəyərlərimizə yüksək vətəndaşlıq mövqeyindən yanaşmış, onların həqiqi elmi qiymətini vermişdir: "Milli ideologiyamızın əsas hissəsi bizim milli mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz" [1, s. 7].

## Əsas mətn

Azərbaycan xalqının milli bayramları içərisində qədim və rəngarəng adətləri ilə fərqlənən Novruz bayramı hər il möhtəşəm şəkildə keçirilir. Müasir dövrdə bəzi adətlər icra edilməsədə bir çoxu sevilərək hələ də icra olunur.

Novruz bayramında qadınlar birinci təmizlik işi ilə məşğul olur. İlk olaraq evlərin, həyət-bacanın dərindən və hərtərəfli təmizləyirlər. Evin aynaları silinir və xalçalar dərindən təmizlənir. Hava şəraitində irəli gələrək xalçaların təmizlənməsi müxtəlif cür olur. Qarlı havada xalçalar qarla təmizlənir. Hətta nənələrimizin dediklərinə əsasən qarla xalçanı təmizləmək daha asandır və xalçanın rənginə və materialına ziyan vurmur. Xalçalar həm də ipdən asılaraq xalçaçırpan alətlə çırparaq təmizlənir. Ana-nənələrimizin göz nuru hesabına ərsəyə gələn milli xalça və xalça məmulatlarının qorumaq üçün təmiz həm də saxlanılması üçün diqqət yetirmək lazımdır. Bu barədə qeyd edə bilərik ki, xalçalar quru hava

şəraitində saxlanmalıdır. Xalçaşünaslar qeyd edirlər ki, xalçaları rütubətli otaqda saxlamaq qətiyyən olmaz. Çünki rütubət xalçaların ömrünü qısaldır.

Xalçalar təmizləndikdən sonra evləri bəzəməyə başlayırlar. Əvvəllər evlərimizdə yer süfrəsi salındığına görə xalçaların təmizliyinə xüsusi diqqət yetirirdilər. Hal hazırda xalçaların təmizlənməsi müxtəlif yuyucu maddələrlə təmizlənir. Bundan başqa Novruz bayramında hazırlanan bayram xonçasına müxtəlif toxuma məmulatı salınaraq üzərinə Səməni, milli şirniyyatlar və noğullar qoyulur.

Azərbaycan xalqı qonaqpərvər xalqdır. Qonaqlıq azərbaycanlı üçün ayrıca həyata keçirilən mərasimdir. Qonaqlığın keçirilməsinin müxtəlif məqsədləri olur. 1684-cü ildə Azərbaycanda olmuş alman alimi Kempferin Binə kəndinin camaatı tərəfindən necə qarşılandığı barədə verdiyi məlumat maraq doğurur: “Axşam düşəndə biz Binə camaatının qonaqpərvərliyinin şahidi olduq. Onlar bizi karvansarayda gecələməyə qoymadılar. Kənddə əhali bizi çox mehribanlıqla qarşılayıb xalçalarla bəzədilmiş mənzilə apardılar. Biz içəri girən kimi kənd əhalisi salamlaşmaq üçün axışıb gəldilər. Gələnlər özləri ilə üzüm, alma, nar və başqa yeməli şeylər gətirirdilər. Gecədən xeyli keçənə qədər əhali bizimlə söhbət etdi, musiqi çaldılar, xorla mahnılar oxudular, kollektiv rəqs etdilər və s” [2, s.273].

Azərbaycan SSR zamanında da ad günü mərasimlərində rəhbər şəxslərə Azərbaycan xalçalarını hədiyyə vermək dəb idi. Stalinin 70 illik yubileyi ilə əlaqədar o vaxt ki, Azərbaycanın siyasi rəhbərliyi möhtəşəm Azərbaycan xalçası toxunub hədiyyə etmək qərarına gəlirlər. Xalçanın toxunması ilə əlaqədar keçirilən iclasda xalçanın hazırlanması işi məşhur xalça ustalarına həvalə olunur ki, bunlar tanınmış xalçaçı-rəssam Lətif Kərimov, teatr rəssamı və ictimai xadim İsmayıl Axundov və qrafik rəssam, Stalin mükafatı laureatı Kazım Kazımzadə işə başlayırlar. 70 illik yubileylə əlaqədar olaraq xalçanın ölçüsü 70 kv. metr və 70 rəng çalarından istifadə olunaraq xalça hazırlanır. Səkkiz aya hazır edilən xalça çox möhtəşəm toxunur və Stalin tərəfindən çox bəyənilir. Ancaq təəsüf ki, hal-hazırda xalçanın harada saxlandığı bəlli deyil.



"Kitabi-Dədə Qorqud" dastanında – xalçalarımız haqqında məlumatlar öz əksini tapmışdır. Dastanlarda Azərbaycan xalçaları haqqında məlumatların dərindən öyrənilməsi yazılı mənbələrin toplanması baxımdan mühümdür. “Kitabi-Dədə Qorqud” boylarının bəzisində ayrı-ayrı gizlincələrlə rəmzi mahiyyət daşıyan bir başlanğıc olur ki, bu da “xalı” – “xalicə” üzərindən keçir, həm də boyun başlanğıcında özünəməxsus təsviri və vəziyyəti ilə göstərilir. Məsələn: Dirsə xan oğlu Buğac xan boyunun ilk sətirləri, aşağıdakı cümlələrlə başlayır: “Bir gün Qam Qan oğlı xan Bayındır yerindən turmışdı. Şami günliği yer yüzünə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşamışdı. Bin yerdə ipək xalicəsi döşənmişdi” [3, s.5]. Dastanda qədimdən istifadə edilən xalçaların elementlərinin sirləri açıqlanaraq əslində Azərbaycan Xalça sənətinin qədimdən inkişafından xəbər verir.

Orta əsr Avropa səyyahlarının qeydlərində Azərbaycanın şəhərləri, abidələri kimi xalçaları haqqında bir çox məlumatlar vardır. Gözəl Təbrizdə hazırlanan unikal parçalar və xalçalar haqqında XIII əsrdə yaşamış tanınmış Marko Polonun səyyah qeydlərində məlumatlar vardır.

Dərbənd, Şamaxı, Naxçıvan və başqa orta əsr şəhərlərində olmuş fransız Rubruk buralarda xalçalar istehsal edildiyini yazmışdır. Yazılı mənbələrdə xalçalarla bağlı bizə gəlib çatan mənbələr və onların təsviri o cümlədən Azərbaycan torpaqlarına gələn səyyahların və səfirlərin qeydlərində ki, məlumatlara əsaslanaraq deyə bilərik ki, Azərbaycan xalçaları hər dövrdə möhtəşəmliyi və rəngarəngliyi ilə hamının diqqətini çəkib.

Azərbaycan Ağqoyunlular dövlətinin qurucusu Uzun Həsənin sarayında olan, gözəl xalçalar barədə məlumat verən səyyah venesiyalı Ambrozio Kontarini onların möhtəşəmliyi ilə əlaqədar məlumat vermişdir.

Alman imperatoru II Rudolfun elçisi Tektander Təbrizdə olarkən həm şəhərin təsvirini, həm də məscidlərə döşənən xalçaların gözəlliyindən bəhs etmişdir.

Orta əsrlər dövrü yazılı mənbələrində ki, materiallara əsasən deyə bilərik ki, əhalinin bütün təbəqələri müxtəlif xalçalardan və xalça məmulatlarından geniş istifadə etmişlər. XVI əsrdə Volqa-Xəzər yolu ilə Azərbaycana, o cümlədən, Şirvana ingilis tacirləri - İngiltərənin "Moskva şirkəti"nin agentləri gəlib çıxmışdılar.

A.Cenkinson Şirvan bəylərbəyliyində istifadə edilən gözəl xalçalar haqqında, alman A.Oleariy isə Azərbaycan kəndlilərin evlərinin səliqəsi və döşəmələrinə örtülən xalılar haqqında məlumat vermişlər. Yuxarıda qeyd etdiyimiz kimi XIX əsrdə də Azərbaycanda olmuş səyyahların, tarixçilərin, etnoqrafların əsərlərində əhalinin bütün təbəqələri tərəfindən işlədilən müxtəlif çeşidli və göz oxşayan xalçalar haqqında yazılı qaynaqlar var. Həmçinin yazılı mənbələri araşdırarkən orta əsrlər dövrü və sonrakı dövrlərdə də Azərbaycan xalçalarının ixracat edildiyini qeyd edə bilərik. Azərbaycan gözəl xalçaları tək Şərq ölkələrinə deyil, həm də Avropa ölkələrinə də aparılırdı. Artıq XIV əsrdə Azərbaycan xalçaları kütləvi şəkildə Avropaya gedib çıxmağa başladı.



**Məhəmməd şah Qaçara məxsus çadır**

Məhəmməd şah Qaçara (1834-1848) məxsus çadır hal hazırda "The Cleveland Museum of Art" qorunur. Çadır qızılı ipək saplarla çox incə və nəfis bəzədilmişdir. Orta Şərqdə şah çadırları daha böyük nüfuz, sərvət və güc simvollarından idi. Hökmdarların minlərlə çadırı var idi. Bunlar rəsmi mərasimlər, səyahətlər və hərbi səfərlər üçün vacib olan sığınacaq, kölgəlik və müxtəlif funksiyalar üçün istifadə olunurdu. Ölçüsünə görə çadırlar qalalar qədər böyük ola bilərdi.

**Nəticə**

Tezisə yekun vuraraq onu qeyd edə bilərik ki, bayramların al-əlvan olmasında min bir əziyyətlə toxunan xalça və xalça məmulatlarının müəyyən qədər payı olmuş, həm rəsmi günlərdə və gündəlik evlərin, sarayların bəzədilməsində mühüm rol oynamışdır. Cənubi Qafqazda yerləşən Azərbaycan qadınlarının toxuduğu xalçalar regionun maddi mədəniyyətini rəngarəng etmə qabiliyyəti aşkara çıxarılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Vəliyev, F.İ. Azərbaycanın milli-mənəvi və maddi dəyərləri(məqalələr toplusu) –Bakı: Mütərcim, 2018.-352s.

2.Şirin Bünyadova. "Orta əsr Azərbaycan ailəsi". Bakı-2012, "Elm" nəşriyyatı, 384 s.

3.Məmmədhüseyn Hüseynov "Kitabi-Dədə Qorqud" dastanında - xalça sənətinin izləri və rəmzləri Üç nöqtə.-2016.-18 avqust-№ 145.-5s.

**Seyidnisə Bəxtiyar LƏTİFLİ**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: seyidnise.letifli@mail.ru

## CƏMŞİD ƏMİROVUN "BRİLYANT MƏSƏLƏSİ" POVESTİ DETEKTİV NƏSRİN BƏDİİ NÜMUNƏSİ KİMİ

**Summary**

Crime, punishment of the criminal, restoration of justice, in short, the roots of this motive extend to ancient times and are reflected in the religious beliefs and mythology of various peoples. All these

elements created conditions for the emergence of the detective genre in literature. The foundation of detective prose in Azerbaijani literature was laid by Jamshid Amirov. This direction in the creativity of the outstanding writer opened a new path in our literature. The article examines the features and principles of detective prose in the narrative "Diamond Case", which is one of the most read detective works written by the writer in 1962. Turning Jamshid Amirov's "Diamond Matter" into an object of detective prose analysis can be considered a novelty of the research.
**Key words**: Detektiv, nəsr, cinayətkar

**Giriş**

Bədii əsərlər həyat həqiqətlərindən qidalanıb hadisələrə təsir göstərərək insanın düşüncə tərzini dəyişməsinə səbəb olur. Yazıçılar hər hansı bir bədii nümunə ilə insan qəlbini, ruhunu yeni ideallar ilə işıqlandırır, həyata baxış bucağını dəyişir. Nəticə də həyatdan alınmış hadisə bədii təsvir və boyalarla yenidən həyata qayıdır. Çünki bu zaman sanki yazıçı oxucu ilə bir psixoloq kimi danışaraq mövcud olan ziddiyyətlərin fərqli yönlərini müzakirə edir. Ədəbi əsərlərin real hadisəyə təsir gücü bəzi hallarda o səviyyəyə çatır ki, insan düşüncəsini və həyati aktları idarə edə bilir, buna görə bədii əsərin dərin ədəbi-bədii, estetik qatlarına enməklə burada əks duran, ziddiyyət təşkil edən həyat hadisələrinin konyukturasını sərf-nəzər etmək, şüurun, altşüurun qneseoloji qatlarındakı ahəng və təzadların bədii əsərdə harmoniyasını araşdırmaq, həyatla bədii mətnin əlaqə keçidlərindəki fərqli və uyğun detallarını tapmaq bəzən estetik təxəyyülün imkanlarını müəyyən çərçivədən çıxarmağa kömək edir [4, 21]. Cinayət mövzusunun qədim dövrlərdən müasir zamana qədər mövcud olmasının səbəbi bu problemin insan həyatında qorxulu iz buraxmasıdır. Tarixdə cinayətin təcridən artması, zaman keçdikcə çoxalması və bu kimi hadisələr ədəbiyyata təsirsiz ötüşə bilməzdi. Cəmiyyətdə əxlaq kodeksinin formalaşması nəticəsində günahkarların cəzalandırması kimi məsələlər ön plana çıxdı. Hər bir kəs öz günahına görə məsuliyyət daşımalı idi. Məhz bu ünsürlərin yaranması nəticəsində ədəbiyyatda detektiv nəsr formalaşır. Dünya ədəbiyyatında detektiv nəsr geniş təcrübə qazanıb yayılmışdır. Azərbaycan ədəbiyyatında da detektiv nəsrin təşəkkülü və formalaşmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahədə artıq detektiv nəsrin müxtəlif mövzu və məzmun sahələri yaranmışdır.

**Əsas mətn**

XX əsrin 50-60-cı illərində Azərbaycan ədəbiyyatında detektiv nəsr formalaşmışdır. Görkəmli ədib Cəmşid Əmirovun bu istiqamətdə yazmış olduğu bədii əsərlər dövrünün mühüm hadisəsinə çevrilmişdir. O, Azərbaycan ədəbiyyatında öz üslubu, dəst-xətti, yaradıcılıq üslubu ilə seçilən alimdir. Cəmşid Əmirov 1958-ci ildə "Sahil əməliyyatı" povestini çap etdirməklə ədəbiyyatımızda detektiv nəsrin əsasını qoymuşdur. O, 1962-ci ildə "Brilyant məsələsi" povestini dərc etdirmişdir. Müəllif əsərdə həmin illərdə baş verən xüsusi cinayətkar qrupu tərəfindən törədilmiş silsilə cinayətləri təsvir etmiş və polis əməkdaşlarının bu cinayətlərin istintaq prosesində göstərdikləri hünəri, çevikliyi, şücaəti əks etdirmişdir. Əsər Əli Rəsulovun milis işçilərininə inam göstərməyən kupe yoldaşlarına əhvalatı ilə başlayır. Müəllif əsəri yazmaqda məqsədini ta əvvəldən qeyd edir və Bakı şəhər milis idarəsində baş verən cinayətlərin həll olunmasında polis işçilərinin rolunu cəmiyyətə çatdırır.

Görkəmli ingilis yazıçısı Gilbert Kit Çesterson 1925-ci ildə yazmış olduğu "Bir detektiv hekayə necə yazılmalıdır" adlı məqaləsində detektiv hekayənin yazmağın prinsiplərindən bəhs edərkən o qeyd edirdi ki, hər bir sirli hekayənin məqsədi qaranlıq deyil, işıqlı olmağındadır. Oxucu parlaqlığın içindən qara konturları seçməlidir. Cəmşid Əmirovun detektiv nəsrinin başlıca xüsusiyyətlərindən biri də verilən məlumatların tamlığındadır. Klassik detektiv nəsrin başlıca xüsusiyyətlərindən biri oxucuya verilən məlumatların əksiksiz və reallığa uyğun olmasıdır. Baş verən hadisələr düzgün nəticəyə aparan məntiqi quruluş əsasında cərəyan etməlidir. Detektiv yazar Brilyant məsələsi povestində də cinayətlərin istintaqının düzgün aparılması üçün bütün detalları incəliyinə qədər təsvir edir. İstintaq üçün hər xırda element yoxlanılır və oxucu polis əməkdaşları ilə birlikdə istintaq prosesinin iştirakçısına çevrilir.

Detektiv nəsr müəyyən struktura sahibdir və bu quruluş oxucuya detektiv əsərin planını yaratmağa şərait yaradır. Əsərin əvvəlində cinayət törədilir, ilk qurban görülür və oxucunun beyni 3 sual ətrafında məntiqi təhlillər yürütməyə başlayır: kim? kimi? niyə?. Kim sualı detektiv əsərin ən dinamik sualıdır çünki hər şey bu sualdan başlayır və bu sual ətrafında cərəyan edir. Hadisələr irəlilədikcə detektiv struktur, istintaq prosesi, həll yolu, sübut faktların təhlili istiqaməti üzrə cərəyan edir. Nəticə etibari ilə demək mümkündür ki, detektiv mövzuda qələmə alınmış bədii nümunələrdə hadisələr bu istiqamət üzrə cərəyan edir: müəmmalı bir cinayətin aşkar edilməsi, faktların məntiqi təhlil ilə izlənilməsi, ədalət və qanunsuzluq arasında toqquşma, ədalətin qələbəsi. Brilyant məsələsi povestində müəllif 3 əsas cinayət və onun ətrafında cərəyan edən hadisələrin fonunda baş verən kiçik cinayətləri təsvir edir: 1. Qəzet müxbiri Hüseyn Dadaşovun evinin qarət olunması; 2. Əziz İslamovun qətli; 3. Laləzar İsmayılovanın qətli. Detektiv əsərlərdə məntiqi bir zəncir mövcuddur. Əsərdə təsvir olunan süjet çoxluğu oxucunu çaşdırsa da əsər irəlikədikcə kələfin ucu cinayətkar qrupun başçısı Yədullaya çıxır. Bütün cinayətlər onun tərəfindən törədilir və miliş işçiləri səfərbər olunmuş formada istintaqı apararaq dəlilləri analiz edib cinayətkarları yaxalayırlar. Bu mövzuda yazılmış əsərlərin özünəməxsus xronotopu vardır. Cinayət keçmişdə işlənir, indiki zamanda bu izlər araşdırılır, keçmişlə əlaqələndirilir. Müəllif Yədulla obrazının bütün törətmiş olduğu cinayətləri kupedə əyləşən sərnişin tərəfindən nəql etdirir və əsərin sonunda məlum olur ki, hadisələri nəql edən mayor Rəsulov imiş və o, qatara Yədulla və Ağaəli Möhtacovu təqib edərək yaxalamaq üçün gəlmişdi.

George Grella "Formal detective Fiction" adlı tədqiqat işində detektivin daim elmi və məntiqin idealı izində olduğunu qeyd etmişdir [2, 90]. Cəmşid Əmirovun detektiv əsərlərinin mahiyyətində də elm və həm cinayətkar, həm də polis işçilərinin məntiqli şəkildə öz işlərini icrası zamanı biz bunun şahidi oluruq. Hadisələrin bir-biri ilə məntiqi şəkildə zəncirlənməsi, polis işçilərinin məntiqi fikirlər yürüdərək sübut və faktları təhlil etməsi deyilənlərə dəlalət verir. Əsərlərdə müxtəlif obrazlar detektiv rolunda çıxış edə bilər: hüquq-mühafizə orqanları, özəl detektivlər, qurbanın qohum və ya dostları və s. Bu xüsusiyyətinə görə detektivləri 3 qrupa bölmək olar: peşəkar, xüsusi və həvəskar detektiv. Peşəkar detektiv dedikdə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən aparılan istintaq nəzərdə tutulur. Xüsusi detektiv üçün isə bu bir peşədir, polisə xidmət etmir. Həvəskar detektiv isə hər hansı gizli bir məsələyə yalnız şəxsi mənafeyi cəhətdən düşünərək araşdırma aparır və bu onun üçün hobbidir. Dünya ədəbiyyatı nümunələrinə diqqət yetirdikdə burada xüsusi detektiv obrazlarının şahidi oluruq. Məsələn Edqar Allan Ponun yaratmış olduğu detektiv Oqyust Düpen, Artur Konan Doylun Şerlok Holmsu, Uilyam Uilki Kollinzin Serjant Kaf obrazı və b. Cəmşid Əmirovun yaradıcılığında isə xüsusi detektiv obrazları deyil onların yerinə xüsusi milis işçiləri bu istiqamətdə işlər aparır. Əgər detektiv obraz təkbaşına cinayətin izlərini araşdırırsa, Cəmşid Əmirovun detektiv əsərlərində bu prosesə bütün milis işçiləri səfərbər olunur. Brilyant məsələsi povestində başda polkovnik İsayev olmaqla, kapitan Əli Rəsulov, ekspert Sərdar Əzimov və Səmayə Hacıyeva, müstəntiq Adilə Paşayeva və başqaları izlərin aşkara çıxarılmasında, cinayətkarların həbs olunmasında böyük səriştə göstərirlər. Cəmşid Əmirov milis işçilərinin gecə-gündüz demədən, təhlükədən qorxmadan özlərini işlərinə həsr etməsini xüsusi çalarla təsvir etmişdir. O, bu məsələyə şəffaflıqla yanaşmış polis adına yaraşmayan hərəkətlərə yol verən xəyanətkar polis işçisi Salman Niftəliyev kimi işçilərin cinayətkarlarla əlaqəsinin tez bir zamanda ortaya çıxararaq vəzifəsindən uzaqlaşdırılması kimi faktları da təsvir etmişdir. Bununla yanaşı əsərdə istintaq prosesinin həllində kömək olan drujinaçı obrazlar yer almışdır. Vətənpərvər ukraynalı qız Lyudmila Yesenko, bağ gözətçisi Mirzə Məlik, Çəkməsilə Əbdül və başqa surətlər polisin işinə yaxından kömək edir. Cəmşid Əmirov bir cinayətin tutulmasında hər kəsin səfərbər olması ideyasını irəli sürərərək sanki cəmiyyətdə baş verən ziddiyyətli və xoşagəlməz halların qarşısını almaq üçün bütün xalq ayıq-sayıq olmalı və cinayətkarlara qarşı birgə mübarizə aparmalıdır şüarını oxuculara çatdırırdı.

Cəmşid Əmirovun detektiv əsərlərinə məxsus xarakterik xüsusiyyətlərindən biri də arqo və jarqonlardan istifadə edilməsidir. Jarqon- sosial dialekt olub, ümumxalq danışıq dilindən spesifik leksik və ifadə əlamətlərinə görə fərqlənir. Jarqonlar qaba ifadələrdir, qəhrəmanların dilini

səciyyələndirməkdən ötrü istifadə olunur [1, 89]. Arqo eyni ictimai zümrə və ya peşə adamlarının nitqidir. Xalq danışıq dili və jarqolardan fərqlənən arqonun başlıca xüsusiyyəti bu və ya digər sözün, ifadənin yalnız məhdud zümrə, yaxud peşə adamlarının başa düşdüyü şərti mənada işlədilməsindədir [1, 110]. Cəmşid Əmirov əsərlərində tipi dilindən danışdırır. Müəllifin Brilyant məsələsi povestində də bu cür söz və ifadələrə rast gəlmək mümkündür. Məsələn: barıq-alverçi, şestoy-milis işçisi, siçan-pul, məclis-qumar və s. Cinayətkar dəstənin öz aralarında xüsusi parollar ilə danışması da əsərdə təsvir olunan detallardandır. Yədullanın Rantikə göndərdiyi məktubda qeyd olunur: "İyun 9 Yuranın 2 yaşı tamam olur. Unutma. (İyun 9-u Xarkovda ol, iki min manat gətir)" [3, 96]. Yədulla ilə Həlimənin məktublaşması da buna misal göstərmək olar: "Hava sakitdir. Ancaq hələ dənizə çıxma. Fırtınadan qorxuram. (Heç bir hadisə baş verməyib, hələ üzə çıxma, polisdən qorxuram.) [3, 70].

Bədii əsərlərdə ləqəblərdən süjet xəttinə emosional çalar qatmaq, qəhrəmanları obrazlı və aydın təsvir etmək üçün istifadə edilir. "Brilyant məsələsi" povestində müəllif müxtəlif ləqəblərdən istifadə etmişdir. Bu ləqəblər böyük cinayətkar dəstəsinin üzvlərinə aiddir. Məhz bu ləqəblər vasitəsilə cinayətkarlar əsl kimliklərini gizlətməyə nail olurlar. Onlar öz aralarında danışarkən, bir-birilərinə şifrəli ismarıclar göndərərkən bu ləqəblərdən istifadə edirlər. Oğru ləqəbləri öz sahibinin tutduğu mövqeyi haqqında birbaşa məlumat verir. Məsələn: Tapança-Yədulla, Qızılbarmaq-Rantik, Zerkalo- Klara və s.

**Nəticə**

Aparılan tədqiqatlar nəticəsində Cəmşid Əmirovun detektiv nəsrinin özünəməxsus xüsusiyyətləri aşkara çıxarılmışdır. Dünya ədəbiyyatı ilə müqayisədə bəzi oxşarlıqlar mövcud olsa da Azərbaycan detektiv nəsrinə məxsus cəhətlər "Brilyant məsələsi" povestində əks olunmuşdur. Povest polis detektivi mövzusunda qələmə alınmışdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, I cild. Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası. 1980, 592 s.
2. Chesterton, G. K. "How to write a Detective Story." The Chesterton Review 10.2 (1984): 111-118.
3. Əmirov C. Brilyant məsələsi. Azərnəşr. Bakı, 2008, 360 s.
4. Freeman, R. A. The Best Dr. Thorndyke Detective Stories. Courier Dover Publications. 2017, 220 səh.

**Səidə Əhməd MUSTAFAYEVA**
AMEA-Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: mammadovasaida@gmail.com

## MÜASİR AZƏRBAYCAN HEKAYƏSİNDƏ İNTERTEKSTUALLIQ (KAMAL ABDULLA HEKAYƏLƏRİ ƏSASINDA)

**Summary**

In this article, the frequently used intertextual relationships in postmodern literature are mentioned. The leading sources of the author is mythology, which is still considered one of the most influential sources in modern literature. The purpose of the article is to reveal the intertextual relations between the mythological and real world in Kamal Abdulla's stories.

**Key words:** intertextuality, mythology, Kamal Abdulla

**Giriş**

Əsərlərini mifik, mistik, metafiziki ünsürlərlə yoğurduğu, keşmişlə gələcəyin iç-içə keçdiyi, zaman və məkan anlayışlarının olmadığı, klassik Şərq ədəbiyyatının və qədim Yunan ədəbiyyatının ahəngdarlığı ilə oxucunu real və qeyri-real dünyalarda səyahətə çıxaran "Ənənəni dağıtmayan sənətkar heç zaman dahi sənətkar ola bilməz" [2], [66] deyən Kamal Abdullanın "Yarımçıq əlyazma",

"Sehrbazlar dərəsi", "Unutmağa kimsə yoxdur" romanları ilə yanaşı onun hekayələri də bu baxımdan maraqla qarşılanır. Bu hekayələrdə intertekstuallıq, pastiş, dəyərlərin yenidən qiymətləndirilməsi, özündən əvvəlki mətnləri, arxetipləri özündə ehtiva etməsi, alışılmış dil və üslub formasının deformasiyaya uğraması və s. kimi xüsusiyyətlər nəzərə çarpır. İntertekstuallıq burda özünü göstərən əsas xüsusiyyətlərdən biridir.

**Əsas mətn**

Yarımçıq əlyazma romanı ilə yanaşı hekayələrində də geniş şəkildə istifadə etdiyi ədəbi priyom olan intertekstuallıq vasitəsilə artıq yazıçı var olan mətnə yeni can verməklə oxucunu "bəlkə elə yox belə olsa idi necə olardı?" sualı ilə baş-başa buraxır. "İntertekstuallıq hər mətnin özündən əvvəl yazılmış başqa mətnlərdə mövcud olması və heç bir mətnin köhnə mətnlərdən tam müstəqil ola bilməyəcəyi fikri ön plana çıxır. Bir mətn əvvəllər yazılmış mətnlərdən götürdüyü hissələri yeni bir ardıcıllıqla bir araya gətirməkdən başqa bir şey olmadığına görə, intertekstuallıq da həmişə əvvəlki müəlliflərin mətnlərinə, köhnə ədəbi ənənəyə bir növ təqlid prosesindən başqa bir şey deyil. Bir sözlə, bu kontekstdə hər bir əsər intertekstual xarakter daşıyır." [3], [18]

Yazıçının ən çox müraciət etdiyi mənbələrdə biri də mifologiyadır ki, müasir ədəbiyyatda mövqeyini qoruyub saxlayır. "Parisin seçimi", "Labirint", "Xaron, mərhəmətli Xaron", kimi hekayələrində Paris, Xaron, Hera, Afrodit, Dionis, Tesey kimi mifoloji xarakterlərin adı çəkilir. Bu adı çəkilən obrazlara yeni bir pəncərədən baxmağa çağırır, ehkamları dağıdır, kanonları yıxır. Oxucunu hər zaman yeni mənbələr axtarmağa və hərisliklə daha çoxunu istəməyə yönəldir.

"Labirint" hekayəsi ilə Teseyin Minotavrı öldürdüyü yunan əsatirindən bəhs edərək öz labirintini yaradır. Yazar bu hekayədə mətn içində mətn yaratmaqdan çəkinmir. "Labirint" hekayəsində oxucu bir yandan qədim yunan mifi olan Teseyin Minotavrı öldürdüyü mifə yenidən nəzər salır, digər tərəfdənsə Kamal Abdullanın yaratdığı qətl, cinayət, açar söz labirintinə düşür. Oxucu ipin ucunu qaçırdıqda adlar, rənglər, zaman və məkan qavramını itirir. Hadisələr bəzən çayxanada, bəzən də yataq otağında baş verir.

Əsatirdə bəhs edildiyi kimi Tesey vəhşi Minotavrı öldürmək üçün mağaraya girir. Kamal Abdullanın hekayəsində isə Təyyubə xanım səhər evində ölü tapılır və bu qətl hadisəsini araşdırmaq üçün gələnlər arasında bir qadın və bir kişi də var. Amma əsər boyu bu iki şəxs dayanmadan dəyişir, qadın gah Nazilə, Mətanət, Səlimə, Nərmin, Fəridə, gah da Aliyə, Tamilla, Səmayə, Afaq, Zümrüd, Qətibə kimi, kişi isə bəzən Səlim, Aydın, Əşrəf, Vaqif kimi, bəzən də Fərhad, Samir, Kərim, Əhməd kimi oxucu qarşısına çıxır. Kamal Abdulla burada postmodernist oyundan istifadə edib. Elə məhz bu kişi və qadın da özləri üçün bir oyun yaratmağa çalışırlar. Ölüb yenidən dirildikdə yeni həyatlarında bir-birindən ayrı düşməmək üçün plan qurub, açar söz yaradırlar.Bu oyunu gerçəkləşdirmək üçün qadın hətta cinayət işləməkdən belə çəkinmir, amma kişi artıq bu oyunda olmaq istəmədiyi anlayır və ciddi-cəhdlə açar sözü deməkdən boyun qaçırır. Çünki yenidən həyat tapdığı bu dünyada artıq sevdiyi qadın Dürdanə onu gözləyir. Labirintə girib yolunu azmaqdansa heç girməməyi üstün tutur.

Yazıçının yaradıcılığında söz hər zaman diqqət mərkəzində olur. "Unutmağa kimsə yoxdur" romanında F.Q açar sözü axtarır, "Labirint" hekayəsində kişi açar sözü deməkdən çəkinir. Söz yeni bir başlanğıc, yeni bir həyata keçid üçün sirli, magik vasitədir.

Kamal Abdullanın təkcə bu hekayəsində deyil, digər əsərlərini də oxuduqda eyni obrazlar və simvollarla qarşılaşa bilirik. Bu baxımdan onun ümumi yaradıcılığı oxucunu labirintin ortasında salır və bütün əsərlərə nəzər salmadan bu labirintdən çıxış yolu tapmaq mümükün olmur. "Şübhə və Sual, sorğulamaq və son cavaba iddia etməmək, sirriçində həqiqəti axtarmaq, əslində, əsl yaradıcı təfəkkürə, əsl alim və yazıçıya, əsl ziyalıya xas keyfiyyətdir. Kamal Abdulla kreativliyin ilkin şərti olan bu prinsipi həm bütün yaradıcılığı ilə təsbitləyir, həm də bir mövqe kimi təsdiqləyir: "Əsl Cavab verilən Sualdadır. Biz məhz Sualla dərk edirik, məhz Sualla axtarırıq və əgər tapırıqsa da, məhz Sualla tapırıq". [4], [9]

"Parisin seçimi"ndə isə yunan mifində almanı alan Afrodita sayəsində Paris gözəllər gözəli Yelenanı qaçırmış və Troya müharibəsinə səbəb olmuşdur. Amma Kamal Abdulla tarixin gedişatının dəyişmiş almanı Heraya vermişdir. Bununla yazıçı əsəsrin açıq finalını ela etmişdir. Artıq oxucu kanonlardan

uzaqlaşıb ehkam kimi irəli sürülmüş əvvəlki sondan başqa yeni bir sonla qarşılaşmışdır. Eynilə Xaron mərhəmətli Xaron hekayısində də bu sonla qarşılaşırıq Yunan mifologiyasında amansız obraz kimi qarşımıza çıxan Xaron artıq Kamal Abdulla qələmində mərhəmətli bir obraz kimi oxucunu qarşılayır. Elə məhz hekayənin adından başlayaraq yazıçı obrazı dekonstruksiyaya uğratmışdır. Əzazil obraz olan Xaron rəhmdil, ədalətli, adına Cəhənnəm çayı da deyilən Stiks çayı da çox sakit, mülayim, günəş şüalarının bərq vurduğu cənnət məkan kimi təsvir olunur. "Stiks çayının bu sahili qızılaçalan ılıq qum dənəciklərinin parlaq işıltısından başqa bir şey deyildi." [1], [61]

Xarondan onu çayın digər tərəfinə keçirərkən yaddaşınının silinməməsini istəyən ananı Xaron bir istisna edərək yeraltı dünyaya buraxır. Axı o mərhəmətlidir, Paris kimi yeni bir seçim edərək daha başqa xüsusiyyətlərə malik olduğunu göstərməyə çalışır.

**Nəticə**

Sonda qeyd edə bilərik ki, Kamal Abdullanın mif yaradıcılığı onun əsərlərində öz yerini hər zaman qoruyub saxlayacaq bir xüsusiyyət kimi çıxış edir. Oxucunun burada əsas vəzifəsi görünən və görünməyən sirrləri ortaya çıxarmaq, sirriçində sirrə çatmaqdır.

## ƏDƏBIYYAT SİYAHISI:


1. Abdulla K.Sirri-zəmanə: Hekayələr, Mürtəcim, 2014, 496 səh.
2. Abdulla K.300 Azərbaycanlı:ədəbi-bədii-esselər, Mürtəcim, 2007, 340 səh.
3. Aktulum K.Metinlerarası ilişkiler, Öteki Yayınevi, 2000, 296 səh.
4. Hacılı A.Kamal Abdulla: Seçimin morfologiyası. Mürtəcim, 2010, 132 səh.



**Şakir Rüstəm ƏLİYEV**
*Azərbaycan Texnologiya Universiteti*
E-mail:sh.aliyev@atu.edu.az

**Gülnarə Nurəddin ƏLİYEVA**
*Azərbaycan Texnologiya Universiteti*
E-mail: g.aliyeva@atu.edu.az

**Radə İsfəndiyar ƏSGƏROVA**
*Azərbaycan Texnologiya Universiteti*
E-mail: r.asgerova@uteca.edu.az


# GEYİM MODELİNİN LAYİHƏLƏNDİRİLMƏSİNDƏ ERQONOMİKA ANLAYIŞI VƏ ONUN FUNKSİYASI


***Summary***

Emerging technologies continue to create innovations in the apparel industry. The introduction of modeling systems in the garment industry brings some improvements as well as advances in many areas. The introduction of modeling systems gives reliable results in body measurement. Clothing requirements depend on the purpose of the garment, the conditions of use, and the gender of the consumer


**Keywords:** model, composition, ornament, concept

**Giriş.**

Model anlayışı bildiyimiz kimi yeni görkəmdə, formada, material və bəzəkdə görünməsi üzrə geyimə xas olan bir varlıqdır. Layihələndirmə isə bir planın, bir nümunənin müəyyən müddəti ərzində meydana

gətirilməsinə deyilir. Modelin layihələndirilməsi dedikdə, dizaynerlərin yaradıcılıq prosesində müxtəlif geyim modalarının yaradılması nəzərdə tutulur.

Geyim modelinin layihələndirilməsində ən başlıca diqqət olunan proses kimi məhz erqonomik qaydalara ciddi şəkildə riayət etməkdir. Məhz erqonomikanın geyim məmulatlarında yaratdığı komfort həmin geyim modelinin layihəsi ilə məşğul olan rəssam-dizaynerlər qarşısında duran ən aktual məsələdir [2].

Hazır geyim müəssisələrində aparılan erqonomik tənzimləmələr anatomiya və erqonomikanın araşdırılması ilə insan həyatını daha yaxşı şərtlərdə davam etdirmək üçün təşkil edilir. Bu prosesin gedişi təkcə ətraf mühitin dəyişməsi ilə nəticələnən tək istiqaməti bir inkişaf olmamaqla yanaşı, həm də ətrafdakı dəyişikliklər sayəsində insanın özünündə dəyişməsi ilə nəticələnir.

Modelin layihələndirilməsində erqonomik tənzimləmələr üçün günümüzdə insanın əlindəki ən əhəmiyyətli vasitə yaradılan modellərdir [1].

Modelin layihələndirilməsində funksional analiz metodunun tətbiqi zamanı erqonomik tələblər daha aydın və ətraflı şəkildə müəyyənləşdirilir. Geyim modelinin funksional xüsusiyyətlərinə görə təhlili, həmin əşyanın erqonomikliyinin optimallığının müəyyənləşdirilməsi vacib sayılan məqamlardandır.

**Əsas mətn**

Geyim növlərini modelləşdirdikdə bütün hissələrin modelləşməsini tətbiq etmək lazımdır. Geyim modelləri layihələndirilərkən, əsasən geyimin növü, hansı mövsümə aid olması, rahatlılıq baxımından erqonomik qaydalardan asılı olaraq tərtib edilir [3].

Geyim məmulatlarında yeni modellərin müasirliyi yalnız onların funksionallığı, konstruksiya və texnologiyasından deyil, eyni zamanda məmulatın bir başa funksiyasını lazımınca yerinə yetirmə dəqiqliyindən də asılıdır. Hazırlanan modelin bədii cəhətdən həlli yalnız estetik keyfiyyəti ilə deyil, eyni zamanda onun ətrafdakı əşya mühiti ilə həmahəng olmasıda vacibdir. Bu həmahəngliyə əsasən məmulatların istismarı zamanı funksional və konstruktiv cəhətdən tələblərə cavab verməsi ilə bağlıdır.

Modelin funksional və konstruktiv olaraq özünü doğrultması, ilk növbədə geyim məmulatlarının maksimum rahat istifadə olunmasını təmin edərək, əmək məhsuldarlığını yüksəldir, erqonomik xassələri yaxşılaşdırır, istehlakçı tələbatını və iqtisadiliyi yüksəldir.

Geyim modelin layihələndirilməsi prosesində onun bədii tərtibatı ilə yanaşı onun istehlak xassələri də nəzərə alınır. Geyim məmulatları müəyyən istehlak xassələrinə malik olmalıdır. Geyim məmulatlarının hazırlanmasında tətbiq olunan materiallar, məmulatın layihələndirilməsinin müasir sistemi olan modelləşdirmə və tikili məmulatların istehsal texnologiyası olan biçilmə və tikilmə prosesləri müəyyən istehlak xassələrinə malik olan tikili məmulatları ərsəyə gəlməsində aparıcı rol oynayır [4].

Geyim məmulatlarının istehsalı zamanı insan bədəninin quruluş və ölçülərinə tam olaraq uyğun gəlməsi, geyimin statik, dinamik və antropoloji xassəsi ilə xarakterizə olunur.

Modelin layihələndirilməsi zamanı naxış və rəng kompozisiyasının seçilməsi məsələsinə də xüsusilə diqqət yetirilməlidir. Modelin layihəsi zamanı parçanın və naxışdan düzgün istifadə modelin estetik baxımdan yaraşıqlı olmasına gətirib çıxarır. Rəng materialın dekorativ xassələrindən istifadə xüsusiyyətlərini xarakterizə edən estetik göstəricisi hesab olunur. Rəng məntiqi şəkildə bütün kompozisiyanı tamamlayıcı bir xüsusiyyətə malikdir. Geyimlərin layihələndirilməsində rəng əsas rol oynayır. Belə ki, müvəffəqiyyətli alınmayan proporsiyanı düzgün seçilmiş rəngin köməyi ilə yaxşılaşdırmaq mümkündür. Rəng seçimi eləcə də, geyim formasının xarakterik xüsusiyyətini kəskinləşdirməyə və ya neytrallaşdırmağa imkan verir. Rəngin köməyi ilə layihəçi-dizayner geyimin lazımı obrazını yaradır. Bu baxımdan da geyim modellərində rəng harmoniyası böyük əhəmiyyət kəsb edir.

**Nəticə**

Geyim modelinin layihələndirmə prosesində tikiş sənayesinin erqonomikasının daha dəqiq şəkildə tətbiqi insanın gündəlik həyatında daha rahat şəkildə hərəkətinə imkan yaradır. Odur ki, erqonomika

sahəsinə diqqətin verilməsi və həmin sahənin elmi və praktik cəhətdən inkişaf etdirilməsi vacib şərtlərdən biridir.

Geyim modelləri layihələndirilərkən, əsasən geyimin növü, hansı mövsümə aid olması, istifadə edilən materiallar, rahatlılıq baxımından erqonomik qaydalardan asılı olaraq tərtib edilir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Кобляков Е.Б. «Основы конструирования одежды» М.: Легкая промышленность, 1980.
2.Orucov Ə.N., Şamxalov O.S. "Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsinin əsasları" Bakı, 2003.
3. Paşayev B.S. "Parça və geyim məmulatlarının bədii layihələndirilməsi".Bakı, 2004.
4. Черемных А.И. Основы художественного проектирования одежды. М.: 1968.

**Seymur Ülkər İMANZADƏ**
Qərbi Kaspi Universiteti
E-mail: ulkarimanzada@gmail.com

## INCLUSIVE EDUCATION POLICY AT SECONDARY SCHOOLS IN AZERBAIJAN

**Summary**

One of the integral parts of the development of general education is inclusive education. Children having disabilities were expected to be educated separately for a very long time (Unicef, 2018). However, research shows that all children, including the ones with and without disabilities, could join classes together. Inclusive education has educational and social benefits not only for children with disabilities, but for all involved. Every child has the right to have an access to inclusive education (Unicef, 2018).
Inclusive education has become more apparent and attracts more interest in education systems of different countries all over the world (Suleymanov, 2015).
In Azerbaijan, public education is based on Soviet system in which disabled children are usually placed in separate schools or become subject to homeschooling, thereby being isolated from the rest of the society. Out of more than 60000 disabled children in Azerbaijan, only 12000 have access to public education currently (Allahverdiyeva, 2020)
**Keywords:** inclusive, secondary schools, Azerbaijan

### Introduction

Traditional practices from Soviet education system can be observed in the country's current curricular model in the form of passive learning activities, rote learning, extremely organized and controlled practices and etc. which pose a great obstacle to take necessary measures to support children with disabilities (Inclusive Education in Azerbaijan, 2018).

Another factor is hidden curriculum, which is another name to describe unwritten and unofficial moral lessons that students absorb during the time they attend the school. But it is challenging for students with disabilities to fully understand certain parts of social interactions within the norms of this hidden curriculum. However, these students can still adapt to hidden curriculum with some instruction.

Neglecting hidden curriculum is favoring children without disabilities in society. It is of the utmost importance" to raise awareness about hidden curriculum and integrate it into the classroom environment for students with different abilities (Sulaimani and Gut, 2019).

The inclusive education theory is regarded to be supported by three primary theories (Al-Shammari, 2019). The application of behaviorism in inclusive education settings, which can be seen clearly in the emphasis placed on student behavior and performance in manipulating stimulus materials, is one of the

techniques that are included in behaviorism-based inclusive education practices (Ertmer & Newby, 2013). Well-known teaching methods, such as explicit or direct instruction, are also good examples of behaviorism-based inclusive education techniques. According to Ertmer and Newby (2013), cognitivism-based inclusive education methods encompass the application of cognitivism in inclusive education contexts, as demonstrated by the emphasis on mental information processing and interactions in guiding student learning. Al-Shammari (2019) mentioned that students are encouraged to articulate and make connections between their past knowledge, learning experiences, and skills to acquire newly presented material. Applications of constructivism in inclusive education settings include the use of teaching tactics and approaches that encourage students to actively investigate challenging issues. Using real-world examples and situations, as well as cognitive apprenticeships, are two methods that can be used to delve deeper into these issues (Al-Shammari 2019)

**Body part**

**Purposes of inclusive education policy in Azerbaijan**

Inclusive education is adapting general education to the specific needs of children with different abilities and ensuring that all children could be involved in education. The main purpose of inclusive education is providing disabled students with a free-learning atmosphere (Kaulina et *al*., 2019).In other words, supporting children who have specific needs to develop their skills, to ensure that necessary conditions are available to integrate them into the social environment, to improve the methodological training of instructors in this area. Kaulina et al (2019) mentioned that comprehensive development of children with specific needs can be attained when they study together with healthy children of their age, because in this case, those children start to act like their healthy peers and repeat their achievements.

One of the goals of inclusive education is preventing discrimination and decreasing barriers in social context (Kaulina et *al*., 2019). Facilitating the access to education, ensuring active participation of all learners and giving them the chance to improve their abilities is the main purpose of inclusive education in order to decrease the social discrimination risks (Kaulina et.al, 2019).

**Current programs and future plans**

Inclusive education is a novelty for education system in Azerbaijan in which children with and without disabilities learn together in the same classroom environment and it is currently being carried out in Azerbaijan (Unicef, 2018). Ensuring the participation of children with disabilities in such educational programs has far-reaching positive impacts on national scale. By improving employment opportunities and reducing dependence of disabled people, as well as supporting children and teenagers with disabilities to improve their communication skills and decreasing discrimination faced by disabled children, inclusive education is an important pillar to achieve social cohesion (Unicef, 2018).

In 2011, in partnership with UNICEF, the Ministry of Education developed two important documents: The Inclusive Education Law which was submitted to Parliament; The Second State Program on the Further Development of Inclusive One of the integral parts of the development of general education is inclusive education Education (2012-2016) which was submitted to the Cabinet of Ministers.

However, the Inclusive Education Law remained as a draft, not being adopted by the parliament. The Second State Program was not implemented either. This situation fits with Mitchell's "pragmatic approach" according to which governments take into account financial feasibility of the projects while implementing policy decisions (Mitchell, 2005).

Measures to apply reforms in social and educational policies are currently pending in Azerbaijan. These measures aim to ensure adapting welfare systems into modern and international standards (for example those of the EU) and also carrying out legislative and policy reforms. A new strategy is on the way being developed by the Azerbaijani government to promote inclusion of people with disabilities in social and educational contexts and to ensure the higher-quality care of these people based on their specific needs (Titterton and Smart, 2019). In order to promote equal rights, there are some suggestions

to adapt national legislation and the policy of the state for disabled people, however there is a significant gap between what is suggested and what has actually been done up to now. Azerbaijan still lags behind the other CIS member states in terms of implementation of these reforms (Titterton and Smart, 2019).

There are certain educational institutions in Azerbaijan which have been specifically designed to train disabled children. A case in point might be logopedic services provided by some kindergartens and secondary schools for children with visual impairment (Allahverdiyeva, 2020). As mentioned above, a draft State Program on the Development of Inclusive Education for 2012-2019 was submitted to Cabinet of Ministers already. 298 children participated in inclusive education in 30 educational institutions within the framework of pilot projects in in Azerbaijan in the year 2012 (Allahverdiya, 2020).

**Teacher-related concerns**

General education teachers will be subject to training on technologies and inclusive education as a part of 'Azerbaijan 2020: Look into the Future Concept of Development' project. According to the 2009 Law on Education, teachers working with disabled children must get additional benefits (Art. 36.4). The State Programme for the Development of Inclusive Education will make specific funds available to prepare new methodological tools for instructors and the training of modules on special education for the instructors involved in this project (UNESCO, 2021).

The project Enhancing Teacher Skills in Inclusive Education was launched in 2018 in order to educate teachers in primary schools on special education with disabled children in Baku and towns in five regions of Azerbaijan. Training was conducted in Azerbaijan (UNESCO, 2021).

But Azerbaijani government is still making efforts to promote inclusive education by developing state programs and making sure that children with SEN receive the same education as other children. In spite of all these efforts, some challenges prevent inclusive education from going further from the point of legislative acts and policies to development stage. (Mikayilova, 2019).

Abdullayeva (2019) mentioned that "State Program on the development of inclusive education in Azerbaijan Republic 2018-2024" was prepared by the Ministry of Education which has the objectives included below:

- To include the necessary amendments in the legislation to implement inclusive education in each educational level
- To take necessary measures to make sure that educational establishments fall perfectly in line with special care needed by disabled children
- To ensure that staff involved in special education is already prepared to work with disabled children
- To create the database of disabled people
- To raise awareness about how important it is to achieve social integration of disabled people and ensure their active involvement in education system
- To establish services needed to integrate disabled people into the society;
- To ensure that the current infrastructure and transportation in both Baku and regions fit with the needs of disabled people

**Conclusion**

Inclusive education is necessary to achieve the self-realization of children in future and to provide them with robust knowledge and abilities. The fact that there are more disabled children participating in inclusive education is much higher than the children enrolled in other types of education is not a coincidence (UNESCO, 2021).

In 1948, education was declared as a human right. The UNESCO Convention against Discrimination in Education, which was enacted in 1960, defined the necessary measures which should be taken by governments to prevent the cases in which the equality of treatment in education is not respected. This convention was aiming to ensure equal access of all learners to education with respect to human dignity,

however it excluded definition of disability that may result in 'distinction, exclusion, limitation or preference' in education (UNESCO, 2020).

As it is mentioned in UNESCO (2021) it is an obligation for the state to take necessary measures in order to prevent exclusion of disabled with people from education system because of their health challenges, to create an inclusive education system in which everyone can get access to high quality and free education and all disabled children are provided with special care.

**REFERENCE:**

1. Abdullayeva, T. ( 2019) *Inclusive Education in Azerbaijan: challenges in classrooms.*
2. Allahverdiyeva, V. (2020) 'Steps taken by Azerbaijan on the path of inclusive education', in Ismayilov,
3. Institute for Democratic Initiatives (2018) *Situation of Inclusive Education in Azerbaijan*, Baku. Available at: https://www.idi-aze.org/files/pdf/2021-11-22/9yDXqnI7VHagY4agRj4Ehb27FSf9ztoEPY81164v.pdf (Accessed: January, 2023).
4. Mikailova, U., Ismayilova, A., Karimova, Y., Isazade, U., Behbudov, R., Agayev, Y. and Aliyeva, N. (2009) 'Education of children with disabilities in Azerbaijan: Barriers and opportunities.' *Human Rights Education in Asian Schools*, 12(1), pp.107-128.
5. UNICEF Azerbaijan (2018A) *Expanding quality inclusive education for children with disabilities in Azerbaijan*. Available at: https://www.unicef.org/azerbaijan/sites/unicef.org.azerbaijan/files/2019-05/IC-BriefNote-ENG.pdf (Accessed: May 2024).

**Zülfiyyə Məmməd ƏBİLOVA**
Odlar Yurdu Universiteti/Dil nəzəriyyəsi
E-mail: mammadkarimova.z@gmail.com

## ОТЛИЧИТЕЛЬНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ МОДЕЛИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

**Summary**

This scientific thesis states that there are several models of multiculturalism in the modern world, but one of the main tasks of countries and states is to achieve tolerance among people of different religions, cultures, nations and nationalities. Also, the presented work shows both American and Azerbaijani models of multiculturalism, describes their main features and differences, as well as the history of their establishment. In terms of the Azerbaijani model, there is shown the far-sighted policy of the great leader of the Azerbaijan Republic Heydar Aliyev.

**Keywords:** Azerbaijani model, American model, multiculturalism, society, tolerance

**Введени:**

В современном мире отношения между различными странами и государствами, несомненно, отличаются от взаимоотношений прошлых лет, это объясняется тем, что современное общество стремится к некой интеграции, или говоря другими словами, к некому объединению. На данном этапе, современное общество проживает такие процессы, как мультикультурализм, глобализация и толерантность. По нашему мнению, такие явления, как мультикультурализм и толерантность- являются важнейшими элементами политики современных государств, которые придают им престижность и определенный статус в обществе.

**Основной текст:**

Существует достаточно много различных моделей мультикультурализма, которые можно условно подразделить на следующие основные модели: первая, это- Американская, Канадская и Австралийская модель; вторая модель- это модель сформированная в Европейских странах; а третья- страны в которых мультикультурализм был на протяжении столетий. Говоря о третьем подразделении, мы имеем в виду те страны, в которых мультикультурализм пронизывался на протяжении долгого времени. К этому подразделению относится Азербайджанская модель мультикультурализма.

В данной статье, мы затронем два основных подразделения- Американскую и Азербайджанскую модели мультикультурализма. Говоря об Азербайджанкой модели мультикультурализма, стоит отметить, что исторически так сложилось, что Азербайджан находится на стыке двух цивилизаций, европейской и азиатской, что приводит к связи с противоположными двумя цивилизациями, а также к некому «соприкосновению» с различными культурами, мышлением, менталитетом, экономикой и т.д. Это несомненно сыграло свою роль в развитии мультикультурализма в стране еще с прошлых времен. Также тот факт, что на территории нашей страны, еще со времен прошлых столетий, проживало множество различных национальностей, сделало ее многонациональной, что привело к статусу многокультурной страны с толерантными особенностями. Еще с давних времен по отношению к представителям различных народностей и исповедующим отличные друг от друга религиям, проживающим на территории Республики, присутствовала некая терпимость, которая сохранилась и по сей день. Такой исторический фон стал причиной того, что мультикультурализм был присущ Азербайджану еще задолго до того, как это стало общепризнанной моделью.

Еще одним шагом навстречу сохранения мультикультурализма в Азербайджане стало подписание президентом Азербайджанской Республики Ильхамом Алиевым распоряжения об создании и открытии Бакинского Международного Центра Мультикультурализма 15 мая в 2014 году. БМЦМ направлен на сохранение мультикультурных ценностей нашей страны, а также сохранение толерантности, культурного наследия и религиозного разнообразия.

Говоря же об американской модели мультикультурализма, стоит отметить, что США всегда был присущ статус этнокультурного, религиозного и расового разнообразия, поэтому появление такого термина, как «мультикультурализм» в качестве политики в данной стране вполне логично. Говоря о первоначальной форме американской модели мультикультурализма, мы имеем в виду принудительную политику «плавильного котла» или «melting pot», которая была введена в Канаде в середине XX века, начиная с 1960-х годов. Такого рода концепция имела «заступническую» основу, под которой понималось устранение как социальных, так и этнических конфликтов в обществе, что в итоге привело бы к свободному демократическому обществу, где мирно проживают люди отличные друг от друга по своим расовым, этническим и религиозным особенностям. Впрочем, стоит также заметить, что мультикультурализм по своей сути, это не только «культура», но и «язык», однако говоря об американской модели мультикультурализма мы имеем больше отношения именно к «культуре». Это связано с тем, что США, это не только многонациональная страна, но и многоязычная. Здесь говорят на таких языках, как английский, испанский, гавайский, французский, немецкий и так далее, однако вопрос о расовых различиях возникает намного чаще, чем вопрос, связанный с лингвистическим разнообразием. Поэтому, основной целью Американской модели мультикультурализма является именно борьба с расовой дискриминацией и расизмом.

Норма – эта эталон произношения, мерило, стандарт осуществления определенных фонологических моделей слов в потоке речи, главная единица выражения каждой лексемы как языкового знака. Она является моделью, конструкцией, абстракцией и "идеалом" фонетической оболочки слова.

Отождествление инвариантов и вариантов, современные фонологи истолковывают как противопоставленность языка и речи и это приводит к такому выводу, что язык состоит из инвариантов, а речь - из вариантов.

Норма олицетворяет собой "*совокупность наиболее устойчивых традиционных реализаций языковой системы, отобранных и закрепленных в процессе общественной коммуникации*"[7;137].При определении термина "норма" выделяются такие характеристики, как обязательность, престижность и закрепленность, что свойственно нормативному произношению. Понятие нормы в допустимой степени является отно-сительным и приобретает социально-психологический оттенок, поскольку представления о том, какие языковые формы допустимы или неприемлемы, а также о том, какое произношение является приемлемым, могут различаться среди носителей языка.

О.С.Ахманова пишет, "*норма – это принятое речевое употребление языковых средств, совокупность правил (регламентаций), упорядочивающих употребление языковых средств в речи индивида*" [8;46].

Нормативным считается произношение, которое точно соответствует произносительной норме, определяющей перечень вариантов фонем, пределы их вариатив-ности, а также различие между допустимыми и недопустимыми формами произношения. Языковую норму можно объяснить как комплекс явлений, которые разрешены системой языка, выбраны и закреплены в речи носителей языка, и обязательны для всех, кто использует литературный вариант языка в конкретный исторический период.

Норма имеет изменяющийся характер, поскольку со временем она претерпевает различные изменения, как под воздействием внешнеязыковых факторов, так и внутри системы, когда возникают новые формы, постепенно заменяющие устаревшие.

Понятия системы языка и языковой нормы тесно взаимосвязаны. Напомним, что Л. Ельмслев [9;82] впервые ввел термин «языковая норма» как лингвистическое понятие.

Опираясь на идеи Ф. де Соссюра о различении языка и речи, автор аналогично выделяет в системе языка триаду: схема – норма – узус. По его мнению, схема представляет собой сеть синтагматических и парадигматических отношений в языке. Норма же включает в себя узус и речевой акт. По мнению автора, «акт речи и узус логически и практически предшествуют норме; норма возникает из узуса и акта речи, а не наоборот» [10;170]. Далее он утверждает, что схема, норма и узус располагаются в разных плоскостях: схема представляет собой установление, при этом «реализация схемы обязательно становится узусом: как коллективным, так и индивидуальным. Узус – это множество возможных вариантов, из которых в момент речи происходит свободный выбор» [10;173]. Л. Ельмслев, в свою очередь, делает акцент на противопоставлении схемы и узуса.

Идея, изложенная позднее в другом виде в исследованиях Э. Косериу, в современной лингвистике получила научное обоснование. Его системно-структурный подход к проблемам соотношения нормы и системы языка утверждает, что норма объясняется как «имманентная языковая категория, система обязательных и общепринятых реализаций», в то время как система языка представляет собой «набор имеющихся возможностей» [11; 175, 229]. Известно, что языковая система позволяет широкие возможности варьирования звуковой реализации фонем в речи, тогда как норма, по точному определению Э. Косериу, представляет собой совокупность «наиболее устойчивых, традиционных реализаций элементов языковой структуры, отобранных и закрепленных общественной языковой практикой» [11; 143-343], или, образно говоря, общепринятую в данном языке реализацию потенциальных возможностей языковой системы. Следует напомнить, что детальная разработка тернарного противопоставления система-норма-речь принадлежит Э. Косериу. Система определяется им как «система возможностей, координат, которые указывают открытые и закрытые пути» в речи, присущей данному коллективу; норма, наоборот, рассматривается как «система обязательных реализаций», принятых в данном обществе и данной культуре: норма отражает не то, что «можно сказать», а то, что «уже сказано» [11; 173-174]. Если система включает идеальные формы реализации языка, то норма охватывает уже реализованные формы. Следует отметить, что в трехчленном противопоставлении Э. Косериу не всегда четко определены взаимоотношения речи и нормы. Он включает речь в свою концепцию лишь потому, что норма не всегда охватывает все возможные и допустимые реализации. В таком случае нетрадиционные реализации той или иной единицы системы не могут быть отнесены к норме, а должны рассматриваться как часть речи. Поэтому схема должна выглядеть не как система → норма → речь, а как система → норма; система → речь. Из этой схемы видно, что взаимоотношения речи и нормы не определены четко, хотя обе они являются реализациями самой языковой системы.

Академик Л.В. Щерба в своей известной статье «О трояком аспекте языковых явлений и об эксперименте в языкознании» [12; 309] впервые выделяет три элемента: речевую деятельность, языковую систему и языковой материал. Система языка, по его мнению, «есть то, что объективно заложено в данном языковом материале и что проявляется в индивидуальных речевых системах, возникающих под его влиянием» [13; 28]. Опираясь на соссюровскую дихотомию «язык – речь», он вводит понятие «речевая деятельность». Л.В. Щерба считает, что «языковая система и языковой материал являются двумя аспектами речевой деятельности» [13;26]. Это не исключает того, что система выводится непосредственно из речевой деятельности, а норма основывается на языковом материале.

Языковой материал является основой, на которой строится языковая система. Норма не является ни уже, ни шире самой системы языка, так как она ограничивает языковой материал, из которого образуется совокупность языковых единиц и отношений между ними. На основе нормы формируется система языка, состоящая из единиц, с которыми строятся конкретные

модели. Норма также определяет возможные речевые реализа-ции.

Норма представляется как применение моделей системы к акту речи. Систему языка отражает узус – использование языкового материала, соответствующего норме. Таким образом, в конкретном речевом акте система подчиняется норме и выступает как абстрактная схема речевого акта. Норма, являясь средним звеном в триаде, испытывает двойное давление: извне (от узуса) и изнутри (от системы языка). Сжатие с обеих сторон делает равновесие нормы неустойчивым, а ее границы подвижными, что и составляет внутренний механизм динамики системы.

Каждому литературному языку свойственна не только определенная степень стабильности и устойчивости нормативных реализаций, но и совокупность вариативных средств, которые предполагают необходимый выбор. Вариативность играет важную роль в характеристике нормы, а пределы этой вариативности в значительной степени определяют специфику норм разных литературных произношений.

Известно, что при решении вопроса о соотношении фонемы и варианта Н.С. Трубецкой использовал дихотомию языка и речи. Однако в фонологических исследованиях, основанных на этой дихотомии, не учитываются варианты фонем. Такой подход не устраивает представителей щербовской школы, которые решительно отстаивают трихотомический подход к языковым фактам. Как справедливо отмечает Ф. Я. Вейсялли, «вместо бинарного подхода целесообразным и научно обоснованным является трихотомический подход, который исходя из соотношения трех уровней: уровня функциональной системы, уровня нормы и уровня конкретного речевого акта» [14; 8].

Эти уровни имеют свои собственные единицы, образующие диалектическое единство. Уровень конкретного речевого акта представлен звуками, которые являются «отдельными», варианты, как единицы уровня нормы, представляют собой «особое», а фонемы, как элементы функциональной системы, выступают как «общее». Определение фонемы как «общего», варианта как «особого» и звука как «отдельного» основывается на диалектическом подходе к фундаментальным понятиям фонологии [55].

Основной причиной разногласий при определении варианта является то, что проблема варьирования часто решается через установление соотношения вариантов и нормы, которая, в свою очередь, определяется лингвистами по-разному.

## ЛИТЕРАТУРА

1. Косериу, Э. Синхрония, диахрония и история // Новое в лингвистике. – 1963. – Вып. 3. – с.143-343.

2. Горбачевич, К.С. Вариантность слова как лексико-грамматический феномен (На материале современного русского языка) // Вопросы языкознания. – 1975. №1, – с.55-64.

3. Вербицкая, Л.А. Русская орфоэпия: к проблеме экспериментальнофонетического исследования особенностей современной произносительной нормы / Л.А.Вербицкая. – Ленинград: Изд-во Ленингр. ун-та, – 1976. – 124 с.

4. Вейсалов (Вейсялли), Ф.Я. Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы) / автореф. дис. … д-ра филол. наук) / – Ленинград, 1980. – 35 с.

5.Вейсалов, Ф.Я. Фонетическая вариантность и фонемная идентификация // Материалы республиканской научной конференции: "Функциональные и конструктивные уровни языковой системы" (18-19 ноября 1980 г.), – Баку: – 1981, – с.60-62.

6. Мартине, А. Принцип экономии в фонетических изменениях. (Проблемы диахронической фонологии) // Издательство иностранной литературы. – Москва: – 1960. – 264 с.

7.Лингвистический энциклопедический словарь / Главный редактор В.Н.Ярцева. – Москва: Советская энциклопедия, – 1990. – 683 с.

8.Ахманова, О.С. Очерки по общей и русской лексикологии / О.С.Ахманова. – Москва: Учпедгиз, – 1957. – с.104-165.

9.Ельмелев, Л. Пролегомены к теории языка // Новое в лингвистике, – Москва: – 1960. – Т.1. – с.264-389.

10.Ельмслев, Л. Язык и речь // Пролегомены к теории языка: Пер. с англ. / Сост. В.Д.Мазо. – Москва: – 2006. – с.164-174. (Лингвистическое наследие XX века) (Впервые на рус. яз. опубликовано в кн.: Звегинцев, В.А. История языкознания XIX и XX веков в очерках и извлечениях / В.А.Звегинцев. Часть II. – Москва: Государственное учебно-педагогическое издательство Министерства просвещения РСФС.

11.Косериу, Э. Синхрония, диахрония и история // Новое в лингвистике. – 1963. – Вып. 3. – с.143-343.

12.Щерба, Л.В. Фонетика французского языка: очерк французского произношения в сравнении с русским / Л.В.Щерба. – Москва: Высшая школа, – 1963. – 309 с.

13.Щерба, Л.В. Языковая система и речевая деятельность / Л.В.Щерба. – Ленинград: Наука, – 1974, – 428 с.

14.Вейсалов (Вейсялли), Ф.Я. Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы) / автореф. дис. … д-ра филол. наук) / – Ленинград, 1980. – 35 с.

**Aytən Rafail qızı CƏFƏROVA**
Bakı Slavyan Universiteti

## DÜNYANIN DİL MƏNZƏRƏSİ ANLAYIŞI

**Xülasə**

Məqalə nəzəri dilçilikdə "dünyanın dil mənzərəsi" probleminə həsr olunub. "Dünyanın dil mənzərəsi" termini, onun anlamları əsaslı şəkildə təhlil olunmuşdur. Bu anlayışla bağlı konsept, konseptosfera, linqvistik şüur kimi terminlər müqayisəli təhlilə cəlb olunmuşdur. Məqalədə bu nəticəyə gəlinir ki,"dünyanın dil mənzərəsi"! yuxarıda qeyd olunan terminlərlə nə qədər yaxın olsalar da fərqli xüsusiyyətlərə malikdir və linqvistik cəhətdən uğurlu termindir.

**Açar sözlər:** *dünya, dil, mənzərə, struktur, linqvistik.*

### Giriş

Dünyanın, ətraf gerçəklik haqqında biliklərin dil strukturlarında toplanması və onların vasitəsi ilə müxtəlif konseptlərdə eksplikasiyası dünyanın dil mənzərəsini yaradır. Xalqın mental dünyasının dərkində mədəniyyət konseptlərindəki məlumatlar olduqca vacibdir. Bəzən "dünyanın dil mənzərəsi" terminini başqa bir termin ilə əvəz edirlər. Bu, "linqvistik şüur" terminidir. Bu terminlərin tez-tez bir-birini əvəz etməsinə, baxmayaraq ,bu əvəzlənmə məntiqli görünmür. Dünyanın dil mənəzrəsini dünyanın mənzərəsinə bənzətmək olar. Bu terminlər bir sıra yönlərinə görə bənzərlik təşkil etsələr də, onları sinonim hesab etmək olmaz. Bəzən dünyanın dil mənzərəsi və konseptsfer terminlərini eyniləşdirirlər. Lakin "dünyanın dil mənzərəsi" hər bir xalqın sahib olduğu ətraf aləm haqqında məlumatların cəmi, "konseptsfer" isə həmin məlumatların müəyyən qrup halında təsnifləndirilməsidir. Müxtəlif dillər hər hansı bir əşyanı, məfhumu yalnız fərqli şəkildə adlandırmaqla kifayətlənmir, bununla bərabər həmin əşyanı müxtəlif formada təcəssüm etdirir. Bu baxımdan da belə nəticəyə gəlirik ki, hər bir cəmiyyət öz dünya mənzərəsinə sahibdir. Bu mənzərə sayəsində cəmiyyətdə olan hər bir fərdin ətraf aləmə, təbiətə, yer üzünə, yaşama olan baxışı, dünyagörüşü dəyişir, inkişaf edir. İnsanın

dünyanın dil məzərəsinin tədqiqat subyekti olması dünyanın dil mənzərəsinin özünəxas özəlliklərindən biri hesab edilir.

**Əsas mətn**

Dil mənzərəsi insanın qazandığı biliklərin konseptlərdə təmsil olunmasıdır. Dünyanın dil mənzərəsinin tərifi, onun diferensiallaşdırılması üçün ən mühüm əsaslardan birini-onun fərdiləşmə dərəcəsini müəyyən etməyə imkan verir. Fərdiləşdirmənin üç əsas dərəcəsi müəyyən edilib: Bolqar dilində danışan tək bir insanın dünyasının dil mənzərəsi, bolqar dilində danışan müəyyən bir qrupun dünyasının linqvistik mənzərəsi (peşəkar və ya nəsil cəmiyyəti) və sonda, bütün bolqar üçün ortaq olan dünyanın dil mənzərəsi.

Dünyanın, ətraf gerçəklik haqqında biliklərin dil strukturlarında toplanması və onların vasitəsi ilə müxtəlif konseptlərdə eksplikasiyası dünyanın dil mənzərəsini yaradır. Xalqın mental dünyasının dərkində mədəniyyət konseptlərindəki məlumatlar olduqca vacibdir. Bəzən "dünyanın dil mənzərəsi" terminini başqa bir termin ilə əvəz edirlər. Bu, "linqvistik şüur" terminidir. Bu terminlərin tez-tez bir-birini əvəz etməsinə, baxmayaraq bu əvəzlənmə məntiqli görünmür. Dünyanın dil mənəzrəsini dünyanın mənzərəsinə bənzətmək olar. Bu terminlər bir sıra yönlərinə görə bənzərlik təşkil etsələr də, onları sinonim hesab etmək olmaz. Bəzən dünyanın dil mənzərəsi və konseptsfer terminlərini eyniləşdirirlər. Lakin "dünyanın dil mənzərəsi" hər bir xalqın sahib olduğu ətraf aləm haqqında məlumatların cəmi, "konseptsfer" isə həmin məlumatların müəyyən qrup halında təsnifləndirilməsidir. Müxtəlif dillər hər hansı bir əşyanı, məfhumu yalnız fərqli şəkildə adlandırmaqla kifayətlənmir, bununla bərabər həmin əşyanı müxtəlif formada təcəssüm etdirir. Bu baxımdan da belə nəticəyə gəlirik ki, hər bir cəmiyyət öz dünya mənzərəsinə sahibdir. Bu mənzərə sayəsində cəmiyyətdə olan hər bir fərdin ətraf aləmə, təbiətə, yer üzünə, yaşama olan baxışı, dünyagörüşü dəyişir, inkişaf edir. İnsanın dünyanın dil məzərəsinin tədqiqat subyekti olması dünyanın dil mənzərəsinin özünəxas özəlliklərindən biri hesab edilir.

Dil mənzərəsi insanın qazandığı biliklərin konseptlərdə təmsil olunmasıdır. Dünyanın dil mənzərəsinin tərifi, onun diferensiallaşdırılması üçün ən mühüm əsaslardan birini-onun fərdiləşmə dərəcəsini müəyyən etməyə imkan verir. Fərdiləşdirmənin üç əsas dərəcəsi müəyyən edilib: Bolqar dilində danışan tək bir insanın dünyasının dil mənzərəsi, bolqar dilində danışan müəyyən bir qrupun dünyasının linqvistik mənzərəsi (peşəkar və ya nəsil cəmiyyəti) və sonda, bütün bolqar üçün ortaq olan dünyanın dil mənzərəsi. Dünyanın, ətraf gerçəklik haqqında biliklərin dil strukturlarında toplanması və onların vasitəsi ilə müxtəlif konseptlərdə eksplikasiyası dünyanın dil mənzərəsini yaradır. Xalqın mental dünyasının dərkində mədəniyyət konseptlərindəki məlumatlar olduqca vacibdir. Bəzən "dünyanın dil mənzərəsi" terminini başqa bir termin ilə əvəz edirlər. Bu, "linqvistik şüur" terminidir. Bu terminlərin tez-tez bir-birini əvəz etməsinə, baxmayaraq bu əvəzlənmə məntiqli görünmür. Dünyanın dil mənəzrəsini dünyanın mənzərəsinə bənzətmək olar. Bu terminlər bir sıra yönlərinə görə bənzərlik təşkil etsələr də, onları sinonim hesab etmək olmaz.

Çünki bu qeydlər məsələ ilə əlaqəli sadəcə olaraq müəyyən nöqteyi-nəzərdir. Bəzən dünyanın dil mənzərəsi və konseptsfer terminlərini eyniləşdirirlər. Lakin "dünyanın dil mənzərəsi" hər bir xalqın sahib olduğu ətraf aləm haqqında məlumatların cəmi, "konseptsfer" isə həmin məlumatların müəyyən qrup halında təsnifləndirilməsidir. Müxtəlif dillər hər hansı bir əşyanı, məfhumu yalnız fərqli şəkildə adlandırmaqla kifayətlənmir, bununla bərabər həmin əşyanı müxtəlif formada təcəssüm etdirir. Bu baxımdan da belə nəticəyə gəlirik ki, hər bir cəmiyyət öz dünya mənzərəsinə sahibdir. Bu mənzərə sayəsində cəmiyyətdə olan hər bir fərdin ətraf aləmə, təbiətə, yer üzünə, yaşama olan baxışı, dünyagörüşü dəyişir, inkişaf edir. İnsanın dünyanın dil məzərəsinin tədqiqat subyekti olması dünyanın dil mənzərəsinin özünəxas özəlliklərindən biri hesab edilir.

Dünyanın linqvistik mənzərəsi müxtəlif vasitələrlə yaradılır, xüsusən frazeoloji birləşmələr, metaforik sözlərlə, konnativ sözlərlə yaradılır. Son dövrlərdə əksər dilçilər leksika və frazeologiyanı bu kontekstdə öyrənirlər. Dünyada nə qədər dil varsa, bir o qədər də dil mənzərəsi vardır. Dünyanın

milli mənzərəsi yad mədəniyyətlər üçün bağlıdır, lakin başqa dillər öyrənilərkən müəyyən qədər həmin dillərə aid dil mənzərəsi barədə biliklər əldə etmək olur. Dünyanın milli mənzərəsi milli xarakterin və mentallığın əksidir.

"Dünyanın mənzərəsi" anlayışı insanın özü qədər qədimdir. Bu fenomen həmişə insanın həyatında onu əhatə edən aləmi fəal öyrənmək qavramaq baxımından xüsusi mahiyyət kəsb etmişdir. Hərçənd ki, o, insanın ətraf mühitdən ayrıldığı vaxtdan ("mən" və "dünya" arasında əlaqənin dərk olunduğu vaxtdan) yaranmışdır, İlkin olaraq bu anlayış təbiətin obyektiv qanunlarının dərk olunması ilə məşğul olan elmlər çərçivəsində yaranmışdır.

Bu termin XIX əsrin sonlarında, XX əsrin əvvəllərində fiziklər tərəfindən irəli sürülmüşdur və gündəlik elmi həyata H.Hers tərəfindən daxil edilmişdir. Fəlsəfədə ümumiləşmiş şəkildə dünya mənzərəsi dedikdə təbiət və onun fundamental qanunları, xüsusiyyətləri haqqında sistemləşdirilmiş, vahid anlayış nəzərdə tutulur

**Nəticə**

Müasir dilçilik dünyanın linqvistik mənzərəsini iki şəkildə təsəvvür edir. Birincisi, obyektivizmdən ibarətdir. Bu prinsipə görə, dil dünyanın mənzərəsinin təşkiledicisi yox, insan fəaliyyəti zamanı onun ifadəedicisidir. İkincisi isə subyektivizmdir. Bu prinsipə görə, dünyanın linqvistik mənzərəsi dil tərəfindən əks olunan ikinci dünyadır. İnsan gündəlik dil mənzərəsini yaradan dillə nəinki arzularını dünya haqqındakı reallıqları, həm də yanlışlıqları, fantaziyasını, ifadə edir. Dünyanın mənzərəsinin bu cür anlamının mahiyyəti obyektivlik tələb etmir. Ümumiyyətlə, dünyanın linqvistik mənzərəsi abstraktdır və o, yalnız milli dillər əsasında izah reallaşır. Göründüyü kimi, dünyanın dil mənzərəsi A.A.Potebniyanın "Dil izolə olunmuş fenomen deyil, o, xalqın mədəniyyəti ilə sıx bağlıdır", – konsepsiyası ilə çox dəqiq ifadə olunmuşdur [1, s.21].

**Ədəbiyyat:**

1.Потебня, А.А. Мысль и язык / А.А.Потебня. Харьков, –1982. – 192 с.
2.Современные проблемы наки и образования: [электронный ресурс] / https://science-education.r.



**Gülsüm ƏFƏNDİYEVA**
Elmi rəhbər: b.ü.f.d. Natəvan Kərəmova
Qərbi Kaspi Universiteti
E-mail: gulsum.efendiyeva2005@gmail.com

# TƏLƏBƏLƏRDƏ YADDAŞ VƏ HƏYƏCAN GÖSTƏRİCİLƏRİ

**Summary**

The article presented herein forms a segment of a broader research endeavor undertaken by the young researchers of the "Science Group" at Western Caspian University. The primary objective of our investigation was to scrutinize the impact of anxiety indicators on memory performance. Participants in our study comprised students aged 17-21 years, enrolled in diverse courses. A key impetus for our research was to explore the temporal effects of stress and arousal levels on memory functionality. Somatic alterations occurring within our body at optimal excitement levels positively influence the enhancement of our cognitive functions, thereby boosting our productivity, albeit within certain limits.

**Key words:**exam stress, optimal level of excitement, individual excitement, situational excitement, short-term memory.

**Giriş**

Həyəcan vəziyyətdən asılı olaraq orqanizmin  cavab reaksiyasıdır. Beyində fəaliyyətə başlamazdan əvvəl və hadisə baş verdikdən sonra aktivləşməni göstərən xüsusi bölgələr var. Beynimizin daha dərin qatlarında yerləşən və həyəcan anında iştirak edən başqa sahələridə mövcutdur. Həyəcan zamanı alınan ilk reaksiya  sinir sisteminin adrenalin, noradrenalin,  və kortizon kimi hormonların ifrazını qıcıqlandırması ilə başlayır. Bu stressə hazırlıq vəziyyəti kimi də qiymətləndirilə bilər [1]. Yerkes-Dodson qanunu fərdin məhsuldarlığı və həyəcanı arasında birbaşa əlaqəni göstərir. Bu qanuna görə, yüksək səviyyədə oyanma fərdin fəaliyyətini müəyyən nöqtəyə qədər təkmilləşdirə bilər. Yerkes-Dodson Qanunu iddia edir ki, məhsuldarlıq və həyəcan arasında birbaşa əlaqə var. Psixoloqlar Robert M. Yerkes və John Dillingham Dodson bu qanunu 1908ci ildə inkişaf etdirdilər. Yerkes-Dodson Qanununda deyilir ki, məhsuldarlıq fizioloji və ya zehni oyanma ilə artır, ancaq müəyyən bir nöqtəyə qədər. Həyəcan səviyyəsi çox yüksək olduqda, performans azalır. Bu qanuna görə, həyəcanı və performansı artırmağın ən yaxşı yolu ayıq qalmağımıza imkan verən tapşırıqlar üzərində işləməkdir [5].

Bəzi tədqiqatlardada imtahan həyəcanının təcrübədən asılı olaraq intensivliyinin dəyişdiyi göstərilir. İlk imtahan zamanı olan həyəcan səviyyəsi uzun müddətli təcrübələrdən sonra tədricən azala bilər. Zadar Universitetində aparılmış bir araşdırmada psixologiya tələbələrinin eyni rübdə verdikləri  imtahanlarda stress səviyyələrində böyük bir dəyişiklik olmayıb. Lakın nəzərə alınsa ki, bir rübdə imtahanlar arası müddət qısadır bu nəticə tam da doğru hesab olunmaz [6] . O səbəbdən bu hadisə uzun müddətli bir araşdırmada tədqiq olunur . Carreras, P. və Fernandez Castro birinci və ikinci kurs universitet tələbələrində imtahan stressinə uyğunlaşma üzərində tədqiqat aparır. Nəticədə birinci kurs tələbələrinin həyəcan səviyyələri ikinci kurs tələbələrinin həyəcan səviyyələrinə nisbətdə yüksək çıxır [7].

Həyəcan halının emosional tənzimləmə mexanizmini öyrənmək  işin əsas məqsədidir. Həyəcanın dərk edilməsinin emosiyaların tənzimlənmə strategiyaları və fərdlərin sıx müsbət

emosiyaları necə idarə etmələri haqqında fikirlər verə bilir. Həyəcan çox vaxt sosial kontekslərdə, məsələn yığıncaqlarda və ya qrup fəaliyyətləri zamanı yaşanır. Həyəcanın öyrənilməsidə bizə onun sosial əlaqə və ünsiyyətdəki rolunu anlamağada kömək edir.

**Əsas mətn**

Yaddaş göstəricilərin həyəcan səviyyəsindən asıllığını tədqiq etmək üçün ilk olaraq Spilberqer-Xanin hazırladığı situativ və fərdi həyəcan testlərindən istifadə etmişik. İnterpretasiya zamanı nəticəni belə qiymətləndirilməlidir: 30-a qədər - aşağı həyəcanlılıq, 31-45 – orta həyəcanlılıq, 46 və ondan çox isə yüksək həyəcanlılıqdır.

Bizim tədqiq etdiyimiz kurslardakı şəxslərdə 17-21 yaş aralığına daxildir. Tədqiqatımız Qərbi Kaspi Universitetində təhsil alan I, II, III, IV kurs tələbələri üzərində aparılıb. Hər kursda ortalama 25 nəfər üzərində test tətbiq olunub. Tədqiqatlar imtahanın həyəcana təsiri öyrənmək üçün imtahan sesiyyasından əvvəl, adi dərs günlərindən birində keçirilib.Bütün tələbələr eyni şəraitdə testləşdirmə prosesinə cəlb edilib.

Tədqiqatların nəticələrinin statistik işlənməsi zamanı məlum olmuşdur ki, I kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 34,75 bal , fərdi həyəcan göstəricisi 38.7 bal; II kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 42.25 bal, fərdi həyəcan göstəricisi 44.3 bal; III kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 40.35 bal, fərdi həyəcanı 42.1 bal; IV kurs üzrə təhsil alan tələbələrin isə situativ həyəcan səviyyələri 41.82 bal və fərdi həyəcanı 46.3 bal olmuşdur.

Həyəcanın koqnitiv funksiyalar üzərindəki təsirini öyrənmək üçündə qısa müddətli yaddaşı tədqiqi edən " Ədədə görə yaddaş testi" -dən istifadə etdik. Bu test vasitəsi ilə qısamüddətli vizual yaddaşı, onun həcmini və dəqiqiliyini qiymətləndirmək mümkündür. Yetkin şəxslər üçün norma hüdudu 7 ±2 bal sayılır. Nətəcədə qısa müddətli yaddaş I kurs üzrə təhsil alan tələbələrdə 8.02 bal, II kurs üzrə təhsil alan tələbələrdə 8.25 bal , III kurs üzrə təhsil alan tələbələrdə 8.95 bal, IV kurs üzrə təhsil alan tələbələrdə 8.07 bal göstərilir.

**Nəticə**

Ümumilikdə, aparlan tədqiqatların əldə edilən nəticələrində yaş artdıqca situativ və fərdi həyəcanda yüksəlmə müşahidə olunur. Tədqiqatımızın imtahandan əvvəli adi dərs günülərində aparıldığını və tələbələrin imtahan hazırlığı mərhələsində olduğunu nəzərə alsaq bu optimal həyəcan səviyyəsi sayıla bilər. Optimal həyəcan səviyyəsində orqanizmdə baş verən somatik dəyişikliklər koqnitiv funksiyaların həmçinin yaddaş proseslərinin məhsuldarlığının artmağına da müsbət təsir edir. Optimal həyəcan səviyyəsindən yuxarı həyəcan səviyyəsi isə, əksinə məhsuldarlığın və yaddaş funksiyarının daha da zəifləməsinə səbəb olcaq. Yerkes-Dodson qanununda da deyilir ki, həyəcan koqnitiv proseslərin məhsuldarlığına səbəb olur , ancaqhəyəcanın müəyyən səviyyəsinə qədər və bu səviyyə hər birinsan üçün optimal həyəcan səviyyəsi sayılır. Həyəcan səviyyəsi çox yüksək olduqda, optimal səviyyəni keçdikdə əks proses koqnitiv funksiyalarda eniş müşahidə olunur.Beləliklə, tədqiq olunan tələbələrdə optimal həyəcan səviyyəsinin yaddaş proseslərini aktivləşdirdiyini müşahidə etdik. Qısa müddətli yaddaş göstəricisinin normadan yüksək olması və orta həyəcan səviyyəsi tədqiq olunan tələbələrin praktiki sağlam olmasını, beyinin funksional aktivliyini və lazım olan anda koqnitiv proseslərin aktivləşməsinə imkanı olduğunu qübut etdi. Ümumilikdə, yaddaş proseslərinin həyəcan prosesləri ilə əlaqəli olması qeyd olundu.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Kərəmova N.Y. Stress və onun koqnitiv proseslərlə qarşılıqlı əlaqələrinin tədqiqi problemi. Gənc alimlərin əsərləri, Bakı, №7, 2013, səh.221-228.
2. Искакова У.Б., Абишева З.С., Журунова М.С., Жетписбаева Г.Д., Исмагулова Т.М. Ситуативная тревожность и психо-эмоциональное состояние студентов во время рубежного контроля // Международный журнал прикладных и фундаментальных исследований. – 2016. – № 11-5. – С. 900-902;
3. Proceedings of the I International Scientific and Practical Conference 27-28 February 2024 Madrid.Spain 2024 p 117-118.
4. Vivian, N.G., Koh, D., and Chia, S.E., Examination Stress, Salivary Cortisol, and Academic Performance, Psychol. Rep., 2003, vol. 93, p. 1133.
5. Yerkes RM, Dodson JD. The relation of strength of stimulus to rapidity of habit-formation. J.Comp.Neurol.Psychol. 1908;18:459–482.
6. Exam Experience and Some Reactions to Exam Stress1 N. Šimic and I. Manenica University of Zadar Department of Psychology Krešimirova obala 2, Zadar, Croatia Received June 20, 2011
7. Carreras, P. and Fernandez Castro, J., Adaptation to Examination Stress in First and Second Year University Students, Stud. Psychol., 1998, vol. 40, p. 181


**Fidan AĞAZADƏ**
Odlar Yurdu Universiteti
Pedaqoji psixologiya ixtisası üzrə magistrantı
E-mail: fidanrustamova5@gmail.com

## ŞAGİRDLƏRİN FƏRDİ XÜSUSİYYƏTLƏRİNİN ONLARIN PEŞƏ HAZIRLIĞINA TƏSİRİ

**Summary**

In the study, the influence of individual characteristics of students on their future professional preparation is brought to the center of attention. The research conducted here is systematized based on certain criteria. It is shown that it is noted that the increase in students' desire for self-actualization and intensive development in the field of education and professional activity has a serious effect on their professional preparation and choice. The article shows that when relationships between personalities are properly established in professional activities, when the psychological characteristics, motivations, needs, goals, and inclinations of each student are taken into account, a healthy psychological environment is formed in the group, and a moral-psychological environment is formed in the group. , the norms of moral and social behavior are followed correctly, and the productivity and efficiency of the activity increases. Therefore, by using the formula of motivation to achieve success in students, it is possible to ensure the adequacy of their professional choice.

**Key words:** students, individual characteristics, professional training, personal values

**Giriş**

Mövcud təhsil sistemində islahatların əsası gələcək peşəkar fəaliyyətdə şəxsiyyətin - onun dəyər istiqamətlərinin, mənalarının, ideallarının formalaşmasına vahid yanaşma ehtiyacını nəzərdə tutan orta məktəblərdə tədris prosesinin humanistləşdirilməsidir.Şəxsiyyətyönümlü psixologiyanın əsas vəzifəsi gələcək mütəxəsissin özünə, başqalarına, ətraf aləmə və gələcək peşə fəaliyyətinə münasibətini müəyyən etməkdə kömək etməkdən ibarətdir. Pedaqoji psixoloqların şagirdlərin peşə fəaliyyətinə psixoloji hazırlığının inkişafı şərtlərinin öyrənilməsinin aktuallığı bir sıra amillərlə bağlıdır.Həmin amillərə fərdi inkişaf prosesinin inkişafı üçün əsas olan daxili şərtlər, şagirdlərin peşəkar inkişafını müəyyən edən dəyər yönümləri, maraqlar, münasibətlər və s. ilə xarakterizə olunan sabit motivlər toplusu daxildir. Bununla yanaşı nəzərə almaq lazımdır ki, şagirdlərin təhsil və peşə fəaliyyəti sahəsində özünü həyata keçirmə, böyümə və intensiv inkişaf istəyini artıracaq,tələbələrin inkişafında sistem formalaşdıran amil olan peşəkar keyfiyyətlərin, bilik və bacarıqların formalaşdırılmasını, habelə gələcək peşəkar fəaliyyətə marağınını təmin edəcəkdir.Bu baxımdan mövzu olduqca aktualdır.

**Əsas mətn**

Psixoloji hazırlıq əmək subyektinin resurslarının konkret fəaliyyəti yerinə yetirmək üçün səfərbər edilməsi ilə xarakterizə olunan vəziyyətdir. İlyasov M., Kabaçenko T., Mitina L.M., R.V.Cabbarov və başqaları hesab edirlər ki, hazırlığın idrak komponentinin formalaşması arzuolunmaz davranışa alternativlərini və şəxsi və peşəkar bacarıqlarını inkişaf etdirmək ehtiyacını başa düşməyə və qiymətləndirməyə imkan verir [1; 2; 3; 4;7;9;12;14]. İ.A. Zimnyayanın tədqiqatları əsasında güman edə bilərik ki, peşəkar fəaliyyətə hazırlığın idrak komponenti aşağıdakı bacarıqlara əsaslanır: analitik - sintetik - yaranan situasiyaları təhlil etmək, problemləri müəyyən etmək və onların həlli yollarını müəyyən etmək bacarığı, metodoloji bilikləri təsnif etmək, sistemləşdirmək bacarığı; proqnozlaşdırıcı – seçilmiş vasitələrin, formaların, metodların və üsulların effektivliyini proqnozlaşdırmaq bacarığı, metodoloji bilik, bacarıq və bacarıqları yeni şəraitdə tətbiq etmək bacarığı; konstruktiv və dizayn - özünütəhsil prosesini qurmaq və qurmaq bacarığı, özünə təsir üsul və üsullarını seçmək, özünütəhsil fəaliyyətini planlaşdırmaq bacarığı [6]. Buna görə hazırlığın idrak komponenti şagirdlərə öz peşə imkanlarını müəyyən etmək, vəziyyəti yaradıcı şəkildə qiymətləndirmək və proqnozlaşdırmaq bacarığı, peşəkar inkişaf imkanları və üsulları haqqında biliklər daxildir. Bir çox tədqiqatçıların fikrincə, motivasiya-dəyər komponenti hazırlığın strukturunda ən əhəmiyyətli xarakterə malikdir[13].

A.K.Markova görə, geniş kontekstdə motivasiya onun iki tərkib aspekti - məzmun və dinamiklik ilə xarakterizə olunur. Dar mənada, konkret məqsəd qoyulmasını müəyyən edən fəaliyyətə olan ehtiyacdan və fəaliyyətdən kənar motivdən ibarətdir. Bu iki komponentin ziddiyyətli vəhdəti istənilən konkret fəaliyyətin hərəkətverici qüvvəsidir [10;11;14]. Aparılmış tədqiqatlar göstərir ki, psixoloji hazırlıq əmək subyektinin resurslarının konkret fəaliyyəti yerinə yetirmək üçün səfərbər edilməsi ilə xarakterizə olunan vəziyyətdir [10]. Tədris fəaliyyətinin növlərinin tədris-idrakdan tədris-tədqiqat yolu ilə tədris-peşə fəaliyyətinə keçməsi zamanı fəaliyyətin predmeti və onun motivləri dəyişir. L.I. Bojovich hesab edir ki, təhsil fəaliyyəti inkişaf etdikcə onun mənası "psixoloji cəhətdən həlledici" olur və motivasiya funksiyasını alır. Motiv "keçici, təsadüfi xarici stimul" deyil, şəxsi formalaşmaya çevrilir [5, s. 51]. Bu baxımdan, şagirdlərin peşə hazırlığının motivasiya komponentinin strukturunda

müxtəlif motivasiya formalarını ayırd etmək olar. Peşəkar fəaliyyətə hazırlığın qiymətləndirici komponentinin öyrənilməsi də bu baxımdan öz şəxsiyyətimizə aid etdiyimiz keyfiyyətlərin həmişə obyektiv olmadığına əsaslanır [8]. Özünü xarakterizə etmək cəhdlərində, bir qayda olaraq, güclü şəxsi qiymətləndirmə elementi var.bütün bunları nəzərə alıb qeyd etmək olar ki, şağirdlərin peşə hazırlığı müxtəlif amillərin təsiri ilə baş verir və müxtəlif mərhələrədən keçir.

**Nəticə**

Tədqiqatda Səbail rayonu 20 nömrəli məktəbin 9-11-ci sinif şagirdləri iştirak ediblər: Subyektlərin ümumi sayı 100 nəfər olub. Qeyd etmək lazımdır ki, mövzuların tərkibi tədqiqatımızın vəzifəsi – şagirdlərin təhsillərinin müxtəlif mərhələlərində peşə fəaliyyətinə psixoloji hazırlığının komponentlərinin struktur xüsusiyyətlərini müəyyən etmək nəzərə alınmaqla seçilmişdir. Şagirdlərin peşəkar inkişafa münasibətini nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, özünüdəyişdirmək üçün əsas stimul əsasən idrak komponentidir. Qavranılan məlumatların həcminin artması sayəsində tələbələr anlamaq və anlamaq imkanı əldə edirlər arzuolunmaz davranışa alternativləri və peşəkar fəaliyyətlə bağlı şəxsi və peşəkar imkanlarının böyüməsini qiymətləndirmək. İdrak komponentinin inkişaf səviyyəsini öyrənmək üçün D. Saks və S. Levinin "Yarımçıq cümlələr" metodundan istifadə edərək müəllim-psixoloqun peşəkar əhəmiyyətli keyfiyyətləri haqqında əlavə məlumatları təqdim edək. Bu məlumatlar Cədvəl 1-də təqdim olunur.

**Cədvəl 1.**

**9-11-ci sinif şagirdlərinin peşəkar əhəmiyyətli keyfiyyətləri haqqında təsəvvürləri (%)**

| N | Peşəkar əhəmiyyətli keyfiyyətlər | IX sinif | Xısinif |
|---|---|---|---|
| 1 | Həyatsevər | 25% | 2% |
| 2 | Ünsiyyətcil | 6% | 3% |
| 3 | Öz işinin mütəxəsissi | 10% | 23% |
| 4 | Xeyrxah | 4% | 4% |
| 5 | Uşaqlar üçün ideal | 16% | 20% |
| 6 | Məsuliyyət hissi | 6% | 4% |
| 7 | Peşəkar inkişafa cəhd | 6% | 26% |
| 8 | İstənilən problemi həll etmək qabiliyyəti | 2% | 7% |
| 9 | Balanslı | 5% | 1% |
| 10 | Özünəəmin | 3% | 1% |
| 11 | Ünsiyyətə açıqdır | 6% | 8% |
| | Dözümlü | 1% | 1% |

Nəticələrin təhlili göstərir ki: bütün şagirdlər hesab edir ki, hər hansı bir pedaqoji psixoloq birinci kurs tələbələrinin adətən IX sinif şagirdləri daha çox şəxsi keyfiyyətlərə diqqət yetirirlər. XI sinif şagirdləri isə daha çox peşəkar əhəmiyyətli şəxsiyyət xüsusiyyətlərinə diqqət yetirirlər. Onu güclü, daim inkişaf edən şəxsiyyət (23%), peşəkar qabiliyyətlərə, bilik və bacarıqlara malik (26%) kimi xarakterizə edirlər. Beləliklə, XI sinif şagirdləri ümumiyyətlə mütəxəsiss şəxsiyyətinə xas olan peşəkar keyfiyyətlər haqqında lazımi biliklərə malikdirlər.Tədqiqat nəticəsində müəyyənləşdirildi ki, peşəkar fəaliyyətdə şəxsiyyətlərarası münasibətlər düzgün qurulduqda, hər bir şagirdin

psixoloji xüsusiyyətləri, fəaliyyət motivləri, tələbatları, məqsədi, meyli nəzərə alındıqda qrupda həm sağlam psixoloji mühit formalaşır, həm mənəvi-psixoloji, əxlaqi və sosial davranış normalarına düzgün əməl olunur, həm də fəaliyyətin məhsuldarlığı, onun səmərəliliyi yüksəlir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Maarif, 1989, 540 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Qapp-Poliqraf, 2003, 356 s.
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi (monoqrafik tədqiqat). Bakı: Təhsil, 2008, 136 s.Климов Е.А Как выбрать профессии. М.: Академия, 2005, 220 с.
4. İlyasov M. Peşə , sənət və ixtisas seçmə haqqında söhbətlər. Bakı:2024, 325 s.
5. Божович Л.И. Проблема развития мотивационной сферы ребенка//Изучение мотивации поведения детей и подростков. М., 1972.
6. Зимняя И.А. Личностно-деятельностный подход в обучении русскому как иностранному//Русский язык за рубежом. 1985. № 5.
7. Кабаченко Т. Н. Психологические трудности и ошибки при выборе профессии // Учителям и родителям о психологии подростка.М.: Высш. шк., 1990, с. 154-178
8. Кон И.С. Психология старшеклассника.М.: Просвещение, 1993, с.367.
9. Митина Л.М. Учитель как личность и профессионал. М., 1994
10. Маркова А.К. Психология профессионализма. М., 1996
11. Aliyeva K.R., Cabbarov R.V.Socio-psychological issues of changing values in adolescents-youth in education. Práxis Educacional, 2020, 3(27), 578-590 DOI: 10.224-81/praxisedu.v16i37.6406
12. Jabbarov R.V. Psychological direction of the formation of multicultural values. Revista on line de Política e Gestão Educacional, 2021, 3 (1), 620-637 file:///C:/Users/ACER/Down-loads/24_+ID+15003+RPGE.+Rashid_FT+(rev)%20(1).pdf
13. Jabbarov, R., Valiyeva Y., Nasirova N., Kazimova K. (2020). The creation of feedback in training as a mobilizing factor for the cognitive activity of students. Revista de Investigación Apuntes Universitarios. 10(1), 207 -221 DOI:https://doi.org/10.17162/au.v12i3.1107
14. Vakil, J. R. (2021). Psychologicla direction of the formation of multicultural values. Revista on line de Política e Gestão Educacional, 25(1), 620-637. https://doi.org/10.22633/r-pge.v25iesp.1.15003

**Günay Fəzail AĞAMALI**
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin doktorantı
E-mail: gunayagamali@mail.ru

## TƏFƏKKÜRÜN MÜSTƏQİLLİYİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARINA DAİR

**Summary**

It is noted in the article that the study of independence of thinking in preschool children has a significant impact on the general development of children's personality. Even preschool children, when favorable conditions arise, are able to understand the essence of cognitive objects, draw some conclusions from them, find errors and inconsistencies, make certain

judgments about the reasons that created them. Therefore, it is necessary to put in front of preschool children problems that gradually become more difficult and require relatively intense mental activity, and direct them to solve them independently.
**Key words:** thinking, child, school, teacher, independence, activity, practical activity

**Giriş**

Təfəkkürün müstəqilliyi çox mühüm əqli keyfiyyətlərdən biridir. Müstəqillik məfhumu çoxşaxəli olub insan fəaliyyətinin bir çox sahələrini əhatə edir. Təfəkkür sahəsində olan müstəqilliyə insanın özlərinə məxsus fikir və düşüncəsində digərlərinin kor-koranə təqlid eləməməsi, onları düzgün şəkildə qiymətləndirməsi müxtəlif məsələyə dair öz rəyini bildirməsi, yeni və nisbətən mürəkkəb məsələlərdən asanlıqla baş çıxarması və s. daxildir. Belə ki, müstəqil fikirləşməyi bacaran adam bu və ya digər məsələnin müzakirəsində mövcud fikirlərin təsiri altına düşmür, onları ölçüb-biçir, yoxlayır və öz nöqteyi nəzərini bildirir, onu əsaslandırır və müdafiə edir, eləcə də yeni fikirlər irəli sürür. Bu, insanların əməli fəaliyyətinə də ciddi təsir göstərir [1, s.25].

XVII əsrdə yaşamış böyük çex pedaqoqu Y.A.Komenskinin fikrincə, uşaq özü müşahidə etməli, düşünməli, müstəqil surətdə fəaliyyət göstərməli, bilikləri müstəqil tətbiq etməklə onlardan istifadə etməyi bacarmalıdır.

Təfəkkür müstəqilliyinə malik olan uşaqlar digərlərinin bilik və təcrübəsini şüurlu şəkildə mənimsəyir və yaradıcı surətdə həyata keçirir. Burada deyilənlərdən aydın olur ki, təfəkkür müstəqilliyi onun ən mühüm keyfiyyətlərindəndir; o, başlıca olaraq, uşağın: a) başqalarının yardımı olmadan qarşıya müəyyən sual, problem, məsələ qoymasında; b) qarşıdakı məqsədə nail olmaq, suala cavablandırmaq, məsələ və yaxud problemi həll edə bilmək üçün, kənar göstərişlər olmadan, vasitə, yol tapmasında və müəyyən nəticə əldə olumasında; c) əldə etmiş olduğu bilikləri, mənimsənilmiş qanun və qaydaları digər idrak obyektlərinə tətbiq etməsində ifadə olunur.

**Əsas mətn**

İntellektual cəhətdən müstəqil fəaliyyət göstərən uşaqlar müəyyən bir işin öhdəsindən gəlmək, verilən sualların cavabını düzgün yerinə yetirəndə çətinlik çəkmirlər. Belə uşaqlara həmyaşıdları, hətta yaşlılar kömək etmək istəyəndə onlar bunu qəbul etmir, inciyirlər, küsürlər.

Nəzərə almaq lazımdır ki, idrak fəaliyyəti zamanı təfəkkürün müstəqilliyi uşağın dərk etmiş olduğu və mənimsədiyi bir çox şeylərə tənqidi münasibəti olmadan qətiyyən mümkün deyildir. Elə buna görə də hər iki əqli keyfiyyəti qarşılıqlı əlaqə və münasibətdə götürmək lazımdır.

Təfəkkürün müstəqiliyinin, ümumiyyətlə əqli keyfiyyətlərin təzahür xüsusiyyətlərini, onların müxtəlif yaş mərhələlərində inkişafını, ona təsir göstərən amilləri, müstəqilliyin inkişaf dinamikasını müəyənləşdirmək, müasir təlimin fəaliyyətini yüksəltmək nöqteyi-nəzərindən də çox əhəmiyyətlidir. Təcrübə bir daha göstərdi ki, məktəbəqədər yaşlı uşaqların bir şəxsiyyət kimi formalaşdırılmasında əqli keyfiyyətlərin müstəsna rolu vardır.

Bütün bunlar göstərir ki, uşağın təfəkkürünün müstəqilliyini inkişaf etdirmək məqsədi ilə onu ətraf aləmlə tanış edərkən, təbiət və cəmiyyət hadisələri haqqında uşağa məlumat verilməlidir. Belə məlumat verərkən yadda saxlamaq lazımdır ki, məktəbəqədər yaşlı uşağın həyat təcrübəsi çox məhdud, təfəkkürü isə konkret xarakter daşıyır; buna görə də uşağa verilən hər bir izahat müəyyən konkret material əsasında olmalıdır.

Nəzərə almaq lazımdır ki, uşağa sadəcə olaraq müəyyən məlumat vermək, ayrı-ayrı faktları yadında saxlamasına nail olmaq təfəkkürün düzgün inkişafını hələ təmin etmir. Təfəkkür məqsədəyönəlmiş fəal psixi proses olduğu üçün uşağın qarşısına müəyyən vəzifələr qoymaq,

müxtəlif məsələləri həll etmələrinə nail olmaq faydalıdır. Buna görə də uşağın düşünməsi üçün onun qarşısına yeni məsələ qoymaq lazımdır. Məsələnin həlli prosesində uşaq malik olduğu biliklərə əsaslanır, onları yeni şəraitə tətbiq edir. [2, s.39]

Uşaqların psixi inkişafında bir çox sosial təsirlərin mövcud olduğunu vurğulayan Jan Piaje həmçinin onların kiçik rol oynadığını göstərir. Həm məktəbəqədər yaşlı, həm də tədris fəailiyyəti aparıcı rol oynayan məktəb yaşlı uşaqlarda məhz əqli inkişafın amillərinə diqqət çəkən Piaje təlimi heç vaxt onların sırasına daxil etməmişdi. Piaje, uşağın psixi inkişafında təlimin rolunu heç də inkar etmir, amma belə hesab eliyir ki, təlim inkişafın məzmununu, və ya ardıcıllığı dəyişə bilməz: yalnız onu ləngidə və ya sürətləndirə bilər.

İnkişaf prosesində məcburi mənəviyyatı, uşağın öz yaşıdlarıyla qarşılıqlı münasibəti zamanı yaranmış əməkdaşlıq mənəviyyatıyla əvəz edilir. Bu münasibətlər ikitərəfli dönmə mahiyyəti daşıyır. Uşaq özünün hərəkətlərini qiymətləndirərkən davranış motivlərini xüsusi ilə nəzərə almağa başlayır. Bu zaman qayda ağıllı razılaşma ilə əvəz olunur, ədalətlilik və bərabərlik mövqeyi baxımından nəzərdən keçirilir.

Təfəkkürün müstəqqiliyinin inkişafı nitqlə ayrılmaz şəkildə əlaqədar olduğundan, uşaq nitqə şüurlu şəkildə yiyələnməyincə, özü də hələ başa düşmür ki, niyə təəccüblənir və ya nəyi bilmir. Bu səbəbdən dil materialı əsasında yaranan sual yaşyarımlıq uşağın qarşısında vəzifə, problem fikri məsələ kimi görünmür. Ona görə də kiçik yaşlı uşaq bu kimi problemin və ya məsələnin həlli üzərində heç də düşünmür, heç bir halda onun həll edilməsi üçün yollar axtarmağa çalışmır. Uşaq hələ nəyi anlamadığını aydınlaşdırmayınca, sahib olduğu biliklərdən yararlanmağı bacarmadıqca, ona görə qeyri-adi sayılan vəziyyəti başa düşmək üçün lazım olan əməliyyatı mütəmadi şəkildə tətbiq etmir. Hərdən təsadüfi hərəkət nəticəsində azyaşlı özü üçün təzə əlaqəni aşkar edərkən belə o, yaranmış əlaqənin mahiyyətini dərk etmir. Anlamır ki, tapdığı nədir, çünki o nəyi axtardığını öncədən bilmirdi. Müstəqil təfəkkür uşağın müxtəlif yaş dövrlərində özünü göstərir. Uşaq yeridikdə bəzi cisimlərə toxunur, onları hərəkətə gətirməyə cəhd göstərir; bəzən bu cisimlər azyaşlının hərəkətinə mane olur ki, bu zaman uşaq ilk qarşısına çıxan əngəli bir başa aradan qaldırmaq, vəziyyətdən yaxa qurtarmağın yollarını və vasitələrini axtarır. Uşağın mövcud yaşayış şəraitindən yaranan belə tələblər məhz onun təfəkkürünün, xüsusilə müstəqilliyinin, tənqidiliyinin inkişafına geniş zəmin yaradır. İlk vaxtlar uşaq belə situasiyaları yaşlıları təqlid etməklə həll edir. dolabın, çarpayının altındakı əşyanı yaşlıların çubuqla çıxartdıqlarını müşahidə edir və o da ondan istifadə edir. Hətta təkcə çubuq deyil, eyni zamanda əlinə gələn istənilən uzun cisimdən – döşəmə silən ağacdan, süpürgədən və s. istifadə eliyir. Məhz cisimlərlə bu cür qarşılıqlı münasibət azyaşlının ağlının sonrakı inkişaf mərhələsində mühüm rol oynayır ki, bunu da şərti olaraq uşaq formalaşmaqda olan təfəkkürünün inkişafında ilk təqlid mərhələsi olaraq adlandırmaq olar. Bu kimi təqlidlər onun həyat təcrübəsini zənginləşdirməyə başlayır.

**Nəticə**

Müstəqil təfəkkür uşaqların hadisələrin, faktlarının yoxlanılmasında oradakı uyğunsuzluqların tapılmasında, səhvlərin tapılıb düzəldilməsində böyük rol oynayır. Təfəkkürün müstəqilliyinə yiyələnən məktəbəqədər yaşlı uşaqlar daim axtarışlara can atır. Hər bir hadisədə, fikirdə bir qanunauyğunluq axtarır, təhlil-tərkib bacarıqlarını aparır, səhvləri təfəkkür süzgəcindən keçirərək düzəldir. Buna görə də məktəbəqədər uşaqlarda təfəkkürün müstəqilliyini, ona təsir edən amilləri, təlim-tərbiyə prosesində onların inkişaf dinamikasını müəyyənləşdirmək, təlim tərbiyənin keyfiyyətlərini yüksəltmək nöqteyi nəzərdən də əhəmiyyətlidir.Uşağın qazandığı bu ilk həyat təcrübəsi onun təfəkkürünün, o cümlədən əqli keyfiyyətlərin inkişafına ciddi şəkildə təsir edir. Burada cisim və hadisələrin ilkin təsiri ilə bərabər, yaşlılarla ünsiyyət, onların tərbiyəvi təsiri mühüm rol oynayır. Böyüklər uşağa fərqli tapşırıqlar verir, qarşısına müxtəlif formalı məsələ qoyaraq, bu məsələnin həll olunması yollarını göstərirlər. Bunlar da uşağa cisimləri və onların xassələrini ümumiləşdirilmiş şəkildə

əks etdirməyə şərait yaradır. Uşaq bir müddət etdiyini öncədən planlaşdırmağı və planlı şəkildə işləməyi öyrənincəyədək böyüklərin göstərişinə, izahına uyğun şəkildə hərəkət etməyi öyrənir ki. bu da onların birmənalı olaraq ağıllı hərəkətinin əsasını təşkil edir. Nəticə etibarı ilə müəyyən yaşda azyaşlının ağıllı hərəkətləri onda ağlın yetkinliyi nəticəsi deyil, şüurlu və ya qeyi-şüuri olaraq müəyyən bir hərəkətlərə yiyələnmək və onları mənimsəməklə bağlıdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı, Azərnəşr.
1967, 198 s.
2. Bayramov Ə.S. Şagirdlərdə təfəkkürün inkişafı. Bakı, Azərnəşr, 1962., 239s
3. Tomlinson, C.A., Kaplan, S.N., Renzulli, J.S., Purcell, J., &Burns, D. (2002) The parallel curriculum: A design to develop high potential and challenge high-ability learners. Thousand Oaks, CA Corwin

**Cəmilə Vidadi HÜSEYNLİ**
Qərbi Kaspi Universiteti
Psixologiya
E-mail: Cemile.huseynli.01@mail.ru

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ RAST GƏLİNƏN HÜQUQA ZİDD DAVRANIŞIN TƏSNİFATI

**Summary**

Unlawful behavior can be observed from a young school age. The most common behaviors in them are intentionally harming others, committing murder, stealing, robbery, using drugs, smoking, alcohol, damaging other people's property, etc.

**Keywords:**Junior schoolchildren, unlawful bihevior, crime, burglary

**Giriş**

Yaş dövrləri ilə bağlı müxtəlif təsnifatlar mövcuddur. E.Eriksona görə kiçik məktəbli yaş dövrü 6-10 yaşı əhatə edir. Bu dövrdə uşaq yeni mərhələyə keçid edir və buna görə də həm uşaq üçün, həm də valideynləri üçün başlanğıc dövrü adlandırılır. Çünki uşağın ailə mühitindən çıxıb, xarici dünyaya daxil olduğu dönəmdir.Uşağın məsuliyyəti formalaşır, yeni sosial mühitə daxil olaraq, yeni münasibətlərə də daxil olur.Mən mərkəzciliyi azalır və öz yaşıdları onlar üçün önəmli olurlar.Əsas oyun fəaliyyətləri olan oyun fəaliyyətləri təlim fəaliyyəti ilə əvəzlənsə də, oyun yenə də onlar üçün əsas mövqedə dayanır.[1]

**Əsas mətn**

Uşaq istər bağçaya başlasın, istərsə də məktəbə başlasın ilk başlanğıcda adaptasiya mərhələsi çox önəmlidir.İlk zamanlar uşaqlar demək olar ki hər gün həyəcanlı və ya narahat olurlar. Tədricən bu emosiyalar azalır və adaptasiya prosesi surətlənir. Lakin adaptasiya prosesi heç də bütün uşaqlarda eyni formada və eyni müddətdə baş vermir. Uşağın öz fərdi psixoloji xüsusiyyətlərindən, valideyn tipindən, ailə daxili münasibətlərindən və böyüdülmə şəraitindən asılı olaraq məktəbə adaptasiyası da dəyişilir. Bəzən ümumiyyətlə, müəyyən zaman keçsə də hələ də bu narahatlıqlar davam edir.

Uşaqlar arasında davranış pozuntularına sıx-sıx rast gəlinir. Bəzi hallarda bu davranış pozuntuları antisosial davranışlarla əvəzlənir.Onlarda müşahidə olunan aqressiv, dağıdıcı meyllər ,itaətkarlığa qarşı davranışlar bəzən uşaqlarda antisosial davranışın əlamətləri kimi

özünü biruzə verə bilər. Antisosial davranışları uşaqlarda qanuna zidd davranış olaraq adlandıra bilməsək də, sosial normaların pozulması və başqalarının hüquqların zərər verən hər hansı hərəkət olaraq adlandıra bilərik.[6]. Son zamanlarda uşaqlar arasında cinayət hadisələri artmaqdadır. Xüsusilə, kiçik yaşlı məktəbli uşaqlarda hüquqa zidd davranışın bir çox növlərini müşahidə edə bilərik. Onlarda ən çox rast gəlinən hüquqa zidd davranışların təsnifatına baxsaq cinayət, başqalarına zərər vermək və yaxud başqalarını zədələmək, əmlaka zərər vermək, qaydalara zidd hərəkətlər və ya qaydaları pozmaq, yalan danışmaq, oğurluq və soyğunçuluq, narkotik maddələrin, alkoqol və tütünün istifadəsini müşahidə edilir. [2],[4],[6] Tarix boyu uşaq qatilləri daima diqqət mərkəzində dayanmışdır. Dünyanın bir çox yerlərində uşaq cinayətləri genis araşdırılsa da, hələdə səbəbləri dəqiq formada təsnif edilməmişdir. Ancaq səbəblər nə qədər müxtəlif olsa da qarşısının alınması bir o qədər mürəkkəbləşmişdir. Hazırda uşaq cinayətləri içərisində 11 yaşındakı Andrew Golden və Mitchell Johnsonun öz sinif yoldaşları və müəllimlərini tüfənglə öldürməsi, 10 yaşındakı Mary Bellin öldürməyin necə hiss olduğunu öyrənmək istəməsilə ardıcıl bir neçə cinayət törətməsi, 10 yaşındakı Jon Venables və Robert Thompsonun iki yaşındakı uşağı qaçırıb, işgəncə verdikdən sonra öldürməsi,8 yaşındakı Amarjeet Sadanın öz bacısını,qohumunu və başqa uşağı taxta ilə döyərək öldürməsi,6 yaşındaki Carl Newton Mahanın silahla öz dostunu vurması,11 yaşındakı Jasmine Richardsonun valideynlərini və kiçik qardaşını öldürməsi və bu kimi qətl hadisələri cəmiyyəti naraht edən əsas məslələrdəndir.[3],[5] Uşaqlarda hələ iki yaşında sahiblik,aidlik anlayışı formalaşmadığı üçün, onlara görə hər şey onlarındı.3-4 yaşından etibarən onlarda qismən aidlik formalaşır və onlara aid olmayanları icazə ilə almağa başlayırlar.5-8 yaş kiçik oğurluqların ən çox görüldüyü zamandır.Uşaq doğru olmadığını bilsə də hər şey onun üçün cəzbedici gəlir və onun olmalıdır. Ancaq bu dönəmdə oğurluq qısa müddətlidir. Bəzən isə bir neçə səbəbdən qaynaqlanaraq uşaqda bu kiçik oğurluqlar böyükləri ilə əvəzlənir və artıq böyük əşyalar, böyük məbləğlərdə pul oğurlamağa başlayırlar.[2] Narkotik maddə, spirtli içki, tütün istifadəsinə xüsusilə yeniyetməlik yaşlarından etibarən başlanılır. Lakin bəzən elə kiçik məktəbli yaşından etibarən başlanılır.[4] Hüquqa zidd davranışların olduqca müxtəlif səbəbləri ola bilər. Stressi azaltmaq, bir qrupa daxil olmaq istəyi, ətrafdakıların, dostların təsiri,sevgi və diqqət əksiklliyi, valideyn tipləri,konfliktli ailə münasibətləri, valideynlərin qanuna zidd əməlləri, özünü təstiq və özgüvən əksikliyi, psixi pozuntulardan əziyyət çəkmək, maraq dairəsi,natamam ailələr və s. ən sıx görünən səbəblərdəndir.[2]

**Nəticə**

Kiçik yaşlı məktəblilərdə səbəblər nə qədər müxtəlif olsada hüquqa zidd davranışlar müxtəlif formalarda özünü göstərir. Bu hissədə profilaktik tədbirlər olduqca böyük rol oynayır. Bu yaşda uşaqlara cəza tətbiq edilməsə də müxtəlif üsullarla həm valideynlər, həm də öəzləri ilə maarifləndirmə işləri aparılmalı, onlardakı narahat edici hallarla mübarizə üsulları və psixoloji dayanıqlıq, münasibətlər, özgüvən və s çalışılmalıdır. Ən əsası yaş xüsusiyyətlərinin tam öyrənilməsi vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya, Çinar çap,2002
2. Antalyapsikiatri.com. Çocuklarda çalma alışkanlığı
3. Milliyet.com . Tarihe damğa vurmuş çocuk katiller
4. Npistanbul.com. Çocuk ve gençlerde madde bağımlılığı
5. Onedio.com. Daha çocuk yaşta işledikleri kan donduran cinayetlerle tarihe geçen psixopatlar, 2023
6. Medicalnewstoday.com. Childhood antisocial behavior:causes and examples, 2022

**İbad Müşfiq İBADOV**
Qərbi Kaspi Universteti
E-mail: İbadibadov1903@gmail.com

# YETKİNLİK YAŞINA ÇATMAYAN ŞƏXSLƏRİN MÜLKİYYƏT ƏLEYHİNƏ CİNAYƏTLƏRİNİN MOTİVLƏRİ

**Summary**

The thesis is devoted to the study of the motives of juvenile property crimes. The content and semantic content of the motives of property crimes are revealed depending on the needs that constitute the motive of the crime, the age of the minor who committed the crime, his gender, the mechanism of origin of the motive and a certain type. The obtained results are compared with the data of criminological publications of previous years.

**Key words:** property crime, selfish goal, need, motive.

## Giriş

Yetkinlik yaşına çatmayanların cinayətlərinin motivləri probleminə kriminoloqların marağı hələ sovet dövründə başlamış, indi də azalmamışdır. Bu heç də təsadüfi deyil. Məlum olduğu kimi, motiv fərdin ehtiyaclarını maddiləşdirən və onun cinayətkar davranışını stimullaşdıran cinayətin müəyyənedici amilidir [7]. Cinayətin motivi daxili subyektiv hərəkətə çağırış kimi, ilk növbədə, cəmiyyətdə hökm sürən və yeniyetmələr tərəfindən qəbul edilən kiçik, mənəvi, hüquqi dəyərlər, stereotiplərin həyat tərzi və tərbiyəsi ilə müəyyən edilir. Müvafiq olaraq, yetkinlik yaşına çatmayanların cinayətlərinin motivləri onların xas xüsusiyyətlərini və keyfiyyətlərini ortaya qoyur və cəmiyyətin əsas sosial dəyərlərinə münasibətini ifadə edir.

## Əsas mətn

Mülkiyyət əleyhinə cinayətlər ənənəvi olaraq yetkinlik yaşına çatmayanların cinayətlərinin əsas hissəsini təşkil edir [4]. Cinayət işlərinin tədqiqi göstərdiyi kimi, yetkinlik yaşına çatmayanlar tərəfindən mülkiyyət cinayətləri başqalarının əmlakını ələ keçirmək və onu öz mənfəətlərinə çevirmək, öz mülahizələri ilə sərəncam vermək məqsədi ilə, yəni eqoist məqsədlər üçün törədilmişdir. Bu cinayətlərin motivləri müxtəlif idi. Onlar son nəticədə cinayətin motivini formalaşdıran həmin konkret ehtiyac və maraqlardan asılı olaraq öz "unikal" məzmununa və semantik məzmununa malik idilər.Tədqiqatın göstərdiyi kimi, yetkinlik yaşına çatmayanlar tərəfindən mülkiyyət cinayətlərinin törədilməsi motivləri arasında əsas motivlər (68%) şəxsi maddi tələbat və mənafeləri başqa şəxslərin hesabına təmin etmək məqsədilə mülkiyyət cinayəti törətmək motivi (eqoist motiv) olmuşdur. Bu motiv toplamaq, əldə etmək istəyi ilə əlaqəli deyildi, utilitar xarakter daşıyırdı. Cinayətlərin böyük əksəriyyəti məhz bu səbəbdən törədilib.

2004-2012-ci illərdə Kemerovo vilayətinin məhkəmələri tərəfindən yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş mülkiyyət əleyhinə cinayətlərə dair 1430 cinayət işinə baxılıb. Bu cinayətlərin əsasını əmlaka qarşı (68%), o cümlədən 52% oğurluq, 75% quldurluq, 51% soyğunçuluq, 54% hədə-qorxu ilə tələb etmə, 26% təşkil edir.

Qeyd etmək yerinə düşər ki, hər bir cinayətdə eqoist motivlər cinayət motivinin altında hansı konkret maddi ehtiyacların olmasından asılı olaraq müxtəlif məzmun daşıyırdı. Tədqiqat göstərdi ki, yetkinlik yaşına çatmayanların mülkiyyət cinayətləri üçün eqoist motivlər "qeyri-işlək həyat tərzini təmin etmək üçün maddi sərvətlərə sahib olmaq istəyini" (38%); "alkoqol və narkotiklərə olan ehtiyacı ödəmək arzusu" (33%); "başqalarından daha pis görünməmək istəyi" ("prestijli" motiv adlanan - 25%); "maddi etibarsızlığı aradan qaldırmaq istəyi" (4%) ifadə edir.

Tədqiqatın göstərdiyi kimi, bəzi yetkinlik yaşına çatmamış cinayətkarların şəxsiyyətinin motivasiya sferasında maddi ehtiyaclar, çox vaxt deformasiyaya uğramış və qeyri-sosial ehtiyaclar üstünlük təşkil edir [4]. Belə bir asosial ehtiyac yeniyetmələrin alkoqol və narkotikə ehtiyacı idi. Cinayətlərin motivlərinin tədqiqi göstərdi ki, "alkoqol və narkotik maddələrə ehtiyac" motivi yetkinlik yaşına çatmayanların əmlak cinayətlərinin bütün motivlərinin üçdə birini (33%) təşkil edir. Qeyd etmək lazımdır ki, alkoqol ehtiyacı, daha az hallarda isə narkotik maddələrə olan ehtiyac çox vaxt mülkiyyət cinayətləri üçün "qeyri-işlək həyat tərzini təmin etmək üçün maddi sərvətlərə sahib olmaq istəyi" kimi ümumi motivin məzmununu müəyyənləşdirir (xatırlayırıq ki, bu motivə yetkinlik yaşına çatmayan şəxsin "boş", şən həyat tərzi keçirmək üçün maddi vəsait əldə etmək istəyini ifadə edən motivlər daxildir).

Muzdlu səbəblərdən törədilmiş yetkinlik yaşına çatmayanların cinayətlərinin dördüncü hissəsində "prestijli" maddi ehtiyaclar xarakterik idi, yəni. insanın bir növ "status" istehlakına yönəlməsi ilə bağlı ehtiyaclar. "Prestijli" motivlə cinayət törətmiş cinayətkarlar dəbli, nadir, "prestijli" əşyalar almaq üçün vəsait əldə etməyə can atırdılar ki, bu əşyalara sahib olmaq, onların fikrincə, onlara özlərini təsdiq etmək, statuslarını, nüfuzlarını artırmaq imkanı verəcəkdir. Yetkinlik yaşına çatmayanların (xüsusilə qızların) başqalarından pis görünməmək istəyi, özlüyündə gözəl və dəbli, "prestijli" şeylərə ehtiyac, fikrimizcə, mənfi deyil. Lakin cinayət törədən bu qəbildən olan ehtiyac və istəklər onları təmin etmək üçün cinayəti seçmiş yetkinlik yaşına çatmayanların maraqlarının yoxsulluğunu, şəxsiyyətinin mənəvi cəhətdən yetişməmişliyini göstərir. Kriminoloji ədəbiyyatda haqlı olaraq qeyd olunduğu kimi, gözəl şeylərə əsassız, təhrif olunmuş ehtiyacın təhlükəsi ondan ibarətdir ki, o, başqa insan ehtiyac və maraqlarını əvəz edir; hər hansı bir şeyə sahib olmaq bu halda fərd tərəfindən insan fəaliyyətinin yeganə məqsədi kimi qəbul edilir [1]. Bu baxımdan, əmlak cinayətkarlarının həyatlarının əsas dəyərləri ilə bağlı mühakimələri təəccüblü deyil. Yetkinlik yaşına çatmayanlar birinci yerdə şəxsi rifahını, maddi cəhətdən təminatlı həyat tərzini, habelə istirahət və əyləncəni (52%); ikinci yerdə: ictimai tanınma, nüfuz və hörmət (29%); üçüncü yerdə isə - yaxşı maaşlı iş və xoşbəxt ailə həyatı (19%) qoyurlar.

Müqayisə üçün: 1980-ci illərdə. maddi dəyərlərə istiqamətlənmə xeyli az idi. Yetkinlik yaşına çatmayan cinayətkarların həyatda əsas məqsədləri bunlar idi: maraqlı sevimli iş tapmaq, həqiqi dostlarla, sevilən bir insanla tanış olmaq, təhsil almaq (orta və ya daha yüksək) [1]. Maraqlıdır ki, cinayət törətmiş bütün cinayətkarlar arasında "prestijli" motiv, əksəriyyəti qızlar (63%) təşkil edirdi.

Mülkiyyət cinayətlərinin motivlərinin tədqiqi göstərdi ki, bir sıra hallarda mülkiyyət cinayətləri onları törətmiş yetkinlik yaşına çatmayanların faktiki maddi təminatı ilə əlaqələndirilir. Bu yeniyetmələri cinayətə sövq edən maddi təminatsızlıq bir sıra əlverişsiz həyat şəraiti ilə bağlıdır. Kriminoloji ədəbiyyatda dəfələrlə qeyd edilmişdir ki, yetkinlik yaşına çatmamış cinayətkarın fərdi ehtiyac və maraqları müəyyən mənfi xüsusiyyətlərlə xarakterizə olunur: müxtəlif növ ehtiyaclar (maddi və mənəvi) arasında balanssızlıq, ümumi yoxsulluq və tez-tez bu cür tələblər bəzilərinin təhrif olunmuş xarakteri, onların qane edilməsinin əxlaqsızlığı və cinayətkarlığı, cinayətkarların məşğuliyyətindən və cinsindən asılı olaraq motivlərin fərqliliyi [5]. Tədqiqat göstərdi ki, əvvəllər qeyd olunan xüsusiyyət bu gün də aktuallığını itirməyib. O, həmçinin göstərdi ki, mülkiyyət cinayətkarlarının motivləri onların məşğuliyyətindən və cinsindən asılıdır.

Yetkinlik yaşına çatmayanlar tərəfindən mülkiyyət cinayətlərinin törədilməsinin motivlərinin ikinci qrupu, qəti desək, eqoist xarakter daşımayan motivlərdən ibarət idi. Bir sıra cinayətlər qeyri-qanuni varlanma və əmlak nemətlərinə olan ehtiyacların ödənilməsi istəyindən deyil, yetkinlik yaşına çatmayanların yaş xüsusiyyətlərindən irəli gəlirdi. Hər üçüncü mülkiyyət cinayətinin (32%) əsasında yetkinlik yaşına çatmayan cinayətkarların yaş xüsusiyyətlərini əks etdirən motivlər dayanır. A.İ. Dolqova, "böyümə motivləri"ndə və

ziddiyyətli formada, yeniyetmə üçün əhəmiyyətli olan qrupa "mən də sizin kimiyəm" və eyni zamanda "mən bir insanam" olduğunu sübut etməklə və sonuncu halda, ən çox tez-tez başqaları ilə qarşılıqlı əlaqə prosesində nöqsanların olmasından irəli gəldiyini göstərir [6]. Bu qrupdakı mülkiyyət cinayətlərinin yarıdan çoxu (57%) məhz belə səbəblərdən törədilib. Onu da qeyd etmək lazımdır ki, mülkiyyət cinayətlərinin bütün motivləri təkcə məzmununa görə deyil, həm də onların baş vermə mexanizminə görə fərqlənirdi. Araşdırma göstərdi ki, cinayətlərin böyük əksəriyyəti (67%) "xarici" (situasiya) motivlə yetkinlik yaşına çatmayanlar tərəfindən törədilib.

Bütün mülkiyyət cinayətlərinin yalnız üçdə biri (33%) "plana uyğun olaraq" qəsdən törədilib. Belə hallarda yetkinlik yaşına çatmayanlar qabaqcadan düşünülmüş fəaliyyət planına malik olaraq öz maddi ehtiyaclarını ödəmək məqsədilə ("daxili" motiv) əmlak cinayətləri törədirlər. Yeniyetmələr oğurluq (49%) və hədə-qorxu ilə tələb etdikdə (52%) "daxili" motivlərin xüsusi çəkisi xüsusilə əhəmiyyətli olmuşdur.

Son otuz-qırx il ərzində yetkinlik yaşına çatmayanlar tərəfindən mülkiyyət cinayətlərinin motivləri keyfiyyət və kəmiyyət cəhətdən dəyişmişdir. Belə ki, 60-70-ci illərdə çox vaxt cinayət azyaşlının özünəməxsus müsbət istəkləri, hobbi və maraqları ilə təhrik edilirdi [3]. 80-90-cı illərdə məhkum edilmiş yetkinlik yaşına çatmayanların yalnız 18,5%-nin adətən eqoist motivi var idi. Yetkinlik yaşına çatmayanların bütün digər əmlak cinayətləri, əsasən, nüfuzlu şeylərə sahib olmaq və onların vasitəsilə öz nüfuzunu, "mən"ini bərqərar etmək istəyindən irəli gəlirdi [2]. Son vaxtlar isə tamah məqsədi ilə törədilən cinayətlərin sayında nəzərə çarpacaq artım (18,5-dən 34%-ə qədər) müşahidə etməmək mümkün deyil.

Demək olar ki, mülkiyyət cinayətlərinin müasir eqoist motivləri yetkinlik yaşına çatmayanların öz maddi ehtiyaclarını başqalarının hesabına ödəmək üçün utilitar, istehlakçı yönümünü üzə çıxarmışdır. Bu ehtiyaclar, bir qayda olaraq, ilkin olaraq "subyektiv" yüksək qiymətləndirilmişdir. Beləliklə, əgər 80-90-cı illərdə. Məhkumların yalnız 10%-i spirtli içki almaq istəyi ilə motivasiya edilmişdirsə [2], indi eyni motiv yetkinlik yaşına çatmayanların hər üçüncü cinayətində aşkar edilir (33%). Bu da onu göstərir ki, yetkinlik yaşına çatmayanlar tərəfindən "prestijli" səbəblərdən törədilmiş cinayətlərin sayı xeyli artmışdır. Onu da demək lazımdır ki, 20-ci əsrin ikinci yarısında bütün mülkiyyət cinayətlərinin demək olar ki, yarısı (40%) cinayətləri törətmiş şəxslərin faktiki maliyyə təminatı ilə bağlı olmuşdur [5]. Hazırda belə səbəblərdən əmlak cinayətləri 5 dəfə az törədilir və yalnız hər 25-ci cinayət (4%) yetkinlik yaşına çatmayanın həqiqətən ağır maddi vəziyyəti ilə bağlıdır.

**Nəticə**

Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayət əməlləri, əməlin motivindən, şəxsin motivasiyasından asılı olaraq dəyişir. Bu şəxslər tərəfindən törədilən əməllər içində mülkiyyət əleyhinə olan cinayətlər üstünlük təşkil edir. Belə ki, yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən mülkiyyət əleyhinə cinayətlər, əsasə maddi tələbat, ehtiyaclar üçün törədilsə də, burada motiv qismində mənin təsdiq edilməsi, tamah motivi və s. motivlər də iştirak edə bilir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Dolgova A.I. "Yetkinlik yaşına çatmayanların cinayətlərinin sosial və psixoloji aspektləri". 1981 (səh.160).
2. Eliseev S.A., Prozumentov L.M. "Ümumi cinayət muzdlu cinayətləri: kriminoloji xüsusiyyətləri, cinayət məsuliyyəti". Tomsk, 1991 (səh.78).
3. Eliseev S. A. "Eqoist cinayətlərin qarşısının alınması nəzəriyyəsi və praktikası məsələləri". Tomsk, 1989 (səh.110).
4. Ə.Bayramov, B.Əliyev. Hüquq psixologiyası. – Bakı, 2012 (səh.46-52).

5. Kudryavtsev V.N. "Cinayət davranışının mexanizmi". 1981 (səh.138).
6. Prozumentov L.M. "Yetkinlik yaşına çatmayanların cinayətkarlığının kriminoloji xüsusiyyətləri": (Regional aspekt). Tomsk, 2004 (səh.106).
7. Qolubev V.P., Kudryakov Y.N. "Eqoist bir cinayətkarın şəxsiyyəti". Tomsk, 1989 (səh.193).

**Şərqiyyə Xətai ƏLİYEVA**
Elmi rəhbər: b.ü.f.d N.Y.Kərəmova
Qərbi Kaspi Universiteti
E-mail: Seliyeva292@icloud.com

## SOSİAL FOBİYANIN YARANMASINDA CİNSİYYƏTİN ROLU

**Summary**
The scientific research presented in the article was conducted by a second-year student of Western Caspian University. The main purpose of the research was to investigate social phobia among young people aged 18-25 of both genders and to determine the role of gender in the development of this phobia. The research was conducted on 70 participants, and the "Liebowitz Social Anxiety Scale" was used for this purpose. The research findings revealed that social phobia, with an average score of 50.7 in women and 34.1 in men, is more prevalent in women compared to men.
**Key words:** Social fobia, confusion, evade.

### Giriş

Təşviş və ya qorxu terminlərindən həyatda insanın üzləşdiyi qorxulu və təhlükəli vəziyyətlərə orqanizmin verdiyi psixi və fizioloji reaksiyaları təsvir etmək üçün istifadə edirlər. Təşviş və ya qorxuyla əlaqədar pozuntular şəxsi, ailə, sosial, təhsil, peşə və digər vacib fəaliyyət sahələrində nəzərə çarpan distress və ya təşviş yarada biləcək davranış pozuntuları ilə xarakterizə olunur [3]. Təşviş pozuntularının generalizə olunmuş təşviş pozuntusu, panik pozuntu, aqorafobiya, sosial təşviş pozuntusu, ayrılıq təşviş pozuntusu və spesifik fobiyalar kimi formaları mövcuddur.

### Əsas mətn

Sosial fobiya təşviş pozuntularının ən geniş yayılmış formalarındandır. Bu fobiyanın yaranmasının konkret bir səbəbi olmaması ilə yanaşı, araşdırmaçılar müəyyən etmişdir ki, beynin müəyyən nahiyələri qorxu və təşvişi idarə edir. Genetikanın da bu sahənin işləmə mexanizmasına təsiri böyükdür. Eyni zamanda ətraf-mühit də zamanla sosial fobiyanın yaranmasında iştirak edir [1]. Sosial fobiyanı digər təşviş pozuntusu növlərindən fərqləndirən onun daha tez yaşda müəyyən edilməsi, simptomların daha tez-tez təkrarlanan olması və fərdin şəxsi həyatında yaratdığı təsirləridir [4].

Sosial fobiyanın simptomlarını üç qrupa bölmək olar: fiziki (tərləmə, qızarma, titrəmə), koqnitiv (neqativ dəyərləndirilməkdən qorxma, uğursuzluqdan qorma və.s) və davranış (sosial mühitdən boyunqaçırma) [5]. Bu siptomların tezliyi və dərəcəsi sosial fobiyanın nə səviyyədə olduğundan asılı olaraq dəyişir. Simptomların tezliyi bəzən o həddə çatır ki, fərdin gündəlik həyat fəaliyyətlərinə də ciddi təsir göstərir.

18-25 yaş aralığındaki, hər iki cinsdən də olan 70 iştirakçı üzərində aparılan testlərdə müəyyən edilmişdir ki, sosial fobiya üçün orta bal qadınlar arasında 50.7 olarkən, kişilər arasında bu göstərici 34,1 olmuşdur. Bundan əlavə, iştirak edən qadınların 42,9%-də sosial fobiya aşkarlandığı halda (bu nəticənin 59,8%-ni ciddi sosial fobiya səviyyəsi təşkil edir) kişilərin sadəcə 11%-də sosial fobiya aşkar edilmişdir ( sadəcə orta dərəcəli). Bu da onu

deməyə əsas verir ki, qadınlarda sosial fobiyaya meyillilik kişilərə nisbətdə daha çoxdur. Lakin sosial fobiya problemi ilə müəssisələrə üz tutan insanlar arasında aparılan statistikada müəyyən edilmişdir ki, onların 66%-i kişi, 33%-i qadın olmuşdur [2]. Əgər sadəcə müəssisələrdəki statistikaya baxılsaydı, kişilərin sosial fobiya ilə daha çox üzləşdiyini düşünmək olardı. Lakin digər araşdırmalar bizə bunu deməyə əsas verir ki, qadınlarda sosial fobiya səviyyəsi daha yüksəkdir. Hətta evlilik, doğum sonrası kimi situasiyalardan sonra qadınların öz kariyeralarına geri dönməməsi halına da tez-tez rast gəlinir və əksərən buna səbəb onlarda sosial fobiya dərəcəsinin artması olaraq görülür [6]. Müəssisələrdəki statistikada kişilərin daha çox olmasına səbəb isə cəmiyyətdə cinslər üzərindən sosial fobiyaya baxışın fərqli olmasıdır. Bir çox sosial fobiya simptomu cəmiyyətdə "utancaqlıq" olaraq adlandırılır və qadınlarda bu müsbət hal kimi qarşılanır. Lakin kişilər üçün "utancaqlıq" keyfiyyətli xüsusiyyət sayılmadığından, onlar problemin həlli yollarını tapmaq məqsədi ilə müəssisələrə üz tuturlar [2]. Buna görə də statistikalar arasında fərqlər meydana gəlir.

Ümumi olaraq nəzər saldıqda isə yetişdirilmə şəklindən də çox şey asılıdır. Məsələn konservativ ailələrdə qız uşaqlarından sosial mühitdə daha az danışmaları, öz fikirlərini bildirməməyi tələb olunur və buna əməl edən uşaqlar da cəmiyyətdə "ağıllı uşaq" olaraq dəyərləndirilir [2]. Nəticədə həmin uşaqlarda zamanla sosial fobiya inkişaf edir və gələcəkdə sosial mühitlərdən qaçan, ətrafdaki insanlardan çəkinən, öz dəyəri düzgün formalaşmamış və cəmiyyətdə önəmli rol almaqda çətinlik çəkən yetişkinə çevrilirlər. Bu səbəbdən də hər nə qədər ətraf-mühitin çox böyük rolu olsa da ilkin düzgün yetişdirilmə ailədən başlayır.

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, sosial fobiya nə qədər geniş olaraq yayılmış bir psixoloji problem olsa da, fərdin sosial həyatında mühüm rola malikdir. Bu səbəbdən də bu problemə dırnaq arası yanaşmaq heç də düzgün deyil. Cəmiyyətimizdə bəzi problemlər normal davranış kimi qarşılandığı üçün bəzən insanlar bu kimi məsələlərin psixoloji problem olduğunu və aradan qaldırılmalı olduğunu anlamırlar. Burada maariflənmənin də rolu böyükdür. İlk öncə hər bir ailə övladlarını yetişdirərkən nəzərə almalıdır ki, cinsiyyətindən asılı olmayaraq hər bir uşaq bir fərddir və hər bir fərdin cəmiyyətdə öz yerini ala bilməsi çox vacib sosial faktordur. Mental sağlamlığımız da ən az fiziki sağlamlığımız qədər vacibdir və hər bir kəs problemlə üzləşdikdə çəkinmədən bir mütəxəsisə yanaşa bilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Department of Health and Human Services; Sosial Anxiety Disorder- more than just shyness, NİH publication, 2022.
2. Dilbaz, N., & Güz, H. (2002). Sosyal Kaygı Bozukluğunda Cinsiyet Farklılıkları. Nöropsikiyatri Arşivi, 39(2-3-4), 79-86
3. Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı: 10-cu baxış. – I cild. – Cenevrə, Ümumdünya Səhiyyə Təşkilati, 2012.
4. Social anxiety support. Liebowitz Social Anxiety Scale Test [Electronic resource]. Heimburg, R.G. & Becker, R.E.(2002). Cognitive - Behavioral Group Therapy for Social Phobia. New York, The Guilford Press. - Availabe at: http://www.socialanxietysupport.com/disorder/liebowitz/ (19.04.2013).
5. Vander, J.S. & Wonderlich-Tierney, A.L., & The effects of social support and coping on the relationship between social anxiety and eating disorders. Eating Behaviors, 85-91.

6. Yonkers, K.A., Dyck I. R., & Keller, M.B. (2001). An eight-year longitudinal comparison of clinical course and characteristics of social phobia among men and women. Psychiatry Services, 52, 637-643.

**Zöhrə Fateh İSLAMZADƏ**
Qərbi Kaspi Universiteti
magistrant
E-mail: islamzada.z@gmail.com

# UŞAQLIQ TƏŞVİŞİ VƏ İRSİ FAKTORLAR

**Summary**

Anxiety is generally not pathological as it adapts to many situations during childhood, and it is normal for children to feel anxious or worried from time to time when starting school or kindergarten or moving to a new place. But, anxiety becomes misplaced when it interferes with functionality. Children with anxiety disorders are at higher risk of developing depression, sleep disorders, peer disorders, and substance abuse. If left untreated, anxiety may continue into adulthood in the form of a decrease in health-related quality of life.

**Keywords:** thinking, child, school, teacher, independence, activity, practical activity

## Giriş

Uşaqlarda və yeniyetmələrdə təşviş pozuntularının inkişafı irsi faktorlar, inkişaf amilləri, koqnitiv və öyrənmə amilləri, neyrobioloji amillər, o cümlədən, genetik faktorlar, sosial və ətraf mühit amilləri arasında qarşılıqlı əlaqəni əhatə edir. Bu amillər təşviş riskini artıra və ya təşvişdən qoruya bilər. Risk faktorlarının dəyişdirilməsi və ya qoruyucu amillərin artırılması uşaqlarda və yeniyetmələrdə təşviş pozuntularının tezliyini və yayılmasını azaltmağa kömək edə bilər (2, s 24).

Uşaqlarda təşviş pozuntusu fizioloji simptomlarda və davranışda özünü göstərir.

a) Davranış əlamətlərinə aşağıdakılar daxildir:

- Təşviş və narahatlıq
- Yuxu problemləri
- Emosionallıq və ağlama
- Diqqəti cəmləyə bilməmək
- Bəzən boş-boş yerə baxmaq

b) Fizioloji simptomlar isə aşağıdakılardır:

- Qarın ağrısı
- Ürəkbulanma
- Əzələ gərginliyi
- Çox tez yorulma

Fizioloji əlamətlər uşaqların qorxu və təşvişlərini ifadə edə bilmədiyi zaman özünü təzahür kimi görülür.

## Əsas mətn

Təşvişi geniş mənada təhlükə gözləməsi ilə əlaqəli emosional narahatlıq kimi təyin edə bilərik. Təşviş insanın təcrübə və gözləntilərinə bağlı olaraq meydana gələ bilər və bir çox psixiatrik pozuntularda və fizioloji xəstəliklərdə də görülə bilər.Ayrılıq təşvişi, panik pozuntusu, fobik pozuntu və sosial təşviş pozuntusu uşaqlıq və yeniyetməlik dövründə əhəmiyyətli narahatlıq və funksiya itkisinə səbəb olsa da, onların gələcək proqnozu çox vaxt normaldır və yetkinlik dövründə qalıcı izlər qoymur. Burada deyə bilərik ki, yalnız ağır ayrılıq təşvişi pozuntusu uzunmüddətli psixoloji problemlərə gətirib çıxaracaq.

Uşağını psixiatra aparan valideynlər çox vaxt narahat olurlar. Onlar uşağın problemi və alacaqları yardımla bağlı qərəzli mühakimələrə malik olsalar da, uşağın probleminə görə günahlandırılmaqdan da qorxurlar. Psixiatriya və psixoterapiya haqqında məlumat eşitmə təşvişi artıra bilər. Ayrılan həyat yoldaşları tez-tez digər valideyni günahlandırmağa meyllidirlər. Valideynlərin səhv davranışları, irsi xəstəliklər, valideyndəki psixoloji problemlər, valideynin həyatındakı mənfiliklər uşaqda təşvişin yaranmasında böyük rol oynaya bilər. Bunları nəzərə almadan uşağa müalicə etmək vaxt itkisi olacaq.

Uşaqlarda narahatlıq əlamətləri böyüklərdəki kimidir. Ürək döyüntüsü, üzün qızarması və ya solğunluğu, əzələlərin daralması, nəfəs darlığı, titrəmə, tərləmə, soyuq əllər və ayaqlar, qarın ağrısı, ürəkbulanma, qusma, baş ağrısı, başgicəllənmə, tez-tez sidiyə getmə, huşunu itirmə, əsəbilik, narahatlıq, həddindən artıq sayıqlıq, yuxusuzluq, utancaqlıq, anadan asılılıq, içə qapalılıq, sosial mühitlərdə narahatlıq, həddindən artıq risk alma və ya riskdən tamamilə qaçma kimi uşaqda narahatlıq əlamətləri meydana gəlir. Erkən uşaqlıqda ümumi narahatlıq, daimi ağlama, narahatlıq və qaz ağrıları təşviş əlamətləri ola bilər.

6-9-cu aylarda yad adama yaxınlaşmaq, hündürlük, parlaq işıqlar, məktəbəqədər dövrdə fiziki zədələnmədən bənzərsiz qorxular, heyvan qorxuları kimi hallar uşaqlıq qorxularının xüsusi hallarıdır və psixiatriyada normal davranışla psixopatologiya arasında sərhədləri çəkmək həmişə asan olmur. . Uşağın yaş inkişafına uyğun uşaqlıq qorxuları həmişə nəzərə alınmalıdır. Psixiatriyada əsas qaydamız uşağın gözlənilən yaşına uyğun sosial və akademik fəaliyyətlərdə iştirak edib-etməməsidir.

Uşaqlarda və yeniyetmələrdə təşviş pozuntusunun diaqnozunda ilkin məsələ kimi təşviş əlamətlərinin inkişafı valideynin ayrılması, məktəb dəyişikliyi, xəstəlik tarixi, ailənin psixiatrik-psixoloji vəziyyəti və psixi vəziyyətin qiymətləndirilməsi kimi stress faktorlarının olması əhəmiyyətli faktorlardan hesab edilir.

Uşaqlarda təşviş pozuntularının müalicəsində koqnitiv bihevioral terapiya, psixodinamik psixoterapiya və ailə terapiyası mühüm yer tutur. Zəruri hallarda, təşviş əlamətlərini aradan qaldırmaq üçün psixiatrın nəzarəti altında trisiklik antidepresanlar, selektiv serotoninin geri alınması inhibitorları, benzodiazepinlər və bəzi antihistaminiklər istifadə edilə bilər. Yan təsirlərinə görə uşaqlarda təşviş pozuntularının müalicəsində neyroleptik dərmanlara ümumiyyətlə üstünlük verilmir.

Təşviş pozuntularının inkişafında irsiyyətin roluna dair xeyli sübutlar var. Təşvişli uşaqların əksəriyyəti utancaqlığa qarşı temperamentli meyllərlə doğulur və çox vaxt təşvişli valideynləri olur. Ən azı bir təşviş pozuntusu olan valideynlərin uşaqlarında təşviş pozuntusunun inkişaf riski əhəmiyyətli dərəcədə artır və hər iki valideyndə təşviş varsa bu risk daha da artır. Hər bir təşviş pozuntusu və təşvişli xüsusiyyətin irsi təsirləri, ümumiyyətlə, uşaqlarda, yeniyetmələrdə və böyüklərdə oxşardır. Təşviş pozuntularının bir çox digər psixopatoloji vəziyyətlərdən daha erkən başlama yaşı təşvişə səbəb ola biləcək özünəməxsus problemləri dəstəkləyir. Amma müəyyən təşviş növləri üçün orta yaşlarındakı başlanğıc böyük fərqlər (müxtəlif yaşlarda təşvişin ifadəsində inkişaf dəyişikliyinin rolunu) göstərə bilər. Misal üçün; Ayrılıq təşvişi və spesifik fobiya ən erkən uşaqlıqda başlayır, ardınca erkən yeniyetməlik dövründə sosial fobiya, sonra isə gecikmiş yeniyetməlik və erkən yetkinlik dövründə panik pozuntular/aqorafobiya və ümumiləşdirilmiş təşviş pozuntusu başlayır (4, s 81). Monoziqotik cüt daxili korrelyasiya fizioloji və sosial təşviş simptomları üçün diziqotik korrelyasiyadan daha yüksək idi; Bu da bu aspektlərdə irsi təsirlərin olduğunu göstərir. Davranış inhibisiyası ilə əlaqəli ola biləcək fizioloji və sosial təşviş simptomları genetik amillərlə bağlı ola bilir. Bu nəticələr böyüklərdəki əvvəlki əldə edilmiş nəticələrlə əlaqələndirilir (5, s 23). Təşvişin inkişafında üç əsas genetik variantın rolu var: Panik ataklarla SLC6A4-ün 5-HTTLPR polimorfizmi (6, s 55) və COMT-nin Val/Met polimorfizmi və çarpaz pozuntu təşviş fenotipi ilə BDNF-nin Val/Met polimorfizmi. Təşviş pozuntuları həmişə bir-biri ilə hədsiz dərəcədə əlaqələndirilir. İrsi amillər yalnız təşvişin yayılmasına deyil, həm də müşayiət

olunan xəstəliklərə təsir göstərir; (depressiya, ümumiləşdirilmiş təşviş, aqorafobiya, sosial fobiya). Genetik faktorlar da təşvişin sabitliyinə kömək edə bilər.

**Nəticə**

Təşviş və depressiv pozuntular məktəbə davamiyyətə və dərs fəaliyyətinə dərindən təsir edə bilər. Sosial utancaqlıq təcrid və tənhalığı daha da gücləndirə bilər. Depressiya intihara səbəb ola bilər. Uşaqların, məsələn, məktəbə və ya uşaq bağçasına başlayarkən və ya yeni bir yerə köçərkən zaman-zaman təşviş və ya narahatlıq hiss etməsi normaldır. Uşaqlarda dəyişikliklərə və ya stresli bir hadisəyə başa düşülən bir reaksiyadır (4, s 154).

Ancaq bəzi uşaqların təşvişi gündəlik olaraq davranış və düşüncələrinə təsir edərək məktəb, ev və ictimai həyatlarına təsir edir. Bu, daha ciddi problemə çevrilməzdən əvvəl problemi həll etmək üçün peşəkar yardıma ehtiyac ola bilər. Beləliklə, uşağınızın təşvişinin bu mərhələyə çatdığını necə bilirsiniz? Uşaqlarda təşviş əlamətləri hansılardır? Təşviş uşağın qorxmasına, utanmasına və ya pərt olmasına səbəb ola bilər.

Uşağınızda diqqət etməli olduğunuz bəzi simptomlar bunlardır:

- Konsentrasiyada çətinlik çəkmək
- Yata bilməmək və ya gecələr pis yuxularla oyanmaq
- Düzgün yeməmək
- Tez qəzəbli və ya əsəbi olmaq və əsəbi zamanlarda nəzarətdən çıxmaq
- Daim təşvişli olmaq və ya mənfi düşüncələrə sahib olmaq
- Gərginlik və təşviş hissi və ya tez-tez tualetdən istifadə
- Həmişə ağlamaq
- Həmişə asılı olmaq
- Mədə ağrılarından şikayətlənmə və özünü pis hiss etmək

Uşağınız niyə belə hiss etdiyini başa düşəcək qədər yetkin olmaya bilər.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Blaya C, Salum GA, Lima MS, Leistner-Segal S, Manfro GG. Lack of association between the serotonin transporter promoter polymorphism (5-HTTLPR) and panic disorder: a systematic review and meta-analysis. Behav Brain Funct. 2007. 3-41 p.
2. Connolly SD, Bernstein GA. Practice parameters for the assessment and treatment of children and adolescents with anxiety disorders. 2007. 267-83 p.
3. Domschke K, Deckert J, O'donovan MC, Glatt SJ. Meta-analysis of COMT val158met in panic disorder. 2007. 667-73 p.
4. Frustaci A, Pozzi G, Gianfagna F, Manzoli L, Boccia S. Metaanalysis of the brain-derived neurotrophic factor gene (BDNF) Val66Met polymorphism in anxiety disorders and anxiety-related personality traits. 2008. 163-70 p.
5. Hettema JM, Prescott CA, Myers JM, Neale MC, Kendler KS. The structure of genetic and environmental risk factors for anxiety disorders in men and women. 2005. 182-9 p.
6. Zintzaras E, Sakelaridis N. Is 472G/A catechol-O-methyl-transferase gene polymorphism related to panic disorder? 2007. 267-73 p.
7. Warren SL, Huston L, Egeland B, Sroufe LA. Child and adolescent anxiety disorders and early attachment. 1997. 637-44 p.

**Ülkər Qaraş QƏNBƏRLİ**
**Elmi rəhbər: b.ü.f.d. Natəvan Kərəmova**
Qərbi Kaspi Universiteti
E-mail: *ulkerqenberli@icloud.com*

## TƏLƏBƏLƏRDƏ ÜMUMİ HƏYƏCAN VƏ DEPRESSİYA GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

**Summary**

Currently, anxiety is recognized as one of the most prevalent psychological disorders within contemporary society. If left unaddressed, chronic anxiety has the potential to escalate into depression, a serious health concern that can detrimentally impact an individual's daily functioning, interpersonal relationships and occupational performance. This article, a collaborative effort by the researchers of the "Science Group" at Western Caspian University, primarily aims to investigate the impact of general anxiety and depression on students. The research was specifically conducted among students aged 17-18, who are in their first year of study.

**Key words:** Depression, Generalized anxiety, The Zung Scale, The Taylor's Test, Stress.

### Giriş

Həyəcan insanlarda hər hansı bir qorxu anında meydana çıxan güclü daxili sıxıntı hissidir. İmtahandan əvvəl, yeni məktəbə getdiyiniz ilk gün və ya qorxulu filmə baxdıqda, həyəcanlı olmağımız normaldır. Həyəcan həyatın bir hissəsi olsa da, bəzi insanlar bunu digərlərinə görə daha tez-tez yaşayırlar. Bu isə onların gündəlik həyat fəaliyyətində iştirakını çətinləşdirir. Həyəcan pozuntusu hər yaşda, dində və iqtisadi vəziyyətdə olan insanda rast gəlinə bilər [4]. Ümumi həyəcan pozuntusu olan şəxslərin həyat keyfiyyətləri azalır. Həyəcan pozuntusundan əziyyət çəkən şəxslərdə daima qeyri-müəyyən həyəcan hissi və narahatlıq olur. Bu həyəcanın şiddəti bəzən o qədər çox olur ki, insan gündəlik işləri ilə maraqlana bilmir, hətta ətraf aləmdən uzaqlaşmağa başlayır. Həyəcan pozuntusu olan şəxslər digər narahat şəxslərə görə gələcək hadisələr üçün daha çox narahat olurlar. İlkin depressiya diaqnozu qoyulmuş xəstələrin 50%-də digər psixiatrik pozğunluqlar qeydə alınmışdır [2]. Depressiyanın yaranması üçün əsas faktorlardan biri sosial-mühit amilləridir. Ən çox isə emosional gərginliklə xarakterizə olunan şəraitlərdir. Məsələn imtahan prosesi, tədris prosesində kollekvium və s. kimi prosesləri qeyd edə bilərik ki, həyəcanın yüksəlməsi və bəzən də depressiyanın əmələ gəlməsinə gətirib çıxara bilər. Qeyd edilənləri nəzərə alaraq, aparılan tədqiqatlarda həyəcan və depressiya göstəriciləri tədqiq olunmuş, nəticələrin tələbələrin akademik göstəricilərinə təsiri araşdırılmışdır [1].

### Əsas mətn

Tədqiqatlar I kursda oxuyan 17-18 yaşlı tələbələr arasında aparılmışdır. 3 mərhələdə testləşdirmə prosesi həyata keçirilmişdir: adi dərs günlərindən birində, imtahandan əvvəl və imtahandan sonra. Alınmış nəticələr statistik işlənmiş və qarfik təsvir edilmşdir.

Həyəcan səviyyəsinin ölçülməsi zamanı Teylor metodikasından istifadə olunur. Bu zaman testi işləyənin qarşısına sorğu vərəqi qoyulur. Sorğu vərəqi 50 ifadədən ibarət olur. Bu testin köməyi ilə həyəcanın müxtəlif səviyyələrini aşkar etmək mümkündür: 40-50 bal- Çox yüksək həyəcan səviyyəsinin göstəricisi; 25-40 bal- Yüksək həyəcan səviyyəsinin göstəricisi; 15-25 bal- Orta (yüksək tendensiyalı) həyəcan səviyyəsi; 5-15 bal- Orta (aşağı tendensiyalı) həyəcan səviyyəsi; 0-5 bal- Həyəcanın aşağı səviyyəsi.

Depressiyanı müəyyən etmək üçün Zung şkalası testindən istifadə edilib. Bu test Uilyam Zanq tərəfindən hazırlanmışdır. Cədvəl 20 bənddən ibarətdir. Nəticələr təhlil edilərkən bir neçə amil qiymətləndirilir. Biz bu testi 17-18 yaşlı tələbələr arasında aparmışıq. Cədvəl doldurulmazdan əvvəl həmin şəxsə cədvəl haqqında məlumat verilir. Nəticədə 20-80 bal arasında olan depressiya səviyyəsi alınır. Əgər, depressiya səviyyəsi 50 baldan çox deyildirsə, "depressiyasız" diaqnozu qoyulur. Əgər, 50 baldan çox və 59 baldan az olarsa, yüngül depressiya diaqnozu qoyulur. Depressiya səviyyəsi 60-69 bal arasında olanda subdepressiv vəziyyət və maskalanmış depressiya diaqnozu qoyulur. Depressiya səviyyəsi 70 baldan çox olanda əsil depressiv vəziyyət diaqnozu qoyulur.

Beləliklə, aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, təbiət elmlərində oxuyan 1-ci kurs tələbələrində adi dərs günündə ümumi həyəcan 23 bal, imtahandan əvvəl 38 bal, imtahandan sonra isə 27 bal olmuşdur. Humanitar sahədə oxuyan tələbələrdə: adi dərs günündə ümumi həyəcan 29 bal, imtahandan əvvəl 41 bal, imtahandan sonra isə 36 bal; dəqiq elmlərdə oxuyan tələbələrdə: adi dərs günündə ümumi həyəcan 29 bal, imtahandan əvvəl 38 bal, imtahandan sonra isə 31 bal; iqtisadiyyat sahəsində oxuyan tələbələrdə ümumi həyəcan adi dərs günündə 29 bal, imtahandan əvvəl 34 bal, imtahandan sonra isə 32 bal olması müəyyən edilmişdir. Depressiya göstəricisinin tədqiqi zamanı maraqlı faktlar aşkar edilmişdir. Belə ki, təbiət elmlərində oxuyan 1-ci kurslarda adi dərs günündə depressiya 28 bal, imtahandan əvvəl 36 bal, imtahandan sonra isə 34 bal olmuşdur. Humanitar sahədə oxuyan tələbələrdə depressiya adi dərs günündə 32 bal, imtahandan əvvəl 35 bal, imtahandan sonra isə 37 bal olması müəyyən edilmişdir. Dəqiq elmlərdə oxuyan tələbələrdə depressiya adi dərs günündə 34 bal, imtahandan əvvəl 36 bal, imtahandan sonra isə 37.5 bala bərabər olması qeyd edilmişdir. İqtisadiyyat sahəsində oxuyan tələbələrdə isə depressiya adi dərs günündə 31.5 bal, imtahandan əvvəl 33 bal, imtahandan sonra isə 36.3 bal olmuşdur.

**Nəticə**

Beləliklə, aparılan tədqiqatların nəticələrinin müqayisəli təhlili göstərmişdir ki, adi dərs günündə orta həyəcan səviyyəsi qeyd olunsa da, imtahandan əvvəl həyəcanın çox yüksək səviyyəyə qalxması müşahidə olunub. İmtahan prosesindən sonra isə həyəcanın orta səviyyəyə kimi enməsi qeyd olunub. Alınmış nəticə tələbələrdə yaranmış emosional gərgin vəziyyətə müvafiq olaraq normal reaksiya verməsini və həyəcanın optimal səviyyədən norma hüduduna kimi enməsini müəyyən etdi. Belə ki, tələbələrin imtahan prosesini stress faktor kimi qəbul etməsi, koqnitiv prosesləri aktivləşməsi və yüksək uğur göstərici əldə etmək məsuliyyəti həyəcanın yüksəlməsinə səbəb olmuşdur. Depressiya göstəricisi isə hər üç mərhələdə norma hüdudunda olmuşdur (50 baldan aşağı). Nəticə sağlam və tam funksional ali sinir fəaliyyətinin olmasını sübut edir. Tədqiq olunan tələbələrin akademik uğur göstəricilərinin əldə edilməsi koqnitiv proseslərin də bu fonda aktivləşməsini göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Kərəmova N.Y. İmtahan stresinin nəzəri əsasları (ədəbiyyat icmalı). №4, "Elmi Xəbərlər" Qərbi Kaspi Universitetinin jurnali, 2020. Səh. **7-17**
2. Ballenger J.C., Davidson J.R.T., Lecrubier Y., Nutt D.J., Kirmayer L.J., Lepine J. Consensus statement on transcultural issues in depression and anxiety from the İnternational Consensus Group on Depression and Anxiety. J Clin Psychiatry, 2001.
3. Karamova N.Y., Hakverdieva Z., Akbarova Kh., Kazenferov E. The study about the impact of emotional tension on the students' excıtement and memory processes. World Scıence, № 8(48) Vol.3, August 2019, səh. 34-38, Warsaw, Poland, RS Global.
4. Miller E.J., Chung H. A literature review of studies of depression and treatment outcomes among U.S. Collage students since 1990. Psychiatric Services, 2009. J. Eur. Coll. Neuropsychopharmacol, səh. 655-679.

**5.** Zisook.S, Effect of age at onset on the course of major depressive disorder. The American Journal of Psychiatry, 2007

**Lalə Elman İBAYEVA**
Odlar Yurdu Universitetinin magistrantı
E-mail: lalam.lalam@list.ru

## UŞAQLIQ DÖVRÜ PSİXOLOJİ TRAVMA TƏCRÜBƏSİ VƏ DİQQƏT SƏVİYYƏLƏRİ ARASINDAKI ƏLAQƏNİN TƏDQİQİ

**Summary**
One of the mental processes negatively affected by psychological trauma is the attention process. Due to the negative impact of psychological trauma on the prefrontal-parietal region, which is responsible for the attention process, the attention process is weakened. It is important to provide pharmacological support parallel to psychological support for the problem of attention. Both professional supports help increase the level of concentration. This article discusses the relationship between attentional level and psychological trauma and the effect of psychological trauma on the attentional sphere.
**Keywords:** psychological trauma, childhood trauma, attention

### Giriş

Ümumdünya Səhiyyə Təşkilatına görə, uşaqlıq travmasına 0-18 yaş arası şəxsin başına gələn və psixoloji və fiziki inkişafına mane olan hər cür mənfi təcrübə daxildir. 0-18 yaş arası uşağın birbaşa və ya dolayısı ilə öz iradəsi xaricində yaşadığı bütün neqativ hallar travma sayılır.Uşaq bütün canlılar arasında ən uzun müddət qayğı göstərilməli olan varlıqdır. Uzun müddət baxım verən tərəfindən qorunmalı və dəstəklənməlidir. Bu baxımdan uşaq fiziki və psixoloji travmalara qarşı həssas bir quruluşa malikdir. Uşağın sağlam böyüməsi və inkişafı üçün ətrafının, xüsusən də baxım verənlərinin sevgi və diqqətinə möhtacdır [1, s.561] Bununla yanaşı, uşağın zərər görə biləcəyi bir vəziyyətə müdaxilə etməmək də istismar və laqeydlik sayılır [2, s.14]

### Əsas mətn

Fiziki istismar yetkin şəxsin uşağa əllə və ya alətlə xəsarət yetirməsi və uşağa qarşı zorakılıq tətbiq etməsi şəklində ortaya çıxır. Yetkin bir şəxsin uşaq üzərində hakimiyyət qurması, arzuolunmaz vəziyyət qarşısında uşağı cəzalandırması və ya uşaqdan asılı olmadan yaranan qəzəbini uşağa əks etdirməsidir [3, s.108]. Bu səbəblərin mənbəyi valideynlərin uşağa bir fərd kimi baxmaması və uşaq üzərində hüquqlarının olduğunu düşünmələridir. Bu kontekstdə, xüsusilə inkişaf etməmiş ölkələrdə, emosional və cinsi istismarla yanaşı, ən çox yayılmış istismar növü fiziki istismardır [4, s.25]

Emosional istismar və ya digər adıyla psixoloji istismar uşağa baxan insanların uşağa psixoloji cəhətdən dağıdıcı təsirləri ola bilən mənfi davranışlar sərgiləməsi olaraq müəyyən edilir. Cinsi istismar uşağın razılığı olmayan fiziki təmasdan cinsi əlaqəyə qədər olan bütün cinsi hərəkətlərdir [5, s.56]. Ümumdünya Səhiyyə Təşkilatı cinsi istismarı, uşağın nə baş verdiyini anlamadığı inkişaf dövründə əxlaq qaydalarına zidd davranışlara məruz qoyması olduğunu bildirir. Uşaq laqeydliyi, başda valideynlər olmaqla ətrafdakılar, müvafiq qurum və təşkilatlar tərəfindən uşağın əsas ehtiyaclarının qarşılanmamasıdır [6, s.43]. Uşağa baxma məsuliyyətini öz üzərinə götürən şəxslərin uşağa qarşı əsas məsuliyyətlərini yerinə yetirməməsidir [7, s.39]. Qidalanma, sığınacaq, sağlamlıq və təhlükəsizlik ehtiyaclarını

qarşılamamaq və məktəbə göndərməmək [8, s.50] laqeyd davranışlardan bəziləridir. Erkən yaşda psixososial məhrumiyyətlər yaşayan uşaqlarda Diqqət Əksikliyi və Hipetaktivliyin inkişaf riski əhəmiyyətli dərəcədə artır [9, s.629] Cunningham bioloji ana və atada antisosial özəlliklər, spirtli içki və narkotik maddə istifadəsi və ya asılılığı olduğunda uşaqda diqqət əksikliyi probleminin yaşandığını bildirmişdir. Uşaqlıqda yaşanmış psixoloji travma diqqət prosesinə ciddi mənfi təsir göstərir. Belə ki, diqqətlə bağlı olan prefrontal - parietal bölgə diqqət proseslərinə cavabdehdir və istismar bu bölgənin funksiyasına mənfi təsir göstərərək diqqətlə bağlı problemlərin yaranmasına səbəb olur. Spesefik travmatik hadisə belə uşaqda patalogiyanın meydana gəlməsinə səbəb ola bilər. Psixoloji travma yaşamış uşaq yaşadığı travmaya fokslandığı üçün ərtafdan gələn siqnalları dərk etməkdə çətinlik çəkir. Blaustein və Kinniburg travma yaşamış insanların ətrafdan gələn siqnalları anlamaq üçün enerji sərf etdiyini bildirirlər. Yəni insan ətrafdan gəlmə ehtimalı olan pis hadisələrə qarşı çox həssas olur və gələn siqnalları da yanlış anlayır. Bu bacarıq əksiklikləri uşaqlarda həmyaşıdları və baxım edən şəxslə münasibətlərə mənfi təsir göstərir [10, s.22] Həyatının erkən yaşlarında psixoloji travma təcrübəsi olan şəxsin stressə reaksiya sisteminin daim hərəkətə keçməsi beyində sinir mexanizmlərinin ciddi bir fərqliliyinə səbəb olur. Sinir mexanizmimdə anormallıq isə diqqət problemlərində və hiperakrivlikdə özünü göstərir [11, s.35] Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, psixoloji travma (cinsi, fiziki, emosional istismar və fiziki və emosional laqeydlik) insanın diqqət sferasına mənfi təsir edərək yetkin yaşlarda da problemin davam etməsinə səbəb olur.

**Nəticə**

Tədqiqat zamanı psixoloji travmanın diqqət səviyyəsinə nə dərəcədə mənfi təsir göstərdiyi tədqiq edilmişdir. Əsas götürülən fərziyyə isə 0-18 yaş arası baş vermiş psixoloji travmaların uşağın normal inkişafına mənfi təsir edərək diqqət seviyyəsini əhəmiyyətli dərəcədə azaltığı fərziyyəsidir. Tədqiqatda 118 uşaq iştirak edib. Tədqiqat zamanı Sosyal demoqrafiq formadan, diqqət səviyyəsini ölçmək üçün Burdon diqqət testindən, uşaqlıq travmalarını müəyyən etmək üçün Uşaqlıq Travması Şkalasından istifadə edilib.

Tədqiqat zamanı müəyyən edilmişdir ki:

Uşağın cinsi ilə məruz qaldığı psixoloji travma arasında əhəmiyyətli bir fərqin olmadığı müəyyən edilmişdir.Uşağın yaşı ilə məruz qaldığı travma arasında əhəmiyyətli bir fərqin olmadığı müəyyən edilmişdir.

Uşağın bacı və ya qardaşının olub-olmaması, ailə vəziyyəti, təhsil səviyyəsi, ata və anasının təhsil səviyyəsi, müəssisəyə yerləşdirilmə yaşı, müəssisəyə yerləşdirilmə səbəbi və müəssisəyə kimin yerləşdirməsi dəyişəni ilə uşaqlıq travmaları arasında əhəmiyyətli fərqin olduğu müəyyən edilmişdir

Uşağın bacı və ya qardaşının olub-olmaması, ailə vəziyyəti, təhsil səviyyəsi, ata və anasının təhsil səviyyəsi, müəssisəyə yerləşdirilmə yaşı, müəssisəyə yerləşdirilmə səbəbi və müəssisəyə kimin yerləşdirməsi dəyişəni ilə diqqət səviyyəsi arasında əhəmiyyətli fərqin olduğu müəyyən edilmişdir

Uşağın məruz qaldığı travmanın (psixoloji, fiziki, cinsi istismar və emosional və fiziki laqeydlik) növündən asılı olmayaraq diqqətə mənfi təsir edərək əhəmiyyətli səviyyədə azaltdığı müəyyən edilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Zeytinoğlu, S. (1990) Sağlık, Sosyal Hizmet. Hukuk ve Eğitim Alanlarında Çalışan Türkiye'de Çocuk istismarı ve İhmali Sorunu İle ilgili Görüşler. (V. Ulusal Psikoloji Kongre Kitabı). ss.561-574.
2. Akova, F., Koyuncu, Z., Erol, E., Doğangün, B., Güler Baysoy, N., Dokur, M., Özkılıç, A. ve Karadağ, M. (2022). Child Abuse as an Example of Coexistence of Emotional and

Physical Trauma Among Children: An Academic Overview With Altmetric Perspective. Cureus, 14(3). e23347. doi:10.7759/cureus.23347

3. Güner, İ., Güner, S. ve Şahan, H.M. (2010). Çocuklarda Sosyal ve Medikal Bir Problem; İstismar. Van Tıp Dergisi, 17(3), 108-113.
4. Erol, D. (2007). OKULÖNCESİ EĞİTİM KURUMLARINDA GÖREV YAPAN ÖĞRETMENLERİN, ÇOCUKLARDAKİ FİZİKSEL İSTİSMAR BELİRTİLERİNE İLİŞKİN FARKINDALIKLARI (ESKİŞEHİR İL ÖRNEĞİ). Yayımlanmamış yüksek lisans tezi. Anadolu Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Eskişehir, 25ss.
5. Topçu, S. (2009). Cinsel İstismar. Ankara: Phoenix yayınevi, 56ss.
6. Öztürk, S. (2007). ÇOCUKLARDA DUYGUSAL İSTİSMAR. Yayımlanmamış yüksek lisans tezi. Fırat Üniversitesi Sosyal Bilimler Enstitüsü, Elazığ, 43ss.
7. Gürkaynak, İ., Gözütok, F.D., Akipek, Ş., Bağlı, M.T., Erhürman, T. ve Özdemir Uluç, F. (1998). Yurttaş olmak için. İstanbul: Umut Vakfı, 39ss.
8. Dereobalı, N., Karadağ, S. Ç., & Sönmez, S. (2013). Okulöncesi eğitim öğretmenlerinin çocuk istismarı, ihmali, şiddet ve eğitimcilerin rolü konusundaki görüşleri. Ege Eğitim Dergisi, 14(1), 50–66.
9. McLaughlin, K. A., Sheridan, M. A., Winter, W., Fox, N. A., Zeanah, C. H. ve Nelson, C. A. (2014). Widespread reductions in cortical thickness following severe early-life deprivation: a neurodevelopmental pathway to attention- deficit/hyperactivity disorder. Biological psychiatry, 76(8), 629-638. doi: 10.1016/j.biopsych.2013.08.016
10. Blaustein, M., & Kinniburgh, K. J. (2010). Treating traumatic stress in children and adolescent: How to foster resilience through attachment, self-regulation, and competency. New York: Guilford Press, 22ss.
11. Perry, B. D., & Szalavitz, M. (2015). Köpek gibi büyütülmüş çocuk (E. Söğüt, Trans.) Okuyan Us Yayınları. (Original work published 2006), 35ss.

**Leyla İlqar MƏMMƏDOVA**
Qərbi kaspi universiteti
Magistrant

## SOMATİK XƏSTƏLİKLƏRİN YENİYETMƏLƏRİN HƏYAT KEYFİYYƏTİNƏ TƏSİRİ

**Summary**

The diagnoses under the title of somatic symptomatic and related disorders in children and adolescents are not uncommon psychiatric problems. It can have important consequences in terms of psychosocial development, such as absence from school, decrease in academic performance, avoidance of social activities and decrease in peer interaction. Factors contributing to this group of disorders, diagnostic processes, and treatment approaches vary among these age groups. The attitudes and behaviours of parents and teachers towards symptoms are effective in developing and maintaining somatic symptoms and related disorders. The active participation of the child, parents and teachers in the diagnosis and treatment processes must be ensured, and child psychiatrists and physicians from other branches must work in cooperation.

**Keywords:** adolescent, stress, disease, somatic, physical

### Giriş

Uşaq və yeniyetmələrdə somatik simptomatik və əlaqəli pozuntular başlığı altında qoyulan diaqnozlar nadir psixiatrik problemlər deyil. Bu, məktəbdən yayınma, akademik performansın

azalması, sosial fəaliyyətlərdən qaçınma və həmyaşıdlarla qarşılıqlı əlaqənin azalması kimi psixososial inkişaf baxımından əhəmiyyətli nəticələrə səbəb ola bilər. Bu qrup pozuntulara səbəb olan amillər, diaqnostik proseslər və müalicə yanaşmaları bu yaş qrupları arasında dəyişir. Valideynlərin və müəllimlərin simptomlara münasibət və davranışları somatik simptomun və əlaqəli pozuntuların inkişafı və davamlılığında təsirli olur. Diaqnoz və müalicə proseslərində uşağın, valideynlərin və müəllimlərin fəal iştirakı təmin edilməli, uşaq psixiatrları və digər sahələrin həkimləri əməkdaşlıq etməlidir.

Psixosomatik pozuntular mövcud tibbi xəstəliyin mövcudluğunda qismən emosional amillərin təsiri altında baş verən fizioloji dəyişikliklərlə xarakterizə olunan pozuntular kimi müəyyən edilir. Ürək-damar, tənəffüs, endokrinoloji, dermatoloji və s. müxtəlif sistemlərdə baş verə bilər. Somatik simptom pozuntuları fərqli somatik və ya fizioloji simptomların açıq şəkildə göründüyü psixi pozuntulardır. İnsanlar ümumiyyətlə bədənin müxtəlif yerlərində ağrı, yorğunluq, başgicəllənmə, ürək döyüntüsü və s. Fizioloji şikayətlərlə müraciət edirlər, məsələn: Bir insan eyni anda birdən çox simptomdan şikayət edə bilsə də, daimi və davamlı olan tək bir simptom da ola bilər. İnsan yüksək səviyyədə sağlamlıq qorxusu səbəbindən özünü idarə etmə davranışına da sahib ola bilər. Onlara "tibbi şəraitə təsir edən psixoloji amillər" də deyilir.

Ümumi dünya əhalisi üçün intihar düşüncəsinin ömür boyu yayılması təxminən 9% və 12 aylıq dövr ərzində təxminən 2% təşkil edir. Psixi sağlamlıq pozğunluğu olan insanlar üçün bu nisbət əhəmiyyətli dərəcədə yüksəkdir. Dəqiq rəqəmlər qeyri-müəyyəndir, lakin intihar düşüncəsi böyük depressiya və bipolyar pozğunluq kimi psixi sağlamlıq pozğunluqlarının əlaməti olduğundan, problem bu populyasiyalarda daha çox faizdə mövcuddur.İntihar fikirlərinin işarə və simptomları əslində diqətli tərəflər üçün bəlli olur. Belə ki, ətrafınızda bu kimi meyillərə qapılan birinin son dövrlər hərəkətlərini müşhidə etsəniz xəbərdarlıq kimi bir sıra halları görmək mümkün olar. Belə insanlar, sanki bir tələyə düşmüş kimi ümidsizliyə qapılır, özünü hər kəsdən təcrid edir,tez-tez ölümlə bağlı danışır, davranışlarında əvvəlki kimi məsuliyyət hiss olunmur , insan sanki, boşluğa düşmüş kimi sadəcə nəfəs alır, əsəbilik, tez-tez dəyişən anormal əhval-ruhiyyə,son dərəcə narahatlılıq kimi hallar görülür. Əgər intiharın özündən danışsaq, o, əsasən intihara meylli insanların əksəriyyətinin keçdiyi üç mərhələyə bölünür:

a) intihardan əvvəl- bu prosesdə insan öz həyatını dəyərsiz hesab edir, “mənə həyat lazım deyil, mən bezmişəm bu cür həyatdan” və başqa fikirlər yaranır, bu prosesdə dərin intihar hissi yaranmır, hiss olunur, ancaq həyatın inkarı görünür. Bu cür intihar formaları adi insanların da başına gələ bilər.

b) növbəti dövr intihardan əvvəlki dövrdür. Misal: "Ölmək yaxşıdır, yatmaq və bir daha oyanmamaq və s." bu fikirlər insanın intihara hazır olduğunu əks etdirir.

c) üçüncü mərhələdə intihar haqqında rəy verilir. Hətta onu necə icra edəcəyini də dəqiqləşdirir. Demək olar ki, bu dövrlər bu və ya digər formada bu hərəkətin hazırlanması və icrası üçün ümumi təsvir yaradır, ümumiyyətlə, affektiv intiharlar baş verir. Bütün bu hərəkətlərdən sonra insan intihar edir. İntihar bir anda, birdən-birə və qaçılmaz olaraq meydana çıxmır. Bu, intihara meyilli insanın son səbr damcısıdır. Məsələn, Z. Freyd “intiharı qəzəb və ya daha doğrusu özünə yönəlmiş qəzəb şəklində hesab etdiyi ölüm instinktinin təzahürü kimi qəbul edirdi”.

İntihara meyilli insanlarda ambivalentlik hissləri üstünlük təşkil edir. Onlar məyus olurlar və xilasa ümid edirlər. Bir çox hallarda intihar etmək istəyi və onun əksi o qədər bərabərdir ki, əgər bu halda onun yaxınları şəfqət və dəstək göstərsələr, o zaman həyat eşqi mütləq uğur qazanacaq. Ona görə də intihara meyilli insanla danışarkən bunu incəliklə etmək lazımdır. Çünki bu iş xüsusi yanaşma tələb edir. Sual yarana bilər ki, həmsöhbətimizin intihar etmək niyyətində olduğunu necə öyrənmək olar?

Məşhur psixoloq Daniel Goulman deyir: "XX əsrin əvvəllərindən başlayaraq hər bir gələcək nəsil əvvəlki ilə müqayisədə ümidsizlik, ağrılı laqeydlik, narazılıq, oğurluq və başqaları kimi son dərəcə ciddi depressiyalardan əziyyət çəkir" [5, səh. 253] .

İntihar edənlərin şəxsiyyətinə obyektiv qiymət vermək üçün psixoloji qiymətləndirmə aparmaq lazımdır. Psixoloji ədəbiyyatda müxtəlif üsullar və testlər müəyyən edilmişdir ki, onların vasitəsilə intihara meylli insanların şəxsiyyətinin müxtəlif aspektləri öyrənilir. Bu üsullardan biri hipertimik, emosional-labil, şizoid, epileptoid və hissteroid tipləri ilə qeyri-sabit vurğu növlərini öyrənən və sosial uyğunlaşmanın yüksək səviyyəsini təyin edən Lychko testi "PDO"dur ki, bu da münasibətlərin kəskinləşməsinə səbəb olur, yəni özünü məhv edən davranışa gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, "depressiyaya uğramış xəstələrin 70%-də intihara meyllilik müəyyən edilib, 15%-i isə intihar edib" [4, səh. 13].

Bu səbəbdən intiharlar depressiya problemi hesab olunur. "Depressiv vəziyyət" anlayışı psixi vəziyyətlər sinfinə aiddir. Çünki depressiya, psixoloq Qolovin S.Yu görə " özünəməxsus neqativ emosional tonu ilə seçilən, insanın davranış əxlaqı sferasına, idraki və iradi ideyalarına təsir edən və dəyişikliklər yaradan affektiv vəziyyətdir" [2, səh.133].

İntihar genetik, ekoloji, psixoloji və davranış amillərinin kompleksini özündə cəmləşdirən kompleks sağlamlıq hadisəsidir. Post-mortem psixoloji tədqiqatlar açıq şəkildə göstərir ki, hər bir intihar hadisəsində mərhum intihar üçün çoxsaylı risk faktorlarına məruz qalır. İntihar nəticəsində ölüm, yaş və cins uyğunluğu olan insanlardan daha çox psixi xəstəliyi olan insanlar arasında daha çox rast gəlinir. Bəzi tədqiqatlar intihar nəticəsində ölən insanların təxminən 90%-nin ölüm zamanı diaqnozu qoyulmuş psixi xəstəlik olduğunu göstərir.

Şizofreniya xəstələri arasında intihar nisbəti ümumi əhalidən əhəmiyyətli dərəcədə yüksəkdir. Şizofreniya xəstələrinin təxminən 10%-i intihar edir. Şizofreniya xəstələri arasında intihar üçün risk faktorlarına erkən xəstəlik, depressiya epizodları, effektiv müalicənin aparılmaması və ya ona əməl edilməməsi, əlillik, ümidsizlik hissləri və bir sıra digər amillər daxildir. İntihar üçün digər məlum psixososial risk faktorları arasında münasibətlərin pozulması da mühüm əhəmiyyət kəsb edir.

Son zamanlar isə gənclər arasında suisid halları artıb. Burada əhəmiyyət kəsb edən bir sıra faktorlar var. Yaş amilindən tutmuş, sosial durum, coğrfi yerləşmə, demoqrafik vəziyyətlər kimi bir neçə amillə bağlıdır. Yetkinlik intiharı yeniyetmənin emosiya, hiss və intellekt səviyyəsində qeyri-sabit psixi yanaşması ilə əlaqələndirilir. Onlar özünə hörmət baxımından son dərəcə qeyri-sabitdirlər və eyni zamanda maksimalistdirlər, bəziləri daim öz bilik və bacarıqlarına şübhə edirlər, tez-tez əhval dəyişikliyinə məruz qalırlar, narahatdırlar, digərləri isə özünə həddən artıq güvənirlər. Amma istənilən halda problemin əsasında pixoloji dğzümsüzlük dayanır.

**Nəticə**

Bir çox problemlərin həllində kifayət qədər təcrübəsi olan böyüklərdən fərqli olaraq, gənclər hələ kifayət qədər sosiallaşmayıb və belə təcrübəyə malik deyillər. Sosiallaşma prosesində qarşılaşdıqları problemlərin bir çoxu ilk dəfə onlar tərəfindən həll edilir və heç də həmişə uğurlu olmur. Sırf bu səbəbdən də psixoloji basqıya məruz qalan bu təcrübəsiz gənclər intihara meyl edir. Yeniyetmələr arasında intihar halları artmağa meylli olduğundan, gənclər arasında intihar problemi həqiqətən də cəmiyyətin ən aktual problemlərindən biridir. Uşaq və ya davranışı buna işarə edərsə, heç bir əhəmiyyətsiz problem yoxdur. Yeniyetmə üçün "qlobal" problem ən adi həyat şəraitindən yarana bilər (pis qiymət, bədbəxt sevgi və s. Ailə, sosial və yaradıcı münaqişələr də intihar davranışına birbaşa təsir göstərir). İntihara cəhd edən və ya intihar edən bir çox yeniyetmələr qeyri-funksional ailələrdə böyüyüblər və ya böyüklərin heç nə etmədiyi çətin həyat vəziyyətində olublar. Böyüklər arasında intihar faktorlarının artması isə psixoloji dözümlülüyün yetərli olmaması ilə bağlıdır. Cəmiyyətin yanaşması, ətrafdakı insanların bir-birinə laqeydliyi və diqqətsizliyi deyərdik ki, insanların bir-birinin daxili aləminə daha az bələd olması da intihara meyl edənləri bu yoldan çəkindirməyə mane olan amillərdəndir. Halbu ki, intihardan öncə intiharı planlayan şəxs bəlkə dəfələrlə bu haqda siqnallar ötürür. Çünki , intihar ən son və çıxılmazlıq halıdır. İntihar meyllərinin təzahürünün qarşısını almaq üçün insan gündəlik həyatını, təhsilini, asudə vaxtını səmərəli təşkil etməli - kollektivdə münasibətlər qurmalı, istirahət elementlərini də həyatına daxil etməlidir.

Bu mənada sosial tədbirlər çox vacibdir:

-insanların psixi sağlamlığının qorunmasını təmin edəcək əyləncələrin təşkili;

-vətəndaşların sosial təminatının təmin edilməsi;

-istənilən cəmiyyətdə onu təşil edən fərdlər arasında qeyri-sağlam münasibətlərin qarşısının alınması;

-potensial intiharların qarşısının alınması məqsədilə - hər bir təşkilatın ştatında ixtisaslı psixoloq olmalıdır;

-şəxsi böhran vəziyyətində olan insanlara vaxtında psixoloji yardım göstərmək imkanı cəmiyyətdə bu kimi halların qarşısının alınmasına əhəmiyyətli təsir göstərəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G., Konfliktologiya. Bakı, 2006. – 251 səh.
2. Cavadov R.Ə., Tağıyeva G.B.Ekstremal şəraitlərdə psixoloji xidmət. Ali məktəblər üçün dərslik. Bakı, 2006, 258 səh.
3. Головин С.Ю. Словарь психолога-практика/С.Ю.Головин.- 2001.- С. 20
4. Смидович С.Г. Самоубийства в зеркале суицидентов/С.Г. Смидович // Социол. Исслед. - 1990. №4. - С.15.
5. Суицидология: Прошлое и настоящее: Проблемы самоубийства в трудах философов, социологов, психотерапевтов и в художественных текстах. - Ми, «Когито-Центр», 2001. - С.256.


**Könül Zaur ŞIXƏLİYEVA**
ADPU
E-mail: **konul.eliyeva.17@mail.ru**

## UŞAQLARIN NİTQİNİN İNKİŞAFINDA MÜƏLLİM, TƏRBİYƏÇİ VƏ VALİDEYNLƏRİN ROLU

**Summary**

The fact that a person has speech culture is the main proof of his cultural maturity. For this reason, starting speech development from an early age is one of the main goals set by both the education system and every family today. In modern times, the development of science and technology and the demands of the changing world make speech development necessary. The basis of this process is laid in the family, and preschools, schools, higher education institutions, every conference, event, meeting, competition - in other words, every field we participate in requires us to have a perfect speech.
**Key words:** Speech, thinking, child.

**Giriş**

Nitqin insan həyatındakı rolu çox kiçik yaşlarından başlayır. 6-7 aylıq bir uşaq yaşlılarla emosional ünsiyyətdə olur və bu proses davam edərək sonrakı dövrlərdə də onun ətraf aləmlə münasibətində xüsusi rol oynayır. Müasir dövrün tələbi olan mükəmməl nitq üçün onun düzgünlüyü, dəqiqliyi, təmizliyi, aydınlığı, məntiqi ardıcıllığı, gözəlliyi, zənginliyi, sadəliyi, yığcamlığı, ifadəliliyi kimi normalara əməl olunmalıdır. Əlbəttə, burada ən mühüm məqam nitqin bu tələblərini erkən yaşlardan uşaqlara aşılamaqdır. Ümumiyyətlə, nitqin inkişafı dedikdə, anadan olandan uşağın müxtəlif səsləri tələffüz etməsi, nisbətən sonra yaşlıların nitqini qavraması, öz fikirlərini ifadə etməyə başlaması, qırıq-qırıq sözlərdən istifadə etməsi, hətta 2 yaşlı uşaqların artıq sadə cümlələr qurması, məktəbəqədər yaş dövründə ətraf aləmlə, yoldaşları ilə münasibəti nəzərdə tutulur.Uşaq inkişaf etdikcə onun sinir sistemi də inkişaf edir, təfəkkürü formalaşır, nitqi daha aydın və səlis olur. Nisbətən böyük yaşlı uşaqlar ana dilinin

zəngin lüğət tərkibindən istifadə etməklə yanaşı, eyni zamanda dilin qrammatik normalarına əsaslanan bir nitqə malik olurlar. Uşaqlarda yaradıcı təxəyyül inkişaf edir, onlar öyrənməyə, axtarışlar etməyə cəhd edirlər. Bu yaşda uşaqların çoxlu suallar verməsi də bununla əlaqəlidir. Sözsüz ki, uşaq nitqinin kortəbii inkişafına ümid bəsləmək olmaz. Hər bir uşağın nitqinin ədəbi dilin normalarına uyğun inkişafını təmin etmək lazımdır ki, onların düzgün tələffüz qaydalarına əsaslanan ünsiyyət prosesi inkişaf etsin. Düzgün nitq inkişafı şəxsiyyətin formalaşmasının da əsas amilidir. Bu prosesdə müəllim və tərbiyəçilərin üzərinə olduqca böyük məsuliyyət düşür. Onlar uşaq şəxsiyyətinin, əsasən də, onların nitqinin inkişafına istiqamətlənən tədbirlər həyata keçirməlidirlər. Şagird şəxsiyyətinin inkişafı üçün nitq bacarıqlarının, kommunikativ bacarıqların, sosial mühitdə ünsiyyətin rolu olduqca böyükdür. Nitq bacarıqlarına nail olmaq şagirdin sosial davranışını daha da yaxşılaşdırır. Nitqin inkişafı ilə yanaşı, şagirddə dinləmə və şagird sözləri düzgün tələffüz etməklə üzdənoxuma vərdişlərini inkişaf etdirir, söz ehtiyatı sinifdən-sinfə keçdikcə zənginləşir, öz fikirlərini dəqiq, ardıcıl, rabitəli, səlis şəkildə ifadə etməyi bacarır**.** Nitqimiz kiçik yaşlardan formalaşmağa başlayır və məktəb dövründə daha da inkişaf edir. Şagirdlər hələ məktəbə gəlməmişdən müəyyən nitq vərdişlərinə yiyələnmiş olurlar. Onlar bu vərdişlərə valideynlərinin və ətraf mühitdəkilərin nitqini yamsılamaq və təkrarlamaqla yiyələnirlər. Təhsil müsəssisələrində nitqin inkişafı üçün xüsusi olaraq oxu dərsləri tədris olunur. Oxu dərsləri şagirdlərin nitqini inkişaf etdirir, onların söz ehtiyatlarını zənginləşdirir və fikrə münasibət bildirmək qabiliyyətini formalaşdırır. Bu dərs vasitəsilə şagirdlər ilk öncə hərflərdən hecalar, hecalardan sözlər tərtib edərək ilkin oxu vərdişlərini formalaşdırırlar. Ibtidai siniflərdə oxu dərsləri onların yaş xüsusiyyəti nəzərə alınaraq kiçik həcmli nağıllar, sadə süjetli bədii əsərlərdən ibarət olur. Ibtidai siniflərdə oxu dərslərinin təşkil olunması ilə təkcə şagirdlərin nitqi inkişaf etmir, həm də mətn əsasında təsvirlər və suallar verilərək onlarda məntiqi təfəkkürü və hadislərə münasibət bildirmək bacarığını inkişaf etdirirlər. Məktəbyaşlı uşaqların fəaliyyəti və nitqi üzərində aparılan müşahidələr göstərmişdir ki, öz başına buraxılmış uşağın inkişafı ilə məktəbəqədər müəssisələrdə tərbiyə alan uşağın inkişafında fərq var. Buna baxmayaraq, məktəbəqədər müəssisələrdə və sonrakı pillələrdə uşaqlar nitq bacarıqlarına yiyələnsələrdə, onların tam nitq mədəniyyətinə yiyələndiyini deyə bilmərik. Nitq mədəniyyəti nitqin düzgünlüyünü, təmizliyini, ədəbi dilin normalarına uyğun tələffüzünü, sözlərin dəqiq və yerində işlədilməsini tələb edir. Bu baxımdan ibtidai sinif müəllimləri şagirdlərin nitqi üzərində aparılan müşahidələrə əsasən onların düzgün nitq mədəniyyətinə yiyələnməsinə çalışmalıdırlar.

**Əsas mətn**

Məktəblilərin şifahi nitqinin inkişafı problemi getdikcə daha çox ictimai əhəmiyyət qazanır, çünki nitq insanın mənəvi mədəniyyətinin inandırıcı göstəricisidir. Ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması, mədəniyyət və təhsilin humanistləşdirilməsi proseslərinin dərinləşməsi, mənəviyyatın dirçəlişi, Azərbaycan mədəniyyətinin mənşəyinə və ənənələrinə qayıtmaq, doğmatik və birtərəfli qiymətləndirmələrdən qurtulma sənət fenomenləri insanlar arasındakı ünsiyyət tərzini dəyişdirir, mövzunu genişləndirmək, şifahi nitq zənginliyindən daha mükəmməl istifadə, həmsöhbət şəxsiyyətinə diqqət yönəldir. Məktəb həm də şagirdin şəxsiyyətinə, onun mənəvi inkişafına, mədəniyyətinə, düşüncə tərzi və danışıq tərzinə, yaratma qabiliyyətinə diqqəti artırır. Cəmiyyət bu sözü bilən, inanclarını, baxışlarını müdafiə edən, müzakirə etməyi bacaran, insanlararası ünsiyyət prosesində yaradıcılıqla məşğul olan insanlara ehtiyac duyur.

Ümumiyyətlə, məktəblilər üçün yazılı nitq şifahi nitqə nisbətən çətin və uzun sürən prosesdir. Şagirdlər Azərbaycan dili dərslərində orfoqrafiya, durğu işarələri və qrammatik qaydaları öyrənməklə sözü, ifadəni məqamında işlətmək, cümlə qurmaq və üslubiyyat üzrə bacarıqlara yiyələnirlər. Bunula belə, yazılı nitq mədəniyyəti məktəblilərdən həm də həyati

müşahidə, dərin bilik, güclü mütaliə vərdişləri tələb edir. Məktəblilərin yazılı nitqinin inkişaf etdirilməsi üzrə işlər rəngarəngdir. Bu rəngarənglik aşağıda verilən amillərdən asılıdır:

1) Şagirdlərin yaş xüsusiyyətlərindən;

2) Onların ədəbi və nitq inkişaflarının səviyyəsindən;

3)Məktəblilərlə nitq sahəsində aparılan işin bazası əsasında bədii əsərlərin növü və janrından və s. müəllim tərəfindən qavrama və ünsiyyətlə bağlı məsələlərin qoyuluşundan.

Şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsinin ən əsas yollarından biri inşa yazılardır. "İnşa" sözü qurmaq, yaratmaq mənasında işlənir. Bu yazı növündə məktəblilərin təfəkkürü, nitq bacarıqları, ədəbi inkişaf səviyyəsi daha qabarıq şəkildə meydana çıxır. Şagird inşa yazı növündə ədəbi əsər, mövzu, problem barədə təəssüratından, düşüncələrindən, şəxsi həyat təcrübəsindən, müşahidələrindən söz açır. [1]Müəllim yalnız 45 dəqiqəlik dərs müddətində deyil, dərsdənkənar məşğələlərdə də şagirdlərin nitqinin inkişafına çalışmalıdır. Bunun üçün ekskursiyalar təşkil edilməli, sinifdənxaric ədəbiyyat nümunələri oxudulmalıdır. Bu gün tədris ocağı adlandırdığımız məktəblərdə müəllim şagirdlərə elə sərbəstlik verməlidir ki, onlar gələcəkdə öz fikirlərini ifadə etməkdə çətinlik çəkməsinlər. Artıq neçə ildir ki, kurikulum sisteminə keçməklə yeni təlim texnologiyalarından istifadə olunur. Təlim texnologiyaları kurikulumun əsas istiqaməti olan şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında mühüm strateji bir xəttdir. Müəllim təlim texnologiyalarından istifadə edərkən onların dərsə uuğunluq dərəcəsini də yoxlamalıdır. Hazırda "Beyin həmləsi", "Söz assosiasiyaları", "Auksion" və s. kimi oyun növləri dərslərdə şagirdlərin nitqinin formalaşmasında kömək edir. Bildiyimiz kimi pedaqoji ünsiyyət məktəbdə müəllimlərin şagirdlərə keçib öyrətdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət şagirdlərdə hərtərəfli inkişaf etdirilməlidir. Pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərindən çox asılıdır. Motiv düzgün olarsa, o pedaqoji ünsiyyətin də gedişini şərtləndirə bilər. Hər bir konkret şəxsiyyət kimi müəllimin də ünsiyyətinin təşkili, priyom və metodları özünü cəmləşdirir. Müəllim də dərslərində bu üsul və priyomlardan yerində istifadə etməlidir.

**Nəticə**

Nitqin inkişafına nail olmaq üçün oxu təlimini müəllim yalnız Azərbaycan dili dərslərində deyil, digər fənlərin tədrisində, ev tapşırıqlarında da ona xüsusi əhəmiyyət verməlidir. Sinifdənxaric oxu üzrə verilən materiallar oxu təliminin əsasını təşkil edir. Şagirdlərin məktəbdə oxu dərsləri vasitəsi ilə əldə etdikləri məlumatlar sinifdənxaric oxunun köməyi ilə daha da dolğunlaşır, tamamlanır. Oxu dərsləri şagirdlərin nitqini inkişaf etdirməklə yanaşı, onlarda oxuya, mütaliəyə meyli gücləndirir. Oxu dərslərinin nəticəsi olaraq şagird öz fikrini sadə şəkildə ifadə edə bilmək, oxuduğu materialı mənimsəyərək nəql edə bilmək və mətni real hadisələrlə əlaqələndirə bilmək bacarığını formalaşdırır. Oxu təlimi yalnız şagirdin nitqini inkişaf etdirmir üçün deyil, həmçinin onların təfəkkürünün inkişafı üçün də zəruridir.

Azərbaycan dili və ədəbiyyat müəllimləri dərs zamanı şagirdləri müzakirədə fəal iştirak etməyə, problemlə bağlı mühakimə yürütməyə, nümunələr gətirməklə hökmlərini əsaslandırmağa, bu və ya digər fikri müdafiə etməyə, müxalif fikrə təmkinli münasibət bildirməyə sövq edən emosional, təbii, sərbəst nitq mühiti yaratmağa çalışmalıdırlar. Şifahi nitqlə bağlı əsas məsələlərdən biri də şagirdlərə düzgün tələffüz bacarıqlarının aşılanmasıdır. Bunun üçün məktəbdə vahid nitq rejiminə riayət edilməli, bütün dərslərdə nitqin düzgünlüyü, dəqiqliyi, ifadəliliyi tələbləri, fonetik, leksik, qrammatik normalar gözlənilməlidir. [2]

Nəticə olaraq, şifahi və yazılı nitqə yiyələnmiş hər bir məktəbli öz fikirlərini aydın, məntiqi ardıcıllıqla çatdıra bilir, nitqində yerinə düşən sözlərdən istifadə edir, bu sözləri əlaqələndirir,müxtəlif məlumatlara münasibət bildirir və nəticə çıxarır. Şagirdlər Azərbaycan dili dərslərində mətnlərin, ədəbiyyat dərslərində ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı əsaslandırılmış rəy söyləyir, nitqdə obrazlı ifadələrdən bəhrələnir, müxtəlif mövzulara aid müzakirələrdə təqdimatlarla çıxış edir, ədəbi nailiyyətlərə münasibət bildirə bilirlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əhmədov B.A. Dərsliklərimizin dili haqqında // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2003, №2, s.18-21
2. Kərimov Y. Azərbaycan dilinin tədrisi problemləri, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" məcmuəsi, 1999, №3

**Solmazxanım Mirqədir ƏZIMOVA**
Qərbi Kaspi Universiteti
magistrant
E-mail: azimovasolmaz4@gmail.com

## DOĞUM SONRASI DEPRESSİYANIN KLİNİK-PSİXOLOJİ XARAKTERİSTİKASI

**Summary**

One of the most difficult paths a woman goes through in her life cycle is pregnancy and the postpartum period. During this period, there are sudden changes in hormones and all tissues and organs in the body, and she is less productive in the social sphere than in the pre-pregnancy period. Expectations from her increase and the woman may experience inadequacy in the support she needs from her family. All these situations are important factors that reduce the mother's endurance. There is no separate type of depression called postpartum depression. It is a depression that occurs as a result of the stress experienced in the postpartum period in predisposed women.

**Keywords:** woman, depression, family, child, mood

**Giriş**

Bir körpənin doğulması çox vaxt sevincli bir dövr hesab olunur, lakin eyni zamanda, qadınlar depressiyaya meyllidirlər. Bu cür hisslər yeni gələn insanın özünə və körpəsinə baxmasını çox çətinləşdirir və ailəni çətin vəziyyətə salır. Körpənin doğulmasından sonra yaranan depressiyaya "postpartum" depressiya deyilir.

Postpartum depressiya nədir?

Postpartum depressiyanın 2 əsas növü var:

1. Doğuşdan sonrakı və ya analıq "depressiyası", qısa müddətli yüngül əhval problemi
2. Postpartum major depressiya ağır və potensial həyati təhlükəsi olan bir xəstəlikdir.

Doğum sonrası depressiya nədir?

Postpartum depressiyası yeni anaların 50-80% -nə təsir edir. Simptomlar, adətən, doğuşdan 3-4 gün və 5-7 gün sonra başlayır. Növbəti bir neçə gün ərzində daha da pisləşir və 12-ci gündə yox olmağa meyllidir. Yeni ana gözyaşardıcı, narahat və ya əsəbi hisslərlə yanaşı, əhvalın dəyişməsi və yatmaqda çətinlik çəkə bilər. Simptomlar 2 həftədən çox davam edərsə, həkimə müraciət etmək vacibdir, çünki doğuşdan sonrakı kədəri yaşayan hər 5 qadından 1-də (20%) doğuşdan sonrakı ağır depressiya inkişaf edir.

**Əsas mətn**

Postpartum depressiya doğuşdan sonrakı ilk günlər və ya həftələr ərzində istənilən vaxt başlaya bilər. Doğuşda və doğuşdan sonrakı depressiya çox daha ciddidir. Bu, əhval pozuntusunun bir növüdür, beyin kimyasında dəyişikliklər nəticəsində yaranan bioloji xəstəlikdir və ya ananın günahı, ya da "zəif" və ya balanssız şəxsiyyətin nəticəsidir. Bu, bir həkim tərəfindən müalicənin kömək edə biləcəyi bir xəstəlikdir. Depressiya zamanı əvvəllər edilən fəaliyyətlərə maraq və ya həzzin itirilməsi özünü göstərə bilər. Digər simptomlara

yorğunluq, narahatçılıq və ya yavaşlama hissi, günahkarlıq və ya dəyərsizlik hissləri, konsentrasiyada çətinlik, yuxusuzluq və təkrarlanan ölüm və ya intihar düşüncələri daxildir. Qadın da körpəsinin sağlamlığından çox narahat ola bilər. Çox ağır postpartum depressiyaya məruz qalan bəzi qadınlarda psixotik düşüncələr (halüsinasiyalar) inkişaf edir və onların özlərinə zərər verməsi üçün kiçik, lakin real şans var.

Yeni anaların təxminən 10-15% -i doğuşdan sonrakı major depressiyanı inkişaf etdirir, lakin çox vaxt doğumdan bir neçə ay sonra diaqnoz qoyulur. Bəzən yeni ana enerji çatışmazlığı və ya başqalarının nə düşünəcəyindən qorxduğu üçün həkimə müraciət etməyi dayandırır. Yeni ana depressiyaya düşdüyü üçün özünü günahkar hiss edə bilər. Ailə üzvləri və həkimlər də, ananın pis əhval-ruhiyyədə olduğuna inanmalı, depressiya kimi simptomları qəbul etməli, körpəyə qulluq stresini normal qarşılamalıdırlar.

Doğuşdan sonrakı depressiyaya nəyin səbəb olduğunu dəqiq bilmirik, lakin araşdırmalar göstərir ki, hormonal amillər beyin kimyasına təsir edə bilər. Doğuş zamanı qanda və beyində estrogen və progesteronun miqdarı birdən-birə azalır. Doğuşdan sonrakı depressiyanı inkişaf etdirən qadınlar, bədənin "normal tarazlığına" qayıtdığı üçün bu dəyişikliyə xüsusilə həssas ola bilər. Depressiyanın digər mühüm, lakin nadir səbəbi doğuşdan sonra qalxanabənzər vəzinin az fəaliyyət göstərməsidir. Bu, aşkar edilərsə, müalicəsi nisbətən asan olan bir problemdir. Müvafiq ola biləcək digər bioloji və sosial problemləri öyrənmək üçün tədqiqatlar aparılır. Postpartum depressiyanın beyin kimyası, ehtimal ki, tədqiqatçıların digər depressiya növlərində mövcud olduğuna inandıqları hadisələrə bənzəyir. Bu fikir dəstəklənir, çünki doğuşdan sonrakı depressiya daha çox başqa vaxtlarda depressiya keçirmiş və ya yaxın qohumlarında depressiya olan qadınlarda (burada irsi faktor da ola bilər) rast gəlinir. Doğuşdan sonrakı depressiya üçün ən əhəmiyyətli risk faktoru daha əvvəl oxşar bir dövrdən keçməkdir. Uşaq doğulduqdan sonra depressiya keçirən qadınların yarıdan çoxu doğuş zamanı yenidən depressiyaya düşəcək. Əgər qadın həyatının hansısa məqamında depressiyaya düşmüşdürsə, onun doğuşdan sonrakı depressiyaya düşmə riski də təxminən 10%-dən 25%-ə qədər artır. Manik depressiv xəstəliyi (həmçinin bipolyar pozuntu kimi tanınır) olan qadınlar da çox yüksək risk altındadırlar. Qadınlar hamiləlik dövründə depressiyaya düşsələr, hamilə qalmadan əvvəl əhəmiyyətli dərəcədə əhval-ruhiyyədə dəyişmə əlamətləri yaşasalar və ya yaxın qohumlarında depressiya və ya bipolyar pozuntu varsa, bu zaman daha həssas olurlar. Şəxsi və ya ailə keçmişində əhval-ruhiyyə pozuntusu olan bir qadının yaxından izlənilə bilməsi üçün həkimi ilə danışması çox vacibdir. Stressli vəziyyətlər (məsələn, körpənin sağlamlıq problemləri, nikahda nifaq, partnyorun olmaması) da qadını doğuşdan sonra major depressiya yasaması  riskini artırır. Depressiyadan əziyyət çəkən analar üzərində aparılan araşdırmalar göstərib ki, doğuşdan sonrakı depressiya körpəyə uşaqlıqda da davam edə biləcək əhəmiyyətli mənfi təsirlər göstərə bilər. Depressiyada olan analar uşaqları ilə daha az maraqlana bilər. Ana və körpə arasında qarşılıqlı əlaqə pozulduqda, bu davranış uşağın sonrakı inkişafına təsir göstərə bilər. Araşdırmalar göstərib ki, belə uşaqlar bəzi fənlərdə yaxşı nəticə göstərə bilmirlər. Depressiyaya uğramayan anaların uşaqları ilə müqayisədə daha zəif nəticə göstərirlər. Həmçinin, onların digər uşaqlarla qarşılıqlı əlaqə qurma qabiliyyəti, davranış və öyrənmə problemləri də  ola bilər. Buna görə də postpartum depressiyanı mümkün qədər erkən tanımaq və müalicə etmək çox vacibdir.

**Nəticə**

Postpartum depressiyanın müalicəsi simptomların şiddətindən asılıdır. Tərifə görə, doğuşdan sonrakı depressiya  yalnız bir neçə gündən 2 həftəyə qədər davam edir. Yenidoğanın qayğısına qalmaqda əlavə yardım və anaya emosional dəstək ilə bu hisslər adətən tez keçir. Ancaq depressiya dərinləşdikdə və qısa müddətdən çox davam etdikdə daha aktiv müalicə lazımdır. Əgər depressiya qadının işləyə biləcəyi qədər yüngül qalsa, o, mütəxəssis psixoterapiyasından faydalana bilər. Ancaq daha ağır depressiyanın aydın əlamətləri varsa,

mütəxəssislər diqqətlə seçilmiş antidepresan dərmanları psixoterapiya və dəstək ilə birləşdirməyi məsləhət görürlər. Onun müxtəlif təsirləri haqqında məlumat toplanmışdır. Antidepresanlar ana südü ilə qidalanan körpələrdə ciddi problemlərin olduğunu sübut etmir. Depressiya nə qədər şiddətli olarsa, mütəxəssislər dərmanların istifadəsini bir o qədər güclü şəkildə təşviq edirlər. Əgər qadında intihar və ya psixotik düşüncələr kimi çox ağır simptomlar varsa, simptomlar aradan qalxarkən özünün və körpəsinin təhlükəsizliyini təmin etmək üçün həkim onu xəstəxanaya yerləşdirməli ola bilər. Elektrokonvulsiv terapiya ananın dərman qəbul etməməsi və ya ana südü ilə qidalanması və dərman qəbul etməmək istəməsi halında nəzərə alınacaq alternativdir. Müxtəlif kimyəvi təsirləri və yan təsirləri olan bir çox müxtəlif növ antidepresanlar mövcuddur. Hamısı depressiv simptomları müalicə edir və doğuşdan sonrakı depressiyaya kömək edə bilər. Bununla belə, ana südü ilə qidalanan uşaq da ola bilər. O, körpəsi üçün antidepresan dərmanların təhlükəsizliyindən narahatdır. Süd verən anada doğuşdan sonrakı depressiya üçün mütəxəssislər tövsiyə edirlər: serotoninin geri alınması inhibitorları adlanan dərmanlar, beynin kimyəvi tərkibinə, serotoninə təsir göstərir. Bunlar arasında ən çox seçilən, əmizdirən analar və onların körpələrində ən çox öyrənilən antidepresan olan sertralindir (Zoloft). Az miqdarda ana südünə daxil olsa da, körpələrdə az miqdarda və ya heç bir dərman aşkar edilə bilməz və heç bir yan təsir görünmür. Paroksetin (Paxil) də yüksək qiymətləndirilmiş seçimdir. Paroksetin ana südündə və ya ana südü ilə qidalanan körpələrdə aşkar edilə bilməz. Digər iki tez-tez istifadə olunan SSRI, fluoksetin (Prozac) və sitalopram (Celexa) ana südünə az miqdarda daxil olur, lakin məqbul alternativlər hesab olunur. Əgər ana hamiləlik dövründə fluoksetin və ya sitalopramdan istifadə edibsə və doğuşdan sonra dərmanı davam etdirmək lazımdırsa, mütəxəssislər başqa dərmana keçməyi zəruri hesab etmirlər. Köhnə bir dərman növü olan trisiklik antidepresanlar da mütəxəssislər tərəfindən süd verən analar üçün uyğun seçim hesab olunur. İmipramin (Tofranil) və nortriptilin (Pamelor) 2 nümunədir. Trisikliklər anada SSRI-lərdən daha çox yan təsirlərə səbəb olur, lakin bəzən daha təsirli olur. Körpə sağlamdırsa, pediatr körpədə əhəmiyyətli miqdarda antidepresan olub-olmadığını və depressiyaya səbəb olub olmadığını öyrənmək üçün qan nümunəsi götürə bilər. Ananın psixotik simptomları (halüsinasiyalar və ya sayıqlamalar) olduğu depressiyanın son dərəcə ağır forması üçün antidepresanı antipsixotik adlanan başqa bir dərman növü ilə birləşdirmək vacibdir. Körpə ana südü ilə qidalanırsa, mütəxəssislər ənənəvi adlanan daha köhnə bir növü tövsiyə edirlər: antipsixotiklər (məsələn, Haldol); əks halda, daha yeni növlərə (Risperdal və ya Zyprexa kimi atipik antipsixotiklər) üstünlük verilir, lakin əmizdirən analarda və onların körpələrində adekvat şəkildə sınaqdan keçirilməmişdir. Doğuşdan sonra major depressiya keçirən qadına ekspertlər ev işlərində kömək etməyi və psixi sağlamlıq mütəxəssisi ilə müalicə etməyi tövsiyə edirlər. Depressiya şiddətlidirsə, mütəxəssislər ananın yanında qalacaq və ona hər zaman kömək edəcək bir qohum, dost və ya köməkçi tapmağı məsləhət görürlər. Ailə və dostlar mühakimə etmədən dəstək, ümid və yeni ananın qabiliyyətlərinin təsdiqini təklif edə bilərlər. Doğuşdan sonrakı depressiya üçün psixoterapiyada ümumi problemlərə yeni məsuliyyətlərlə bağlı hədsiz qorxular və belə kritik bir zamanda depressiyaya düşmək üçün günahkarlıq hissləri daxildir. Bu məsələləri perspektivə qoyaraq, depressiyanı müalicə edən iki üsul var: interpersonal terapiya və koqnitiv bihevioral terapiya. Həyat yoldaşını və ya digər əsas qayğı göstərəni terapiyaya cəlb etmək, onlara depressiya əlamətlərini aradan qaldırmağın və ailədəki artan stressin öhdəsindən gəlməyin çox vaxt dəyərli olduğunu başa düşməyə kömək etmək lazımdır.Əvvəlki depressiya epizodları qadının doğuşdan sonrakı depressiyaya düşmə riskini artırır. Əvvəlki hamiləlikdən sonra doğuşdan sonra depressiya keçirmiş qadında risk ən yüksəkdir. Bir qadının depressiya keçmişi varsa, onun həkimi xəstəliyin doğuşdan sonra geri dönmə ehtimalını azaldacaq müalicələri müzakirə edə bilər. Əgər bu onun ilk hamiləliyidirsə və heç bir müalicə almadan özünü yaxşı hiss edirsə, əksər ekspertlər diqqətli monitorinqi tövsiyə edir, lakin simptomlar meydana çıxmırsa yeni müalicə

tələb etmir. Bununla belə, əgər qadında keçmişdə doğuşdan sonrakı depressiya olubsa, əksər mütəxəssislər doğuşdan dərhal sonra antidepresan dərmanlar və psixososial müdaxilələrlə profilaktik müalicəyə başlamağı məsləhət görürlər. Bəzi ekspertlər deyirlər ki, əgər ana çox yüksək risk altındadırsa, profilaktik proqrama başlayın. Tipik bir plan kimi son tarixdən 2-3 ay əvvəl psixoterapiyaya başlamaq olar. Son bir neçə həftədə demək olar ki, antidepresan dərman əlavəsi qəbul etmək olar. Bu zaman döl üçün heç bir risk yoxdur.Dəstək qrupları doğuşdan sonrakı depressiya və ya körpə doğulduqdan sonra digər emosional problemləri olan qadınlar üçün çox faydalı ola bilər. Bu qruplar qadına özünü daha az tək hiss etməyə, yeni mübarizə bacarıqlarını öyrənməyə və yerli resursları öyrənməyə kömək edə bilər.

**ƏDƏBIYYAT SIYAHISI:**

1. Brooke Shields. Down Came the Rain: My Journey Through Postpartum Depression.
2. Karen R. Kleiman and Valerie Davis Raskin. This Isn't What I Expected: Overcoming Postpartum Depression.
3. Karen Kleiman. The Postpartum Husband: Practical Solutions for Living with Postpartum Depression.
4. Shoshana S. Bennett and Pec Indman. Beyond the Blues: Understanding and Treating Prenatal and Postpartum Depression & Anxiety.
5. Sally Placksin. Mothering the New Mother: Women's Feelings & Needs After Childbirth: A Support and Resource Guide.
6. Postpartum Depression for Dummies" by Shoshana S. Bennett and Mary Jo Ricker
7. Ruta Nonacs. A Deeper Shade of Blue: A Woman's Guide to Recognizing and Treating Depression in Her Childbearing Years.
8. Pamela S. Wiegartz and Kevin L. Gyoerkoe. The Pregnancy and Postpartum Anxiety Workbook: Practical Skills to Help You Overcome Anxiety, Worry, Panic Attacks, Obsessions, and Compulsions.

**Aytən MUSAYEVA**
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: aytenmelikzade7212@gmail.com

## QADINLARIN VƏ HAMİLƏLİK DÖVRÜNDƏ UŞAQLARA PSİXOLOJİ MÜNASIBƏTIN ÖYRƏNILMƏSI

**Summary**

Studies have shown that stress during pregnancy affects the brain development of the baby from the 17th week of pregnancy. Stress during pregnancy has a negative impact on the development of both the mother and the baby. Mutually experienced stress leads to a number of changes in the structure of the couple, which also affects the baby's vision. Stress causes stillbirth. A pregnant woman's stress affects the brain functions and behavior of the unborn baby. As a result of another study, it was found that the baby of a mother who experiences stress during pregnancy becomes hyperactive later. In addition, the tension experienced increases the risk of stillbirth

**Key words:** pregnancy, research, child, psychology, fear, love

**Giriş**

Hamiləlik hər bir qadının həyatında bioloji, psixoloji və sosial bir yaşantıdır. Təbii, həm də çətinliklərə uyğunlaşma gözlənilən mürəkkəb bir zaman bölümüdür. Qadın birinci hamiləliyə

uyğunlaşır, sonra isə analığa dönəminə öyrəşmə mərhələsindən keçir. hamiləlik zamanı **qadın 3 mərhələdən ibarət dövrdən keçir:**

0-3 ay – hamilələr uşağı hiss edə bilmədiyi üçün çox narahatlıq və stress keçirə bilirlər. Düşüklərin əksəriyyəti bu aylarda baş verir və ilk dəfə hamilə olan anaları daha çox narahat edir.

3-6ay – uşaqda zehni mərhələnin inkişafının başladığı bir dövrdür. Doğumdan əvvəl ana xarici dillər öyrənmək, rəssamlıq və bu kimi yaradıcı işlərlə məşğul olsa uşaq gələcəkdə o sahələrə daha meyilli olar. Ana hamiləlik zamanı həzin musiqiyə qulaq assa, təbiət qoynunda yetərincə zaman keçirsə və quşların səsini dinləsə uşaq da dünyaya gələndən sonra rahat yatacaq. Ana əgər həyəcanlanarsa və ya qorxarsa həyacan, qorxu hormonları qana ifraz olunar və uşağa təsir göstərər.

6-9 ay – 7-ci ayından etibrən uşaq xaricdən gələn səsləri eşidir və dünyaya gəldikdən sonra səsinə görə bəzi şəxsləri tanıya bilir. Ananın bədənində baş verən dəyişikliklər və doğumun yaxınlaşdığı haqqında məlumat verir.

**Əsas mətn**

Qadın özünü artıq qadın kimi yox bir ana kimi hiss etməyə başlayır. Evlilikdə ər-arvad rolları ana-ata rolları ilə əvəzlənməyə başlayır. Bu dönəm çox önəmli olduğu qədər, bir o qədər də həssas dövrdür. Xüsusən də, ana qorxularını, narahatlıqlarını, təşvişini yoldaşı ilə paylaşmağı bacarmalıdır. Ana və ata ailə olaraq məsuliyyətlərini birlikdə öz üzərlərinə götürməlidirlər. Yoldaşının dəstəyini hiss edən qadın duyğusal olaraq özünü daha güvəndə hiss edəcək. Ananın sağlam psixoloji durumu övladında psixoloji durumunun sağlam olmasına səbəb olur. Yoldaşının dəstəyi ilə birlikdə qadına anası, rəfiqəsi və digər yaxınları da dəstək olmalıdır. Bu mövzuda daha təcrübəli olan birindən dəstək almaq daha müsbət nəticə göstərər.

Ana bu duyğuları yaşarkən sakitləşmək üçün idman, rəqs, musiqi və ya müəyyən bir hobbi ilə məşğul olmalıdır. Bunlar: üzmək, şəkil çəkmək, gitara çalmaq, toxumaq və ya yeni yeməklər bişirməyi öyrənmək, özünə məşğuliyyət tapmaq kimi işləri aid etmək olar.

Hamiləlik psixologiyası nədir və hamilə bir qadına necə yanaşılmaq lazımdır? Hamiləlik qadının həyatında çoxsaylı dəyişikliklərlə baş verir. Onlara uyğunlaşmaq stress və narahatlıqlarla müşayiət olunur. Hamiləlik hər qadının hayatında bir dönüş nöqtəsi hesab olunur. Hamilə olduğunu öyrənən hər qadın yeni bir dövrə girir. Bu dövrdə yaşanan fiziki dəyişikliklərin yanında bir də psixoloji dəyişikliklər özünü göstərir. Bütün duyğuları eyni anda yaşayan ana namizədi, özünə ətrafdan dəstək axtarır. Bu dövrdə bütün duyğuların bir arada yaşanması son dərəcə normal bir haldır. Çünki, ana həm hamiləliyi, həm də özünündəki dəyişiklikləri kəşf etməyə başlamışdır. Özünü fərqli və dəyişkən bir bədəndə gözləyərkən, hamiləliyin gətirdiyi fiziki problemləri yaşayarkən, digər tərəfdən də uşaqla bağlı beynində yaranan bir çox suallara da cavab tapmağa çalışır. Bu vəziyyətdə ananın etməli olduğu əsas şey hamiləlik halını qəbul etməsi, bütün yaşanan duyğuların hamiləlik dövrünə xas olduğunu anlamasıdır. Həm də ana, uşağın öz bətnində yaşadığını hiss etməli və bu anların dadını çıxarmalıdır. İnsanlar bilmədikləri mövzudan daha çox narahat olurlar və bu baxımdan bir çox problemlər yaşayırlar.

Qadın beyni kişi beynindən tamamilə fərqli çalışan bir sistemə malikdir. Bir qadın dəyər görməyi və xüsusi olduğunu hiss etməyi həmişə hər şeydən çox istəyir. Bu istək hərədə bir cür özünü göstərir. Kimisi özəl hədiyyələr, kimisi xüsusi sözlər, kimisi özəl bir baxışla bunu hiss etməyi istəyir. Amma böyük ehtimalla özəl və xoş sözlərin yerini bir qadın üçün heç nə əvəz etmir. Hər qadın tərifə layiqdir. Hansı məshəbə, hansı cəmiyyətə, hansı əxlaqa malik olmasından asılı olmayaraq, hər xanımın daxilindəki uşaq özəl olduğu bir dünyanın arzusu ilə böyüyür. Amma kimisi bu arzunu gerçəkləşdirir, kimisi isə gerçəkləşdirə bilmir. Buna görə heç bir qadını heç vaxt həyatına görə günahlandırmaq və ya qınamaq olmaz. İstənilən halda ana

olan hər bir qadının daxilində o standart hiss özünü göstərir. bunun adı Qoruyuculuq duyğusudur. Buna görə də analar başımızın tacıdır.

Daxildə yeni həyat inkişaf edəndə bədən və psixikanın eyni olaraq qalması mümkün deyil. Hamiləlik testində iki zolaq görən, sevinc və xoş həyəcandan əlavə, narahatlıq və stress də hiss edə bilər. Belə ki, çox vaxt əhval-ruhiyyəsində dəyişikliklər baş verən qadın doğmalarından dəstək ala bilmir. Onlar deyirlər ki, hamilə qalmaq xəstə olmaq demək deyil və qadının xüsusi qayğıya ehtiyacı olduğuna inanmaq istəmirlər. Bu isə düzgün deyil.Lakin hamiləlik mürəkkəb,çətin prosesdir və bu, qadın psixologiyasının inkişafına təsir edir. Hətta, hamilə ana uzun müddət şəxsiyyət kimi formalaşmış olsa belə. Daxildə yeni həyatın başlaması yeni sualların yaranmasına səbəb olur. Bu sualların cavabı isə tezliklə tapılmır. Əgər qadın onlarla çox vaxt baş-başa qalırsa, narahatlıq halları artırsa, onda qorxular yarana bilər. Bu zaman qadının psixoloji durumunda dəyişikliklər olur. Bəs bu dəyişikliklər nələrdir?

- Əhval-ruhiyyədə tez-tez dəyişiklik olur - səhər o gülümsədi. Nahar vaxtı ağlamaq istəyir, hər şey mənasız və etibarsız görünür.
- Əri ilə münasibət dəyişə və ya pisləşə bilər, çünki qadın ona yeni bir şəkildə – gələcək ata kimi baxmağa başlayır. Sonra onun uşaqla münasibəti, xarakteri, onun və körpənin tam həyat və inkişafı üçün lazımi şərait yarada bilib-bilməyəcəyi barədə düşüncələr formlaşmağa başlayır.
- Qadın hamilə olduğu üçün bundan sonrakı həyatının əvvəlki kimi olmayacağını anlayır. Bəlkə də buna görə də təbiət onu elə yaradıb ki, 9 aydan sonra körpə dünyaya gəlir - bu da bir çox anaların əvvəlki özlərinə məxsus işləri və adət etdikləri işləri görmək imkanı olmayacağı fikrinə alışması üçün kifayət edir.
- Hamiləlik yalnız daxili vəziyyəti deyil, həm də xarici prosesləri də dəyişir. Buna görə də, məsələn, qadın fərqli geyim tərzinə alışır, qidalanma vərdişləri dəyişir, yuxu rejimi dəyişir, yeni dostlar, əhatəsi olur, köhnə rəfiqələrlə münasibətlər əvvəlki kimi olmur. Həmçinin o, valideynlərinə, həyat məqsədlərinə və xəyallarına başqa cür baxmağa başlayır. Bütün bu sadalananlar, arzu olunan hamiləlik şərti ilə, qadını dolğun, dərin və həssas edir.Zaman su kimi axıb gedir. Buna görə bəzi anlar dünən baş vermiş kimi canlanır zehnimizdə. Bəzən illərin necə keçdiyinin fərqində olmur, qırx yaşa çatıb otuz kimi hiss edir, otuzu haqlayıb iyirmi havasında oluruq.Şəkillərə baxanda eyni olduğumuzu düşünür, yaşadıqlarımızı xatırlayanda nə qədər çox yol qət etdiyimiz anlayır və nə qədər dəyişdiyimizin fərqinə varırıq. Yaxşı, bəs insanın dəyişməsi mümkündürmü? Məsələn, tamamilə, başdan-ayağa, sıfırdan düzəlməsi… Araşdırmalar bunun mümkün ola biləcəyini göstərir. Amma bu, həmin şəxsin özü ilə arasında həll edəcəyi məsələdir. Əgər yanlış və mənfi xüsusiyyətinin fərqinə vararsa və bundan sonrakı həyatını düzgün formada davam etdirməyə qərar verərsə, o zaman dəyişimin reallaşması mümkün ola bilər.Tədqiqatlar göstərib ki, hamiləlik zamanı stress keçirmək hamiləliyin 17-ci həftəsindən etibarən körpənin beyin inkişafına öz təsirini göstərir. Hamiləlik zamanı yaşanan stress halları həm ananın, həm də körpənin inkişafına mənfi şəkildə təsir göstərir. Mütəmadi olaraq yaşanan stress ciftin quruluşunda bir sıra dəyişikliklərin yaranmasına gətirib çıxarır ki, bu da körpənin görmə qabiliyyətinə də təsir edə bilir. Stress hətta uşağın ölü doğulmasına belə səbəb ola bilir. Hamilə qadının stress keçirməyi bətndəki körpənin beyin funksiyalarına və davranışlarına təsir edir. Digər bir araşdırmlar nəticəsində məlum olub ki, hamiləlik dönəmində stress keçirən ananın doğulan körpəsi sonradan hiperaktiv ola bilir. Bütün bunlarla yanaşı, yaşanan gərginlik uşağın ölü doğulması riskini də artıra bilir.8719 hamilə ananın üzərində aparılan iki fərqli müşahidələrə əsasən, 30 həftə mütəmadi olaraq stress yaşayan qadınların vaxtından tez doğum həyata keçirdikləri qeydə alınıb. Birinci araşdırmada erkən doğumun təxminən 34-cü, ikinci araşdırmada isə təxminən 37-ci həftədə olduğu müəyyənləşdirilib və bu qeydlər demək olar ki, özünü doğruldub. Buna görə də hamiləlik zamanı mümkün qədər stress

yaradan hadisələrdən uzaq olmalı və gərginliyi özünüzdən tamamilə uzaqlaşdırmağa çalışmalısız.

Stresdən uzaq durmaq üçün nə edə bilərik?

Stresi azaltmaq üçün yaşam tərzinizi dəyişə, ya da sizə gərginlik gətirən halları birdəfəlik aradan qaldırmaqla həll edə bilərsiniz. Əgər işləyirsinizsə, o zaman yaşam tərzinizi bir qədər də dəyişməyə çalışmalısız. Hamiləlik dövrü irəlilədikcə sizdə fiziki narahatlıqlar da yaranmağa başlayacaq. O səbəbdən də bu dövrü rahat şəraitdə keçirməyiniz daha uyğun olacaqdır. Düzgün qidalanma və hamilələr üçün məşqlərə müraciət edin. Ən əsası isə məşqləri düzgün seçməyə çalışın. Buna görə də mütəxəssisə müraciət etmək məsləhət görülür.

Hamiləlikdə əsəb və stress uzaq durmaq üçün nə etməliyik?

Özünüzə zaman ayırın. Sakit və rahat bir mühitdə dincəlin. Bununla yanaşı, mütəmadi olaraq nəfəs məşqləri edin. Bu məşqlərin sizin üçün çox böyük faydası olacaqdır. Gecələri rahat yata bilməsəniz, bu zaman yatmamışdan əvvəl rahatlamaq üçün olan hərəkətləri edin. Siz hamiləlik dönəmini nə qədər gözəl və sağlam bir şəkildə keçirsəniz, körpəniz də bir o qədər sağlam dünyaya gələcəkdir. Unutmayın ki, körpənizin gələcəyi sizin əlinizdədir.

**Nəticə**

Hamiləlik qadınların psixoloji narahatlıqlarla müşahidə olunan dövrlərindən biridir. Bu zaman qorxu hissi meydana çıxır. Bəs Hamilə xanımlar nədən qorxurlar?

- Ağrı və doğuş. Uşağın necə doğula biləcəyi fikrindən əlavə, qadın doğuş zamanı ona, yaxud da körpəyə pis bir şeyin baş verməsindən narahat olmağa başlayır. Bu cür narahatlıqlar təbii haldır. Lakin bunlar normadan çox olduqda və qadının şüurunu tamamilə əhatə edəndə, doğuşa olan ümidləri azalmağa başlayır. Doğuş prosesinin necə getdiyini öyrənsəniz, doğuş zamanı nə baş verəcəyi barədə biraz da olsa, təsəvvürə, məlumata malik olsanız, onlardan qurtulmaq asan ola bilir. Doğuş otağı ilə əvvəlcədən tanış olun. Qadını müşayiət edəcək mama-ginekoloq kim olacaq. Həmçinin, obstetriklərin müasir üsulları, onların ana və uşağa təsiri haqqında məlumat əldə etmək də faydalıdır. Beləliklə, yetərincə informasiya əldə etmiş hamilə qadın ağrıdan və doğuşdan çox qorxmayacaq, özünü hazır hiss edəcək.
- Uşağın patologiyalarla doğula biləcəyi ilə bağlı qorxu. Bu cür düşüncələr çox vaxt oxşar təcrübəyə və ya şahid olan qadınları narahat edir - onlar və ya qohumları müxtəlif fiziki və ya əqli patologiya ilə doğulan övladları olub. Bu halda ananın narahatlığına haqq vermək olar. Bu qorxu və narahatlığın səviyyəsini azaltmaq üçün nə etmək lazımdır? Hamiləlik kurslarına getmək olar. həkimi ilə tez tez əlaqə saxlamaq. Gənc ananın əlilliyi olan uşağı dünyaya gətirməsinin riskləri ilə bağlı suallara cavab verə biləcək həkimlərlə mütəmadi əlaqədə olmaq. Hamiləlik dövründə qadın emosional vəziyyətinin qayğısına ətrafındkı insanlar nəzarət etməlidir. Buna görə də ağlına gələn bütün qorxuları ətraflı təhlil etmək və hər biri haqqında məlumat verib rahatlşdırmaq lazımdır.
- Çox vaxt qadınlar uşağın doğulmasından sonra həyatlarının necə olacağı ilə bağlı narahatlıqlar keçirirlər. Bu, gənc anaların hamiləliyə hazır olmadıqları, həyat yoldaşına, özlərinə əmin olmadıqları zaman baş verir. Başa düşürlər ki, uşağın sağlam və düzgün inkişafı üçün lazım olan şərait hələ də hazır deyil.

Hamiləlik zamanı qadın çox emosional olur, bu səbəbdən də belə fikirlər hipertrofiya və panikaya çevrilə bilər. Güclü narahatlığın baş verməməsi üçün özünü idarə etməyi öyrənmək fayda vardır. Əgər ana təkcə hisslərini deyil, həmçinin sağlam düşünməni də öyrənərsə, zamanla həyat şəraiti və başqaları ilə münasibətlərlə bağlı yaranan problemlərin həllini tapacaq. Yaxşı olar ki, bu müddət ərzində etibar edə biləcəyiniz insanlardan - dostlardan və ya qohumlardan dəstək alsın hamilə xanımlar. Əgər yoxdursa, o zaman çətin həyat şəraitində tək analara və hamilə qadınlara yardım təşkil edən xüsusi sosial xidmətlərlə əlaqə saxlayaraq yardım almaq mümkündür. Hər bir halda ana öz qayğısına qalmalıdır, çünki uşaq dünyaya gələndə onun gücünə, emosional sabitliyə və sağlamlığına, bir sözlə anasına hər tərəfli ehtiyacı

olacaq.Qadın dəyişilmiş bədənini qəbul etdiyi zaman daha böyük sevinc və harmoniya ilə dolu olur –hansıki bu onun psixoloji vəziyyətini təyin edir. Bəzən bunu etmək çox çətin olur - yağlılıq, üz cizgilərinin dəyişməsi, saçların və dırnaqların vəziyyətinin mənfi yöndə dəyişilməsi qadının əhval-ruhiyyəsinə öz təsirini göstərir. Hazırda qadın gözəlliyini dəstəkləyə bilən kosmetik vasitələr, həmçinin, gözlənilən ananın yeni obrazını qəbul etməyi və sevməyi öyrənə biləcəyi qruplar var - psixoloji seanslar, hamilə qadınlar üçün kurslar, rəqs dərsləri və meditasiya qrupları mövcuddur. Belə yerlərdə hamilə xanımlar nəinki özlərinə qarşı müsbət münasibət formalaşdıra, həm də ünsiyyət və dəstək vasitəsilə  yeni dostlar tapa bilərlər.

**ƏDƏBIYYAT SIYAHISI:**


1. S.Afanasyev, A.Filtseva- Xoşbəxt hamiləlik və doğuş
2. Carlos Qonsales- Ömürlük hədiyyə
3. Dr.Uilyam Sirs, M.Sirs- Sağlam hamiləlik
4. İnkişaf və yaş psixologiyası
5. https://news.milli.az/society/503712.html



**Muxtar Tahir NƏBİLİ**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutu

https://orcid.org/0000-0003-4435-9085

E-mail: muxtar.nebili@mail.ru


## İDENTİKLİK PROBLEMİNƏ SOSİOLOJİ BAXIŞ


**Summary**

In modern times, the human factor is the subject of many sciences. It includes the human factor and a set of various points related to it. Personality identity is one of the main research areas of sociology along with historical, philosophical and political sciences. In the history of sociology, the problem was approached from different perspectives at different times. The purpose of the report is a brief interpretation of the sociological view of the identity problem.


**Key words**: identity, diversity of personality, phenomenological sociology, system theory

**Giriş**

"İdentiklik" anlayışı latınca "identifico" - "eyniləşdirirəm" sözündən yaranmışdır və Azərbaycan dilinə "kimlik" kimi tərcümə edilir. Elmi ədəbiyyatda sosial kateqoriya olan identiklik ya üzvlük və gözlənilən davranış, ya da insanın xüsusi önəm verdiyi sosial əhəmiyyətli və dəyişməz xüsusiyyətlərlə müəyyən edilir.

**Əsas mətn**

XIX əsr sosial kimlik haqqında fikirlərin inkişafında dönüş nöqtəsi oldu. Ənənəvi cəmiyyətdən sənaye cəmiyyətinə keçid kontekstində sənayeləşmə və urbanizasiya prosesləri, cəmiyyətin sosial strukturunun mürəkkəbləşməsi və şaquli və üfüqi mobilliyin yeni kanallarının yaranması yeni diferensiallaşmalara - mədəni, milli, dini, siyasi, sosial və s.səbəb oldu. Bütün bunlar fərd üçün öz kimliyini seçmək problemini ortalığa qoydu. Sosial elmlərin qarşısında bu prosesləri nəzəri cəhətdən dərk etmək, sosial kimliklərin qurulması və sabitləşdirilməsi mexanizmlərini müəyyən etmək vəzifəsi yarandı.

İdentikliyi dərk etmək üçün fərqli, lakin bir-biri ilə əlaqəli olan bir neçə fənn yanaşmasını ayırmaq olar: fəlsəfi, psixoloji, antropoloji, etnoloji, sosioloji, politoloji və s. (7) İdentiklik probleminə bizi maraqlandıran sosioloji baxış müxtəlif nəzəri yanaşmalar çərçivəsində işlənib və onun xüsusiyyəti tədqiqat predmetinə daha çoxşaxəli, mürəkkəb, geniş baxışdadır.

As discussed in the previous section, Industry 4.0 is helping to redefine traditional industrial processes by using several advanced tools and technologies. Supply chains are making great strides towards becoming digital, automated and agile in their operations. Today's digital SC networks use many different technologies to develop efficient, transparent, adaptive and sustainable systems at

different stages of SCs, including new product development, procurement, manufacturing, planning, logistics and marketing. The effects of Industry 4.0 can be felt at different stages of SCs, as well as supply chain management (SCM) strategies; for example, more accurate forecasting and planning through integrated flow and increased traceability of materials and products, improved supplier performance due to real-time information exchange and synchronization with suppliers, and intelligent warehouse and vehicle routing systems [6].

The disruption caused by digitization demands companies to rethink the design of SC networks. The transparency and easy access to multiple choices of where to shop, what to buy and when to buy, enabled by e-commerce platforms intensifies competition in supply chains. In particular, IoT plays an important role in the transformation of SCs by providing a wide range of capabilities such as remote and real-time monitoring of the location and speed of vehicles, the status of perishable products through temperature sensors, the performance and status of machines, etc. The increased connectivity between SC stakeholders and the growing importance of stakeholder collaboration require an assessment of the impact of Industry 4.0 implementation on the SC network level. Alejandro Germán Frank define the Smart Supply Chain as a dimension of Industry 4.0 that encompasses digital platforms with suppliers, retailers, customers and partners. The information sharing and synchronisation of operations between SC partners help to decrease overall costs and increase the agility and efficiency of SCs [3]. The improved transparency and collaboration along the SC network also leads to increased trust and stronger relationships between SC members.

Industry 4.0 enabled opportunities including highly organized interactions and real-time monitoring and control of materials, equipment, location, speed of vehicles, and SC parameters, help to improve the overall value chain performance and reduce risks. Incorporation of Industry 4.0 technologies lead to the transformation in management strategies and business models in these networks [3]. In addition to the requirements and trends that drive digital transformation in supply chains, new obstacles and risks arise as a result of the evolving business environment and digital transformation trend, such as lack of information, information security risk, and lack of skilled labor. Therefore, both conceptual frameworks and empirical research are needed to guide companies to develop successful and robust Industry 4.0-adapted supply chains and rapidly adapt to ever-evolving technologies and markets.

**Conclusion:**

In modern society, technological development and enlightenment have resulted in a noticeable rivalry among the countries of the world. That's the reason why companies pay so much attention to technology, trying to increase their productivity and provide better service to their customers. Technological changes are one of the main factors of competition and play a major role in the structural change of the industry. Technological innovations are helping to restructure the business framework. Technological innovations can have a significant strategic impact on individual companies and firms and can have a major impact on entire industries as a whole.

Continuous assessment is essential to better understand how supply chain relationships and performance are affected by the proliferation of advancing technologies, such as those examined in this study. The motivation for this study began with a desire to learn more about the return on investment of Industry 4.0 technologies. This study examine the intangible benefits by investigating whether and how Industry 4.0 technology affects supply chain agility.

**REFERENCE LIST:**

1. Aoun A, Ilinca A, Ghandour M, Ibrahim H. A review of Industry 4.0 characteristics and challenges, with potential improvements using Blockchain technology. Computers & Industrial Engineering; 2021;162:1-11.

2. Boston Consulting Group (2015). Industry 4.0: The future of productivity and growth in manufacturing industries. Retrieved from https://www.bcg.com/publications/2015/engineered_products_project_business_industry_4_future_productivity_growth_manufacturing_industries.aspx

3. Frank, A.G., Dalenogare, L.S., Ayala, N.F. (2019), "Industry 4.0 technologies: Implementation patterns in manufacturing companies", International Journal of Production Economics, 210, pp. 15–26.

4. Ghadge A, Er Kara M, Moradlou H, Goswami M. The impact of industry 4.0 implementation on supply chains. Journal of ManufacturingTechnology Management. 2020;31(4).

5. Hodzic, E. (2015). Smart factory for Industry 4.0: A review. International Journal of Modern Manufacturing Technologies, 7(1), (28-35).

6. Hofmann, E. And Rüsch, M. (2017). "Industry 4.0 and the current status as well as future prospects on logistics", Computers in Industry, 89, pp. 23–34.

7. Kang, H. S., Lee, J. Y., Choi, S., Kim, H., Park, J. H., Son, J. Y., Kim, B. H., & Noh, S. D. (2016). Smart manufacturing: Past research, present findings, and future directions. International Journal of Precision Engineering and Manufacturing-Green Technology, Volume(3), (111-128).

8. Kyoung-Dae Kim; P. R. Kumar (2012). A cyber-physical systems architecture for Industry 4.0-based manufacturing systems. Manufacturing Letters, 3, 18-23.

9. Liao, Y., Loures, E. R., Deschamps, F., Brezinski, G., & Venâncio, A. (2018). The impact of the fourth industrial revolution: A cross-country/region comparison. Journal Production, 28(1), 24-47.

10. Schwab K. (2016) The fourth industrial revolution. World Economic Forum. CH-1223 Cologny/Geneva Switzerland. ISBN-13: 978-1-944835-01-9

**Mübariz SÜLEYMANOV[1]**
**Aygün ƏLƏKBƏROVA[1,2]**
BDU-nun Qazax filialı
[2]Azərbaycan Texnologiya Universiteti
E-mail: mubariz.suleymanov.74@bk.ru,
aygunelekberov50@gmail.com

## TARİX TƏLİMİNDƏ OYUN TEXNOLOGİYALARINDAN İSTİFADƏ OLUNMASINA QISA NƏZƏRİ BAXIŞ

**Summary**

In our modern world, in a time when science is developing rapidly, the education system does not lag behind this development. The teacher who uses games in his lessons does so with the aim of increasing students' interest in lessons and making the received information more understandable. When are games needed? Educational games can be used primarily in the formation of communicative relationships, especially at the beginning of the school year, when teacher-student relations are balanced. Games are one of the good tools for concentrating students' thoughts.

**Key words:** lesson, teacher, student, information technologies, educational process, game tools.

### Giriş

Tarixin tədrisi prosesində oyun əsasdır.Müəllim oyun vasitələri ilə dərsi tədris edərkən, şagirdlərin yalnız gələcəyini deyil, bugünkü maraqlarını da diqqətə almalıdır. Oyun şagirdləri ruhlandırır, Şagird özündən asılı olmadan suallara verilən cavablarla maraqlanır,fikirləşməyə başlayırlar.Oyunda müəllim yalnız təşkilatçı yox,həmdə iştirakçı olaraq dərsin axarını tənzim etməlidir.Dərslərdə oyunlara çoxda aludə olmaq lazım deyil, belə ki, müxtəlif mənfi nəticələrə gətirib çıxarar.

### Əsas mətn

Oyun – dərsin keçirilməsində müəllim ardıcıllğa da əsaslanmalıdır:

- təlim tapşırığının qoyulması
- qoyulmuş tapşırığın həlliu
- yoxlama

- biliklərin yoxlanılması.

Oyunların təşkilində əsas tələblərə əməl etmək lazımdır: Oyun maraqlı olmalı,şagirdlərə xoş təəsürat bağışlamalı,oyun məntiqi maraqlı qurulmalı,oyunda komandalar arasında yarışma elementinin olması mütləqdir.

**Nəticə**

İnformasiya texnologiyaları vasitəsi ilə yalnız fənn üzrə axtarış işini deyl, həmçinin yoxlama və treninq(məşq) tapşırqlarınıda tşkil etmək olar. İnternetin meydana gəlməsi və orda mətnlərin olması şagirdlərə dərslərdə çıxış etmək üçün hazır konspektlərdən istifadə etməyə şərait yaradır.

Oyun zamanı uşaq dünyası ilə elm dünyası birləşir.Buna görə təlim zamanı bəzən şagirdin anlamadığını oyun zamanı asanlıqla anlayır.Maraq və məmnunluq oyunun əsas psicoloji faktorudur.Dərs prosesində oyunlardan istifadə olunması aşağıdakı məqsədlərin reallaşmasına imkan yaradır:

- Didaktik məqsədlər
- Tərbiyəedici
- İnkişafetdirici
- Sosiallaşma

Oyunlardan istifadə şagirdlərin intizamlı olmasına çox kömək edir.Belə ki hər oyunda qaydalara riayət olunmalıdır.Oyun zamanı şagirdlər daha məsuliyyətli olmağı öyrənir,özünənəzarət və özünüqiymətləndirmə bacarıqlarını formalaşdırır.Bugün hər bir uşağın dərsə marağını müxtəlif yollarla artırmaq vacib məsələlərdən biridir.Şagirdlərin dərs öyrənməyə müsbət münasibəti davamlı və ardıcıl olmur.Oyunlardan istifadə edərkən yeniliklər etməyi yaddan çıxarmamaq laxımdır, çünki eyni oyun şagirdləri bir müddət sora yorur. Oyunlar hazırlanarkən nəyə diqqət yetirilməlidir:

- Məqsəd əsas götürülməlidir
- Şagirdlərin marağı nəzərə alınmalıdır
- Oyun şagirdə aydın olmalıdır
- Keçilən mövzuya uyğun olmalıdır
- Şagirdlərin özlərini ifadə etməsi təmin olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. M.Əmirov. " Tam Orta Məktəbdə Tarixin Fəal /İnteraktiv Təlimi Metodikası ". Bakı (2011)
2. Kərimov Y.Ş.(2009) Təlim metodları.Bakı.

**Şövkət Elxan ƏZİZOVA**
Qərbi Kaspi Universiteti
E-mail: shovketazizova@gmail.com

# BİTKİLƏRİN MƏHSULDARLIĞINDA GÜBRƏLƏRİN ROLU

**Summary**

Fertilizers are organic and mineral substances that are applied to the soil and sometimes to the leaves (foliar feeding) to provide nutrients to plants. Fertilizers according to composition or origin: organic, mineral, organic-mineral, bacterial, hormonal fertilizers; according to the composition of nutrients: one-sided (simple) and multi-sided (complex and mixed) fertilizers; according to the composition of useful elements: simple and enriched fertilizers; according to the effect on the soil: acid, neutral and alkaline fertilizers; according to the type of effect: they are divided into groups of direct-acting, indirect-acting and stimulating fertilizers. None of the fertilizers alone can ensure high productivity of plants. Therefore, other mineral or organic fertilizers are used during additional feeding with complex fertilizers.

**Key words:** Fertilizer, mineral , potassium, phosphorus, nitrogen

**Giriş:**

Gübrələr bitkiləri qida ilə təmin etmək üçün torpağa, bəzən də yarpaqlara (yarpaqdan qidalanma) vurulan üzvi və mineral maddələrdir. Gübrələr bitkini asanlıqla qəbul edə biləcəyi formada qida maddələri ilə təmin edir. Bundan əlavə, gübrələr torpağın fiziki, kimyəvi və bioloji xüsusiyyətlərini yaxşılaşdırır ki, bu da məhsuldarlığın artmasına və keyfiyyətinin yaxşılaşmasına səbəb olur. Gübrə verməklə torpaqdan alınan qidalar məhsulla birlikdə torpağa qaytarılır. Bununla da torpağın münbitliyi bərpa olunur. Gübrələr tərkibinə və ya mənşəyinə görə: üzvi, mineral, üzvi-mineral, bakterial, hormonal gübrələr; qida maddələrinin tərkibinə görə: birtərəfli (sadə) və çoxtərəfli (mürəkkəb və qarışıq) gübrələr; faydalı elementlərin tərkibinə görə: sadə və zənginləşdirilmiş gübrələr; torpağa təsirinə görə: turşu, neytral və qələvi gübrələr; təsir növünə görə: birbaşa təsir edən, dolayı təsir edən və stimullaşdırıcı gübrələr qruplarına bölünürlər. Kənd təsərrüfatı bitkilərindən yüksək məhsul əldə etmək və torpağın münbitliyini artırmaq üçün aqrotexniki sistemlərdə gübrələrdən istifadə tədbirləri mühüm yerlərdən birini tutur. Üzvi və mineral gübrələrin tətbiqi bütün kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırır və keyfiyyətini yaxşılaşdırır. Gübrələrdən səmərəli istifadə bitkilərdə şəkərin, nişastanın, yağların, zülalların və vitaminlərin miqdarını artırır. Üzvi və mineral gübrələr torpağın strukturuna təsir göstərir, torpaq məhlulunun reaksiyasını, mikrobioloji prosesləri yaxşılaşdırır və onun münbitliyinin artırılmasında fəal iştirak edir. Kənd təsərrüfatında üzvi, mineral, bakterial və meliorativ gübrələrdən istifadə olunur.

**Əsas mətn:**

Mineral gübrələr — bitkilər üçün qida maddələri olan və əsasən duzlardan ibarət birləşmələrdir. Onlar bitkilərin sürətli inkişafını və məhsuldarlığını təmin edən maddələr toplusundan ibarət xüsusi kimyəvi məhsullardır.

Bitkilərə böyük miqdarda lazım olan elementlər (C, O, H, N, P, K, Ca, Mg, Fe, S) makroelementlər, bu elementləri ehtiva edən gübrələr isə makro gübrələr və ya şərti gübrələr hesab edilir.

Bitkilər üçün az miqdarda lazım olan elementlər (B, Cu, Co, Mn, Zn, Mo və s.) mikroelementlər, bu elementləri ehtiva edən gübrələr isə mikrogübrələr kimi qiymətləndirilir.

Makroelementlər arasında 3 elementə - azot, fosfor, kaliuma- bitkilər daha çox miqdarda ehtiyac duyur.

Bütün mineral gübrələrdə bir neçə kimyəvi element var, bunlardan bəziləri bitkilərə zərər verə bilər. Bütün sadə gübrələrdə (ammonyak duzu, karbamid, superfosfat) mikroelementlər; sulfatlarda kükürd (kalium, maqnezium, ammonium); superfosfatda flüor; kalium duzları və kalium xlorid xlorid və natrium ehtiva edir ki, bu da az miqdarda bitkilər üçün faydalı, artıq olduqda isə zərərlidir.

Mineral gübrələr şumun altına payız və yazda (əsas gübrələr), səpinlə birlikdə (səpin gübrələri) vegetasiya dövründə verilir.

Gübrələrin heç biri tək başına bitkilərin yüksək məhsuldarlığını təmin edə bilmir. Buna görə də, kompleks gübrələrlə əlavə qidalanma zamanı digər mineral və ya üzvi gübrələrdən istifadə edilir.

**Nəticə:**

Bağçılıqda bitkilərin böyüməsinə və məhsuldarlığına xeyli təsir göstərən bir çox növ gübrələr sırasında azot , fosfor və kalium tərkibli birləşmələr üstünlük təşkil edirlər:

Azot gübrələri - Azot gübrəsi bitkilərin azot ehtiyacını ödəmək üçün istifadə olunan bir gübrə növüdür. Bu gübrələr əsasən bitkilərin yetişməsini və məhsul verilməsini artırmaq üçün istifadə olunur.

Fosfor gübrələri- Fosfor bitkilər üçün əsas dəyərlərdən biri olaraq təsnif edilir, çünki onun mənimsənməsi bitkilərin inkişafı və büyüməsi üçün əhəmiyyətlidir. Fosfor gübrələri torpağın fosfor mənbələrini artıraraq bitkilərin yaxşı formada yetişməsinə kömək edir. Bu gübrələr, bitkilərin kök sisteminin inkişafını, toxum və meyvə yetişdirməsinə kömək edir. Fosfor, bitkilərdə metabolizmanın vacib hissəsidir və geniş tətbiq sahələrinə malik olan effektiv gübrədir.

Kaliumlu gübrələr- Bitkilər üçün kaliumun əhəmiyyəti yüksəkdir. Kalium bitkilərin əsas qida maddələrindən biri olaraq təsvir olunur çünki o:

- Bitkilər üçün osmotik davranış və su mənbəyində əhəmiyyətli rol oynayır.

- Bitkilərdə metabolik prosesləri təmin edir və protein, şəkər, və ya yağların sintezinə kömək edir.
- Bitkilərin qida və qabıq qatının qalınlaşmasına kömək edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Babayev A., Babayev V. Ekoloji kənd təsərrüfatının əsasları.Bakı 2021, 383 səh.
2. Brady, N.C., Weil, R.R., & Brady, N,C. (2010). Elements of the nature and properties of soils.
3. Ələkbərova Z.Ə.Gəncə-Qazax bölgəsində mineral gübrələrin müxtəlif miqdar və nisbətlərdə verilməsinin istixana şəraitində xiyar və pomidor bitkisinin böyüməsinə təsiri// AMEA-nın Gəncə Regional Elmi Mərkəzinin Xəbərlər Məcmusəi Gəncə 2012.
4. Məmmədov Q,Xəlilov M,Məmmədova S.Aqroekologiya.Bakı 2010.550 səh.

**Günel İSMAYILOVA**
**Mehrac ABBASOV**
Qərbi Kaspi Universiteti
E-mail: gunel.ismayilova.505_2g@wcu.edu.az
mehraj_genetic@yahoo.com

# SOĞAN SORTLARININ MOLEKULYAR GENETİK TƏDQİQİNDƏ SSR MARKERLƏRDƏN İSTİFADƏ

**Summary**

Onion is a genetically understudied vegetable. Carrying out selective work in the future requires a wealth of genetic information of any plant. In our study, molecular studies conducted with SSR markers on onion plants on different platforms were analyzed. The number of primers with high polymorphic indicators of SSR markers made it possible to say that the use of these selected primers on the onion plant grown in Azerbaijan can play an important role in agriculture.

**Key words:** Onion, SSR marker, *Allium cera* L.

**Giriş**

Soğan dünyada pomidordan sonra ən vacib olan ikinci tərəvəzdir [4]. İqtisadi əhəmiyyətinə və funksional qida kimi dəyərinə baxmayaraq, soğan genetik müxtəlifliyi baxımından zəif tədqiq edilmişdir. Bu, əsasən onun iki illik bitki olması, yüksək heteroziqotluluğu, çarpaz tozlanma təbiəti, böyük genom ölçüsünə (16,3 Gbp) sahib olması və selektiv markerlərinin nadirliyi ilə əlaqələndirilə bilər [5]. Hər bir bölgənin özünəməxsus soğan ekotipi var ki, bu da onun coğrafi mənşəyinə uyğunlaşdırılmış genetik xüsusiyyətlərə malik olan, genetik cəhətdən fərqli olan populyasiyaya sahib olması deməkdir [2].

**Əsas mətn**:

Araşdırma işimiz PUBMED və ELSEVIER platformalarında araşdırılmış məqalələrin nəzərdən keçirilməsi və bu məqalələr üzərində soğanın genetik müxtəlifliyinin təyinində polimorfizmə malik sadə ardıcıllıq təkrarları (SSR) markerlərin genetik əhəmiyyətinin dəyərləndirmələri əsasında edilmişdir.Tandem təkrarların sayı müxtəlif nümunələrdə müxtəlif olub, markerin yüksək polimorfluğunu təmin edir və elektroforetik yolla müəyyən olunur. Praymerin uzunluğunun 12-28 nukleotid cütü arasında dəyişməsi onun digər markerlərlə (RAPD) müqayisədə daha çox məhsuldar olmasını səbəb olur. Tək lokuslu bu markerlərin multialelliyi, hipervariabelliyi, kodominant xarakteri onları genetik xəritələrin qurulması və bir çox digər analizlər üçün əvəz olunmaz edir [6]. Aparılan təhlilimizdə araşdırma aparılmış ESTəsaslı olan SSR markerlərin siyahısından ACM004, ACM091, ACM124, ACM229, ACM379, ACM407, ACM449 praymerləri soğan bitkilərinin genetik müxtəliflik araşdırmalarında yüksək polimorfluq göstərdiyi [1, 3, 7] və bu praymerlərin Azərbaycanda müxtəlif soğan sortları üzərində araşdırılmasının filogenetik əlaqələrin təyinində mühüm rol oynaya biləcəyi müəyyən olunmuşdur.

**Nəticə**

Azərbaycanda mürəkkəbçiçəklilərin Allium cinsinə aid olan baş soğan (*Allium cera.* L) üzərində polimorfluğu təyin etmək üçün ACM004, ACM091, ACM124, ACM229, ACM379, ACM407, ACM449 markerlərin də istifadəsi gələcəkdə məhsuldarlığın artırılması və faydalı hibridləşmələrin aparılması üçün kənd təsərrüfatına əhəmiyyətli töhfələr verməklə qalmayıb, eyni zamanda məhsuldar yeni soğan sortlarının əldə olunmasında mühüm rol oynaya bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Barboza K., Beretta V., Kozub P.C and et all. Microsatellite analysis and marker development in garlic: distribution in EST sequence, genetic diversity analysis, and marker transferability across Alliaceae // *Mol Genet Genomics*., 2018, v.293(5), p.1091-1106.

2. Brahimi A., Landschoot S., Bekaert B. and et all. Exploring the genetic and phenotypic diversity within and between onion (Allium cepa L.) ecotypes in Morocco // *J Genet Eng Biotechnol.,* 2022, v.20, p.96.

3. Fornestar L., Navinder S., Ambika B.G. and et all. Genetic diversity and population structure in onion (Allium cepa L.) accessions based on morphological and molecular approaches // Physiol Mol Biol Plants, 2021, v.27(11), p.2517–2532.

4. Kale R.B., Gadge S.S., Venkata R.B., Mahajan V. and Major S. Good Agricultural Practices in Onion and Garlic Production // National Institute of Agricultural Extension Management (MANAGE) and ICAR- Directorate of Onion and Garlic Research, Pune, Maharashtra, 2022, p.1-3

5. Lee YR., Kim C.W., Han J.W. and et all. Genotyping-by-Sequencing Derived Genetic Linkage Map and Quantitative Trait Loci for Sugar Content in Onion (Allium cepa L.) // *Plants (Basel).,* 2021, v.10(11), p.2267.

6. Nayak S.N., Zhu H., Varghese N. and others. Integration of novel SSR and gene-based SNP marker loci in the chickpea genetic map and establishment of new anchor points with Medicago truncatula genome // Theor. Appl. Genet., 2010, v.120, p.1415–1441.

7. Susana G.P., Cristina M., Ana G.C., Fuencisla M. and et all. Exploring genetic diversity and quality traits in a collection of onion (Allium cepa l) landraces from north-west spain // Genetika, 2015, v.47(3), p.885-900.

**Fərİdə Firqət HƏBİYEVA**
Qərbi Kaspi Universiteti
E-mail: farida.habiyeva@gmail.com

## NEYRODEGENERATİV XƏSTƏLİKLƏRİN YARANMASINA TƏSİR EDƏN GENETİK AMİLLƏRİN TƏDQİQİ

**Summary**

On last decades the burden of neurodegenerative diseases continue to increase and as WHO declares it is estimated these diseases to be the second most widespread death cause in near 20 years. Genetics is essential to understand the structure, pattern of inheritance and risk factors of neurodegenerative diseases. Many genes involved in this group of diseases are investigated and many more waits to be found. It can pave the way for developing effective treatment and prevention strategies.
**Key words**: neurodegenerative diseases, genetics, molecular basis.

**Giriş**

Neyrodegenerativ xəstəliklər (NDX) dünya miqyasında milyonlarla insanın həyatına mənfi təsir göstərən və mərkəzi sinir sistemində (MSS) və ya periferik sinir sistemində (PSS) neyronların proqressiv itkisinə səbəb olan heterogen nevroloji xəstəliklər qrupudur. Bunlara Alsheymer, Parkinson, Hentinqton, Dağınıq skleroz, Frontotemporal demensiya və digərləri aiddir. Neyron şəbəkələrinin strukturunun və funksiyasının zədələnməsi və son dərəcə differensial xarakter daşıdığı

üçün özünü səmərəli şəkildə yeniləyə bilməyən neyronların itirilməsi əsas kommunikativ dövrənin pozulması, bununla da yaddaşın, idrakın, davranışın, hissiyyatın və/və ya motor funksiyanın pozulması ilə nəticələnir [1]. Alsheymer xəstəliyi, amiotrofik lateral skleroz, prion xəstəlikləri və Parkinson xəstəliyi kimi bu xəstəliklərin bəziləri sporadik olaraq baş verə və bəzi hallarda gen mutasiyalarının irsiyyətlə ötürülməsi nəticəsində qazanıla bilər. Hentinqton xəstəliyi tamamilə genetik şəkildə əldə edilir [2].

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə Alsheymer və digər demensiyalar dünyada ilk onluqda olan ölüm səbəbləri üzrə yeddinci yerdə qərarlaşıb. Yuxarı orta gəlirli ölkələrdə bu səbəb səkkizinci, yüksək gəlirli ölkələrdə isə ikinci yerdədir. Azərbaycanda bu xəstəliklər ümumi ölüm səbəbləri üzrə ilk onluqda olmasalar da, qadınların ölüm səbəbləri arasında hər 100000 ölümdən 17.8-nə səbəb olmaqla yeddinci yerdədir [3].

**Əsas mətn**

Hal-hazırda heç bir neyrodegenerativ xəstəliyin müalicəsi yoxdur və mövcud müalicələr yalnız simptomları idarə edir və ya xəstəliyin proqressivləşməsini dayandırır. Buna görə də, bu növ xəstəliklərin yeni müalicə üsullarına təcili ehtiyac var, çünki Ümumdünya Səhiyyə Təşkilatı motor funksiyasına təsir edən neyrodegenerativ xəstəliklərin növbəti 20 ildə ikinci ən çox yayılmış ölüm səbəbi olacağını proqnozlaşdırmışdır [4]. Genetik amillər həm irsi xəstəliyin monogen səbəbləri, həm də kompleks, sporadik pozğunluqlara həssaslığın təyinediciləri kimi neyrodegenerasiyanın etiologiyasında mərkəzi yer tutur. Son iki onillikdə bir çox xəstəlik genlərinin və risk lokuslarının yeri müəyyən edilmişdir. Yeni tədqiqat dizaynları və metodologiyada irəliləyişlər neyrodegenerativ xəstəlikləri genom və genetik səviyyədə anlama imkanlarını genişləndirir. Bu sahə hələ də sürətlə inkişaf edir və bu sahədə diaqnostika və müalicəyə gələcəkdə daha çox təsir edəcəyi gözlənilir [5].

Ailə aqreqasiyası bir çox neyrodegenerativ pozğunluqların əsas xüsusiyyəti kimi əsas molekulyar genetik və ya biokimyəvi xüsusiyyətlər məlum olmamışdan onilliklər əvvəl bilinirdi. Alsheymerin erkən başlayan ailəvi növü bütün Alsheymer hallarının kiçik bir hissəsi ($\leq$5%) və adətən 65 yaşdan kiçik başlanğıc yaşları ilə müşahidə olunur, təsirlənmiş ailələrdə autosomal dominant ötürülmə formasını göstərir. Bu günə qədər 3 gendə 160-dan çox mutasiyaların erkən başlayan növə səbəb olduğu bildirilmişdir. Bunlara 21-ci xromosomda Aβ prekursor zülalı (APP), 14-cü xromosomda presenilin 1 (PSEN1) və 1-ci xromosomda presenilin 2 (PSEN2) daxildir. Ən tez-tez mutasiyaya uğrayan gen, PSEN1, 50 yaşından əvvəl başlayan Alsheymer hallarının əksəriyyətini təşkil edir. Bu mutasiyalar 3 müxtəlif xromosomda yerləşən 3 fərqli gendə baş versə də, onların hamısı ortaq biokimyəvi yolu paylaşır. Gec başlayan forma klassik olaraq 65 yaş və ya daha yuxarı yaşda başlayan Alsheymer kimi müəyyən edilir və bütün Alsheymer hallarının böyük əksəriyyətini təmsil edir. Tədqiqatlar bu formada genetik faktorların əsas rolunu qəti şəkildə irəli sürsə də, bu günə qədər yalnız 1 belə amil, 19q13-cü xromosomda apolipoprotein E geninin ε4 alleli müəyyən edilmişdir [6].

Ən azı 5 gendə mutasiyaların ailəvi erkən başlayan parkinsonizmə səbəb ola biləcəyi aşkarlanıb (SNCA və ya PARK1; PRKN və ya PARK2; DJ1 və ya PARK7; PINK1 və ya PARK6; LRRK2 və ya PARK8). SNCA və LRRK2-dəki dəyişikliklər Parkinson xəstəliyinin autosomal-dominant formalarının aparıcı səbəbləri olsa da, təsirlənmiş nəsillərin əksəriyyəti əslində resessiv irsiyyət rejimini göstərir. Resessiv parkinsonizmdə ən çox iştirak edən gen 6q25 xromosomunda yerləşən parkindir (PRKN) [6].

Əksər neyrodegenerativ xəstəliklər multifaktorial xarakterə malikdir. Burada Hentinqton xəstəliyi istisnadır. Son araşdırmalara görə bəzi genlər bir deyil, bir neçə neyrodegenerativ xəstəlik üçün risk faktoru sayıla bilər [6].

**Nəticə:**

Müasir dövrdə gen terapiyası metodları sürətlə inkişaf edir. Bu üsullar neyrodegenerativ xəstəlikərin də müalicəsinə və ya üzə çıxmazdan əvvəl aşkarlanıb qarşısının alınmasına imkan yarada bilər. Lakin bunun üçün öncə həmin gen bölgələrinin dəqiqləşdirilməsi vacibdir. Aşkarlanan çox sayda genetik səbəb və risk faktoru lokusları olsa da, daha artığının olduğu düşünülür. Azərbaycanda bu xəstəliklərin molekulyar genetik əsaslarının tədqiqi ilə əldə ediləcək nəticələr gələcəkdə bu xəstəliklərin müalicəsinə zəmin yarada bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. David M. Wilson, Mark R. Cookson, Ludo Van Den Bosch, Henrik Zetterberg, David M. Holtzman and Ilse Dewachter. Hallmarks of neurodegenerative diseases. Cell, February 16, 2023, volume 186, issue 4, P693-714.
2. Donald L. Price et al. Genetic Neurodegenerative Diseases: The Human Illness and Transgenic Models. Science, November 6, 1998, Volume 282, p1079-1083.
3. Global Health Estimates 2020: Deaths by Cause, Age, Sex, by Country and by Region, 2000-2019. Geneva, World Health Organization; 2020.
4. Durães, Fernando, Madalena Pinto, and Emília Sousa. Old Drugs as New Treatments for Neurodegenerative Diseases. Pharmaceuticals, volume 11, issue 2, 2018, p44.
5. Lasse Pihlstrøm, Sarah Wiethoff, Henry Houlden. Handbook of Clinical Neurology, Chapter 22 - Genetics of neurodegenerative diseases: an overview, Elsevier, Volume 145, 2018, p309-323.
6. Bertram, L., & Tanzi, R. E. The genetic epidemiology of neurodegenerative disease. The Journal of clinical investigation, June 1, 2005, volume 115, issue 6, p1449–1457.

**Aysel Vüqar FƏRZƏLİZADƏ**
**Rəşad Rüfət HEYDAROV**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: heydarovresad32@gmail.com

## PROQRAM VASİTƏSİLƏ SOS ÇAĞIRIŞLAR EDİLMƏSİ

**Summary**

In today's tourism industry, finding an effective solution for tourists to seek emergency assistance and contact the police in unfamiliar areas is crucial. In this article, we will discuss the potential offered by an advanced program developed to address this issue. The program, named SOS.az, is designed for SOS calls, as implied by its name. This technology is intended for the comfort and safety of tourists and local residents, representing a significant step towards social security.

**Key words:** SOS.az, Tourist, Security

### Giriş

SOS.az olduğunuz məkanı bilmək və istifadəçiyə problemini qısa şəkildə qeyd tməsi üçün yer veriləcək. Əgər çağırışı edən turistdirsə, əlavə edəcəyi şərh proqramda avtomatik tərcümə olunaraq qarşı tərəfə ötürüləcək. Yerli əhalinin proqramdan qeydiyyat üçün asan login və ya sima istifadə etməsi daha da rahatlıq yaradır. Turistlərin qeydiyyatı isə ölkəyə gəldikdə onlara bu proqramı təbliğ edən zaman verilmiş xüsusi seria nömrəsi ilə olacaqdır. Bu tip proqramların əsas məqsədi yerli əhali və turistlərin sürətli və rahat şəkildə təhlükəsizliyinin təminidir.

### Əsas mətn

### Tədqiqat metodu:

Adi qaydada sos çağırışlara diqqət yetirək. Səhətində problem olan şəxs ambulansı çağırmaq üçün zəng vasitəsi ilə operatorla əlaqə saxlayır. Bu zaman operator şəxsdən şəxsi məlumatları və yaranan problemi soruşur. Nəzərə almaq lazımdır ki, operatorla əlaqə yaradana kimi və şəxsi məlumatları, yaranan problemi bildirənə kimi zaman gedir [1]. Bunun qarşısını almaq üçün App yaratmaq və əhaliyə, turistlərə təbliğ etmək olar.

App proqramı SOS.az haqqında danışaq. Bir proqram vasitəsi ilə yalnız bir toxunuşla olduğunuz yerə ambulans və ya polis çağırmaq mümkündür. Proqramı yükləyərkən bir dəfə qeydiyyatdan keçmək, hər dəfə şəxsi məlumatları səsləndirməkdən daha yaxşıdır. Sürətli, və yaxın dairədəki ambulans və polisə müraciət etmək, proqramı əvvəlki üsuldan fərqləndirir. Tətbiqdən qeydiyyatdan

keçən zaman asan login istifadə etmək olar ki bu həm şəxsi məlumatların götürülməsini dahada asanlaşdırar, həm də yalnış çağırışın qarşısını alar.

Tanınmış Norveç Ali Məhkəməsinin vəkili John Chr. Elden düşünür ki bu cür proqram həlləri Cinayyətlərin qarşısını alacaq [2].

Proqramların, telefon vasitəsi ilə çağırışdan fərqli olaraq sürətli olması və tanımadığımız ərazilərə çağıra bilməyimiz və bir çox digər üstünlüyü olsada, çatışmayan cəhətlərido vardır. Mənfi cəhətinə misal olaraq, "Hər kəsdə smartfon yoxdur" fikrini göstərmək olar. Bu tam olaraq proqramdan asılı olmayan səbəb olsada, hər kəs üçün əlçatan olmamasının səbəbidir. Digər çatışmazlıq isə internet şəbəkəsi əlçatan olmaya bilər. İstifadəçinin məkan və şəxsi məlumatlarını ambulunsa və ya polisə ötürülməsi üçün proqrama internet şəbəkəsi lazımdır [3]. Digər bir mənfi cəhət yalnış çağırış baş verə bilər. Bunun qarşısının alınması üçün asan login istifadə olunduğundan yalnış çağırışı edəcək şəxs bir başa aşkarlanacaq.

**Nəticə:**

Turizm sahəsində təhlükəsizliyi təmin etmək üçün SOS.az adında bir proqram yaratmaq mümkündür. Bu proqram, turistlər və yerli əhalinin tanımadığı ərazilərdə təcili yardım və polis çağırmaq üçün effektivir. SOS.az, sosial təhlükəsizliyə töhvə vermək, rahatlığı və təhlükəsizliyi təmin etmək məqsədilə yaradılmışdır. Bu proqramın tətbiqi, yerli əhalinin və turistlərin sürətli və rahat şəkildə təhlükəsizliyinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Assiouras, I., Skourtis, G., Giannopoulos, A., Buhalis, D., Karaosmanoglu, E. (2023). Testing the relationship between value co-creation, perceived justice and guests' enjoyment.Current Issues inTourism,26(4), 587–602.

2. Atzeni, M., Del Chiappa, G., & Mei Pung, J. (2022). Enhancing visit inten-tion in heritage tourism: The role of object-based and existentialauthenticity in non-immersive virtual reality heritage experiences.International Journal of Tourism Research,24(2), 240–255.

3. Bae, S. Y., & Chang, P. J. (2021). The effect of coronavirus disease-19(COVID-19) risk perception on behavioural intention towards'untact'tourism in South Korea during the first wave of the pandemic (March2020).Current Issues in Tourism,24(7), 1017–1035.

**Samirə Behbud BAĞIROVA**
**Hökümə İlham MEHRƏLİYEVA**
**Şəlalə Abuzər MƏMMƏDOVA**
**Zəhra Namiq ALLAHVERDİYEVA**
**Aydan Qəhrəman AĞAMALIYEVA**
Bakı Şəhər İcra Başçısının Tabeliyində "Dendrologiya Bağı" Publik Hüquqi Şəxs
E-mail: hokume.mehreliyeva@mail.ru

# ABŞERON ŞƏRAİTİNDƏ PİNUS LONGİFOLİA ROXB. NÖVÜNÜN DENDROXRONOLOJİ TƏHLİLİ VƏ İNKİŞAF DİNAMİKASININ ÖYRƏNİLMƏSİ

**Summary**

As a result of climate change in recent years, trees, shrubs, bushes, semi-shrubs, semi-shrubs, lianas, perennial grasses with geophytes, annual, annual-biennial grasses are widely found in Absheron flora. As a result of the conducted research, it was found that the warming observed in the peninsula has a greater impact on drought stress in the same areas, as a result of which some plants dry up in the areas, causing the spread of new types of pests. Dendrochronological analyzes were carried out in the direction of investigating these or other problems caused by climate change in the peninsula, studying most of the biological changes occurring in some species used in greening.

**Key words:** Absheron flora, tree age, wood ring

**Giriş**

Respublikamızda insanların geniş təsərrüfat fəaliyyəti ilə məşğul olduğu ərazilərdən biri də Abşeron yarımadasıdır. Yarımada respublikamızın şərq hissəsini əhatə etməklə böyük bir ərazini əhatə edir. Respublikamızın digər ərazilərindən fərqli olaraq Abşeron yarımadasının torpaq iqlim şəraiti bitkilərin becərilməsi baxımından nisbətən əlverişsiz ərazilər sayılır [2].

İqlimi əsasən mülayim isti və quru subtropikdir. İl ərzindəki günəşli zamanın həcmi 2200–2400 saatdır. Ən soyuq ayın orta temperaturu qışın sərtliyi ərazi üçün yumşaq (0; −5 °C), çox yumşaq (2.5–0 °C) və həddən çox yumşaq (5–2.5 °C) şəraitdə keçir. Ölkənin ən az yağıntılı (200–400 mm) və ən küləkli ərazilərindəndir. İsti dövrlərdəki (aprel-oktyabr) mümkün buxarlanma 1000 mm tərtibindədir. İyun-sentyabr aylarında quraqlıq keçən günlərin sayı 5–25 gün ətrafında tərəddüd edir [1].Ölkəmizdə xüsusilə Abşeron yarmadasında meşə fondunun artırılması, yeni park və bağların salınması, ərazilərin landşaft memarlığı əsasında yaşıllaşdırılması istiqamətlərində bir çox tədbirlər həyata keçirilir. Həmin ərazilərin yaşıllaşdırılmasında yerli flora ilə yanaşı dünya ölkələrindən gətirilmiş bir çox dekorativ bitkilərə, o cümlədən *Pinus longifolia* Roxb. növü növlərinə də rast gəlinir. Qeyd etmək lazımdır ki, şam cinsinə aid növlər dekorativ, uzunömürlü, hündür, oduncağı möhkəm, güclü kök sisteminə malik, fitonsid xüsusiyyəti baxımından ətraf mühitin mühafizəsində və torpaq deqradasiyasının qarşısının alınmasında xüsusi əhəmiyyətə malik olub, aktuallıq kəsb edir. Bu səbəbdən yaşıllaşdırmada geniş istifadə olunan şam cinsinə aid perspektivli növlərin Abşeron şəraitində bioekoloji xüsusiyyətlərinin və dendroxronologiyasının öyrənilməsi müasir dövrün tələbləri ilə uzlaşır və xüsusi əhəmiyyətə malikdir [3].

**Əsas mətn**

**Təhlil, müzakirə:** Dendroxronoloji təhlilin aparılmasında əsas məqsəd ağac gövdəsinin xarici mühitlə əlaqələrini, oduncağın illər üzrə dəyişkənliyini, ekoloji amillərdən asılı olaraq baş vermiş hadisələrin onlara təsirini və yaşının elmi əsaslarla öyrənilməsidir. Bu məqsədlə Dendrologiya bağı ərazisində əsas tədqiqat obyekti seçilən *Pinus longifolia* Roxb. növü dendroxronoloji tədqiq edilmişdir. Abşeron şəraitində dendroxronoloji təhlili və inkişaf dinamikası öyrənilmişdir. Növ hündürlüyü 25 m olan dekorativ ağacdır, uzunsov qozalara malikdir. Gövdəsi boz rəngli, qalın və çat-çat olmuş qabıq ilə örtülüdür. İynəyarpaqları açıq-yaşıldır, 25-27 sm uzunluğunda olub, aşağıya doğru sallanır. Çətiri yığcam ellipsvarıdır. Qozaların uzunluğu 18 sm-dir. Qozaların qabığının uzunsov qalxanlara malik olması ilə fərqlənir. Burada iri qozalar əmələ gətirir, lakin toxum tam yetişmir. Tezböyüyən, işıq və rütubətsevən şamdır. Torpağa az tələbkar, quraqlığa davamlıdır, olduqca zəif boy atır. Çox quraqlıq dövrdə iynəyarpaqlarının yarısını tökür. **.**

Tədqiqat işi çöl və laborator şəritdə həyata keçirilmişdir . Növlərdən Suunto burğusu vasitəsi ilə şaquli sahəyə perependikulyar olaraq 1.5 m hündürlükdən, diametri 4-5 mm və uzunluğu 32-38 sm olan nümunələr götürülmüşdür. Laboratoriyada LİNTAB 6 binokulyar mikroskopundan və TSAPwin statistik proqramından istifadə etməklə gövdədəki halqalar əsasında təbiətdə baş vermiş qlobal dəyişikliklər haqqında məlumat almaq mümkündür. Halqalar üzərindəki məlumatlarının oxunması *Schweingruber* metodikası əsasında aparılmışdır. Mikroskopla halqaların təyinində *Cook-Kairiukstisin* üsulundan, yalançı və itmiş halqaların aşkar edilməsində F.Rinin tətbiq etdiyi TSAPwin proqramından istifadə edilmişdir [4,5].

Dendroxronoloji təhlil zamanı *Pinus longifolia* Roxb. növündən götürülən nümunələrin göstəricilərinə əsasən ağacın yaşının 70 il olduğu təyin edilmişdir. Növdə 1957, 1962, 1973, 2019-cu illərdə yüksək inkişaf dinamikasının getdiyi müşahidə olunmuşdur. Bunu növdən götürülmüş nümunədəki halqalar arası məsafədən də aydın müşahidə etmək mümkündür. 1959, 1980, 2002-ci illərdə isə iqlim amillərinin təsiri altında növdə aşağı göstəricilərin olduğu müəyyən edilmişdir.

**Nəticə**

Dendroxronoloji təhlilə əsaslanaraq oduncaq halqalarının illər üzrə inkişaf dinamikasının ağacın yaşından, bitmə şəraitindən və ona təsir edən ekoloji amillərdən aslılığı müəyyən olunmuşdur.Bütün statistik analizlər və təhlillərdən alınan nəticəyə əsasən ekoloji amillərlə radial artım arasındakı əlaqənin yüksək olduğu məlum olmuşdur. Beləki, tədqiqatlar zamanı ontogenezin müxtəlif

mərhələlərində ağacların böyüməsinin eyni ətraf mühit amillərinə reyaksiyasındakı fərqlər növlərin inkişafınada öz təsirini göstərmişdir. Halqa qalınlığında müşahidə olunan həssaslığa təsir edən göstəricilərdən bir də ağacların yaşıdır. Beləki, binokulyar mikroskop altında aparılan müşahidəyə əsasən yaşı ötmüş ağaclardan götürülən nümunələrdə mərkəzdən qabığa doğru halqaların inkişafında zəifləmə müşahidə edilmişdir.Bu da yaş ötdükcə ağacda fiziki-mexaniki xüsusiyyətlərin zəifləməsinin nəticəsidir.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.** Q.Ş.Məmmədov, M.Y.Xəlilov, S.Z.Məmmədova Azərbaycan Respublikası: ekoloji atlası Bakı-2009. 3-4 səh

**2.** K.S.Əsədov, O.H.Mirzəyev, İF.M.Məmmədovi: Dendrologiya Bakı-2014. 114 səh

**3.** S.B.Bağırova: dis.avtoreferat Abşeron şəraitində EUCALYPTUS L'HERİT. Cinsinə aid bəzi növlərin biekoloji xüsusiyyətləri və dendroxronoloji təhlili Bakı-2017. 2 səh

**4.** F.H.Schweingruber Tree Rings and evaronment Dendrochronology// D.Reidel Bern, Stutgard, Wenna, Paul Haupt, 1996, pp 609

**5.** Rinn F. TSAP. Version 3.0 Reference manual computer program for time series analysis and presentation copyright Frank RinDistrubution, Heidelberg, Germany, 1996, 246 p.

**Kenan Eldeniz MEDETOV**
Western Caspian University
E-mail: kenanmedetov1@gmail.com

## ARTİFİCİAL INTELLİGENCE (AI) İN CİVİL ENGİNEERİNG AND TEKLA STRUCTURES

**Summary**

Artificial intelligence (AI) algorithms can assist structural engineers in developing the optimal designs by analyzing a variety of variables. Artificial intelligence can investigate a wide range of design possibilities, performance, economic efficiency, material utilization, and energy efficiency while taking into consideration structural factors. Because Building Information Modeling (BIM) is not limited to a certain tool set, the software is merely a tool for producing a high-quality product. The end effect is increased efficiency, fewer difficulties, and an improved ability to distinguish between an error and the correct build. In conclusion, the use of AI to structure has enormous promise in the engineering business. Artificial intelligence (AI) boosts efficiency by automating and improving analytical and design processes, while modern structural engineering offers precision and real-time monitoring [1].

**Key words:** Artificial intelligence, analytical model, Artificial Neural Networks, conflict detection, parametric design.

### İntroduction

Artificial intelligence enables quick, simple, and effective decision-making, revolutionizing the way engineers and builders collaborate to optimize building processes and unify a wide range of civil engineering activities. Artificial intelligence has a tremendous impact on engineering design, analysis, and construction management. AI's accuracy and efficiency may help civil engineering projects in a variety of ways, including disaster response, structural design optimization, infrastructure sustainability analysis, structural health monitoring, and construction safety monitoring. Furthermore, privacy issues may prevent specific personal information from being disclosed. This article discusses some of the applications of AI in civil engineering. [4]

Tekla Structures is a building information modeling program that can model structures made of various materials such as steel, concrete, wood, and glass. Tekla allows structural designers and engineers to 3D model the building structure and its components, make 2D drawings, and access building data. Tekla Structures was previously known as Xsteel (X as in X Window System, which is the foundation of the Unix GUI).

Tekla Structures is used in the construction sector to create steel and concrete details, as well as precast and in-situ castings. The software enables users to develop and maintain 3D structural models made of concrete or steel, and it takes them through the entire process from concept to production. The process of producing store drawings is automated. Available in a variety of combinations and locally tailored contexts.

Tekla Structures is recognized to accommodate big models with several simultaneous users, although it is considered relatively pricey, difficult to master, and fully functional. It competes in the BIM market against AutoCAD, Autodesk Revit, Digital Project, Lucas Bridge, and others. Tekla Structures is compatible with the Industry Foundation Classes.

Tekla Structures' modeling areas include structural steel, cast-in-place (CIP) concrete, reinforcing bar, miscellaneous steel, and light gauge drywall framing. The switch to Tekla Structures in 2004 considerably increased functionality and interoperability. It is frequently used in conjunction with Autodesk Revit, with structural frames created in Tekla and exported to Revit in DWG/DXF format

**Body part**

The primary goal of adding artificial intelligence and automation into civil engineering is to complete a task with algorithms. Traditional approaches for modeling and optimizing complicated structural systems need a significant amount of time and computer resources. However, AI-based algorithms offer more effective solutions for civil engineering difficulties. The data required for the development of artificial intelligence, algorithms, drones, smart cameras, smart sensors, etc. is accomplished utilizing programmable machines like as The data is evaluated by finding any possible construction errors and anomalies. AI algorithms also employ trial-and-error strategies to discover the optimal process to apply based on field conditions. Thus, project execution for this type of application improves the whole project's quality and productivity. Evolutionary Computation (EC) is a type of artificial intelligence (AI) used in civilian applications. It employs an iterative procedure and is a highly effective method for addressing complicated optimization problems. In civil engineering, standard evolutionary methods include Genetic methods (GAs), Artificial Immune Systems (AIS), and Genetic Programming (GP). Artificial neural networks (ANN) Neural networks gather, store, analyze, and interpret massive volumes of data. Experimental or numerical data are used to propose fundamental solutions to complex engineering challenges. It is widely applied in the fields of construction materials, structural engineering, geotechnical engineering, and construction. Identifies management and structural flaws. Fuzzy systems- A fuzzy system is a tool for adapting human thinking and problem solving in uncertain situations encountered in construction projects, taking into account a variety of factors such as material and equipment quality, physical logistics risks, and direct administrative and financial capabilities. takes Civil engineering, subsurface engineering, geotechnical, geological exploration, disaster prevention, materials engineering, and the petrochemical industry all make extensive use of expert systems. To develop a knowledge system, this strategy uses human specialists' current knowledge. A domain-specific system solves complex issues by utilizing all relevant information and expertise recorded in a programming system. Artificial intelligence aids in the creation of optimum designs while also lowering material waste and construction expenses. Furthermore, AI-powered algorithms optimize structural arrangements, ensuring that resources are used efficiently while maintaining safety. These cost-cutting strategies make projects more economically feasible.

**Conclusion**

By leveraging these advanced AI methods and technologies, Tekla Structures can evolve into a more intelligent and adaptive platform that empowers construction professionals to design, analyze,

and manage complex structures with greater efficiency, accuracy, and innovation. However, it's important to recognize that implementing AI in Tekla Structures requires careful consideration of data quality, model interpretability, and user acceptance to ensure successful integration and adoption. By integrating AI technologies into Tekla Structures, construction professionals can unlock new capabilities for automating routine tasks, optimizing design decisions, and improving project outcomes. By integrating AI technologies into Tekla Structures, construction professionals can unlock new capabilities for automating routine tasks, optimizing design decisions, and improving project outcomes.

## REFERENCE LIST:

1. Shalini Bahukhandi ( 2019) , Dr Manju Dominic " Artificial Intelligence in Structural Engineering- Review, International Journal Of Innovative research in Technology" Volume 8 Issue 1 pg 1097-1105
2. Pei Wang 2019. On Defining Artificial Intelligence. Journal of Artificial General Intelligence 10(2) 1-37.
3. Smith, J. (2023). "Enhancing Construction Efficiency: Integration of Artificial Intelligence in Tekla Structures." *Construction Technology Review*, 17(2), 45-58
4. Hadi Salehi ( 2018) Emerging artificial intelligence methods in structural engineering, Engineering Structures, Volume 171, Pages 170-189.
5. Tekla's official website: https://www.tekla.com/sg
6. Rafael Sacks ( 2022) Building Information Modelling, Artificial Intelligence and Construction Tech , Developments in the Built Environment, Vol 4, Issue 5, Pg 1 to 10
7. Smith, J. (2023). "Integrating Artificial Intelligence and Machine Learning into Workflows with Tekla Structures for Construction Professionals." *Journal of Construction Technology and Management*, 10(4), 213-228.
8. Gonzalez, A. (2024). "Advancing Construction Technology: Exploring New Methods of AI Integration with Tekla Structures." *Journal of Construction Innovation and Technology*, 15(2), 78-93.

**Lalə Savalan KƏRİMOVA**
Qərbi Kaspi Universiteti
E-mail:lalekerrimova84@gmail.com

# ABŞERON YARIMADASININ PALÇIQ VULKANLARI VƏ ONLARIN ƏTRAF MÜHİTƏ TƏSİRİ

**Summary**

In the presented article, the mud volcanoes of the Absheron Peninsula and their environmental impact are investigated. Mud volcanoes distributed over parts of the peninsula have been noted. The main indicators of the most active mud volcanoes Otmanbozdag, Bozdag-Guzdak, Keiraki and Lokbatan are shown. The results of our analyzes show that the eruption of mud volcanoes has a negative impact on the environment. It damages soil and vegetation. At the same time, their economic and therapeutic importance was emphasized. It is reflected in the decisions of the state regarding the protection of mud volcanoes and their use for tourism purposes.

**Key words:**The Absheron Peninsula, mud, volcano, relief, environment

## Giriş.

Palçıq vulkanları adətən neftli-qazlı sahələrdə əmələ gəlir. Palçıq vulkanizminin inkişaf etdiyi unikal ərazilərdən biridə Azərbaycan ərazisidir. Azərbaycanın şərqində və ona bitişik Cənubi Xəzərin

akvatoriyasında ümumi sayı 353 olan palçıq vulkanı və təzahürləri məlumdur. Onlardan 199-u quruda, 154-ü isə dənizdədir. Sahələri isə 60 min $km^2$ -də artıqdır.[2]

Palçıq vulkanizmi maqmatik vulkanizmdən fərqli olaraq, yer üzərinə çökmə mənşəli, ölçüləri müxtəlif olan süxur qırıntılarıyla qarışmış brekçiyanın və əsasən də karbohidrogen tərkibli qazların yer səthinə çıxmasına səbəb olur.

Palçıq vulkanlarının yaranma səbəbləri ilə bağlı müxtəlif fikirlər mövcuddur. H.V.Abixə görə palçıq vulkanları fəaliyyətə başlamaq üçün lazım olan impulsları zəlzələdən alır. Geoloq alimlər isə əsas yaranma səbəbini geodinamika ilə əlaqələndirir. Neftçi-geoloqların fikirinə görə isə palçıq vulkanları neft yataqlarında toplanmış karbohidrogen qazlarının ifrat təzyiqi nəticəsində yaranır.

Azərbaycan ərazisində palçıq vulkanları müxtəlif rayonlar üzrə ayrılmışdır. Bu rayonlara Xəzəryanı-Quba, Şamaxı-Qobustan, Abşeron yarımadası, Aşağı Küryanı, Abşeron arxipelaqı və Bakı arxipelaqı aiddir.[2]

**Əsas mətn**

Azərbaycanda palçıq vulkanlarının geniş yayıldığı ərazilərdən biridə Abşeron yarımadasıdır. Yarımada da yerləşən palçıq vulkanları başlıca olaraq iki qrupa bölünür. Bu vulkanların bir qrupu yarımadanın qərb hissəsində yerləşməklə, öz püskürmə fəaliyyətlərini son illərə kimi davam etdirirlər. Digər qrup vulkanlar isə uzun illərdən bəri öz püskürmə fəaliyyətini dayandıraraq, sönmüş vulkan şəklinə düşmüşlər. Bu tip vulkanlar isə əsasən yarımadanın şərq hissəsində yerləşir.[4]

Yarımadanın mərkəzində və qərbində Binəqədi, Hökməli, Novxanı, Saray, Keyrəki, Zigilpiri, Abix, Böyükdaş, Boğ-boğa, Otmanbozdağı, Şonqar, Lökbatan, Quşxana və başqa palçıq vulkanları yerləşir. Yarımadanın hüdudlarında isə Bibiheybət və Zığ ərazilərində gömülmüş palçıq vulkanları mövcuddur. Abşeron arxipelağı ərazisində isə Palçıq sopkası, Buzovna sopkası, Neft daşları və başqa iri palçıq vulkanları vardır.

These strategic objectives require further development of information legislation. First of all, efforts aimed at developing freedom of speech and information should be continued, and the national legislative framework regulating the activities of the information sector and the media should be improved in accordance with international standards [5], in order to support the introduction of modern technologies and strengthen the economic independence of the media.

The problem of increasing the quantity and quality of national information resources of the Republic of Azerbaijan on the global Internet, expanding the scope of their coverage, and strengthening the ability to influence international public opinion requires attention. Therefore, the implementation of legal, economic, organizational and technological measures aimed at balancing personal, public and state interests in the activities of the media is one of the main directions of the state's information policy.

Thus, in accordance with the Law of the Republic of Azerbaijan "On Obtaining Information" adopted in 2005, processes are underway to improve the activities of structural divisions of state bodies responsible for providing information and developing state information Internet resources.

Today, Azerbaijan has already achieved significant success in achieving its goals. According to the "Measuring the Information Society 2017" report, published on the website of the International Telecommunications Union (ITU)6, Azerbaijan ranked 65th in the world in the Information and Communications Technology Development Index (IDI).

In his speech at the round table held on May 31, 2016 within the framework of a joint project of the Council of Europe and the European Union on the topic "Freedom of expression and media freedom in Azerbaijan," Ali Hasanov, Assistant to the President of the Republic of Azerbaijan for Social and Political Affairs, noted that the media palette in Azerbaijan has already been fully formed, over 50 television channels and radio stations, hundreds of newspapers, magazines, news agencies, Internet information resources, journalistic organizations and media broadcasting forms operate in the country. Ensuring freedom of thought, speech, information, the formation of independent media in the Republic of Azerbaijan is always in the center of attention of the state as one of the main directions of building civil society and the democratization process.

The Lauder Institute of the University of Pennsylvania in the USA published on January 26, 2017 a new international ranking of think tanks, The Global To Go Think Tank Index. The main goal of this ranking is to identify the best think tanks in the field of public policy in all regions of the world. The activities of think tanks were assessed based on academic reputation, quality and quantity of publications, work with the media, professional qualifications of staff, programs implemented,

sources of funding and many other parameters. In addition, the use of information technology and presence on the Internet (pages on social media and presence of a website) were considered.

Only one analytical center from the post-Soviet space was included in the category "For the best use of the Internet" - the Center for Economic and Social Development in Azerbaijan (50th place). It was also awarded in the "Best Use of Social Media" category along with Carnegie Moscow Center (19th place).

The list of think tanks that make the best use of electronic media included the Center for Economic and Social Development (48th place) and the Center for Economic Research (56th place) in Azerbaijan. The foundations of the concept of e-government of the Republic of Azerbaijan were laid in the "Electronic Government" Concept, developed within the framework of the "National Strategy for Information and Communication Technologies for the Development of the Republic of Azerbaijan" (2003–2012)9 and the State Program "Electronic Azerbaijan". The goal of this concept is to increase the efficiency and efficiency of the activities of government bodies with the widespread use of information and communication technologies, to simplify and liberalize relations between government bodies and the population, business institutions, as well as among themselves.

This concept creates conditions for establishing relations between a citizen and an official, ensuring transparency and reliability of information about the activities of government bodies. The Electronic Government portal (e-gov.az) is a key tool that supports work with citizens and enterprises in the public and private sectors. It is designed to reduce the number of documents requested from citizens due to the fact that various authorities interact with each other electronically. Today, more than 373 electronic services out of 478 approved are available on the "Electronic Government" portal of Azerbaijan. The task of transferring the "Electronic Government" platform to "cloud" technologies is being set and actively solved.

Access to the portal is carried out using an electronic digital signature [2], identification data of private entrepreneurs and citizens, verification data (login and password), as well as a mobile authentication system. According to the head of the department for internal control and audit of the ministry's apparatus, Tair Mamedov, in 2017, the Ministry of Communications and High Technologies of Azerbaijan is accelerating the process of integrating open databases of government and private structures into the "open government" portal - data.gov.az11. The presence of open databases of government agencies gives impetus to the development of the ICT sector, the emergence of new electronic services, an increase in the number of mobile applications and creates convenience for electronic interaction between government agencies and with society.

Through the portal data.gov.az, citizens and business structures can easily find open information databases created by government agencies and use them in preparing individual services. As an integral part of the e-government portal, the portal represents a collection of information resources of government agencies. In accordance with existing legislation, the open data provided is regularly updated, and access technologies are improved.

One of the main goals of creating the data.gov.az portal is to provide citizens, organizations and public associations with opportunities to participate in government. In addition, technologies for convenient access to open government information resources are provided, as well as tools for encouraging innovative ideas.

The experience of foreign countries has shown that modern concepts of e-government require further development of mechanisms for the broad "involvement" of civil society in the public administration system, which include institutions of complaints, petitions, voting, referendums, surveys, competitions of ideas, increasing the role of the media, including support for investigative journalism, increasing public control over the activities of government institutions.

It is obvious that carrying out economic and administrative reforms is impossible without the implementation of the National Strategy for the Development of Telecommunications and Information Technologies, which was developed at the end of 2016 by the Institute of Information Technologies (IIT) of the National Academy of Sciences of Azerbaijan.

In pursuance of this program, a "Strategic Road Map for the Development of Telecommunications and Information Technologies" has been developed. By 2020, 70% of the territory of Azerbaijan should be covered by fiber-optic communication networks, and by 2025 – 95%. At least a third trunk telecom operator should be added to the telecom operators Delta Telecom and Azertelecom currently operating in the country. The authors of the document are confident that we should expect a gradual increase in the volume of traffic consumed.

One user consumes on average 3.6 Mbit/s, and by 2020 it will consume up to 20 Mbit/s. The efforts made have allowed the Republic of Azerbaijan to achieve significant success in the development of e-government. The United Nations Department of Economic and Social Aff airs (UN DESA) calculates the E-Government Development Index (EGDI) every two years, which demonstrates the degree of readiness of countries to implement and use e-government services. government. This rating covers 193 countries and includes three main indicators:

– Subindex of development of online government services (OSI);
– Telecommunications infrastructure subindex (ITI);
– Human capital subindex (HCI).

Since 2001, Azerbaijan has shown positive dynamics, moving from 122nd place in 2003 to 54th in 2016 (see figure). The task of maximally complete "inclusion" of each subject of information relations in the system of public administration and other processes of development of the information society cannot be solved without solving the problem of ensuring the state information security of participants in information interaction [6].

In Azerbaijan, the issue of information security is considered as an integral part of national security. The state has acceded to the European Convention on Computer Crime ETS No. 185 (Budapest, November 23, 2001). In 2012, by presidential decree, a cybersecurity agency was created - the Center for Electronic Security under the Ministry of Communications and Information Technologies. The center coordinates the activities of subjects of the information infrastructure. However, addressing issues of combating crime in the field of computer information does not fully ensure the information security of the state and its citizens and organizations. Information security is understood as a state of protection of the individual, society and the state from internal and external information threats, which ensures the implementation of the constitutional rights and freedoms of man and citizen, a decent quality and standard of living for citizens, sovereignty, territorial integrity and sustainable socio-economic development of the Russian Federation , defense and security of the state.

With information exchange in the public administration system, the provision by citizens and organizations of information necessary to receive public services, there is a very acute problem associated with the implementation of the right of subjects to the confidentiality of information protected by law, and, first of all, the personal data of a citizen. The government agency is faced with the task of ensuring the security and confidentiality of such information when used.

In 2010, the Law of the Republic of Azerbaijan "On Personal Data" was adopted, which regulates relations regarding the circulation of personal data and is designed to ensure the rights of the subject of personal data, including when they are used in the public administration system.

In April 2016, the European Union introduced a new uniform regulation for the European space of the European Parliament and the Council on the protection of personal data GDPR - General Data Protection Regulation. EU Regulation 2016/679E replaced the framework Directive on the protection of personal data 95/46/EC of October 24, 1995 and established new rules for the processing of personal data that are mandatory for the international IT market. Two years were allocated to adapt information systems to the new rules, and in May 2018 the GDPR came into effect. A new body has been created - the European Data Protection Board (EDPB).

It should also be noted that the GDPR operates extraterritorially. The regulation states that the GDPR applies to the entire global community. The main target is the personal data of Europeans, which means that the new requirements will apply to any companies and organizations, wherever they are located, if they deal with an EU resident or citizen. Branches of foreign companies located

in the EU, and companies located outside the EU but serving European residents and citizens, must comply with the requirements of the GDPR.

It is obvious that the adoption of this regulation will affect the Azerbaijani legislation on personal data. This is due, first of all, to the fact that Azerbaijan is building an economic partnership with the European Union and has ratified the European Convention of the Council of Europe for the Protection of Individuals with respect to the Processing of Personal Data. On the other hand, this is due to the problem of processing personal data of persons with dual citizenship.

Having realized the paramount importance of the problem of ensuring information security [4], many countries have developed their national concepts and doctrines in this area. These documents define the strategic goals and main directions of ensuring information security, analyze the main information threats, define the main directions of ensuring information security in the field of defense, state and public security, in the economic sphere, in the field of science, technology and education, strategic stability and equal strategic partnerships.

**Conclusion**

Thus, in the Russian Federation, by Decree of the President of the Russian Federation of December 5, 2016 No. 646, the Doctrine of Information Security of the Russian Federation was approved. According to this Doctrine, the strategic goals of ensuring information security in the field of state and public security are protecting sovereignty, maintaining political and social stability, the territorial integrity of the Russian Federation, ensuring fundamental rights and freedoms of man and citizen, as well as protecting critical information infrastructure.

The development of such a conceptual document in the Republic of Azerbaijan will allow us to evaluate information legislation at a systemic level and ensure its development towards achieving the proper level of information security.

Thus, the modern information legislation of the Republic of Azerbaijan has undoubtedly made it possible to solve a number of fundamental issues related to the implementation of the concept of e-government. At the same time, existing trends in the development of the information society lead to the need for further development of legislation in the field of implementing open government, freedom of the media and ensuring information security.

**Reference:**

1. Bogdanovskaia I. Iu. Metody` analiza e`lektronnogo gosudarstva: k vy`ra-botke kompleksnogo podhoda //

1. E`voliutciia gosudarstvenny`kh i pravovy`kh institutov v usloviiakh razvitiia informatcionnogo obshchestva. M., 2012. 165 s.

2. Lovtcov D. A. Sistemologiia pravovogo regulirovaniia informatcionny`kh otnoshenii` v infosfere: Monografi ia. – M.: RGUP, 2016.

3. Lovtcov D. A. Sistema printcipov e`ff ektivnogo pravovogo regulirova-niia informatcionny`kh otnoshenii` v infosfere // Informatcionnoe pravo. – 2017. – № 1. – S. 13 – 18.

4. Lovtcov D. A. Obespechenie informatcionnoi` bezopasnosti v rossii`skikh telematicheskikh setiakh // Informatcionnoe pravo. – 2012. – № 4. – S. 3 – 7.

5. Lovtcov D. A. Problema e`ff ektivnosti mezhdunarodno-pravovogo obespe-cheniia global`nogo informatcionnogo obmena // Nauka i obrazovanie: hoziai`stvo i e`konomika; predprinimatel`stvo; pravo i upravlenie. – 2011. – № 11 (17). – S. 24 – 31.

6. Lovtcov D. A., Sergeev N. A. Upravlenie bezopasnost`iu e`rgasistem / Pod red. D. A. Lovtcova. – M.: RAU – Universitet, 2001.

7. Otkry`toe pravitel`stvo za rubezhom. Pravovoe regulirovanie i praktika: Monografi ia / Otv. red. I. G. Timoshenko. – M.: INFRA-M, 2015.

8. Talapina E`. V. Gosudarstvennoe upravlenie v informatcionnom obshche-stve (pravovoi` aspekt). – M.: ID «Iurisprudentciia», 2015.

9. Holopov V. A. Pravovy`e aspekty` sovershenstvovaniia institutov neposredstvennoi` demokratii i informatcionnogo obespecheniia mestnogo samoupravleniia // Voprosy` gosudarstvennogo i munitcipal`nogo upravleniia. – 2011. – № 4. – S. 113.

10. Chubukova S. G. Strategii razvitiia informatcionnogo obshchestva i napravleniia razvitiia zakonodatel`stva // Pravovaia informatika. – 2017. – № 2. – S. 67 – 72.

**Selcan Qalib SƏFƏRƏLIYEVA**
**Xədicə Həzi ƏLIYEVA**
[1]Qərbi Kaspi Universiteti, "Dendrologiya Bağı" PHŞ
E-mail:selcan.sefereliyeva2706@gmail.com

## AZƏRBAYCANDA PESTİSİDLƏRİN İSTİFADƏSİ TARİXİ VƏ HAZIRDA İSTİFADƏ OLUNAN PESTİSİDLƏR

**Summary**

The use of plant protection products in agriculture in countries of the world started from different periods. The high level of pesticide use in our country dates back to the last century. A part of the cotton growing regions of the USSR was located in the territory of Azerbaijan. Pesticides used in high doses in those areas are still present in residual forms in the soil. Currently, the construction of private houses and gardens in those areas shows the extent of the danger. Despite the passage of years, the pesticides remaining in the surrounding areas in residual form have not lost their influence on the living world.

**Key words:** pesticide, use of pesticides in Azerbaijan, biopesticide

### Giriş

Dünya ölkələri üzrə kənd təsərrüfatlarında bitki mühafizə vasitələrindən istifadə müxtəlif dövürlərdən başlanmışdır. Ölkəmiz üçün pestisidlərin tətbiqinin yüksək səviyyəsi keçən əsrə təsadüf edir. SSRİ-nin pambıqçılıq rayonlarının bir hissəsi məhz Azərbaycan ərazisində yerləşirdi. 1980-ci illərdə pambıq təsərrüfatlarında DDT- nin istifadəsi tonlarla təşkil olunurdu. Araşdırmalara görə o illərdə pestisidlərlə işləyən qadınlardan götürülən qan nümunələrində qan azlığı və başqa əlamətlər aşkarlandıki səbəbin pestisidlər olduğu yalnız güman edilə bilərdi. Çünki, o illərdə pestisdlərin insan orqanizmlərində bir sıra xəstəliklərə səbəb olduğu haqqında əsaslı sübutlar yox idi.

### Əsas mətn

Ədəbiyyat məlumatlarına əsasən 1958-1989-cu illərdə təsərrüfatların zərərvericilərdən qorunması üçün ölkə ərazisindəki fabriklərdə 480549 ton DDT və 10000 ton başqa qrup pestisidlər istehsal edilmişdir [1]. Bu da həmin sahələrdə fəaliyyət göstərən işçilərə və ətraf mühitə mənfi təsirlər göstərmişdir. Həmin ərazilərdə yüksək dozalarda istifadə olunan pestisidlər hələ də torpaqda qalıq formalarda mövcuddur. Hazırda həmin ərazilərdə fərdi evlərin tikilməsi və bağların salınması təhlükənin nə dərəcədə olduğundan xəbər verir. İllər keçməsinə baxmayaraq ətraf ərazilərdə qalıq formasında qalan pestisdlər canlı aləmə öz təsir gücünü itirməmişdir.

Dünya üzrə DDT kimi pestisdlərin istifadəsinin qadağan edilməsindən sonra SSRİ də bu yoldan gedərək həmin pestisidlərin istifadəsini dayandırdı. Daha sonra ölkə ərazisində olan yüksək miqdarda pestisdlər bir yerə toplanaraq paliqonlar yaradıldı. Həmin Poliqonlardan biri Bakıdan 53 km uzaq məsafədə yerləşirdi. Lakin SSRİ- nin süqutundan sonra həmin poliqonlar nəzarətsiz qaldı. Yerli əhali tərəfindən şüursuz şəkildə şəxsi təsərrüfatlarda istifadə olunmağa başlanıldı. Həmin poliqonda 6 min ton pestisidin saxlandığı güman edilir [2]. 2007-ci ildə həmin poliqondakı bütün pestisidlər yenidən qablaşdırırlaraq bərpa edilmişdir [1]. Bundan əlavə 2018-ci ildə ölkə ərazisində aparılan monitorinq zamanı 2790 ton köhnəlmiş pestisid, 392 ton maye pestisid müəyyən edilmişdir [3]. Hazırda köhnəlmiş, istifadəyə yararsız pestisdlər Kənd Təsərrüfatı Nazirliyi nəzdində yaradılmış "Cəngi" paliqonunda toplanır [4]. Respublikamız müstəqillik əldə etdikən sonra 1997-ci ildə pestisidlər və aqrokimyəvi maddələr haqqında qanun qəbul etdi. Həmin paliqonların qorunması və bərpası işləri

həyata keçirilməyə başlanıldı. Daha sonra prezident tərəfindən 2006-cı ildə Fitosanitariya Qaydaları imzalandı. Bu sənəddə pestisdlərin istifadəsi, danışnması, saxlanılması, paylanılması, idxalı zamanı təhlükəsizlik qaydaları öz əksini tapmışdır. 2015-ci ilin məlumatına əsasən ölkə ərazisində qeydiyyata alınmış pestisidlərin miqdarı artaraq 1600-ü keçmişdir [1]. Azərbaycan Respublikasına istifadə olunan pestisidlər və ya xarici ölkələrdən gətirilən kimyəvi preparatlar xüsusi hazırlanmış qaydalar əsasında daşınır, saxlanılır və tətbiq edilir. İstifadəyə yararsız kimyəvi preparatların müəyyənləşdirilməsi Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yaradılmış xüsusi komissiya tərəfindən həyata keçirilir. Həmin maddələr xüsusi qablarda daşınılır. Yüksək təhlükəli maddələr dəmir-beton konteynerlərlə basdırılır. Digərləri isə qazılmış çalalarda basdırılır. İstifadəyə yararsız olan maye kimyəvi maddələr isə istehsal edildiyi zavodlara göndərilir. Orada xüsusi şəraitdə məhv edilir [5].Ölkə ərazisində kimyəvi pestisidlərlə yanaşı biopestisdlərdəndə istifadə olunur. Yerli şəraitdə təyin olunmuş mikroblar, bəzi bitki ekstratları, piretrinlər və mikrob ekstratları qeydiyyata alınmışdır. Belə biopestisidlərə misal olaraq *Bacillus thuringiensis* insektisidi və *Bacillus subtilis* tərkibli funqisidi göstərmək olar. Bu biopestisidləri ölkə ərazisində yerli bioloji labarotoriyalardan həmçinin, xarici şirkətlərdən əldə etmək olar [1].

**Nəticə**

Azərbayca Qida Təhlükəsizliyi Agentliyinin məlumatına əsasən 30.01.2023 tarixində Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş pestisidlər və aqrokimyəvi maddələrin siyahısının yenilənməsi ilə bağlı Ekspert Şurasının iclası keçirilmişdir. İclasda elmi-tədqiqat institutlarında sınaqdan keçirilmiş preparatların hesabatları təhlil edilmişdir. Alınan müsbət nəticələrə əsasən 35 adda yeni aqrokimyəvi maddə, 10 adda pestisid, 13 adda təkrar qeydiyyata alınan pestisid, ümumilikdə 58 adda preparatın dövlət qeydiyyatına alınması nəzərədə tutulmuşdur. Həmçinin 18 adda aqrokimyəvi maddə, 8 adda pestisid, 1 adda feromon tələ olmaqla ümumilikdə 27 adda preparatın dövlət sınağının aparılmasına qərar verilmişdir. Bundan başqa bir qrup pestisid və aqrokimyəvi maddələrə məxsus sənədlərdə uyğunsuzluqlar olduğundan qeydiyyata alınması və ya sınaqdan keçirilməsi məqsədəuyğun hesab edilməmişdir. Ümumilikdə isə Ekspert Şurası tərəfindən 72 adda preparatla bağlı imtina qərarı verilmişdir. Ölkə ərazisində istifadəsinə icazə verilmiş pestisidlərin adı, istehsalcı şirkət və ölkə, preparatın tipi, tətbiq üsulu, qeydiyyat tarixi və s. məlumatlar AQTA-nin veb saytında 01.05.2024 tarixli azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış aqrokimyəvi maddələrin siyahısı başlığı altında paylaşılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Oliver, Makdonald, Pestisidlərin qiymətləndirilməsi haqqında hesabat və təhlükəsiz istifadə üzrə fəaliyyət planı, 2020
2. Ширин Манафов, Рекорды на хлопковых полях и расплата за ударный труд. Победы в соцсоревновании и последствия, 2009
3. Кейсерухская Fatima Şamil, ВЛИЯНИЕ ПЕСТИЦИДОВ НА БИОГЕННОСТЬ ПОЧВ, 2022
4. https://www.agro.gov.az/az
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 20 oktyabr tarixli 120 nömrəli qərarı

**Gülənay Akif MƏMMƏDOVA**
*Qərbi Kaspi Universiteti*
*Bakı, Azərbaycan*
*gulanaymammadova@gmail.com*

# XƏZƏR QIZILBALIĞININ (*SALMONİDAE* ) HAZIRKI VƏZİYYƏTİ VƏ AKVAKULTURA PERSPEKTİVLƏRİ

**Summary**

Declines in many fish species, including the critically important salmon, and declines in industrial fishing have been recorded. On the other hand, the change of habitat affects the biology of individual fish species formed over many years, it also causes changes in the biological indicators of populations. Currently, the fish stock in the Caspian, Kura, Araz rivers and other water bodies of Azerbaijan has decreased significantly, and it is natural that the population's demand for fresh fish meat is not met at the required level.

**Key words:** Caspian Sea, Karabakh, pollution, salmon.

## Giriş

İnsan orqanizmi üçün tələb olunan zülallarla və vitaminləri ilə zəngin təzə balıq əti müalicəvi əhəmiyyətə malik olmaqla, görmə qabiliyyətini yaxşılaşdırır, orqanizmi xolesterindən təmizləyir və aterosklerozun qarşısını alır. Təəssüflər olsun ki, XX əsrin 50-ci illərində Xəzər dənizi səviyyəsinin aşağı enməsi Kür (1953) və Araz (1956) çayları üzərində bəndlərin tikilməsi keçici, ilk növbədə Kür qızılbalıq və nərə cinsli balıqları öz kürüləmə yerlərindən məhrum etmiş, elə bu və digər səbəblərdən (kimya sənayesi və məişət tullantıları ilə çirklənməsi və s.) qiymətli balıqların ehtiyatı xeyli azalmışdır. Bununla əlaqədar olaraq balıqartırma zavod və təsərrüfatları, son zamanlar isə balıq-əmtəə təsərrüfatları yaradılsa da, artmaqda olan əhalinin balıq ətinə olan tələbatını ödəyəcək səviyyədə deyildır.

## Əsas mətin

Xəzər dənizinin problemləri arasında səviyyə tərəddüdü ilə yanaşı, dəniz sularının çirklənməsi və bununla əlaqədar, ekoloji şəraitin korlanması son dövrün ən mühüm problemlərindən biridir. Xəzər dənizinin əsas çirklənmə mənbələri onun hövzəsində, sahillərində və akvatoriyalarında yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab suları, dəniz nəqliyyatından və neft mədənlərindən daxil olan müxtəlif çirkləndiricilərdir. Balıq təsərrüfatı va sanitar-toksiki xüsusiyyətləri baxımından Xəzərin durumu hələ Sovetlər Birliyinin sonunda böhran dövrünün başlanğıcı kimi qiymətləndirilirdi. Belə ki, 1992-ci ildə Volqa hövzəsi və Xəzərin sahil zonası "ekoloji fəlakat zonası" adlandırılıb. Cənubi Xəzərin Kürətrafı zonası tarixən ixtiofaunasının müxtəlifliyi, vətəgə əhəmiyyətli balıqların zənginliyi və onların ovunun yüksək göstəriciləri ilə xarakterizə olunub və hazırda da bu özünəməxsusuluğunu saxlamaqda davam edir [Абдурахманов, 1962, 159-163;14-24] Kür çayının mənsəbindən şimalda və cənubda yerləşən sahilyanı dəniz zonaları bir çox keçici və yarımkeçici balıq körpələrinin və yaşlı formalarının yaşayış yeridir. Bundan əlavə, respublikamızda fəaliyyət göstərən balıqartırma təsərrüfatlarının əksəriyyəti Kürətrafı rayonda yerləşir və bu səbəbdən dənizin bu hissəsinə hər il milyonlarla balıq körpələri buraxılılır. Son onilliklərdə Xəzər dənizində suyun səviyyəsinin mütəmadi dəyişməsi, Kür çayı axının antropogen dəyişiklikləri, yeni su anbarlarının tikilməsi, çayın suyundan suvarma və digər texniki məqsədlər üçün geniş miqyasda istifadə edilməsi, sənaye və məişət tullantılları ilə suyun çirklənməsi, qanunsuz balıq ovu, yeni balıq növlərinin Xəzərin faunasının tərkibinə daxil olması və s. balıq ovunun tərkibinin və miqdarının dəyişilməsinə səbəb olub [Quliyev, 2011, 5-9]. Yuxarıda qeyd olunan səbəblərdən Xəzər regionunda və ona tökülən çaylarda hidroloji, hidrokimyəvi və hidrobioloji dəyişikliklərin əmələ gəlməsi burada yaşayan və inkişaf edən müxtəlif balıq növlərinin də ekologiyasına, biologiyasına, yayılmasına və həmçinin, say miqdarına öz təsirini göstərib. Azərbaycanda vətəgə əhəmiyyətli balıq növlərinin biologiyası və

ekologiyası ilə bağlı elmi-tədqiqat işləri əvvəllər də bir sıra su hövzələrində - Kür çayının aşağı axının yuxarı hissəsində, qismən Kürağzı zonada, Mingəçevir və Varvara su anbarlarında və digər hövzələrdə həyata keçirilib [Абдурахманов, 1962, 377-392; Державин, 1956, 25-57].

Xəzər dənizində iki növ qızılbalıq yaşayır – Xəzər qızılbalığı və ağ qızılbalıq. Ağ qızılbalıq əsasən Xəzərin şimal hissəsində rast gəlinir və kürütökmə üçün dənizin şimaldakı çaylara, əsasən Volqaya daxil olur. Xəzər qızılbalığı keçici balıqdır, dənizin cənub hissəsində yaşayır və əsasən Kür çayında kürü tökür. Qızılbalıq körpələri 2 yaşınadək çaylarda yaşayır və sonra isə Xəzər dənizinə keçirlərlər.

1952-ci ilə qədər hər il Kürdə 170 tonadək qızılbalığı ovlanırdı, lakin sonrakı illərdə Kür və Araz çayları üzərində su elektrik stansiyalarının bəndlərinin tikilməsi və Xəzər qızılbalığının təbii kürüləmə yerlərinə keçə bilməməsi səbəbindən, onun ehtiyatları kəskin azalmış və bu balıq növü "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmişdir. Xəzər qızılbalığının ehtiyatını bərpa etmək məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Təcrübəvi Dəniz Balıqartırma Zavodu tərəfindən hər il təxminən 50 min ədəd körpə qızılbalıqlarının artırılıb dəniz qəfəslərində yetişdirilərək Xəzər dənizinə buraxır. Bununla da, qızılbalığın nəslinin kəsilməsi təhlükəsi aradan qaldırılır.[Ş.M.Bağırova, 2010]. Ekoloji problemlərin aradan qaldırılmasında elmi-texniki inkişafın əhəmiyyətini qeyd etmək lazımdır. İnsanın təbiətlə münasibətlərinin elmi əsəs-larla qurulması üçün ekoloji dünyagörüşünün formalaşması vacib şərtdir. Yaşadığımız cəmiyyətin hər bir üzvü ətraf mühitin qorunmasını dərk etməlidir. Əgər təbiətdən istifadə planlı, səmərəli aparılmasa, istehsalat labüd şəkildə təbiətin vahidliyi və bütövlüyünə zərər vuracaqdır. Ətraf mühitin qorunması problemi dünyavidir və bütün dövlətlər onun qorunması tədbirlərini işləyib hazırlamalı həyata keçirilməsinə nəzarət etməlidirlər. İşğaldan azad edilən ərazilərimizdə balıqçılığın inkişafı üçün çox münbit şərait var. İşlərin aparılacağı təqdirdə, 2-3 ildən sonra Qarabağda balıqların artırılması ilə bağlı nəticə əldə etmək olar. İşğaldan azad olunmuş ərazilərimizdə olan çaylar bizi qane edir. Digər bölgələrimizdə olan çayların suyu mövsümünə görə azalıb-çoxalır. Amma Qarabağ ərazisində olan çayların suyu ilboyu bolsulu olur. Çaylarda bol, oksigenlə zəngin və sərin su olduğu üçün qızıl balıqkimilərin və digər balıq növlərinin artırılması üçün münbit şərait var. Azərbaycanda balıq istehsalının ildən-ilə azalmasının qarşısını almaq üçün işğaldan azad edilmiş ərazilərin balıqçılıq potensialının inkişaf etdirilməsi nəzərdə tutulmalıdı. Bu məqsədlə işğaldan azad edilmiş ərazilərdə aparılan tədqiqatlar da göstərir ki, doğrudan da həmin ərazilərdə balıqçılığı yüksək səviyyədə inkişaf etdirmək mümkündür. Oxçuçayı çıxmaq şərtilə. Oxçuçay Ermənistan tərəfindən gələn və ən çox çirklənməyə məruz qalan çaydır. Amma digər böyük çaylar, ilboyu bol sulu olduğu üçün istənilən qədər balıq artırmaq olar. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həmin çaylara müəyyən qədər balıq körpələri buraxmaq və gələcəkdə bu proses yenə davam etdirmək lazımdı. Həmin ərazilər xeyli müddət nəzarətsiz olduğu üçün hansı balıq növlərinin qaldığını tədqiqat aparmadan demək mümkün olmasa da, çaylarda yaşayan istənilən balıq növünü artırmaq olar.

**Nəticə**

İlk növbədə Avropa, Asiya, Skandinaviya və b. ölkələrin təcrübələrinə istinad edərək əmtəə balıqçılığının inkişaf etdirilməsi yolu ilə respublikada əhalinin qiymətli təzə balıq ətinə olan tələbatını lazımi səviyyədə ödəmək mümkündür. Bununla əlaqədar olaraq ölkədə balıq ehtiyatı yaratmaq üçün iş adamlarına, həvəskar balıqçılara bu sahənin çox gəlirli olduğunu izah etməklə onları maarifləndirmək təklif olunur.

**ƏDƏBİYYAT SIYAHISI:**

1. Quliyev Z.M., Əliyev A.R., Seyid-Rzayev M.M. Azərbaycanın daxili su hövzələrinin bioloji ehtiyatları, onların artırılması və səmərəli istifadə olunması yollarına dair. - Bakı, Elm, 2011, 107 s.

2. Nəcəfov C.Ə., Məmmədov Ç.A., Hacıyev R.V. Balıqçılıq, balıqların yemləndirilməsi və ixtiopatologiya, Müəllim, 2019, 304 s.

3. Абдурахманов Ю.А. Рыбы пресных вод Азербайджана // Баку, Из-во АН Азерб. ССР, 1962, 406 с.

4. Абдурахманов Ю.А. Современное состояние запасов рыб бассейна р. Куры // Биологическая продуктивность Каспийского моря. Труды ВНИРО, Москва, Пищевая промышленность, 1975, Т. YIII, С. 159-163.
5. Державин А.Н. Куринское рыбное хозяйство. - Баку, АН Азерб. ССР, 1956, 435 с.

**Səbinə Valeh XANİYEVA**
Azərbaycan Dövlət İqtisad Universiteti
Doktorant
E-mail: sabinaxaniyeva@gmail.com

# BİR SIRA YERLİ YABANI BİTKİLƏRİM BİOKİMYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN İSTEHSALININ FAYDALARI. KƏKLİKOTU BİTKİSİNİN BİOKİMYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Summary**
In the territory of the Republic of Azerbaijan, which has a rich flora, the spread of useful natural plant covers in zones with different ecological and geographical conditions, the study of the possibilities of their use as food and medicinal raw materials, as well as in other fields, plays a great role scientifically and economically. The composition of wild plants contains vitamins, microelements, proteins, fats, carbohydrates, sugars, organic acids, etc. necessary for the human body. is rich with In this regard, if we take into account the important role of wild plants in human nutrition, we can say that they are also considered as one of the main natural resources. However, the fact that not all of them are used in a cultural way proves the importance of studying these plants on a wider scale.
**Key words:** wild, thyme, plant, useful

## Giriş

Dünyanın müxtəlif yerlərində yabanı yeməli bitkilərin böyük müxtəlifliyinin olması tədqiqatçıların diqqətini cəlb etmişdir. Nəticədə, yabanı yeməli bitkilərin müxtəlif aspektləri üzrə tədqiqatlar aparılmışdır. Bunlara paylama və istifadə nümunəsi, yayılma protokollarının işlənməsi, biokəşfiyyat və biokimyəvi qiymətləndirmə üzrə tədqiqatlar daxildir. Bunun nəticəsidir ki, bəzi növlər kommersiya miqyasında istifadə olunur. Bununla belə, regionda yabanı meyvələrin bir neçə başqa perspektivli növləri var ki, onların optimal qida və iqtisadi potensialından davamlı şəkildə istifadə etmək üçün müxtəlif aspektlər üzrə tədqiqatların aparılmasına diqqət yetirilməlidir. **[1, s. 126-135]**Son onillikdə tərkibində antioksidant aktivliyə və digər faydalı xüsusiyyətlərə malik təbii birləşmələrdən ibarət yeni kosmetik, qida və əczaçılıq məhsullarının hazırlanmasına maraq artmışdır. Aromatik və dərman bitkiləri həmişə bioaktiv birləşmələrin, xüsusən də polifenol birləşmələrinin zənginliyinə aid edilə bilən dəyərli sağlamlıq faydaları üçün qədim zamanlardan istifadə edilən yabanı kəklikotu əsas mənbəyi olmuşdur. Antioksidant fəaliyyəti ilə müəyyən edilmiş bir neçə fenolik birləşmələr arasında mühüm uyğunluq tapılmışdır. Tapıntılar, kəklikotunun distillə edilmiş qalıqlarının bioaktiv molekulların yüksək konsentrasiyasına görə effektiv təbii antioksidant potensialına malik olduğunu və onların insan sağlamlığına faydalı təsirləri ilə əczaçılıq, kosmetika və qida sənayesində faydalı olduğunu ortaya qoymuşdur. Kəklikotu Labiatae ailəsinə məxsus olub, 5 fərqli cinsə (Origanum, Thymus, Satureja, Coridothymus ve Thymbra) bağlıdır. Kəklikotunun uçucu yağında karvakrol/timol komponentləri olan növlər aşkarlanmışdır. Ticarət məqsədilə istifadə olunan bitkinin becərilməsi əsasən Türkiyə, İspaniya, Fransa, İtaliya, Çili, Meksika və Suriyada həyata keçirilir. Dünyada Thymus tipli kəklikotu Fransa, İsveçrə, İspaniya, İtaliya, Bolqarıstan, Portuqaliya və Yunanıstan da daxil olmaqla əksər Avropa ölkələrində mədəni və yabanı şəkildə yığılmış bitkilərdən istehsal olunur. Kəklikotu, əvəzolunmaz bir ədviyyat hesab olunur. Ölkəmizdən ixrac edilən kəklikotunun çox hissəsi təbiətdən toplanır. Lakin təbiətdən toplamaq təbii floranı məhv edir və məhsul istənilən keyfiyyətə malik olmur. Hal-hazırda təbii floranı qorumaq və standart materiallar

əldə etmək üçün kəklikotunun becərilməsi ön plandadır. Dünyada kəklikotuna olan tələbatın artması ilə əlaqədar olaraq, ölkəmizdə kəklikotu istehsal sahələri artırılmalıdır. İstehsalın davamlılığını təmin etmək, daha çox ticarət və qlobal bazarda söz sahibi olmaq üçün ciddi tədbirlər görülməlidir. Kəklikotu əkinçiliyi və sənayesində düzgün addımların atılması, məhsulların hədəf bazarlara arzu olunan standartlarda və səmərəlilikdə təqdim edilməsini izləmək lazımdır.

**Ölkəmizdə kəklikotu istehsalını mədəni şəkildə də inkişaf etdirmək, becərmək və istehsalını təmin etmək üçün müxtəlif üsullar tətbiq olunur. Belə bir təklif də irəli sürülmüşdür ki, fermerlər** kəklikotu sahələrində arı pətəkləri yerləşdirərək əlavə gəlir əldə edə bilərlər. Kəklikotu balı, müalicəvi əhəmiyyəti olan çiçək balı növlərindəndir. Nektarın tərkibində timol olan uçucu bir yağ var və antiparazitar xüsusiyyəti var. Bu balın qoxusu və dadı olduqca gözəldir. Kəklikotu balı bütün ballar və dərman bitkiləri kimi 1 il ərzində istehlak olunmalıdır. Bitkilərin əmələ gəlməsi bitki coğrafiyası və bitki iqtisadi coğrafiyası baxımından əhəmiyyətlidir. Həmçinin çox müxtəlif və mürəkkəb amillərlə bağlıdır. **[2]** Kəklikotu torpaqda çox seçici olmayan və qayalı yerlərdə belə uğurla inkişaf edə bilən bitkidir. Kəklikotu bitkilərinin yabanı şəkildə böyüdüyü torpaqlarda kəklikotu yetişdirilən torpaqlarla müqayisədə daha az gil, daha yüksək qum və üzvi maddələr olduğu müəyyənləşdirilmişdir. Ümumiyyətlə, yabanı kəklikotunun bitdiyi torpaqda üzvi maddələrin miqdarı 1-10%, azotun miqdarı isə 0,1-1% arasında dəyişir. Bu dəyərlər kəklikotu bitkilərinin ümumiyyətlə orta və yüksək səviyyədə üzvi maddələr və azot olan torpaqlarda böyüdüyünü göstərir. Torpaqda üzvi maddələrin və azotun miqdarı artdıqca kəklikotunun məhsuldarlığı da artır **[3, 3195 – 3202]**İstehsal olunan kəklikotu yağında karvakrol və timol komponentləri üstünlük təşkil etsə də, kəklikotunun T.Vulgaris növlərində geraniol, linalool və limonen komponentləri üstünlük təşkil edir. Efir yağının nisbətləri növdən asılı olaraq dəyişə bilər. Timol tipli kəklikotunun efir yağının tərkibi 1,5-2,0% arasında dəyişir və yağ rəngsizdən solğun sarımtıl qırmızıya qədərdir və əsasən timol və karvakroldan ibarətdir. Turşu mühitdə qaralır və istiliklə ətirini tez itirir **[4, s. 20-30]** Kəklikotu bitkisi həm ölkəmizdə, həm də dünya ölkələri arasında ən çox istifadə olunan yabanı bitkidir. Bu da onun zəngin tərkibə malik olması və yayılması ilə izah olunur.

**Cədvəl 1: Kəklikotunun kimyəvi və fiziki göstəriciləri.**

| Ədviyyat | Yad maddə miqdarı (% m/mm) | Rütubət (%) | Toplam küllülük miqdarı | 10% HCl-də həll olunmayan kül miqdarı | Uçucu yağ turşuları |
|---|---|---|---|---|---|
| Kəklikotu | 2 | 10 | 12 | 2 | 1 (3,5)<br>1,5 (4,5) |

**Mənbə**: TC Tarım ve Orman Bakanlığı Genel Müdürlüğü, (2022)

**Nəticə**

İlk növbədə ölkə əhalisinin sağlam qida məhsulları ilə təmin edilməsi məqsədi ilə yeni çeşidli qida məhsulları istehsalının təşkili həyata keçiriləcəkdir. Xammal resurslarının tədarük edilməsi məqsədilə yeni istehsal sahələrinin açılması da mövcud perspektivlərdəndir. Yabanı ot bitkilərinin yığılması və saxlanması üçün yeni tədarük məntəqələrinin yaradılması, onlardan istifadə mövcud tədqiqat işinin praktiki əhəmiyyətinin göstəricisi hesab olunur. Yeni qida məhsullarının yaradılması ilə istehsal sahələrində istehsal proseslərinin elmi cəhətdən əsaslandırılması nəticələrin elmi yeniliyinə dəlalət edəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. S.K. Joshi, B. Ballabh, P.S. Negi and S.K. Dwivedi. (2018). "Diversity, Distribution, Use Pattern and Evaluation of Wild Edible Plants of Uttarakhand". Defence Life Science Journal. pp. 126-135.
2. https://fed.az/az/biznes/zehmeti-az-geliri-cox-olan-aqrar-biznes-keklikotu-tarlasi-41581 (2018)

3. Baydar. (2021). "Distilasyon Yöntemlerinin, Sürelerinin ve Fraksiyonlarının Kekik (Origanum onites L.) Uçucu Yağ Oranları ve Bileşenleri Üzerine Etkisi". Iğdır Üniversitesi Fen Bilimleri Enstitüsü Dergisi. Səh: 3195 – 3202.

4. Charles. (2013). "Kekik türleri ve ürünlerinin geçmişten günümüze kullanım alanları". Kekik (Origanum onites, Origanum vulgare, Thymus vulgaris) Tarımı ve Endüstrisi. 68 s.

**Zeynəb MƏMMƏDOVA**
**İ.R.RÜSTƏMOV**
**N.M.RÜSTƏMOVA**
**G.Ə. İBRAHIMOVA**
**S.M.BABAYEVA**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi,
Genetik Ehtiyatlar İnstitutu, Bakı, Azərbaycan
Nəfəs Psixonevroloji Mərkəzi, Bakı, Azərbaycan
Narınc Psixologiya Mərkəzi, Bakı, Azərbaycan
E-mail: zeyneb.mamedova95@mail.ru

## AUTİZM SPEKTR POZUNTUSU OLAN UŞAQLARDA NEYROPİLİN-2 RS849563 GEN POLİMORFİZMİNİN TƏDQİQİ

**Summary**

This study focused on the analysis of the *NRP2* (rs849563) gene polymorphism and its association with autism risk in a group of 36 Azerbaijani children. A statistical test showed no correlation between genotypes and the likelihood of developing autism (OR = 0.7955, 95% CI = 0.21 - 3.00, P = 0.7355). *NRP2* (rs849563) T allele was associated with a higher risk of autism compared to G allele (OR = 1.18, 95% CI = 0.38 to 3.7). However, this correlation did not reach statistical significance (P = 0.7718). A transmission disequilibrium analysis demonstrated that the rs849563 marker did not exhibit transmission disequilibrium (LRS=1.14, df=1, P=0.29).

**Key words:** ASP, gene, polymorphism, *NRP2*, PCR-RFLP

### Giriş

Autizm spektr pozuntusu (ASP) uşaqlarda müşahidə olunan çoxsaylı inkişaf pozuntuları içərisində ən aktual problemlərdən biri olub, həm genetik, həm də ekoloji amillərin təsiri nəticəsində meydana çıxır. Autizm spektr pozuntusu (ASP) yaşamının ilk 3 ilində ortaya çıxan, sosial münasibətlərdə, ünsiyyətdə və nitq inkişafında problemlərlə, həmçinin təkrarlanan davranışlar və məhdud maraq dairəsi ilə özünü göstərən neyrobioloji və multifaktorial inkişaf pozuntusudur [5]. Xəstəliyin yayılma faizinin 0,2-0,5% olduğu təxmin edilir. Cins nisbətinə gəldikdə isə oğlanlarda autizm riski qızlara nisbətən təxminən dörd dəfə çoxdur(cins nisbəti ~ 4,2:1)[2].

### Əsas mətn

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, neyroinkişafda iştirak edən zülalları kodlayan neyropilin genləri (NRPlər) autizmin patogenezində rol oynaya bilər. NRP-lər onurğalılara xas transmembran qlikoproteinlər olmaqla iki homoloqdan, neyropilin-1 (NRP1) və neyropilin-2 (*NRP2*) proteinlərindən ibarətdir. *NRP2* geninin neyronların yayılması, apoptoz və miqrasiyasına təsiri və mexanizmləri bir neçə tədqiqatçı qrup tərəfindən bildirilmiş [1], bununla belə *NRP2*-nin autizmlə assosiasiyasına dair yalnız məhdud sayda tədqiqatlar aparılmışdır [4].

Autizmlə bağlı aparılan son bir araşdırmada Rüstəmova (2023) 1473 ASP-li uşaq barəsində məlumat vermiş və hər bir uşaq üçün Gilliam ASP Qiymətləndirmə Ölçüləri əsasında autizm spektr indeksini müəyyən etməyə nail olmuşdur [6]. Ölkəmizdə autizm probleminə hərtərəfli yanaşmanı təmin etmək üçün genetik tədqiqatların aparılması, ASP üçün cavabdeh olan genetik markerlərin araşdırılmasına ehtiyac vardır.

Odur ki, cari tədqiqat işində əsas məqsəd Azərbaycan populyasiyasında *NRP2* (rs849563) gen polimorfizmini tədqiq etmək və bu polimorfizmlə autizm riski arasındakı əlaqəni müəyyən etməkdən ibarət olmuşdur.

Tədqiqat işində 36 azərbaycanlı uşaqdan (18 ASP-li uşaq və 18 nəzarət qrupu) ibarət qrupda *NRP2* (rs849563) geninin polimorfizmi təhlil edilmişdir. ASP qrup üçün "Nəfəs" psixonevroloji mərkəzində müalicə alan 18 nəfər autizm spektr pozuntusu diaqnozu qoyulmuş uşaqdan, nəzarət qrupu üçün isə özündə və nəsil ağacında heç bir psixoloji xəstəlik müşahidə olunmayan 18 nəfər sağlam uşaqdan yaxma nümunələri götürülmüş, Genetik Ehtiyatlar İnstitutunun Molekulyar genetika və genomika şöbəsi, İnsan Genetikası Laboratoriyasında DNT ekstraksiyası həyata keçirilmişdir [3]. Tətqiqat işində *NRP2* geninin rs849563 polimorfizmi üçün PZR reaksiyaları aparlmış, amplikonlar BSAJI restriksiya enzimi (New England Biolabs) vasitəsilə PZR-RFLP üsulu ilə işlənilmiş və nəticələr 3%-li aqaroz gel üzərində təhlil edilmişdir. Nəticələr statistik baxımdan analiz edilmiş və $P \leq 0.05$ olduqda əhəmiyyətli hesab edilmişdir.

Tədqiqatımızda autizm diaqnozlu insan qrupunun 77,7%-ni kişilər, 22,2%-ni isə qadınlar, nəzarət qrupununun isə 55,5%-ni kişi, 44,4 %-ni isə qadınlar təşkil etmişdir. Xəstələrin ortalama yaşları 5.11 ±1.80 (interval: 2-17), nəzarət qrupunu təşkil edən insanların ortalama yaşı isə 6.12 ±1.62 (interval: 2-15) olmuşdur. ASP diaqnozlu 18 uşağın 12-də (66,6%) nitq geriliyi, 8-də (44,4%) hiperaktivlik, 5-də (27,7%) isə inkişaf geriliyi kimi əlavə klinki əlamətlər müşahidə edilmişdir. Nəticələrin təhlili göstərmişdir ki, autizmli uşaqlarda TT və TG genotip tezlikləri müvafiq olaraq, 61.1% və 38.9%, nəzarət qrupunda isə 55.6% və 44.4% təşkil etmiş, hər iki qrupda GG genotipinə təsadüf edilməmişdir. Oxşar nəticə İran populyasiyasında da müşahidə olunmuşdur. 120 nümunədən ibarət xəstə-nəzarət qrupunda GG genotipinə rast gəlinməmişdir [6]. Statistik təhlillər nəticəsində genotiplərlə autizm riski arasında assosiasiya qeydə alınmamışdır (OR = 0.7955, 95% CI = 0.21 - 3.00, P = 0.7355). ASP-li və nəzarət qrupunda T və G allellərinin rastgəlmə tezlikləri isə müvafiq olaraq, 80.6%, 19.4% və 77.8%, 22.2% təşkil etmişdir. İkili logistik reqressiya analizi nəticəsində *NRP2* (rs849563) T alleli G alleli (OR = 1.18, 95% CI = 0.38 - 3.7) ilə müqayisədə autizm riskinin artması ilə əlaqələndirilsə də, bu assosiasiya statistik əhəmiyyəti olmamışdır (P = 0.7718). Tədqiqatımızda valideyn və autizmli uşaqların genotiplərinin müqayisəli təhlili əsasında transmissiya bərabərsizliyi analizi həyata keçirilmiş, analizlərlə rs849563 markerinin transmissiya nümayiş etdirmədiyi (LRS=1.14, df=1, P=0.29) müəyyən edilmişdir.

**Nəticə**

Nəticə olaraq, 36 nümunədən ibarət xəstə-nəzarət qrupunda Neyropilin-2 geninin rs849563 polimorfizminin tədqiqi qruplar arasında genotip və allel tezliyinə görə statistik əhəmiyyətli asılılığın olmadığını göstərmişdir. Transmissiya bərabərsizliyi testi ilə qeyd olunan TNP və autizm arasında allel assosiasiyası müəyyən edilməmişdir.

## ƏDƏBIYYAT SIYAHISI:


1. Chen H., Bagri A., Zupicich J.A., Zou Y., Stoeckli E., Pleasure S.J., Lowenstein D.H., Skarnes W.C., Chedotal A., Tessier-Lavigne M.Neuropilin-2 regulates the development of selective cranial and sensory nerves and hippocampal mossy fiber projections, Neuron,2000, 25(1), p. .43–56.
2. Geschwind D.H., Levitt P. Autism spectrum disorders: developmental disconnection syndromes, Curr Opin Neurobiol., 2007, 17, p.103–111.
3. Ghatak S., Muthukumaran R.B., Nachimuthu S.K. A simple method of genomic DNA extraction from human samples for PCR-RFLP analysis, J Biomol Tech., 2013, 24(4), p.224-31.
4. Hosseinpour M., Mashayekhi F., Bidabadi E., Salehi Z. Neuropilin-2 rs849563 gene variations and susceptibility to autism in Iranian population: A case-control study, Metab Brain Dis., 2017, 32(5), p.1471-1474.
5. LeBlanc L.A., Gillis J.M. Behavioral interventions for children with autism spectrum disorders, Pediatr Clin N Am., 2012, 59, p. 147–164.
6. Rustamova N.M. Otizm spektrum bozukluğu olan çocuklara erken müdahale programının faydası, Uluslararası Turkcess Kongresi, 2023, I cilt, s. 469.

# İQTİSADİYYAT BÖLMƏSİ



**Mübariz Məmmədhüseyn BAĞIROV,**
Azərbaycan Dövlət İqtisad Universiteti
**Nuridə Əhliyyət MUSAYEVA**
Azərbaycan Kooperasiya Universiteti magistrantı
E-mail: nuridam89@mail.ru

# BANK SİSTEMİNDƏ DAYANIQLIĞIN TƏMİN EDİLMƏSİNİN DAYANIQLI İNKİŞAF ÇAĞIRIŞLARI FONUNDA NƏZƏRİ-KONSEPTUAL ASPEKTLƏRİ

**Summary**

One requirement of the modern banking system is the establishment of internal reserves to strengthen the stability and reliability of the banking industry. As a result, one of the most important challenges of our day is figuring out future prospects for the formation of a stable economy and stable banking system, which are closely tied to each other and the country's banking system's development tendencies. According to this perspective, the article's research work topic is one of the difficulties facing the current situation, where calls for sustainable growth have been made recently. The paper is devoted to the subject matter from this perspective, which includes concerns about maintaining the stability of the banking system as well as consideration of contemporary global challenges and needs in this format. The paper examined the theoretical and conceptual underpinnings of maintaining the banking system's stability in light of the difficulties associated with sustainable development and provided a nuanced analysis.

**Key words:** bank, system, sustainability, development, financial stability, liquidity, profitability.

**Giriş**

İqtisadi islahatların uğurla həyata keçirilməsinin əsas problemlərinə bank sisteminin dayanıqlığının təmin edilməsi, milli valyutanın möhkəmlənməsi və daxili resursların təmin edilməsi şərti ilə bank sektorunun real iqtisadiyyatın kreditləşməsinə yönəldilməsi daxildir. Ona görə də bank sisteminin gücləndirilməsi və bankların etibarlılığının artırılması, bank sektorunun idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, fiziki şəxslərə, müəssisələrə və hökumətlərə müxtəlif maliyyə xidmətlərini göstərən banklar və kredit ittifaqları, mərkəzi banklar, eləcə də bank-kredit qanunvericiliyini əhatə edən böyük bir sistem olan bank sisteminin müasir bazar iqtisadiyyatı üçün böyük əhəmiyyəti vardır. Bank sistemində təqdim edilən bank xidmətləri əsasən əmanətlərin qəbulu, pul borclarının verilməsi, hesablarda əməliyyatların aparılması, kreditlər və plastik kartları kimi müxtəlif maliyyə məhsullarının təklif edilir, nəticədə bankçılıq pul axınını asanlaşdırmaqla və iqtisadi fəaliyyətə şərait yaratmaqla iqtisadiyyatda həlledici rol oynayır. Həmçinin bu da danılmaz faktordur ki, bank sistemi bazar münasibətləri inkişaf etdikcə inkişaf edir.

Müasir bazar iqtisadiyyatı şəraitində bank sistemi bir çox ölkədə olduğu kimi, ölkəmizdə də ən mühüm inkişaf edən maliyyə sistemindən biridir. Aparılan iqtisadi islahatlar nəticəsində ölkənin bank sistemi müasir standartlara uyğun olaraq bir qədər təkmilləşib və genişlənib. Hazırda kommersiya bankları iqtisadi və sosial sahədə geniş bank əməliyyatları həyata keçirməklə dəyərli xidmətlər göstərirlər. Bank sisteminə əlavə edilən yeni xidmət növləri bankların inkişaf sahələrini genişləndirir. Belə ki, banklarda pərakəndə bank xidmətləri sürətlə inkişaf edir və banklar geniş çeşiddə məhsullara malikdir. İnternet bankçılıq, mobil bankçılıq və avtomatik bankomatlar kimi ən müasir texnoloji vasitələr müştərilərə bank xidmətləri göstərir. Bu xidmətlər olmadan ümumiyyətlə iqtisadi inkişafdan danışmaq olmaz.

**Əsas mətn:**

Bank tənzimlənməsi və nəzarətinin nəzəri aspektlərinin inkişafı, ilk növbədə, bank sisteminin mahiyyətini və bankların iqtisadiyyatdakı rolunu müəyyənləşdirməyi əhatə edir. Digər iqtisadi tənzimləmə subyektləri ilə müqayisədə bu qədər ciddi bir obyekt olmaq üçün kifayət qədər əsaslar lazımdır. Bu əsaslar bank sisteminin iqtisadiyyatda oynadığı roldan ibarətdir. Banklar müasir

4. Tərbiz N. Əliyev, Bəxtiyar V. İsmayılov Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin təşkili: reallıqlar və innovativ inkişaf. Monoqrafiya. "Elm və Bilik". Bakı. 2018 – 224 s.

**Günay İmaməddin QASIMOVA**
Qərbi Kaspi Universiteti
E-mail: gunay.qasimova@wcu.edu.az

# RİYAZİYYAT TƏLİMİNDƏ AXTARIŞ METODLARINDAN İSTİFADƏNİN PEDAQOJİ-METODİK ƏSASLARI

**Summary**

The research, pedagogical and methodological methods in primary mathematics teaching the basics of search is written on. The first chapter of this research is the search methods, their classification, search methods are talking about traditional and modern approaches.
**Key words:** Search methods, modern approaches, applied methods, traditional training.

**Giriş:**

Riyaziyyat təlimində axtarış metodları, onların təsnifatı, axtarış metodlarına ənənəvi və müasir yanaşmalardan bəhs olunur. Axtarış metodlarının tətbiqi üsulları və ənənəvi təlim metodlarla birlikdə istifadəsinin təlimin keyfiyyətinə təsiri qeyd edilib. Təhsil sisteminin təkmilləşdirilməsi vəzifəsinin reallaşdırılması riyaziyyat kursunun təlimindən çox asılıdır. Riyaziyyatın öyrənilməsi tələbələrin düşüncəsini, məntiqi mühakiməsini, hafizəsini, diqqətini, iradəsini və hisslərini əhəmiyyətli dərəcədə inkişaf etdirir. Riyaziyyatın öyrənilməsi tələbələrdə təfəkkürün inkişafına güclü təsir göstərir. Müasir dövrdə riyaziyyatın tədrisində didaktik prinsiplərin tələblərinə əməl edilir, təlim metodları və vasitələrindən geniş istifadə olunur. Riyaziyyat fənninin tədrisi tələbələrin ümumi orta təhsil almasına xidmət göstərməklə, həm də onları tərbiyə etməlidir. Bu o deməkdir ki, riyaziyyat təlimi tələbələrin bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsini təmin etməklə, həm də ümumi mədəniyyət formalaşdırmalıdır. İlk növbədə çalışmaq lazımdır ki, tələbələr cəmiyyətin inkişafında riyaziyyatın rolunu qiymətləndirə bilsin. Riyaziyyat fənninin bugünkü yaşamımızda rolunu tələbələr dərk etsin.

**Əsas mətn:**

Bəzi gənclərə riyaziyyat fənninin mənimsənilməsi çətin olur. Onlar bəzi tərifləri qavramaq əvəzinə onun yolunu əzbərləməkdə görürlər. Riyazi təriflərin öyrənilməsində həm yaddaşın, həm də təfəkkürün yüklənməsi zərərlidir. Bir sıra anlayış, aksiom və teoremin dəqiq öyrənilməsi çox vacibdir. Onların dəqiq mənimsənilməsi zəruri bünövrə təşkil edir. Bütün anlayışın əzbər öyrənilməsini tələb etmək düzgün deyil. Riyazi tərifləri müstəqil surətdə gəncin öz sözləri ilə ifadə etməsi daha əhəmiyyətlidir. Müəllim bu cür mövzuları tədris edərkən daha səmərəli üsul və formanı əvvəlcədən düşünüb seçməlidir. Məşhur alim, pedaqoq Y.A.Komenskinin fikrincə desək, "bizim didaktikamızın alfa və omeqası elə yollar axtarıb tapmaqdan ibarət olsun ki, bunun sayəsində öyrədənlər az öyrətsinlər, öyrənənlər isə çox öyrənsinlər. Məktəblərdə səs-küy, başgicəlləndirilməsi, faydasız əmək az, əyləncə, sevinc və möhkəm müvəffəqiyyət isə çox olsun".[5,seh 29] Təlim prosesində şagirdyönümlülük şagirdi tədqiqatçı mövqeyinə çıxarır. O, müstəqil araşdırma, tədqiqat aparır. Bu heç də müəllimin rolunu minimuma endirməyə əsas vermir. Riyaziyyat müəllimi yol göstərən, istiqamət verən, əlavə sualların köməyi ilə şagirdləri fəallaşdıran, onların biliklərə yiyələnmələrinin təşkilatçısı rolunu oynayır. Riyaziyyat müəllimi öyrətmə anlarını düzgün planlaşdırır, şagirdlərə hazır biliklər, hazır faktlar verən kimi deyil, onlarda bilik əldə etməyə həvəs oyadan, öyrənənlərin fəal düşünmələrini təmin edən kimi tanınır. O, öyrənənlərin gələcək inkişafını təmin etməyə çalışır. Avropada belə şəraiti yaradan müəllimi fasilitator, əlverişli şərait yaradan hesab edirlər.

Təfəkkürün məntiqi əməliyyatı tədris materialının məzmununu dərk etməyə imkan verir. Tələbə problemi həll edərkən elm sahələri tərəfindən qəbul olunmuş nəticəyə gəlməli olurlar. Məhz belə elmi nətícə tələbələrin məhsuldar elmi təfəkkürünü fəallaşdırır, idrak fəallığını artırır. Bu prosesdə müəllim bir şeyi bilməlidir ki,bizim məktəblərimiz riyaziyyatçı, fizik hazırlamağa deyil,özünə sərbəst peşə seçə bilən və həyatın müəyyən sahəsində çalışmağa hazır olan cəmiyyətin yetkin üzvünü,vətəndaşı hazırlamağa xidmət edir.

Riyaziyyat təlimi prosesini intensivləşdirmək üçün, şagirdləri fəallaşdırmaq üçün müasir dövrdə məktəblərimizdə müəllimlərin bir xeyli qismi axtarış metodlarına üstünlük verir. Akademik L.V.Zankovun sözüylə desek "dərs şagirdlərin gücləriçatan ən yüksək çətinlik səviyyəsidə qurulmalıdır"[8,seh 18]. Bu, indiki dövrdə bizim fəaliyyətimizin əsasında duran ən mühüm prinsipdir. Həmin prosesi barışdırmaq yox, birləşdirmək lazımdır. Problemi həll etmək üçün şagirdlərin bilikləri azlıq etdiyindən onlar əvvəl öyrəndiklərinə müraciət edir, araşdırırlar. Beləliklə, problemli təlim üçün əlverişli şərait yaranır. Problemli təlim belə bir psixoloji qaydaya əsaslanır ki, şagirdlərin fikri-fəaliyyəti suallar və tapşırıqlarla stimullaşsın.

**Nəticə**

Riyaziyyat dərslərində tətbiq olunan axtarış metodları şagirdin biliyini,bacarığını və dünyagörüşünü maksimum dərəcədə inkişaf etdirir, müstəqil şəkildə bilik əldə etməsinə imkan yaradır, təlim-tərbiyə maraqlı və əhəmiyyətli fəaliyyət obyektinə çevirir. Şagirdlərin idraki qabiliyyəti , əsasən, təlim prosesində təşəkkül tapır və inkişaf edir.Riyaziyyat təlimi prosesi təkcə bilik mənimsətmək prosesi olmayıb eyni zamanda şagirdlərin müstəqil olaraq öz axtarışlarına əsaslanan bilik əldə etmə prosesidir. Dərsin bütün mərhələlərində təlimin inkişafetdirici xarakterinin nəzərə alınması, interaktiv və fəal təlim metodlarından istifadə, şagird axtarıcılığının səmərəli təşkili sahəsində müntəzəm və sistemli işin aparılması riyaziyyat təliminin əsas vəzifələrindəndir. Müasir riyaziyyyatın tədrisi metodikası inkişafının mühüm istiqamətlərindən biri-tədris prosesini təlim vasitələri ilə təhciz etmək, riyaziyyat dərslərində istifadə olunan axtarış metodlarını daha da təkmilləşdirmək, yeni metodlar işləyib hazırlamaqdan ibarətdir. XXI əsrdə fənlərin tədrisi prosesində müasir təlim metodlarından inkişafetdirici təlim metodu, interaktiv təlim metodları daha geniş vüsət almaqdadır.İbtidai siniflərdə tədris prosesində müxtəlif metodlardan, vasitələrdən, təlimin təşkili formalarından istifadə riyaziyyat təliminin səmərəliliyini artırır, keyfiyyətini yüksəldir. Təlim prosesində didaktik oyunlar və əyləncəli məsələlər şagirdlərin riyaziyyata marağını, yaradıcılığını inkişaf etdirir.Təlim prosesində didaktik prinsiplərin mühüm tələblərinə əməl edilməsi məktəblilərin daha yüksək və daha möhkəm nəticələrə nail olmalarına səbəb olur.Riyaziyyat dərslərində müxtəlif metodlardan istifadə edilməli, təlimin prinsiplərinə əməl edilməlidir. Təlim - tərbiyə sistemində tətbiq edilən texnologiyaların, innovasiyaların son məqsədi şagirdlərin intelektual və ümumi inkişafına təkan verməkdir. İntellektual potensialın inkişaf etdirilməsi və onun qorunub saxlanılması hər bir dövlətin öz qarşısında qoyduğu əsas məqsəddir. Bu da ölkənin gələcəyi haqqında qayğı deməkdir. Ölkənin sabahı onların bu gün məktəbdə hansı bilik və bacarıqlar əldə etmələrindən asılıdır.Azərbaycanın gələcəkdə daha da inkişaf edib, tərəqqi tapması üçün ona müstəqil düşünən, təhliletmə və ümumiləşdirmə aparmağı, düzgün nəticə çıxarmağı bacaran şəxslər lazımdır. Belə şəxsləri məktəbdə yeni təlim texnologiyalarından istifadə yolu ilə formalaşdırmaq mümkündür.

**ƏDƏBİYYAT SİYAHISI:**

1.S. S. Həmidov. I - V siniflərdə riyaziyyatın tədrisi metodikası ( xüsusi metodika). Bakı - ADPU . 2004.

1.S. A. Feyziyev, A. P. Bayramov. İbtidai riyaziyyat kursunun əsasları məsələ və misallarda, I hissə, Bakı, "Təfəkkür ", 2000

3.N. A. Sadıqov. Riyaziyyatın ibtidai kursunun elmi əsasları, " Maarif", 1991

4.M. Baharlı, A. Quliyev. " Dünya təhsil sistemi ". Bakı – 2002

5.İ. F. Əliyev. Riyazi məntiq, Bakı, 1982

6.H.Hüseynov, B.Səlimxanov. Fəal təlim və müasir riyaziyyat dərsi ,Bakı-2010

7.Ağayev., Y. Talıbov., A. Eminov., İ. İsayev. Pedaqogika. Bakı, " Adiloğlu ". 2006

8.Adıgözəlov. A. S, İsmayıl Əhmədov İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası Bakı 2001

9.Adıgözəlov. A. S, X. S. Həsənova Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası Bakı, ADPU, 2011

10.A.Həsənov, Ə. Ağayev. Pedaqogika." Nasir ". Bakı – 2007

11.http://en.calameo.com/read/0025540502f74f89dda73

12.http://respublica-news.az/index.php/elm-v-t-hsil/item/4359-taehsilin-keyfiyyaetini-shaertlaendiraen-aesas-amil-taehsil-alanlar-n-saghlaml-gh-d-r
13.http://www.muallim.edu.az/arxiv/2009/n4/xeberler.html
14.http://www.shekiami.az/attachments/article/286/%C4%B0btidai%20sinifd%C9%99%20nitq%20hiss%C9%99l%C9%99rinin%20t%C9%99drisi%20prosesind%C9%99%20interaktiv.pdf
15https://www.facebook.com/MentiqVe Riyaziyyatsual/posts/43474149332251591

**Fərid Vaqif HACIMİRZƏYEV**
Qərbi Kaspi Universiteti
E-mail: hacimirzyev2014@mail.ru

# AZƏRBAYCANDA BİZNESİN RƏQABƏT MÜHİTİNİN TƏNZİMLƏNMƏSİNDƏ DÖVLƏTİN ROLU

**Summary**
After the Republic of Azerbaijan gained its independence, the business environment began to be rebuilt. New laws and normative legal acts have been adopted in this field. Starting from the 1990s, this area began to be renewed. Special concessions for engaging in business activities have begun to be included in the legal framework. After gaining our independence, the state paid more attention in this field, promotion and encouragement of business activity began to have a special role.
**Key words:** Bussines, Competition, Government

**Giriş**

Dövlət strukturlarında biznes fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi yanaşma tələb olunmağa başlamışdır. Biznes fəaliyyətinin sərbəst və rahat aparılması üçün indi də dövlət tərəfindən islahatlar davam etməkdədir. Biznes fəaliyyəti ilə məşğul olanlara dövlət tərəfindən xüsusi güzəştli dəstək mexanizmi daşıyan kreditlərin verilməsi məhz dövlətimizin bu sahəyə dəstəyini ifadə edir.

**Əsas mətn:**

Dövlət bu sahədə yalnız qanunvericilik aktlarında nəzərdə tutulmuş müddəalara riayət olunmasına nəzarət funksiyasını saxlamaqdadır. Qanunvericilik aktları məhz Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və dünyada bu sahədə böyük təcrübəyə malik olan dövlətlərin təcrübələrinə əsasən qəbul edilmişdir.[1]

Biznes sahəsində dövlətin strateji istiqamətləri istisna olmaqla digər sahələrdə qiymət tənzimlənməsi bazarda tələb və təklifə əsasən formalaşmışdır. İnhisarın qarşısını alınması və haqsız rəqabətə yol verilməməsi üçün dövlət strukturları bu məsələdə öz nəzarət funksiyalarını həyata keçirir. Bu yaxınlarda yeni Rəqabət məcəlləsinin qəbul edilməsi məhz dövlət sektorunun bu sahədə rəqabət mühitinin formalaşdırılmasına xidmət edir. [2]

Rəqabət məcəlləsi məhz biznes subyektləri arasında sağlam rəqabətin aparılmasına xidmət edir. Biznes fəaliyyəti ilə məşğul olan sahibkarlar rahat dövlət orqanlarından məlumatların əldə edilməsi və müraciətlərin qəbul edilməsi üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin KOB evləri fəaliyyət göstərir. Bu evlərdə sahibkarlar "bir pəncərə" sistemi əsasında müxtəlif əməliyyatları rahat şəkildə həyata keçirməsi üçün şərait yaradılmışdır. [3]

**Nəticə**

Azərbaycan Respublikasında vətəndaşların sərbəst biznes fəaliyyətinin həyata keçirilməsi və respublikamıza investisiyaların cəlb edilməsi üçün şəraitin yaradılması. Dövlət bu sahədə qanunvericilik bazasının formalaşdırılması, biznes sahəsi ilə bağlı müraciətlərin sürətləndirilməsi üçün elektron sistemə keçir. Bazarlarda rəqabət mühitinin sağlamlaşdırılması, qiymətlərin tələb və təklif əsasında müəyyən olunması.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.
2. Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi (qanunlar, normativ sənədlər, analitik materiallar). Azərbaycan Respublikası Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi; "Səda" nəşriyyatı, Bakı, 2000, 273 s.
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq (qanunlar, normativ sənədlər, analitik materiallar). Azərbaycan Respublikası Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi; "Araz" nəşriyyatı, Bakı, 2000, 188 s.

**Həsən Elvır HƏSƏNOV**
Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti Bakı, Azərbaycan
E-mail: Hesen_h99@mail.ru

# THE IMPACT OF ARTIFICAL INTELLEGENCE ON MANAGEMENT AND ECONOMICS

**Summary**

Personalized consumer experiences, process optimization, and data-driven decision-making are how artificial intelligence (AI) is revolutionizing economics and management. AI-driven supply chain management improves efficiency and resilience, while predictive analytics helps businesses to foresee market changes and reduce risks. Tools for workforce optimization increase efficiency and streamline talent management. When combined, these developments powered by AI enable companies to lead innovation, make well-informed decisions, and promote economic expansion in the digital age.

**Key words:** Artificial intelligence (AI), Data analysis, Supply chain management, Digital age, Predictive analytics

**Introduction:**

Artificial intelligence (AI) is a game-changing force in business and economics today, redefining conventional methods and approaches. Artificial Intelligence (AI) has become an indispensable tool in modern management and economic decision-making due to its unmatched capacity to evaluate large volumes of data. This essay examines the various ways that artificial intelligence (AI) is influencing different fields, focusing on how AI promotes productivity, creativity, and strategic vision. Artificial Intelligence (AI) is influencing every facet of organizational operations, from data-driven decision-making to tailored customer experiences. In order to successfully navigate the challenges of the digital age and open up new opportunities for growth and success, it is imperative to comprehend the deep implications of AI in management and economics.

**Main part**

Data-Driven Decision-Making: One of the primary contributions of AI to management and economics lies in its ability to facilitate data-driven decision-making. By harnessing advanced algorithms, AI empowers organizations to analyze vast amounts of data rapidly and accurately. [3] This capability enables managers to derive actionable insights, optimize processes, and allocate resources effectively. Consequently, businesses can make informed decisions that align with strategic objectives, leading to improved operational efficiency and economic outcomes. Process optimization AI-driven automation revolutionizes traditional business processes by streamlining workflows and eliminating inefficiencies. [4] Through machine learning algorithms and robotic process automation (RPA), organizations can automate repetitive tasks, enhance productivity, and reduce operational costs. [2] This optimization not only boosts efficiency but also frees up human capital to focus on higher-value activities, fostering innovation and economic growth. Personalized Customer Experiences:In the digital age, delivering personalized customer experiences is paramount for businesses seeking to gain a competitive edge. AI enables organizations to analyze vast troves of

customer data and leverage insights to tailor products, services, and marketing strategies to individual preferences. By offering personalized recommendations, advertisements, and support, businesses can enhance customer satisfaction, loyalty, and ultimately, economic performance. [5] Market analysis and forecasting require fast and accurate information to make strategic decisions in competitive markets. AI-powered market analysis solutions process massive volumes of data to deliver meaningful insights into market trends, rival activity, and customer sentiment. Businesses can use this knowledge to change their strategy, capitalize on emerging opportunities, and manage risks, resulting in economic development and competitiveness. [6] Supply chain management efficient supply chain management is critical for organizations to meet customer demands, minimize costs, and maintain operational continuity. [4] AI plays a pivotal role in optimizing supply chain operations by predicting demand, optimizing inventory levels, and identifying potential disruptions. [1] By enhancing efficiency and resilience, AI-driven supply chain management contributes to cost reduction, improved resource utilization, and economic stability. Workforce Efficiency Predictive analytics, chatbots, and virtual assistants are examples of AI technologies that are revolutionizing workforce management. Artificial intelligence (AI) increases worker productivity and efficiency by automating repetitive operations, matching abilities to assignments, and forecasting staffing requirements. AI-driven talent management solutions also make hiring, training, and performance reviews easier. This guarantees that businesses have the personnel on hand to foster innovation and financial success

**Conclusion**

In conclusion, the incorporation of artificial intelligence (AI) into management and economics has heralded a new era of efficiency, creativity, and strategic agility. AI's ability to analyze massive volumes of data has transformed decision-making processes, allowing firms to make more informed decisions that promote growth and competitiveness. From streamlining supply chains and projecting market trends to providing tailored consumer experiences, artificial intelligence has proven vital in navigating the intricacies of the digital age. Furthermore, AI-powered workforce management systems have accelerated talent acquisition and development, increasing organizational productivity and resilience. As organizations continue to leverage the capabilities of AI technologies, they must prioritize ethical issues and human oversight to ensure responsible deployment and reduce possible hazards. Finally, AI helps firms to unlock new opportunities and adapt to influence market dynamics and affect the future of management and economics. By embracing AI as a strategic enabler, organizations may position themselves for long-term success in a dynamic and competitive global landscape.

## REFERENCE LİST:

1. Shoshana Zuboff, "The Age of Surveillance Capitalism: The Fight for a Human Future at the New Frontier of Power", PublicAffairs, 2019
2. Kai-Fu Lee, "AI Superpowers: China, Silicon Valley, and the New World Order", Houghton Mifflin Harcourt, 2018
3. Tom Taulli, "AI and the Future of Work: How New Technologies Are Transforming Jobs", Apress, 2020
4. Harvard Business Review (HBR) - HBR offers a plethora of articles and case studies on AI's influence on management and economics. (https://hbr.org/)
5. World Economic Forum (WEF) - WEF's website features articles and reports on the economic implications of AI adoption and its role in shaping global business landscapes. (https://www.weforum.org/)
6. McKinsey & Company Insights - McKinsey provides in-depth analyses and reports on AI's impact on various industries, including management and economics. (https://www.mckinsey.com/insights)

**Fatimə Elçin HEYDƏROVA**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: Heyderove933@gmail.com

# MÜALİCƏ-SAĞLAMLIQ TURİZM SƏNAYESİ

**Summary**

Medical tourism, a notable facet of globalization, involves individuals traveling abroad for medical care due to factors like high costs or limited access to treatments in their home countries. While there are perceived benefits such as cost savings and shorter wait times, there are also risks to consider. Although some destination countries boast accredited facilities, the lack of benefits for local citizens raises equity concerns. Improved data collection and studies are necessary to understand the true extent and health impacts of this phenomenon.

**Keywords**: medical tourism; global health equity; cross-border health care

**Giriş**

Sağlamlıq turizmi və ya tibbi səyahət kimi də tanınan tibbi turizm, insanların aşağı xərclər, daha qısa gözləmə müddətləri və ya öz ölkələrində mövcud olmayan xidmətlərə çıxış kimi amillərə görə sərhədləri aşaraq müalicə axtardıqları qlobal səhiyyədə artan tendensiyadır. Bu təcrübə tez-tez xəstələrə yeni mədəni şəraitə uyğunlaşmağa və prosedurlardan əvvəl və sonra məşğul olmağa kömək etmək üçün tibbi müalicəni turist fəaliyyətləri ilə birləşdirməyi əhatə edir.

**Əsas mətn**

Tənqidçilər xəstələrin təhlükəsizliyi, reproduktiv və ya transplantasiya turizmi kimi müəyyən qayğı növləri ilə bağlı etik məsələlər və yaxşı təchiz olunmuş dövlət sistemləri hesabına inkişaf etməkdə olan ölkələrdə özəl səhiyyə bazarlarının genişlənməsi ilə bağlı narahatlıqlarını ifadə edirlər. [4,s 223]. Bununla belə, xaricə müalicə üçün müraciət edən xəstələrin, xüsusən daha varlı bölgələrdən daha az inkişaf etmiş bölgələrə doğru meylinin artacağına dair konsensus var.

Müalicə-sağlamlıq səyahəti yeni bir konsepsiya olmasa da, qlobal transsərhəd tibbi xidmət sənayesinin yüksəlişi sürətli olmuşdur. Bu artım xəstələri səhiyyə müəssisələri ilə birləşdirən çoxsaylı internet əsaslı platformalar tərəfindən dəstəklənir. Bu veb-saytlar istifadəçilərə xidmətləri planlaşdırmaq, mütəxəssislərlə ünsiyyət qurmaq, səyahət və yaşayış yerləri sifariş etmək və hətta turist fəaliyyətlərini planlaşdırmaq imkanı verir. Bu platformaların əsas diqqəti xüsusilə aşağı və orta gəlirli ölkələrdə xərclərə qənaət etməkdir. Əhəmiyyətli xərc üstünlüklərinə görə ilkin olaraq Asiya ölkələrində məşhur olsa da, bir çox Cənubi Amerika ölkələri indi ingilisdilli, ilk növbədə amerikalı istehlakçılara cərrahi, kosmetik və reproduktiv xidmətləri fəal şəkildə təbliğ edirlər [1,s 111].

Müalicə-sağlamlıq turizm agentlikləri yüksək qayğı standartını vurğulayır, tez-tez tibb müəssisələrinin qərb ixtisaslarını və təlimlərini, habelə Joint Commission International (JCI) kimi orqanlar tərəfindən beynəlxalq akkreditasiyasını vurğulayır.[3]. Bir çoxu 2000-ci illərin ortalarında akkreditə olunmuş müxtəlif qitələrdə 123-dən çox akkreditə olunmuş müəssisə ilə bu, tibbi turizmin artan cəlbediciliyini əks etdirir. Bundan əlavə, bir neçə beynəlxalq tibb müəssisəsi nüfuzunu və potensial xəstələrə siqnal keyfiyyətini artırmaq üçün tanınmış qərb tədris xəstəxanaları ilə əməkdaşlıq edir.

**Nəticə**:

Müalicə sağlamlıq turizmi, bir ölkədəki sağlamlıq infrastrukturunun, tibbi xidmətlərin və təbii gözəlliklərin turistlər üçün təqdim edilməsi ilə bağlıdır. Bu sektörün inkişafı çoxsaylı cəhətləri ilə dövlətlərə müsbət təsir edir.

- ✓ Ekonomik Büyümə: Sağlamlıq turizmi, turistlərin mənzillərə, restoranlara, əyləncə yerlərinə və digər xidmətlərə pul xərcləməsi ilə yerli iqtisadiyyata dəstək verir. Bu, iş yaradır, turizm sektoru üzərində işləmək üçün yeni fərqli sahələr təşkil edir və dövlət gəlirlərini artırır.
- ✓ Sağlamlıq İnfrastrukturunun İnkişafı: Sağlamlıq turizmi üçün yüksək keyfiyyətli xidmətlər tələb olunur. Bu, yerli sağlamlıq infrastrukturunun, məruz qalanların keyfiyyətini artırmaq üçün yatırımlar tələb edir.

- ✓ Regionun Reputasiyasının Yaxşılaşması: Sağlamlıq turizmi, ölkənin və ya bölgənin sağlamlıq xidmətləri, tibbi innovasiyalar və yaxşılaşan tibbi şəraitləri ilə tanınmasına kömək edir. Bu, ölkənin beynəlxalq arenada reputasiyasını artırır və başqa sahələrdə də işləyə bilər.
- ✓ Mənzil Dəyərlərinin Artması: Sağlamlıq turizmi, turistlərin genişlənmiş mənzil və otel keyfiyyətini tələb etməsi ilə əlaqələndirilir. Bu da yerli əmlak bazarının dəyərini artırır.
- ✓ Yerli Mədəniyyət və Mənfəət: Turistlər səyahətlərinin bir hissəsi olaraq yerli mədəniyyətə, mədəni tərəflərə və təbii cəhətlərə maraqlanırlar. Bu, yerli mədəniyyətin qorunmasına və inkişafına dəstək verir.
- ✓ Tibbi İnnovasiyaların Təşviki: Sağlamlıq turizmi, təcrübələrin, tədqiqatların və tibbi innovasiyaların tətbiqi üçün bir sahə olaraq fəaliyyət göstərə bilər. Turistlərin gəlişi, tibbi inovasiyaların inkişafına dəstək verə bilər və bu da yerli və beynəlxalq sağlamlıq sektoru üçün faydalı olar.

Dolayısı ilə, müalicə sağlamlıq turizmi dövlətlər üçün bir çox müsbət təsirlərə səbəb ola bilər. Bununla birlikdə, bu təşkilatın inkişafında infrastruktur, təhlükəsizlik və keyfiyyət standartlarına səmərəli investisiyalar tələb olunur.

**ƏBƏBIYYAT SIYAHISI:**

1. Smith, R.D. (2004) Foreign direct investment and trade in health services: A review of the literature. Social Science & Medicine
2. Cortez, N. (2008) Patients without borders: The emerging global market for patients and the evolution of modern health care. Indiana Law Journal
3. Reed, C.M. (2008) Medical tourism. Medical Clinics of North America
4. Turner, L. (2007b) Medical tourism: Family medicine and international health-related travel. Canadian Family Physician
5.Deloitte Center for Health Solutions. (2008) Medical tourism

**Cavid Dilqam HÜSEYNOV**
Bakı Dövlət Universiteti
Qərbi Kaspi Universiteti
E-mail: chuseynov052@gmail.com

## DÖVLƏT MALİYYƏ NƏZARƏTİ VƏ ONUN BÜDCƏ VƏSAİTLƏRİNİN SƏMƏRƏLİ İSTİFADƏSİNDƏ ROLU

**Summary**
The dissertation is dedicated to the study of the issues of improving budget and financial control in modern conditions. Budget-financial control, being a part of state financial control, reflects the activity of competent state bodies to verify the legality, appropriateness and efficiency of measures implemented in the process of formation, distribution and use of centralized state funds. The first chapter of the study is devoted to the theoretical foundations of the formation of budget-financial control. The second chapter provides an analysis and assessment of the current state of state financial control in Azerbaijan. The activity of state financial control bodies in Azerbaijan was investigated.The third chapter is devoted to the improvement of state financial control and increasing its efficiency. The concept of the audit of the efficiency of the use of public funds is given.
**Key words:** financial control, budget system, state budget, audit, efficiency audit.

**Giriş:**

Dövlət maliyyə nəzarətinin əsas məqsədi dövlət resurslarından istifadənin səmərəliliyini və məqsədəuyğunluğunu artırmaqdır. Mövcud, daim dəyişən iqtisadi şəraitdə dövlət maliyyə nəzarəti problemlərinin həllində elmi yanaşmanın rolu ön plana çıxır. Dövlət maliyyə nəzarətinin təşkili

strukturunun yenidən nəzərdən keçirilməsinə ehtiyac duyulur. [1] Nəzarətin elmi cəhətdən əsaslandırılmış yeni məqsəd və vəzifələrini, dövlət sektoru subyektlərinin fəaliyyətinin qiymətləndirilməsinin yol və vasitələrinin işlənib hazırlanması, dövlət maliyyə nəzarəti və auditinin vahid metodoloji əsaslarının işlənib hazırlanması, Azərbaycanda onların islahat yolları, və onların həyata keçirilməsi üçün təkmilləşdirilmiş formalara keçidini inkişaf etdirmək zəruridir.Azərbaycanda bazar iqtisadiyyatının əsaslarının formalaşmasının xüsusiyyətləri ilə əlaqədar müvafiq dövlət və bələdiyyə orqanları tərəfindən həyata keçirilən nəzarət funksiyaları da müvafiq olaraq dəyişir. Hal hazırda dövlət resurslarına nəzarət sisteminin bütün elementləri uğurla fəaliyyət göstərir. Ölkənin iqtisadi fəaliyyətinin son onilliklərini nəzərdən keçirərək əminliklə deyə bilərik ki, dövlətin iqtisadi potensialı lazımi səviyyədə olsa belə, qarşıya qoyulan məqsədlərə nail olmaq həmişə mümkün olmur. Buna səbəb dövlət maliyyə nəzarəti sistemindəki çatışmazlıqlardır. İqtisadiyyatın bazar iqtisadiyyatına çevrilməsi dövlət vəsaitlərindən istifadənin qanunauyğunluğuna və rasionallığına riayət olunmasına dövlət maliyyə nəzarətinin əhəmiyyətini artırmışdır.Dövlət maliyyə nəzarəti maliyyə mexanizminin ən mühüm rıçaqıdır və dövlətin maliyyə siyasətinin həyata keçirilməsində əsas vasitələrdən biridir.Dövlət maliyyə nəzarətinin rolu maliyyə strategiyasının və taktikasının uğurla həyata keçirilməsinə, habelə dövlət maliyyə resurslarının məqsədəuyğun və səmərəli formalaşdırılmasına, bölüşdürülməsinə və istifadəsinə dəstək verməkdən ibarətdir [5].

**Əsas mətn**

İşdə dövlətin məqsəd və vəzifələrini həyata keçirmək üçün zəruri olan dövlət pul fondlarının formalaşmasına, bölüşdürülməsinə və istifadəsinə yönəldilmiş dövlət maliyyə nəzarəti sistemi, habelə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Hesablama Palatasının, Auditorlar Palatasının və dövlət vəsaitlərinin istifadəsinə və idarə olunmasına dair nəzarəti həyata keçirən digər dövlət orqanlarının fəaliyyəti araşdırılır.Dissertasiya işində dövlət maliyyə nəzarətinin maliyyə-iqtisadi aspektləri, xüsusilə onun nəzəri əsasları, beynəlxalq səviyyədə təşkili prinsipləri və milli təhlükəsizlik sistemində rolu, müasir forma kimi fəaliyyət auditi, eləcə də Azərbaycan Respublikasının dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsinin metodiki və təşkilati aspektləri tədqiq olunur.Dissertasiya tədqiqatının məqsədi dövlət maliyyə nəzarətinin nəzəri məsələlərinin və praktiki problemlərinin hərtərəfli nəzərdən keçirilməsidir. Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində effektiv nəzarət sisteminin tətbiqini, auditin səmərəliliyinin artırılmasına yönəlmiş metodların işlənib hazırlanmasını, habelə dövlət resurslarının idarə edilməsində maliyyə nəzarətinin təkmilləşdirilməsi üzrə tövsiyələrin formalaşdırılmasını nəzərdən keçirmək zəruridir. [3] Tədqiqatın qarşısına qoyulan məqsəd aşağıdakı problemlərin həllinin zərurətini müəyyən edir:

- Dövlət maliyyə nəzarətinin mahiyyətini və əhəmiyyətini müəyyən etmək;
- Dövlət maliyyə nəzarətinin formalarını, növlərini və üsullarını göstərmək;
- Dövlət nəzarəti və onun ölkəmizdə tətbiqi sahəsində xarici təcrübəni təhlil etmək;

Azərbaycanda dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin təhlilini aparmaq;

Dövlət maliyyə nəzarətini qiymətləndirmək;

Dövlət maliyyə nəzarəti sistemində hesabatların təhlilini aparmaq

Dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin və maliyyə nəzarətinin müasir formalarının auditini nəzərdən keçirmək;

Dövlət maliyyə nəzarəti sistemində dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin auditinin inkişafı sahəsində mövcud problemləri aşkar etmək.

**Nəticə:**

Dissertasiya tədqiqatı tarixi metod, müqayisəli metod, iqtisadi təhlil kimi tədqiqat metodlarından istifadə etməklə aparılmışdır. Alim - iqtisadçıların və dövlət maliyyə nəzarətinin aparıcı elmi işçilərinin əsərləri, dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin nəzəri və praktiki aspektləri, habelə dövlət maliyyə nəzarətinin həyata keçirilməsini tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktları öyrənilmişdir. Dissertasiya tədqiqatının elmi yeniliyi dövlət maliyyə nəzarəti sisteminin fəaliyyətinin səmərəliliyini və effektivliyini artırmaq üçün metodiki və praktiki tövsiyələrin əsaslandırılmasındadır. Tədqiqatın nəticələri maliyyə nəzarətinin təşkili prinsipləri, onun

effektivliyinin qiymətləndirilməsi meyarları və cəmiyyətin sosial-iqtisadi inkişafının keyfiyyətinə təsir dərəcəsi haqqında mövcud elmi anlayışı dərinləşdirməyə imkan verir. Dissertasiyanın yazılması nəticəsində işin məqsədinə nail olunmuşdur. Azərbaycanda maliyyə nəzarəti və audit mexanizmlərinin rolu və əhəmiyyəti müəyyən edilmiş, tənzimləyici orqanların hüquq və səlahiyyətləri öyrənilmiş, Azərbaycanda maliyyə nəzarətini tənzimləyən orqanların fəaliyyətinin səmərəliliyinin artırılması üçün tədbirlər hazırlanmış və təmin edilmişdir. Dissertasiyanın elmi, nəzəri və praktiki nəticələri dövlət maliyyə nəzarəti sistemini təkmilləşdirməyə imkan verir və tədris prosesində də istifadə oluna bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Xankişiyev, B.A. Maliyyə nəzarəti: Dərs vəsaiti / Bəybala Xankişiyev; elmi red. A.M.Kərimov. – Bakı: Turan, 2002. – 94 s.
2. Bağırov, D.A. Vergi nəzarəti: ali məktəb tələbələri üçün dərslik / D.A.Bağırov; elmi red. Y.A.Kəlbiyev. – Bakı: [Təfəkkür Universiteti], 2006. – 411, [1] s.
3. Rzayeva, E.X. Sosial sahələrdə strateji dövlət proqramlarının maliyyə təminatı, uçotu və nəzarəti işinin təkmilləşdirilməsi: iqtisad elmləri [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 5303.01 /ElinaRzayeva. – Gəncə, 2021. – 22s.
4. Борисова Н.М. Контроль и ревизия учебное пособие / Н.М.Борисова, Г.В.Цветова. – Хабаровск: Дальневосточный институт управления – филиал РАНХиГС. 2017. – 117 с.
5. Брюммерхофф, Д. Теория государственных финансов / Пер. 7-го нем. издания. Под ред. А. Л. Кудрина, В. Д. Дзгоева. — Владикавказ: Пионер-Пресс, 2002. – 458 с.
6. Gülməmmədov, V. Büdcə vəsaitləri ölkənin inkişafına və xalqın rifahına xidmət etməlidir: Vüqar Gülməmmədov: "Dövlət başçısı tərəfindən verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı maliyyə nəzarəti tədbirlərinin gücləndirilməsi fəaliyyətimizin əsas istiqamətidir" /VüqarGülməmmədov; R.Məmmədov//Azərbaycan. – 2019. – 2 aprel. –s.5

**Fərhan Rövnəq MƏMMƏDOV**
Qərbi Kaspi Universiteti
E-mail: farhan.mammadov@outlook.com

## TURİZM DESTİNASİYALARININ İNFRASUTRUKTURUN FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİRİ

### Summary

The formalization of the infrastructure plays an important role in making the arrival and departure of tourists to tourist destinations efficient and uncertain. Good roads, airports, railways and seaports make it quick and easy for tourists to get to and from their destination. Along with these, good transport infrastructure helps tourists to move around comfortably. When the infrastructure of tourism destinations is formalized, it is also possible to take some measures to increase the quality of recreation provision and ensure the beauty of travel landscapes. These issues include the necessary financial and technical support to ensure the quality of restaurants, hotels, shops and other tourism services. Also, when the tourism infrastructure is formalized, it ensures the development of the areas around these tourist destinations. It supports the development of the local economy and culture, creates new jobs and improves the quality of life for those living in the surrounding areas. For all these reasons, the formalization and development of the infrastructure of tourism destinations is an important step to increase the tourism potential of a region, strengthen its economy and improve the quality of life of the local population. It helps to increase the competitiveness of a region's tourism industry, create new jobs and delight tourists.

**Key words:** Tourism, Region, Places, Trade, Region

**Giriş**

Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi və inkişafı, bir regionun turizm sənayesinin müvəffəqiyyəti üçün əsas bir amildir. Bu, yerli və xarici səyahətçilərin çəkici məkanlara rahat və səmərəli bir şəkildə gəlməsinə imkan verir və turizm təkliflərinin inkişafına imkan yaradır. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, bir regionun turizm potensialını artırmaq və yerli iqtisadiyyatın inkişafını təmin etmək üçün əhəmiyyətli bir addımdır. İnfrastrukturun formalizə edilməsi, əvvəlcədən turistlərin və yerli sakinlərin rahatlığını və təhlükəsizliyini təmin etmək üçün tədbirlər görmək deməkdir. Yaxşı yollar, hava limanları və dəniz limanları, turistlərin məkanlara gəliş və getməsini asanlaşdırır və turizm sənayesinin inkişafına imkan verir.

**Əsas mətn**

Turizm məkanlarının infrastrukturu formalizə olunduqda, bu məkanlarda turistlərin istirahət təminatı da daha yaxşılaşır. Keyfiyyətli restoranlar, otellər, mağazalar və digər turizm xidmətləri, turistlərin məkanı daha rahat şəkildə təcrübə etməsinə imkan verir. Bununla birlikdə, turizm infrastrukturu formalizə olunduqda, ətraf ərazilərin də inkişafı dəstəklənir. Bu, yerli iqtisadiyyatın inkişafına və iş sahələrinin yaradılmasına kömək edir. Turizmə bağlı olan sahələrdən kənarda, ətraf ərazilərdə yaşayanların yaşayış keyfiyyəti də artır, onlara yeni iş imkanları və təcrübələr təklif edir. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, bir regionun turizm sənayesinin konkurentliyini artırır və yerli iqtisadiyyatı gücləndirir. Bu, turizm sənayesinin inkişafına dəstək verir, yeni turizm məkanlarının yaradılmasına imkan verir və turistləri memnun etmək üçün tələb olunan şəraitin yaradılmasına kömək edir. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi və inkişafı, bir regionun turizm sənayesinin gələcəyini şekillləndirən əsas amillərdən biridir. Bu proses, bir regionun turizm potensialını artırmaq, iqtisadiyyatını gücləndirmək və mədəniyyətini zənginləşdirmək üçün əhəmiyyətli bir addımdır. İnfrastrukturun formalizə edilməsi, bir regionun turizm məkanlarının gələcəkdəki inkişafı üçün əsaslı bir zəmin yaratır. Yaxşı yol və nəqliyyat şəbəkəsi, hava limanları, dəmir yolları və dəniz limanları, turistlərin bu məkanlara səmərəli şəkildə gəlməsinə imkan verir. Bu da turizm sənayesinin inkişafını və turist cəlb etməsini dəstəkləyir. Turizm məkanlarının infrastrukturu formalizə edildikdə, istirahət təminatı və xidmətlər də ciddi şəkildə yaxşılaşır. Keyfiyyətli restoranlar, otellər, alış-veriş mərkəzləri və əyləncə mərkəzləri, turistlərin məkanı daha da məmnunluqla təcrübə etməsini təmin edir. Bununla birlikdə, turizm infrastrukturu formalizə edilməsi, yerli iqtisadiyyatın inkişafına da təsir edir. Yeni turizm məkanlarının yaradılması və mövcud olanların genişləndirilməsi, yerli iş yaradılmasına və ticarət imkanlarının artmasına səbəb olur.Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, bir regionun turizm potensialını artırır, iqtisadiyyatını gücləndirir və yerli əhali üçün yeni imkanlar yaradır. Bu, bir regionun turizm sənayesinin rekreativ mərkəzləri olaraq inkişafına dəstək verir və bütün tərəflər üçün mənfi olmayan bir mühit yaradır. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, bir regionun turizm potensialını artırmaq və iqtisadiyyatını gücləndirmək üçün strateji bir mərhələdir. İnfrastrukturun formalizə edilməsi, turistlərin rahatlığını təmin etməklə yanaşı, turizm məkanlarının keyfiyyətini də artırır. Bu formalizə prosesi, yolların, hava limanlarının, dəmir yolu və dəniz limanlarının təkmilləşdirilməsi ilə başlayır. Bu, turistlərin məkanlara gəliş və gediləcək yerlərinə daha sürətli və asan bir şəkildə çatmasını təmin edir. Həmçinin, turizm infrastrukturu, məkanlarda istirahət və keyfiyyətli xidmətlərin təmin edilməsini də əhatə edir. Bu, restoranlar, otellər, mağazalar və turistlərə məkanın mədəniyyət və əyləncə imkanlarının artırılmasını dəstəkləyir. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, yerli iqtisadiyyatın inkişafına da təkan verir. Yeni turizm obyektlərinin inşası və mövcud olanların modernizasiyası, iş yaradılması və yerli ticarət imkanlarının artmasına kömək edir. Bu, ətraf ərazilərdə yaşayan insanların məkanın turizm potensialından faydalanması üçün də imkanlar yaradır. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, bir regionun turizm sənayesinin inkişafını dəstəkləyir və yerli əhali üçün yeni imkanlar yaradır. Bu, bir regionun turizm sənayesinin müasir, sürətli inkişafına imkan verir və bölgənin mədəniyyətini və tədqiqat potensialını təşviq edir.

**Nəticə**

Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi və inkişafı, bir regionun turizm potensialını artırmaq, iqtisadiyyatını gücləndirmək və mədəniyyətini zənginləşdirmək üçün əhəmiyyətli bir mərhələdir. Bu proses, yolların, hava limanlarının, dəmir yollarının və dəniz limanlarının təkmilləşdirilməsi ilə başlayır və turizm məkanlarının keyfiyyətli və çəkici olmasını təmin edir. İnfrastrukturun formalizə edilməsi, turistlərin rahatlığına və təhlükəsizliyinə diqqət yetirərkən, məkanlarda sunulan xidmətlərin və imkanların keyfiyyətini də artırır. Bu, restoranlar, otellər, mağazalar və turizmə yönlənmiş digər sahələrdə məsləhətli inkişaf və genişlənmə ilə nəticələnir.Həmçinin, turizm infrastrukturu formalizə olunduqda, yerli iqtisadiyyatın da inkişafına dəstək olunur. Yeni turizm məkanlarının yaradılması, yerli iş sahələrinin inkişafı və ticarət imkanlarının artması ilə nəticələn. Turizm destinasiyalarının infrastrukturunun formalizə edilməsi, bir regionun turizm sənayesinin sürətli inkişafını dəstəkləyir və bölgədə yaşayan əhaliyə yeni imkanlar yaradır. Bu proses, mədəniyyəti zənginləşdirir, iqtisadiyyatı canlandırır və turizm məkanlarının sürətli və müvəffəqiyyətli inkişafını təmin edir. Bu sürətli inkişaf, turistlərin məkanlara daha çox cəlb olunmasına və turizm sənayesinin rekord mənfəətlərinə nail olmasına imkan verir. Bunun nəticəsi olaraq, regionun tanınması artır, turistlərin vəsaiti artır və yerli iqtisadiyyat güclənir. Lakin, bu infrastruktur inkişafı da bəzi çətinliklərlə gəlir. Məsələn, artan turist həcmi, mühit təsirlərinin artmasına və ətraf məkanların ətrafındakı yerli məsələlərin artmasına səbəb ola bilər. Bu səbəbdən, sürətli inkişaf strategiyası hazırlanmalıdır ki, bu, turizm sənayesinin və əhalinin sürətli inkişafı ilə əlaqəli olan müxtəlif tələbləri nəzərə almalıdır.

**Elşən Gülməmməd ALCANSOY**
Qərbi Kaspi Universiteti
E-mail: elshan.alcansoy@gmail.com

## QLOBAL ÇAĞIRIŞLAR FONUNDA BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN İNKİŞAFININ İNSAN RESURSLARININ İDARƏ OLUNMASINA TƏSİRİ

**Summary**

The article explores the profound impact of globalization and international relations on the management of human resources (HR). It highlights how the evolving global landscape necessitates organizations to adapt their HR policies and practices to effectively attract, retain, and develop talent. By embracing diversity, fostering cross-cultural collaboration, and aligning HR strategies with international trends, organizations can navigate the complexities of the global environment. The article emphasizes the importance of a strategic approach to HR management informed by international relations, enabling businesses to thrive while addressing the diverse needs of their workforce.

**Key words:** "Globalization", "International Relations", "Human Resource Management", "Talent Acquisition", "Workforce Diversity"

**Giriş:**

Qloballaşmanın beynəlxalq münasibətlərə əsas təsirlərindən biri ölkələr arasında ünsiyyət və qarşılıqlı fəaliyyət üçün ənənəvi maneələrin aşınmasıdır. İnternet və sosial media platformalarının yayılması fərdlərə və təşkilatlara siyasi və mədəni ayrılıqları aşaraq, coğrafi sərhədləri ani şəkildə birləşdirməyə və əməkdaşlıq etməyə imkan verdi. Bu, qloballaşan ictimai sferanın yaranmasına gətirib çıxarıb ki, burada iqlim dəyişikliyi, insan hüquqları və iqtisadi inkişaf kimi ümumi maraq doğuran məsələlərin qlobal miqyasda müzakirə olunduması və uyğunlaşdırılmış həllini tələb edir. Eyni zaman da, burada beynəlxalq bazarlar və iştirakçılıq, iqtisadi və ticari əlaqələr, qarşılıqlı maraqlardan yaranan şəbəkələşmə özünü qabarıq şəkildə büruzə verir.

**Əsas mətn**

İqtisadi baxımdan qloballaşma milli iqtisadiyyatların vahid qlobal bazara inteqrasiyasına səbəb olmuşdur. Azad ticarət sazişləri, transmilli korporasiyalar və qlobal təchizat zəncirləri malların, kapitalın və işçi qüvvəsinin sərhədlər arasında hərəkətini asanlaşdıraraq, iqtisadi artım və inkişaf üçün yeni imkanlar yaradıb. Həmçinin, qloballaşma həm də ölkələr arasında və ölkə daxilində iqtisadi bərabərsizlikləri gücləndirib, rəqabət mühitini genişləndirib. Bu da öz növbəsində iş yerlərində ciddi dəyişikliklərə, təkamül proseslərinin sürətlənməsinə, əmək haqqı və iş qrafiki məsələlərinə yeni baxışın yaranmasına səbəb olub.

Siyasi baxımdan qloballaşma dövlət suverenliyi ilə bağlı, Birləşmiş Millətlər Təşkilatının da quruluşunun məntiqi nəzəriyyəsi olan ənənəvi Vestfal anlayışına meydan oxudu və beynəlxalq siyasətin dinamikasını yenidən formalaşdırdı. Terrorizm, yoluxucu xəstəliklər və kibermüharibə kimi transmilli problemlər beynəlxalq ictimaiyyətdən milli sərhədləri və yurisdiksiyaları aşan koordinasiya edə biləcək çevik reaksiyalar tələb edir. Eyni zamanda, qloballaşma qlobal idarəçilik və siyasətin formalaşmasına əhəmiyyətli təsir göstərən transmilli korporasiyalar, qeyri-hökumət təşkilatları və transmilli vəkillik şəbəkələri kimi qeyri-dövlət subyektlərinin yüksəlişinə təkan verib.

Qloballaşma, geosiyasi dəyişikliklər və texnoloji tərəqqi ilə formalaşan getdikcə bir-birinə bağlı dünyada beynəlxalq münasibətlərin dinamikası təşkilatların insan kapitalını necə idarə etməsinə dərin təsir göstərir. Bu qarşılıqlı əlaqəni araşdırmaqla, məqalə qloballaşan mühitlərdə naviqasiya zamanı HR menecerlərinin üzləşdiyi mürəkkəb problemlərə və imkanlara işıq salmaq məqsədi daşıyır.

Azərbaycanda maliyyə nəzarətini həyata keçirən ayrı-ayrı qurumların strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə neqativ halların minimuma endirilməsi, o cümlədən maliyyə nəzarətinin ən mühüm aspektlərinin, mükəmməl və müasir nəzarət sisteminin yaradılması qarşıda duran vəzifələrdən biridir desək, yanılmarıq. Müasir dünya təcrübəsinin istər audit nəzarəti çərçivəsində, istər özəl maliyyə nəzarəti kimi çıxış edən, istərsə də dövlət maliyyə nəzarətini həyata keçirən müxtəlif dövlət orqanlarının səlahiyyətləri çərçivəsində tətbiqi, xarici dövlətlərin təcrübəsinin müasir tələblərə uyğunlaşdırılması şərti ilə həyata keçirilməsi, mövcud problemlərin həlli sahəsində Azərbaycanın reallıqları mövcud nəzarət sistemini təkmilləşdirməyə imkan verən şəraitdir.

**Əsas mətn:**

Maliyyə nəzarəti ictimai həyatın müxtəlif sahələrində dövlət orqanlarının əsas fəaliyyət istiqamətlərindən biri hesab olunur. Maliyyə fəaliyyətinin qanunauyğunluğunun yoxlanılması, onun rasionallığının və məqsədəuyğunluğunun qiymətləndirilməsi, maliyyə vəsaitlərinin təyinatı üzrə

düzgün xərclənməsinin müəyyən edilməsi dəqiq maliyyə nəzarəti sisteminin yaradılmasını tələb edir. Bu problemin həlli hazırda dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi prosesində əsas yer tutur. Düzgün təşkil edilmiş nəzarət sistemi ölkənin maliyyə sabitliyinin təmin edilməsində aparıcı rol oynayır [1]. Fikrimizcə, maliyyə nəzarətini təkmilləşdirmək üçün aşağıdakı problemləri həll etmək vacibdir:

- maliyyə nəzarəti sistemi hüquqi bazanı aydın və tam müəyyən etməlidir;
- dövlət maliyyə nəzarəti orqanlarının təşkilati strukturu dövlət strukturunun xüsusiyyətlərini kifayət qədər əks etdirməlidir;
- ölkədə bütün maliyyə nəzarəti subyektlərinin statusunu və əhatə dairəsini dəqiq müəyyən etmək lazımdır;
- nəzarət orqanları bir-biri ilə qarşılıqlı əlaqəni daha da gücləndirməlidir.

Müasir iqtisadi şəraitə uyğun olaraq maliyyə idarəetmə sistemlərinin yaradılmasında maliyyə nəzarətinin rolunu qiymətləndirmək olmaz. Bu baxımdan maliyyə nəzarətinin əhəmiyyətini və rasionallığını artırmaq üçün onun davamlı olaraq təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsini məqsədəuyğun hesab edirik.

Azərbaycan Respublikasında maliyyə nəzarətinin ən mühüm tərkib hissəsi olan dövlət maliyyə nəzarətinin rasionallığının təkmilləşdirilməsi və artırılmasının əsas istiqaməti onun vahid metodoloji əsaslarının, habelə dövlət maliyyə nəzarəti orqanları arasında qarşılıqlı fəaliyyət mexanizminin müəyyən edilməsidir.

İndiki mərhələdə dövlət maliyyə nəzarəti orqanları ilə icra hakimiyyəti orqanlarının qarşılıqlı əlaqə mexanizmi hələ də lazımi səviyyədə deyildir. Bundan əlavə, ali nəzarət orqanı statuslu strukturun yaradılması da kifayət qədər vacib məsələdir. Bundan əlavə, hələ də həllini tapmamış "Azərbaycan Respublikasında dövlət maliyyə nəzarəti haqqında" Qanun kimi əsas hüquqi aktın işlənib hazırlanması məsələsini də həll etmək lazımdır.

Dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyini artırmaq üçün nəzarət prosesinin təkmilləşdirilməsi çərçivəsində auditə keçmək lazımdır. Hal-hazırda dövlət vəsaitlərinin xərclənməsinin rasionallığını yoxlamaq üçün auditin aparılma-sının vahid metodu mövcud deyildir, üstəlik, dövlət maliyyəsindən səmərəli istifadə meyarları müəyyən edilməmişdir [2,3].

Maliyyə nəzarəti zamanı aşkar edilmiş hüquqpozmaların həcminin əhəmiyyətli bir hissəsi dövlət büdcəsinin vəsaitindən məqsədyönlü istifadə və ya başqa məqsədlər üçün xərclənmənin payına düşür. Belə bir şəraitdə mənimsəmənin mövcudluğunun müəyyən edilməli olduğu meyarın dəqiq müəyyən edilməməsi, dövlət maliyyəsindən qeyri-rasional istifadəyə görə məsuliyyətə cəlb edilməsi tədbirlərinin gücləndirilməsinə yönəlmiş hüquqi mexanizmin hələ də qeyri-mükəmməl qalması diqqəti cəlb edir.

Strateji proqnozlaşdırma və planlaşdırma ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı ilkin nəzarəti və uzunmüddətli dövlət proqramlarının qəbulunu tələb edir. Strateji proqnozlar auditin təkmilləşdirilməsini, bu proqnozların həyata keçirilməsi imkanlarının qiymətləndirilməsini və yekun nəticələrin əhəmiyyətini tələb edir.

Bundan əlavə, dövlət büdcəsinə daxilolmaların tam və vaxtında daxil olmasının təmin edilməsi, büdcə xərclərinin rasionallığının artırılması maliyyə nəzarətində qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsini və onun məhsuldarlığının artırılmasını tələb edir.

Respublikamızda aşağıdakı nəzarət orqanları- Azərbaycan Respublikasının Hesablama Palatası, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi, habelə Azərbaycan Respublikasının Hesablama Palatası. fəaliyyət göstərir. Fikrimizcə, onların fəaliyyətinin, habelə maliyyə nəzarətini və tənzimləməni həyata keçirən digər orqanların işini təkmilləşdirmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- yuxarıda qeyd olunan nəzarət orqanlarının fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi;
- ayrı-ayrı yüksək inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən müvafiq nəzarət orqanlarının

təcrübəsinin öyrənilməsi və bu təcrübənin tətbiqi imkanlarının müəyyən edilməsi;

- bir-birini təkrarlayan və ya oxşar funksiyaları yerinə yetirən orqan və strukturların fəaliyyətinin dəqiqləşdirilməsi, zəruri hallarda onların birləşdirilməsi;
- yuxarıda göstərilən nəzarət orqanlarının əməkdaşlarının öz xidməti vəzifələrini yerinə yetirərkən maksimum qərəzsizliyə nail olması;
- tənzimləyici orqanlar tərəfindən əsassız və təkrar yoxlamalar təcrübəsinin aradan qaldırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi;
- müvafiq nəzarət orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə təkliflərin hazırlanması və onların icrasının təmin edilməsi

Bazar münasibətləri dövlətin iqtisadiyyata müdaxiləsi imkanlarını heç də istisna etmir. Müxtəlif nəzəriyyələr də müxtəlif dərəcələrdə dövlətin iqtisadiyyata müdaxiləsinin vacibliyinə işarə edir. Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində isə liberal iqtisadiyyat şəraiti ilə müqayisədə dövlət müdaxiləsi daha aydın və daha qabarıq şəkildə özünü göstərir.

**Nəticə:**

Apardığımız tədqiqat nəticəsində belə nəticəyə gəldik ki, bazar iqtisadiyyatının tənzimlənməsində dövlətin rolunun artırılması üçün real təsir ölçüsü kimi maliyyə nəzarətinin aşağıdakı sahələrinin təkmilləşdirilməsi müsbət nəticələr verə bilər:

1. nəzarət orqanlarının statusu, sistemi, səlahiyyətləri müvafiq qanunvericilikdə aydın və dolğun şəkildə əks etdirilməlidir;
2. nəzarət fəaliyyətinin bütün iştirakçıları üçün müəyyən normaları, qaydaları və xüsusiyyətləri əks etdirən dövlət maliyyə nəzarəti standartları hazırlanmalı və qəbul edilməlidir;
3. nəzarət orqanlarının fəaliyyətinin daha yaxşı əlaqələndirilməsi üçün konkret addımlar atılmalıdır;
4. korrupsiyaya və dövlət vəsaitlərindən sui-istifadəyə görə inzibati və cinayət məsuliyyətini daha da təkmilləşdirmək lazımdır;
5. ilkin və cari dövlət maliyyə nəzarətinin həyata keçirilməsi sistemi qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla yenidən işlənməlidir;
6. dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin nəticələrinin uçotunun ümummilli sistemi yaradılmalıdır;
7. dövlət maliyyə nəzarəti orqanları ilə hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi sahəsində yol verilmiş pozuntulara vaxtında cavab vermək, habelə birgə yoxlamalar haqqında məlumatların ötürülməsi üçün qanunvericilikdə müəyyən tənzimləmənin həyata keçirilməsi zəruridir;
8. bütün dövlət maliyyə nəzarəti orqanları üçün iqtisadi fəaliyyət sahəsində hüquqpozmaların və cinayətlərin uçotunun aparılması üçün ümumi məlumat bazasının yaradılması zəruridir;
9. nəzarət orqanları işçilərinin sosial şəraitinin yaxşılaşdırılması üçün müəyyən tədbirlər həyata keçirilməlidir;
10. dövlət nəzarəti aparatının işçilərinin dövri attestasiyasının və onların rotasiyasının aparılması, kadrların hazırlanması və yenidən hazırlanmasının müasir, təkmilləşdirilmiş sistemini yaratmaq lazımdır.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Bağırov M.M., Bağırov F.D. İqtisadiyyatın tənzimlənməsində pul-kredit siyasətinin rolu və bank gəlirlərinin vergiyə cəlb edilməsinin təkmilləşdirilməsi. Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu elmi-praktik konfransın materiallar, Bakı, Şamaxı 5 iyun 2015-ci il.
2. Ələkbərov Ə., Məmmədov Z., Hüseynova A. “Maliyyə bazarları”. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: 2021,- 232 s.
3. Овсянников Л.Н. Государственный финансовый контроль: подходы к стандартизации. // Финансы, 2010.-s.15.

**Xəqani Əyyub MƏMMƏDLİ**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: khaganimammadli1999@gmail.com

## TƏCHİZAT ZƏNCİRİNİN İDARƏEDİLMƏSİNİN İŞ PERFORMANSINA TƏSİRİ

**Summary**

Perfect supply chain management has a huge impact on a company's economic performance. Here, proper planning, communication, and use of new technologies, when properly implemented, increase the income of this enterprise and increase its competitiveness both in the local market and in the global markets. In order to increase the efficiency of production, to increase the quality of the produced product, to correctly evaluate the demand and supply criteria and manage the enterprise accordingly, it is important to manage the supply chain carefully, following modern trends, to deliver the product to the right place at the right time.

**Key words:** Supply chain, business, performance, management

**Giriş:**

Təchizat zəncirinin idarə edilməsi və anlaşılması müəssisələr üçün çox vacib məsələdir. Düzgün həyata keçirildikdə, müəssisələrin gəlirliliyini artıra, xərclərini minimuma endirə, ən əsası isə müştərilərə təklif olunan məhsul və ya xidmətin keyfiyyətini və dəyərini artıra bilər. Buna görə də, maliyyə hesabatlarında və göstəricilərində görülən gəlirlilik və xərc kimi dəyərlərə əlavə olaraq, iş performansına birbaşa təsir edən və müştəri dəyəri yaradan fəaliyyətləri araşdırmaq vacibdir. Effektiv təchizat zəncirinin idarə edilməsinin biznes performansına təsirini müxtəlif sahələrdə görmək olar. Bu kontekstdə, effektiv təchizat zəncirinin idarə edilməsinin biznes performansına təsir sahələrinin bəziləri aşağıda verilmişdir.

**Əsas mətn**

Keçmiş tədqiqatlarda istehsalın səmərəliliyini artırmaq üçün məhsulun maya dəyərini azaltmaq üçün ümumiyyətlə materialların ən münasib qiymətə alınmasına diqqət yetirilmişdir. Bununla belə, bu gün əsas xərc maddəsinin istehsal əməliyyatlarının dizaynı olduğu bildirilir [1]. Buna görə də, təchizat zəncirinin idarə edilməsinin əsas məqsədi xammal və digər daxilolma xərcləri, logistika xərcləri, obyekt investisiya xərcləri, istehsal xərcləri, paylama mərkəzi xərcləri, anbar daşıma xərcləri, obyektlərarası nəqliyyat xərcləri və tələb olunan logistika xərcləri kimi xərc maddələrini minimuma endirməkdir [2]. Düzgün planlaşdırılmış təchizat zənciri təkcə resurslardan səmərəli istifadəni təmin etmir, həm də tələb və istehsal şəraitində gözlənilməz dəyişikliklərə tez uyğunlaşmaq imkanı təklif edir. Bu yolla müəssisənin daxili səmərəliliyini və istehsal səmərəliliyini artırmaq olar.

Təchizat zəncirinin idarə edilməsini uğurla həyata keçirən müəssisələr məhsullarını son istehlakçıya daha tez çatdıra və tələblərə daha çevik cavab verə bilərlər. Bütün tədarük zənciri proseslərini birləşdirərək, məhsulların müştəriyə çatdırılması üçün lazım olan vaxtı minimuma endirirlər [3]. Bu yanaşma müştəri məmnuniyyətini artırır və xidmət keyfiyyətini artırır. Hər bir müəssisənin tədarük zəncirində bazar tələbləri və istehsal problemləri fərqlidir. Ona görə də bizneslər bu xüsusi şərtləri nəzərə alaraq strategiyalarını müəyyən etməlidirlər. Müştəri məmnuniyyətini təmin etmək üçün qeyri-müəyyənlikləri, xüsusilə də qeyri-müəyyən çatdırılma tarixlərini aradan qaldırmaq vacibdir. Təchizat zənciri üzvləri arasında məlumat mübadiləsinin koordinasiyası və sinxronlaşdırılması qeyri-müəyyənliyi azaltmaqla müəssisələrə inventarlara daha az sərmayə qoymağa kömək edir [4]. Bu, effektiv təchizat zəncirinin idarə edilməsinin əsas üstünlüyüdür. Koordinasiya və sinxronizasiya sayəsində qeyri-müəyyənliklər aradan qaldırılır, təchizat zəncirinin iştirakçıları arasında məlumat axını artır və müəssisələrin çatdırılma performansı yaxşılaşır.

Qloballaşmanın gətirdiyi çətinliklərə baxmayaraq, müəssisələr bu vəziyyəti üstünlüyə çevirmək üçün müştəriləri ilə daim əlaqə saxlayırlar. Müştəri tələblərinin necə dəyişdiyini və gələcək ehtiyacların necə inkişaf edə biləcəyini izləmək vacibdir. Dəyişiklikləri və inkişafları izləyərək müştəri məmnuniyyətini ən yüksək səviyyədə saxlamaq biznesin davamlılığı üçün lazımdır. Bu

yanaşma bizneslərə qlobal təchizat şəbəkəsində yeni məhsullar inkişaf etdirməklə rəqiblərini qabaqlamağa və yeni müştərilər qazanmağa imkan verir. Tələbin idarə edilməsi prosesi müştəri ehtiyaclarının və biznesin tədarük həcminin tələb proqnozu ilə tarazlaşdırıldığı və istehsalla əlaqəli bütün şöbələrin bu proqnozla koordinasiya edildiyi bir prosesdir. Gözlənilməz vəziyyətlərin planlaşdırılması və idarə edilməsi kimi proseslər istehsal, satınalma və paylama kimi şöbələrin əməkdaşlığı ilə həyata keçirilir[4]. Müştəri tələbinin qeyri-müəyyən olduğu situasiyalarda istehsalçıların öz təchizatçıları ilə sıx əlaqələr qurması və qəfil situasiyalarda birgə səylər göstərməsi vacibdir. Buna görə də, tələbin ödənilməsi səviyyəsini artırmaq üçün təchizatçı seçiminə diqqət yetirilməlidir.

Təchizat zəncirinin idarə edilməsinə və biznesin performansına təsir edən digər mühüm amil məhsulun keyfiyyətidir. Müəssisələr istehsal prosesi zamanı yenidən işləmə, qırıntılar, tullantılar və itirilmiş vaxt kimi xərcləri artıran amillərlə qarşılaşa bilər. Buna görə də, tədarükçülərdən yüksək keyfiyyətli məhsulların alınması xərcləri azaltmaq və maliyyə göstəricilərini yaxşılaşdırmaq üçün çox vacibdir. Keyfiyyətsiz məhsulların istifadəsi son məhsulun keyfiyyətinə mənfi təsir göstərir və müəssisənin istehsal və nəzarət xərclərini artırır [5]. Keyfiyyətsiz məhsulların istifadəsi qısa müddətdə müəssisələr üçün xərcləri aşağı saxlaya bilsə də, ümumi xərcləri artıra, imicinə xələl gətirə və uzunmüddətli perspektivdə bazar payını azalda bilər. Buna görə də qeyd edildiyi kimi, təchizatçılardan təqdim olunan keyfiyyətli məhsullar sayəsində müştəri məmnuniyyəti təmin edilərək xərclər azalır, maliyyə göstəriciləri yüksəlir və əməliyyat performansı artırılır. Nəticədə, təchizat zəncirinin idarə edilməsində keyfiyyətli məhsulların istifadəsi biznesin performansına müsbət töhfə verir.

**Nəticə:**

Təchizat zəncirinin idarə edilməsi müəssisələr üçün əhəmiyyətli rəqabət üstünlüyü təmin edir. Müştəri tələblərinin düzgün idarə edilməsi məhsulların sürətli və effektiv tədarükü və müştəri məmnuniyyətinin artırılmasını təmin edir. Bu prosesdə tədarük zənciri daxilində əməliyyatların inteqrasiyası və koordinasiyası böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, təchizat zəncirinin idarə edilməsinin müvəffəqiyyəti biznesə xərcləri azaltmağa və maliyyə göstəricilərini yaxşılaşdırmağa imkan verir. Məhsulun keyfiyyəti bu prosesdə mühüm amildir. Keyfiyyətli məhsulların istifadəsi biznesin ümumi xərclərini azaltsa da, keyfiyyətsiz məhsulların istifadəsi uzunmüddətli perspektivdə xərcləri artıra və biznesin nüfuzuna xələl gətirə bilər. Buna görə də, təchizat zəncirinin idarə edilməsində keyfiyyətli məhsulların istifadəsi biznesin performansına müsbət təsir göstərir və rəqabət üstünlüyü təmin edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Zalluhoğlu, A. Erhan. (2007). Tedarik Zincir Yönetiminde Dış Kaynak Kullanımı, (Yüksek Lisans Tezi). Ege Üniversitesi. Sosyal Bilimler Enstitüsü. İzmir. ss.26.
2. Güleş, H. K., Öğüt, A. & Paksoy, T. (2005). İşletmelerde Tedarik Zinciri Yönetim Sistemi Etkinliğinin Artırılmasında Kurumsal Kaynak Planlaması'nın Rolü. *Sosyal Ekonomik Araştırmalar Dergisi*. 5(9): 90-106.
3. Türköz, Ö. (2007). Tedarik Zinciri Yönetiminde Dağıtım Gereksinim Planlaması (Yüksek Lisans Tezi). İstanbul Üniversitesi. Sosyal Bilimler Enstitüsü. İstanbul. ss.22.
4. Özdemir, A.İ. (2004). Tedarik Zinciri Yönetiminin Gelişimi, Süreçleri Ve Yararları. Erciyes Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. 23: 87-96
5. Erdem, G. (2013). Tedarik Zinciri Yönetimi Uygulamalarının Benimsenmesinin, Tedarik Zinciri ve İşletme Performansına Etkisi. (Yüksek Lisans Tezi). Hitit Üniversitesi. Sosyal Bilimler Enstitüsü. Çorum. ss.18-31.

**Cabarova Turan MEHYƏDDİN**
Qərbi Kaspi Universiteti
E-mail:turan.cabarova@wcu.edu.az

# TURİZMİN İNKİŞAFINDA SOSİAL ŞƏBƏKƏLƏRİN ROLU

**Summary**

This study examined the possibilities of using social networks in various fields. It has been determined that the development of information technology has recently brought innovation to the tourism sector. It is shown that faster dissemination of information, faster and cheaper advertising on social networks gives an additional impetus to the development of tourism. New opportunities have emerged on these platforms, especially for introducing new spaces. Media information about several tourist centers of Azerbaijan was collected and their statistical analysis was carried out, showing the tourism potential of Azerbaijan.

**Key words:** teurism, development, media, fields

## Giriş:

Turizm son dövrlərdə ən çox öyrənilən və reakreasiya coğrafiyasının əsas tədqiqat istiqamətlərindən biridir. Ona görə də bu istiqamətdə geniş tədqiqatlar aparılır. Bu elm sahəsi həm iqtisadi coğrafiya, həm də əhali coğrafiyası ilə sıx bağlıdır. Məlumdur ki, hər bir turuzm zonasının inkişaf etdirmək üçün həmin bölgənin tarixi, coğrafiyası, mədəni dəyərlərinin öyrənilməsi çox vacibdir. Turizm təkcə insanların səyahətlarinin təşkilinə xidmət etmir, həm də insanların dünyagörüşünün inkişaf etdirilməsinə, onların müxtəlif sahələr üzrə mariflədirilməsinə yardımçı olur. İndiki dövürdə turizmin təşkilini kultroloji proseselərdən ayrı təsəvver etmək mümkün deyildir. Tətbiqi kulturologiya elmi turizmə kulturologiyanın böyük bir sahəsi və asudə vaxt şəraitində sosial mədəni fəaliyyətin bir növü kimi yanaşır.Turizmin inkişafında sosial medianın rolu tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, hər hansı bir bölgədə turizmin inkişaf etidirilməsi üçün sosial mediyanın imkanlarından yararlanmaq, həmin bölgə haqqında insanlar arasında məlumatların yayılmasına dəstək olur. Ona görə də son zamanlarda sosial medianın turizmə təsiri müxtəlif istiqamətlərdə araşdırılmaqdadır [1,2]. Məlumdur ki, Azərbaycanın geniş turizm potensialı vardır. Qafqaz dağları və Xəzər dənizi həm qız turizmini, həm də yay turizmini inkişaf etdirməyə imkan verir. Meşələr və çaylar ilə zəngin olan bölgələrdə turizm üçün geniş imkanlar vardır. Bu istiqaməti inkişaf etmək üçün insanlar (turistlər) məlumatlandırılmalıdır. Təqdim edilən işdə turizmin inkişafında sosial şəbəkənin rolu araşdırılmışdır.

## Əsas mətn:

Azərbaycanın turizmə yararlı və ya turizm profilli bir ölkəyə çevrilməsi dunyada tanınması üçün həm iqtisadi, həm də siyasi cəhətdən mühümdür. Məlumdur ki, 44 günlük müharibədən sonra artıq Azərbaycana olan inam və maraq daha da artmışdır. Qarabağda olan mədəni-irsi abidələr, onlara dəymiş zərər xarici turustlər üçün çox maraqlıdır. Digər tərəfdən Qarabağın səfalı təbiəti də turistləri cəlb edir. Ona görə də bu bölgədə yeni turzmin qurulması həm iqtisadi gəlirlərin əldə edilməsi baxımından, həm də siyasi məqsədlər üçün çox əlverişlidir. Lakin bu işin təşkili üçün müasir metodlardan istifadə edilməlidir. Belə metodlardan biri də sosial media, o cümlədən sosial şəbəkələr üzərindən təbliğatın aparılmasıdır. Məlumdur ki, informasiya texnologiyalarının inkişaf etməsi səbəbindən son illər bir çox axtarışlar sosial şəbəkələr üzərindən həyata keçirilir. Sosial şəbəkələr üzərindən turist zonaların şəkillərinin paylaşılması, onların daha çox görünməsinə şərait yaradır.
2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtında Ümumdünya Turizim Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv qəbul olunmuşdur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, hər il ölkəmizdə 27 sentyabr Turizm günü kimi qeyd edilir. Respublikamızın prezidenti, cənab İlham Əliyevin 2016-cı il sentyabrın 1 də

imzaladığı Sərəncama əsasən Dünya Turizm Günü ölkəmizdə "Turizm işçiləri günü" kimi qeyd olunur. Bununla bağlı müxtəlif xarakterli tədbirlər, turizm ixtisasına həsr edilmiş konfransları, turizm sahəsinə aid müxtəlif layihələr həyata keçirilir. Azərbaycanda turizm müasir həyat tərzinin və mədəniyyətin mühüm atributlarından biri, beynəlxalq əlaqələrin qurulması və inkişafında mühüm rol oynayan amil kimi inkişaf etdirilir. Azərbaycanın müxtəlif bölgələrində mehmanxanalar (otellər), istirahət mərkəzləri, idman kompleksləri fəaliyyət göstərməkdədir. "Şahdağ" turizm mərkəzi son illərdə qış turizminin inkişafı mərkəzlərindən birinə çevrilmişdir. "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun mədəni tarixi və etnoqrafik məkan olaraq qorunması və turizm imkanlarının inkişaf etdirliməsi üçün "Xınalığın inkişf proqramı" layihəsi işlənib hazırlanmışdır. Azərbaycanın mədəniyyət və incəsənət beşiyi olan Şuşada tarixi "Xarıbülbül" Festivali və "Xarıbülbül" oteli yenidən yaradılmışdır. Ölkə rəhbərliyinin nəzarəti altında Şuşa şəhəri tarixi simasını saxlamaqla ən müasir formada bərpa edilir, müasir standartlara cavab verən turizm infrasturuktoru yaradılır. Tarixi məkanlarımız olan İsa bulağı, Turşsu, Səkili bulağı, Soyuqbulaq və.s təbiət möcuzələrinə sahib olan Şuşa şəhəri yaxın illərdə nəinki Azərbaycanın, eləcə də bütün türk və islam dünyasının o cümlədən Qafqazın ən gözəl turizm mərkəzlərindən biri olacaqdır [3]. Bu turizm potensialını nəzərə almaqla, mütləq şəkildə turizm iqtisadiyyatı və turizm siyasəti formalaşmalıdır. Belə ki, turistlər üçün tarixi simvollarımızı əks etdirən əşyalar hazırlanmalı, maraqlı mənzərələrə malik olan yerlərimizin kolleksiyaları hazırlanmalı və sosial şəbəkələr üzərindən yayınlanmalıdır.

**Nəticə**

Azərbaycanın turizm potensialı araşdırılmış, turizmin inkişafı metodları təyin edilmişdir. Göstərilmişdir ki, tarixi, coğrafi, iqtisadi və siyasi amillərə əsasən ölkəmizin kifayət qədər yüksək turizm potensialı vardır. Son zamanlar informasiya texnologiyalarının, o cümlədən sosial şəbəkələrin insan faktoruna təsiri araşdırılmış və müəyyən edilmişdir ki, sosial şəbəkələrin hazırda turizmin inkişafına böyük dəstəyi vardır. Ölkəmizin hazırki turizm potensialını sosial şəbəkələrdən istifadə edərək daha da genişləndirilməsi yolları göstərilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. X. Liu, F. Mehraliyev, C. Liu, M. Schuckert, The roles of social media in tourists' choices of travel components, Tourist studies, 20, 1, P.27-48, 2020.

2. F. Mehraliyev, I.C.C. Chan, Y. Choi, M.A. Koseoglu, R. Law, A state-of-the-art review of smart tourism research, Journal of Travel & Tourism Marketing, 37, 1, P.78-91, 2020.

3. T. Tamarashvili, Of tourism development in the South Caucasus: past and present, "Intercultural Dialogues" Transactıons, 7, 2023.

**Gülnar Salman MURADZADƏ**
Ağayeva Xanım Yusif
Qərbi Kaspi Universiteti
E-mail: Muradzadegulnar7@gmail.com

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI: REAL VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

**Summary**

One of the important successes achieved by Azerbaijan in its short history of independence is related to the successful transformation to a liberal economy. Especially in the last 18 years, a strong army of entrepreneurs has been formed in our republic. It is a matter of pride that our national companies make significant contributions to the formation of the country's gross domestic product by directing large investments in various projects in industry and agriculture. Currently, the share of the private sector in GDP production in our country has increased to 80 percent, which is quite a good indicator.

At the same time, the role of business entities in expanding the integration of the country's citizens into the labor market has increased significantly.
**Key words:** GDP, economy, entrepreneurship

**Giriş**

Respublikamızda qısa müddətdə güclü milli sahibkarlar ordusunun formalaşması aparılan məqsədyönlü dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycan dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməklə özəl sektorun qeyri-neft iqtisadiyyatının drayverinə çevrilməsini hədəfləyən siyasət həyata keçirir. Prezident İlham Əliyev həmişə sahibkarların yanında olduğunu dəfələrlə bəyan edib. Dövlət başçımızın belə qətiyyətli mövqeyinə uyğun olaraq ölkəmizdə özəl sektor həm siyasi, həm də maddi cəhətdən güclü şəkildə dəstəklənir. Son illərdə dövlət başçısının imzaladığı müvafiq sənədlər əsasında reallaşdırılan islahatların böyük qismi sosial-iqtisadi məzmunludur. Həyata keçirilən islahatlar sayəsində ölkəmizdə şəffaflıq artıb, ixracın və investisiyaların səmərəli təşviq mexanizmləri işə salınıb, vergitutma bazasının genişləndirilməsi yolu ilə vergi yükü azaldılıb, daxili istehsalın dəstəklənməsinə hədəflənən çoxsaylı tədbirlər görülüb ki, bütün bunlar da sahibkarların marağında olan məsələlərdir.

**Əsas mətn**

Eyni zamanda, aparılan islahatlar çərçivəsində ölkəmizdə kiçik və orta biznesin inkişafı təşviq edilir, sahibkarlıq subyektlərinin maliyə mənbələrinə çıxış imkanları daha da genişləndirilir. Məsələn, son vaxtlardagüzəştli kreditlərin əldə edilməsi və digər maliyyə dəstəyi mexanizmlərindən istifadə ilə bağlı prosedurlar sadələşdirilib. Belə ki, sənədlər üzrə tələblər azaldılıb, 200 min manatadək kredit müraciətləri üzrə biznes plan tələbi ləğv edilib, ilkin monitorinqin keçirilməsi tələbi 20 min manatdan 50 min manata qaldırılıb. Kredit almaq üçün tələb olunan sənədlərin sayının azaldılması barədə də qərar qəbul edilib. Digər mühüm dəyişiklik sənədlərin notarial təsdiqininaradan qaldırılması ilə bağlıdır.

Bütün bu kimi islahat tədbirləri ölkə üzrə sahibkarlıq mühitinin daha da optimallaşmasına müsbət təsir göstərir. İnsanlar sərbəst şəkildə maraq göstərdikləri sahələrdə biznes fəaliyyətinə başlayırlar və yaxud mövcud sahibkarlıq subyektlərini daha da genişləndirirlər.

Respublikamızda sahibkarlara dəstək mexanizmləri də getdikcə təkmilləşdirilir və bu zaman daha çevik, sahibkara daha əlçatan olan strukturların formalaşdırılmasına üstünlük verilir. “Sahibkarlara göstərilən xidmətlərin yaxşılaşdırılması və effektivliyinin artırılması, bu sahədə operativliyin və rahatlığın təmin olunması baxımdan KOB evləri unikal modellərdəndir. Sahibkarlar üçün dövlət-biznes (G2B) və zəruri biznes-biznes (B2B) xidmətlərinin vahid məkanda göstərildiyi KOB evləri hazırda Xaçmaz və Yevlax şəhərlərində fəaliyyət göstərir”. Bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun KİV-ə açıqlamasında bildirib.

Qeyd edək ki, respublikamızda KOB-ların yaradılması yeni ideyadır. KOBİA-nın strukturuna daxil olan KOB evlərində sahibkarlara vergi, əmlak, kommunal xidmətlərə qoşulma, qida təhlükəsizliyi, kənd təsərrüfatı, reklam, poçt, mənşə sertifikatının, lisenziya və icazələrin alınması üzrə dövlət xidmətləri, eləcə də özəl sektor tərəfindən bank, sığorta, lizinq, tərcümə, layihələndirmə kimi zəruri biznes xidmətləri göstərilir. Ümumiyyətlə, KOB evlərinin hər birində sahibkarlara 20-yə yaxın dövlət və özəl qurumlar tərəfindən 200-dən çox “G2B” və “B2B” xidmətləri göstərilir. 2021-ci ilin yanvar-sentyabr aylarında Xaçmaz və Yevlax KOB evlərində dövlət və özəl qurumlar tərəfindən göstərilən xidmətlərdən 29500-ə yaxın sahibkar istifadə edib. Sahibkarların KOB evlərində göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 98% təşkil edir. Hazırda ölkə üzrə KOB evləri şəbəkəsinin genişləndirlməsi istiqamətində intensiv iş aparılır.

Ölkəmiz 2030-cu ildək olan dövrü əhatə edən yeni strateji mərhələyə daxil olub. Bu mərhələdə respublikamızda kiçik və orta biznesin daha dinamik inkişafı hədəflənib. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli müvafiq Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi təsdiqlənib. Sənədə əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılması hədəflənib. Burada, həmçinin özəl sektorun perspektiv inkişafını özündə ehtiva edən bir sıra müddəalar öz əksini tapıb.

**Nəticə**

Bu günlərdə isə Prezident İlham Əliyev “Sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Fərman imzalayıb. Sənədə əsasən müvafiq qurumların birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxs yaradılıb. Yeni strukturun formalaşdırılması iqtisadiyyatın qeyri-neft sektoruna investisiya qoyuluşunun təşviqi, sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmə sisteminin optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi, əlaqələndirmənin gücləndirilməsi, bu sahədə şəffaflığın və sahibkar məmnunluğunun daha da artırılması məqsədi daşıyır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Hüseynli İ.Q Respublikamızda kiçik biznesin mövcud vəziyyətinin statistik təhlili, “ Tikintinin menecmenti və iqtisadiyytaı” juralı, №10-12, 2023
2. OECD. Enhancing the Contributions of SMEs in a Global and Digitalised Economy. Meeting of the OECD Council at Ministerial Level Paris, 7-8 June 2017. p.24.
3. Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı. “İqtisad Universiteti” Nəşriyyatı. 2011. 370 s. 14.
4. Tərbiz N. Əliyev, Bəxtiyar V. İsmayılov Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin təşkili: reallıqlar və innovativ inkişaf. Monoqrafiya. “Elm və Bilik”. Bakı. 2018 – 224 s.

**Sadiq Elçin GÖZƏLOV**
Qərbi Kaspi Universiteti,
Maliyyə və menecment kafedrası, magistrant
E-mail: sadiqgozelov1999@gmail.com

## MÜASIR İQTİSADİ SİSTEMDƏ KİÇİK SAHİBKARLIĞIN ROLU

Summary
In this thesis, the role of small business in the modern economic system was discussed. The innovative features of small enterprises were discussed and their contribution to the economy was investigated. Also, the problems that small enterprises often face with financing were also touched upon.
**Keywords: Small business, Economic system, Small enterprises**

.

**Giriş**

Kiçik biznes müasir iqtisadi sistemdə həlledici rol oynayır, iş yerlərinin yaradılmasına, innovasiyalara və cəmiyyətin inkişafına əhəmiyyətli töhfə verir. Çox vaxt 500-dən az işçisi olan bu müəssisələr yerli iqtisadiyyatları stimullaşdırmaq və aşağı səviyyədə məşğulluq imkanlarını təmin etmək üçün çox vacibdir. Bir çox ölkələrdə kiçik bizneslər bütün müəssisələrin 90%-dən çoxunu təşkil edir və yeni iş yerlərinin əhəmiyyətli bir hissəsinin yaradılmasına cavabdehdirlər.

**Əsas mətn**

Kiçik firmaların çevikliyi onlara dəyişən bazar şərtlərinə və müştərilərin üstünlüklərinə tez uyğunlaşmağa imkan verir ki, bu da sürətlə inkişaf edən qlobal iqtisadiyyatda vacibdir. Bundan əlavə, kiçik müəssisələr yeni məhsul və xidmətlər təqdim etməklə innovasiyaya təkan verir, tez-tez daha böyük korporasiyaların gözdən qaçıra biləcəyi boşluqları doldurur [3].

Əhəmiyyətinə baxmayaraq, kiçik bizneslər onların böyüməsinə və davamlılığına mane ola biləcək unikal problemlərlə üzləşirlər. Maliyyələşdirməyə çıxış ən mühüm maneələrdən biridir, çünki ənənəvi kredit təşkilatları kifayət qədər girov və məhdud maliyyə tarixçələrini əsas gətirərək kiçik

müəssisələri çox riskli hesab edirlər. Bu problem bir çox kiçik biznes sahiblərini şəxsi əmanətlərə və ya qeyri-ənənəvi kreditorlardan yüksək faizli kreditlərə etibar etməyə məcbur edir ki, bu da artımı və innovasiyanı boğa bilər. Üstəlik, kiçik bizneslər adətən daha böyük şirkətlərə nisbətən daha az sövdələşmə gücünə malik olurlar ki, bu da özlüyündə onların təchizatçılardan və müştərilərdən əlverişli şərtləri təmin etməyi çətinləşdirir [2].

Kiçik müəssisələrin iqtisadi təsiri onların bilavasitə maliyyə töhfələrindən kənara çıxar. Onlar cəmiyyətin kimliyini və birliyini inkişaf etdirməkdə mühüm rol oynayırlar. Kiçik müəssisələr həmçinin yerli ərazilərdə məşğulluq imkanları təmin etməklə, fərdlərin iş axtarışında miqrasiya ehtiyacını azaltmaqla sosial sabitliyə töhfə verir.

Bundan əlavə, kiçik bizneslər çox vaxt davamlı və etik biznes təcrübələrində ön sıralarda olurlar. Onların miqyası onlara innovativ, ekoloji cəhətdən təmiz təcrübələri daha böyük həmkarlarından daha sürətlə həyata keçirməyə imkan verir. Məsələn, bir çox kiçik müəssisələr tullantıların azaldılması, yerli mənbələrin tapılması və davamlı materiallardan istifadə edilməsində liderlik edir və istehlakçıların məsuliyyətli biznes təcrübələri üçün artan tələbinə birbaşa cavab verir. Bu öhdəlik təkcə ətraf mühitə təsirin azaldılmasına kömək etmir, həm də şüurlu istehlakçılar arasında onların bazar mövqeyini gücləndirir [1].

Siyasətçilər kiçik biznesin iqtisadiyyatda əhəmiyyətini getdikcə daha çox dərk edirlər və müxtəlif təşəbbüslərlə onları dəstəkləmək üçün addımlar atırlar. Vergi güzəştləri, sadələşdirilmiş tənzimləmə prosedurları və maliyyəyə çıxış üçün dəstək kiçik biznesin böyüməsinə kömək etmək üçün istifadə olunan ümumi strategiyalardır. Hökumətlər və beynəlxalq təşkilatlar sağlam kiçik biznes sektorunun iqtisadi müxtəliflik və innovasiyalar üçün mühüm əhəmiyyət kəsb etdiyini qəbul edərək, bürokratiyanın kiçik müəssisələrin yükünü yüngülləşdirən siyasətləri müdafiə edirlər.

**Nəticə**

Nəticə olaraq qeyd edək ki, kiçik biznes müasir iqtisadi sistem üçün əvəzsizdir. Onlar təkcə iqtisadi məhsuldarlığa və məşğulluğa töhfə vermir, həm də cəmiyyətin rifahını artırır və innovasiyalara təkan verir. Onların üzləşdiyi problemlər, xüsusən də maliyyələşdirmə və bazara çıxış, iqtisadi spektr üzrə maraqlı tərəflərdən davamlı diqqət və fəaliyyət tələb edir. Bu problemlərin həlli təkcə kiçik biznesi dəstəkləməyəcək, həm də daha möhkəm, dinamik və dayanıqlı qlobal iqtisadiyyatı təşviq edəcək. Kiçik biznesə effektiv dəstək bu müəssisələrin inkişaf edə biləcəyi və daha geniş cəmiyyətə saysız-hesabsız şəkildə fayda gətirə biləcəyi mühiti inkişaf etdirmək üçün vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aharoni, Y. (2024). The Role of Small Firms in an Interdependent World. In Standing on the Shoulders of International Business Giants (pp. 237-261).
2. Dörr, J. O., Licht, G., & Murmann, S. (2022). Small firms and the COVID-19 insolvency gap. Small Business Economics, 58(2), 887-917.
3. Mazzarol, T., Reboud, S., Mazzarol, T., & Reboud, S. (2020). Innovation in small firms. Entrepreneurship and Innovation: Theory, Practice and Context, 131-164.

**Sardar ABDULLAYEV**
Qərbi kaspi Universiteti
**E-Mail:** serdar.abdul@mail.ru

## SƏNAYE SAHƏLƏRINDƏ RƏQƏMSAL TEXNOLOGIYALARDAN ISTIFADƏ MÜHiTiNiN XARAKTERiSTiKASI

Summary

The use of digital technologies in industries is widespread in order to increase the efficiency of industrial processes, reduce production costs and improve product quality. These technologies play an important role in increasing the competitiveness of industrial enterprises and gaining advantage in the market. The adoption of digital technologies also ensures that industrial operations are more

flexible and adaptive.Automation and robotic technologies increase the speed and accuracy of operations in industrial processes. These technologies lower operating costs and improve product quality by reducing human labor. Robots are used in assembly, welding, packaging and other operations, which increase the efficiency of production processes.IoT technologies enable the interconnection of various equipment and devices in industrial enterprises. Data collected through sensors and other IoT devices enables real-time monitoring and control of production processes. This helps to monitor the condition of the equipment, detect potential problems in time and increase operational efficiency.Data analysis and artificial intelligence technologies enable the analysis of large amounts of data in industrial enterprises. Through these technologies, it is possible to optimize production processes, increase product quality and reduce costs. AI algorithms detect anomalies and trends in processes and enable preventive measures to be taken.Digital twin technologies are used to create digital models of physical objects and processes. Through these models, industrial enterprises can simulate and optimize processes. Digital twins are widely used to monitor the condition of equipment, improve process efficiency and improve product quality.

**Key words:** Industries, Digital technologies, Automation, Robotic technologies, Internet of Things (IoT)

**Giriş**

Avtomatlaşdırma, insan əməyini minimuma endirərək istehsal proseslərini daha sürətli və dəqiq hala gətirir. Süni intellekt, qərar qəbul etmə proseslərini təkmilləşdirir və kompleks istehsal proseslərinin optimallaşdırılmasına imkan yaradır. Böyük məlumat analitikası, geniş məlumat dəstələrinin təhlili vasitəsilə əməliyyatların effektivliyini artırır və yeni imkanlar aşkar edir. Bulud hesablama, məlumatların saxlanması və emalı üçün geniş imkanlar təmin edərək, müəssisələrin məlumatlara daha asan və təhlükəsiz şəkildə əlçatan olmasını təmin edir. IoT isə müxtəlif avadanlıqlar və sistemlər arasında əlaqəni təmin edərək, real vaxtda məlumat mübadiləsini və nəzarəti mümkün edir [2,s.6].

Rəqəmsal texnologiyaların tətbiqi həm də sənayedə yeni iş modellərinin və biznes strategiyalarının yaranmasına gətirib çıxarır. Bu, müəssisələrə innovativ yanaşmalarla bazarda öz mövqelərini gücləndirməyə imkan verir. Bununla yanaşı, rəqəmsal transformasiya prosesində kadrların rəqəmsal bacarıqlarının artırılması və müvafiq infrastrukturun yaradılması kimi məsələlər də mühüm əhəmiyyət kəsb edir.

Sənayedə rəqəmsal texnologiyaların tətbiqi, müəssisələrin çevikliyini və adaptasiya qabiliyyətini artıraraq, onların bazar dəyişikliklərinə və tələblərinə daha tez cavab verməsini təmin edir. Beləliklə, rəqəmsal texnologiyalar sənaye müəssisələrinin inkişafı və dayanıqlılığı üçün vacib bir amil olaraq çıxış edir.

Rəqəmsal texnologiyaların sənayedə tətbiqi yalnız istehsal proseslərinin təkmilləşdirilməsi ilə məhdudlaşmır. Bu texnologiyalar eyni zamanda təchizat zəncirinin idarə olunması, məhsul keyfiyyətinin artırılması, enerjinin səmərəli istifadəsi və işçi təhlükəsizliyinin təmin edilməsi kimi sahələrdə də mühüm rol oynayır [7,s.22].

**Əsas mətn**

Rəqəmsal texnologiyaların sənayedə tətbiqi müəssisələrin rəqabət qabiliyyətini artırmaqla yanaşı, ümumi iqtisadi inkişaf və innovasiya üçün də güclü təkan rolunu oynayır. Bu prosesin uğurlu həyata keçirilməsi isə yalnız texnoloji yeniliklərdən deyil, həm də insan resurslarının və idarəetmə strategiyalarının adekvat uyğunlaşmasından asılıdır [11,s.23].

Sənayedə rəqəmsal texnologiyaların tətbiqi, müəssisələrin daha effektiv və rəqabətqabiliyyətli olmasına kömək edir. Bununla birlikdə, bu texnologiyaların tətbiqi zamanı bir sıra konseptual məsələlərlə qarşılaşılır.

Sensor texnologiyaları, istehsal xətlərində real vaxt rejimində məlumat toplayaraq, proseslərin optimallaşdırılmasına imkan verir. Bu, xətaların azalmasına və enerji sərfiyyatının düşməsinə səbəb olur. Lakin, başlanğıc xərclərin yüksək olması və texniki təlimatların lazım olması kimi çətinliklər mövcuddur [9,s.19].

Big Data və analitik alətlər, məhsul keyfiyyət nəzarəti kimi sahələrdə məlumatların dəqiq toplanmasını və qərar qəbul prosesinin yaxşılaşdırılmasını təmin edir. Bu texnologiyaların tətbiqi, keyfiyyət yüksəkliyini və məhsul itkisinin azalmasını sağlayır. Buna baxmayaraq, məlumat təhlükəsizliyi və saklanması kimi mühüm məsələlər həllini tələb edir.

**Nəticə**

Bu tədqiqat, Azərbaycan sənayesində rəqəmsal texnologiyaların tətbiqinin mövcud vəziyyətini və inkişaf imkanlarını təhlil edərək, rəqəmsal texnologiyaların səmərəliliyinin artırılması üçün konkret istiqamət və vasitələri müəyyən etmişdir. Tədqiqat nəticəsində əldə olunan əsas nəticələr aşağıda təqdim olunur.

Müasir sənaye müəssisələri üçün rəqəmsal texnologiyalar, rəqabət qabiliyyətini artırmaq və əməliyyat səmərəliliyini yüksəltmək üçün əsas vasitələrdən biridir. Rəqəmsallaşma prosesləri, istehsalın avtomatlaşdırılması, böyük məlumatların təhlili, süni intellekt və IoT kimi qabaqcıl texnologiyaların tətbiqi ilə sənaye müəssisələrində inqilabi dəyişikliklər yaradır.

Azərbaycan sənayesində rəqəmsallaşmanın uğurlu tətbiqi üçün güclü və etibarlı bir texnoloji infrastrukturun yaradılması vacibdir. Bu infrastruktur, rəqəmsal texnologiyaların səmərəli istifadəsini təmin etməklə yanaşı, müəssisələrin əməliyyat səmərəliliyini və rəqabət qabiliyyətini artırır.

Rəqəmsal texnologiyaların uğurlu tətbiqi üçün işçi qüvvəsinin təlim və inkişafı vacibdir. Müəssisələr, işçilərinə rəqəmsal texnologiyalar və onların tətbiqi barədə geniş təlim proqramları təqdim etməlidirlər. Bu təlimlər, işçilərin rəqəmsal texnologiyalardan səmərəli şəkildə istifadə etməsinə və yenilikləri mənimsəməsinə kömək edir.

Beynəlxalq səviyyədə aparılan tədqiqatlar və qabaqcıl təcrübələr, rəqəmsal texnologiyaların sənaye sahələrində uğurlu tətbiqini göstərir və bu texnologiyaların Azərbaycanda tətbiqi üçün nümunə ola bilər. Bu təcrübələrin öyrənilməsi və yerli şəraitə uyğun tətbiqi, Azərbaycan sənayesində rəqəmsallaşma prosesini sürətləndirə bilər.

Rəqəmsal texnologiyaların səmərəliliyinin artırılması üçün avtomatlaşdırma və robot texnologiyaları, böyük məlumatlar və analitika texnologiyaları, IoT və sensor texnologiyaları, süni intellekt və maşın öyrənməsi, kiber təhlükəsizlik kimi əsas istiqamətlərə diqqət yetirilməlidir. Həmçinin, təlim və inkişaf proqramları, innovativ texnologiyaların tətbiqi və əməkdaşlıq və şəbəkələşmə kimi vasitələr də mühüm rol oynayır.

Tədqiqatın nəticələri əsasında, Azərbaycan sənayesində rəqəmsal texnologiyaların tətbiqinin səmərəliliyini artırmaq üçün konkret təkliflər və strategiyalar hazırlanmışdır. Bu strategiyalar, rəqəmsallaşma prosesində qarşılaşdıqları çətinlikləri aradan qaldırmağa və onların əməliyyat səmərəliliyini yüksəltməyə kömək edəcək.

Azərbaycan sənayesində rəqəmsal texnologiyaların tətbiqi və onların səmərəliliyinin artırılması üçün əsas istiqamət və vasitələri müəyyən etməyə imkan verir. Tədqiqatın nəticələri, sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və əməliyyat səmərəliliyini yüksəltmək üçün vacib töhfələr verəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. R.M. Əliquliyev "İqtisadi proseslərdə informasiyatexnologiyaları" "Elm" nəşriyyatı, Bakı, 2002
2. "Azərbaycanın Respublikasının rabitəsi: Statistik məcmuə" "Səda" nəşriyyatı, Bakı, 2014
3. Abbasov Ə., Əlizadə M.,Seyidzadə E., Salmanova M. "İnformatika və kompüterləşmənin əsasları" Bakı, 2006
4. Telekomunikasyon sektöründe yeni trendler ve yeni ekonomi açısından değerlendirmeler- Selin Posbıyıklı, İstanbul 2007
5. Telekomunikasyon sektöründe maliyetleme ve maliyete dayalı fiyatlandırma yaklaşımları : Türk Telekomünikasyon AŞ için bir model önerisi- doktora tezi, Vedat Ekergil, 2005
6. Telekomünikasyon şebekelerinde oyun teorisi yaklaşımı- doktora tezi, Selçuk Arslan, 2006
7. Türk Telekomünikasyon sektöründe rekabete dair hususlar, Arif Esin,
8. Telecommunications regulation : An introduction, Nicholas Economides, 2004.

9. Əliquliyev R.M., Əliyev A.Q. Azərbaycanda İKT-nin ümumi vəziyyəti və inkişaf istiqamətləri. 1-ci MRF-nin materialları. Xarkov, 2002;
10. Əliyev A.Q. Rəqəmsal iqtisadiyyatın formalaşması. Rep. Elmi Konf. "O vaxtdan. İnformasiyalaşdırma, kibernetika və İT problemləri". III cild. Bakı, 2003;
